Yeniyetmələrin milli-mənəvi dəyərlərə məhəbbət ruhunda tərbiyəsi üçün ədəbiyyat, Azərbaycan tarixi, coğrafiya, musiqi, təsviri incəsənət fənlərinin proqram və dərsliklərində kifayət qədər material vardır. Lakin bu məqsədlə standartın məzmununa uyğun olaraq ayrı-ayrılıqda hər bir dərsin optimal yol və vasitələrini müəyyənləşdirmək, onlardan müntəzəm, həm də səmərəli istifadə etmək lazımdır.

Tədris prosesində milli-mənəvi və bəşəri dəyərlərə şüurlu münasibətin formalaşdırılması məqsədi ilə məktəblərdə dərslərin və sinifdənxaric tədbirlərin müşahidəsinin aparılması, əldə edilən nəticələrin analitik təhlil edilməsi, digər məktəblərin və ya ölkələrin təcrübələri ilə müqayisə edilməsi, müəllim, şagird və valideynləri arasında sorğu və müsahibələrin keçirilməsi bu sahədə uğurlu nəticələrin əldə edilməsini təmin edər.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN HUMANİST TƏRBİYƏSİNİN MAHİYYƏTİ VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

**Afiq Əliyev**
**dosent**
**Mirmurad Mirhəsənli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**qi.afiq1958@mail.ru**
**symrmmddv@gmail.com**

**Açar sözlər:** humanizm, xeyirxahlıq, qayğıkeşlık, milli dəyər, mənəvi inkişaf

Humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunmasıdır. Məktəbəqədər tərbiyə müəssisələrində işləyən tərbiyəçi-müəllimlər öz işlərini dərindən bilməli, və uşaqları hər zaman hərtərəfli inkişaf etdirməlidir. Humanist tərbiyə indiki sosial diskursda əhəmiyyətli yer tutan bir mövzudur. Bu, bəşəriyyətin tarixi boyunca həmişə mövcud olan mövzulardan biridir. Tarixən Azərbaycan və dünya mütəfəkkirləri humanist tərbiyə ilə bağlı fikirlər söyləyib, Nizami Gəncəvi, Nəsrəddin Tusi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə gənc nəslin humanizm ruhunda tərbiyə olunması üçün sanballı əsərlər yazıblar. Mənəvi və əxlaqi dəyərlərin potensial ötürülməsi həmişə diqqəti cəlb edib. Ona görə də etika və dəyərlər gələcək nəsillərə qoya biləcəyimiz ən yaxşı mirasdır.

Məktəbəqədər yaşlı uşaqların humanist tərbiyəsi təlimatlar, qaydalar, pedaqoji texnika isə şərtlər məsələsidir. Onları aşağıda təqdim edirik. Onlar məktəb təhsilinə və əsasən, hər gün təhsilalanların mənəvi dəyərlərinin tərbiyəsi ilə məşğul olan peşəkarlara-müəllimlər ünvanlanır. Bağçada fəaliyyət göstərən tərbiyəçilər uşaqların şəxsiyyətinə hər zaman hörmətlə yanaşmalı, onların ləyaqətlərini alçaltmamalıdırlar. Tərbiyəçi tərəfindən uşaqlara verilmiş tapşırıqları, uşaqlar səhv yerinə yetirdiyi halda onların üstünə qışqırmamalı, səbir və təmkinli davranmalı bir sözlə humanistlik nümunəsi göstərməlidir. Tərbiyəçi-müəllimin davranışları xeyirxah olmalı, tənqidə yol verilməməlidir. Müəllimlərindən tərif eşitmək xatirinə çalışan uşaqlarda, bir növ asılılıq yaranır. Onlar tərif üçün çalışır, səyləri nəzərə alınmayanda isə, oxumur və passivləşirlər. Deməli, təhsil uşağı gələcək həyat üçün hazırlayırsa, humanist yanaşma daha düzgün hesab olunur.

Humanizm şəxsiyyətin mənəvi, əxlaqi möhkəmliyinin zəruri şərtidir. İnsanpərvərlik, insana həssaslıq, onun köməyinə gəlməyə hazır olmaq – insanlığın ləyaqətliliyinin bu sadə əlamətlərini hər bir uşaq kiçik yaşlarından qazanmalı, onların nailiyyəti, şəxsi əxlaqi sərvəti olmalıdır. Humanistliyi olmayan tərbiyəçi tələbkarlıqda nəyəsə nail olsa da, uşaqların qəlbinə yol tapa bilmir. Uşaqların sevgisini, rəğbətini qazana bilmir. V.A.Suxomlinski yazırdı: "Tərbiyəçinin ən qiymətli keyfiyyətlərindən biri insanlıqdır, uşaqlara dərin məhəbbətdir, atanın, ananın səmimi nəvazişi ilə müdrik ciddiliyini və tələbkarlığını özündə birləşdirən məhəbbətdir. Uşaqların humanizm ruhunda tərbiyə olunması onlarda əxlaqi-mənəvi zənginliyin, əxlaqı saflığın, ruhi gözəlliyin ifadə formasıdır.

Böyük alim N.Tusi qeyd edirdi ki, uşaq xoşa gəlməyən hərəkətləri daha çox edir, müəllimi əsəbləşdirməkdən ləzzət alır. Buna görə də uşağın xarakterindəki mənfi cəhətləri, müsbət keyfiyyətlərə çevirmək lazımdır. Şübhəsiz ki, təlim prosesində şagirdlərin hərəkətlərindəki nöqsanlara qarşı mübarizə zəruridir. Uşaqların müsbət keyfiyyətlərə yiyələnməsinə, xeyirxah motivlərinə, insanlara humanist münasibət formalaşdırılmasına

diqqət yetirmək vacibdir. Humanistlik insan şəxsiyyətində yer tutan ən vacib keyfiyyətlərdən biridir. Uşaqların bu keyfiyyətlərə sahib olması – insansevərlik, xeyirxahlıq, vətənpərvərlik, başqalarının dərdinə şərik olmaq, yaxın dost-tanışlarına, ətrafına bir şəxsiyyət kimi dəyər vermək kimi insani keyfiyyətlər onun şəxsiyyətində olmasıdır. Yuxarıda qeyd etdiyimiz yüksək mənəvi keyfiyyətlərin yetişməkdə olan gənc nəslə məktəbəqədər yaş dövründən başlayaraq və anlaq səviyyəsinə uyğun olaraq aşılanması və tədricən onun ahəngdar inkişafının təmin edilməsi zəruri şərtdir.

Humanizm tərbiyəsində vətənə sədaqətlilik nümunəsinin bir qolunu təşkil edən milli orduya məhəbbət hisslərinin bağça yaşlı uşaqlara aşılanmasında tərbiyəçilərin rolu böyükdür. Vətənə sadiqlik tərbiyəsi mühüm bir mənəvi dəyər kimi həmişə xalqımızın övladlarını düşündürmüş, Azərbaycanın maarifçi ziyalıları, şair və yazıçıları, mütəfəkkir övladları öz əsərlərində doğma yurdun gözəlliklərini sonsuz məhəbbətlə vəsf etmişlər. İnsanpərvərliyin müasir dövrdə kiçik yaşlı uşaqlara aşılanması vacib olan yüksək humanist keyfiyyətlərdən biridir. Azərbaycan maarifçilərinin yetişən nəslin humanizm tərbiyəsində misilsiz xidməti vardır. Bütün dünyanın müqəddəs kitabı "Qurani Kərim"də, eləcə də Məhəmməd peyğəmbərin(ə.s) kəlamlarında humanizm və insanpərvərliklə bağlı yüksək fikirlər söylənilir.

Humanizmin və insanpərvərliyin əlamətlərinin öncə ailədə, məktəbəqədər tərbiyə müəssisələrində formalaşmışdır. Uşaq bağçasında uşaqların humanizm tərbiyəsində Azərbaycan uşaq ədəbiyyatından istifadə olunması olduqca zəruridir. İnsanpərvərlik mənəvi baxımdan insanlar arasında münasibətin ən vacib formalarından biridir. Uşağın ailə üzvlərinə, qohum-qonşuya, başqa insanlara, o cümlədən yaşlılara, böyüklərə, qadınlara, əlillərə, ümumən insanlara hörmət etməsi, insanların ləyaqət və şərəfinin yüksək qiymətləndirilməsi, onlara münasibətdə diqqətli, həssas və qayğıkeş olması əsl insanlıq nümunələridir.

Nizami Gəncəvi özünün zəngin və hərtərəfli yaradıcılığı ilə bəşəriyyəti daim düşündürən humanist, əxlaqi ideyaları tərənnüm etmişdir. Ədalət, sülh, insanpərvərlik, mərhəmət, mənəviyyat, xeyirxahlıq, əməksevərlik, dostluq, qardaşlıq və s. əxlaqi keyfiyyətlər Nizami yaradıcılığında əsas yer tutur. Buna görə də Nizaminin əsərləri səkkiz əsrdən artıqdır ki, həmişə olduğu kimi, bu gün də aktual və müasirdir. Nizamini tarix boyu dünyada şöhrətləndirən onun "Xəmsə" adlı beş əsəridir. Dahi sənətkarın əsərləri qüvvətli tərbiyəedici gücə malik olduğundan uzun illər boyu onun əsərləri nəsillərin tərbiyəçisi olmuş, yeni nəsillər ondan müdrik məsləhətlər almış, dəyərli öyüdlər qazanmışlar. Nizami poeziyası adamları humanistliyə, xeyirxahlığa, yaxşılığa, darda qalanlara kömək etməyə çağırır. Nizaminin fikrincə, sən başqasına kömək edərsənsə, başqası da bir gün sənə köməyini əsirgəməz.

# QİYMƏTLƏNDİRMƏ STRATEGİYALARINA VERİLƏN TƏLƏBLƏR

**Afiq Əliyev**
**dosent**
**Sevin Hüseynzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**qi.afiq1958@mail.ru**
**sevinhuseynzade@gmail.com**

**Açar sözlər:** qiymətləndirmə strategiyası, qiymətləndirmə, özünüqiymətləndirmə

Ümummilli lider Heydər Əliyev müstəqil dövlət quruculuğu işində təhsil və tərbiyənin mühüm rola malik olduğunu həmişə vurğulamışdır. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır"– deyən H.Əliyev təhsil siyasətinə dövlət prinsiplərinin əsası kimi yanaşıb. Bu siyasətin uğurla həyata keçirilməsində pedaqoji işin təşkilinin göstəricisi kimi qiymətləndirmə strategiyasının üzərinə böyük vəzifələr düşür.

Qiymətləndirmə işini eyni zamanda pedaqoji prosesin tamlığını təmin edən əsas şərt kimi də qəbul etmək olar. Təbii olaraq, səmərəli nəticənin alınmasına doğru gedən yolda bir neçə tələblərə əməl olunması vacibdir. Həmin tələblər sırasında validlik prinsipi mühüm yer tutur. Validlik prinsipi qiymətləndirmə üçün tərtib olunan sualların tədris olunan mövzuların məzmunundan seçilməsini tələb edir. Validlik prinsipinin səmərəsi geniş və əhatəlidir. Burada birinci şərt tədris olunan mövzuların içindən sualların tərtib olunmasıdır.

Qiymətləndirmə strategiyasında nəzərdə tutulan digər tələb etibarlılıq prinsipinin gözlənilməsidir. Bu prinsip əldə olunan nəticələr arasında uyğunluluğu tələb edir. Təbii prosesdir ki, obyektiv nəticənin davamlılığı şagirdin nailiyyət səviyyəsinin əsas göstəricisidir. Əgər şagird birinci keçirilən KSQ-də yüksək bal toplamışsa, növbəti KSQ-lərdə həmin bala uyğun səviyyə nümayiş etdirməlidir. Nəticələrin 2-5 bal arasında dəyişilməsi qəbul olunan haldır. Yəni, şagirdin təlim nəticələri ilə nailiyyət göstəriciləri arasında kəskin fərq müşahidə olunursa, deməli, qiymətləndirmədə etibarlılıq prinsipi pozulmuş hesab olunur.

Uyğunluluq prinsipinin gözlənilməməsi şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesində meyarların seçilməsində çətinlik yaradır. Digər tərəfdən, uyğunluq prinsipinin gözlənilməməsi qiymətləndirmə prosesində obyektivliyə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Onu da qeyd etməliyik ki, qiymətləndirmədə uyğunluq prinsipinin gözlənilməməsi, şagirdin davamlı fəaliyyətinə əsaslı maneələr yaradır. Bunu nəzərə alaraq qiymətləndirmədə uyğunluq prinsipinə əməl edilməli, şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün tərtib olunan suallar tədris olunan mövzuların mahiyyətindən seçilməlidir.

Şagird nailiyyətlərinin ölçülməsi həm mürəkkəb, həm də çətin hesab olunan prosesdir. Bu fakt ona görə qeyd olunur ki, şagirdin bütün fəaliyyətinin rasional ifadəsi öz əksini qiymətdə tapır. Qiymət həm nəticənin, həm də fəaliyyətin real göstəricisidir. Burada qeyd olunan qiymətləndirmə strategiyası təkcə şagirdin intellekt səviyyəsinin göstəriciləri deyil, qiymətləndirmə həm də müəllimin pedaqoji fəaliyyətinin real ifadəsidir desək, səhv etmərik. Çünki, müəllim şagirdlərin qazandığı qiymətlər sayəsində pedaqoji fəaliyyətin nə dərəcədə səmərəli olduğunu müşahidə edir. Bu mənada qiymətləndirmə prosesində obyektivlik, aşkarlıq və sistematiklik prinsiplərinə həmişə əməl olunmalıdır. Fikrimizcə, qeyd etdiyimiz prinsiplər üzrə pedaqoji fəaliyyətin təşkili şagirdlərin nailiyyət səviyyəsinin dəqiq, düzgün və obyektiv ölçülməsinə geniş, sosial-psixoloji zəmin yaradacaqdır.

Məsələnin əsas tərəflərindən biri də qiymətləndirmə üsul və vasitələrinin dəqiq və düzgün seçilməsidir. Seçilən üsul və ona uyğun müəyyənləşdirilən vasitələr şagird nailiyyətlərinin rasional şəkildə qeydə alınmasında mühüm şərtdir. Müxtəlif yönümlü səbəblər şagird nailiyyətlərinin qiymətləndirilməsində mənfi faktor kimi özünü göstərir. Bu sırada müəllimin yanaşmasında subyektivlik, meyarların düzgün müəyyənləşməməsi, səbəb-nəticə əlaqələrinin nəzərə alınmaması və sinfin ümumi səviyyəsinin realizə edilməməsi üstünlük təşkil edir. Əlbəttə ki, mənfi amillər kompleksinin qarşısının alınmasında dərsin aparıcı subyekti kimi müəllimin rolu inkaredilməzdir.

Yuxarıda qeyd etdiyimiz kimi, mənfi təsirlərin qarşısının alınması obyektiv yanaşma şəraitində reallaşa bilir. Bu nəticənin əldə edilməsi üçün şagirdlərdə özünüqiymətləndirmə bacarığının formalaşdırılması və sinifdə qarşılıqlı qiymətləndirmə mühitinin yaradılması da arzuolnan nəticənin əldə olunmasına doğru seçilən optimal yoldur.

Düşünürük ki, qiymətləndirmə prosesində verilən rəylər konstruktiv səpkidə olmalı və şagirdi gələcək nailiyyətlərə stimullaşdırmalıdır. Bu baxımdan qiymətləndirmə prosesi təhsil siyasətində mühüm əhəmiyyət kəsb edir. Təhsil siyasətinin vacibliyi müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin “Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz” ifadəsində öz əksini tapır.

## BEŞBARMAQ DAĞININ ƏFSANƏLƏRİN TARİXLƏ BİRLƏŞDİYİ MƏKAN KİMİ TƏRƏNNÜMÜ

**Anar İbrahimov**
**elmi işçi**
**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**“Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu**
**ibrahimov.11.09.97@gmail.com**

**Açar sözlər:** Turizm, ornitoloji turizm, arxeoturizm, infrastruktur, potensial

Fövqəladə bir duruş, buludların arasından görünən əzəmətli bir dağ, iqlimə hökm edən görnüşə sahib bu sirli abidənin bütün diqqəti dalğalanan Xəzərin üzərindədir. Bu məkan hər kəsin şimalın sonsuz üfüqlərinə üz tutduğu yolun kənarında özünə tarixi bir səltənət qurmuşdur.

Hər kəs zaman-zaman haqqında söz açacağımız tarixi yer barəsində əfsanəvi hadisələr eşidib. Bu isə həmin yerə qarşı olan marağın daha da artmasına gətirib çıxarır.

Söhbət hələ də tədqiq edilən və əfsanəfi tarixi gündən-günə özünə böyük diqqət çəkən Beşbarmaq dağından gedir. Onun mistik ruhu isə bütün Siyəzənin havasında sanki süzülür və sirli yerlərə səyahət yalnız heyrətamiz bir şəhərin təəssüratlarını artıracaq. Qeyri-adi və sirli hər şeyin əsl biliciləri mütləq keçmişin əfsanələri ilə tanış olmalıdırlar.

İnsanlar Beşbarmağın müqəddəs məkan olduğuna və rəvayətə görə, ümid və arzuların gerçəkləşdiyi yer olduğuna inanır.

Hələ qədim zamanlarda Beşbarmaq dağı Qafqaz Albaniyasının sakinlərinin ibadət yeri olub. Bunun izahı çox sadədir. Hələ monodinlərin - yəhudiliyin, xristianlığın və islamın yaranmasından əvvəl, hətta atəşpərəstlikdən, daha sonra isə zərdüştilikdən əvvəl qədim insanlar bu gün çoxlarının unutduğu bir dinə - orolatriyaya etiqad edirdilər.

Bu, dağ zirvələrinə, qeyri-adi formalı qayalara və ayrı-ayrı iri daşlara sitayişdir. Qeyri-adi olan hər şey ilahiləşdirildi, buna görə də sərbəst dayanan yüksək qayaların arzuları yerinə yetirə biləcəyinə inam yarandı.

Beşbarmaq çoxlu sirləri, mifləri, əfsanələri özündə saxlayır. Bəzi alimlərin fikrincə, "Beşbarmaq" dağının adı əl barmaqları ilə bağlı deyil, tamam başqa etimologiyaya malikdir. Məsələ burasındadır ki, XVIII əsrə qədər Quba xanlığının tərkibində olan yeddi mahaldan biri olan Bərmək mahalı burada yerləşirdi.

İndi isə gələk bu fövqəladə görnüşə sahib dağ haqqında olan əfsanələrə.

Bildiyiniz kimi, İsgəndərin fars cariyəsi olan Barsina III Daranın bütün sarayı ilə birlikdə onun yanına gəldi (O, Makedoniya padşahlarının sülaləsinin sonuncu varisini dünyaya gətirdi.). O, İsgəndərə Əhəməni imperiyasının kənarında ölməzlik suyu ilə bulaq haqqında danışdı.

Bunu bilən hökmdarı ən yaxşı döyüşçünü çağırıb onu möcüzəli su üçün Beşbarmaq dağına göndərdi. Amma qayıdarkən döyüşçü küpəni sındırdı. Döyüşçü edamdan qorxaraq yerli sənətkarlara eyni qabı düzətdirdi və onu adi su ilə doldurdu. Saxtakarlıqdan şübhələnməyən İsgəndər gəmini qurutdu və bayquşun ölümsüzlüyünə inanırdı. Buna görə də Hindistana səfəri zamanı o, qorxmazlıq möcüzələri göstərdi. Lakin yeni yürüşdən 5 gün əvvəl o, dəhşətli qızdırma ilə xəstələndi və tezliklə öldü.

Dağ haqqında təkcə əfsanələr deyil, həm də bir çox səyyahlar da öz əsərlərində qeydlər ediblər. XIII əsr fransız səyyahı V. Rubrukun qeydlərində də xatırlanır. Beşbarmaqdan qalan qala divarı düz Xəzər dənizinə qədər uzanırdı. VII əsr coğrafiyaşünasları bu divarı Atlı Van divarı adlandırmışlar. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu qala Şirvan bölgəsini Xursan ölkəsindən ayırıb.

XVII əsrdə Şərqi Azərbaycanda olmuş holland səyyahı Yan Streys yazırdı: "Biz dənizin yaxınlığında bir dağ gördük. Onu Parmah və ya Barmah adlandırırdılar. Dağın zirvəsi uzanmış şəhadət barmağına bənzəyirdi. Bir vaxtlar bu ərazilərin müdafiəsi kimi xidmət edən möhtəşəm bir qala var idi. Bu qalanın bünövrəsi və daş bulağı bu günə kimi burada qorunub saxlanılıb".

Alban tarixçisi Musa Kalankatlu yazır ki, Beşbarmaq üzərində qalan qala 438-457-ci illərdə Sasani hökmdarı Yezdegird tərəfindən tikilmişdir.

1636-1638-ci illərdə indiki Azərbaycan ərazisində olmuş alman səyyahı Adam Oleari də öz yazılarında bu dağı təsvir etmişdir.

Ümumiyyətlə, daşların özləri daha çox maraq doğurur, onların bir çoxu qəribə formadadır, bəziləri hava şəraitinin təsiri altında çatlamış, digərləri çökmüş, digərləri isə yağış və su axınları nəticəsində boşluqlar almışlar. Qayaları araşdırarkən, sanki qılıncla iki hissəyə bölünmüş bir daş blok görünür. Yaxınlıqda böyük bir daşın üzərində kiçik, lakin uzun bir çökəklik var idi. Yerli əhalinin dediyinə görə, bu yerdə (yalnız cümə günləri) müqəddəs şirin su axır ki, Xızır peyğəmbərin göz yaşları ona müalicəvi güc verir. Təbii ki, bu su kondensasiya və ya yağış prosesində toplana bilər, sonra da daşlardakı çatlar və yarıqlardan sıza bilər.

Beşbarmaq ətrafında çoxlu qeyri-adi formalı daş və qayalıqlar olduğunu adi gözlə görmək olar. Alimlərin fikrincə, dağın ətrafında aparılan qazıntılar sayəsində qədim yaşayış məskənlərinin qalıqları, qab-qacaq və məişət əşyaları nümunələri aşkar edilib ki, bu da insanların bu ərazidə uzun müddət məskunlaşdığını təsdiqləyir. Bu faktı karvansaranın xarabalıqları, qala divarları və yerli qəbiristanlıq, qədim yaşayış məskənlərinin qalıqları da təsdiq edir. Bura yaxın qonşu kiçik dağların zirvələrində Beşbarmaq dağına bənzər kiçik qayalı massivləri görünür. Bu onu deməyə əsas verir ki, belə qayalıq massivlər bu ərazi üçün xarakterikdir. Lakin Beşbarmaq dağı onların ən böyüyü və əzəmətlisidir.Buna görə də

insanlara fövqəltəbii güc, sehrli xüsusiyyətlər və qeyri-real bir şey bəxş edir. Bəlkə də burada mövcud olan enerji insanları bu dağın möcüzəvi xüsusiyyətlərinə inandırır.

Sonda qeyd edək ki, hazırda Beşbarmaq ərazisi turizm destinasiyası kimi həm yerli, həm də xarici turistlərin diqqət mərkəzindədir. Yerli turistlər daha çox bu yeri dini nöqteyi-nəzərdən dəyərləndirsələr də, digər ölkələrdən gələn qonaqlar isə abidənin tarixinə və təbii xarakteristikasına maraq göstərirlər. Onu da əlavə etmək yerinə düşər ki, Beşbarmaq dağı ərazisi paytaxt Bakıya yaxın yerdə yerləşdiyi üçün böyük turizm prespektivinə malikdir.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİNDƏ PEDAQOJİ KADR HAZIRLIĞI

**Arif Məmmədov**
**professor**
**Anar Kişizadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**arif.amea61@gmail.com**
**anarkishiyev7@gmail.com**

**Açar sözlər:** elm, maarif, qızıl kitab, ixtisaslaşma, inkluzivlik

Müstəqilliyin ilk illərində bir-birini əvəzləyən müvəqqəti hakimiyyətlərin düzgün olmayan siyasətinin nəticəsində ölkənin digər əhəmiyyətli sahələri kimi Azərbaycan elm-təhsili də böhranla qarşılaşdı. Təhsil sahəsində ağır tənəzzül dövrü başlamış oldu. Azərbaycandan xaricə «beyin axını» gücləndi, elm və təhsil sahəsində çalışanlar ölkədə ən çətin vəziyyətdə yaşayan və ən nüfuzsuz sosial kateqoriyalara çevrilərək xırda biznesin artan nüfuzu qarşısında miskin duruma düşdülər, Azərbaycan elmi, təhsili uğursuz eksperimentlərin meydanına çevrildi.

Heydər Əliyev Azərbaycanın əsas sahələrindən biri olan təhsilin milli əsaslar üzərində müasir dünya təhsil sisteminə inteqrasiyasını əsas vəzifə kimi yenidən aktuallaşdırdı. Bu məqsədi reallaşdırmaq üçün mütərəqqi islahatları sistemli olaraq həyata keçirdi. Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir vətəndaşın pulsuz icbari təhsil almaq hüququ təsdiq edildi. Bununla yanaşı səviyyəli təhsil uğrunda ədalətli rəqabət şəraitini yaratmaq məqsədilə bu sahədə özəl sektorun inkişafına şərait yaradıldı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan elmi son illərin məhrumiyyətlərindən azad olaraq öz qəddini düzəltdi, uçurumdan geriyə doğru addımlayaraq özünü sahmana saldı, dirçəliş yoluna qədəm qoydu. Vətəndən uzaq düşüb bir tikə çörək dalınca xaricə üz tutan istedadlı alimlərimiz tədricən geriyə qayıtmağa başladılar. Elmlər Akademiyasının fəaliyyətində yeni istiqamətlər müəyyənləşdi və 1997-ci ilin 31 yanvarında böyük öndərimizin akademiyanın bir qrup aparıcı alimi ilə keçirdiyi tarixi görüşdən sonra faktiki olaraq ötən əsrdə Elmlər Akademiyasının inkişafının üçüncü mərhələsi başlandı. Heydər Əliyev həmin görüşdəki çıxışında çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərh olunmasının dövlət üçün mühüm əhəmiyyət kəsb etdiyini bir daha diqqətə çatdırdı. Azərbaycan elmi qarşısında dayanmış əsaslı problemlərə toxunub onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji

məsələlərlə məşğul olmağı tövsiyə edərək, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürdü. Bütün bu tövsiyələr Azərbaycan elminin inkişafı məqsədinə hesablanmış fərman və sərəncamlarla müşayiət olunmuş, Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir.

30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli sərəncamlarla AMEA Rəyasət Heyəti və Akademiyanın bütün işçilərinin əmək haqqları bir neçə dəfə artırılmış, 2002-ci ilin 12 avqustunda AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalanmış, böyük Öndərimizin sədrliyi ilə Naxçıvan Ali Məclisinin iclas zalında bu bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirilmişdir.Hər il test üsulu ilə yüksək bal toplayıb ali məktəblərə qəbul edilən tələbələr də ümummilli liderimiz Heydər Əliyevin diqqətindən kənarda qalmırdı. O, həmin tələbələr üçün xüsusi Prezident təqaüdünün, eləcə də istedadlı gənclər üçün Fəxri təqaüdlərin, «Qızıl kitab»ın təsis olunmasını reallaşdırdı. Bu gün Azərbaycan müasir, inklüziv və qlobal miqyasda rəqabətə davamlı bir dövlətə baxışını əks etdirən güclü təhsil sisteminə malikdir. Onun təşəbbüslərinin təsiri azərbaycanlı tələbələrin uğur hekayələrində və ölkənin beynəlxalq arenada əldə etdiyi nailiyyətlərdə aydın görünür. Heydər Əliyevin Azərbaycan təhsilinin transformasiyasındakı rolu onun uzaqgörənliyinin və milli tərəqqiyə sadiqliyinin sübutu idi. O, dövrünün çağırışlarını həll etməklə və dinamik təhsil sisteminin əsasını qoymaqla Azərbaycanın XXI əsrdə inkişafını davam etdirməsini təmin etdi. Onun təhsil islahatlarının əks-sədaları bilik və tərəqqi toxumlarının çiçəklənməkdə davam etdiyi Azərbaycan məktəb və Universitetlərinin dəhlizlərində səslənir.

## AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ BİLİKLƏRİN YOXLANIMASININ MÜASİR FORMASI

**Arif Məmmədov**
**professor**
**Səid Sultanov**
**magistrant**
**Lənkaran Dövlət Universiteti**
**saidsultanov10@gmail.com**
**arif.amea61@gmail.com**

**Açar sözlər:** bacarıq, geniş cavab, bilik, yoxlama

Hazırda ümumi təhsil sahəsində aparılan islahatların məqsədi təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdən ibarətdir. Bununla əlaqədar olaraq ilk növbədə təhsilin məzmununa, müəllimin hazırlığına və yoxlama sisteminə yenidən baxılması vacibdir. Məktəblilərin biliklərinin yoxlanması tarixin tədrsi metodikasında mürəkkəb problemlərdən biridir. Biliklərin yoxlanması şagirdlərin tədris fəaliyyətinə nəzarət edir. Şagirdlərin biliyi hesaba alınır, qiymətləndirilir, materialın dərk ediləmsini həyata kecirir. Bununla yananşı biliklərin yoxlanılması prosesində müəllim həmdə öz işinin nəticəsini yoxlayır. Yoxlama müntəzəm xarakter aldığında şagirdlərin fəallaığı azalmır. Yoxlama imkan veririki məktəblilər həm də öz nəticələrini görsünlər. Müəllim bilikləri yoxlayan

zaman şagirdlərin cavabına rəy verməli,alınmış biliklər əvvəki biliklərlə əlaqələndirilməli, suallardan və tapşırıqlardan çox istifadə edilməli, hər bir şagirdə differensial yanaşmalıdır.

Tarixi biliklərin yoxlanılması zaman məlum olur ki, mövzu onlarda hansı hissləri tərbiyə edir, öz şəxsiyyətinin formalaşmasına necə təsir göstərir. Xususilə tarix müəllimlərinin borcu şagirdlərdə dərin və möhkəm biliklərlə yanaşı onlarda vətən qarşısındakı vətandaşlıq və ictimai borcunu yerinə yetirmək, Vətənə məhəbbət hissi yüksək səviyyədə təşkil olunmalıdır.

Şagirdlərədə bilik və bacarıqların yoxlanılması formaları əsasən aşağadakılardır;

1.Geniş cavab

Şagirdlərin bu formada nitqinin inkişafında mühüm rol oyanyır. Mətn və illusturasiyaların köməyi ilə şagirdlər nağıllar hazırlayıb danışa bilər. Məsələn Azərbaycan tarixi VI sinif dərsliyində "Azərbaycan qədim ölkədir" mövzusunda şagirdlərdə biliklərin yoxlanılması üçün orada olan qədim insana aid şəkillərin birindən istifadə edərək şagirdlərin biliklərini yoxlamaq olar. Şagird bu şəkilə uyğun nağıl qurub danışır. Bu zaman müəllim müşahidəci rolunda iştirak etməməli, şagirdə istiqamət verməlidir. Şəkili təsvir edən zaman müəllim suallar da verə bilər. Müəllimin mövzuya uyğun şəkil seçməsi vacibdir. Lakin bu forma çox vaxt apara bilər.

2.Qısa cavab

Yoxlamanın bu formasında dərsin məzmunu qısa şəkildə müəllimin sualları əsasında yoxlanılır. Bu zaman daha çox şagirdə sual vermək olur və şagird də qısa şəkildə cavab verməlidir. Məsələn Azərbaycan tarixi VII sinif dərsliyində "Xürrəmilər hərəkatı" mövzusunda müəllim şagirdə bu sualları verə bilər: Babək kimdir? Babək kimlərə qarşı vuruşurdu? I Həmadan və II Həmadan döyüşü nə vaxt olmuşdur və kimlər qalib gəlmişdir? I Həşdadsər və II Həşdadsər döyüşü nə vaxt olmuşdur və kimlər qalib qalib gəlmişdir? Bəzz döyüşündə kimlər qalib gəldi? Afşin kim idi? Xürrəmilər hərəkatı niyə məğlub oldu? Şagirdlər suallara cavab verməyə çətinlik çəkdikləri zaman qrup yoldaşları kömək edə bilər. Şagirdin sualına yoldaşları tərəfindən rəy verilməsi böyük əhəmiyyətə malikdir.

3.Yazılı yoxlama

Yazılı yoxlama formasında şagirdlər inşa, yazı işləri referatlar hazırlaya bilərlər. Bu yoxlama üsünlunda şagirdlər müəllimin verdiyi mövzuya aid inşa qurabilərlər. Məsələn, VII sinif Azərbaycan tarixi dərsliyində "Səfəvilər dövlətinin yaranması" paraqrafında Şah İsmyıl haqqında kicik bir inşa qura bilərlər.. Bu forma həm şagirdlərin biliklərini möhkəmləndirir həm də ki müəllim rahat şəkildə kecirilən mövzu ətarfında şagirdin biliklərini yoxlayır. Təxminən bir rübdə şagirdləri bir-iki dəfə yoxlanılması məqsədəuyğun hesab edilir.

4.Qrafik yoxlama

Bu formada şagirdlərin qrafiklər, cədvəllər və sxemlər üzərində işləməsi vacibdir. Bu usullar şagirdin xronoloji biliklərin yoxlanması üçün daha əhəmiyyətli ola bilər. Məsələn; Müəllim kağız üzərində hazırlanmış zaman oxunda Azərbaycan tarixi üzrə mühüm tarixi hadisələrin ilini verir. Şagirdlərin vəzifəsi isə bu tarxilərdə hansı mühim hadisələrin olduğunu qeyd etməkdən ibarətdir. Bu usulla şagirdlərin həm xronoloji bilikləri yoxlanır, həm də şagird unutmuş olduğu tarixi hadisəni yadına salır. Qrafik yoxalama üsülundan müəllim VIII sinif Azərbaycan tarixində Səfəvi-Osmanlı müharibələrinə uyğun sxem tərtib edib şagirdlərin biliklərini effektiv şəkildə yoxlaya bilər.

Yoxlama sagirdlərin tədris fəaliyyəytinin yoxlanmasıdır. Yoxlama zamanı şagirdlərin bilikləri, bacarıqları və onların inkişafı,həmçinin biliylərin möhkəmliyi, şüurluğu yoxlanılır. Biliklərin yoxlanılması şagirdlərə nəinki tərbiyəvi təsir göstərir həm də onların səylə çalışmağa sövq edir.

# XX ƏSRIN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MÖVZUSUNUN TƏDRİSİ METODİKASI (1993-2003)

**Arif Məmmədov**
**professor**
**Şaiq Əsədov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**arif.amea61@gmail.com**
**shaiq_asadov@gmail.com**

**Açar sözlər:** mədəniyyət, elm, turizm, memarlıq, arxiv

Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Belə nadir tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi-analitik təfəkkürü, ensiklopedik nəzəri və praktiki biliyi, fitri istedadı, dahi müdrikliyi və əyilməz, polad siyasi iradəsi ilə seçilən, müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin xüsusi yeri vardır.İllər keçdikcə Azərbaycan xalqının bu məğrur oğlu, ümumbəşər tarixinin dahi şəxsiyyəti, onun siyasi və mənəvi örnəyə çevrilmiş ləyaqətli həyat yolu, tarixi əhəmiyyət kəsb edən böyük xidmətləri zamanın sınağından çıxmış strateji xətti daha aydın görünərək insanları, bütün bəşəriyyəti daim heyrətdə qoymaqda davam edir. Danılmaz bir həqiqətdir ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin şərəfli adı ilə birbaşa bağlıdır. Çünki bü dövrün özünü məhz Heydər Əliyev yaratmışdır. O, var qüvvəsini Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı və memarı olmuşdur. Bütün digər sahələrdəki kimi, onun dahiyanə uzaqgörənliyi, mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz iz qoymuşdur.

Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmasından sonra vəziyyət köklü surətdə dəyişdi. O vaxtdan etibarən Azərbaycanın gələcək inkişafının strategiyası və əsas parametrləri müəyyənləşdirildi, dövlət həyatının bütün sahələrinin, o cümlədən mədəniyyət siyasətinin modernləşməsi və transformasiyası mərhələsi başlandı. Artıq bu gün yeni mədəniyyət siyasətinin təşəkkül tapması, onun məqsəd və prinsiplərinin dəqiqləşməsi, müasir tələblərə cavab verməsi ən vacib və təxirəsalınmaz problemlər sırasında diqqəti cəlb edir. Elmi cəhətdən əsaslandırılmış həmin siyasət nəticəsində mədəni inkişafın ardıcıllıq, varislik, millilik, orijinallıq, Azərbaycan xalqının təkrarsız mədəniyyət genofondunun saxlanılması, eyni zamanda açıqlıq və demokratiklik ideyaları təbliğ edilir və fəal şəkildə həyata keçirilir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müasir dünya elmində və praktikasında mövcud olan bir sıra modellər sırasından mədəniyyətlərin dialoqu modeli seçilərək ölkəmizdə qəbul edilib. Həmin model Azərbaycanın tərəf müqabili qismində ümumdünya mədəni prosesdə iştirakına əsaslanır və respublikamızda optimal sosiomədəni dinamikanın dəstəklənməsinə imkan yaradır.

1993-2003-cü illər ərzində yeni mədəniyyət siyasətinə uyğun olaraq dövlət tərəfindən çoxsaylı və mühüm əhəmiyyətli işlər görülmüşdür. İlk növbədə, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların hazırlanmasına ciddi diqqət yetirilmişdir. Bir sıra qanunlar, o cümlədən “Mədəniyyət haqqında”, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Turizm haqqında”, “Nəşriyyat işi haqqında”, “Muzeylər haqqında”, “Arxiv fondu haqqında”, “Memarlıq fəaliyyəti haqqında” qanunlar, bir sözlə, 2003-cü il daxil olmaqla 21 qanun Milli Məclisdə qəbul edilmiş və ölkə Prezidenti tərəfindən

təsdiqlənmişdir. Təhsil və səhiyyə sistemlərində islahatlara başlanılmış, elm, ədəbiyyat və mətbuatda ideoloji senzura ləğv olunmuş, idmanda böyük uğurlar əldə edilmişdir.Azərbaycan dövləti mədəniyyət sahəsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, o cümlədən, "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Arxeoloji irsin qorunması haqqında" konvensiyalara qoşulmuşdur. 1997-ci ildə Mədəniyyət haqqında Avropa Konvensiyasını ratifikasiya etdikdən sonra Azərbaycan Avropa Şurasının Mədəniyyət, Siyasəti üzrə Departamenti ilə də yaxından əməkdaşlıq edir. Nəticədə bir sıra maraqlı proqramlar həyata keçirilmişdir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan UNESCO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə də uğurlu əməkdaşlıq edir. Bunun nəticəsi olaraq 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi "İçərişəhər", "Şirvanşahlar" sarayı və "Qız qalası" ilə birlikdə həmin mərkəzin siyahısına daxil edilmişdir.2003-cü ildən sonra isə dahi Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında indiki dövrün tələblərinə müvafiq olaraq çox uğurla davam etdirilir və innovasiyalarla zənginləşdirilir. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin son dərəcə böyük siyasi-mədəni əhəmiyyətə malik İstiqlal Bəyannaməsinin Azərbaycan və fransız dillərindəki itirilmiş orijinal nüsxələrinin axtarılıb tapılaraq Vətənə qaytarılması məhz ölkə Prezidenti İlham Əliyevin yorulmaz səyləri nəticəsində mümkün olmuşdur.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI ƏRƏFƏSİNDƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏT

**Asif İmanlı**
**dosent**
**Mehman Kərimov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**asif.imanli1974@mail.ru**
**mehmankerimov2001@gmail.com**

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, milli-azadlıq hərəkatı, seym, istiqlaliyyət

Müsəlman Şərqində ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranması təsadüfi olmamışdır. Məlum olduğu kimi, çarizmin Azərbaycanın şimalını işğalına qədər Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri mövcud olmuşdur. Lakin 1828-ci ildə Azərbaycanın şimalı çar Rusiyası tərəfindən işğal edildikdən sonra tamamilə yeni bir şərait yarandı. Azərbaycan ərazisi iki yerə bölündü.Şimali Azərbaycan çarizmin müstəmləkə siyasətinə məruz qaldı.İşğaldan sonra müstəqillik şüurunun və onun daşıyıcılarının sistemli şəkildə məhvinə başlandı.

Çar Rusiyası dövründə Azərbaycana ermənilərin, rusların və digər xalqların köçürülməsi təkcə demoqrafik dəyişikliklərin deyil, o cümlədən sosial və milli ziddiyətləri də kəskinləşdirirdi. Böhran anlarında məhz köçürülənlər çarizmin müstəmləkə siyasətinin dayaq nöqtəsinə çevrilirdilər.

1905-1907-ci illər Rusiya burjua demokratik inqilabı və ondan sonra baş verən proseslər Azərbaycanda burjua demokratik inqilabının obyektiv və subyektiv şərtlər yaratdı. Bu dövrdə bütün dünyada gedən ictimai-siyasi hərəkatlarda əsasən iki böyük cərəyan – milli-azadlıq hərəkatı, millətçilik və sosial-demokratiya mövcud idi. Həmin məqsədlərə uyğun olaraq Azərbaycanda ictimai və siyasi təşkilatlar yaradıldı. Milli-azadlıq hərəkatı son nəticədə imperiyaların dağılması, zülm altında yaşayan xalqların azad olunması və müstəqil dövlətlərinin yaradılması məqsədini daşıyırdısa, sosial-demokratiya hərəkatı isə daha çox rejimlərin dəyişilməsini qarşıya məqsəd qoyurdu. Azərbaycan xalqının milli-azadlıq hərəkatının öndərləri "Difai", "Müsavat", sosial-demokratiyanın təmsilçisi isə "Hümmət" təşkilatı yarandı. Müxtəlif cərəyanları təmsil edən partiyaların mövcudluğu Azərbaycan siyasi tarixinin zənginliyini və çoxtərəfliliyini göstərirdi.

Çarizm Azərbaycanda pantürkçüləri və panislamçıları, müstəqillik tərəfdarlarını amansızlıqla təqib edirdi. Müstəmləkə zülmü altında yaşayan xalqların Birinci dünya müharibəsi illərində sosial-iqtisadi həyatları daha da ağırlaşdı. Müharibənin sonlarında yaranmış gərgin şəraitdə Azərbaycanın istiqlaliyyəti uğrunda ziyalılarımızdan Əli bəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Məhəmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və b. müstəsnalıq təşkil edirdi. 1917-ci ilin fevralında Rusiyada çarizm devrildi. Müvəqqəti hökumət quruldu. Oktyabr ayında isə bolşeviklərin hakimiyyətə gəlməsi üçün şərait yaratdı. Noyabr ayının əvvəllərində Bakıda bolşeviklər hakimiyyəti ələ aldılar. S.Şaumyan başda olmaqla Bakı Soveti Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti yeridirdi. Bakıda sovet hakimiyyəti elan edildikdən bir neçə gün sonra Cənubi Qafqazın aparıcı siyasi qüvvələri – azərbaycanlı, gürcü və erməni siyasi xadimləri Tiflisdə yerli özünü idarə orqanı olan Cənubi Qafqaz Komisssarlığını yaratdılar.Komissarlıq Rusiyada Müəssislər Məclisində hakimiyyət məsələsinin həllinə kimi ,yaradılmış özünü idarə orqanı kimi fəaliyyətə başladı. 1917-ci il noyabrın 26-da Rusiya Müəssislər Məclisində seçkilərdə bolşeviklərin Cənubi Qafqazda sosial bazasının məhdud olduğu aydın oldu. Bolşeviklər Bakıda keçirilən seçkilərdə məğlub oldular. Lakin Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məslisinə seçilən deputatlar Petroqaddan V.Leninin başçılıq etdiyi bolşeviklər tərəfindən qovulduqdan sonra deputatlar 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqaz Seymini (parlamenti) yaratdılar. Seymdə Azərbaycan fraksiyası 44 nəfərdən ibarət idi. Həmin ilin aprelin 22-də Seym Cənubi Qafqazın müstəqilliyini elan edərək Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratdı.

Cənubi Qafqaz Seymi və Bakı Soveti xalqın maraqlarına və təhlükəsizliyinə təminat vermirdi. Odur ki, Seymin dağılması onun müsəlman fraksiyasının üzvlərini Azərbaycan xalqı üçün tale yüklü qərar vermək zərurəti qarşısında qoyurdu. Şimali Azərbaycanın siyasi partiya və təşkilatların arasında da ölkənin gələcəyi ilə bağlı ciddi fikir ayrılıqları hökm sürürdü: bəzi ictimai-siyasi xadimlər Osmanlı dövləti ilə birləşməyə, bəziləri isə Rusiyanın tərkibində qalmağa üstünlük veriridilər. M.Ə.Rəsulzadə bu qüvvələri "ilhaqçılar" adlandırırdı. Onun və digər müsavatçıların fikrincə, siyasi reallıq Azərbaycanın müstəqil dövlət olmasını diqtə edirdi. Daxili ziddiyyətlər aradan qaldırılmadığına görə mayın 27-də Azərbaycan fraksiyası ayrıca iclasına toplaşaraq müstəqilliyi elan etmək qərarına gəldi. Fraksiya özünü Azərbaycan Milli Şurası elan etdi. Azərbaycan xalqının tarixi istəyi yerinə yetirildi. Cümhuriyyətin elan edilməsi ilə Azərbaycan xalqı XX əsrdə ilk dəfə olaraq dövlət müstəqilliyinə nail oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük bir addım kimi qiymətləndirən ümummilli lider Heydər Əliyev söyləmişdir: "Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur". Ulu öndərin bu sözü müasir dövrdə

Azərbaycan Respublikasının apardığı müstəqil siyasətdə və əldə etdiyi uğurlarda öz əksini tapmışdır.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQ İNKİŞAFI ÜZRƏ İŞİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**Ayəddin Əliyev**
**dosent**
**Nərmin Musayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ayeddin59@mail.ru**
**nrmin.musayeva.02@mail.ru**

**Açar söz:** Ana dili, leksika, diksiya, nitq inkişafı, dil

“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir” fikrini qeyd edən ulu öndərimiz Heydər Əliyev müdrik, ağıllı qərarları ilə yanaşı, danışığı, nitqi ilə də bu dilin keşiyində duran mütəfəkkir dövlət xadimi olmuşdur. Ulu öndər Heydər Əliyevin öz çıxışlarındakı təhsil və təhsilin keyfiyyəti ilə bağlı bir çox fikirləri bugün də öz aktuallığını saxlayır. Ulu Öndər, Azərbaycanın təhsil sisteminin inkişafına daim böyük diqqət ayırmış və bu sahədə bir sıra strateji planlar tətbiq etmişdir. Sistemli, ardıcıl, məntiqli və axıcı məzmunu ilə qətiyyətli və inandırıcı xarakter daşıyan Heydər Əliyevin nitqi, həm də ana dilimizin zəngin ədəbi-bədii xüsusiyyətlərini özündə ehtiva edir. Umummilli Lider Heydər Əliyev uzunmüddətli siyasi fəaliyyəti dövründə öz nitqini gələcək nəsillərə əvəzsiz miras buraxmışdır.

Uşaqlar Azərbaycan dilinə nitq vasitəsilə yiyələnirlər. Nitqin yüksək inkişafı onun, dilin bütün cəhətləri (fonetika, orfoepiya, orfoqrafiya, leksika vəs.) ilə birləşdirilməsi şəraitində təmin edilir.

Məktəbəqədər yaş dövrü 3 yaşdan 6 yaşa qədər olan müddəti əhatə edir və uşaqların bədən və intellektual inkişafının sürətli olduğu vaxtlardan biri hesab olunur. Məktəbəqədər yaşlı uşaqların öyrənmə prosesi daha ciddi və uşaq mərkəzlidir. Bu dövr uşaqların müasir təhsil sistemi çərçivəsində öz potensiallarını inkişaf etdirmək üçün vacibdir. Bu yaş dövrü, onların sosial və ictimai bacarıqlarını, liderlik qabiliyyətlərini və insanlar arasında münasibətlərini inkişaf etdirmək üçün əhəmiyyətli bir mərhələdir.

Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı, onların dil biliklərini və kommunikasiya bacarıqlarını inkişaf etdirmək üçün mühüm mərhələdir. Daha çox uşaqların dil qabiliyyətlərinin sürətli bir şəkildə inkişaf etdiyi və kompleks nitq strukturlarını öyrəndikləri bir dövr olaraq tanınır. Bu baxımdan, uşaq bağçasında tərbiyəçi-müəllimlərin uşaqlarda nitqin formalaşmasına xüsusi fikir verməsi və bu prosesə düzgün rəhbərlik etməsi məqsədəuyğundur. Nitq inkişafı üzrə aparılan işlərdə uşaqlara, düzgün səs tələffüzü və diksiyanın formalaşmasına istiqamətlənmiş məşğələ və oyunlar təsir edir. Buna görə də məşğələ və gəzintidə tərbiyəçi-müəllimlər uşaqların nitqinə nəzarət edib, onların aydın və

səlis danışmalarına çalışmalıdırlar. Həmçinin, uşaqlara yanıltmacların da öyrədilməsi yaxşı nəticələr verir.

Bu dövr, uşaqların dil quruluşlarını formalaşdırmağı, dil qrammatikasını öyrənməyi özündə əhatə edir. Əsas nitq funksiyaları olan bilmək, təsir etmək, məsləhət vermək və müqayisə etmək bu dövr ərzində inkişaf edir, uşaqların yoldaşları ilə əməkdaşlıq etməsi onlarda ictimai kommunikasiya bacarıqlarını da inkişaf etdirməyə kömək edir. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı, onların müxtəlif mövzularda fikirlərini ifadə etməyə, daha rahat davam etmələrinə kömək edir. Çalışmaq lazımdır ki, uşaqlar müşahidə etdikləri varlıqlar, hadisələr haqqında fikirlərini düzgün şəkildə ifadə edə bilsinlər.

## ANA DİLİ TƏLİMİNƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

**Ayəddin Əliyev**
**dosent**
**Sultan Hidayətov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ayeddin59@mail.ru**
**Sultanhidayetov9@gmail.com**

**Açar sözlər**: təlim, tərbiyə, ana dili, fənlər arası əlaqə, fəndaxili əlaqə

Məlumdur ki, Azərbaycan dili dərsində hər bir mövzunun spesifik xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər isə dərsdə özünəməxsus vasitə və metodlardan bacarıqla istifadə olunmasını tələb edir. Xüsusi ilə müasir dövrdə ana dili təlimi qarşısında çox mühüm tələblər qoyulur. Əks proses gedərsə, tədris materialının məzmununa aid olan məsələlər arxa plana keçir və müəllim ikinci dərəcəli, nisbətən az əhəmiyyətli məsələlər üçün vaxt itirir və nəticədə dərs prosesinin qarşısında duran vəzifə həyata keçirilə bilmir. Belə olduğu halda mütənasiblik pozulur və dərsin məzmunu ilə forması arasında ziddiyyətlər yaranır. Belə halların qarşısını almaq üçün müəllim Azərbaycan dilində təlimə verilən müasir tələbləri nəzərə almalı, pedaqoji və metodika elmlərinin ən son nailiyyətlərinə əsaslanmalıdır. Müasir dərsdə düşündürmək, axtarmaq, tədqiq etmək bacarıqlarını formalaşdırmaq və problemli vəziyyət yaratmaq əsas istiqamətlər sayılır. Bunlar müasir dərsin demək olar ki, əsasını təşkil edir. Tədris prosesində müxtəlif oyunlardan istifadə etməklə dərsin daha maraqlı və keyfiyyətli olmasını təmin etmək mümkündür. Burada müxtəlif rollu oyunlar ola bilər. Bunlarla yanaşı Azərbaycan dili dərsində təlim prosesinin səmərəliliyinin artırılmasına xidmət edən bir neçə məsələni nəzərə almaq lazımdır.

Tədris materiallarının tərbiyəedici xarakter daşıması. Məlumdur ki, hər bir dərsdə tədris materialının məzmunu ilə əlaqədar şagirdlərə çalışmalar, əyani vəsaitlər və s. təqdim olunur. Həmin çalışmaların bir hissəsi dərslikdən hazır formada götürülür, digər hissəsi isə bəzi hallarda müəllim özü hazırlayır. Dərs təlimin təşkilat forması olmaqla, həm də şagirdlərdən hissi və fiziki qüvvə tələb edən zehni əmək prosesidir. Bu şagirdlər axtarış aparır, mühakimə yürüdür və müqayisə aparırlar. Tədricən şagirdlərdə iradi keyfiyyətlər aktivləşir, məsuliyyət hissi artır və bu kimi bacarıq və vərdişlər tərbiyə olunur.

Dərsin elmi cəhətdən düzgün qurulması. Azərbaycan dili təlimində nəzərdə tutulan tədris materialları nəzəri və praktiki cəhətdən elmi xarakter daşıyır. Onu da nəzərə almaq lazımdır ki, tədris materialının elmiliyi metodik cəhətdən düzgün çatdırılmadıqda şagirdlər həmin elmiliyi görmür və hiss etmirlər. Bunun qarşısını almaq üçün Azərbaycan dili təlimi prosesində tədris materialının mahiyyətindən doğan elmilik şagirdlərə metodik baxımdan düzgün formada çatdırılmalıdır.

Fənlərarası əlaqələrin göstərilməsi. Burada müəllim həm Azərbaycan dili, həm də digər fənlərin materialları üzərində müşahidələr aparır və dil hadisələri üçün yaxşı materialları seçə bilir. Məktəb təcrübəsi göstərir ki , fərqli fənlərdən dil materiallarının toplanması şagirdlərdə müstəqil fəaliyyət göstərmək, araşdırma aparmaq və tədqiq etmək bacarıqları formalaşdırır, Azərbaycan dilindən alınan qayda – qanunların şüurlu mənimsənilməsi işini sürətləndirir.

Fəndaxili əlaqələrin nəzərə alınması. Azərbaycan dili fənninin təlimi zamanı fəndaxili əlaqələr özünü iki şəkildə göstərir. Birincisi, mövzulararası əlaqə, ikincisi isə bəhslərarası əlaqədir. Bu iki əlaqə arasında müəyyən qədər fərq vardır. Mövzulararası əlaqə konkret, bəhslərarası əlaqə bir qədər mücərrəd xarakter daşıyır. Məktəb təcrübəsi bizə göstərir ki,I-IV siniflərdə mövzulararası əlaqələrdən müntəzəm olaraq istifadə olunur. Bəhslərarası əlaqələrə isə III-IV siniflərdə az hallarda yer ayrılır. Aparılan təlim prosesi göstərir ki, III-IV siniflərdə mövzular arasındakı əlaqələr bir qədər də genişləndirilməlidir.

Şagirdlərin idrak fəaliyyətinin və müstəqilliyinin artırılması. Bunun üçün dərsdə səmərəli və gərgin iş şəraitinin yaradılması mütləqdir. Bu heç də o demək deyildir ki, hər sonrakı çalışma əvvəlkilərdən həm məzmununa, həm də formasına görə mürəkkəbləşdirilməlidir. Aparılan təcrübələr göstərir ki, əvvəl yüngül, sonra mürəkkəb xarakterli çalışmaların verilməsi şagirdlərin bəzən dərsdə təlim materialı ilə yüklənməsinə gətirib çıxarır. Belə halların qarşısını almaq üçün şagirdlərin hər dərsdə idrak fəaliyyətinin və müstəqilliyinin artırılması meyarı gözlənilməli, mövzuların izahında və çalışmaların tərtibində rəngarənglik yaradılmalıdır. Qeyd etdiyimiz məsələlərə düzgün yanaşma olduğu zaman təlim prosesinin keyfiyyət göstəriciləri yüksək olacaqdır.

## AZƏRBAYCAN MİLLİ MUSİQİSİNDƏ QARABAĞ MÖVZUSU

**Aygün Kərimova**
**dissertant**
**Bakı Slavyan Universiteti**
**etll@bsu-uni.edu.az**

**Açar sözlər:** Qarabağ, milli musiqi, oratoriya, simfonik poema, opera, “Xarı bülbül” festivalı

Azərbaycan ədəbiyyatında Qarabağ haqqında xeyli roman, hekayə, şeir yazılmış, kino, teatr, musiqi, rəngkarlıq, heykəltəraşlıq və diğər sənət sahələrində bədii nümunələr yaradılmışdır. Qarabağ mövzusu haqqında əvvəllər də çox yazılmışdır. Lakin son 20-30 il ərzində bu hal daha intensiv xarakter almışdır. Azərbaycan tarixinin xanlıqlar dövrünə nəzər salsaq, Qarabağa kimlərin tamah etdiklərini görmək mümkündür. Ona görə də bu mövzu zaman-zaman ədəbiyyatda və mədəniyyətin digər sahələrində öz əksini tapmışdır. Məsələn,

Qarabağ mövzusu “Dolu”, “Sarı gəlin”, “Ümid”, “Qala”, “Oğul” kimi filmlərdə, “Ana harayı”, “Dəmir yumruq” kimi monumental heykəltaraşlıq abidələrində, dillər əzbəri olan “Yaşa, Azərbaycan”, “Noldu, paşinyan?” kimi şifahi xalq musuqisi üslubunda yazılmış mahnılarda öz əksini tapmışdır. Bu tədqiqat işində **A**zərbaycan milli musiqisində Qarabağ mövzusunun necə əks olunduğuna fraqmentar nəzər salınır.

Təhlillər göstərdi ki, Vətəni tərənnüm edən, doğma yurd uğrunda mübarizəyə səsləyən musiqi əsərləri Qarabağda şanlı Zəfərinin qazanılmasında mühüm rol oynadı. Qarabağın 30 ildən artıq işğal altında olduğu dövr ən müxtəlif janrlarda musiqi nümunələrinin yazılması ilə nəticələndi. Bu əsərlər xalqı birliлə səslədi, gənc nəslə savaş əzmi aşıladı, Vətəni daha da sevdirdi. Bəstəkar Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi” oratoriyası belə musiqi əsərlərindən biridir. Bu oratoriya yüksək professional və bədii səviyyədə yazılmış möhtəşəm, monumental əsərdir. Respublika Dövlət Mükafatına layiq görülmüş bu musiqi əsərində bəstəkar Azərbaycanın ənənəvi şifahi klassik musiqisində xüsusi yer tutan zərbi-muğam vokal instrumental janrından istifadə etmişdir. Oratoriya Zəfərə inam və qətiyyət aşılayan mükəmməl musiqi əsəridir.

30 il əvvəl baş vermiş o müdhiş hadisə, hamı kimi, bəstəkarlarımızı da çox sarsıtmışdır. Firəngiz Əlizadənin “İntizar” operası Qarabağ münaqişəsini, eləcə də Xocalı faciəsini kövrək hisslərlə və yüksək professionallıqla tərənnüm edən musiqi əsərlərindən biridır.

Xocalı faciəsindən sonra bəstəkarlarımız bu mövzuda müxtəlif janrlarda əsərlər ərsəyə gətirmişlər. Məmməd Quliyevin “Simfoniya-rekviyemi”, Arif Mirzəyevin “Xocalı uşaqlarına laylay”, Azər Dadaşovun “Xocalıya ədalət!” simfonik plakatı, Oqtay Rəcəbovun “Xocalı avazları” oratoriyası, Faiq Nağıyevin xor üçün “Xocalı harayı”, Elnarə Dadaşovanın “Xocalı laylası”, Yusif Mirişlinin “Xocalı – 613” simfonik poeması və s. musiqi əsərləri yazılmışdır.

Bəstəkarlarımızın Xocalı soyqırımına həsr olunmuş yeni əsərləri sırasında Rəna Qədımovanın “Sarı gəlin” balladasını, Rüfət Ramazanovun “Təəssürat”, “And”, Kəmalə Əlizadənin “Vokaliz” və İlham Azmanlının “Ağı” əsərlərini xüsusi vurğulamaq gərəkdir.

Qeyd etmək lazımdır ki, Qarabağ mövzusu Azərbaycan musiqi irsində zaman-zaman səslənərək, əbədi yer tutmuşdur. Milli musiqi irsində Qarabağa, Şuşaya həsr olunmuş nə qədər mahnılar yaranmışdır – "Qarabağın maralı", "Qarabağın yollarına düşəydim", "Qarabağda bir dənəsən", "Şuşa ceyranı", "Şuşanın dağları"; "Qalalıyam, qalalı" və "Qarabağ şikəstəsi". Qarabağlı xanəndələrin yaradıcılıq məhsulu olan bu musiqi nümunələri bu gün də xalqın dilinin əzbəridir, bu diyarın ruhunu özündə yaşadır və onun gözəlliyini gələn nəsillərə çatdırır. Sanki bu melodiyalar Qarabağın musiqi rəmzinə çevrilərək, bəstəkar əsərlərinə də hopmuşdur.

Eyni zamanda, Qarabağ XX yüzillik boyu bəstəkar yaradıcılığında da tərənnüm olunmuşdur. Əşrəf Abbasovun "Şuşa" simfonik poeması, "Qarabağın qızları" mahnısı, Süleyman Ələsgərovun "Şuşam", "Gözəl Şuşa" mahnıları, Cahangir Cahangirovun "Cənnətim Qarabağ" mahnısı bu qəbildəndir və Qarabağın işıqlı dövrlərini tərənnüm edir. 30 il əvvəl isə Qarabağın qanlı-qadalı illəri başlayanda bəstəkar yaratdığı əsərlərin ruhunu və avazını dəyişdi: düşmənə nifrət, hiddət, həyəcan, kədər yer almağa başladı. Vasif Adıgözəlovun "Qəm karvanı" oratoriyaları, "Natəvan" operası, "Şuşa laylası" mahnısı, xor üçün "Çəkin Qarabağdan qara əlləri", "Odlar yurdu" əsərləri, Ramiz Mustafayevin "Haqq səninlədir, Azərbaycan" vokal-simfonik poeması, Sevda İbrahimovanın "Qarabağnamə" konserti, "Sənin üçün darıxıram Şuşam" əsəri, Tofiq Bakıxanovun "Qarabağ harayı" simfoniyası və onlarla müxtəlif janrlı əsərlər meydana çıxdı.

“Vətənpərvərlik ruhlu mahnılar, bu mövzuda şeirlər, ədəbi əsərlər hər hansı sifariş və ya tələblə yox, ürək yanğısı ilə, yüksək istək və istedadla yazılır. Bu, hər bir vətəndaşın,

incəsənət sahəsində fəaliyyət göstərən insanların mənəvi borcuna çevrilmişdir. Bu mövzu vətənini, dövlətini sevən insanlar üçün hər zaman gündəmdədir, hər zaman aktualdır. Vətənpərvərlik mahnıları bu insanların yaradıcılığının ana xəttini təşkil edir.Ümumilikdə vətənpərvərlik təkcə incəsənət sahəsində yox, bütünlükdə insanlarımızın, vətəndaşlarımızın ruhunda, canında, qanındadır".

Xalqımızın qələbə sevinci yaşadığı bir zamanda Gəncənin gənc şairi Eltun Türkelin Ali Baş komandanın şüarı əsasında qələmə aldığı "Qarabağ Azərbaycandır" şeiri əsasında əslən Şəmkir rayonundan olan gənc bəstəkar Məhəmməd İsmayılın bəstələdiyi və elə öz bacıları ilə birlikdə ifa etdiyi "Qarabağ Azərbaycandır" əsəri bu gün daha möhtəşəm səslənir. Cəlbedici musiqisi və sözləriylə seçilən bu mahnı eyni zamanda cəlbedici kliplə izləyiciləri özünə cəlb etmişdir.

Hesab edirik ki, Azərbaycan milli müsiqi sənətində yaranmış əsərlər Qarabağ müharibəsinin, dəhşətlərinin, yaşantıların, hisslərin və. sairə bu kimi digər əməllərin əyani bədii təcəssümüdür. Bu bədii nümunələr, milli musiqimizin təbliği ilə bağlı təşkil olunan Xarıbülbül Beynəlxalq Musiqi Festivalları milii-mənəvi sərvətimiz olmaqla, Qarabağ mövzusunda yeni-yeni əsərlərin yaranmasına təkan verəcəkdir.

## ÜNSİYYƏTİN YARANMA PROSESİNƏ MÜXTƏLİF YANAŞMALAR

**Aysel Məmmədli**
**müəllim**
**Azərbaycan Dillər Universiteti**
**ayselaliyeva837@yahoo.fr**

**Açar sözlər:** ünsiyyət, kommunikativ, interaktiv

Əksər dilçilərin gəldiyi fikrə görə, ünsiyyət bizim hansısa bir hərəkəti icra etməyimiz üçün dildə istifadə etməyimizdir.

XX əsr dil fəlsəfəsinin əsas diqqəti dilin ətraf aləm ilə əlaqəsi üzərində mərkəzləşmişdir. Ünsiyyətin hamı tərəfindən eyni dərəcədə qəbul edilmiş ümumi tərifi yoxdur. Hesablamalara görə, hələ 1969-cu ilə qədərki dövrdə təkcə ingilis dilində olan ədəbiyyatda ünsiyyətin 96 tərifi məlum idi. Onlardan biri belədir: iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir.

Ünsiyyət tələbatı sosial tələbatdır, insanın tələbatları içərisində xüsusi yer tutur. Lev Vıqotski ünsiyyət tələbatına fərdin psixi inkişafının əsas və hərəkətverici qüvvəsi kimi xüsusi əhəmiyyət verirdi. Ünsiyyət tələbatı fərdin şəxsiyyətinin inkişafında müham rol oynayır. Ünsiyyət situasiyasının iki tipini fərqləndirmək olar: birgə fəaliyyətdə ünsiyyət və şəxsi ünsiyyət. Birgə fəaliyyət şəraitində ünsiyyət funksional xarakter kəsb edir, yəni onun mövzusu birgə fəaliyyətin xarakteri ilə müəyyən olunur. Şəxsi ünsiyyət isə iki və daha çox adamın vasitəsiz təması kimi meydana çıxır və emosional xarakter daşıyır.

Ünsiyyətin funksiyaları çoxsaylıdır. Onların ikisini xüsusilə qeyd etmək lazımdır:

a) İnsanların birgə fəaliyyətinin təşkili yəni, "ümumi nəticə əldə etmək məqsədilə səyləri əlaqələndirmək";

b) şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafı yəni, "münasibətləri aydınlaşdırmaq məqsədilə qarşılıqlı təsir".

Ünsiyyət müxtəlif vasitələrlə həyata keçirilir. Onlar arasında "nitq" xüsusilə yer tutur. Ünsiyyətin ekspressiv-mimik vasitələri də mühümdür: təbəssüm, tərs baxış, mimika, əl və bədənin ifadəli hərəkətləri, vokal mimikası-bunlardan hər birinin ünsiyyət prosesində öz yeri vardır. Ünsiyyətin əşyavi-hərəki vasitələrinin də rolunu qeyd etmək lazımdır. Onları belə qruplaşdırmaq olar:

a) Ünsiyyət məqsədilə istifadə olunan lokomotor və əşyavi hərəkətlər, eləcə də poza;

b) başqa adam yaxınlaşma, ondan uşaqlaşma, nəyisə vermək və ya uzatmaq, onu özünə doğru çəkmək və ya özündən itələmək və s.

Müasir psixologiyada ünsiyyətin üç tərəfini - kommunikativ, interaktiv və perseptiv tərəflərini fərqləndirirlər. Ünsiyyətin kommunikativ tərəfi dedikdə, onun ilk növbədə informasiyamübadiləsi olması nəzərdə tutulur. Kommunikasiyanın iki tipini – verbal və qeyri-verbal kommunikasiyanı fərqləndirirlər. Ünsiyyətin interaktiv tərəfi onun qarşılıqlı təsir prosesi olmasını göstərir. Bu deməkdir ki, ünsiyyətdə olarkən insanlar yalnız bir-birillərinə məlumat ötürmür, həmçinin müxtəlif səviyyələrdə bir-birilərinə psixoloji təsir göstərmiş olurlar. Ünsiyyətin perseptiv tərəfi isə insanların ünsiyyət prosesində bir-birilərini qavraması və anlamasını nəzərdə tutur.

Dilin kommunikativ baxımdan örənilməsi biz ayrıca bir məsələ kimi öyrənirik. Digər bir baxışa görə, dilin əsas aspektləri ünsiyyət prosesinin bir hissəsi kimi baş qaldırır və buna görə də konteksdən kənarda dil öyrənilə bilməz. Dilin ətraf aləmlə-fiziki danışıq aktlarının əlaqəsini, mənalarla əlaqəsini və ya sosial situasiyalarla əlaqəsini öyrənərkən məsələ bir az fərqli yönüm alır.

XX əsr dil fəlsəfəsinin əsas diqqəti dilin ətraf aləm ilə əlaqəsi üzərində mərkəzləşmişdir. Bu baxımdan xeyli maraqlı və təcrübi baxımdan vacib riyazi məsələlər eyni problem sahəsindən baş qaldırmışdır. Bununla bağlı P.F.Strosonun dixotomiyası meydana gəlmişdir. O, yazırdı:

Nəyinsə, hansısa söz, cümlənin mənaya malik olması məsələsi nədir?

Bu unsiyyət niyyətli nəzəriyyəçilər və formal semnatika nəzəriyyəçiləri arasında olan bir mübahisəli məsələ kimi adlandırmaq olar. Formal semantikaya görə, danışanın auditoriyaya istiqamtlənmiş niyyətlərinə istinad etmədən məna konseptinə dais adekvat məlumat vermək qeyri-mümkündür. Buna əks olaraq belə bir fikir vardır ki, semantik sistem və cümlənin mənasını müəyyənləşdirən sintaktik qaydalar heç də kommunikasiya üçün olan qaydalar sistemi deyildir. Bu qaydalar bu məqsədlə istifadə edilə bilər; lakin bu onların xarakteri üçün ikinci dərəcəlidir. Hər hansı bir şəxs üçün dili tam başa düşmək və dildən kamil şəkildə istifadə etmək mümkündür, lakin bu halda o kommunikasiya funksiyasına dair implisit fikirlər barədə anlayışa malik olmaya bilər.

Ən sadə dildə desək, bəziləri düşünürlər ki, məna elə bir şeydir ki, cümlədə olur, lakin digərləri isə fikirləşir ki, məna insanların icra etdikləridir.

P.F.Stroson "kommunikasiya-niyyət nəzəriyyəsinə" tərəfdar olaraq yazır:

"Biz mənanı sadəcə cümlələr vasitəsilə gerçəkliklə əlaqələndiririk. Cümlələr isə dilə mənsub olur. Lakin nəzəriyyəçi kimi, əgər biz insan nitqini başa düşmürüksə, onda insan dili barədə heç nə bilmirik".

P.F.Strosonun "formal semantika nəzəriyyəçiləri" sırasına Q.Frec, L.Vitqenştayn və N.Xomski, "kommunikasiya-niyyət nəzəriyyəçiləri" sırasına isə P.H.Qris və C.Ostin daxil idilər.

Öz ilkin işlərində L.Vitqenştayn dili əşyalar və düşüncə arasında formal əlaqə yaradan bir şey kimi görürdü. Sonrakı işlərində isə o. "digər fərdlərlə qarşılıqlı təsir" adlandırır ki, onun da daxilində "biz dilçilik əksiklərini hərəkət etdiririk". Burada o, qeyd edilənləri oyunlara bənzədirdi, "bu iki balaca qarşılaşmanın öz qaydaları olur". Məna bir

qayda olaraq bu cür qarşılıqlı təsirlərin olduğu konkestdə baş qaldırır. Burada L.Vitqenştayn öz məşhur "oyun" sözünün mənasını ailə oxşarlığına uyğun olaraq belə verir:

"Güman edin ki, biz aktları "oyun" adlandırırıq. Stolüstü kart, top və s. oyunu. Onların hamısını birləşdirən nədir? Deməyin ki, onlarda ortaq nə isə olmalıdır, yoxsa onlara oyun demək olmaz, lakin onlarda ortaq nə isə görmək olmayacaq, sadəcə oxşarlıqlar, əlaqələr və onların bütöv bir seriyası oxşaq olacaq. Kart oyununda və ya tennisdə də belə oxşarlıqlar görəcəyik. Sonda bu yoxlamanın nəticəsi kimi bunu əldə edirik: "Mürəkkəb bir təfərrüatlar oxşarlığı şəbəkəsi görürürk".

## TACLI OBRAZINA TARİXİ NÖQTEYİ-NƏZƏRDƏN BAXIŞ

**Bədirxan Əhmədov**
**professor**
**Cavidan Cəfərov**
**magistrant**
**Bakı Slavyan Universiteti**
**bedirxan@mail.ru**
**cavidancafarov3@gmail.com**

**Açar sözlər:** Taclı, Nəriman Əbdülrəhmanlı, obraz, bədii təxəyyül, tarixi roman

Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı – ümumilikdə mədəniyyətinin ən şaxəli dövrü məhz Səfəvilər dövrüdür. Dövrün əsas qəhrəmanı Şah İsmayıldır və biz burada şahın ömür-gün yoldaşı Taclının həyatına tarixi baxışdan nəzər yetirəcəyik. İllərlə Səfəvilər dövlətinin Şahbanusu olmuş Taclı bəyimin tarixdəki əsl yeri, onun əsli barədə müxtəlif fikirlər vardır. Taclı bəyim əsl adı Şahbigə olan bu xanımın sonradan Şah İsmayıl Xətai tərəfindən verilən yeni ismi, daha doğrusu ləqəbidir. Taclı xanım haqqında Əzizağa Məmmədovu araşdırmaları olduqca dəyərlidir. Şahın Taclı xanımı itirməsinə tarixdə müxtəlif yayanaşmalar mövcuddur. Bəzilərinə görə, Çaldıran döyüşündəki məğlubiyyətdən sonra onu itirmiş, bir digər fikir isə S.Səlimin onu Cəfər Çələbiyə nikahladığı məlumatıdır. Səfəvi tarixçiləri ilə Taclı xanımın ömrünün sonuna kimi Şah İsmayılın yanında yaşadığını düşünür. Ümumiyyətlə, Şah İsmayılın yaradıcılığında bəzi şeir nümunələri vardır ki, orada Yarının əsir düşdüyü hiss olunur. Bəzi xalq hekayələrinə görə, Taclı xanım atası ilə birgə qatıldığı döyüşdə ağır yaralanmış, atası döyüşdə ölmüş, özü isə bir neçə mühafizəçisi ilə birgə Şahın yanına gəlmişdir.

Təəssüf ki, Taclı xanımın fəaliyyəti, həyatı barədə, bir sözlə, taleyi ilə bağlı söylənilən fikirlər bir çox zaman heç də bir-birinə uyğun gəlmir, bəzən də əlaqəsiz görünür.

Azərbyacan ədəbiyyatında Taclı obrazına yeni ruhu Nəriman Əbdülrəhmanlı özünün "Taclı" romanınada vermişdir. Əsərdə yazıçının Səfəvi hökmdarı Şah İsmayıl Xətayinin həyatından, onun arvadı Taclı Bəyimdən, dövlət işlərindən, "Çaldıran" döyüşündən və o döyüşün səbəblərindən, Şah İsmayıldan, bütün olub-keçənlərin tarixi dərslərindən əsər yazması daha çox ədəbiyyatın tələblərindən və prinsiplərindən irəli gəlibdir. Əsərin adının "Taclı" olması da fikrimizi təsdiq edə bilər. Yəni tarixi fakt və hadisəyə münasibətdə yazar, necə deyərlər, ürəyinin səsinə qulaq asmalıdır.

Taclı bəyimin ölümü ilə bağlı müxtəlif fikirlər var. Bəzi tarixçilərə görə, ona zəhər içirdiblər, bəziləri də yoluxucu xəstəlikdən vəfat etdiyini yazıb. Qısa da olsa, həyatını mənalı yaşamağa çalışan bu qadının taleyi, keçdiyi yol, mübarizəsi onu tarixdə əbədi yaşadacaqdır.

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ LEKSİK DİMİNUTİVLİK HAQQINDA BƏZİ QEYDLƏR

**Billurə Nuri**
**doktorant**
**Bakı Dövlət Universiteti**
**billuren@mail.ru**

**Açar sözlər:** diminutivlik, kiçiltmə-əzizləmə, müqayisəli, leksik diminutivlik, diminutivlik

Bu tezisdə Azərbaycan və ingilis dillərində leksik diminutivlik müqayisəli şəkildə tədqiq olunur. İlk olaraq, qeyd etmək lazımdır ki, sözlərin məna və ölçü baxımından diminutivləşdirilməsi hər iki dildə aktiv şəkildə rast gəlinir. Diminutivlərin gündəlik nitq prosesində fəal istifadəsi insanlar arasında qurulan ünsiyyətə müxtəlif çalar və faydalılıq gətirir. İnsanların səs tonunun yumşaldılmasına, bir-birinə qarşı olan hislərinin (müsbət və ya mənfi dərəcədə) daha asan ifadə olunmasına təsir edir.

Azərbaycan və ingilis dillərində leksik diminutivlər həm leksik şəkilçilər, həm də kiçiltmə-azaltma və əzizləmə mənalı sözlərin vasitəsilə yaranır. Dildə mövcud olan hər hansı bir kiçiltmə, əzizləmə mənasını ifadə edən söz digər bir sözün (əsasən, sifət+isim) qarşısında işlənərək leksik diminutivlik yaradır.

Leksik şəkilçilər vasitəsilə yaranan diminutivlərə nəzər salaq:

Azərbaycan dilində: -ımtıl$^4$, -cığaz$^4$, mini- (prefiks) : qırmızımtıl, acımtıl, qızcığaz, mini ətək

İngilis dilində: - ish, -e(y), -ie, -let, -ling, mini

redd-ish ,dadd -y,dogg-y, fish-ie, cut-ie, king-let, pig-let, duck-ling, mini party

Əksər hallarda, ismi təyin edən diminutivlər əsas sözü olduğundan daha kiçik göstərmək üçün istifadə edilir. Əsas söz həmişə isimdir, qarşısında əsasən sifət və say işlənərək söz ölçü və ya miqdar baxımından kiçildilir.

Azərbaycan dilində: butulka - balaca butulka, şəhər - kiçik şəhər, maye - az maye, xırda dənələr

İngilis dilində: bottle-a small bottle, city- a small city, water-a little water, house – a tiny house

Şəxs ifadə edən isimlərin qarşısında gənc (young) sözünü işlədərək leksik diminutivlər əldə edə bilərik.

Azərbaycan dilində: çoban – gənc çoban, oğlan – gənc oğlan, qadın – gənc qadın.

İngilis dilində: a shepherd- a young shepherd, a boy- a young boy, a woman – a young woman

Xeyirxahlıq və məhəbbət ifadə edən leksik diminutivlər də Azərbaycan və ingilis dillərində aktiv şəkildə istifadə olunur.

Azərbaycan dilində: əziz oğlum, əziz qızım, əziz dostum, canım, gözbəbəyim

İngilis dilində: dear son, dear daughter, dear friend, darling, sweetie, sweetheart

Bəzən nifrət hissi, ləyaqəti alçaldan – aşağılayıcı sözlər də bu qrupa aid edilir:

Azərbaycan dilində: pis adam, alçaq insan, dardüşüncəli insan

İngilis dilində: bad person, mean person, narrow-minded person

Azərbaycan və ingilis dillərində leksik diminutivlərə müxtəlif nitq hissələrində və üslublarda, dilin müxtəlif sahələrində gündəlik nitq prosesində rast gəlinir.

## ÇAĞDAŞ AZƏRBAYCAN POEZİYASINDA BƏZİ DİALEKİZMLƏR

**Elman Mirzəyev**
**dosent**
**Şəbnəm Salahlı**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Mirzayev_or@mail.ru**
**salahlishebnem373@gmail.com**

**Açar sözlər:** şivə, dialektizm, poeziya, üslubiyyat

Azərbaycan dilinin tarixi çox qədimdir. Dilimizin tarixini yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlıya bu dili dərindən öyrənməyi tövsiyə etməklə, xalqın formalaşması və yaşamasında ana dilinin rolunu həmişə yüksək qiymətləndirirdi. Ulu Öndər deyirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Elmi ədəbiyyatda *dialektizm* termini adı altında bədii ədəbiyyatda işlənən dialekt sözlər nəzərdə tutulur. Qeyd etməliyik ki, Azərbaycan dilçiliyində bu istiqamətdə, əsasən, V.Mursaquliyev, M.Məmmədov, R.Feyziyeva, K.Quliyeva tədqiqat işləri aparmışlar. Bununla belə, indiyə qədər çağdaş Azərbaycan poeziyasında işlənən dialektizmlər monoqrafik tədqiqat obyekti olmamış, bu istiqamətdə əsaslı tədqiqat işləri aparılmamışdır.

Tədqiqat işində obyekt kimi M.Araz, M.Yaqub, X.R.Ulutürk, Z.Yaqub kimi çağdaş ədəbiyyatımızın tanınmış simalarının yaradıcılıqlarına müraciət edilmiş, dialektizmlərin leksik-semantik və üslubi mənaları nəzərdən keçirilmişdir. Bununla bağlı bəzi nümunələrə diqqət yetirək

O, istəyir dönə məndən,
Gedib ki, gizlənə məndən.
O, adı gizlinə məndən.
Bir *çınqı* söz söylərsənmi?
Azalıb mehri dünyanın
*Çəmi* yox qeyri dünyanın.
Yolları əyri dünyanın
Keçidlərin bilərsənmi?

Musa Yaqubun “Payız durnam” adlı əsərindən verilmiş bu nümunədə *çınqı* və *çəm* dialektizmləri işlənmişdir. Hansı ki, *çınqı* ədəbi dilimizdəki “azacıq” sözünün ekvivalenti kimi işlənmişdir. *Çəm* sözünə gəlincə isə, Azərbaycan şivələrində semantik cəhətdən“vaxt”

(Tovuz), "imkan" (Cəlilabad, Salyan, Yardımlı), "suyun üzərində həlməşik şəklində olan qurbağa sürfəsi" (Ağcabədi), "girəvə, fürsət" (Qazax, Yardımlı, Tovuz), "xoşa gəlməyən, ürəyə yatmayan" (Salyan), "üsul, qayda" (Yadrımlı) mənalarına malikdir. Əsərin dilində isə sənətkar bunu "imkan" mənasında işlənməklə, bədii dilə xüsusi bir üslubi rəngarənglik vermişdir.

Vaxt olur ki, xoş gəlməyir
Ömrümdəki təmtəraqlı günlər mənə.
O gün *dingiş* bir qız kimi
İfrat gəlir
Ən sevimli güllər mənə.

Xalq şairi Məmməd Araz poeziyasından seçilmiş bu nümunədə şair şivə leksikası üçün səciyyəvi olan *dingiş* "yüngülxasiyyət, yelbeyin" sözündən ustalıqla istifadə etməklə, şerin dilində poetik bir ahəngdarlıq yaratmağı bacarmışdır.

Xalq şairi Zəlimxan Yaqub isə "Ziyarətin qəbul olsun, insan oğlu!" şeirində xalq danışıq dilində "yaxşı" mənasına müvafiq olan *xas* sözününə müraciət etmişdir. Hansı ki, məlum mənbələrdə bu söz Azərbaycan dilinin qərb ləhcəsinə daxil olan Basarkeçər və Qazax şivələrində qeydə alınmışdır.

Niyyət elə, arzuların seç "*xas*"ını,
Təmiz saxla qəlbin, ruhun aynasını.
Duyğuların sil tozunu, aç "pas"ını
Ziyarətin qəbul olsun, insan oğlu!

Tədqiqat işindən alınan nəticələr belə deməyə əsas verir ki, çağdaş Azərbaycan poeziya dilində dialektizmlər zəngindir və bu istiqamətdəki araşdırmalar dialektologiya, üslubuyyat, ədəbi dil tarixi sahələrin öyrənilməsi üçün əhəmiyyətlidir.

## AZƏRBAYCANDA DİYARŞÜNASLIQ MUZEYLƏRİN TƏŞƏKKÜLÜ TARİXİNDƏN

**Emin Məlikov**
**dosent**
**Eltac Əbişov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**eminmelikov79@gmail.com**
**eltacebisov@gmail.com**

**Açar sözlər:** diyarşünaslıq, muzey, təbliğ

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda muzeylərin təşəkkülü, inkişafı ayrı -ayrı illərdə baş verən ictimai – siyasi hadisələrin gedişi mühiti və şəraitlə bilavasitə bağlı olmuşdur.Azərbaycanda ilk muzey hələ XIX əsrin sonlarında yaranmağa başlamışdır. Beləki görkəmli ədibimiz Cəlil Məmmədquluzadə 1896-ci ildə Naxçıvanda Nehrəm kəndində ilk

muzeyi yaratmışdır. Dövlət səviyyəsində ilk muzey XX əsrin əvvəllərində daha dəqiq desək, Azərbaycan Xalq  Cümhuriyyəti dövrünə təsadüf edir. Belə ki ,1919-cu il dekabrın ayın 7 də İstiqlal muzeyi yaradıldı. Sonralar 1920-ci ildən başlayaraq müxtəlif ərazilərində muzeylər yaradılmağa başlandı.1924-ci ildə Lənkəranda tarix - diyarşünaslıq muzeyi yaradıldı. Daha sonra Quba və Şəkidə də diyarşünaslıq muzeyləri yaradıldı. XX əsrin 30-40 ci illərdə muzey sahəsində durğunluq müşahidə olunmağa başladı.  Buna səbəb repressiya ,həmçinin dünya müharibəsinin baş verməsi idi. Müharibə başa çatdıqdan sonra yenidən bu sahənin inkişafına diqqət artırıldı. Artıq 1950-60-cı illərdə ölkəmizin müxtəlif bölgələrində muzeylər yaradıldı. Məsələn;Şuşada Üzeyir Hacıbəyovun, Şamaxıda M.Ə Sabirin Lənkəranda Həzi Aslanovun, Cəfər Cabbarlının  ev muzeyləri yaradıldı. 1969- ci ildə Heydər Əliyevin hakimiyyətə gəlişi muzey sahəsinin inkişafında təkan verdi. Bu sahəyə dair mühüm tədbirlər görülməsinə göstəriş verdi. 1970-ci il yanvarın 30- da muzeylərin inkişafına dair qərar qəbul olundu.1981 ci ildə  Azərbaycanın müxtəlif bölgələrində tarix - diyarşünaslıq muzeyləri yaradıldı. Belə muzeyinlərin sırasına Cəlilabad, Salyan, Astara ,Cəbrayıl Abşeron, Qusar, Qazax, Qəbələ, Qax Tovuz, İmişlidə yaradılmış muzeyləri aid ede bilərik. 1991-1992 ci illərdə Qarabağ bölgəsində yerləşən 22 muzey erməni vandalizminin qurbanına çevrildi.XX əsrin sonlarında Azərbaycan yeniden öz müstəqilliyini bərpa etdikdən sonra muzeylərin inkişafı daha da sürətləndi.

Müstəqil Azərbaycanın yenidən prezidenti seçilən Heydər Əliyev bu sahənin daha da inkişaf etdirilməsində müstəsna rol oynamışdır. Ümummilli Lider Heydər Əliyevin davamçısı olan  İlham Əliyevin rəhbərliyi dövründə muzey sahəsi daha da inkişaf etdirilməkdədir. 2009-cı il 22 may tarixində İlham Əliyev muzeyinlərin inkişafına dair proqram qəbul etdi. Bu proqrama əsasən respublika ərazisində yerləşən muzeylərin inkişafına xüsusi diqqət yetirildi və 2020- ci ildə baş verən Vətən müharibəsində qazalınan qələbədən sonra işğaldan azad olunmuş ərazilərdə yeni muzeylərin əsası qoyulmağa başlandı. İlk olaraq 2023-cü il 28 may Laçın şəhərində Zəfər muzeyinin təməli qoyuldu.Bütün bunlar respublikada muzey işinin xüsusi dövlət qayğısı ilə əhatə olunduğunu göstərir.Beləliklə Azərbaycan muzeyləri getdikce yerli və xarici turistlərin sevimli məkanına çevrilir, milli özünəməxsusluğumuzun, mədəniyyətimizin, tariximizin dünyaya təbliğində mühüm rol oynayır. Ölkəmizdə fəaliyyət göstərən 68 diyarşünaslıq muzeyləri tariximizin və mədəniyyətimizin hər tərəfli öyrənilməsi və təbliğində mühüm rol oynayır.

# ERMƏNİLƏR TƏRƏFİNDƏN DAĞIDILAN AZƏRBAYANIN MEMORİAL MUZEYLƏRİ

**Emin Məlikov**
**dosent**
**Fəxri Hüseynov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**eminmelikov79@gmail.com**
**fexri.huseynov402@gmail.com**

**Açar sözlər:** memorial, muzey, eksponat

1988-ci ildən başlayaraq, erməni təcavüzü nəticəsində 100 mindən artıq əşyanın toplandığı 22 muzey işğal olunmuş və eksponatları dağıdılmışdır. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində 30 mindən artıq tarixi əhəmiyyətli eksponat məhv edilmişdir. Şuşa, Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarında memorial muzeylərində minlərlə abidə talan edilmişdir. Bu muzeylərdə qorunub saxlanılan eksponatlar ermənilər tərəfindən dağıdılmışdır.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun Şuşadakı Memorial Muzeyi 1959-cu ildə yaradılmışdır.Muzeyi 1992-ci il Şuşanın erməni qəsbkarları tərəfindən işğalına kimi fəaliyyət göstərmişdir. Muzeyin ekspozisiyasında Hacıbəyovlar ailəsinə məxsus ev əşyaları ilə yanaşı, bəstəkarın şəxsi əşyaları, şəkilləri, kitabları, ona həsr olunmuş və muzeyə bağışlanmış kitablar mühüm yer tuturdu. Bülbülün ev-muzeyi - Azərbaycan müğənnisi Bülbülün yaşadığı mülk, 1992-ci ilə qədər Şuşada yerləşən memorial muzeyinin filialı olmuşdur. Ev iki otaq və eyvandan ibarət idi. Bülbül bu evdə anadan olmuş və uşaqlıq illərini burada keçirmiş, burada ilk dəfə musiqi aləminə qədəm qoymuş, məşhur xanəndə və musiqiçilərə qulaq asmışdır. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilmişdir.

İşğal olunmuş ərazilərimizdə 762 mədəniyyət abidəsi qalmış və işğalçılar tərəfindən memorial muzeylər, 4 rəsm qalereyasını talayaraq yerlə-yeksan edilmişdir. Canlı muzey olan Şuşa şəhərində 8 muzey fəaliyyət göstərirdi. Dövlət Qarabağ Tarixi Muzeyi, Üzeyir Hacıbəylinin ev-muzeyi, Bülbülün memorial muzeyi, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyinin Şuşa filialı, tarzən Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi – bu muzeylərin hər birinin Azərbaycanın maddi-mənəvi xəzinəsində öz dəyəri və yeri vardı.Xüsusilə 10 salondan ibarət olan Şuşa Dövlət Rəsm Qalereyasında təsviri sənət ustalarının 200-ə yaxın əsəri nümayiş etdirilirdi.

Otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız məhv edilmişdir. Əlbəttə ki, bu erməni vandallığının bir nümunəsidir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı düşməndən azad etdikdən sonra erməni vandallarının bədxah əməlləri bütün dünyaya çatdırıldı və dünya özü bu vəhşiliyin canlı şahidinə çevrildi.

# ÜMUMMILLI LİDER HEYDƏR ƏLİYEV MƏDƏNİ İRSİMİZİN QORUNMASINDA YERİ VƏ ROLU

**Emin Məlikov**
**dosent**
**Rahib Məmmədov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**eminmelikov79@gmail.com**
**rahibmemmedov913@gmail.com**

**Açar sözlər:** mədəni irs, muzey, tarixi abidə

XX əsrdə Azərbaycanın ən böyük şəxsiyyətlərdən biri Ümummilli lider Heydər Əliyev olmuşdur.1969-cu il iyulun 14-də Azərbaycan birinci katibi vəzifəsinə təyin edildi və elə bu hadisədən sonra azərbaycanlılara qarşı münasibət köklü surətdə dəyişildi. Heydər Əliyev digər sahələrdə olduğu kimi mədəni irsimizidə hər zaman diqqət mərkəzində saxlayır. Mədəni yüksəlişə önəm verən dahi şəxsiyyət bu sahədə böyük işlər gördü.1969-1982-ci illərdə ölkəmizdə 1155 kitabxana, 1316 mədəniyyət sarayı, klub və 44 muzey tikilib istifadəyə verilmişdir.Həmin illərdə istər klassik ədəbi irsimizin təbliği və dünya miqyasında təbliğində, istərsə də mədəniyyətin bir çox sahələrinin nəzərəçarpacaq inkişafında onun xidmətləri misilsizdir. "Xalq həmişə öz ziyalıları, mədəni irsi , öz elmi ilə tanınıb" deyən Heydər Əliyev XX əsrin 70-80-ci illərində Azərbaycanın şəhər və rayonlarında tanınmış mədəniyyət, ədəbiyyat və elm xadimlərinin abidələrinin ucaldılmasına nail olunmuşdu.Onun mədəni sahədə siyasətinin nəticəsidir ki, həmin illərdə Nəriman Nərimanovun, Səməd Vurğunun, İmaməddin Nəsiminin, Səttar Bəhlulzadənin, Hüseyn Cavidin, Mehdi Hüseynzadənin və başqa görkəmli şəxsiyyətlərin abidəsi ucaldılmışdır.Bu illərdə paytaxt Bakıda və digər bölgələrimizdə tarixi diyarşünaslıq muzeyləri, həmçinin Səməd Vurğunun, Üzeyir Hacıbəyovun, Cəfər Cabbarlınnın, Hüseyn Cavidin, Bülbülün ev muzeyləri yaradıldı.Tarixi abidələr, ustad memarların tikdiyi binalar, məşhur rəssamların çəkdiyi tablolar, yazıçı və şairlərin yazdığı bədii əsərlər, görkəmli bəstəkarların yaratdığı musiqi əsərləri, xalq sənətkarlığının nümunələri xalqın mədəni irsi sayılır.

Mədəni irsin qorunmasına həmişə diqqət edən Heydər Əliyev dünyanın ən tanımış beynəlxalq təşkilatlarına qoşulmuşdur.Azərbaycan Respublikası UNESCO və İCOM-a üzv olunmuşdur.1996-cı ildə isə UNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.Bu beynəlxalq təşkilata qoşulduqdan sonra, xalqımızın mədəni irsi sayılan İçərişəhər, Qız qalası, Şirvanşahlar saray kompleksi UNESCO-nun Ümumdünya mədəni irsinə daxil edilmişdir.Tam qətiyyətlə demək olar ki, Heydər Əliyev Azərbaycanın mədəni həyatında misilsiz yeniliklərin təşəbbüsçüsü, ilhamvericisi və təşkilatçısı olmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mədəni irsimizin qorunmasında Heydər Əliyevin siyasətini davam etdirir.Onun mədəni irsimizin qorunmasında mühüm rolu olan muzeylərin, kitabxanaların, mədəniyyət saraylarının yaradılması və görkəmli şəxsiyyətlərin abidələrini ucaldılması məqsdilə verdiyi fərman və sərəncamlar bunun bariz nümunəsidir.

# BƏDİİ DİLDƏ SİNONİMLƏR

**Əlirza Əliyev**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**alirzaliyev22@gmail.com**

**Açar sözlər:** sinonim, bədii obrazlıq, sinonimik cərgə

Bədii dilin təsvir və ifadə vasitələrinin dəqiqləşdirilməsində, düzgün və lazımı səviyyədə mənalandırılmasında, konkretləşdirilməsində, təkrarçılığın aradan qaldırılmasında sinonimlər əvəzsiz rol oynayır. Sinonimlər bədii dildə xüsusi sərbəstliyə malikdir. Daha doğrusu, poetik obrazlı funksiyanın artırılmasında sinonimlər fərdi üslubun bütün imkanlarını ortaya qoymuş olur. Elə bir şair və yazıçı tapmaq mümkün deyildir ki, onun özünəməxsus fərdi bədii üslubunda sinonimlər xüsusi mahiyyət kəsb etməmiş olsun. Obrazın, təsvir məkanının bütün incəliklərinin göstərilməsində sinonimlər hər bir yazıçının fərdi üslubunun başlıca cəhətlərindən biri sayılır.

Bu baxımdan bədii əsərlərdə ki sinonimlərə iki aspektə yanaşmaq lazım gəlir. Birinci qrupa ümumən sinonimlər daxildir. Bunlar dildə çoxdan bəri mövcud olan sinonimlərdir və yazıçılar tərəfindən müxtəlif üsul və məqsədlərlə dilə daxil edilir...Lakin yazıçılar yalnız məlum sinonimləri mətnə daxil etməklə kiyafətlənmirlər. Bütün əsərdə surət və hadisələrin xarakterindən asılı olaraq yeni sinonimlər işlədirlər. Bu əlbəttə, hər bir yazıçıdan böyük ustalıq və bacarıq tələb edir. Belə sinonimlər üslubi cəhətdən bir təsvir və tərənnüm vasitəsi kimi hər hansı bir obyekti-əşya və hadisələri oxucu ilə dinləyici qarşısında daha dəqiq mənada canlandırır. Bunların hər birinin ayrı-ayrılıqda nəzərdən keçirək:

İlk öncə dildən hazır götürülmüş sinonimlərin bədii ədəbiyyatda işlədilməsinə diqqət edək: Sevir qarlı qışı, baharı,yazı Sevir yaratmağı, sevir qurmağı (Ə.Kürçaylı). Dumanlar, tüstülər qopmuş qılıncadan, Həyat eşqi ilə odlardan, alovlardan keçir insan (S.Vurğun "İstiqnal təranəsi"). Ocaq yaxıb, od qalayıb ürəklərdə atlanırıq. (M.Müşviq). Burada verdyimiz nümunələrdə "yaratmaq-qurmaq","dumanlar-tüstülər", "odlardan-alovlardan", "ocaq-od" sinonimləri söylədiyimiz fikri bir daha təsdiqləmiş olur və

Bədii dilin zənginliyini, təsvirini, məna tutumunu, üslubi çalarlıqlarını, poetik dəyərini daha yüksək səviyyədə artırmağa səbəb olan sinonimlər: Bir görüş nə qədət gözəl, nə qədər şirin (B.Vahabzadə). Növbə gözləyir kitablar, çəlləyin yanında, Düz tayının dalında. Yerləri dar, qaranlıq, Biganəlik kölgəsində qalıb işıq, bilik (R.Rza "Poeziya ağ nöyüt və sairə). Məktəb əsrin çırağıdır, yeni nəslin yarağıdır, Mədəniyyət ocağıdır (Abdulla Fəruq). Gəlir qulağıma bayaqdan bəri Həzin-həzin ötən qumru səsləri. Xəyalıma köhn bir cahan gəlir. Tozlana-tozlanan bir karvan səsi (O.Sarıvəlli "Dəvə karvanı") şıq paylaşdıqca o insanlara Dağlara, daşlara, sıx ormanlara Ulduzlar yer üstə qoy yaman gərək (S.Vurğun). Yolların yolçusu-teleqraf telləri İlllərin elçisi-teleqraf telləri (M.Müşviq).

Bəzi tədqiqatçıların fikrincə, adi danışıq dilində işlənən leksik vahidlər bədii dildə obrazlılıq yaratmaq imkanından kənardır. Əslində, bu fikirdə olanlar səhvə yol vermiş olurlar. Görkəmli dilçimiz M.Adılov demişkən "Xalq dili təpədən dırnağa obrazlıdır. Xalqın məişətində işlənən, addımbaaddım özünü göstərən sözlər, ifadələr fomaca da, məzmunca da obrazlıdır. Bunun ardınca müəllif şairin dilindən sinonimlərə dair nümunə verir. "Ey əziz oxucu, Ey əziz insan, Ah mehriban ana, Ah əziz ana. ("Acı xatirələr") Zehni də, fikri də, şeiriyyəti də Ağlın yaratdığı min neməti də".

Xalq dilində işlənən leksik sinonimlər, demək olar ki, şairlərimizin əksəriyyətinin şeirlərində obrazlı şəkildə işlənməkdədir: Eşqim, əqidəmin həmişə, hər vaxt Hər şeydən

şirindir dadı dünyanın. İnamdır, imandır, məsləkdir ancaq Bütün zəfərlərin adı dünyada" (B.Vahabzadə "Dörd yüz on altı")

O dəm, o saat, o gün, o vaxt, o an (M.Müşviq "Özümün ki")

El bilir ki, sən mənimsən. Yurdum-yuvam, məskənimsən. (S.Vurğun "Azərbaycan")

Dağlara səs düşsün, çöllərə sad. Gurlayan sellərin dinlə səsini (N.Xəzri).

Bədii ədəbiyyatda sinonimlər müxtəlif şəkildə və müxtəlif mövqedə işlənir. Çox vaxt ayrı-ayrı bədii əsərlərdə sinonimlər qoşa, cüt, yanaşı və s. şəkildə işlənməklə kontekstin mənasına üslubi rəg verir. Sinonimlərin bu cəhətinə bədii ədəbiyyatda kifayət qədər təsadüf olunur. O igid, o qoçaq mərd insanlarınş Könüllü getmişəm köməyinə mən (M.Dilbazi "Əlcəzairli qızı" Mən ayam...Bir adım Ay. Bir adım da Qəmərdir...Mən Ayam Bir adım da Göylər qızı...(Ə.Cəmil "Danışır Ay")

Göründüyü kimi, birinci nümunədə igid-qoçaq-mərd sinonimləri yanaşı işlənmişdir. İkinci nümunədə isə "Ay" sözünü sətirlərdən yığıb düzsək, belə bir sinonimik cərgə (Ay-Qəmər-Hilal-Aypara-göylər) alınır. Hər iki nümunədə sinonimlərin yaratdığı emosionallıq şairin bədii tutumunu, dəyərini artırmaqla yanaşı, onun poetik vüsətinin zənginliyini oxucunun gözü önündə bir daha canladırır.

Bədii üslub sinonimlərin rəngarəngliyi ilə seçilir. Burada sadə, düzəltmə, mürəkkəb sinonimik cərgələrə tez-tez tsədüf olunur. Bəzən də elə sinonimlərə təsadüf olunur ki, yaxınmənalı bir mürəkkəb sözdən ibarət olur: Həmin defislə verilmiş mürəkkəb sözlərin birinci tərəf ilə ikinci tərəfi sinonim təşkil edir. Bu növ faktlara əksər şairlərin əsərlərində təsadüf olunur: Təbiət yenə də al-əlvan geyib Yurdun göy üfüqü yaşıl səməni (N.Xəzri "Zəng elə"). Çökdü qəlbimizə kədər-qəm soyuq yellərə əsəndə (N.Xəzri "Gəlsən də, gəlməsən də"). İnsan da baxmaq üçün gəzər el-el! Gül-çiçəksiz miskin abidəsi (N.Xəzri "Bu necə yaşamaqdır"). Qoy xeyir-bərəkət gəlsin izinlə. Başın sağ olarsa, o vaxta qədər (N.Xəzri "Əjdaha"). Könüldə nə qədər dərdi-srri var (H.Arif "Ləzzət...."). Yollara baxıram bağçalı-bağlı Göylərə baxıram qapısı bağlı. Kainat ixtiyar sirli-soraqlı. Əzəldən yaranıb tamaşa dünya (S.Vurğun "Komsomol" poeması).

Xüsusi sinonimlər yanaşı işləndikdə bədii təsiri oxucunun diqqətini özünə daha tez çəkmiş olur və qüvvətli səslənir. Məslən, Keçir diviziyamız fırtınalardan. Arzular, ümidlər səpilir yerə (Qabil) Gözlərdə yaşlar ağlar, Kirpiklər, qaşlar ağlar...Dil deyib daşlar ağlar (N.Xəzri). Səngərlər-zamanın ayaq izləri Səngərlər-torpağın dərdi,səridir (N.Xəzri). Nə bəydə insaf var, nə xanda qan var (S.Vurğun "Vaqif"). Gözəl qamət, gözəl gərdən, gözəl üz (M.P.Vaqif). Hələ səadətin yolu daşlı, tikanlıdır, hələ zülm silahlı, inam körpə, güclülərin əli qanlıdır (R.Rza "Aclardan toxlara") və s.

Sinonimlərin bədii dildə ən mühüm xüsusiyyətlərindən biri də onların ekspressiv və emosional çalarlıqlar ifadə etməsindədir. Bu, bədii dildə sinonimlərin yüksək üslubi keyfiyyətlərin ifadəsində bir qayda olaraq poetiklik ən başlıca cəhətlərdən biri sayılır.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNiN X SİNFiNDƏ TƏDRİS OLUNAN "KOROĞLU"DASTANINDA ANTROPONİMLƏRİN ŞAGİRDLƏRƏ ÖYRƏDİLMƏSI YOLLARI


**Əlirza Əliyev**
**dosent**
**Şəbnəm Kazımova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**alirzaliyev22@gmail.com**
**Kazimova200010@gmail.com**



**Açar sözlər:** dastan, epos, şəxs adları, ləqəb, titul


"Koroğlu" Türk mədəniyyətində xüsusi yeri olan qəhrəmanlıq dastanlarından biridir. Bu dastan ağızdan – ağıza yayılıb və nəticədə onun müxtəlif versiyaları meydana gəlmişdir. Dastan şifahi xalq ədəbiyyatı nümunəsi kimi dil baxımından da çox zəngindir. Burada onomastik vahidlər özünün müxtəlifliyi ilə diqqəti cəlb edir.

Tədris prosesində dastanın dili üzrə iş apararkən onun onomastik tərkibini, xüsusilə antroponimlərini diqqət mərkəzində saxlayıram.

İlk öncə motivasiya yaratmaq məqsədilə "Uşaqlar, dastanda hansı qəhrəmanlar iştirak edir?" sualı ilə sinifə müraciət edirəm.

1-ci şagird: - Koroğlu, Nigar xanım, Dəli Əhməd, Cinli Mehdi, Ayşə xanım, Dəmirçioğlu, Zəhra xanım, Həsən paşa, Mehtər Murtuz, Həsən xan, Cəfər paşa, Həmidə xanım və.s.

2-ci şagird: - Keçəl Həmzə, Züleyxa xanım, Həmidə xanım, Aşıq Cünun və.s.

Uşaqlar, gördüyünüz kimi burada adlar ilə yanaşı bir sıra ləqəb və titullar da vardır. Bunlar birlikdə antroponimlər adlanır. Kim deyər antroponimlər nəyə deyilir?

Şagird: - Şəxs adları ilə birlikdə ləqəb və titullar antroponimlər adlanır.

Bəli, şəxs adları ilə birlikdə ləqəb, titul və təxəllüslərin məcmusu antroponimlər adlanır.

Şagirdlər ilə birlikdə eposun dilində işlənən antroponimləri aşağıdakı plan əsasında izah edirik.

***Koroğlu eposunda şəxs adları***

a) Dastanın dilində kişi şəxs adları: Alı kişi, Rövşən, Eyvaz, Həsən, Mustafa, Cəlil, Cümin, Həmzə, Murtuz, Süleyman, Kərim, Bolu, Mehdi, Mahmud, və.s
b) Qadın şəxs adları: Nigar, Telli, Mahru. Mələk, Hürü, Rüqiyyə, Əsmər, Möminə, Sənəm, Pərzad, Məhbub, Leyli, Dünya, Mərcan, və.s

Şagirdlərə çatdırıram ki, eposdakı kişi və qadın surətləri dastandakı hadisələrin və sujet xəttinin gedişində və inkişafında qarşılıqlı şəkildə iştirak edirlər. Burada hər bir şəxsin özünəməxsus xarakterik xüsusiyyəti vardır ki, onlar ümumilikdə iki qütbə bölünürlər.

***Dastandakı antroponimlər tərkibində ləqəblər***

Şagirdlərə suallar ilə müraciət edirəm:

Uşaqlar, siz dastanın dilində hansı ləqəbləri tanıyırsınız? Onları şəxs adlar ilə yanaşı işlətməyi unutmayın.

1-ci şagird: - Dəmirçioğlu, Dəli Əhməd, Bəli Əhməd, Aşıq Cünun

2-ci şagird: - Bəbir Alı, Şərxəta, Mədəd, Dəli Cövdar, Sinli Səməd, Sirt Yusif, Qırt Cəlil.

3-cü şagird: - Aşıq Kəngərli, Qurd Cəlil, Qara Cəlil, Tüpdağıdan, Halaypozan, Geridönməz, Qorxuqanmaz, Keçəl Həmzə

Uşaqlar, dastanda "Dəli" sözü hansı mənada işlənir?

Şagird: Dəli məcazi mənada igid, qoçaq deməkdir.

Bəli, bayaqdan adlarını ləqəbləri ilə birlikdə çəkdiyimiz şəxslər xalqın malını əlindən alıb varlanan düşmənlərə qarşı vuruşanlar Koroğlunun dəliləriridir. Gördüyümüz kimi bu igidlərin əksəriyyətinin adları ləqəbləri ilə birlikdə qoşa çəkilir. Lakin dastanda elə qəhrəmanlar da vardır ki, onların adları çəkilməsə də, xanlara, bəylərə qarşı mübarizənin mərkəzində durur. Bunlar Tupdağıdan, Halaypozan, Geridönməz, Qorxuqanmaz və sairələrdir.

***Dastanın dilində titullar***

Dastanın dilində dövrünə müvafiq olaraq bir sıra titullar işlənməkdədir. Bu titulları Xocadan başqa, qalanları xalqın zəhməti, dövlətinin hesabəna yaşayan müftəxorlardır. Bunları aşağıdakı kimi qruplaşdırıb, mənalarını şagirdlərə izah edirəm.

a) Paşa – Osmanlı Dövləti zamanında yüksək mülk məmurlarına deyilirdi: Xəlil paşa – (Ayparanın atası), Cəfər paşa – (Pərzadın atası), Camal paşa (Dünyaxanımın atası), Qara paşa, Cəfər paşa – (Telli xanımın atası) və.s
b) Xan – Orta Asiya və Monqolustan mədəniyyətində lider: Həsən xan – (Mərcan xanımın atası), Əmir xan – (Mərcanın nişanlısı).
c) Bəy – Orta əsrlərdə olan xandan kiçik titul: – Həsən bəy, Gizir oğlu Mustafa bəy
d) Xoca – hikmət, təlim və hidayət simvolu: Xoca Yaqub – (Koroğlunun dostu)

Yekun olaraq şagirdlərin nəzərinə çatdırıram ki, eposdakı bütün antroponimlər ümumilikdə dastanda kompozisiya, süjet xəttinin inkişafında və dilinin zənginləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

## VİRTUAL ARENADA YARANAN LƏTİFƏLƏR

**Əsmər Veyisova**
**müəllim**
**Azərbaycan Dillər Universiteti**
**esmer.veyisova2013@gmail.com**

**Açar sözlər:** virtual lətifələr, virtual folklor, kommunikativ inteqrasiya

Müasir dövrdə elm və texnikanın inkişafı, kommunikativ inteqrasiyanın formalaşması həyatın bütün sahələrinə təsir etdiyi kimi yaradıcılıq sahəsinə də güclü təsir göstərir. Folklorun daima yenilənən, daima işlək və yeni nümunələri yaranmaqda davam edən janrlarından biri sayılan lətifə janrından təbii ki, bu inkişaf prosesi yan keçmir və nəticədə "virtual lətifə" anlayışı meydana çıxır. Virtual lətifə müasir kommunikativ inteqrasiyalardan, sosial şəbəkələrdən meydana çıxan lətifələrdir. Halbuki bu folklor anlayışı çox yenidir. Yəni əvvəlki lətifələrin sosial şəbəkələrdə və yaxud toplumsal mediada işlənməsi hələ virtual lətifələr demək deyil. Bunun üçün lətifələrin yeniliyi, situasiyanın təzəliyi və orijinallığı əsasdır. Bu da ondan irəli gəlir ki, qeyd etdiyimiz kimi lətifə janrı çox sürətlə geniş arealda yayılır ki, bu da sosial şəbəkələr üçün hərəkətverici stimula çevrilir. H.Quliyev internetlə, virtual folklorun yaranma proseduru ilə folklorun analogiyası baxımından yazır ki, "Təbii ki, sürətlə real dünyanın bütün səviyyələrdə alternativinə çevrilən virtual dünya və internet insan

varlığının təbii mahiyyəti və mövcudluğu ilə bağlı olan folklor yaradıcılığının da obyektinə və predmetinə çevrilmişdir.

Ancaq onu da qeyd edək ki, virtual folklor nümunəsi olaraq sosial şəbəkələrdə sərbəst yaradıcılıq üsulu olaraq meydana çıxan virtual lətifələrin praktiki olaraq yaranması əslində folklor presedurunun şərtlərindən doğur. Yəni harada insan varsa, orada folkor yaranır. Bu, sadəcə olaraq yeni texnoloji imkanlar əsasında meydana çıxır ki, ola bilsin ki, bu folklor nümunələri gələcəkdə "kibernetik folklor" adlandırısın. Çünki dövrün şərtləri müəyyən mənada bu kmi örnəklərin meydana çıxmasını şərtləndirir. Bu, təbii ki, lətifələr üçün də keçərlidir. Həm də ona görə ki, texnoloji sosial vasitələrdə ən çox yaradılan elə yeni üsullu lətifələrdir. Ancaq öncə qeyd edək ki, bu kimi lətifələr müxtəlif kommunikativ vasitələrlə bütün dünyada yayılıb ümumi örnəyə çevrilir. Sosial şəbəkələrdə nəinki yeni lətifələr, hətta bu janrda sosial qruplar belə yaradılır. Facebook və s. sosial şəbəkələrdə yaradılan bir neçə "Lətifələr" qrupu, "Lətifələr və gülməli söhbətlər", "Lətifələr və məzəli hadisələr" və s. səhifələr də buna misal ola bilər.

Sosial şəbəkələrdə hətta yeni vulqar lətifələr yaradır ki, bu lətifələr eyni zamanda Azərbaycan və İngilis xalqlarının ümumi örnəklərinə çevrilir. Burada anoloji paraleldən və yaxud tipoloji xüsusiyyətlərdən söhbət gedə bilməz. Eyni lətifələr sadəcə olaraq tərcümə nümunəsi hesab oluna bilər.

Bu da internet əlaqələrinin get-gedə asanlaşmasından, bütün dünyanın bir klaviaturaya sığmasından irəli gəlir. Buna görə də söz yoxdur ki, çox yaxın ərəfədə canlı folklordan virtual folklora keçidin şahidi olacağıq.

Onu da qeyd etmək yerinə düşərdi ki, M.İmanovun redaktorluğu ilə H.Quliyevin virtual folklor sahəsində "Virtual mühitdə folklor: ənənə və kommunikasiya" kitabı da 2019-cu ildə nəşr olunmuşdur. Virtual lətifələrin araşdırılmasında bu kitab çox yaxşı mənbə hesab olunur.

Biz, bu barədə konkret örnəklər də də verə bilərik. Ancaq bütün sayt, qrup və sosial şəbəkələrdə demək olar ki, bu istiqamətdə lətifələr, zarafatlar və atmacalar o qədər çoxdur ki, bu demək olar ki, bu nümunələri təqdim etməyə ehtiyac belə yoxdur. Biz, yalnız problemi qaldırır, praktiki baxımdan bir düyməyə basmağın yetərli olduğunu qeyd edirik. Sadəcə iki fərd olan yerdə folklor olduğu kimi, sosial qruplarda folklorun yeni keçidini müşahidə etmək o qədər də çətin deyil.

## MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ NİSBİ ƏVƏZLİKLƏRİN FUNKSİONAL-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

**Fidan Səlimova**
**filologiya elmləri üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dillər Universiteti**
**fidan_adu@mail.ru**

**Açar sözlər:** nitq hissəsi, əvəzlik, nisbi əvəzlik, semantik

Bildiyimiz kimi, nitq hissələri lap qədim zamanlardan tədqiq edilməyə başlanılmışdır. Nitq hissələri qrammatik formalarına, sintaktik funksiyasına və müstəqil mənalarına görə üç növə ayrılır: əsas, köməkçi və xüsusi nitq hissələri.

Əsas nitq hissəsi olan əvəzlik latınca pronomtep sözündən götürülmüş, tərcümədə adın əvəzi deməkdir. Əvəzliklər də hər bir nitq hissələri kimi sintaktik məna daşıyır, hər hansı suala cavab verə bilir və cümlə üzvü olur.

Q.S.Kazımov "Müasir Azərbaycan dili" dərsliyində yazır.

Əvəzliklər hansı nitq hissələrinin yerində işlənirsə , onun morfoloji əlamətlərini də bu və ya digər dərəcədə qəbul edir. Daha aydın desək , isimləri əvəz etdikdə isim kimi hallanır, isim kimi kim? nə? suallarına cavab verir. Neçə? sualı ilə sayın əvəzində işlənir.

Müasir ingilis dilində nisbi əvəzliklər bunlardır: that, as, who, which, whose. Bu əvəzliklər nitqdə iki funksiyada işlənir. Nisbi əvəzliklər sintaktik funksiya daşıyaraq cümlə üzvü olur və eləcə də bağlayıcı kimi işlənərək təyin budaq cümləsini baş cümləyə bağlayır.

M. Hüseynzadə nisbi əvəzliklər haqqında yazır: Nisbi əvəzliklər sual əvəzliklərindən sintaksis funksiyasına görə fərqlənir. Onların morfoloji adı nisbi əvəzlik, sintaktik adı isə bağlayıcı sözdür. Tabeli mürəkkəb cümlədə işlənib sual bildirməyən yalnız onun komponentlərini bir-birinə bağlayan nisbi əvəzliklər mənşəyinə görə sual əvəzliklərindən törəmişdir. Nisbi əvəzliklər (bağlayıcı sözlər) tabeli mürəkkəb cümlələrdə bağlama vasitəsi kimi çıxış edir.

Müasir Azərbaycan dili dərsliyində nisbi əvəzliklər haqqında yazılır: Bu vaxta qədər Azərbaycan dilçiliyində əvəzliyin bir növü kimi nisbi əvəzliklər tədqiq olunmamışdır. Bunun da əsas səbəbi bu növ əvəzliklərin şəkilcə sual əvəzliklərindən fərqlənməməsi olmuşdur.

Bəzən əvəzliklər başqa nitq hissələri ilə dəyişik salınmış, yəni qarışdırılmışdır. Onlar bəzi xüsusiyyətlərinə görə isimlərlə ,sifətlərlə, saylarla səhv salınmışdır.

Onlar ismi-zəmir, (əvəzlik-isim) adı ilə əsas nitq hissəsi olan isimlə, işarə əvəzlikləri isə "təyini sifət" adı ilə sifətlər qrupuna daxil edilmişdir.

Əvəzlik dilin mürəkkəb və çoxmənalı hissəsini təşkil edir. O, tam məna daşımır, demək olar ki, çox zaman da mətnlə təyin oluna bilir.

Əvəzlik isim, say, sifət və digər nitq hissələrinin yerində işlənə bilir.

## LƏNKƏRANLI GƏNCLƏRİN "TÜRK DÜNYASININ GƏNCLİK PAYTAXTI" OLARAQ AZƏRBAYCAN TARİXİNDƏ YERİ

**Hacı Rauf**
**dosent**
**Mətanət Şadlinskaya**
**baş müəllim**
**Bakı Slavyan Universiteti**
**haci.rauf2@mail.ru**
**sh.metanet@gmail.com**

**Açar sözlər:** Azərbaycanda gənclər siyasəti, "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası" Türk dünyası, Lənkəranda gənclərə qayğı

Azərbaycan Respublikası 1991-ci ildə XX əsrdə dövlət müstəqilliyini ikinci dəfə bərpa etdikdən sonra dünya dövlətləri içərisində gənc nəslin inkişafına qayğı ilə yanaşan və gənclərlə bağlı ardıcıl olaraq siyasət yeridən dövlətlərdən biridir. Müstəqil dövlətimizin bu günkü inkişaf səviyyəsinə çatmasında Ümummilli liderimiz Heydər Əliyevin böyük rolu

olmaqla o, respublikamızın inkişafında gəncllərə böyük diqqət və qayğı iləyanaşmışdır. İstər keçmiş sovet dövründə və yaxud da müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illərdə gənc nəslin ağsaqqalı və himayədarı rolunda çıxış edərək onların problem və qayğılarını daima diqqətdə saxlamış, gənclərimizin inkişaf etməsi üçün əlindən gələni etmişdir. Bu qayğının bariz nümunəsi olaraq 1997-ci ildə Şərqi Avropa məkanında ilk dəfə olaraq fevralın 2-də Azərbaycanda "Gənclər Günü" təsis edilmiş oldu. Ümummilli liderimiz tərəfindən əsası qoyulan dövlətin gənclər siyasəti məhz bu gün Prezident İlham Əliyev tərəfindən uğurlu şəkildə cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə ardıcıl olaraq davam etdirilir. Müstəqil dövlətimizdə gənclərin yüksək səviyyədə yetişməsi, onların ölkə daxilində və xarici dövlətlərdə müasir beynəlxalq standartlara uyğun təhsil almaları, bununla yanaşı respublikamızı beynəlxalq aləmdə layiqli şəkildə təmsil edə bilmələri üçün hər cür şərait yaradılmışdır. Bu gün gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması, maariflən dirilməsi və inkişafı gənclər siyasətinin əsasını təşkil etməklə 34 illik müstəqilliyimiz dövründə keçmiş problemimiz olan Qarabağın azad edilməsində gənclərin göstərdikləri qəhrəmanlıq səlnamələri dövlətimiz tərəfindən düzgün aparılan gənclər siyasətinin müsbət nəticəsidir.

2012-ci ildən bu günədək paytaxtımız Bakı şəhəri istisna olmaqla, hər il Azərbaycanın şəhər və rayonlarından biri Prezident İlham Əliyevin sərəncamı ilə "Gənclər Paytaxtı" elan olunur. Bundan əvvəl bir sıra şəhər və rayonlarımız (buna qədər Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı, Göygöl, Tovuz, Mingəçevir) Azərbaycanın "Gənclər Paytaxtı" statusunu daşıyır. Bu zaman elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş üzrə, ictimai və sosialyönümlü fəaliyyət sahələri, bununla yanaşı innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqləndiklərinə görə təltif olunan şəxslərə 2024 cü il Gənclər üçün Prezident mükafatları təqdim edilməsini də iftixar hissi ilə qeyd etmək lazımdır. Bu gün müstəqil Azərbaycanda cəmiyyətin ən çevik təbəqəsi olan gənclərin yüksək həyat və fəaliyyəti ölkəmizin maddi və mənəvi inkişafına bilavasitə təsir göstərir. Bu fikrə əsasən Lənkəran nümunəvi şəhər sayılır. Məlum olduğu kimi, Lənkəran 2024-cü il üzrə Türk Dövlətləri Təşkilatı tərəfindən "Türk Dünyasının Gənclik Paytaxtı" elan edilimişdir.

Dövlət Statistika Komitəsindən 2023-cü ilin yanvarın 1-nə verilən rəsmi məlumata əsasən Azərbaycan əhalisinin 2,3 milyon nəfərini və yaxudda 22,7 faizini gənclər təşkil edir. Bu məlumata əsasən Lənkəranın şəhər və kəndlərində demoqrafik cəhətdən 14-29 yaş arasında olan 51,7 min gənc fəaliyyət göstərməklə gənc nəslin fəaliyyəti və gələcək istedadlarının üzə çıxarılmasında Lənkəran Gənclər Mərkəzinin layiqli xidməti vardır. 2019-cu il dekabrın 22-dən fəaliyyət göstərən Gənclərin İnkişaf və Karyera Mərkəzi daxilində çoxşaxəli sahələr Lənkəran gənclərinin daha çox cəmləndiyi qaynar məkanlardan biri olaraq tanınmaqla yanaşı, şəhərin mərkəzində yerləşən Akademik Zərifə Əliyeva küçəsin¬də yaşayış binalarının ərazisində "Sağlam məhəllə" adlı idman zonasının fəaliyyəti, Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi, bununla yanaşı Lənnkəran şəhərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran-Astara Regional nümayəndəliyi, "Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosasiyası, "İntellekt" Sərhədsiz Gənc Maarifçilər, "Ekoturizm" ictimai birlikləri və "Cənub könüllüləri" qrupu bir-birindən maraqlı tədbirləri ilə gənclərin müasirliyini göstərən qeyri-hölumət qurumları kimi

fəaliyyət göstərirlər. Məhz bu səbədən respublikamızın ali təhsil ocaqlarında təhsil alan Lənkəranlı gənclərlə yanaşı Lənkəran şəhərində fəaliyyət göstərən Lənkəran Dövlət Universitetində (LDU) 7889, LDU nəzdində fəaliyyət göstərən Sosial və Aqrar-Texnoloji Kollecində 1100, Tibb Kollecində 537, Lənkəran Dövlət Peşə Təhsili Mərkəzində 400 gənc müxtəlif ixtisaslar üzrə təhsil alırlar.

Lənkəran və Astara Regional Gənclər və İdman İdarəsi şəhər icra hakimiyyətinin önəmli dəstəyi əsasında "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"nı və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası"nın icrası istiqamətində bir sıra kütləvi tədbirlərİ həyata keçirilməklə bunlardan Heydər Əliyev Parkında əlil, yeniyetmə və gənclər üçün Beynəlxalq Əlillər Günü münasibəti ilə həyata keçirilmiş xeyriyyə sərgisində onların sosial müdafiəsinə dəstək məqsədi ilə əl işlərinin nümayişi və satışının təşkilini, rayonda bilik və bacarığı ilə seçilən gənclər arasında "Breyn-Rinq", "Xəmsə", "Nə, harada, nə zaman?" kimi yarışlarda gənclərin savad və qüvvəsini sınamalarını, "Gənc sahibkar və fermerlər" adlı görüşlərin təşkil olunmasını, gənclərin iqtisadi biliklərinin artırılması və.d çoxsaylı tədbirlərin təşkili respublikamızda, xüsusilədə Lənkəran şəhərində gənclər siyasətinin uğurla həyata keçirilməsi ilə cənub bölgəsinin mirvarisini dünyaya daha yaxından tanıdılması istiqamətində sadalıdığımız çoxsaylı tədbirlərin kiçik bir qismidir.

Məhz yuxarıda sadalanan müsbət yönlü belə tədbirlər sayəsində cənub bölgəsinə aid olan bir sıra etnik qrupun təmsil edilməsi dövlətimizin tolerant və multikulturalizm istiqamətində həyata keçirilən müsbət istiqamətli addımlarından biridir. Həyata keçirilən gənclər siyasətinə əsasən ictimai cəhətdən fəal və çevik düşünmə qabiliyyətinə malik olan oğlan və qızlar Lənkəranda fəaliyyət göstərən tələbə gənclər təşkilatlarında, tələbə elmi cəmiyyətlərində, yaradıcı birliklərdə fəaliyyətlərini uğurla davam etdirməklə yanaşı Vətənin müdafiəsində, ərazi bütövlü-yümüzün təmin olunmasında lənkəranlı gənclər xüsusilə fərqlənirlər. Vətən mü¬haribəsində canından, qanından keçməyə hazır olan 67 Lənkəranlı gənc şəhidlik zirvəsinə yüksələ bilmiş, yüzlərlə gənc I və II Qarabağ müharibələrində qazi olmaqla müstəqil dövlətimiz tərəfindən fəxri adlara, müxtəlif orden və medallara layiq görülmüşlər. Bu gün onların qəhrəmanlıq nümunəsi ilə böyüyən gənc nəslin vətənpərvərlik tərbiyəsində yuxarıda müxtəsər şəkildə qeyd edilən fikirlər əhəmiyyətli dərəcədə böyük rol oynayır.

2024-cü ildə Türk Dövlətləri Təşkilatı tərəfindən "Gənclər Paytaxtı" elan edilən Lənkəran şəhərinə belə bir layiqli statusun verilməsinə uygun olaraq bu il üçün çox əhatəli və genişmiqyaslı tədbirlər planı hazırlanaraq həyata keçirilməklə belə bir mötəbər konfransın Lənkəran Dövlət Universitetində təşkili ilə yanaşı bu və digər sahələrdə atılan addımlar uzun illər boyu yaddaşlarda qalaraq, müstəqil Azərbaycan tarixində özünə yer almaqla Lənkəran şəhərinin və onun gənc nəslinin şöhrətinin "Türk Dünyasının Gənclik Paytaxtı" olaraq daha da inkişaf etməsində irəlyə döğru atılan böyük bir addım olacaqdır.

# MÜASİR AZƏRBAYCAN DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ MƏNŞƏ ETİBARİLƏ MÜXTƏLİF KOMPONENTLİ LEKSİK VAHİDLƏR

**İlahə Seyfullayeva**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**Seyfullayeva-i@mail.ru**

**Açar sözlər:** lüğət tərkibi, leksik vahid, fars sözü, ərəb sözü

Dünyanın ən zəngin dillərindən biri olan Azərbaycan dilinin lüğət tərkibi olduqca rəngarəngdir. Burada əsas yeri türk mənşəli sadə, düzəltmə və mürəkkəb leksik vahidlər tutsa da, dilimizin lüğət tərkibində elə düzəltmə və mürəkkəb sözlərə rast gəlirik ki, bunların komponentləri digər dillərə məxsus müstəqil leksik vahidlərdən və ya mənbə dildə müstəqil kök hüququnda olub, dilimizdə sözdüzəldici şəkilçi kimi fəaliyyət göstərən ünsürlərdən ibarətdir. Haqqında danışdığımız sözləri aşağıdakı qruplara ayırmaq olar:

1. Tərəflərindən biri fars, diğəri Azərbaycan sözü olanlar;
2. Hər iki tərəfi ərəb mənşəli sözdən ibarət olanlar;
3. Biri fars, digəri ərəb mənşəli sözlərdən təşkil olunanlar;
4. Tərəfləri Azərbaycan və ərəb sözlərindən ibarət olanlar;
5. Tərəflərindən biri ərəb mənşəli söz, diğəri fars mənşəli leksik şəkilçidən ibarət olanlar;
6. Hər iki tərəfi fars mənşəli sözlərdən təşkil olunanlar.

Misallara nəzər salaq: Müasir Azərbaycan dilinin lüğət tərkibinə daxil olan *“əhəngdaşı”* mürəkkəb leksik vahidi fars mənşəli *“əhəng”* və Azərbaycan mənşəli *“daş”* sözlərindən təşkil olunmuşdur. Ikinci növ təyini söz birləşməsi modeli əsasında yaranmış bu mürəkkəb söz dilimizdə “tərkibində əhəng olan çöküntü süxur – inşaat materialı” mənasını ifadə edir.

Dilimizdə “qeyri-adi əxlaqı, zehni, zəkası, təbiəti etibarilə adi insanlardan fərqlənən adam” mənasını ifadə edən *“fövqəlbəşər”* sözü iki ərəb mənşəli leksik vahid – *“fövq”* və *“bəşər”* sözlərinin birləşməsindən ibarət olub dilimizdə fəal şəkildə işlənməkdədir. İki söz arasındakı *“əl”* ünsürü isə ərəb dilində müəyyənlik bildirən *“-əl”* artiklindən ibarətdir. Ərəb dilində bu artikl ad qruplu sözlərin (isim, sifət, say) əvvəlində işlənərək müəyyənlik bildirir. Və ya buna bənzər *“fövqəltəbii”* sözü də ərəb mənşəli iki ünsür – *“fövq”* və *“təbii”* sözlərindən təşkil olunmuşdur.

Azərbaycan dilinin lüğət tərkibinə daxil olan *“hacıleylək”* sözü ərəb mənşəli *“hacı”* və Azərbaycan mənşəli *“leylək”* sözlərinin birləşməsindən yaranmış mürəkkəb leksik vahiddir. Bu söz müasir dilimizdə “leylək” mənası ilə yanaşı, zarafatyana işlənərək “uzundraz, boyu həddindən artıq uzun adam” mənasını da ifadə edir.

Göstərdiyimiz nümunələrlə yanaşı, müasir dilimizdə ərəb mənşəli sözlərlə fars dilinə məxsus bir sıra sözlərin birləşməsindən yaranmış xeyli leksik vahid də işlənir ki, bunların fars mənşəli qisminin mənbə dildə müstəqil mənalı söz kimi işlədilməsinə baxmayaraq, müasir Azərbaycan dilində sözdüzəldici şəkilçi kimi qəbul olunur. Haqqında danışdığımız leksik vahidlərə *“ecazkar”, “fədakar”, “əlamətdar”, “ədəbiyyatşünas”, “əczaxana”, “əlaqədar”* və s. sözləri misal göstərmək olar.

Beləliklə, göstərdiyimiz nümunələrdən də göründüyü kimi, dilimizin lüğət tərkibində mənşə etibarilə müxtəlif komponentli düzəltmə və mürəkkəb leksik vahidlərə rast gəlirik ki, bunların tərkib hissələri müxtəlif məqamlarda ərəb, fars və Azərbaycan sözlərindən təşkil

olunmuşdur. Haqqında danışdığımız sözlərin istər klassik ədəbiyyatımızda, istərsə də müasir ədəbi dilimizdə geniş şəkildə işlədilməsinə təsadüf edirik.

## İNGİLİS DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

**İlham Tahirov**
**professor**
**Allahverdi Həsənov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ilham_tahir@rambler.ru**
**allahverdihsnov52@gmail.com**

**Açar sözlər:** söz birləşmələri, sintaktik əlaqə, bitişik əlaqə, koordinasiya əlaqəsi, obyektiv xüsusiyyətlər

Söz birləşmələri istənilən dil sistemində mühüm yer tutur və dil quruluşunun bəzi xüsusiyyətlərini göstərir. Bir dilin qrammatik quruluşunu söz birləşmələrinin köməyi ilə öyrənmək olar. Beləliklə, onlar dilin qrammatik struktur sabitliyini və inkişaf meylini təqdim etməkdə böyük rol oynayırlar. Qrammatik quruluşu göstərmək o demək deyil ki, söz birləşmələri yalnız dilin qrammatikası ilə məşğul olur. Onlar həm də leksikologiya, leksikoqrafiya və frazeologiya və söz yaradıcılığı ilə bağlıdır. Söz birləşmələrinin özünəməxsus xüsusi mənaları olur və onlar əmələ gəldikləri sözlərin leksik mənalarından asılıdır və həm də onlardan ibarətdir. Frazeoloji birləşmələr söz birləşmələrinin bəzi modellərinin köməyi ilə əmələ gəlir və bəzi ifadələrin əsas mənbəyidir. Söz kimi söz birləşmələri cümlədə kommunikativ funksiyaya malikdir. Məhz buna görə də söz birləşmələri iki və ya daha çox sözdən ibarət olan, özünəməxsus məna daşıyan birləşmələr hesab edilir. Söz birləşmələrinin söz və cümlələrdən fərqlənməsinin səbəbi də budur. Söz birləşmələri əsasən əsas – nüvə sözdən və ondan asılı olaraq söz və ya sözlərdən ibarətdir. Beləliklə, onlar semantik və qrammatik xüsusiyyətlərinə görə iki və ya daha çox sözü birləşdirərək əmələ gəlirlər. Söz birləşmələri əşya və hərəkətlərin mürəkkəb adlarını ifadə edir. Məsələn: Happy woman (xoşbəxt qadın), to have a lesson (dərs keçmək), wooden door (taxta qapı), və s. Söz birləşmələrinin müəyyənləşməsində söz birləşmələrinin komponentlərinin leksika-semantik əlaqəsi və bu əlaqənin xüsusiyyətləri, simvolları böyük rol oynayır. Söz birləşmələrinin komponentləri arasında semantik əlaqə daxili mahiyyət, onlar arasındakı qrammatik əlaqə isə zahiri mahiyyət hesab edilir. Obyektiv əlaqələr söz birləşmələrində, eləcə də cümlələrdə sözlərin əlaqələndirilməsinin əsas mənbəyi və mahiyyətini təşkil edir. Obyektiv aləmdə əşya və hərəkətlər arasındakı əlaqə fərqi kimi, söz birləşmələrinin komponentləri arasında semantik məna da çox müxtəlif və rəngarəngdir:

1. Predikativ əlaqə: he thinks (o düşünür), she walks (o gəzir) və s.
2. Obyektiv əlaqə: to read a book (kitab oxumaq),to sell vegetables (tərəvəz satmaq) və s.
3. Atributiv əlaqə:old flat (qoca mənzil), rich person (varlı şəxs) və s.
4. Nisbi bağlılıq: to sleep soundly (sağlam yatmaq), to speak loudly (ucadan danışmaq) və s.

Hər dildə söz birləşmələri fərqli şəkildə yaranır və onları təşkil edən komponentlər də müxtəlifdir. Söz birləşmələrinin formalaşması dilin daxili obyektiv xüsusiyyətlərinə əsaslanır

və dil üçün vacib olan xüsusi xüsusiyyətlərə malikdir. Söz birləşmələrinin yaranma və əlaqə prinsiplərinin müxtəlif olmasına baxmayaraq, onların komponentlər arasında semantik əlaqəsi demək olar ki, eynidir. Bu o deməkdir ki, söz birləşmələrinin komponentləri arasında semantik əlaqələr bütün dillərdə müəyyən mənada ümumidir. Bunun əsas səbəbi təfəkkür birliyi və yuxarıda qeyd etdiyimiz kimi obyektiv aləmdəki şeylərin münasibətidir. Söz birləşmələrinin komponentləri arasındakı qrammatik əlaqələr dilçilikdə sintaktik münasibət adlanır. Beləliklə, söz birləşmələrinin formaları onları əmələ gətirən komponentlər arasındakı sintaktik əlaqələrlə bilavasitə bağlıdır. Söz birləşmələrinin sintaktik əlaqələri içərisində hər bir dilin özünəməxsus xüsusiyyətləri vardır. Beləliklə, dilçilər müxtəlif sistemli dillərdə, ingilis və azərbaycan dillərində araşdırma apararkən bir çox çətinliklərlə üzləşirlər.Demək olar ki, bütün dillərdə söz birləşmələri arasında üç növ sintaktik əlaqə mövcuddur (idarəedici, bitişik və əlaqələndirici). Baxmayaraq ki, kainatın əksər dillərində söz birləşmələri sintaktik əlaqələr əsasında formalaşır və onların istifadə tezliyinin intensivliyi tamamilə fərqli şəkildə müşahidə olunur.Beləliklə, onlar hər dildə ümumi deyil. Buna görə də, onlardan biri daha çox yayılmışdır, digəri isə daha az. Sintaktik əlaqələrdən istifadənin bu müxtəlifliyi konkret dilin morfoloji tərkibindən asılıdır. Sözlər sintaktik əlaqə zamanı morfoloji cəhətdən dəyişir və sonra sintaktik şəkildə birləşir. Sintaktik əlaqə yollarından asılı olaraq sintaktik əlaqələr birtərəfli, ikitərəfli və birbaşa ola bilər. Bitişik əlaqə birtərəfli və birbaşadır; koordinasiya əlaqəsi ikitərəfli və birbaşadır; bitişik əlaqə kimi idarəçilik əlaqələri də birtərəfli və birbaşadır. Koordinasiya əlaqəsində asılı söz birləşmənin nüvə sözü ilə eyni morfoloji formada işlənir. Koordinasiya əlaqəsi əsasən birləşməni ehtiva edən sözlərin cins və say kateqoriyasına görə müşahidə olunur. Buna görə də bu sintaktik əlaqə cins, hal və say kateqoriyalarına malik dillərdə, məsələn: rus, alman dillərində istifadə olunur. İdarəetmə münasibətində söz birləşməsinin əsas tərəfi əsasən feldən ibarətdir. Əgər söz birləşməsinin tərkib hissələri arasında fel varsa, əsas tərəf ümumiyyətlə feldir və digər komponentləri özünə tabe edir. Məsələn: to open the door (qapını açmaq), to come back (geri qayıtmaq) və s. Bitişik əlaqənin söz birləşməsini əmələ gətirən formal vasitəsi yoxdur. Məsələn: clever boy(ağıllı oğlan). Burada "boy" (oğlan) sözü əsasdır "clever" (ağıllı) sözü asılıdır. Beləliklə, görürük ki, bitişik əlaqəni təqdim edən heç bir xüsusi xüsusiyyət yoxdur. Müasir ingilis dili analitik dil olduğu üçün bu dildə əmələ gələn söz birləşmələri əsasən bitişik münasibətlə bağlıdır. Söz birləşmələrinin əsas sözü isə asılı sözdən əvvəl də, sonra da işlənə bilər. məs. wooden door (taxta qapı) (sonra), to walk fast(sürətli addımlamaq)(əvvəl) və s. Nəhayət, qeyd etmək lazımdır ki, həm ingilis, həm də Azərbaycan dillərində söz birləşmələrinin özünəməxsus quruluşu, komponentləri arasında spesifik semantik və sintaktik əlaqələri vardır və bu münasibətlər hər iki dildə söz birləşməsinin əmələ gəlmə sisteminə təsir göstərir

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN MÜASIR ELEKTRON TƏDRİS VASİTƏLƏRİ

**İlham Tahirov**
**professor**
**Elvira Rzayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ilham_tahir@rambler.ru**
**elvirarzayeva21@mail.ru**

**Açar sözlər:** müasir elektron tədris vəsaitləri, rəqəmsal era, ingilis dili tədrisi, interaktiv fəaliyyət, müasir texnologiya, pedaqogika

Biz texnologiyanın hər yerdə mövcud və əvəzolunmaz olduğu bir dünyada yaşayırıq. Texnologiyanın hər yerdə olması səbəbindən ingilis dilinin tədrisində də böyük dəyişikliklər baş vermişdir. Daim inkişaf edən texnologiyanın tətbiqi ingilis dilinin tədrisi və öyrənilməsi prosesində əhəmiyyətli irəliləyişdir. Müasir ingilis dili müəllimlərinin əksəriyyəti tədrisi asanlaşdırmaq üçün nəzərdə tutulmuş bir sıra texnoloji vəsaitlərdən fəal şəkildə istifadə edirlər.

Müasir cəmiyyətdə elektron tədris vəsaitlərin inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biri hesab edilir. Təlim prosesində müasir texnologiyalardan istifadə, məqsədin reallaşmasına xidmət göstərən fəal təlim üsullarından biridir. Dərslərdə elektron tədris vasitələrindən istifadə olunması təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir edir. Xarici dilin tədrisinin effektiv olması üçün texnologiyaların tətbiqi vacib şərtdir.

Ənənəvi tədris rejimində müəllimlər sinifdə hər şeyin mənbəyi, tələbələr isə yalnız dinləyicilər idi. Müəllimlər aktiv, tələbələr passiv obyektlər idi. Belə yanaşma bu gün dəyişir. İndi tələbələr tədris və təlim prosesinin mərkəzidir. Müasir texnologiyadan istifadə təkcə müasir cihazların istifadəsi ilə məhdudlaşmır, əksinə, daha sürətli və hərtərəfli öyrənmə prosesini asanlaşdıran tədris metodlarının tətbiqini təmin edir.

Mövcud pedaqoji nəzəriyyələrə görə, müasir texnologiyardan istifadə təhsilalanların dil, bilik və bacarıqlarını daha yaxşı mənimsəmək və təkmilləşdirmək iqtidarındadır. İnternet ingilis dilinin tədrisini və öyrənilməsini sürətləndirə bilən proqram təminatına, tətbiqlərə və bir sıra köməkçi platformalara asan çıxışı təmin edir. Bu imkanlar hamı üçün geniş şəkildə əlçatan olsa da, qeyd olunur ki, müəllimlər çox vaxt müxtəlif alətlərin və tədris metodlarının idarə edilməsində əsas rol oynayırlar. Bundan əlavə, bir çox bu cür proqramlar xüsusi olaraq effektiv ingilis dili tədrisini təşkil etmək və eyni zamanda öyrənənlərin ingilis dili bacarıqlarını başa düşmələrini və mənimsəmələri üçün nəzərdə tutulmuşdur.

Tələbələr onlayn mühiti həyatlarına uyğunlaşdırmaq üçün əlverişli yol hesab edirlər. Onlayn kurslar vaxta və ya məkana bağlı olmayan kurslardır və istənilən vaxt istənilən yerdən təlimat almaq imkanı verir. Gündə 24 saat, həftənin yeddi günü İnternetə çıxışı olan, istənilən kompüterdən kursa daxil olmaq imkanı bugünkü tələbələrin çoxu üçün böyük stimuldur. Onlayn təhsil internet üzərindən baş verən təhsildir. Buna "e-təlim" də deyilir.

Ənənəvi metodlar əsasən mühazirələrə əsaslanırdısa, müasir təlim metodları interaktiv təlimə əsaslanır. İnternet, İnteraktiv Lövhələr, Mobil Telefonlar, Skype, Twitter, YouTube və bir çox başqa platformalar interaktiv əsaslı tədris sistemləridir. İnternet müasir dövrün ən faydalı texnologiyasıdır və bizə təkcə gündəlik həyatımızda deyil, həm də peşəkar

həyatımızda kömək edir. Təhsil məqsədləri üçün məlumat toplamaq və müxtəlif mövzularda araşdırma aparmaq və ya biliklərə əlavə etmək üçün geniş istifadə olunur.

YouTube videoları lüğəti, vurğuları, tələffüzləri, səs modulyasiyasını artırmaq üçün istifadə edilə bilər. İngilis dilinin tədrisində YouTube-dan istifadənin əsl üstünlüyü ondan ibarətdir ki, o, insanların istifadə etdiyi gündəlik ingilis dilinin orijinal nümunələrini təqdim edir.

Skype, Zoom, MS Teams kimi proqramlardan istifadə müəllimlər və tələbələr üçün dünyanın istənilən yerində əməkdaşlıq etmək imkanları təqdim edir. Bu, xarici dil sinifindəki tələbələrə dil bacarıqlarını tətbiq etməkdən ötrü başqa ölkələrdəki siniflərlə əlaqə yaratmaq üçün böyük imkanlar təmin edir.

Twitter, tələbələrin ingilis dilini daha da yaxşılaşdırmağa kömək edə biləcək sosial şəbəkə proqramıdır.

Ağıllı lövhələr ənənəvi lövhələr və ya flipçartları yaxşı əvəz edir, çünki onlar tələbələrə kompüterin iş masasında təqdim oluna bilən hər şeyi (təhsil proqramı, vebsaytları) göstərmək yollarını təmin edir.

Mobil telefonların öyrənmə vasitəsi kimi istifadəsi geniş çeşiddə tətbiqlərə malikdir. İstənilən vaxt istənilən yerdə onlayn dərslər keçirməyə kömək edir. Daşımaq asandır və idarə etmək rahatdır.

Dil müəllimləri əvvəllər öyrətdikləri kimi dərs deyirlərsə, o zaman ingilis dilini öyrənmək üçün tələb olunan məqsədlərə nail olmaq bir qədər çətin ola bilər. Ənənəvi tədrisdə dil bacarıqlarını (listening, speaking, reading, writing) inkişaf etdirmək üçün səmərəli və ya yaradıcı fəaliyyət təmin edilmirdi. Bu səbəbdən xarici dil müəllimləri texnologiyanın inkişafını ürəkdən alqışlamalı və ondan tədris prosesini dəstəkləmək üçün bir vasitə kimi istifadə etməlidirlər. Yeni tədris üsulu hər bir müəllim, şagird və valideyn tərəfindən yüksək qiymətləndirilir və rəğbətlə qarşılanır.

Müasir texnologiyalardan istifadənin əsas məqsədlərindən biri tələbələri dil öyrənməyə fəal şəkildə cəlb etmək və onları ingilis dili bacarıqlarını praktiki və real şəkildə mənimsəməyə həvəsləndirməkdir. Bu, şagirdlərin bir-biri ilə ünsiyyət qurmağa həvəsləndirməyə yönləndirilmişdir. Beləliklə, rəqəmsallaşdırma olmadan indiki tədris-təlim ağlasığmaz və anlaşılmazdır.

## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ DİALOQLAR VASİTƏSİLƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ

**İlham Tahirov**
**professor**
**Günay Xəlilova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ilham_tahir@rambler.ru**
**gunaykhalilova8@gmail.com**

**Açar sözlər:** problem, sərbəst düşüncə, dialoq, ünsiyyət, dil, şifahi nitq

Ümumi təhsil müəssisələrində ingilis dili dərslərində tələbələrin fikrinin, münasibətinin sərbəst şəkildə bildirməsi, onlarda şifahi nitqin inkişafının, tənqidi təfəkkürün

inkişaf etdirilməsi üzrə yeni təlim strategiyalarının tətbiqi xarici dil müəllimlərinin əsas vəzifələrindən biridir. Buna əsaslanaraq qeyd etmək lazımdır ki, tələbələrin mövzu ətrafında idraki inkişafı xarici dilin tədrisinin vacib məqsədlərindəndir. İngilis dili ünsiyyət üçün şifahi dil kimi beynəlxalq dillərdən biridir. İngilis dili həm də dünyanın, demək olar ki, hər yerində istifadə olunan universal tədris dilidir. Ümumi təhsil müəssisələrində ingilis dilinin tədrisi tələbələrin təfəkkür bacarıqlarının formalaşmasına əsaslanan yeni məzmuna malikdir. Mürəkkəbləşən dünyada məktəbi bitirən hər bir gəncin uğurlu müvəffəqiyyət qazanmasında ingilis dilində sərbəst ünsiyyət bundan əlavə tənqidi düşüncəyə malik olmaq vacib şərtdir və bu bir kompetensiya kimi qəbul olunur. Şifahi nitqin düzgün formalaşması, fikrin doğru çatdırılması , müzakirə aparmaq, münasibət bildirmək vacib və zəruri bir bacarıq kimi tələbələrin gələcək təhsilini davam etdirməsində düzgün seçim etmək, zehni və məntiqi sualların öhdəsindən gəlməyə kömək edir, milli dəyərləri, innovasiyaları və təhsil irəliləyişlərini qiymətləndirmək üçün istifadə edilir. Qlobal problemlərin həllində tələbələrin ingilis dilində təfəkkür və idraki düşüncə əsaslı bilik, bacarıq və vərdişlərə sahib olması strateji hədəflərdən hesab olunur. Şifahi nitqdə dialoqlar fəaliyyəti yerinə yetirməyə yönəlmiş aydın, əsaslı, əks etdirən vasitədir. Burada sadəcə mövzuları, faktları əzbərləmək yerinə öz eşitdiklərinizi və ya oxuduqlarınızı necə çatdırmağa nail olmaq yollarını əhatə edir.

Əsas məqsəd ingilis dilinin tədrisi zamanı tələbələrdə ünsiyyəti, nitqi, tənqidi düşüncə qabiliyyətlərini formalaşdırarkən müəllimlərin qarşılaşdıqları çətinlikləri müəyyən etmək və onların həlli yollarını müzakirə etməkdir. Bu mövzu və ya materiallar əsasında həyata keçirilən, dərindən düşünməyi tələb edən aktiv bir prosesdir. Nümunə olaraq E-Tvinninq layihəsi çərçivəsində layihə əsaslı təlimdən (LƏT) istifadə edilib, tələbələrin mövzular üzrə situasiyanı şərh etmək, cavablandırmaq, vəziyyəti təhlil etmək, nəticə çıxarmaq, izah etmək və özünə nəzarət etmək kimi bacarıqları öyrənilib. Bu araşdırmanın nəticəsində müəllimlərin düzgün fasilitasiya qabiliyyətləri, ingilis dilinin layihə əsaslı təlimində tələb olunan aspektləri bilmək, zəngin lüğətə, düzgün tələffüzə malik olmaq, kontekstual ifadə və etiketlərdən yerində istifadə etmək, orijinal dialoqlar qurmaq və ya problem ətrafında mövzu seçmək bacarıqları da müəyyən olunub. Araşdırmalar zamanı məlum oldu ki, müəllimlər tələbələrin bir biri ilə ingilis dilində ünsiyyət qurmaq, bununla belə dialoqlar vasitəsilə şifahi nitqin inkişaf yollarını təkmilləşdirmək üçün yeni texnikalar haqqında kifayət qədər təsəvvürə malikdirlər və tələbələrin qarşılıqlı fikir mübadiləsi, bir birilə hansısa mövzu üzrə muzakirələr apararaq sərbəst düşüncə tərzinə müsbət təsir edən təlim mühiti yaradılıb.

## AZƏRBAYCANIN TÜRK DÜNYASINA İNTEQRASİYASINDA BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

**Kamal Mahmudov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**kamal-1965@mail.ru**

**Açar sözlər:** türkdilli ölkələr, türk dünyası, beynəlxalq təşkilatlar, inteqrasiya

XXI əsrin ilk onilliyinin sonlarında beynəlxalq münasibətlər sistemində mühüm dəyişikliklər baş verdi. Bu zaman başlamış proseslər beynəlxalq münasibətlərdə keyfiyyətcə yeni bir dövrün başlandığını iddia etməyə əsas verir.

1991-ci ildə SSRİ-nin süqutu ilə ikinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində iki sistemin, kapitalizm və sosializm sisteminin hərbi, siyasi və ideoloji qarşıduraması-"Soyuq müharibə" başa çatdı. Sosializm sistemi süqut etdi və keçmiş sosialist ölkələrini birləşdirən təşkilatlar buraxıldı. Bu qarşudurmadan qalib çıxan ABŞ və Qərb ölkələri dünya siyasətində aparıcı rol oynamağa başladılar. Beynəlxalq təşkilatların demək olar ki, əksəriyyətində bu ölkələr aparıcı rol oynayırdılar.

XXI əsirin əvvəllərində dünyada gedən qlobal iqtisadi və siyasi proseslər beynəlxalq münasibətlər prosesinə də təsir göstərdi. 11 sentyabar terror aktından sonra ABŞ-ın Əfqanıstanı və İraqı işğalı Qərblə bəzi İslam ölkələri arasında münasibətlərin gərginləşməsinə səbəb oldu. Eyni zamanda Avropa ölkələrində islamafobiya meylləri gücləndi. Qərb ölkələrinin dominantlıq etdiyi beynəlxalq təşkilatların nüfuzu azalmağa başladı. 2007-ci ildə Münhen konfransında çıxış edən Rusiya prezidenti birqutblü dünya sisteminə qarşı çıxaraq onun mövcud reallığı əks etdirmədiyini iddia etdi. Çinin iqtisadi inkişafı ilə yanaşı Hindistanın iqtisadi uğurları, bu ölkələrlə yanaşı Türkiyə, Braziliya kimi dövlətlərin beynəlxaq münasibətlərə təsirlərinin getdikcə artması, BMT və digər beynəlxalq təşkilatların nüfuzunun zəifləməsi fonunda BRİCS, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər regional təşkilatların beynəlxalq münasibətlər sistemində rolunun artması müşahidə olunur.

Müstəqilliyini əldə etdiyi ilk illərdə Azərbaycan Ermənistanın təcavüzüə uğradı, ərazisinin bir hissəsi işğal olundu. Bir milyona yaxın azərbaycanlı qaşqın və məcburi köçkünə çevrildi. İşğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad olunması haqda BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi olsa da, beynəlxalq birlik tərəfindən Ermənistanı bu sənədləri yerinə yetirməyə məcbur etmək üçün heç bir addım atılmadı. İslam Əməkdaşlıq Təşkilatı istisna olmaqla beynəlxalq təkilatlar Ermənistanı təcavüzkar dövlət kimi tanımadılar. Ərazi bütövlüyünü bərpa etməyə çalışan Azərbaycan beynəlxalq təşkilatların ikili standartları ilə üzləşirdi. Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həll edilməsi üçün yaradılmış ATƏT-in Minsk qrupu münaqişəni həll etmək əvəzinə daha çox mövcud status-kvonu qorumağa çalışırdı.

Azərbaycan respublikası müstəqillik etdikdən sonra xarici siyasətinin əsas istiqamətləri türk dünyasına, Qərbə və İslam dünyasına inteqrasiya təşkil edirdi. Bu istiqamətlərin hər biri ölkənin xarici siyasətində mühüm önəmə malik olsa da, türk dünyasına inteqrasiya pioritet istiqamətə çevrilmişdir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra onun müstəqilliyini ilk tanıyan dövlət Türkiyə olmuşdur. "Bir millət iki dövlət"prinsipi ilə qurulan Azərbaycan-Türkiyə münasibətləri siyasi, iqtisadi, mədəni və digər sahələrdə inkişaf edərək 15 iyun 2021-ci idə tərəflər arasında müttəfiqlik haqqında Şuşa bəyannaməsinin imzalanması ilə ən yüksək səviyyəyə çatmışdır.

Azərbaycan türkdilli ölkələrlə üzvü olduğu beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO), Şanxay Əməkdaşlıq Təşkilatı və türkdilli dövlətlərin də daxil olduğu digər beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edir.

Eyni zamanda Azərbaycan türkdilli ölkələrin təmsil olunduğu təşkilatların yaranmasında və inkişafında mühüm rol oynayır. Bu təşkilatlardan biri də TÜRKSOY-dur. 1993-cü ildə TÜRKSOY Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə tərəfindən qurulmuşdur. Qurumun yaradılmasında məqsəd oraq türk mədəniyyətini inkişaf etdirmək və dünyaya tanıtmaqdır. Rusiya Federasiyasının tərkibində olan Tatarısan, Başqırdıstan, Altay, Saxa-Yakutiya, Tuva və Xakasiya respublikaları, Moldovanın tərkibində olan Qaqauziya Muxtar Ərazisi və Şimali Kipr Türk Respublikası müşahidəçi statusu ilə təşkilatda təmsil olunmuşlar.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etmək olan beynəlxalq hökumətlərarası təşkilatdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulan təşkilatın bu qısa müddətdə üzvlərinin sayı 7-yə çatıb, daha 2 dövlət - Macarıstan və Türkmənistan isə müşahidəçi statusu alıb. Türk Şurası ötən illər böyük inkişaf yolu keçib. 2021-ci il 12 noyabr tarixində İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə dünyanın siyasi sistemində önəmli bir platformaya çevrilməkdə olan Türk Şurasının bundan sonra Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirməsi haqqında qərar qəbul edilmişdir.

"Təşkilat" statusu türk dövlətlərinə imkan verir ki, bütün sahələrdə əlaqələri daha yüksək səviyyəyə qaldırsınlar. Tarixi İstanbul Zirvə görüşündə olduqca mühüm olan "Türk dünyasına baxış - 2040" konsepsiyası qəbul edildi və liderlər arasında Bəyannamə imzalandı. Türk dünyası dövlətlərinin gələcək hədəflərini müəyyənləşdirən bəyannamədə əhəmiyyətli məqamlar yer almışdır.

Türkdilli ölkələrlə inteqrasiyanın dərinləşməsi Azərbaycanın xarici siyasət kursunun əsas istiaməti olmaqla mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü xarici siyasət nəticəsində ölkəmiz ərazi bütövlüyünü bərpa etmiş, regionda lider dövlətə, qlobal miqyasda isə etibarlı tərəfdaşa çevirmişdir.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN BİRİNCİ DÖVRÜNDƏ CƏNUB BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI

**Kamal Mahmudov**
**dosent**
**Tunzala Gashimova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kamal-1965@mail.ru**
**gashimovatunzale@gmail.com**

**Açar sözlər:** Heydər Əliyev, cənub bölgəsi, sosial-iqtisadi inkişaf, kənd təsərrüfatı, sənaye

Ümummilli lider Heydər Əliyevin XX əsrin 70-80-ci illərində Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi tərəqqisinin elmi və nəzəri əsaslarının srtategiyasını özünəməxsus və novator yaradıcılığı ilə həyata keçirməsi dövlət müstəqilliyimizin bərpasının tezliklə reallşdırılmasına istiqamətlənməsinə yönəlmişdir. Tarixi şəxsiyyət kimi, dərin və peşəkar dövlətçilik təcrübəsi, idarəetmə və təşkilatçılığa malik H.Əliyevin 1969-1982-ci illərdəki respublikaya ilk rəhbərlik dövrünün xarakteristikasının öyrənilməsi və tədqiq olunması tariximizin aktual məsələlərindən biridir.Heydər Əliyevin respublikaya 1969-1982-ci illərdə rəhbərliyi dövründə Azərbaycan iqtisadiyyatına 32 milyard rubldan çox vəsait qoyulmuşdur. 250-dən çox yeni zavod, fabrik və müxtəlif təyinatlı müəssisə tikilib istifadəyə verilmiş, 350 adda məhsul dünyanın 65-dən çox ölkəsinə ixrac olunması təsadüfi olmamışdır.

Respublikada aparılan geniş sosial-iqtisadi dəyişilklərə uyğun olaraq regionlarda təsərrüfat quruculunda əsaslı dönüş zəmin yaradıldı.Cənub bölgəsində sosial-iqtisadi inkişaf sürətləndi. Lənkəranda 70-ci illərdə Xanbulançay dəryaçasının tikntisi, Hirkan, İstisu qəsəbələrində, Liman şəhərində məişət evi, Ürgərdə uşaq bağçası, Velədi kəndində fəhlə yeməkxanası, Yuxarı Nüvədi, Şağlaser, Sinovli, Xarxatan, Digah,Şıxəkəran kəndlərində və İlik adına sovxozda yeni kitabxanalar, rayonun ayrı-ayrı kəndlərdə yeni dövlət kitabxanaları, ziyalılar, kitab və 24 mədəniyyət evləri, klub və 30-dan çox məişət obyekti, Hava limanı, Lənkəran Dövlət Teatrı, yeni mikrorayon tikilib istifadəyə verilmişdir. Lənkəranda ümumtəhsil müəssisələrinin sayı artırılaraq 24-dən 41-ə çatdırılmışdır. Yeni yaşayış binaları və mikrorayonlarla yanaşı, 17 məktəb binası, 6 uşaq bağçası və.s. obyektlər istifadəyə verilmişdir.Astara rayonunun sosial-iqtisadi diqqət yetirdikdə 1973-1975-ci illərdə yeni çay plantasiyaları salınmış, çay sahələrində təmir işləri aparılmışdır.Rayonun Azərbaycan SSR-nin 50 illiyi, Partiyanın XXII qurultayı, Sovet Azərbaycanı, Səncərədi sovxozları Kommunist, Fiolotov, 26 Bakı Kissarları və Şüvi suptropik sovxozlarında çayçılıq təsərrüfat quruculuğu yüksək səviyyədə yerinə yetirilmişdir. 1970-1975-ci illərdə Astara rayonunda 15min 372 $m^2$ mənzil sahəsi, 480 nəfərlik məktəb tikintisi, 120 çarpayılıq kompleks xəstənana binası və s obyektlər istifadəyə verilmişdir. 1973-cü ildə 17 səkkizlik, 19 otra məktəbin yanında bufet, 4 orta məktəbdə yeməkxana, 5430 şagird yeri olan 181 əlavə sinif otağı və digər təhsillə müəssələr istifadəyə verilmişdir.Masallı rayonunda tərəvəz, çayçılıq, üzümşülük, heyvandarlıq, taxılçılq təsərrüfatları ilə yanaşı, sənaye və tikinti quraşdırma sahələrində imkişaf dinamikası nın özünəməxsus səciyyəvi cəhətləri olmuşdur. Belə ki,1982-ci ildə ”Kommunizm” sovxozu 2156,2 ton çay, “Pravda” sovxozu 334,6 ton süd, “Çapayev”sovxozu 36,4 ton ət istehsal olınmuşdur.1971-ci ildə Masallı rayonun Hişkədərə, Türkoba, Çaxırlı, Bədirli, Hüseynhacılı, Lürən, Zuvand kənd məktəbləri,1,2 və 3 saylı şəhər məktəblərinin yenidən tikilməsi, 83 kitabxana, 30 klub,7 mədəniyyət evi, 5 yeni kitabxana və s. mədəni-maarif obyeklərinin istifadə verilməsi təsadüfi olmamışdır. Qədirli 8 illik məktəb üçün 350 nəfərlik yeni məktəb binası, Təzə Alvadı 8 illikməktəb üçün 5, Şərəfə ortaməktəb üçün 6 əlavə otaq, ümulikdə 73 əlavə sinif otaqları məktəblərdə tikilmişdir.Cəlilabad rayonun 1969-cuilin yerli büdcəsi dürüsləşdirilmiş planlar nəzərə alınmaqlamədail üzrə 2545,8 min manata qarşı 1373,25min manat və ya 53 faiz,o cümlədənyerli varidatlar üzrə 300.1 manata qarşı 13943 min manat və ya 48 faiz miqdarda icra edilmişdir. Kənd təsərrüfatı üzrə yeni sahələr-taxılçılıq və üzümçülüyün yaradılması iləəmək məhsuldarlığının artırılmasıilə nəticələnməsi təsadüfi olmamışdır. Təsərrüfat sahələrinin genişləndirilməsi və yeni aqrotexniki qaydalarla təşkili əmək məhsuldarlığının yüksəldilməsini nəzərdə tutulmuşdur. Rayonda aparılan yenidənqurma işləri və əsaslı kadr siyasəti iqtisadi dinamikada ciddi dəyişiliklər yarada bilmişdir. Azərbaycanın XX əsrin 70-90-ci illər dövrünün sosial-iqtisadi inkişafınnın səciyyəvi xüsusiyyətlərinə nəzər salaraq aşağıdakı nəticələrə gəlmək olar: mərkəzi hakimiyyətində yerli idarəçilik siyasətinə uyğun olaraq daim milli və regionların sosial-iqtisadi inkşafı üçün büdcə vəsaitlərinin müəyyənləşdirilməsində yerli regionların coğrafi xüsusiyyətləri, təbii ehtiyatlarının reallıqları və onlardan respublika üçün istifadəedilməsinə diqqətin verilməsi, əmək ehtiyat qüvvələrindən səmərəli istifadə olunması imkanlanlarının nəzərə alınması məsələlərinə diqqətin göstərilməməsi olmuşdur.

Azərbaycanda təlim prosesi daima ardıcıl olaraq inkişaf edir və müxtəlif zamanlarda özünəməxsus xarakter kəsb edir.Mövzuda əsas şəxsiyyətyönümlülük prinsipi öndədir.Məzmun xəttinə uyğun olaraq tarixi şəxsiyyət Heydər Əliyevin cənub bölgəsinin sosial-iqtisadi inkişaf strategiyası şagirdlərdə vətənpərvərlik ruhunu artırır. Müəllim mövzunun tərisi zamanı kurikulumlara uyğun inteqrasiya olunmuş planlarla dərsi səmərəli formada təşkil edərək şagirdləri əsas məqsədə çatdırır.

Ulu Öndər Heydər Əliyevin respulikaya rəhbərliyin birinci dövründə apardığı milli müstəqilliyə doğru istiqamətlənən strateji siyasətin nəticəsi olaraq Azərbaycan dövlət müstəqilliyimizin nəinki bərpa edə bildi, eləcə də möhkəmlənməsi və dinamik inkişafının təminatı olduğundan ölkəmizin beynəlxalq münasibətlə sistemində yerini və rolunu daha da artırmışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ermənilərin əsrlərlərlə davam edən vandal siyasətinin nəticəsi olaraq otuz ilə yaxın işğal olunan torpaqlarımız 44 günlük müharibə ilə azad edildi və mənfur düşmənlərimizin üzərində Zəfər qələbəbimizi reallaşdırdı.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN CƏLİL MƏMMƏDQULUZADƏ İRSİNİN YAŞADILMASINDA XİDMƏTLƏRİ

**Kamran Kazımov**
**professor**
**Fəxriyyə Qüdrətli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kkamran@mail.ru**
**fexriyyequdretli@gmail.com**

**Açar söz:** Cəlil Məmmədquluzadə, Heydər Əliyev, ev muzeyi, Mirzə Cəlil nəsri

Ulu öndər Heydər Əliyev qədim tarixə, zəngin tərkibə sahib olan Azərbaycan ədəbiyyatına daim böyük diqqət göstərmişdir. Heydər Əliyev bilirdi ki, bir xalqın dünyaya tanıdılmasında onun mədəniyyəti, incəsənəti, ədəbiyyatı mühüm rol oynayır. Ulu öndər hər zaman qeyd edirdi ki, mədəniyyətimizin, mədəni sərvətlərimizin dünyada tanındığını insanlara çatdıra bilsək, insanlarımızda da vətənə, millətə sevgi yaranacaq, azərbaycançılıq hissləri yüksələcək.

Öz fəaliyyəti ərzində bu müddəalara sadiq qalan Heydər Əliyev müxtəlif illərdə Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Səməd Vurğun, Nəsimi və s. kimi sənətkarlarımızın yubileylərinin keçirilməsi, onların həyat və yaradıcılıqlarının tədqiqi sahəsində tapşırıqlar vermişdir. O bununla da kifayətlənməyərək mədəniyyət tariximizdə dərin iz qoyan Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Səməd Vurğun, Cəlil Məmmədquluzadə və başqa şəxsiyyətlərin ev-muzeylərinin yaradılmasında pay sahibi olmuşdur.

Azərbaycan Respublikası hökümətinin 1978-ci ildə verdiyi qərara əsasən Cəlil Məmmədquluzadənin 1922-1932-ci illərdə Bakıda yaşadığı mənzili muzey kimi fəaliyyətə başlamışdır. Ədəbin ev muzeyinin yeni, təntənəli açılışı 1994-cü ildə, 28 dekabrda anadan olmasının 125-ci ili ərəfəsində olmuşdur. 1978-ci ildən bu vaxta qədər muzeyin fonduna Cəlil Məmmədquluzadənin və mollanəsrəddinçilərin fəaliyyətini və həyatını əks etdirən 5000-dən çox eksponat yığılıb. 1998-ci ildə Naxçıvan şəhərində Heydər Əliyevin sərəncamı ilə Cəlil Məmmədquluzadənin ev-muzeyi yaradılmışdır.

Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli idealogiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir" deyən Heydər Əliyev Cəlil Məmmədquluzadə yaradıcılığına və "Molla Nəsrəddin ədəbi məktəbinə istiqlal uğrunda mübarizənin əsas mənbələrindən biri kimi qiymətləndirir.

Heydər Əliyev qeyd edirdi ki, Cəlil Məmmədquluzadə Azərbaycan xalqının dirçəlişində müstəsna rola sahibdir. 1994-cü il 28 dekabrda baş tutan Cəlil Məmmədquluzadənin 125 illik yubileyində nitq söyləmişdir. Həmin nitqində Heydər Əliyev aşağıdakı fikirləri demişdir: *"Cəlil Məmmədquluzadə öz yaradıcılığı, əsərləri, publisistikası, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və məhz Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir*.

Heydər Əliyevin fərqləndirdiyi, xüsusilə, yüksək qiymətləndirdiyi bədii əsərlər var idi. Ulu öndərin çıxışlarından belə məlum olur ki, dram janrında yazılmış əsərlər içərisində Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasına daha çox önəm vermişdir.

Hələ sovet hakimiyyəti dövründə Heydər Əliyev milli dövlətçilik ənənələrini qoruyub saxlayan hakimiyyət yaratmaq istəyirdi. Sosialist rejimin təzyiqlərinə baxmayaraq görkəmli maarifçi Cəlil Məmmədquluzadənin ana dilinin saflığı, qorunması yolunda apardığı milli mübarizəni zəruri saymış, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılmasında mühüm rol oynamışdır.

Ulu öndərin Mirzə Cəlil şəxsiyyətinə verdiy dəyər i aşağıdakı fikirlə daha aydın dərk edilir: "Bilirsiniz, mən xoşbəxt günlərimdən birini yaşayıram. Nə üçün? Çünki mən arzuma çatmışam. Çünki Mirzə Cəlilin ev muzeyini yaratmaq istəmişəm, bunu da yaratmışam. Azərbaycanın mötəbər adamları ilə bir yerdəyəm və bunu bir yerdə açırıq. Allah Mirzə Cəlilə rəhmət eləsin. Mirzə Cəlilin irsi, şəxsiyyəti, xidmətləri Azərbaycan xalqının qəlbində əsrlərlə yaşayacaqdır".

Heydər Əliyev Cəlil Məmmədquluzadəni vətəndaş və şəxsiyyət olaraq yüksək qiymətləndirmiş, Vətən uğrunda gördüyü işləri öz nitqlərində səsləndirmişdir. Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində aşağıdakı nitqini səsləndirmişdir: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyamızın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi".

Heydər Əliyev ədibin "Anamın kitabı" pyesini "Azərbaycan üçün dahiyanə əsər" kimi rəğbətləndirmiş, əsərdə qaldırılan, irəli sürülən problemlərin bu gün də aktual olduğunu vurğulamışdır. Ulu öndər "Anamın kitabı" haqqında fikirlərində qeyd etmişdir ki, əsərdə müəllif müxtəlif xalqların dilinə, mədəniyyətinə meyillənmənin, milli kökü, tarixi keçmişi unutmanın acı nəticəsini göstərmiş və bu kimi hallara qarşı mübarizə aparmışdır Heydər Əliyev deyirdi: *"Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdi".*

Cəlil Məmmədquluzadə fəaliyyətinin bütün istiqamətlərində ana dili probleminə geniş yer ayırmışdır. Həm nəsr, həm də dram janrında ədib xalq dili ilə ədəbi dil arasındakı səddi aradan qaldırmış, ədəbi dili xalqın dili əsasında təkmilləşdirmişdir. Böyük ədəbiyyatşünas Mir Cəlal Paşayev Mirzə Cəlilin dili mövzusunda fəaliyyətinə dair yazır: *"Cəlil Məmmədquluzadə cəsarətlə danışıq dilini, canlı dili, azərbaycanlıların şirin, əlvan, ahəngdar, məzəli, səlis, sərbəst danışığını yazıya, kitaba, hətta bədii əsərə gətirmişdir."*

Hələ XIX əsrin II yarısında ana dilinin saflığı, xarici ünsürlərdən qorunması, yad təsirlərdən təmizlənməsi istiqamətində Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi sistemli, ardıcıl mübarizə aparmışlar. Onların mübarizəsini XX əsrin əvvəllərində Mirzə Cəlil davam etdirmişdir. "Molla Nəsrəddin" jurnalında xalqın azadlığı, mədəniyyətin tərəqqisi məsələləri ön plana çəkilmişdi. Mirzə Cəlilin "Dil", "Ana dili", "Əlifba", "Dərs kitablarımız"

məqalələri məhz ana dili problemlərinə həsr edilmiş və "Molla Nəsrəddin" jurnalında nəşr edilmişdir.

Müxtəlif tədqiqatçılar tərəfindən Mirzə Cəlilin azərbaycançılıq konsepsiyasının bəyannaməsi adlandırılan "Azərbaycan" məqaləsi 1917-ci il, 27 noyabrda jurnalın 24-cü sayında çap edilmişdir. Məqalədə Mirzə Cəlil dilimizin adlandırılması məsələsinə öz mövqeyini bildirir:

- *Mənim anam kimdir?*

*Öz-özümə cavab verirəm ki:*

- *Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.*
- *Dilim nə dilidir?*
- *Azərbaycan dilidir.*
- *Yəni vətənim haradır?*
- *Azərbaycan vilayətidir.*

*Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir*".

Azərbaycan hər zaman öz görkəmli xadimlərinə, şəxsiyyətlərinə qayğı ilə yanaışmış, irslərini yaşatmışdır. Bu böyük xadimlərdən biri də Cəlil Məmmədquluzadədir. Sovet dövründə Cəlil Məmmədquluzadənin şəxsiyyəti, fəaliyyəti olduğu kimi deyil, təhriflər edilərək təbliğ edilmişdir. Sovet dövründə onun "Ölülər" tragikomediyası əsas göstərilərək, Cəlil Məmmədquluzadə ateist adlandırılmış, Allaha inanmayan biri kimi təbliğ olunmuşdur. Lakin bu gün hər birimizə məlumdur ki, Cəlil Məmmədquluzadə bu əsərində dini, Allahı yox, cəhaləti tənqid etmişdir. Görkəmli ədib ədəbiyyat xadimi kimi öz layiqli qiymətini Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə almışdır. Ulu öndərin hakimiyyəti dövründə Cəlil Məmmədquluzadənin irsi, əsərləri toplanmış, təkrar-təkrar nəşr edilmişdir. Onun adına küçələr verilmiş, Cəlilabad, Bakı, doğma yurdu Naxçıvan kimi şəhərlərdə heykəlləri ucaldılmışdı.

Cəlil Məmmədquluzadənin fəaliyyətinin önəmli bir dövrünü "Molla Nəsrəddin" jurnalı əhatə edir. "Molla Nəsrəddin" jurnalının latın qrafikalı əlifba ilə yeni dizaynda çapı müstəqillik dövründə ədibin irsinə böyük qayğını nümayiş etdirir.

Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyev də böyük ədibin şəxsiyyətinə, yaradıcılığına qayğı ilə yanaşmış, Mirzə Cəlilin 140 və 150 illik yubileylərinin keçirilməsi haqqında sərəncam vermişdir.

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ VERGÜL İŞARƏSİ VƏ ONUN ÖYRƏDİLMƏSI YOLLARI

**Könül Dənziyeva**
**dosent**
**Tünzalə Hüseynova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**hsynva2002@gmail.com**
**konuldenziyeva@mail.ru**

**Açar sözlər:** orta məktəb, durğu işarələri, vergül

Orta ümumtəhsil məktəblərində Azərbaycan dili tədris sistemində durğu işarələri mühüm yer tutur. Durğu işarələrinin əhəmiyyəti, hər şeydən əvvəl, yazılı nitqi oxucunun daha aydın, anlaşıqlı və asan başa düşülməsi üçün müəyyən məna bildirən hissələrə ayırmağa yardımçı rola malik olmasındadır. Əgər şifahi nitqdə fikir intonasiya, fasilə vasitəsi ilə başa düşülürsə, yazıda bu məqsəd üçün durğu işarələrindən istifadə olunur. Biz öz fikir və hisslərimizi yazı vasitəsi ilə daha dəqiq və aydın ifadə edə bilmək üçün durğu işarələrinə aid qaydaları mükəmməl bilməliyik.

Punktuasiyanın əsaslarının izahında üç meyil, üç istiqamət vardır: bəziləri mənaya, bəziləri sintaktik quruluşa, bəziləri intonasiyaya əsaslanır. İlk olaraq durğu işarələrinin işlədilməsi mətnin mənalı hissələrə bölünməsi ilə bağlı izah edilir; ikinci olaraq cümlənin sintaktik quruluşu; üçüncü olaraq da nitqin ritmik-melodik axını, vurğu, fasilə və s. əsas götürülür.

Bu xüsusda durğu işarələri yazıda çox böyük rol oynayır; məsələn, nöqtə nitqi müstəqil hissələrə və ya cümlələrə bölür, vergül tabeli mürəkkəb cümlədə əsas fikri ayırır, onun budaq cümlə vasitəsi ilə tamamlanacağına müəyyən işarə edir. Bəzən də vergül işarəsinin yerini dəyişməklə cümlənin mənasında ciddi dəyişiklik yaratmaq olur. Məsələn: “Direktor Tofiq Vəliyev və Akif Sadıqov rayona getdilər” cümləsində iki şəxs haqqında söhbət getdiyi halda, direktor sözündən sonra vergül qoyulsa, müəyyən məna dəyişikliyi əmələ gələcəkdir. Yazılı nitqdə bu və ya digər cümlənin sual mənası ifadə etdiyini və yaxud hiss, həyəcan bildirdiyini müəyyənləşdirməkdə məna ilə yanaşı, durğu işarələri də böyük rol oynayır. Nəhayət, durğu işarələri cümlədə ifadə olunan fikirlər arasındakı münasibəti aydınlaşdırır. Məsələn, mürəkkəb cümlədə iki nöqtənin işlədilməsi cümləni yalnız hissələrə ayırmaqla məhdudlaşmır, cümlənin birinci hissəsində haqqında danışılan hadisənin ikinci hissədə izah olunacağını göstərir. Aşağıdakı cümlədə bunu daha aydın görmək olar. İndi hər kəsə aydındır: insan göyləri də fəth edir.

Durğu işarələri içərisində işlənmə tezliyinə və məqamına görə ən geniş yayılmışı vergüldür. Ancaq buna baxmayaraq, yazılı nitqdə durğu işarələri ilə bağlı ən çox səhv də elə vergülün yerində düzgün işlədilməməsi ilə əlaqədardır. Vergülün düzgün işlədilməməsi bəzən fikrin semantikasında uğursuz dəyişiklik gətirir. Nöqtədən fərqli olaraq, vergül cümlə sərhədi ilə əlaqədar deyildir. O, müəyyən bir cümlə daxilində işlənən durğu işarəsidir.

Şagirdlər yazıda vergül işarəsinin asanlıqla fərqləndirməsi üçün fəal-interaktiv təlimin müəyyən üsul və vasitələrindən istifadə edilməsi məqsədə uyğundur. Bu üsul və vasitələrdən istifadə etməklə mövzunun aşağıdakı şəkildə tədris etmək olar. Bunun üçün müəllim əqli hücum, Venn diaqramı, söz assosiasiyaları və s. Təlim üsullarından istifadə etməklə dərsin motivasiya mərhələsini həyata keçirməlidir. Motivasiyanı qurmaq üçün yazı lövhəsində aşağıdakı nümunələri qeyd edilir.

1. Əlbəttə, indi sən lazım olmazsan.
2. Səndə nə günah var, ay Hüseyn ağa, görünür, əcəl məni çəkirmiş.
3. Dünən biz doyunca yedik, içdik, gəzdik, əyləndik, dincəldik.
4. Siz, elimizin ağsaqqalları gənclər üçün böyük dayaqsınız.
5. Eh, Süleymana qalmayan dünya...

Şagirdlərə yönəldici suallarla müraciət edib onlardan soruşuruq ki, bu cümlələrdə işlənən vergül işarəsi nəyin göstəricisidir?

Şagirdlərdən "intonasiyanın göstəricisidir" cavabını aldıqdan sonra müəllimin şərhi kimi dərsi izah edirik. Qeyd edirik ki, Azərbaycan dilində ən çox işlənən durğu işarələrindən biridə vergüldür. Müasir Azərbaycan dilində vergülün işlənmə məqamları olduqca genişdir və xüsusən aşağıdakıları göstərə bilərik:

1.Ara sözlər danışanın ifadə etdiyi fikrə münasibəti bildirir. İşlənməsi xitablarda olduğu kimidir. Demək olar ki, durğu işarələrinin işlənməsi də xitablarla eynidir. Ara sözlər, ümumiyyətlə, ara konstruksiyalar cümlənin əvvəlində işləndikdə ondan sonra vergül, ortasında işlənəndə hər iki tərəfdən vergül qoyulur. Axırda gəldikdə isə ondan əvvəl vergül, sonra isə cümlənin məqsəd və intonasiyasından asılı olaraq, nida və ya sual işarəsi qoyulur. İşlənmə tezliyinə görə cümlənin əvvəlində və ortasında işlənən ara sözlər (birləşmə və cümlələr) üstünlük təşkil edir. Ara sözlərin cümlənin axırında işlənməsinə nisbətən az təsadüf olunur. Məs.: Demək, kəndə işləməyə gəlibsən? (İ.Şıxlı); Ha, Fatma həkim, gülürsən, işlərin düzəlib, deyəsən (İ.Məlikzadə) və s. cümlələrdə vergülün işlənmə məqamlarını şagirdlərə göstərib izah edirik ki, birinci və ikinci cümlələrdə əvvəldə gəldiyi üçün özündən sonra, üçüncü cümlədə isə sonda gəldiyi üçün özündən əvvəl vergül işarəsi qoyulmuşdur.

2. Xitablar xüsusi müraciət intonasiyası ilə deyildiyi üçün, onlardan sonra müəyyən bir fasilə, durğu olur. Məlumdur ki, xitablar cümlə üzvü ola bilmir və onlarla təkcə məna əlaqəsində olur. Xitablar da ara sözlər kimi, cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir. Adətən xitab cümlənin əvvəlində gəldikdə ondan sonra vergül, ortada gəldikdə hər iki tərəfdən vergül, axırda gəldikdə isə ondan əvvəl vergül, sonra isə cümlənin məqsəd və intonasiyasına uyğun olaraq, müəyyən durğu işarəsi qoyulur.Lakin vergülün bu şəkildə işlənməsi mütləq deyil. Mətndaxili situasiyadan asılı olaraq, əvvəldə gələn xitablardan sonra vergül qoyulduğu kimi, nida, üç nida, üç nöqtə də qoyula bilər. Məsələn: Ey dil, amandı, sirrini biganə bilməsin!(M.Ə.Sabir) Mənə importnı mebel lazımdı, Tapdıq dayı. (İ.Məlikzadə); Daş qəlbli insanları neylərdin, ilahi?!(M.Ə.Sabir).

3. Həmcins üzvlər bir-birilə həm sadalanma intonasiyası, həm də tabesizlik bağlayıcıları vasitəsilə əlaqələnir. Cümlə üzvləri baş və ikinci dərəcəli olmasından asılı olmayaraq, həmcins ola bilir. İntonasiya vasitəsilə əlaqələnmiş həmcins üzvlər arasında müəyyən bir fasilə olduğundan onların arasında vergül qoyulur. Həmcins üzvlər tabesizlik bağlayıcıları ilə əlaqələndikdə də "və", "ilə" birləşdirmə bağlayıcılarını çıxmaq şərtilə, müəyyən olunmuş qaydada vergül qoyulur. Məsələn: Belə yerlərdə qaranquş, qazalaq, göyərçin, bildirçin, kəklik yuvası çox olurdu. (M.Cəlal).

4. Yüksək hiss həyəcanla deyilməyən nidalardan sonra vergül işarəsi qoyulur. Məsələm: Ah, Ayaz səndə burdasan.(M.İbrahimov)

Təkrar edilən nidalar aydın fasilə ilə deyildikdə onlar arasında da vergül qoyulur. Məsələn: Vay, vay, nə dəhşətli hadisədir.

Çağırış bildirən ay, ey, a kimi nidalar xitablarla birgə işlənib aralarında fasilə edilmədikdə onlar arasında vergül qoyulmur. Lakin situasiyadan asılı olaraq, bəzi çağırış bildirən nidalar da xitablarla birlikdə həmcinslik keyfiyyətinə malik olur və bir-birindən aydın fasilə ilə ayrılır. Bu zaman çağırış bildirən nidadan sonra vergül qoyulur. Bundan əlavə cümlədə bəzi bir hecalı və iki hecalı nidalar müraciət bildirən söz keyfiyyətinə malik olduqda

da onlardan sonra vergül qoyulur. Məsələn: Hey, ana, qızıl dəvələr olan yerdə, Bir köşəyi olmazmı olur?("Kitabi-Dədə Qorqud")

Onları başa salırıq ki, vergül cümlə daxilindəki intonasiyanın göstəricisidir. Bu fərqləndiricidir- biri digərindən fərqləndirmək üçün və müxtəlif məqamlarda istifadə olunur. Bu nümunələri bir-bir göstərib şagirdlərə izah edirik ki, birinci cümlədə verilən ara söz danışanın ifadə etdiyi fikrə münasibət bildirir. Cümlə üzvlərindən vergül işarəsi ilə ayrılır. Ara sözlər, əsasən, cümlənin əvvəlində işlənir; bəzən cümlənin ortasında, az halda isə sonda işlənən ara sözlərə rast gəlinir. Yuxarıda qeyd etdiyimiz cümlədə ara söz cümlənin əvvəlində gəlib və özündən sonra vergül işarəsi qoyulub. İkinci cümlədə işlənən xitab cümlədə müraciət olunan şəxsi bildirir və əsasən vergüllə ayrılır. Vergülün işlənməsi eyni ilə ara sözlərdəki kimidir. Yəni bu cümlədə xitab cümlənin ortasında gəlib və hər iki tərəfindən vergül işarəsi qoyulub. Üçüncü cümlədə həmcins üzvlər işlənmişdir. Həmcins üzvlər bir-birilə həm sadalanma intonasiyası, həm də tabesizlik bağlayıcıları vasitəsilə əlaqələnir.İntonasiya vasitəsilə əlaqələnmiş həmcins üzvlər arasında müəyyən bir fasilə olduğundan onların arasında vergül qoyulur. Belə ki, üçüncü cümlədə işlənən "gəzdik, əyləndik, yedik, içdik, dincəldik" sözləri həmcins üzvlərdir və aralarında vergül işarəsi qoyulmuşdur. Dördüncü cümlədə əlavə və əlavəli üzv arasında vergül işarəsi işlənmişdir. Həmçinin burada onu da qeyd etməliyik ki, əlavə aid olduğu üzvlə şəxsə görə uzlaşmadığından vergül işarəsi ilə ayrılmışdır. Beşinci cümlədə isə nida cümlənin əvvəlində gələrək vergül işarəsi ondan sonra qoyulmuşdur.

## FOLKLOR MATERİALLARININ DİLİNDƏ SİNTETİK TABELİ MÜRƏKKƏB CÜMLƏ STRUKTURLARI

**Könül Dənziyeva**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**konuldenziyeva@mail.ru**

**Açar sözlər:** cümlə, mürəkkəb cümlə, tabeli mürəkkəb cümlə, sintetik, folklor

Azərbaycan folkloru dünya xalqlarının milli mədəniyyəti içərisində həm qədimliyi, həm məzmun dolğunluğu, həm də mövzu rəngarəngliyi ilə seçilir. Bu mənəvi xəzinəmiz türk xalqlarının çoxəsrlik tarixi birgəyaşayış prosesində meydana gəlib formalaşmışdır. Onların bəziləri daha qədim etiqad və təsəvvürlərlə səsləşir, bəziləri isə xalqımız üçün səciyyəvi olan təkraredilməz gözəllikləri əks etdirir. Bu ədəbiyyat əcdadlarımızın dünya, həyat haqqında ilk bədii düşüncələridir. O, mənəvi əxlaqi, etik, estetik dəyərlər məcmuyudur. Uzun yüzilliklər ərzində bu dəyərlər türkün nəsillərini tərbiyə etmiş, onu cahanşümül nailiyyətlərə və qələbələrə yüksəltmiş, irəliyə aparmış, barbar mədəniyyəti xarabalıqları üzərindən cəsarətlə adlayıb sivil mədəniyyətə doğru inkişafını təmin etmişdir. Milli mədəniyyətimizin göstəricisi olan bu söz xəzinəsinin mahiyyəti, məzmunu cümlə strukturları ilə ifadə olunmuşdur. Ünsiyyətin əsas vahidi olan cümlə məlumatvermə funksiyasına malik olduğundan müxtəlif strukturlara bölünür. Bu baxımdan ayrı-ayrı fakt, hadisə və məlumatları ifadə edən cümlələr sadə cümlələr adlanır. Müxtəlif məlumatları qeyd etməklə yanaşı onları bir-biri ilə əlaqələndirən və daha geniş fikir ifadə etmə funksiyasına malik cümlələrə isə mürəkkəb cümlələr deyilir. Komponentlər arasında sintaktik əlaqənin xarakterinə və ümumi qrammatik

mənasına görə mürəkkəb cümlələr tabesiz və tabeli olmaqla iki qrupa bölünür. Bərabərhüquqlu cümlələrin birləşməsindən yaranan mürəkkəb cümlələr tabesiz mürəkkəb cümlələr adlanır. Tabeli mürəkkəb cümlələr isə komponentlərindən biri digərindən asılı olan cümlələrdir. Bu sintaktik vahidlər baş və budaq cümlə olmaqla iki komponentdən ibarət olur. Qrammatik cəhətdən müstəqil olan hissə baş cümlə, baş cümlədən asılı olub onu izah edib aydınlaşdıran hissə budaq cümlə adlanır. Baş cümlə, adətən, öz qrammatik vəziyyətinə görə sərbəst olub, budaq cümləni özünə tabe edir. Budaq cümlə qrammatik cəhətdən baş cümlədən asılı olur; semantik cəhətdən belə asılılıq olmaya da bilər. Baş və budaq cümlə birlikdə bütöv bir fikrin ifadəsinə xidmət etdiyindən, mənanın ağırlıq mərkəzi ya baş cümlə, ya da budaq cümlə tərəfində ola bilər, yaxud da baş və budaq cümlənin arasında nisbətən bərabər bölünmüş olar.

Tabeli mürəkkəb cümlələr quruluş xüsusiyyətlərinə görə rəngarəngdir. Belə ki, bəzilərində əvvəl baş, sonra budaq cümlə, bəzilərində isə budaq cümlə baş cümlədən əvvəl işlənir. Tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə xidmət edir, ya onun hər hansı bir üzvü yerində işlənir, ya işarə əvəzliyi ilə ifadə olunan üzvünü izah edir, ya da baş cümlənin ümumi məzmununa aid olur.

Tabeli mürəkkəb cümlələrin komponentlərinin bağlayıcı vasitələrinə görə müxtəlif növləri vardır. Bu növlərdən biri də sintetik tabeli mürəkkəb cümlələrdir. Folklor materiallarının dilində də sintetik tabeli mürəkkəb cüмələlərə rast gəlinir. Sintetik tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə -sa, -sə, -mı, -mi, mu, -mü şəkilçilərinin və isə hissəciyinin köməyi ilə bağlanır. Məsələn: Bu mənim əlimdə olsa, buna yazıb-oxumaq öyrədərəm. (Molla Nəsrəddin lətifələri) Qovanın gücü varsa, qaçanın da Allahı var. (Atalar sözü ) Göydən yağmasa, yerdə bitməz. (Atalar sözü) Vallah, Alllahın birliyi haqqı, qayıdıb bura gəlsən, boynunu vurduracağam. (Azərbaycan nağılları I c.) Şah oğlu, sözünə doğru çıxsan, mən səninlə cıdıra çıxaram. (Azərbaycan nağılları IV c.) və s. - tabeli mürəkkəb cümələlərin komponentləri –sa, -sə şəkilçisi ilə əlaqələnmiş və şərt budaq cümləli tabeli mürəkkəb cümlələr formalaşmışdır.

Qeyd etdiyimiz nümunələrdən göründüyü kimi, folklor materiallarının dilində -sa, -sə şəkilçisinin köməyi əlaqələnən sintetik tabeli mürəkkəb cümlə strukturları üstünlük təşkil edir. Bu tipli cümlələrə bayatılarda da geniş rast gəlinir: Atan-anan verməsə, Qoşularam qaçaram. (Bayatı) Yar vəfalı yar olsa, Dərdini bilib ağlar. (Bayatı) Əlim kasada düşsə, Dostlar da kənar gedər. (Bayatı) Sənsiz bayram eyləsəm, Bayramın qara gəlsin (Bayatı) və s.- kimi sintetik tabeli mürəkkəb cümlələrin budaq cümləsi feli xəbərli cümlələrdir.

Folklor materiallarının dilində feli xəbərli sintetik tabeli mürəkkəb cümlə strukturları ilə yanaşı ismi xəbərli budaq cümlələrə də təsadüf olunur. Bu tipli budaq cümlələrin komponentləri bir-biri ilə isə hissəciyinin köməyi ilə əlaqələnir: Gül əzizdirsə, gülşən ondan əzizdir. (Atalar sözü) Girdiyin yer qaranlıqsa, sən də gözünü yum. (Atalar sözü ) Tazının ağası varsa, dovşanın da tanrısı var. (Atalar sözü ) və s.

Beləliklə, folklor materiallarının dilində də sintetik tabeli mürəkkəb cümlə strukturlarına təsadüf olunur. Bu cümlələrin toplanılıb araşdırılması tarixi sintaksisə zəngin material verəcək və şifahi dilimizin qədim izlərinin üzə çıxarılmasında mənbə rolu oynayacaqdır.

# HEYDƏR ƏLİYEV VƏ FOLKLOR

**Qədim Rufullayev**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**qedim73@mail.ru**

**Açar söz:** Xalq yaradıcılığı, Heydər Əliyev, folklorda canlanan obraz

Folklor xalqın onu əhatə edən fəaliyyət sahələrinə, həyat hadisələrinə yaradıcı münasibətidir. Ona görə də folkora eyni zamanda xalq yaradıcılığı da deyilir. Folklorşünas alim Paşa Əfəndiyeq bu məsələyə toxunaraq qeyd edir ki, “xalq yaradıcılığı xalqın təşəbbüskarlığı və novatorluğunun, həyata nikbin münasibətinin təzahür formalarından biridir. Xalq öz bədii yaradıcılıq nümunələrində gündəlik həyatı, gələcək idealları ilə bağlı arzu və istəklərini ifadə etmiş, yaratdığı poetik surətlər timsalında, azadlıq uğurunda apardığı qəhrəmanlıq mübarizəsini, yenilməzliyini göstərmiş, qara qüvvələrə, hər cür istismara qarşı nifrətini ifadə etmişdir”. Folklor xalq həyatından kənarda mövcud deyildir. Bu onun tarixi sınaqlarının, uğur hekayəsinin, həyata baxışlarının tərcümanıdır. Folklor, bu mənada, həm də xalqın tarixidir. Folklorşünas Tahir Paşazadə vurğulayır ki, “folklorda xalq bütün kənar təsirlərdən təcrid olunmuş şəkildədir. Bu anlamda folklor mənəviyyatı xalq mənəviyyatının özüdür, onun tamı, bütövüdür”. Xalq yaradıcılığının məhz bu cəhətini nəzərə alan böyük şair və yazıçılarımız əsərlərində bu hikmət xəzinəsinə yer vermiş, faydalanmışlar. Dahi Nizaminin, Məhəmməd Füzulinin, Vaqifin, Səməd Vurğunun, İsmayıl Şıxlının və bu kimi ədəbi şəxsiyyətlərinin əsərlərində folklor elementlərinin olması, təkcə şifahi ədəbiyyatımızın ömrünə ömür qatmamışdır, o həm də sözügedən müəliflərin yaradıcılığına yeni məzmun və ölümsüzlük gətirmişdir. Bu proses özlüyündə xalq yaradıcılığının yazılı ədəbiyyata və sonrada folklora dönüşü təmin etmişdir. Nəticədə, ağız ədəbiyyatının toplanması, qorunması və gələcək nəsillərə olduğu kimi çatdırılması işində bu proses əhəmiyyətli mərhələni təşkil edir. Pərakəndə şəkildə və həvəskarlar tərəfindən toplanan xalq ədəbiyyatı nümunələri XIX əsrin sonu, XX əsrin əvvəllərində elmi şəkildə tədqiqata cəlb olundu, yeni-yeni araşdırmalar, elmi faktlar və qənaətlər hesabına nəzəri fikirlər meydana gəldi. Bu həm də Azərbaycan folklorşünaslığının inkişafına şərait yaratdı. Bu mərhələdə Əmin Abid, Firudin bəy Köçərli, Hənəfi Zeynallı, Hümbət Əlizadə, Yusif Vəzir Çəmənzəminli, Vəli Xuluflu kimi ziyalılar daha çox fərqləndilər. Təkcə Salman Mümtazın ötən əsrin 20-30-cu illərdə folklorumuzun tədqiqi və nəticələrinə diqqət etmək kifayət edər ki, ümumi ziyalılarımızın fədakarlığı üçün təsəvvür yaransın. Paşa Əfəndiyev qeyd edir ki, Salman Mümtazı “folklorumuzun, demək olar ki, bütün janrları maraqlandırmışdır. “Kitabi-Dədə Qorqud” eposu, “Koroğlu” dastanı”, atalar sözləri və məsəllər, ozan, aşıq yaradıcılığı, xalq lirikası, xüsusilə bayatılar və çap olunmağa layiq çoxlu folklor nümunələri hazırda S.Mümtazın şəxsi arxivində saxlanılmaqdadır”. Ancaq o, ən çox aşıq ədəbiyyatının tədqiqatçılarından biri idi. 1927-1928-ci illərdə tərtib etdiyi ikicildlik “El şairləri” kitabında 143 aşıq şairin yaradıcılığına aid 258 şeir nümunəsi təqdim etmişdir. O, həm də Aşıq Qurbani, Aşıq Abdulla (Sarı Aşıq), Şirvan Aşıq mühitinin ilk nümayəndələrindən olan Molla Qasım Şirvani, “Əsli və Kərəm” dastanının qəhrəmanlarından olan Kərəm şəxsiyyətinin öyrənilməsi istiqamətində əməli araşdırmalar aparmışdır. XX əsrin birinci yarısında folklor nümunələrinin toplanması və tədqiqi istiqamətində xidmət göstərmiş adıçəkilən ziyalılar məhz bu xidmətlərinə görə repressiyaya məruz qalmışlar. Repressiya illərindən sonra Azərbaycan folklorunun tədqiqinə yenidən baxıldı və bu işdə Həmid Araslı, Məmmədhüseyn Təhmasib kimi alimlərin əməyi danılmazdır. Azərbaycanda XX əsrin 70-ci illərinə qədər

xalq yaradıcılığının toplanması və nəşri, habelə tədqiqi ilə bağlı məsələlərdə sovet rejiminin təsiri ilə müəyyən çətinliklər var idi. Bu Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinə qədər davam etmişdir. Xalqın böyük rəhbəri hakimiyyətə gəldiyi ilk illərdən bütün sahələrdə, o cümlədən mədəniyyət və folklor irsinin təbliği və tədqiqi sahəsində mühüm canlanma qeydə alındı.

Xalqın varlığını özündə ifadə edən və mənəvi sərvətlərimizdən biri olan xalq dilinə hörmət və qayğı onun fəaliyyətinin ana xəttini təşkil edirdi. O, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubleyi zamanı çəkinmədən, dövlət dili rus dili olmasına baxmayaraq, çıxışını ana dildə etmiş və xalq dilinə hədsiz sevgisini bununla ifadə etmişdir. Heydər Əliyev sovet imperiyası zamanında dinimizin yasaqlanmasına baxmayaraq, mənəvi mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan dini görüşlərə hörmətlə yanaşmış, xalqın öz dini inanclarını həyata keçirməsi üçün məscid və minarələrin tikintisinə xüsusi qayğı göstərmişdir. Tahir Paşazadə ulu öndərin məhz bu cəhətini xarakterzə edərək yazır ki, "şifahi xalq yaradıcılığı abidələrinin qorunması, bərpa olunması, folklor əsərlərinin nəşri, xalq mərasimlərinin, milli bayramların rəsmi olaraq qeyd olunması, folklor abidələrinin və el sənətkarlarının yubileylərinin keçirilməsi, xalq tamaşaları, oyunlar, yarışlar və s. tətbiqi, təbliği və tədqiqinin dövlət səviyyəsində həyata keçirilməsi Heydər Əliyevin mənəvi quruculuq siyasətinin əsas təmayülü kimi diqqət mərkəzində olmuşdur". Burada görürük ki, dahi rəhbərin xalq mərasimlərinə olan səmimi münasibəti onu əsl xalq adamına çevrmişdir. Heydər Əliyev xalqımızın ən əziz mərasimi "Novruz"la bağlı fikirləri qənaətimizin həqiqiliyini bir daha təsdiq edir. O, deyirdi: "Azərbaycan xalqı tarix boyu əziz tutduğu Bahar bayramının hər gəlişini səbirsizliklə gözləmiş, sınaq dolu ağır günlərində də onu qəlbində yaşatmışdır. Minilliklər boyu formalaşmış adət-ənənələrimizi qoruyaraq milli varlığımızın rəmzinə çevrilən yaz bayramını insanlarımız bu gün böyük sevinclə qeyd edirlər. Mədəniyyətimizin zəngin xəzinəsi olan Novruz bayramı milli dövlətçilik ənənələrimizi bərpa edib, dövlət müstəqilliyimizi yenidən qazandıqdan sonra Azərbaycan Respublikasının rəsmi bayramlarından biri kimi həmişəlik təqvimə daxil olmuşdur".

Heydər Əliyev şifahi xalq yaradıcılığına, xüsusilə dastan yaradıcılığına xüsusi sevgi ilə yanaşırdı. Çünki burada Azərbaycan xalqının özü, onun qəhrəmanlıq tarixi, mübarizə əzmi, arzu və istəkləri dayanırdı. Qədim azərbaycanlıların ana kitabı "Kitabi-Dədə Qorqud" dastanına Heydər Əliyevin verdiyi tarixi qiymət xalq yaradıcılığına olan sevgidən irəli gəlirdi. Ümummilli Lider Heydər Əliyev 9 aprel 2000-ci ildə "Kitabi-Dədə Qorqud" dastanın 1300 illiyinin keçirilməsi ilə bağlı tarixi qərar qəbul edir. Bu qərarın Azərbaycan xalqı və mədəniyyəti ücün əhəmiyyətindən bəhs edən Ulu Öndər "Kitabi- Dədə Qorqud" dastanın 1300 illiyinə həsr olunmuş təntənəli yubleyində deyirdi: Bu yubiley bizim uçun, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, ... xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiramın bayramıdır. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Onun sahibi Azərbaycan xalqıdır.

Ulu öndər Heydər Əliyevin xalqın mənəvi mədəniyyətinə, tarixinə, arzu və istəklərinə bağlı bir insan olduğu üçün xalq da onu bu dəyərlərin daşıyıcısı, hamisi kimi sevirdi. "Xalq və Heydər" şüarı, əslində, hakimiyyətə gəldiyi ilk dönəmdən, ötən əsrin səksəninci illərindən başlayaraq formalaşırdı. Xalq yaradıcılığında Heydər obrazı yaranır, quruculuq işlərinin önündə gedən qəhrəmanın adı dastanlara, əsərlərə düşürdü. 80-ci illərdə geniş yayılan "Heydər dastanı"nda deyilirdi:

Ellərimin üzü güldü,
Bağça-bağı, düzü güldü,

Yetimlərin gözü güldü,
El dərdini sən biləni,
Bu ellərə sən gələni.

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Şəmşir əsərlərinin birində Heydər Əliyevi vəsf edərək yazırdı:

Möhürlə yazılıb xalqın qəlbinə,
Silinməz tarixdən adı Heydərin.
Qəhrəman ellərdən alıb dərsini
Belə böyük var ustadı Heydərin

Aşıq poeziyasında öz dəst-xətti ilə seçilən sənətkarlardan Aşıq Gülarə Əzaflı, Aşıq Əhməd yaradıcılığında da Heydər Əliyev obrazı canlandırılmışdır.

Bugünkü qalib Azərbaycanın memarı olan və hələ sağlığında folklora dönən Heydər Əliyev xalq yaradıcılığının sonrakı dönəmlərində xilaskar obrazında yaşayacaq və folklora verdiyi töhvələr hesabına ədəbiyyatımız daha da inkişaf edəcəkdir.

## HEYDƏR ƏLİYEV VƏ "KİTABİ-DƏDƏ QORQUD" DASTANI

**Qədim Rufullayev**
**dosent**
**Günel Mirzəyeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**qedim73@mail.ru**
**mirzyeva,gnel@bk.ru**

**Açar sözlər*:*** Heydər Əliyev,"Kitabi-Dədə Qorqud", epos, etnik yaddaş

Görkəmli dövlət xadimi Heydər Əliyevin çoxşaxəli fəaliyyətində elm, təhsil və mədəniyyətin inkişafına diqqət və qayğı ön planda olmuşdur. Ulu öndərin elm siyasəti milli maraqların təmin edilməsinə yönəlmiş, humanitar elmimizin ideya istiqamətinin müəyyənləşməsində mühüm rol oynamışdır. Azərbaycan şifahi xalq ədəbiyyatının öyrənilməsi də bu istiqamətdə görülən işlər sırasında idi.

Azərbaycan folkloruna, folklorşünaslığına Sovet dönəmində olan neqativ münasibətin dəyişilməsi ümumilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Ulu öndərimiz xalq ədəbiyyatına çox dərindən bağlı olmuşdur.1970-80-ci illərdə "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposları, məhəbbət dastanları, nağıllar, qaravəllilər, lətifələr, atalar sözləri, bayatılar, əfsanə və rəvayətlərdən ibarət toplular onun sayəsində təkrar-təkrar nəşr olunmuşdur. Bu nümunələr içərisində "Kitabi-Dədə Qorqud" dastanına olan münasibət xüsusi əhəmiyyət kəsb edirdi. Çünki azərbaycanlıların bir xalq kimi formalaşmasının "canlı"şahidi olan "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın qəhrəmanlıq salnaməsi, ilk böyük ədəbi abidəsdir.

Oğuz türklərinin belə bir dastanı olması barədə ilk məlumatı XIX əsrin əvvəllərində alman alimi Fridrix fon Dits vermiş, ondan sonra "Kitabi-Dədə Qorqud" elm aləmində

məşhurlaşmağa başlamışdır. Ötən bu müddət ərzində istər dünya, istərsə də ölkə alimləri dastanın tədqiqi ilə bağlı bu və ya digər dərəcədə addımlar atılmışlar. Kilisli Rüfət, Əmin Abid, Salman Mümtaz kimi alimlərin araşdırmaları bu qəbildəndir.

1951-ci ildə pantürkizmi təbliğ edən ideologiya kimi Azərbaycanda və Türkmənistanda "Kitabi-Dədə Qorqud" eposu "mürtəce abidə"elan edilərək nəşri, öyrənilməsi və təbliği qadağan olunsa da, şəxsiyyətə pərəstiş dövründən sonra yenidən cəmiyyətin, araşdırıcıların diqqət mərkəzinə keçmiş, dastanın motivləri əsasında məşhur "Dədə Qorqud" filmi çəkilmişdir (Azərbaycanda 1957-ci, Türkmənistanda isə 1980-ci ildə bəraət alıb). Yalnız filoloji istiqamətdə dəyərləndirilən bu məsələyə Heydər Əliyev həm hüquqi, həm də elmi cəhətdən lazımi qiymət verilməsinə səbəb oldu.

Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının bütün türk dünyası üçün əhəmiyyətini dərk edərək, ona ikinci həyat bəxş etmişdir. Ulu öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin yüksək səviyyədə bayram edilməsi üçün dövlət komissiyası yaradılması haqqında müvafiq fərman imzalamış, komissiyanın gərgin işi sayəsində 2000-ci il aprel ayının 7-dən 9-dək ədəbi abidənin 1300 illik yubileyi Bakı şəhərində böyük təntənə ilə bayram edilmişdir. Bayram ərəfəsində Bakıda türkdilli dövlət başçılarının VI zirvə toplantısı keçirilirdi. Bu, bir növ, birlik, qəhrəmanlıq, şücaət amallarını təqlid edən "Kitabi- Qorqud" dastanı ideyalarının həyatda yaşadılmasının bariz nümunəsi idi. Ulu öndərimiz dastanın əhəmiyyəti barədə yubileydəki çıxışında deyirdi: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. "Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Söykökümüzü, tariximizu, dövlətçiliyimizi və Azərbaycan türkcəsini öyrənmək baxımından zəngin mənbə olan "Kitabi-Dədə Qorqud" yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ölməz kitabıdır". Heydər Əliyev fikrini davam etdirərək deyirdi ki, "bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli mənəvi dəyərlərimizə, xalqımızın çox əsrlik tarixinə olan hörmət, ehtiramın bayramıdır. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Onun sahibi Azərbaycan xalqıdır".

"Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyət, elm və ədəbiyyatının ən monumental, görkəmli, parlaq abidəsidir. Bu dastan tariximizin 1300 illik dövrünü öz çılpaqlığı ilə əks etdirir, tarixi köklərimizi dünyaya göstərir. Oğuz, türk mənşəyimizin, zəngin tariximizin aynasıdır. Xalqımızın dünəni-keçmişi, bu günü, gələcəyi üçün böyük əhəmiyyət kəsb edən "Kitabi-Dədə Qorqud" dastanı ədəbiyyat, mədəniyyət tariximizin mənşəyini, nəinki, indiki nəsillərə, həm də gələcək nəsillərə də çatdıran bir dastandır.

"Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ana kitabıdır, onun haqqında elmi araşdırmalar, eyni zamanda xalq tarixinin qəhrəmanlıq səhifəsini tədqiq etmiş olur. Gənc nəslin milli ruhda tərbiyə olunmasında, eləcə də Azərbaycan elminin gələcək gələcək inkişafında "Kitabi-Dədə Qorqud" dastanının əhəmiyyəti böyükdür. F.Köçərlinin "keçmiş keçmişdir, lakin keçib getmiş deyildir"fikrini biz məhz bu dastan sayəsində anlayırıq. O,cəmiyyət var olduqca yaşayacaqdır.

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ UŞAQ ƏDƏBİYYATI VƏ ONUN İNKİŞAFINA KÖMƏK EDƏN AMİLLƏR

**Qədim Rufullayev**
**dosent**
**Həsən Həsənli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**qedim73@mail.ru**
**hesenlihesen20012018@gmail.com**

**Açar söz:** uşaq ədəbiyyatı, dərslik və mətbuat, XX əsr, inkişaf

XX əsrin əvvəllərində söz sənətimizin müstəqil bir sahəsinə çevrilən Azərbaycan uşaq ədəbiyyatı, tarixin müxtəlif mərhələlərində inkişaf etmiş, müxtəlif zaman kəsiyində inkişafdan qalmış və yenidən canlanmışdır. Ümummilli liderimiz Heydər Əliyev uşaqları xalqın gələcəyi kimi qiymətləndirmiş, xalqın ədəbiyyatının, incəsənətinin, ümumən mədəniyyətinin inkişafına hər zaman önəm vermiş, ölkədə uşaq ədəbiyyatına da xüsusi qayğı göstərilməsini tövsiyə etmişdir. Uşaqlara olan belə diqqət tələb edir ki, qloballaşma şəraitində xalqımızın zəngin ədəbiyyatının tərkib hissəsi olan uşaq ədəbiyyatı, milli-mənəvi dəyərlərimizin əsas atributu kimi qorunsun və inkişaf etdirilsin. XX əsrin əvvəllərində Azərbaycandakı iqdisadi-siyasi vəziyyət Azərbaycan ədəbiyyatının, incəsənətinin, eləcə də uşaq ədəbiyyatının inkişafı üçün yeni fürsət yaratdı. Ədəbiyyatın bəhs edilən qolu bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir. Uşaqlar üçün yazılan əsərlər, folklor nümunələri uşaqların yaş və anlaq səviyyəsinə müvafiq olmalıdır. Ədəbiyyat uşaq aləminin ayrılmaz bir hissəsidir. Ədəbi əsərlər vasitəsi ilə uşaq böyük aləmə daxil olur, onun hissləri və dünya duyumu formalaşır, vətəndaşlıq amalı, xarakteri yaranır. Maraqlı, məzmunlu, parlaq formada canlı, obrazlı dildə yaranmış, uşaq kitabında təsvir olunan aləm, tarixi və müasir hadisələr həmişəlik olaraq oxucunun qəlbində dərin iz qoyur. Ustalıqla qələmə alınmış bədii əsər uşağı yetişdirir, hisslərini və dünya haqqında biliklərini zənginləşdirir. Uşaq dünyası - bulaq suyu qədər saflığı, açıq səma kimi aydınlığı, ölkəyə ilk dəfə gəlmiş qonaq kimi qeyri-adi heyranlığı ilə yazılmış uşaq şeirlərinə bənzəyir. Hər uşaq fərqli bir bədii əsərdir. Dünyada nə qədər uşaq varsa, bir o qədər də bitib-tükənməz, yazılmamış uşaq ədəbiyyatı ehtiyatı vardır. Uşaq ədəbiyyatından söz düşən kimi asasən ilk sual belə olur: uşaqlar üçün olan ədəbiyyat necə yazılmalıdır? və fərqli fikirlər meydana çıxır. Bu çox vacib bir sualdır və yazıçılar, alimlər, bəstəkarlar, oxucular bu suala cavab tapmalı, ümumi ortaq nəticəyə gəlməlidirlər. Çünki hansı dil və üslubda, bədii formada yazılmağından aslı olmayaraq, həmin bədii ədəbiyyat və musiqi nümunələrini ilk növbədə uşaqlar seçməli, sevməli, oxumalı, bəyənməli və mənimsəməlidirlər. Müasir uşaq yazarları qarşısında ciddi problemlər durur. Bu problemlər, yalnız şeir yazmaq deyil, o, cümlədən uşaq psixologiyasını dərindən bilməyə və valideynlərlə sıx təmasda olmağı təcrid etməlidirlər. Əgər belə olarsa, yazdıqları əsərlər uşaq zövqünə uyğun ola bilər. Bəzən elə olur ki, yazar əsəri öz içindən gələn kimi qələmə alır, uşağın zövqünü nəzərə almır, ona görə də nə əsər, nə də müəllif oxucularımızın yaddaşında qalmır. Uşaq ədəbiyyatı məqsəd və vəzifələrinə görə 17 yaşına kimi müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi estetik tərbiyəsinə yönəldilən bədii əsərlərə deyilir. Azərbaycan yazıçıları da, uşaqlarımızın mənəvi tələbatlarını nəzərə alıb, onlar üçün çoxlu gözəl bədii əsərlər yaratmışlar. Uşaqların oxuduqları sağlam, dolğun,ideyalı, yüksək səviyyəli bədii əsərlər böyük əhəmiyyət kəsb edir. Uşaqlar üçün əsərlər yazan A. Səhhət,

M.Ə.Sabir, A.Şaiq, S.S.Axundov Y.Əzimzadə və bu kimi sənətkarların ədəbi nümunələri uşaqların tərbiyəsi və mütaliəsi üçün bir örnəkdir. Abdulla Şaiqin " Xoruz", "Keçi", " Uşaq və dovşan" Mirzə Ələkbər Sabirin "Yaz günləri", "Uşaq və buz", "Uşaq və pul" Abbas Səhhətin "Cücələr" və s. kimi şeirlər, o cümlədən Cəlil Məmmədquluzadənin "Quzu", "Zırrama", "Usta Zeynal" kimi hekayələr bu gündə uşaqların dillər əzbərinə çevrilərək, oxu və tərbiyə mənbəyi kimi öz aktuallığını saxlamışdır. Uşaq ədəbiyyatının yaranması və inkişaf etdirilməsində N.Nərimanov, Ü.Hacıbəyov, R.B.Əfəndiyev, M.Mahmudbəyov kimi müəllim və yazıçıların misilsiz xidmətləri də olmuşdur. Onlar bədii yaradıcıllıqla bərabər müəllimlik edir, dərslik, dərs vəsaitləri və proqramlar tərtib edir, dövri mətbuatda aktiv çıxış edirdilər. Ziyalıların diqqət mərkəzində olan ən aktual məsələlərdən biri də yeni üsullu məktəb, yeni tələblərə cavab verən uşaq əsərlərinin yaradılması idi. Yeni üsullu məktəblərdə tədris olunan ədəbiyyat dərsliklərində uşaqların bilik səviyyəsinə, zövqünə uyğun şeir və hekayələr, tarixi hadisələrə dair bədii oçerklər geniş yer tuturdu.

XX əsrin əvvəllərində uşaqlar üçün əsərlərin və dərsliklərin yaranması hələ hər şey demək deyildi. O vaxt bu kimi nümunələrin oxuculara çatdırılmasında mətbuat böyük rol oynamışdır. Ətrafına maarifpərvər yazıçıları toplayan, qabaqcıl meylləri və realist ideyaları təbliğ edən nəşrlərlə ("Molla Nəsrəddin", "Zənbur", "Babayiəmir", "Məzəli" və s.) bərabər ilk uşaq jurnalları – "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" də (1911-1920) uşaq mətbuatının inkişafına geniş yol açdı. Maarifpərvər M.Mahmudbəyovun nəşr etdiyi "Rəhbər" jurnalının da məqsəd və məramı yeniyetmələrin təlim və tərbiyəsi idi. Məktəb" jurnalının məqsədi haqqında deyilirdi: "Bizim bu "Məktəb"i nəşr etməkdə başlıca məqsədimiz məktəb şagirdlərinin irəliləyərək inkişaf etməsi istiqamətində edilən bir xidmətdir. "Məktəb"i oxuyacaq şagirdlərin biliyi əhatəli bir dairə olarsa, o vaxt biz də qarşıya qoyduğumuz məqsədimizə çatmış olarıq". "Məktəb" jurnalı ilk nömrəsindən başlayaraq yeniyetmələrin təhsil, təlim və tərbiyəsinə xidmət etmişdir. Jurnalın səhifələrində çap edilən əsərlərin böyük əksəriyyətində elmin və məktəbin rolu təqdir olunur, yeni nəslin tərbiyəsində yeni üsullu məktəblərin tərbiyə üsulları inandırıcı boyalarla təbliğ edilirdi. "Məktəb" jurnalının səhifələrində müəllimlər, ədəbiyyat həvəskarları, maarifpərvər ziyalılarla bərabər, dövrünün tanınmış ədib və şairləri yaxından iştirak edir, onun səhifələrində şeir və hekayələrini çap etdirirdilər. H.Cavid, Ə.Nəzmi, A.Səhhət, A.Şaiq, R.Əfəndizadə, S.S.Axundov, İ.Musabəyov və digər şair və yazıçılar "Məktəb" jurnalının səhifələrində vaxtaşırı çıxış etmişlər. Müstəqillik dövründə də ölkəmizdə uşaq mətbuatı surətlə inkişaf etmişdir.

## MƏKTƏBƏQƏDƏR DÖVRDƏ KAR VƏ ZƏİF EŞİDƏN UŞAQLARIN NİTQ İNKİŞAFININ XÜSUSİYYƏTLƏRİ

**Lalə Məmmədova**
**müəllim**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**lale_memmedova95@bk.ru**

**Açar sözlər:** uşaqlar, zəif eşidən, nitq inkişafı

Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqların korreksiya işlərinin həyata keçirilməsində nitq mühüm əhəmiyyətə malikdir. Nitq və onun inkişafı təfəkkürün inkişafı

ilə sıx əlaqədardır. Məktəbəqədər dövrdə kar uşaqlarda təlim olmadan nitq formalaşmır. Onlarda müxtəlif səsli reaksiyalar, səs birləşmələrinin tələffüzü müşahidə olunur. Lakin təlim olmadan bu səs reaksiyaların sayı yaşla bağlı tədricən azalır, bəzən də beş-altı yaşında tamamilə yox olur. Təlim almamış məktəbəqədər yaşlı eşitmə pozulması olan uşaqların əksəriyyəti nitq və ünsiyyət çətinliyini dərk etməyə başlayır, böyüklər və eşidən uşaqlarla ünsiyyət qurmaqdan çox çəkinirlər. Onlar böyüklərlə (əksər hallarda valideynlərlə) ünsiyyəti əşya fəaliyyəti, təbii jest, mimika və digər qeyri-verbal vasitələrin köməyi ilə həyata keçirirlər. Erkən yaşlı kar və zəif eşidən uşaqların nitqindəki fərqlər dörd yaşdan sonra daha qabarıq nəzərə çarpır. Zəif eşidən uşaqlar karlardan onunla fərqlənir ki, onlarda nitqin inkişafı xüsusi təlim olmadan belə: nitqin səs tələffüzü, lüğət tərkibi, qrammatik tərəfləri inkişaf edir.

Kar uşaqlara sözlü nitq təlimi zamanı nəzərə almaq lazımdır ki, ikinci siqnal sistemi birinci siqnal sistemi ilə birgə və ona istinad edərək, onun işini dəyişib daha da təkmilləşdirərək fəaliyyət göstərir. Zəif eşidən uşaqlarda eşitmənin qismən pozulması nitq inkişafının xarakterində özünü əks etdirir. Erkən yaşda, qismən də olsa, eşitmə analizatorunun fəaliyyət pozulması uşaq nitqinin düzgün inkişaf etməməsinə səbəb olur. Eşitmənin çox kiçik, erkən yaşda müəyyən qədər itirilməsi qulaq seyvanının danışıq ucalığında olan nitqi qavramaması ümumilikdə nitqin inkişafını ləngidir.

Məktəb yaşının başlanğıcında (7 yaşa qədər) belə bir uşaq çox vaxt çox kasad lüğət ehtiyatına malik olur. Uşağın 0,5-i 1 metr məsafədən yaxşı tanıdığı sözləri eşitməsi onun lüğət ehtiyatının artmasına və cümlənin qurulmasında böyük çatışmazlıqlara baxmayaraq, fraza nitqi inkişaf etdirməyə imkan verir Lakin uşaqda lüğət ehtiyatının məhdud olması ona tanış olan sözlərin əksəriyyətinin mənalarının anlaşılmaması və düzgün istifadə edilməməsi ilə müşayiət olunur. Eyni semantik qrupa daxil olan sözlər çox vaxt bir-biri ilə əvəz olunur. Eşitmə bacarığının müəyyən qədər qorunub saxlanması zəif eşidən uşağa ya nitqi tam mənimsəməyə, ya da müəyyən tələffüz və qrammatik çatışmazlıqları olan nitqə yiyə lənməyə imkan verir.

Zəif eşidən uşağın lüğət ehtiyatının məhdud olması ona məlum olan sözlərin əksəriyyətinin mənalarının yanlış anlaşılması və düzgün istifadə edilməməsi ilə müşahidə olunur. Onlarda eyni semantik qrupa daxil olan sözlər çox vaxt bir-biri ilə əvəz edilir. Onlar məktəb əvəzinə oxumaq, zərf əvəzinə poçt, kran əvəzinə su və s. kimi sözlər işlədə bilərlər. Məsələn, çörək kəsən qadın təsvir olunduğu şəkli zəif eşidən uşaq “kəsmək” sözünün əvəzinə: “ Ana, çörək bıçaq” kimi deyir.

Zəif eşidən uşaqlar üçün xüsusilə əşya, obyekt və hərəkətlərin adlandırılmasında çətinlikləri və ya adlarının əvəzlənməsi çox xarakterikdir. Onların nitqindəki bu cür söz əvəzlənmələri xüsusi təlim keçmiş kar uşaqlarda baş verənlərə bənzəyir.

Zəif eşidən uşaqlar tələffüz artikulyasiyasının ümumi pozulmaları və kifayət qədər ifadə olunmayan səs modulyasiyaları ilə xarakterizə olunurlar. Erkən yaş dövründə baş verən eşitmənin pozulması nitq xüsusiyyətlərinə, eləcə də, müstəqil şəkildə tələffüz vərdişlərinə görə kar uşaqların nitqindən fərqlənir. Belə ki, zəif eşidən uşaqlarda səs tələffüzü, söz tərkibinin təhli və tərkibi bacarıqlarına yiyələnsələr də onlar da səslərin təhrif edilmiş tələffüzü söz tərkibində səslərin differensasiyası, hecaların təhrifi və yer dəyişmələri, sözlərin qrammatik cəhətdən əlaqələnmələrinin pozulmaları müşahidə olunur. Çox zaman onların tələffüzündə sözün yalnız konturları qorunur, söz bütövlükdə tanınmaz dərəcədə təhrif olunur.

Məktəbəqədər yaşlı uşaqlar arasında səs-tələffüz pozuntusuna tez-tez rast gəlinir. Bu halda uşaqlarda nitqin başa düşülməsi, lüğət və qrammatikanın quruluşu və eşitmə və nitq aparatının innervasiyası normal olur. Belə vəziyyətdə səs tələffüzü pozuntusu “Dislaliya” adlandırılır. Nitq səslərinin hər birində tələffüz pozuntusu müşahidə edilə bilər. Lakin elə

səslər vardır ki, onlarda təsadüfi hallarda tələfüz pozuntusu ola bilər. Belə səslərin artikulyasiya üsulu sadə olur və dildə əlavə hərəkət yaradılmır. Məsələn: M, n, t və p. Əksər hallarda artikulyasiyası çətin olan səslərin təlləfüzü pozulur, məsələn, dil samitləri r və l, fısıltılı və fışıltılı samitlər: S, z, ç və s.

Zəif eşidən uşaqların tələffüzündə xarakterik səs tələffüz pozulmaları rast gəlinir:

a) cingiltili samitlərin kar samitlərlə əvəzlənməsi;
b) fısıltı səslərin tələffüz pozulmaları;
c) fışıltılı samitlərin partlayan, damaq samitləri, dil -diş səsləri ilə qarışdırılması və s.

Zəif eşidən uşaqların nitq inkişaf xüsusiyyətlərindən biri, onlara məlum olmayan səslərin tələffüzünü asanlıqla öyrənməsi, lakin onlar həmin sözləri səhv tələffüzdür. Onlar bəzi sözlərdə səsləri düzgün tələffüz edir, bəzilərində isə səs baxımından oxşar səslərlə əvəz edirlər. Bu, zəif eşidən uşaqlarda tələffüz çatışmamazlıqlarının artikulyasiya aparatının hərəki çətinlikləri ilə bağlı olmadığını göstərir. Onların baş vermə sə bəbləri uşaqların sözlərin səs tərkibini kifayət qədər mənimsəməməsi, eşitmə ilə zəif qavramasındadır. Bəzi tələffüz çatışmazlıqları, nitq inkişafının ən başlanğıc mərhələsində zəif eşitmə çatışmamazlığı, ən kiçik eşitmə itkisi nəticəsində yarana bilər.

Zəif eşitməsi olan uşaqların nitqinin qrammatik quruluşunda da pozulmalar müşahidə olunur. Uşaqlarda dilin morfoloji quruluşunda sapmalar heç də az nəzərə çarpmır. Sözün başlanğıc və ya sonluq hissələrini eşitmədiyi üçün onları ya buraxır, ya da təhrif olunmuş formada istifadə edirlər. Uşaqlarda daha inkişaf etmiş nitqdə hal, mənsubiy yət, zaman və digər qrammatik formaların çox xarakterik çatışmazlıqları özünü göstərir. Zəif eşitməsi olan uşaqlar cümlə qurmağa cəhd edərkən onun üzvlərindən birivə ya digərini buraxırlar.

Yazılı nitqdə sapmalar bu uşaqlar üçün də xarakterikdir. O, əsasən tələffüzdə olduğu kimi səslərin eyni əvəzetmələrini ehtiva edir. Ümumiyyətlə, söz yazılan zaman tələf füz zamanı olduğundan daha çox təhrifə məruz qalır. Sözün səs tərkibini kifayət qədər mənimsəmədiyi üçün uşaqlar yazıda da müvafiq səhvlər buraxırlar.

Beləliklə də, zəif eşitməsi olan uşaqlarda lüğət ehtiyatının məhdudluğu və nitqin qrammatik quruluşuna yetərincə mənimsəməməsi təbii olaraq, onların eşitdikləri şifahi nitqi və oxuduğu mətni məhdud qavrayışına səbəb olur.

# GƏNCLƏR PAYTAXTININ SİMVOLU OLAN LƏNKƏRAN ŞƏHƏRİNİN MEMARLIQ MƏDƏNİYYƏTİ

**Lalə Qafarova**
**müəllim**
**Lidiya Safronova**
**müəllim**
**Azərbaycan Dövləti İqtisadiyyat Universiteti**
**liloqafarov@gmail.com**
**liasaf1997@gmail.com**

**Açar sözlər:** Lənkəran şəhəri, memarlıq mədəniyyəti, Lənkəran memarlığı, Lənkəranın qədim abidələri

Lənkaran Azərbaycanın səfalı yerlərindən biridir. Onun gözəl təbiyyəti, adət ənənələri, mədəniyyəti, qədim tarixi, dadlı, yerli mətbəxi var. Gənclər Paytaxtının simvolu olan Lənkəran şəhərinin mədəniyyət nümunələrindən biridə onun memarlıq abidələridir. Lənkəran şəhərində tarixi abidələr çoxdur. Xan sarayı, Əbirlər qülləsi, Şeyx Zahid türbəsi, Kiçik Bazar məscidi, Güldəstə minarəsi, Hacı Mirzə hamamı, Bəlləbur qalasının xarabaliqları və s

Lənkəran xan sarayı

Lənkəran xan sarayını 1913-cü ildə Mir Əhməd xan həyat yoldaşı Tuğra xanımın şərəfinə tikdirmişdir. Saray avropadan dəvət olunan memarlar tərəfindən layihələndirilmişdir. Istifadə olunan tikinti materialları isə gəmi vasitəsi ilə Bakı şəhərindən gətirilirdi. Bu binanın özəlliyindən biridə Lənkəranda ilk çoxmərtəbəli tikili olmasındadır. Xan sarayının fasadının bədii tərtibatının əsassı mifaloji fiqurlar tutur. Hal hazırda Lənkəran Xan sarayı Lənkəran şəhəri Tarix Diyarşünaslıq muzeyi kimi fəalliyyət göstərir.

Şeyx Zahid türbəsi

Şeyx Zahid türbəsi Şıxakəran kənd qəbiristanlığında yerləşir və uzun illərdir insanların ziyarət etdiyi məkandır. Şeyx Zahid mürşid hesab olunurdu. O, xeyriyyəçi və şair olub eyni zamanda Azərbaycanın digər bölgələrində dini təbliğ etmişdir. Şeyx Zahid 1300-cü ilin mart ayında vəfat etmişdir. Onun ölümündən sonra məzarı ziyarət edilən yerə dönüb. Ziyarətkah sayılan türbəni araşdıran tədqiqatçılar belə qənayətə gəliblər ki, türbə Təbriz və Şirvan-Abşeron memarlıq üslubunda tikilib. Şeyx Zahid türbəsinin bəzədilməsində kaşıdan istifadə edilib.

Kiçik Bazar məscidi

Kiçik bazar məscidi Tağı bəy, Ağa bəy, Molla Nəsi və şəhər əhalisi tərəfindən yığılmış vəsait hesabına 1904-cü ildə tikilib. Kiçir bazar məscidi adını yerləşdiyi Kiçik bazar məhəlləsindən alıb. Məscid Rəhim və onun atası tərəfindən bəzədilib. Iyirmi altı metr uzunluğa, on metr enə, səggiz metr hündürlüyə sahib olan olan Kiçik bazar məscidinin divarının qalınlığı isə bir metirdir. Məscid 250 nəfərin eyni vaxtda namaz qıla biləcəyi qədər böyükdür. Məscid qırmızı kərpic, yerli meşə materialları və kirəmitdən tikilib. XIX əsrdə Məhəmmədhəsən Nəccar məscidin sol qapısını hazırlayıb sağ qapısı isə usta Məhəmmədəli tərəfindən hazırlanıb.

Bəlləbur qalası

Bəlləbur qalasının ikinci adı Balabür qalasıdır. Bəlləbur qalası Lənkəranın Bəlləbur kəndində yerləşir. Bəlləbur abidəsi VIII-IX əsirlərdə, təxminən bir hektar ərazidə inşa olunub. 4-5 metr hündürlüyə 2 metir enə sahib olan bu qala 1869-cu ildə Səidəli

Kazımbəyoğlunun yazdığı "Cavahirnameyi-Lənkəran" kitabında IX əsrdə yerləşdiyi ehtimal edilir.

Müasir dövür memarlıq abidələrindən danışsaq Lənkəran şəhərində gəzməli-görməli yerlər çoxdur. Müasir memarlıq nümunələrinə misal olaraq Qala xiyabanı, Heydər Əliyev Xatirə Parkı, Dosa Mall Ticarət Mərkəzi, Tağıyev Pasajı, Lənkəranlı, Sovet İttifaqı Qəhrəmanı adını alan Həzi Aslanovun şərəfinə salınmış parkı, Soyqrım Qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün salınmış parkı, Rövşən Abdullayev Parkı və Lənkəran Şəhər Mərkəzi Meydanını göstərə bilərik.

## İNGİLİS DİLİNİN TƏKAMÜLÜNÜN MƏHSULDAR DÖVRÜ

**Lamiə Əliyeva**
**doktorant**
**Azərbaycan Dillər Universiteti**
**qocayeva.lamiye@mail.ru**

**Açar sözlər:** diaxronik tədqiqat, orta dövr, tayfa dili, məhsuldar dövr, qlobal dil

Müasir ingilis dili Hind-Avropa dilləri ailəsinin Qərbi German yarımqrupuna aid olub, ən geniş coğrafiyada işlədilən dildir. Mütəxəssis araşdırmalarına görə, ingilis dilinin tarixi bizim eranın V əsrində uzaq Skandinaviya yarımadasından Avropa qitəsinə hücum edən və daha sonra Britaniya adalarını işğal edən Anqlo, Sakson və Yut tayfalarının adalara gəlişi ilə başlamışdır. Eyni Ulu dilin yaxın dialektlərində danışan bu tayfaların dilləri əsasında gələcəkdə ingilis dili formalaşmış və adalarda danışılan vahid milli dilə çevrilmişdir.

Lakin ingilis dili müasir formasına gəlib çatana qədər mürəkkəb təkamül mərhələlərindən keçməli olmuşdur. Bu, hər şeydən öncə dilin və dilin aid olduğu xalqın yaşadığı tarixi mühitdən asılı olmuşdur. İngilis dili təkmilləşib milli ədəbi dil statusunu qazanana kimi o, tayfa dili, daha sonra geniş ərazidə işlənən tayfaların dilləri kimi istifadə olunmuşdur. Bu dövr ingilis dilinin Qədim dövrü *(Old English period)*, primitiv inkişaf və tədricən formalaşma dövrü olaraq V-IX əsrləri əhatə edir. Qədim dövrün başlanğıcında yazı olmadığına görə bu dövr haqqında məlumat vermək çətindir. Lakin VII əsrdən başlayaraq adalarda german tayfalarının gətirdikləri run əlifbasından istifadə olunmuşdur. Təkamülün irəliləyən dönəmlərində Xristian dininin Roma missionerləri tərəfindən adalarda vahid din kimi yayılması ilə orada latın əlifbasından istifadə olunmağa başlanmışdır. Sintetik, şəkilçili dil olan qədim ingilis dili mürəkkəb daxili quruluşa, o qədər də zəngin olmayan lüğət tərkibinə malik olmuşdur. Qədim və ya Anqlo-Sakson ingilis dili cümlə quruluşuna, tələffüz qaydalarına görə daha çox müasir alman dilinə bənzəmişdir. Müasir alman dilində olduğu kimi, qədim ingilis dilində isimlərin çox sayda qrammatik kateqoriyaları, o kateqoriyaları ifadə edən morfoloji əlamətləri olmuşdur. İsimlər cinslərinə görə artikillə işlənmiş, cümlədə isim və onun təyinediciləri arasında şəxsə, cinsə, hala və kəmiyyətə görə qrammatik uzlaşma olmuşdur. Təkamülünün V-X əsrlərini əhatə edən dövrdə ingilis dili sintetik dil olmuş, cümlədə söz sırası sərbəst olaraq işlədilmişdir. Bu dövrdə ingilis dili latın və yunan dillərinin, az da olsa Selt mənşəli dillərin təsirinə məruz qalmışdır.

Diaxronik tədqiqatlar ingilis dilinin bir dil olaraq müharibələr, işğallar dövründə yaranıb formalaşdığını təsdiq edir. Hələ V-VII əsrlərdə adalara gəlmiş German tayfaları

burada özlərinin yeddi krallığını yaradarkən bu krallıqlar arasında adalarda hökmranlıq uğrunda mübarizə getmişdir. IX əsrdən XI əsrin ortalarına qədər olan dövrdə yerli krallıqlar birləşərək Skandinav tayfalarına – Vikinqlərə qarşı birlikdə döyüşmüşlər. Lakin Vikinqlər qalib gələrək adaları istila etmişlər. Bir əsrdən artıq müddətdə Deynlou ərazisində Skandinav tayfaları ilə bir ərazidə yaşayan Anqlo-Sakson tayfalarının dili gəlmə dillərin təsiri ilə dilin bütün səviyyələrində dəyişməyə başlamışdır. O.Yespersen, K.Brunner, V.D.Arakin, A.İ.Smirnitski, T.A.Rastorquyeva və başqa alimlərin qənaətinə görə, ingilis dilində dərin dəyişikliklər qədim dövrün sonlarından, məhz Vikinqlərin dillərinin təsiri ilə başlamış, bu dövrdə ingilis dili həm qrammatik quruluşu cəhətdən sadələşsə də, söz ehtiyatı cəhətdən zənginləşməyə başlamışdır, çünki ingilis dilinə çox sayda skandinav mənşəli sözlər daxil olmuş və o sözlər bu gün də, dildə işlədilməkdədir.

İngilis dilinin inkişaf mərhələsində digər təkamül dövrü XI-XV əsrləri əhatə edən orta dövrdür *(Middle English period).* Bu dövr ingilis dilinin bütün səviyyələrində radikal dəyişikliklərin baş verdiyi mərhələ hesab olunur. Orta dövr tədqiqatçılar tərəfindən qədim dövrlə erkən müasir dövr arasında keçid mərhələsi kimi, həm də ingilis dilndə baş verən dramatik dəyişikliklərin bərqərar olduğu ən məhsuldar inkişaf fazası olaraq dəyərləndirilir. Tədqiqatçılar bu təkamül mərhələsində dildə baş verən dəyişikliklərin əsasında həm linqvistik, həm də ekstralinqvistik amillərin rol oynadığını xüsusi olaraq qeyd edirlər. Dilin daxilində baş verən dəyişikliklərdə rolu olan linqvistik amillər dildənkənar ekstralinqvistik faktorların təsiri ilə idarə olunurdu. Bu baxımdan, ingilis dilinə gəlmə dillər, xüsusilə latın və fransız dilləri güclü təsir göstərmişdir. İngilis dili gəlmə dillərin təsirinə məruz qalsa da, substrat nəzəriyyəsinə görə o, bu dillərlə paralel olaraq mövcud olmuş, yerli xalqın dili olaraq işlədilmiş, heç bir dilə assimilyasiya etməmiş, hər zaman milli dil olmaq statusunu qoruyub saxlaya bilmişdir.

XI əsrin ortalarında, 1066-cı ildə İngiltərə adaların sonuncu işğalçıları olan Normanlar tərəfindən zəbt edildi və ingilis dili dörd əsrə yaxın bir müddətdə fransız dilinin təsirinə məruz qaldı. XI-XV əsrlər arası dövrdə ingilis dili öz inkişaf tarixində elə bir önəmli mərhələni yaşadı ki, o, bir dil kimi getdikcə müasir ingilis dilinə bənzəməyə başladı. Dil orfoqrafik, fonetik sistemindəki dəyişikliklərlə, şəkilçi sisteminin iflas etməsi ilə qrammatik cins kateqoriyasından, ismin hallarından azad olmuş analitik dilə çevrildi. Fransız dilindən ingilis dilinə xeyli sayda sözlər daxil oldu. İngilis dili söz ehtiyatına görə başqa bir dillə müqayisə edilə bilməyən bir dilə çevrildi. Orta dövrdə ölkədə baş verən ictimai-siyasi hadisələr, Norman işğalçılarına qarşı milli oyanış hərəkatının yüksəlməsi ingilis dilinin İngiltərədə yenidən milli dil olaraq fəaliyyətinə şərait yaratdı. Orta dövr və erkən yeni dövrdə ingilis dilinin ədəbi dil kimi formalaşmasında iki böyük şairin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Bunlar C.Çoser və V.Şekspirdir. Məhz onlar öz əsərlərini təmiz London dialektində yazmışdılar.Ona görə də, müasir ingilis oxucusu üçün qədim ingilis dili yad bir dil olsa da, lakin orta dövr ingilis dili onun üçün anlaşıqlıdır. Çünki bu dövrdə baş verən dəyişikliklər ingilis dilinin daxili sistemini sadələşdirərək onun mürəkkəb quruluşlu sintetik dildən analitik dilə çevirdi ki, bu dil modeli hazırda da işlədilməkdədir.

Orta və erkən müasir dövrləri əhatə edən XI-XVIII əsrlər arası ən məhsuldar dəyişikliklər dövründə tamamilə yenilənmiş ingilis dili tələffüzünə, qrammatik quruluşuna görə fərqli istiqamətdə inkişaf edərək digər german dillərindən fərqləndi. Bu gün orta dövrdən başlayaraq formalaşmış analitik ingilis dili öz sadə qrammatik quruluşuna və zəngin söz ehtiyatına görə dünyada qlobal ortaq dil *(lingua franca)* olaraq işlədilməkdədir.

# SİNTAKSİS VƏ ONUN DİLÇİLİKDƏ ƏSAS ROLU

**Leyla Əliyeva**
**filologiya üzrə fəlsəfə doktoru**
**Şəbnəm Möhbalıyeva**
**magistrant**
**Sumqayıt Dövlət Universiteti**
**aliyevaleyla74@mail.ru**
**shabnammastali100599@gmail.com**

**Açar sözlər:** semantik, cümlə, funksiya, vahid, məlumat

Sintaksis dilin qrammatik quruluşu ilə məşğul olan bir elmdir və sözlərin, söz birləşmələrinin, cümlələrin və mətnlərin necə düzgün şəkildə qurulduğunu öyrənir. Bu, dilin işləməsini və mənasını anlamaqda əhəmiyyətli bir rol oynar. Sintaktik vahidlər sistemini (söz birləşmələri, cümlələr, mürəkkəb sintaktik bütövlər) öyrənərək, dilin quruluşunun əsas prinsiplərini başa düşməyə kömək edir.

Sintaksis, söz birləşmələri və cümlələrin quruluşunu, vahidlərinin qurulması və bağlanma vasitələrini tədqiq edir. Bu, bir dilin mənasını formallaşdırır və insanların bir-birilə məlumat ötürməsini asanlaşdırır. Sintaktik əlaqələr sözlərin və cümlələrin bir-birilə əlaqələnməsini təyin edir və dilin qrammatik qaydalarını müəyyənləşdirir.

Sintaksis dilin sintaktik-qrammatik quruluşu ilə məşğul olan dilçilikin əsas bir hissəsidir. Bu, dilin strukturunu və funksiyalarını araşdırır və insanların dili düzgün şəkildə istifadə etməsini təmin edir.

Sintaksis tədrisi, dilin işləməsinin anlaşılmasına, mətnlərin mənasını və qəbul edilməsini artırmağa və daha effektiv kommunikasiya yaratmağa kömək edir.Sintaksis, dildə cümlələrin və ya sözlərin quruluş və tərkibinə diqqət yetirən qrammatik bir bölmədir. Bu, sözlərin və cümlələrin necə düzgün şəkildə qurulduğunu və necə əlaqələndirildiyini təyin edir. Sintaksis, dilin strukturu və funksiyaları barədə analitik tədqiqatlar aparır və dildə hansı qayda və quruluşun necə işlədiyini izah edir. Bu, bir dildəki cümlələrin və ifadələrin qarşılıqlı münasibətini anlamağa kömək edir. Sintaksis, cümlələrin düzgün şəkildə necə qurulduğunu, sözlərin necə bir-birilə əlaqələndiyini və mənasını, əlaqələri və mənasını dəyişdirən faktorları öyrənir. Bu, dilin quruluşunu anlamağa kömək edərək, insanların bir-birilə məlumat ötürməsini və dildə mətnləri anlamağını asanlaşdırır.

Sintaksisin tədrisi bir çox məqsədlərə malikdir:

Dil biliyini inkişaf etdirmək: Sintaksis tədrisi insanlara dilin quruluşunu və işləməsini başa düşməkdə kömək edir. Bu, dil biliyini artıraraq dil mənsubiyyətini dəyişdirə bilər və dildə daha səmərəli istifadə etməyə imkan verir.

Dil səmərəsini artırmaq:Sintaksis prinsiplərinin öyrənilməsi, insanların mətnləri daha doğru, effektiv və mənası ilə tam anlaşmağa kömək edir. Bu, ətraflı mətnləri oxumaq, mətnlər yazmaq və müzakirə etmək üçün lazımlıdır.

Mətn anlayışını gücləndirmək:Sintaksis prinsiplərinin öyrənilməsi insanların mətnləri daha doğru şəkildə təhlil etməsinə kömək edir. Bu, mətnlərdəki fikir və mövzuları daha yaxşı anlamağa və müzakirə etməyə imkan verir.

Yazılı və şifahi tədbirlərdə səmərəlilik: Sintaksis prinsiplərinin başa düşməsi, insanların yazılı və şifahi kommunikasiyasını səmərəli şəkildə apararaq daha effektiv və mənası ilə zəngin ifadə etmələrinə imkan verir.

Dil biliyini və məlumatı təqdim etmək:Sintaksis prinsiplərinin öyrənilməsi, dilin işləməsinin və quruluşunun daha effektiv şəkildə təqdim edilməsini təmin edir.

Sintaksis və semantika, dilin iki əsas aspektini təşkil edir və bir-birilə sıx əlaqəlidir. İkisi birlikdə çalışaraq dilin mənasını formallaşdırır və öyrənilməsində insanlara dilin inkişafını başa düşməkdə kömək edir.

Söz sırasının mənanı dəyişməsi:Sintaksis, sözlərin necə bir araya gəlməli olduğunu nəzərə alır və cümlələrin quruluşunu təyin edir. Sözlərin bir araya gəlmə sırası mənanı dəyişdirə bilər. Məsələn, "Kənan maşını sürür" və "Sürür Kənan maşını" cümlələri sintaktik olaraq düzgün deyil, amma hər iki cümlədə də eyni məna var. Sintaktik qayda, cümlənin mənasını anlamaqda kömək edir.

Sözlərin funksiyası: Sintaksis, sözlərin cümlədəki funksiyasını təyin edir. Məsələn, "Yaxşı kitab oxuyuram" və "Kitab yaxşı oxuyuram" cümlələrində "kitab" sözü müsbət obyekt kimi istifadə olunur və "yaxşı" sözü dəyim kimi funksiyon edir. Sintaktik qaydalar, həmin sözlərin mənasını və funksiyasını anlamaqda kömək edir.

Əlaqələndirmə:Sintaksis, sözlərin bir-birilə necə əlaqələndirildiyini təyin edir. Bu, sözlərin mənasını dəyişdirə bilər. Məsələn, "Mən alma yemirəm" və "Alma mən yemirəm" cümlələrindəki sözlərin sırası dəyişdirilərsə, cümlənin mənası dəyişir. Sintaktik qaydalar, cümlənin mənasını dəyişdirən bu nüansları anlamaqda kömək edir.

Bu məlumatlar, sintaksisin sözlərin mənasına necə təsir etdiyini göstərir. Sintaksis və semantika birgə işləyərək, dilin mənasını formallaşdırır və anlaşılmasına kömək edir.

## AZƏRBAYCANDA MUZEYŞUNASILIĞIN İNKIŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Leyla Məcidova**
**dosent**
**Elgün Əsgərli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kameliya-76@mail.ru**
**Elgunesgerov2002@icloud.com**

**Açar sözlər:** muzey, tarix-diyarşünaslıq, sərəncam

Azərbaycanda muzeyşünaslığın yüksək inkişaf mərhələsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur.Belə ki, O muzeylər şəbəkəsinin genişləndirilməsinə, onların daim gücləndirilməsinə diqqət göstərmişdir.Məhz onun təşəbbüsü ilə 1969-cu ildə respublikada muzey işinin yaxşılaşdırılması haqqında qərar qəbul edilmişdir.1980- ci ildə isə Bərpa mərkəzi təşkil olunmuşdur.Muzeylər insanların ictimai-iqtisadi inkişafında əldə etdikləri, yaratdıqları maddi və mənəvi sərvətlərin toplandığı, qorunub mühafizə edildiyi, öyrənildiyi və gələcək nəsillərə çatdırıldığı mədəniyyət, elm-maarif müəssisələridirlər. Eləcə də muzeylər hər bir fərdin, bütövlükdə cəmiyyətin dünyagörüşünün formalaşmasında və inkişafında, onların mədəni, mənəvi və bədii tərbiyəsində çox əhəmiyyətli işlər aparırlar.

Naxçıvan MR Ədəbiyyat Muzeyinin direktoru Süphü Kəngərli öz tədqiqat əsərində H.Əliyevin gənc nəsillərə tövsiyyələrini və muzeyşünaslığın inkişafına dair məsələləri təqiq etmişdir.Bunlarla yanaşı H.Əliyev tarix-diyarşünaslıq muzeylərinin yaradılmasına xüsusi

diqqət yetirmiş və belə ki,onun təşəbbüsü ilə 1980-1982 ci illərdə rayon mərkəzlərində 30-dək tarix diyarşünaslıq muzeyləri yaradılmışdır.Azərbaycan Respublikası muzey işçilərinin 1982-ci ildə keçirilmiş müşavirəsində Heydər Əliyev respublikada muzey işinin, muzeyşünaslığın daha da inkişaf etdirilməsini, təkmilləşdirilməsini, tarix-diyarşünaslıq muzeylərinin əhəmiyyətini vurğulamışdı. Tarix-diyarşünaslıq muzeylərinin sırasına Abşeron, Astara,Cəlilabad, Cəbrayıl,İmişli,Qəbələ Qusar,Quba və digər bölgələrimizdə yerləşən muzeyləri aid edə bilərik.

Ümumimilli lider Heydər Əliyev muzeylərimizin dünyada tanıdılması və inkişafı üçün bir sıra beynəlxalq təşkilata qoşulmuşdur.Belə ki, 1992 ci ildə UNESCO-ya, 1993-cü ildə isə İCOM-a üzv olmuşdur.Heydər Əliyev C.Məmmədquluzadənin, 1981-ci ildə H.Cavidin, 1998-ci ildə Mayestro Niyazinin ev muzeylərinin açılışında böyük rolu olmuşdur.Onu da qeyd etmək lazımdır ki,1993-cü ildə Azərbaycanda muzeylərin sayı 115-dirsə,1994-cü ildə bu sayı 135 olmuş və 1 il sonra isə 145 olmuşdur.H.Əliyevin muzey işinin inkişafı üzrə olan prioritetləri hal-hazırda ölkə Prezidenti İlham Əliyev davam etdir.İlham Əliyevin imzaladığı bir sıra sərəncamlar Azərbaycan muzeyşünaslığının daha da təkmilləşdirilməsinə şərait yaradır.

## MUZEYLƏRDƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ

**Leyla Məcidova**
**dosent**
**Ruslan Hüseynzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Kameliya-76@mail.ru**
**ruslanhuseynzade834@gmail.com**

**Açar sözlər:** muzey, innovasiya, texnologiya

XXI əsrdə innovasiya sadəcə elmi tədqiqat obyekti olmaqdan çıxdı,yüksək texnologiyalar getdikcə təkcə biznes sferasına deyil,mədəni məkanada nüfuz etmişdir.Muzeylər ictimaiyyət uğrunda mübarizədə yeni texnologiyalarla silahlanır və eksponatların qavranılması kontekstini üzə çıxarmağa və dərinləşdirməyə,ziyarətçiləri sənət obyektləri ilə birbaşa qarşılıqlı əlaqəyə cəlb etməyə çalışırlar.Nəticədə isə muzeyə gələn ziyarətçilərin sayı günü-gündən artır. Dünya və Azərbaycan muzeylərində innovativ texnologiyalar hal-hazırki dövrdə tətbiq edilir. Azərbaycan ərazisində yerləşən Suraxanı Gəmi-Muzeyinin zallarında ən müasir texnoloji avadanlıqlardan istifadə etməklə, bir sıra innovativ yeniliklərə imza atılıb.Muzeydə unikal 360 dərəcəli ekran texnologiyası, virtual reallıq adlı eynəklərdən,interaktiv kitablardan,işıqlandırma texnologiyalarından 3D texnologiyalarından və bu kimi texnologiyalar istifadə edilmişdir. Qeyd edilən bu texnologiyalardan Azərbaycanın Milli Xalça Muzeyində,Milli incəsənət Muzeyində, Milli Tarix Muzeyində də istifadə edilir. Dünya ölkələrində yerləşən muzeylərdə innovativ texnologiyalar geniş tətbiq olunur.Bildiyimiz kimi muzeylərdə eksponatlara toxunmaq qadağan edilmişdir. ABŞ-ın paytaxtı olan Vaşiqtondakı Milli Portret Qalereyası bu problemi 3D texnologiyasından istifadə edərək həll edib və muzey işçiləri bir neçə eksponatı rəqəmsallaşdırıblar bunlara:

mamont skleti,  Abraham Linkolnun ölüm maskası, Rayt qardaşlarının təyyarəsini qeyd etmək olar. Stokholmdakı İsveç Aralıq dənizi muzeyi kompyuter tomoqrafiyasına məruz qalan və xüsusi interaktiv masada nümayiş etdirilən eyni misir mumiyalarını canlandırmaq üçün 3D texnologiyasından istifadə edib. Ətraflı rəqəmsal model ziyarətçilərə sarkofaqın məzmunu və mumiyanın anatomiyasını qat-qat öyrənməyə imkan verir.2014-cü ildə Amsterdamdakı Allarda Pearson muzeyi öz qonaqlarına taxtadan ibarət olan böyüdücü şüşə təklif etməyə başladı,ona baxanda ziyarətçi faktiki olaraq işə yaxınlaşır,naxışların və detalların canlandığını görür. Muzeylərdə innovativ texnologiyaların tətbiqində interaktiv panel və ekranlardan istifadə olunur ki, bunu Klivlend İncəsənət Qaleriyası muzeyində 12 metrlik sensor divar yerləşir ki, nəhəng ekranda 4000 eksponat dayanmadan nümayiş etdirilir. Mövzu texnika, dövr, materiala görə toplanır və ziyarətçilərə yayımla qarşılıqlı əlaqə yaratmağa imkan verir. Digər texnologiyalar sırasında RFID etiketləri və QR kodlar dünya muzeylərində geniş tətbiq olunur,bu texnologiyalar vasitəsilə eksponatların yaxınlığında və muzeyin interyerində quraşdırılmış sensorlar və ya kodlar xüsusi eksponata yaxınlaşarkən məzmunu aktivləşdirərək audio bələdçilər və ya ziyarətçilərin smartfonları ilə əlaqə yaradır ki, belə muzeylər sırasında Amerika Təbiət Tarixi muzeyində muzeyin Explorer proqramı 800 mayakdan istifadə edərək sərgidə ziyarətçilərə bələdçilik edir.Eyni zamanda texnologiya muzeylərə ziyarətçilərin sərgi ilə qarşılıqlı əlaqədə olduqlarını təhlil etməyə imkan verir.Digər texnologiyalar kimi 3D printerlər eksponatların orijinallardan fərqli olaraq toxuna bilən nüsxələrini yaradırki, bu təcrübə uşaqlar, görmə qüsurlu insanlar və sadəcə olaraq eksponatlara toxunmayın işarəsindən əsəbiləşən hər kəs üçün muzey turlarını daha əyləncəli edir belə muzeylər sırasında Bruklin muzeyindəki replikalara toxuna,onların çəkisini və quruluşunu qiymətləndirə biləcəyiniz sensorlu turlar keçirilir. Qeyd etmək lazımdır ki,hal-hazırki dövrdə innovativ texnologiyalar əhəmiyyətinə görə bütün muzeylərdə tətbiq olunur.

## NAXÇIVANIN MUZEYLƏŞDİRİLMİŞ MEMARLIQ ABİDƏLƏRİ (NAXÇIVAN XAN SARAYI)

**Leyla Məcidova**
**dosent**
**Xanım Əhədli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kameliya-76@mail.ru**
**xanimehedli@gmail.com**

**Açar sözlər:** Xan sarayı, Naxçıvan, muzey

`Xan sarayı Tarix-Memarlıq muzey kompleksi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri 23 oktyabr 2010-cu il tarixli sərəncamı ilə yaradılmışdır. Ali Məclisin Sədrinin 2 fevral 2015-ci il tarixli sərəncamına əsasən Xan sarayı dövlət tarix-memarlıq, Möminə xatun və Açıq səma altında muzey kompleksi kimi fəaliyyət göstərməyə başladı. Saray XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Şərq memarlıq üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. Sarayı 1780-ci ildə axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Saray XVIII

əsrin sonlarından XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış yeri və siyasi iqamətgahı olmuşdur. Xanlıq ləğv edildikdən sonra Kəngərli süvarilərinin komandanlığı, 1918-1920-ci illərdə isə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı burada yerləşmişdir. Xan Sarayı 3600 m2 sahəsi olan saray kompleksinin qərbində, xan dikinin relyefinə uyğun olaraq üzü günçıxana tərəf inşa edilmişdir. Xan Sarayı kompleksində 42x8 m ölçüdə yardımçı bina, yeni inşa olunmuş hovuz, su quyusu, yaşıllıq zolaqları, bəzək və meyvə ağacları var. Bina iki mərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulub. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Hal-hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə olunur. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxarıldığı üçün binaya xüsusi gözəllik verir. Dəhlizlərə qırmızı qum daşı ilə döşənmiş pilləkənlərlə qalxılır. Pilləkənlərin ətrafı kərpiclə hörülüb və ağac məhəccərlərlə bərkidilib. Xan Sarayının ümumi sahəsi 382 m2, divarlarının qalınlığı 60 sm-dən 1,1 m arasında dəyişir. Bina 20x20x5 sm ölçüdə bişmiş kərpiclə tikilmişdir. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunmuşdur. 1-ci mərtəbədə 3 otaq, 2-ci mərtəbədə 8 otaq (2 zal) və otaq kimi istifadə olunan vestibüllərin üzərində 2 mansar yerləşir. Hər iki mansardan dəhlizlərin üstündəki açıq balkonlara çıxış var. Mansarlara vestibüllərdən açılmış kərpic pilləkənlərlə qalxılır. Xan Sarayının cənub zalı daha dəbdəbəlidir. Qonaq qəbulu üçün nəzərdə tutulmuş zalın qərbində döşəmədən 40 sm hündürlükdə səhnə tipli taxt yaradılmışdır. Taxtlı güşənin açılan pəncərələri yerdən tavana qədər şəbəkələrlə, tavanı isə kiçik güzgü parçaları ilə nəfis bəzədilmişdir. Zalın digər divarları taxçalar, nəbati və süjetli rəsmlərlə işlənmişdir. Sonralar aparılan çoxsaylı təmir və bərpa işləri zamanı rəsmlər pozulmuş və ya üzəriləri suvaqla örtülmüşdür. Zalın əzəmətini cənub divardakı, ətrafı həndəsi formalar və güzgü parçaları ilə bəzədilmiş buxarı daha da artırır. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş. Milli tariximizin öyrənilməsi baxımından Xan sarayı tarix-memarlıq muzey kompleksi böyük əhəmiyyətə malikdir. Muzeyin doqquz ekspozisiya zalı fəaliyyət göstərir. Üç minə yaxın eksponat muzeyin fondunda qorunur ki, onlardan yalnız 400-dən çoxu ekspoziyisa zalında nümayiş etdirilir. Zalın girişində ümumilli lider Heydər Əliyevin 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin açılışı zamanı keçirilmiş müşavirədə "Azərbaycan xanlıqları və Naxçıvan xanlığı" haqqında söylədiyi dəyərli fikirləri, Naxçıvanın Ali Məclisinin sarayın açılması ilə bağlı verdiyi sərəncam, Naxçıvan xanlığının xəritəsi, xanlığı idarə edən Kəngərlilər nəslinin görkəmli nümayəndələrinin şəkilləri, müxtəlif dövrlərdə aparılmış elmi tədqiqat kitabları, kitablardan çıxarışlar ekspozisiya zalında nümayiş etdirilir. Kəngərlilər nəsli Azərbaycan hərbi tarixinə 6 böyük general bəxş etmişdir. Onlardan sonuncusu Cəmiş xan Naxçıvanskidir. Onun hərbi fəaliyyətinə dair sənədlər, qırmızı əmək bayrağı ordeninin şəkili, hərbi təhsilini davam etdirməsinə dair razılıq məktubu, diviziyada işlədiyinə dair sənədlər, 1907-ci ildə ailə üzvləri ilə birgə fotosu, Naxçıvan xanlığı haqqında yazılı məlumat, Kəngərli nəslinin gerbinin foto surəti, Kəngərli nəslinin digər nümandəsi Ehsan xan Kəngərli ilə bağlı şəkillər, yazılı sənədlər, Naxçıvan xanlığının Rusiya imperiyası tərkibində daxil edilməsi ilə bağlı kitab, 1889-cu ildə II Nikolayın möhürü ilə təsdiq edilmiş Kəngərli nəslinə aid torpaq xəritəsi, Abbasabad qalasının planı, Kəngərli nəslinə aid digər arxiv sənədləri, Hüseyn xanın fotosu, İrəvan və Naxçıvan xanlarının ailələrinin birgə fotosu, Bəhruz xan Naxçıvanski, Əşrəf ağa Kəngərli, İsmayıl xan Naxçıvanski, İskəndər ağa və digərləri ilə bağlı foto şəkillər, məqalələr muzeydə sərgilənir. Muzeyin ən məşhur zalı aynalı zaldır. Bu zalda müxtəlif dekorativ sənət nümunələri, neftli lampa, XVIII əsrə aid dekorativ güzgü, dekorativ çay dəsti , XIX əsrə aid Güləbətin tikmə örtüyü, XIX əsrə aid Xəncər, qadın gümüş kəməri, mücrü qab, piyalə, soyuq

və odlu silah nümunələri, XIX-XX əsrə aid müxtəlif markalı silahlar, məişət sürahiləri, Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinə çəkilmiş rəsm əsəri, digər təsviri sənət nümunələri, qədim Naxçıvana aid xalça nümunələri, məcməyi və mis qablar XVII-XVIII əsrə aid milli geyim nümunələri, qədim müxtəlif qab nümunələri muzeydə nümayiş etdirilir.

## I ŞAH ABBAS ZƏRBXANASININ YENI ÜNVANI – LƏNKƏRKÜNAN

**Mayis Cəfərov**
**tarix üzrə fəlsəfə doktoru**
**Lənkəran Dövlət Universiteti**
**mayis1968@mail.ru**

**Açar sözlər:** Lənkərkünan, zərbxana, sikkə, zərb, avers, revers, kartuş

Lənkərkünan zərbxanasının beş sikkəsi Azərbaycanın elmi ictimaiyyətinə ilk dəfədir ki, təqdim olunur. Bu zərbxanada kəsilən sikkələrin ikisi Tehranda şəxsi kolleksiyada, digər üç sikkə isə hazırda dr. Lutz İlişin qoruyucusu olduğu "Forschungsstelle İslamische Numismatik Tübingen" (FINT) kolleksiyasında saxlanılır.

Birinci 18,85 qramlıq, diametri 29 millimetrlik fəlsin aversində: nəbati rəsmlər nəqş olunmuş dairənin içərisində ceyranı ovlayan aslan əksi həkk olunmuşdur. Fəlsin reversinin mərkəzində halqanın içərisində zərbxananın adı ətrafında iki misralı şeyir basılmışdır. Birinci atribusiyası verilən fəlsin tipi fərqlidir. Belə ki, birinci Ləngərkünan fəlsinin zərb ili pozulmuşdur.

İkinci Ləngərkünan zərbxanasının məhsulu, I Abbasın 4,37 qramlıq çəkiyə malik iki şahılıq sikkəsinin aversində, dairənin içərisində şiə təriqətinin simvolu həkk olunmuşdur. Sikkənin reversində, ornamentli ləçəkvari kartuşun içərisində dövrün numizmatik faktlarından fərqli olaraq "rəsil" sözü əvəzinə "nəbi" kəlməsindən əmələ gələn xətt ödəniş vasitəsini iki hissəyə bölmüşdür. Şiə simvollu sikkənin zərb tarixi pozulmuşdur.

Üçüncü və dördüncü sikkələrin zərb tarixləri hicri 1005 (miladi 1596-1597) ilə aid edilir. I Abbasın (1588-1629) adına kəsilən bu sikkələrin çəkiləri müxtəlif olsada (7,63, və 7,72 q) diametrlərii (21 mm) eynidir.

I Şah Abbasa (1588-1629) aid edilən növbəti sikkənin çəkisidə 7,63 qrama bərabərdir. Numizmatik faktın aversində, ornamentli ləçəkvari kartuşun içərisində üç sətirdə şiə təriqətinin simvolu, reversində ikili halqanın mərkəzində Lənkərkunan zərbi hicri tarixi ilə 1005 (1597) həkk olunmuşdur.

Dördüncü I Şah Abbasa (1588-1629) aid edilən Lənkərkünan zərbxanasının sikkəsi hicri tarixi ilə 1005 (1597) - ci ilə aid edilir.

Beşinci I Şah Abbasa (1588-1629) aid edilən sikkənin çəkisi 7,75 qrama bərabərdir. Numizmatik faktın aversində, ornamentli ləçəkvari kartuşun içərisində üç sətirdə şiə təriqətinin simvolu, reversində ornamentli ləçəkvari kartuşun mərkəzində saat əqrəbinin əksi istiqamətində halqanın içərisində əvvəlki dörd sikkələrdə olduğu kimi Lənkərkunan zərbxanasının adı basılmışdır.

Lənkərkunan (Lənkəran) zərbxanasının adının etimologiyası ilə bağlı bir neçə mülahizə mövcuddur. Birinci mülahizəyə görə Lənkəranın əski adı Ləngərkunan (لنگرکنان) farsca "lövbər (ləri) atmaq üçün yer" mənasını verir və ya başqa bir tələffüzlə "lövbər (ləri)

çəkmək üçün yer” mənasını verən Lənkərkünan sözüdür. Sadə dildə desək, hər iki etimologiya “dəniz limanı” deməkdir. Başqa mülahizəyə görə əsrlər keçdikcə tələffüz dəyişmiş və Ləngərkunan Lənkəran, daha da sadələşdirilmiş talış tələffüzü ilə Lankon olmuşdur. Bu yaşayış məskəninin adının mənşəyi ilə bağlı ikinci baxış onu talış dilində “qamış evlər” mənasını verən “Leynəkəon” sözü ilə əlaqələndirir.

Nəticə olaraq, yuxarıda bəhs etdiyimiz sikkələr sayəsində bu zərbxananın adının etimologiyasına dair digər mülahizə düzgün görünür. Beləki təxminən 427 il əvvəl Lənkəran kiçik yaşayış məskəni Ləngərkunan isə böyük yaşayış məskəni olmuşdur.

## AZƏRBAYCAN SƏNƏTKARLIQ NÜMUNƏLƏRİ DÜNYA MUZEYLƏRİNDƏ

**Mayis Cəfərov**
**tarix üzrə fəlsəfə doktoru**
**Pərviz Gözəlov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mayis1968@mail.ru**
**prvizgozlov@gmail.com**

**Açar sözlər:** muzey, sənət nümunələri, ekspozisiya, qalereya

Azərbaycan xalqı müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri yaratmaqla bəşər sivilizasiyasına töhvələr vermişdir. Daim işğalçı təhlükəsinə məruz qalmış bu nümunələr ya məhv edilmiş, ya da qənimət kimi aparılmışdır. Elə bu səbəbdən də dünyanın müxtəlif muzeylərini azərbaycanlı sənətkarların hazırladıqları sənət nümunələri bəzəyir. Belə muzeylərə misal olaraq Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyana, Roma, İstanbul, Berlin, Tehran və Qahirə muzeylərini göstərmək olar. Bu muzeylərdə Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Şəki, Şamaxı, Qarabağ və Lənkəran ustalarının müxtəlif sənət əsərləri qorunub saxlanılır.

Məşhur muzeylərdən biri də Sankt-Peterburq şəhərində yerləşən Ermitaj Muzeyidir. İtalyan memarı Varfolomey Rastroelli tərəfindən tikilən bu muzey 1764-cü ildə Qış sarayının ayrılmaz bir hissəsi-şəkillər qalereyası kimi yaradılmışdır. 1917-ci ildən sonra Ermitaj Muzeyində “Şərq mədəniyyəti və incəsənəti” şöbəsi təşkil olundu. Hazırda bu muzeydə 2 milyonadək mədəniyyət və incəsənət nümunəsi saxlanılır. “Şərq incəsənəti” şöbəsində 100 mindən artıq sənət əsəri var. Yuxarıda bəhs olunan muzeydə İran, Türkiyə, Çin, Yapon və Ərəb xalqlarının mədəniyyət abidələri ilə yanaşı Azərbaycan sənətkarlarının əl işləridə qorunur. Bu muzeydə Azərbaycan sənətkarlarına aid zərgərlik, saxsı, daş və taxta üzərində oyma işləri olan sənət əsərləri, toxuculuq nümunələri və digər əsərlər nümayiş etdirilir. Bu muzeydə Dağlıq Qarabağdan tapılmış “Bürünc öküz başı” fiquru Azərbaycan sənətkarlarının bacarığını göstərən nümunədir. Qarabağ xalçalarının saxlandığı muzeylərdən biri də Budapeşt muzeyidir. Burada XVII əsrə aid xalça nümunələrinə rast gəlmək olar.

Dünyanın ən böyük muzeylərindən biri Nyu-Yorkdakı Metropoliten muzeyidir. 1870-ci ildə kolleksionerlərin hədiyyələri əsasında təşkil edilmiş muzeydə ibtidai sənət nümunələrindən, ən müasir rəssamlıq əsərlərinədək nümayiş etdirilir. Azərbaycan sənətkarlarının nümunələri “İslam incəsənəti” ekspozisiyasında özünə yer tapmışdır. Təbriz

xalçaçılıq məktəbinin süjetli xalçaçılıq nümunələrindən olan "Dörd fəsil" və "Ov səhnəsi", "Qoca" əsərləri isə Nyu-yorkun Metropoliten Muzeyinin qalereyasında nümayiş etdirilir.

Azərbaycan sənətkarlarının silah nümunələri Londonun İmperiya Hərb Muzeyində saxlanılır. Azərbaycan xalçaçılığının şah əsəri olan kompozisiyalı "Şeyx Səfi" xalısı hazırda Londonun Viktoriya və Albert muzeyində sərgilənir. 1539-cu ildə Səfəvi hökmdarı I Təhmasibin sifarişi əsasında Təbriz ustalarından Yusif ibn Əhmədin 1319-cu ildə hazırladığı və indi Londonun Viktoriya və Albert muzeylərində nümayiş etdirilən "Bədii kasa" gözəl sənət əsəri kimi izləyiciləri cəlb edir.

Azərbaycanın əntiq əşyalarının və xalçalarının saxlandığı muzeylər sırasına İsveçrənin Bern Tarix Muzeyi, Cenevrə Şərq və İran Xalçaları Muzeyi, Sürix Muzeyi və Bazel "Qafqaz Xalça Mağazası"nı misal göstərmək olar. İstanbuldakı Topqapı muzeyində I Şah İsmayıl Xətaiyə (1501-1524) məxsus qızıl kəmər günümüzədək nadir sənət nümunəsi kimi saxlanılır.

Milli-mədəni abidələrimizin dünya muzeylərində olmasına baxmayaraq onların hər biri Azərbaycanımızın incisi kimi dünya ictimaiyyətinə təbliğ olunmaqdadır.

## AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ SXEM VƏ CƏDVƏLLƏRDƏN İSTİFADƏ

**Mayis Cəfərov**
**tarix üzrə fəlsəfə doktoru**
**Ramil Talıbzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mayis1968@mail.ru**
**talibzader@gmail.com**

**Açar sözlər:** tarix, tədris, təhsil, islahat, sxem, cədvəl

XXI əsr beynəlxalq miqyasda təhsil əsri elan edilmişdir. Dünyanın hər yerində insanın inkişafı üçün bəyan olunmuş bu humanist tədbirin reallaşdırılması istiqamətində işlər aparılır. Ölkələrin təhsil sistemində islahatlar həyata keçirilir. Müstəqillik qazanmış ölkələrdən biri kimi Azərbaycanda bu islahatlar hələ 1999-cu ildən etibarən başlanmışdır. Ölkədə təhsil sahəsində qəbul olunmuş İslahat Proqramında göstərildiyi kimi, "demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifənin yerinə yetirilməsi Azərbaycan təhsilini bütün istiqamətlərdə yenidən qurmaqla onu müasir dünyanın ən inkişaf etmiş ölkələrinin təhsil sisteminin səviyyəsinə çatdırmaq və qlobal dünyanın inkişaf sürətinə cavab verməkdən ibarət olmuşdur.

Bu gün şəxsiyyət özünün idrak, hissi və fiziki imkanları ilə daha aydın görünür. Lakin nəzərə almaq lazımdır ki, cəmiyyətin mədəni səviyyəsinin, intellektual potensialının inkişafı üçün idrak fəallığının, təfəkkür prosesinin formalaşması əsas tələblərdəndir. "Müasir təhsil konsepsiyası ənənəvi didaktik sistemdən fərqli olaraq koqnitiv strukturların inkişafı

problemini sadəcə olaraq hafizə məkanında deyil, yeni psixoloji məkanda təfəkkür və hiss məkanında həll edir”. Bu isə təbii olaraq, təhsil problemlərinin humanist tələblərə uyğun qurulması ilə nəticələnir. Hazırda təhsilin məzmununun, texnologiyalarının, idarə olunmasının, eləcə də digər sahələrinin inkişafında keyfiyyətin əsas meyar olması, nailiyyətlərin ölçülməsində, idarəolunmada ona istinad edilməsi məhz həmin tələblərdən irəli gəlir. Fənlərin təlimində şagirdlərin idrak fəallığının yüksəldilməsi və təfəkkür prosesinin intensivləşdirilməsilə bağlı fəaliyyətlər genişlənir.

Təhsil islahatının həyata keçirildiyi hazırkı şəraitdə fənlərin məqsəd və vəzifələri, məzmunu dəyişir. Yeni kurikulumlar, məzmun standartları və təlim strategiyaları yaradılır. Artıq orta məktəblərdə Azərbaycan tarixi fənninin tədrisində yeni kurikulumlar tətbiq olunur. Bu prosesdə Azərbaycan tarixinin tədrisində sxem və cədvəllərdən istifadə etməklə şagirdlərdə yüksək idrak fəallığı formalaşdırmaq, onlarda təfəkkür bacarıqlarını inkişaf etdirmək əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Təlimdə sxem və cədvəllər hər şeydən, əvvəl şagirdlərdə anlayış və təsəvvürlərin, hadisə və proseslərin əyani vasitələrlə təsvirlər vasitəsilə formalaşdırılması başa düşülür. Azərbaycan tarixinin tədrisində sxem və cədvəllər metodundan istifadənin böyük əhəmiyyəti vardır. Məlumdur ki, tarixi hadisələr təkrar olunmur şagirdlər keçmiş hadisələri canlı şəkildə görə bilmirlər. Ona görə də, müxtəlif sxem və cədvəllər Azərbaycan tarixi üzrə bilik mənbəyi kimi çıxış edir. Təcrübə göstərir ki, sxem və cədvəllər təkcə şagirdlərin hisslərinə deyil, eyni zamanda təfəkkürünə güclü təsir göstərir və müxtəlif funksiyaları yerinə yetirir. Təlim prosesində sxem və cədvəllərin köməyilə şagirdlərdə tarixi keçmişin gözlə görünən obrazları yaradılır. Bundan başqa, cədvəl və diaqramlar Azərbaycan tarixi üzrə faktların konkretləşdirilməsinə şagirdlərin təsəvvüründə keçmişin aydın mənzərəsinin yaradılmasına kömək edir. Sxem və cədvəllərdən istifadə şagirdlərin müşahidəçilik qabiliyyətini, qavrayışını, yaddaşını nitqini inkişaf etdirir, şagirdlərdə Azərbaycanın tarixi keçmişinə maraq oyadır. Sxem və cədvəllər vasitəsilə şagirdlər keçmiş hadisələri və ya onların izlərini bilavasitə təsəvvürlərində canlandırırlar. Buraya Azərbaycan ərazisində yerləşən möhtəşəm tarixi abidələr, eyni zamanda maddi mədəniyyət nümunələri aiddir.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ


**Mehman Rəsulov**
**dosent**
**İradə Məmmədova**
**müəllim**
**Ülviyyə Aşurova**
**laborant**
**Mingəçevir Dövlət Universiteti**
**resulov.1956@mail.ru**
**deniz2069@rambler.ru**
**ashurova_ulvdyye@mail.ru**



**Açar sözlər:** lider, xalq, dövlət, tarix, gənclər, cəmiyyət


Dünyada tarix yaratmaq hər şəxsə nəsib olmur. Bunun üçün dərin zəka və ilahi vergisi olan istedad, şəxsiyyət və ləyaqət, tarixi həqiqət duyğusu və dönməz iradə, siyasi

uzaqgörənlik və hadisələri öncədən görmək bacarığı,insanlığa, millətə və dövlətə məhəbbət bəsləmək kimi ali xüsusiyyətlər tələb olunur. Arxasınca aparmaq, inandırmaq kimi qabiliyyətlərinə görə o, insanlar arasında ideya birliyi yaradır, toplumun güclü dəstəyini qazanır. Xalqı düşdüyü ağır vəziyyətdən xilas edir. Dünyada bütün bu cəhətləri özündə birləşdirən dahi şəxsiyyətlərdən biri Ümummilli lider Heydər Əliyevdir.

Ulu Öndər Heydər Əliyev ölkənnin yeni tarixində müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, hüquqi əsaslarını yaratmış və inkişafını təmin etmişdir. O, milli mənafeyi xalqın mənafeyinə, xalqın mənafeyini dövlən mənafeyinə çevirmiş, son dərəcə çətin tarixi şəraitdə milli dəyərləri yaşatmaq, dövlətçiliyi qorumaq, Azərbaycanın inkişafına nail olmaq kimi çətin vəzifəni yerinə yetirmişdir.

Ümummilli lider Heydər Əliyevin reallaşdırdığı siyasətdə demokratik təsisatların və vətəndaş cəmiyyəti pirinsiplərinin bərqərar olunması xüsusi yer tuturdu.Yeni müstəqillik tapmış ölkədə insanların hüquq və azadlıqlarının formalaşdırılması quruculuq siyasətinin ən mühüm istiqaməti idi.

Dövlət quruculuğunda mühüm məsələlərdən biri də gənclərlə əlaqədardır. Cəmiyyətin aparıcı qüvvəsi, tərəqqisi, inkişafı, inteqrasiyası gənclərdən asılıdır. Gənclik millətin yaşaması üçün təməl daşı olub, millətin mövcud olması üçün əsas şərtlərdən biridir. Gənclərin savadlı, vətənpərvər, yüksək mənəvi-tərbiyəli, sağlam ruhlu olması isə dövlət quruculuğunda çox vacibdir.

Müasir Azərbaycan Dövlətinin memarı, yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin qurduğu dövlətin gələcəyi və dövlətin hər zaman var olması onun diqqət mərkəzində olmuşdur. Buna görə də gənclərlə bağlı məsələləri siyasətinin tərkib hissəsinə daxil etmişdir. Onun həyata keçirdiyi gənclər siyasətinin başlıca məqsədi vətəninə bağlı, milli dəyərlərə əsaslanan müasir düşüncəli gənclər yetişdirmək və onların köməyindən, potensialından istfadə edərək, ölkəni, cəmiyyəti işıqlı gələcəyə aparmaq olmuşdur. Bu barədə Ulu Öndər Heydər Əliyev demişdir: “Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır”.

Ulu Öndər Heydər Əliyev 1993-cü ilin 22 sentyabrında Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündə demişdir: “Əsas vəzifələrdən biri də gənclərimiz arasında vətənpərvərlik hissini geniş təbliğ etməkdir. Bu təkcə ona görə deyil ki, biz indi müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz Vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, dünyada başqa şeyləri də qiymətləndirə bilməzsən”.

Ulu Öndər Heydər Əliyevin gənclərlə bağlı imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmışdır. Ulu Öndər Heydər Əliyev gənclərə, onların qüvvəsinə, bilik və bacarığına inanır və yüksək qiymətləndirirdi. O, gənclərlə görüşüb, onların fikirlərini dəyərləndirmək, gənclər siyasətinin yeni istiqamətlərini müəyyənləşdirmək üçün gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə təşəbbüs irəli sürdü. Bundan sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarını keçirməyə başladı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”. Ulu Öndər tərəfindən 2 fevral 1997-ci il tarixində imzalanmış sərəncama əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib.

Ulu Öndər Heydər Əliyev öz siyasəti ilə gənc nəsli Azərbaycanın uğurlu sabahı naminə səfərbər etmişdir. Bu siyasətin nəticəsi olara müstəqil Azərbaycan gəncləri Vətən müharibəsində qəhrəmanlıq və şücayət göstərərək, Vətəni uşğaldan azad etmişlər.

Bu gün müasir Azərbaycan gəncləri fəxr edirlər ki, məhz Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda yaşayırlar və Azərbaycan Dövlətinin vətəndaşıdırlar. Onlar Ulu Öndər Heydər Əliyevin göstərdiyi yolla inamla irəliləyəcək və Azərbaycan Dövlətinin müstəqilliyinin möhkəmlənməsi, qüdrətinin artması üçün var qüvvələri ilə çalışacaqlar.

## İNGİLİS DİLİ BEYNƏLXALQ ÜNSİYYƏT VASİTƏSİDİR

**Mətanət Qocayeva**
**dosent**
**Azərbaycan Dillər Universiteti**
**qocayeva-m@bk.ru**

**Açar sözlər:** təkamül dövrü, orta dövr, sintetik dil, analitik dil, ortaq dil

Bəşər övladı yarandığı gündən öz ehtiyaclarını qarşılamaq üçün çox əməli işlər görmüş, təbiəti belə ram etməyə çalışmış, həyatın çətinliklərinə boyun əyməyərək mübarizə aparmış, hər cür məhrumiyyətlərə dözmüşdür. İnsan apardığı mübarizəsində qalib gəlmiş, demək olar çox şeyə nail ola bilmişdir. İnsanın qazandığı milli sərvətlərdən biri və bəlkə də, ən birincisi dildir ki, o, bir xalqın, millətin yer üzündə varlığını əks etdirən ən əsas atributudur. Bu gün yer üzündə geniş və ya dar çərçivədə 6 mindən artıq dil danışılmaqdadır. Bu dillərin əksəriyyəti yalnız aid olduğu dövlətin sərhədləri daxilində və ya müəyyən etnik qrupun üzvləri arasında işlənsə də, elə dillər vardır ki, onlar aid olduğu dövlətin sərhədlərini aşaraq bir çox ərazilərə yayılmaqla geniş insan toplumunun istifadə etdiyi dillərə çevrilmişlər. Məsələn, müasir ispan, portuqal, fransız, rus dilləri geniş coğrafi ərazilərdə işlədilən dillərdir.

Hazırda dünyada dili danışan insan sayına görə Çin dili birinci yerdə olsa da, bu dil yalnız Çində dövlət və ana dili olaraq 2 milyarda yaxın insan tərəfindən işlədilir. Çin dili yalnız dövlətin sərhədləri daxilində işlədilən milli dildir, sərhədlərdən kənarda bu dil çox az sayda insan tərəfindən danışılır. Keçmiş SSRİ ərazisində rus dili yerli dillərlə bərabər işlədilmişdir. Hazırda MDB məkanında rus dili ortaq dil kimi ümumi ünsiyyətin qurulmasına xidmət edir. Baxmayaraq ki, rus dili keçmiş Sovet Respublikalarında yerli ana dili ilə paralel olaraq işlədilirdi, superstrat nəzəriyyəsinə görə o, heç zaman yerli dilə təsir edib onu assimilyasiyaya uğrada bilmədi, müəyyən sözlər yerli xalqlar tərəfindən rus dilində işlənsə də belə, rus dili yalnız gəlmə dil olaraq mənimsənildi, geniş xalq kütləsinin milli dilinə çevrilə bilmədi. Yalnız qeyri-rus millətindən olub rus dilində təhsil alanlar üçün ana dili oldu.

Bu gün dünyada qlobal dil olaraq işlədilən ingilis dilidir. Mübaliğəsiz demək olar ki, hazırda ingilis dili dünya səviyyəsində elə mövqedə dayanır ki, heç bir digər dil ingilis dili ilə müqayisə oluna bilmir. Məsələn, ispan dili 200 milyona yaxın insan tərəfindən danışılan bir dil olaraq dünyanın iyirmidən artıq ölkəsində dövlət dili olaraq işlədilməkdədir. O cümlədən, fransız dili Afrika ölkələrində, rus dili MDB məkanında qeyd olunan statusla işlədilən dillərdir. Çin dili isə yalnız Çin dövləti daxilində danışılan milli ana dildir. Bu dillərin heç

birisi müasir ingilis dilinin bu gün dayandığı mövqeyə çata bilməmişdir. Çünki ingilis dili qlobal dil olaraq bütün qitələrdə danışılmaqdadır. Əlbəttə XX əsrin sonlarına doğru deyilən fikirləri ingilis dili haqqında demək mümkün deyildi, çünki Sovetlər Birliyinin əhatə etdiyi böyük bir ərazidə əsas dil olaraq rus dili işlədilirdi. Lakin bu birlik dağıldıqdan və dünya dövlətləri arasında siyasi münasibətlər yeni məzmunda qurulduqdan, soyuq müharibə təhlükəsi aradan qalxdıqdan sonra ingilis dili bu ölkələrə də nüfuz etməyə başladı. Xüsusilə, keçən əsrin sonlarında yüksələn xəttlə inkişaf edən elmi-texniki tərəqqinin nailiyyətlərinin, habelə informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyinin, o cümlədən həyatımızın bütün sahələrinə nüfuz etməsi və nəhayət, dünyəvi sosial şəbəkə olaraq internetdən genişmiqyaslı istifadə olunması ingilis dilinin dünyada rolunu artırdı və əlavə dil kimi onun öyrənilməsini zamanın tələbi olaraq labüd etdi. Bu səbəbdən, bu gün ingilis dili beynəlxalq internetin dili olaraq hər cür innovativ ideyaları öyrənib qlobal inteqrasiyaya qoşulmaq və bu inkişafdan geri qalmamaq, yaxşı karyera qurmaq üçün öyrənilməsi vacib olan bir dildir.

On beş əsr öncə, bizim eranın V əsrində ingilis dili Britaniya adalarını işğal edərək orada primitiv səviyyədə yaşayan german tayfaları, Anqlo-Sakson tayfaları tərəfindən danışılmışdır. İnanmaq mümkün deyildir ki, bu dil XX əsrin sonlarında qlobal dil olaraq bütün yer kürəsində ümumi ortaq dil *( lingua franca)* olaraq işlədiləcəkdir. İngilis dilinin təkamül tarixini tədqiq edən alimlər onun belə bir geniş coğrafiyada danışılmasını bəzi mühüm amillərlə əlaqələndirirlər. Bu məsələ ilə bağlı O.Yespersen, D.Kristal, A.Kurzan, Q.Korbett və başqa alimlərin fikirləri maraqlıdır. Məsələn, O.Yespersen ingilis dilinin Britaniya adalrının sərhədlərini aşaraq bütün qitələrdə - Amerikada, Asiyada, Afrikada, Sakit okean hövzəsi ölkələrində, Haitidə, Havay adalarında, Avstraliyada, Yeni Zelandiyada və s. ölkələrdə yayılmasını ingilis dilinin daxili qrammatik quruluşunun sadəliyində və dildə başqa dillərdən keçmiş xeyli sayda alınma sözlərin olmasında görürdü. Çünki dili öyrənənlərə bu sözlərin çoxusu mənaca tanış idi. Məhz bu səbəblərə görə, ingilis dili sürətlə yayılırdı. Alim ingilis dilinin ümumişlək dil kimi yayılmasının səbəblərini dilin öz xüsusiyyətlərində görürdü və bunu *" expansion of the language" – dilin yayılması* adlandırırdı. O.Yespersen ingilis dilinin yaranan yeni formalarını onun variantları *( the variants of the English language)* adlandırırdı - Amerika variantı, Avstraliya variantı, Afrika variantı, Hindistan variantı və s. Alim tarixən ingilis dilinin sintetik dildən analitik dilə doğru inkişafını yüksək qiymətləndirərək onun ümumi dilə çevrilməsində bu keyfiyyətini əsas götürmüşdür. Qeyd olunan fikirlər müasir dilçilər tərəfindən qəbul olunsa da, onlar, məsələn, D.Kristal ingilis dilinin hazırda qlobal dilə çevrilməsinin başlıca səbəbi olaraq İngiltərə imperiyasının XV-XVI əsrlərdən başlayaraq bütün qitələrdə apardığı müstəmləkəçilik siyasətində görür. İngilis dili formalaşdığı təkamülü ərzində həm adaları işğal edən yadellilərin dillərinin, məsələn, Roma işğalı ilə latın və yunan dillərinin, Vikinqlərin gəlişi ilə skandinav dillərinin və Norman işğalı ilə fransız dilinin təsiri altında formalaşmışdır. Eyni zamanda, ingilis dili müstəmləkəsinə çevirdiyi dövlətlərin dillərinə təsir etməklə bərabər, o dillərdən də ingilis dilinə cox sayda sözlər daxil olmuşdur. Buna görə də, bu gün lüğət tərkibinin zənginliyinə görə heç bir dil ingilis dili ilə müqayisə oluna bilmir. İngilis səyyahların dünya səyahəti edərək yeni torpaqlar kəşf etməsi və həmin yerlərin gələcəkdə İngiltərənin müstəmləkəsinə çevrilməsi ingilis dilinin yayılmasına səbəb olan mühüm faktorlardandır. Yatımlı, mənimsənilməsi digər Hind-Avropa dillərinin qrammatik quruluşuna nisbətən sadə olan və bir çox geniş formada işlədilən dillərdən alınma sözlər hesabına zəngin, işlək lüğət fonduna malik olan ingilis dili bu xüsusiyyətlərinə və tarixən aparılmış xarici dövlət siyasətinə görə beynəlxalq dilə çevrilmişdir.

Bu gün Azərbaycan gəncləri qlobal inteqrasiya hərəkatının önündə gedərək xarici dilləri böyük həvəslə öyrənirlər. Bu, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dil

siyasətinin uğurlu nəticəsidir. Hər bir azərbaycanlı ilk öncə öz ana dilini, daha sonra digər dilləri bilməli və onlardan dövlətinin, xalqının gələcəyi naminə istifadə etməlidir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev dünya media nümayəndələrinə dörd dildə müsahibə verir və bu, Azərbaycan gənclərinə xarici dilləri öyrənmək üçün əsl örnəkdir.

## SƏLCUQLAR DÖVLƏTİNİN TARİXİ TÜRK TARİXÇİSİ SƏLİM KOCANIN ƏSƏRLƏRİNDƏ

**Müşfiq Bayramov**
**elmlər doktoru proqramı üzrə doktorant**
**Bakı Dövlət Universiti**
**mushfiq76@mail.ru**

**Açar sözlər:** Türkiyə, Səlcuqlar dövləti, tarixşünaslıq, islam, tədqiqat

XI əsrdə türklərin qurduğu Böyük səlcuqlar dövləti tarix böyu yaratdıqları dört böyük imperiyalardan biri sayılır. Orta Asiya, İraq, İran, Yaxın Şərq, Qafqaz və Anadoluda hökm sürən bu dövlət Ərəb xilafətindən sonar yaranmış ən böyük islam dövlətlərindən biri idi. Dünya xalqlarının siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayan səlcuqlar tarixinin tədqiqi həmişə tarixçilərin diqqətini cəlb etmişdir. Yarandığı ilk dövrlərdə bir çox coğrafiyaşünas səyyahlar, din xadimləri səlcuqlar dövləti ilə bağlı əsərlərində qeydlər etmişlər. Müasir dövrdə səlcuqlar dövlətinin tarixnin tədqiqi istər türk istərsə də dünya tarixşünaslığında ən aktual mövzulardan biridir.

Türkiyə tarixşünaslığında səlcuqlar dövlətinin tədqiqində İ.Kafesoğlunun, A.Köymenin, O.Turanın, A.Sevimin, E.Merçilin, Y.Bedirxanın xidmətləti xüsusi ilə böyükdür. Səlcuqlu tarixinin tədqiqatçıları içərisində xüsusi yeri olan şəxslərdən biri professor Salim Kocadır. Əsas tədqiqat sahəsi səlcuqlar dövlətinin tarixi olsa da o türk tarixi və mədəniyyəti ilə bağlı bir çox mövzularda elmi-tədqiqi işləri aparmış, hunlardan başlayaraq Türkiyə Cümhuriyyət tarixinə qədər bir çox mövzuda əsərlər yazmışdır.

Səcuqlar dövlətinin tarixinin tədqiqinə 1989-cü ildə “Sultan I İzzeddin Keykavus Zamanında Türkiye selçuklu devleti (1211-1220)” mövzusunda tamamladığı doktorluq dissertasiyası ilə başlamışdır. Milli tarixşünaslıqda daha çox ömrünü Türkiyə səlcuqları dövlətinin tədqiqinə həsr edən tarixçi tarxi proseslərin gedişinə mühüm təsir göstərən hadisələrlə bağlı beş əsər yazmağı planlaşdırmışdır. Bunlar “Dandanakandan Malazgirtə” “Malazgirtdən Miryokafalona”, “Miryəkafalondan Kösədağa”, “Kösedağdan Anadoluya” və “Anadolu türk bəylikləri tarixi” adlı əsərlərdir. Bunlardan bir, iki və beşinci əsərləri yazıb nəşr etdirə bilsə də üçüncü və dördüncü əsərlərini yazmağa ömrü vəfa etməmişdir.

Qeyd olunan əsərlərdən başqa S.Kocanın səlcuqlar dövlətinin tarixi və mədəni həyatı ılə bağlı “Türk kültürünün temelleri-I”, “Sultan I. İzzeddin Keykavus (1211-1220)”, “Türk kültürünün temelleri-II”, “Selçuklularda ordu ve askeri kültür”, “Selçuklu devri türk tarihinin temel meseleleri”, “Türkiye selçukluları tarihi (Sultan Alp Arslan’dan Uluğ Keykubad’a 1071-1220)” kitablarının müəllifidir.

Professor doktor Selim Koca həmiçinin səlcuqlar dövlətinin siaysi iqtisadi və mədəni həyatı ilə bağlı çoxsaylı elmi məqalələrin müəllifidir. Onun “Selçuklu iktidarının belirlenmesinde rol oynayan güçler ve Alaeddin Keykubadın Türkiye selçuklu tahtına

çıkışı”, “Türkiye selçuklu sultanı I İzzeddin Keykavusun aldığı ve kullandığı hakimiyet sembolleri”, “Moğol istilasına karşı sultan I Alaeddin Keykubadın güvenlik politikası”, “Sultan I İzzeddin Keykavus ile melik Alaeddin Keykubad arasında geçen otorite mücadelesi”, “Türkiye selçuklu devletinin temel iç ve dış politikaları ve Sultan I Gıyaseddîn Keyhüsrev (1192-1196, 1205-1211)” və çoxsaylı digər məqalələri səlcuqlar tarixinin müxtəlif problemlərinin tədqiqinə həsr edilmişdir.

Tarixçinin “Türkler ve islamiyyet” adlı məqaləsində səlcuqların islam dinini qəbl etmələri, islam mədəniyyəti dairəsinə daxil olmaları və bü mədəniyyətin inkişaf etdirilməsində onların fəaliyyətindən bəhs edilir. Məqalə “Türklərlə müsəlmanların ilk qarşılaşmalrı”, Türküstanın taleyini həll edən müharibə: Talas döyüşü”, “türklərin İslamı qəbul etmələri”, “Qədim türk inancı və islam dini”, “Türklər islam dinin xidmətində”, “Türklər islam yazarlarının gözü ilə” başlıqları altında işlənmişdir.

Tədqiqiqatçının məqalələri içərisində “Sultan Sancar ve Büyük selçuklu devletinin çöküşten önce son parlayışı” məqaləsi də səlcuqla dövlətinin tarixinin tədqiqində diqqətəlayiq əsərlərdən biridir. Belə ki, əsər üzün müddət - 60 il 21 il Xorasan məliyi, 39 il Böyük Səlcuqlar dövlətinin sultanı olmuş Məlikşahın sonuncu oğlu Sultan Səncərin hakimiyyəti illərini əhatə edir. Əsər “Giriş”, “Sultan Səncərin uşaqlıq dövrü (1086-1097) ”, “Sultan Səncərin məliklik dövrü (1097-1118”. “Sultan Muhammed Təpər“ın ölümünden sonra büyük selçuklu devletinin durumu”, “Sancarın sultanlıq dönemi”, “Selçuklu hükümdarlarının türkmen politikası ve büyük selçuklu devletinin dramatik sonu” başlıqları altında işlənmişdir. Müəllif tədqiqat işində Sultan Səncərin kimliyi, təhsili, Xorasan məlikliyinə təyin olunması, buradakı 21 illik fəaliyyəti dövrü, qardaşı Məhəmməd Təpərin ölümündən sonra Böyük səlcuqlar dövlətində hakimiyyət uğrunda gedən mübarizələrə son qoyması və dövlətin birliyinin təmin olunması sahəsində fəaliyyəti, Katvan savaşı, oğuzlar tərəfindən əsir edilməsi və digər məsələləri hərtərəfli və dolğun şəkildə təqdim etmişdir.

Beləliklə türk milli tarixinin və mədəniyyətinin tədqiqində səlcuqşünas alim professor Salim Kocanın xidmətləri böyükdür. Səlcuqlar dövlətinin siyasi, iqtisadi mədəni tarixi sahəsində yazdığı əsərləri bu sahədə olan boşluqları doldurmaqla yanaşı türk tarixi və mədəniyyəti sahəsində çalışan tədqiqatçılar üçün mühüm mənbədir.

## TARİX TƏLİMİNDƏ OYUN TEXNOLOGİYALARINDAN İSTİFADƏ

**Müşfiq Bayramov**
**dosent**
**Cavanşir Əlizadə**
**magistrant**
**Lənkəran Dövlət Universteti**
**mushfiq76@mail.ru**
**elizadeh2001@gmail.com**

**Açar sözlər:** tarix təlimi, oyun texnologiyası, rollu oyun

Oyun texnologiyalarından dərs zamanı istifadə şagirdlərin hamısının fəallaşmasına şərait yaradır. Zəif, utancaq, azdanışan uşaqlar belə oyun zamanı bacarıqlarını nümaiş etdirir, onların öz fikrini söyləmə, əməkdaşlıq etmə, özünün və yoldaşlarının fəaliyyətini təhlil etmə, şifahi nitq, oxuyub anlama, dinləmə, fikrini düzgün ifadə etmə bacarıqları

inkişaf edir. Beləliklə, oyun texnologiyaları tədris materialını əlçatan, maraqlı, obrazlı şəkildə öyrətməyə, biliklərin daha yaxşı mənimsənilməsinə kömək edir, şüurlu öyrənməyə maraq yaradır.

Oyunlardan istifadə etməklə öyrətmək və oynayaraq öyrənmək o qədər də sadə məsələ deyil, amma dərs prosesi ilə əyləncəni birləşdirərək hər bir dərsdə bayram əhval-ruhiyyəsi yaratmaqla onun unikallığını artırmaq olar. Buna görə də şagirdlərin biliklərinin ümumiləşdirilməsi və sistemləşdirilməsi formalarından biri kimi müxtəlif tədrisyönümlü oyunlardan istifadə olunması həmişə müsbət nəticə verir.

Bu metod didaktikada ilkin formalaşmış metodlardan biridir. XX əsrin 20-30-cu illərində Azərbaycanda hətta ədəbi müzakirələri də bu metodla keçirirmişlər. Hələ Sovet dönəmində müəllimliyə başlayan bəzi müəllimlər dərslərində rollu oyundan şagirdləri fəallaşdırma və qabiliyyətlərinin artırma metodu kimi orta məktəbdə istifadə etmişlər. Rollu oyunu hazırda interaktiv metodlar sırasına daxil edən digər qabaqcıl müəllimlər vaxtı düzgün hesablamalıdırlar. Göstərilən şərtləri Azərbaycanın qabaqcıl müəllimləri və uşaq bağçası tərbiyəçiləri 50 ildir ki, tətbiq edirlər. Rollu oyun mövzuya, fənnə, sinfə görə müxtəlif cür imitasiya edilə bilər.

Ümumi tarix fənninin tədrisində rollu oyunlardan istifadə əhəmiyətli xarakter daşıyır. Düzdür aşağı siniflərdə şagirdlər oyun texnologiyalarından daha çox istifadə edirlər amma VIII-IX sinif ümumi tarix fənninin tədrisindədə oyun texnologiyalarından istifadədə böyük əhəmiyyət daşıyır. Xüsusəndə rollu oyunlar. VIII-IX siniflərdə keçirilən mövzular daha çox siyasi əhəmiyyət daşıyan mövzulardır və elmi üslubda verilən mətnlərdən ibarətdir. Bu oyun texnologiyalarını tətbiq edərkən şagirdlərin yaş xüsusiyyətləridə nəzərə alınmalıdır ki, keçirilən rollu oyunlar onlar üçündə maraqlı olsun.

Ümumiyyətlə rollu oyunların iki növü var. Struklaşdırılmış rollu oyunlar və struklaşdırılmamış rollu oyunlar. Struklaşdırılmış rollu oyunların əvvəlcədən müəyyən edilmiş quruluşu və nəticəsi var. Müəllim uşaqların oynaması üçün əvvəlcədən ssenari hazırlayır - məsələn, "Nadir şahın Hindistana yürüş etməsi və Moğol hökmdarı və elçiləri ilə olan dialoqları hazırlanır" və uşaqlar orada mövcud olan rolları seçir və sonra həmin ssenaridə yaranan problemlərlə oyunu davam etdirirlər.

Strukturlaşdırılmamış oyun zamanı isə uşaqlar öz planlı ssenarilərini seçməkdə azaddırlar və tez-tez əllərində olanlara əsasən öz oyunlarını qururlar.

Rollu oyunlardan ümumi tarix fənninin tədrisində istifadə şagirdlərin həmin dövrü xarakterizə edib mənimsəmələrində və dövrü birnöv tarixi şəxsiyyətlərin gözündən görməyə imkan yaradır.

Bu metod şagirdlərin yalnız birbaşa təcrübəsindən deyil, həm də simulyasiya edilmiş təcrübədən öyrənə bilməsinə əsaslanır. Simulyasiya - immitasiya. təqlid etmək, fəaliyyət və hadisələri yalandan yaratmaq deməkdir. Əsas məqsəd şagirdlərə onlarınkından fərqli fikir, vəzifə, maraq, hobbi və motivasiyaları olan həmyaşıdlarını başa düşməkdə kömək etmək üçün tanış olmayan şərait yaratmaqdan ibarətdir. Məlumdur ki, biz çox vaxt rastlaşdığımız insanların oynadıqları «rolları» lazımi səviyyədə qiymətləndirmirik. Eyni zamanda, biz «öz layihəmizə başımız qarışdıqda» «rollarımızın» müxtəlif variantlarını və alternativlərini görə bilmirik. Bu baxımdan rollu oyunlar: Şagirdlərə özləri və ətrafdakılar haqqında incəsənət yolu ilə məlumat əldə etməyə, problemə digər adamın gözü ilə baxmağa, vərdiş edilmiş stereotiplərdən uzaqlaşmağa və yeni davranış modellərinə yiyələnməyə imkan verir. Rola girmək və ifadə etmə bacarıqlarının formalaşdırır; Tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirir və üzə çıxarır; Əməkdaşlığı, tolerantlığı inkişaf etdirir; Hisslərə şərik olmanı inkişaf etdirərək uyğunlaşa bilmə səviyyəsini və qarşılıqlı ünsiyyəti yaxşılaşdırır.

Oyun prosesində uğurlu təlim həyata keçirilir: uşaqlar məlumatı qeyri-iradi qavrayır və yadda saxlayırlar. Şagirdin bu oyundan əldə etdiyi başlıca keyfiyyət-emosional

təəssüratdır. Emosional təəssürat isə dərsin gedişində informasiyanı və ya oyunun mövzusunu inkişaf etdirən söhbətin qavranması üçün əsas rol oynayır. Buna görə hətta oyun arzuedilməz istiqamətdə getdikdə də, onu baş tutmamış hesab etmək olmaz.

Rollu oyunlar tarix fənninin tədrisində əvəzedilməz təlim texnologiyalarından biridir. Tarix fənninin tədrisində rollu oyunların tətbiq edilməsi şagirdləri müxtəlif obraza salaraq, tarixi şəxsiyyətləri birnöv onların gözündən görmyə şərait yaradır və tarixi dövrü olduğu kimi şagirdə çatdırır. Bu texnologiyanın tətbiqinin nəticəsində şagirdlər tarixi analiz-sintez edərək öyrənə bilirlər. Rollu oyunların tətbiqində yarana biləcək problem vaxtın çox getməsi və şagirdlərin rollara uyğunlaşdırılmasıdır.

## ORTA MƏKTƏBDƏ AĞQOYUNLU DÖVLƏTİNİN TƏDRİSİ SXEM VƏ CƏDVƏLLƏRDƏ

**Müşfiq Bayramov**
**dosent**
**Nuranə Nəsirzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mushfiq76@mail.ru**
**NuraneNasirzade91@gmail.com**

**Açar sözlər:** Otluqbeli döyüşü, sxem və cədvəllər, xəritə-sxem, Uzun Həsənin "Qanunnaməsi" , Soyurqal

Tarix dərslərinin tədrisində təlimə köməkçi vasitələrdən biri də sxem və cədvəllərdir. Sxem və cədvəllər vasitəsi ilə şagirdlərə dövrün siyasi və iqtisadi hadisələrinin kəmiyyət və keyfiyyət göstəricilərini, səbəb-nəticə əlaqələrini açıb göstərmək çox əlverişlidir. Hərbi yürüşləri, döyüşləri, sosial-iqtisadi münasibətləri, şəxsiyyətlərin müqayisəsini sxem və cədvəllərdən istifadə etmədən ötüşmək olmaz. Həmçinin şagirdlərin bilik və bacarıqlarını yoxlamaq üçün müəllim şagirdlərə mövzu üzrə əldə etdikləri məlumatları sxem və cədvəllərlə nümayiş etmələrini tələb edə bilər. Sxem və cədvəllər tarixi hadisələrin kəmiyyət və keyfiyyət fərqləri barədə aydın təsəvvürlər formalaşdırmaq üçün ən ideal vasitədir. Sxem və cədvəlləri orta məktəbdə Ağqoyunlu dövlətinin tədrisi mövzusuna tətbiq edərkən bir çox məsələləri onların köməkliyi ilə izah edə bilərik. Ağqoyunlu hökmdarı Uzun Həsəni daxili və xarici siyasəti baxımından Qara Yusif və ya Cahanşahla, həmçinin Ağqoyunlu Yaqub padşahla eyler-venn diaqramında fərqli və oxşar tərəflərini müqayisə edərək Uzun Həsənin şəxsiyyəti barədə bir çox müsbət və mənfi keyfiyyətləri aydınlaşdıra bilərik. Uzun Həsənin "Qanunnaməsini" əhatə etdiyi məsələlər üzrə cədvəl halında nümayiş etdirə bilər. Məsələn: "Qanunnamə"nin əhatə etdiyi məsələləri sxemdə göstərmək və bu məsələlərin həlli üçün verilən qanunların mahiyyətini sxemin müvafiq hissəsində qeyd etmək. Həmçinin digər bir hökmdarın qanunaməsi ilə də müqayisə edə bilərik.

Azərbaycan tarixinin feodalizm dövründə xidmət müqabilində verilən fərqli torpaq mülkiyyəti formalarını Ağqoyunluların xidmət müqabilində verdiyi "Soyurqal"-la müqayisə edə bilərik. Məsələn Səfəvilərdə "Tiyul" xüsusi hallarda yalnız şahın əmri ilə irsən keçdiyi halda, Ağqoyunlularda soyurqal irsən keçirdi. Soyuqralın irsən keçməsi faktının mənfi nəticələrini cədvəl üzərində ümumiləşdirə bilərik. Ağqoyunlu dövlətinin zəifləməsinə səbəb

olan tarixi hadisəıəri və faktları ümumiləşdirib cədvəl halına salmaq olar. Eyni zamanda bu səbəbləri qeyd edərkən siyasi və iqtisadi səbəblər olmaqla da qruplaşdırmaq olar. Ağqoyunlu dövlətinin xarici siyasətini də müxtəlif tərəflər üzrə cədvəllərdə qruplaşdırmaq olar. Ağqoyunluların Osmanlı dövləti ilə münasibətləri, Avropa dövlətləri ilə münasibətləri, Teymurilərlə münasibətləri üzrə olmaqla həm ümumiləşdirmələr, həm də müqayisələr aparmaq üçün sxem və cədvəllərdən istifadə etmək olar.

Xəritə-sxemlərin də tədrisdə - xüsusən də tarix fənninin tədrisində rolu böyükdür. Çünki, hər bir tarixi hadisə iki müstəvi üzərində baş verir. Bunlardan biri zaman, digəri isə məkan müstəvisidir. Döyüşlərin gedişatında baş verdiyi məkanın rolu çox böyükdür. Ona görə də şagirdlərdə tarixi hadisələrin təsəvvürlərini formalaşdırmaqdan ötrü sxem xəritələrdən istifadə olunması əlverişli vasitədir. Hər bir döyüş özünəməxsus taktiki gedişata, texniki vasitələrə, coğrafi məkana və qoşun sayına malikdir. Xəritə - sxemlər döyüşün bu xüsusiyyətlərini aydınlaşdırmaqda əvəzsiz rol oynayır. Məsələn: Ağqoyunlu dövlətinin tarixində Osmanlı dövləti ilə aparılan müharibələr xüsusi yer tutur. Ağqoyunlu-Osmanlı müharibələri içərisində Otluqbeli (Tərcan) döyüşü həlledici mövqeyə sahibdir. Bu döyüşün nəticəsini müzakirə edərkən döyüşün baş verdiyi coğrafi məkanın əlverişsiz olmasını, döyüşün taktiki gedişatını, Osmanlı qoşunun texniki vasitələr baxımından üstünlüyünü qavramadan Osmanlı qoşunun qələbəsini əsaslandıra bilmərik.

Göründüyü kimi sxem və cədvəllər tarixi təsəvvürlərimizi formalaşdırmaqda, tarixi faktları ümumiləşdirməkdə, tarixi hadisələr arasında səbəb-nəticə əlaqələrini açıb göstərməkdə xüsusi rol oynayır.

## ÜMUMİ TARİXİN TƏDRİSİNDƏ XƏRİTƏ VƏ SXEMLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Müşfiq Bayramov**
**dosent**
**Orxan Kərimov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mushfiq76@mail.ru**
**Karimovorxan4400@gmail.com**

**Açar sözlər:** tarixin tədrisi, xəritə, kurikulum, bilik, bacarıq

Cəmiyyətin həyatı, inkişafı və dəyişməsi müəyyən bir məkan çərçivəsində baş verir. Həmin məkanın təbii-coğrafi şəraiti insanların həyat tərzinə, məşğuliyyətlərinə, mədəni inkişaf xüsusiyyətlərinə böyük təsir göstərir. Ona görə də bu şəraitin öyrənilməsi təsərrüfatın, mədəniyyətin, dövlət quruluşunun, ictimai həyatın, daxili və xarici siyasətin inkişaf məntiqini izləməyə və onun gələcək inkişaf perspektivlərini proqramlaşdırmağa imkan verir. Buna görə də şagirdlərin cəmiyyətin inkişafının ətraf mühitdən, təbiətdən, geosiyasi amillərdən asılılığının başa düşülməsi və düzgün qiymətləndirməsi üçün onlara tarixlə bağlı təbii coğrafi amilləri müəyyən etməyə imkan verən biliklər və bacarıqlar aşılanmalıdır.

Məhz bu tələb nəzərə alınaraq tarix fənni üzrə kurikulumlar hazırlanarkən məkan məzmun xətti ön plana çəkilmiş və əsaslandırılmışdır. Bu baxımdan təlim prossesində tarixi xəritələr üzərində işin təşkili böyük əhəmiyyətə malikdir.

Tarixin tədrisi prosesində tarixi xəritələr bir neçə funksiyanı yerinə yetirmək üçün nəzərdə tutulmuşdur: məlumat, təhsil, inkişaf və nəzarət.

Məlumdur ki, şagirdlərin öyrəndiyi tarixi hadisələr müəyyən zaman və məkan şəraiti ilə bağlıdır. Xəritələr bizə tarixin məkan aspektlərini, məsələn, şəhərlərin yeri, dövlət sərhədləri, səyahət və müharibə marşrutlarını vizuallaşdırmağa imkan verir. Onlar bizə müxtəlif dövrlərdə hansı ərazilərin ölkənin tərkibinə daxil olduğunu, hansı sərhədlərin dəyişdiyini, hansı ərazilərin zəbt edildiyini və ya itirildiyini anlamağa kömək edir. Ona görə xəritədən istifadə etmədən tarixi hadisələri öyrənib ona tam sahib olmaq mümkün deyil.

Əksər hallarda tarixi hadisələr yalnız müəyyən məkan şərtləri ilə əlaqədar olaraq düzgün başa düşülə bilər. Şagirdlərdə tarixi hadisələrin baş verdiyi yer haqqında düzgün təsəvvür yaradılmasının hadisələrin zaman daxilində inkişaf etməsi haqqında təsəvvür hasil edilməsindən heç də az əhəmiyyətli deyildir.

Ərazi bütün tarixi hadisələr üçün meydandır və yer şəraiti çox vaxt hadisələrin konkret gedişini müəyyən edir. Bu şəraiti bilmək bir sıra hallarda tarixi hadisələrin izahına kömək edir.

Xəritənin köməyi ilə tarixi əlaqələr, xüsusən səbəbiyyət əlaqələri əyani surətdə açılıb göstərilir. Məsələn, Osmanlı dövlətinin yaranması, yüksəlməsi və onun imperiyaya çevrilməsinə səbəb olan şərtlərin bəzilərini biz xəritə üzrə aydınlaşdırırıq.

Xəritə hətta tarixi öyrənməyin ilk pillələrində öyrənilmiş materialın şagirdlər tərəfindən təhlil edilib ümumiləşdirilməsi işinə kömək edir və şagirdləri tarixi inkişafın qanunauyğunluqlarını açıb göstərməyə yaxınlaşdırır. Məsələn, qədim dünya tarixi dərsliyində verilmiş xəritələr aşağıdakı suallara cavab verməyə kömək edir: Misirin, Mesopotamiyanın, Hindistanın və Çinin təbiətində nə kimi oxşarlıqlar var idi? Qədim zamanda bu ölkələrin əhalisinin məşğuliyətində nə kimi ümumi cəhətlər var idi? Bu belə bir qanunauyğunluğu aydınlaşdırmağa imkan verir ki, şərq yarımkürəsində ən qədim əkinçilik ocaqları böyük çayların vadilərində meydana gəlmiş, ən qədim quldar dövlətlər də burada yaranmışdır və s.

Xəritə bir sıra tarixi hadisə və prosesləri izləməyə imkan verir. Məsələn, "Ümumi tarix atlasında verilmiş Yüzillik müharibə (XIV əsrin 30-cu illəri- XV əsrin ortaları)" xəritəsində şagirdlər müharibənin yayıldığı ərazilərlə tanış olurlar.

Xəritələr tarixi materialların təkrarında və şagirdlərin yaddaşında möhkəmlənməsində böyük rol oynayır. Müəllimin dərs zamanı xəritəsində göstərdiyi, şagirdlərin dərsliklərdəki və atlasdakı xəritədə izlədiyi, xəritənin təhlili nəticəsində aydınlaşdırdığı, dərsdə müəllimin suallarına şifahi cavab verərkən xəritə üzrə müstəqil surətdə şərh etdiyi hadisə möhkəm surətdə və uzun müddət onun yadında qalır.

Tarix xəritələri üzərində iş şagirdlərin təfəkkür fəaliyyətini gücləndirir, dərs prosesinin effektivliyini artırır, şagirdlərdə konstruktiv bilik və bacarıqların formalaşmasına təsir göstərir.

Beləliklə, tədqiqatlar deməyə əsas verir ki, şagirdlərdə tarixi biliklərin mənimsədilməsində xəritələrin rolu müstəsna dərəcədə böyükdür. Onlarsız tarix dərslərini təsəvvür etmək mümkün deyildir.

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNDƏ MUZEYLƏRİN YARANMASI VƏ İNKİŞAFI (LƏNKƏRAN TARİX-DİYARŞÜNASLIQ MUZEYİ ƏSASINDA)

**Namiq Hüseynli**
**dosent**
**Könül Qəfərova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Namiq-huseynli@yahoo.com**
**Qafarzadefateh05@gmail.com**

**Açar sözlər:** Tarix-diyarşünaslıq muzeyi, eksponat, mədəni irs

Azərbaycan xalqının ən qədim zamanlardan müasir dövrədək tarixini, həmçinin mədəniyyətinin inkişaf yolunu əks etdirən muzeylər ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliği işində mühüm rol oynayır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olub respublikamızın bütün bölgələrini əhatə edir. Ölkəmizdə muzey işi qədim dövrlərdən başlayaraq özünəməxsus yol keçmişdir. Azərbaycan hökmdarlarının saraylarında, məbədlərdə, həmçinin digər tikililərdə mədəniyyət tariximizin ən müxtəlif dövrlərinə aid qiymətli əşyalar və sənət nümunələri mühafizə edilmişdir. Tarixi və bədii əhəmiyyət daşıyan eksponatların mühüm bir qismi sonrakı dövrlərdə əsas etibarilə şəxsi kolleksiyalarda toplanmışdır. Eyni zamanda, tarixən regionda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin unikal nümunələri yüksək estetik dəyərə malik əsl sənət möcüzələri kimi dünyanın ən məşhur muzeylərinin daimi eksponatları sırasında yer almışdır.

Bölgə muzeylərinin yaranması və inkişafına nəzər salarkən Lənkəran tarix-diyarşünaslıq muzeyi yerləşdiyi tarixi bina və zəngin muzey fonduna malik olması diqqəti cəlb edir. 1924-cü ildən Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi rəsmi olaraq fəaliyyətə başlamışdır. 1991-ci ildən Lənkəran Tarix-Diyarşünaslıq muzeyi Mir Əhməd xanın sarayına köçürülür. Bu abidə Lənkəranın ilk çoxmərtəbəli binasıdır. Muzeydəki eksponatlar Lənkəranın zəngin tarixini, mədəniyyətini adət-ənənələrini əks etdirir. Muzeydə 6560 ədəd tarixi eksponat mühafizə olunur. Muzey xalqımızın qədim tarixini əks etdirən əşyalarla zəngindir. Daş dövrünə aid sümükdən hazırlanmış bıçaqlar, həvəngdəstə, çəkiclər, tunc dövrünə aid silahlar və qadın bəzək əşyaları, VII–XII əsrlərə aid heç vaxt rəngi solmayan boyalı saxsı qablar qoç fiqurlu qəbir daşları, çox maraqlıdır. VIII–IX əsrlərə aid memarlıq abidəsi — Bəlləbur qalasının tikinti materialları nümunələri, qaladan tapılmış məişət əşyaları xüsusi maraq doğurur. Ekspozisiyada nümayiş etdirilən misgərlik nümunələri, əmək və məişət əşyaları da orta əsrlərə aiddir. Muzeyin qədim eksponatlarından olan mis manqal XIX əsrə aiddir və evi qızdırmaq üçün istifadə olunurdu. Bu manqal cızma naxışlarla bəzədilib. Şarlı lampalar qızlara ata evindən verilən cehiz olub.Gümüşdən hazırlanmış bəzək əşyaları, kəmər və toqqası, ətirqabılar Lənkəran zərgərlərinin əl işləridir.

Müasir dövrdə muzeylərin sosial-mədəni rolunun əhəmiyyətli dərəcədə yüksəlməsi onları beynəlxalq aləmdə mədəni proseslərin fəal iştirakçısına çevirmişdir.Bu gün muzeylər qloballaşmanın neqativ təsirlərinə müqavimət göstərən, keçmişlə bağlı həqiqətləri özündə təcəssüm etdirən, mədəni irsi qoruyan müqəddəs məbəd hesab edilir.

# AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ AZƏRBAYCANÇILIQ İSDEOLOGİYASINDAN İSTİFADƏ ÜZRƏ TƏLİM VƏ SİNİFDƏNXARİC TƏDBİRLƏRİN ROLU

**Rakif İbadov**
**dosent**
**Cəmilə Əliyeva**
**magistrant**
**Lənkəran Dövlət Universteti**
**ibadov_rakif@mail.ru**
**cmilealiyeva16@gmail.com**

**Açar sözlər:** ideologiya, azərbaycançılıq, təlim, sinifdənxaric tədbirlər, vətənpərvərlik

Tarix boyu və bu gün bütün dövlətlər və siyasi sistemlər özünəməxsus ideologiyalara malik olmuşdur. İdeologiyalar dövlətin bütün inkişaf istiqamətinə təsir göstərir. Bu istiqamətlərdən biri də təhsil sahəsidir. Azərbaycançılıq ideologiyası şagirdlərdə formalaşdırılan dəyərlər sistemində xüsusi yer tutur. Respublikamızın hazırki durumu gənc nəslin təlim-tərbiyəsi prosessində Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyi bacaran vətəndaş şəxsiyyəti tərbiyə etməyi tələb edir. Təlim prosesində milli ideologiya məzmunlu çalışmalar vasitəsilə Azərbaycan ordusunun Vətəni qoruması, onun döyüş epizodları, xalqımızın tarixi qəhrəmanlıq ənənələri və. s haqqında sadə, qısa və ilkin məlumatları məktəblilərin nəzərinə çatdırmaq mümkündür. Azərbaycançılıq bizim keçmişimizdən gələn mənəvi dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün vətəndaşların həmrəylik içində birgəyaşayışının tarixi təcrübəsidir. Təhsilin və cəmiyyətin sintezinin əsasını milli ideologiyadır. Şagirdlərin milli ideologiya ruhunda tərbiyəsinin əsasını vətəndaşlıq elementlərinin göstərilməsi təşkil edir. Tədqiqat nəticələrindən aydındır ki, şəxsiyyətyönümlü kurikulumun tələblərinə uyğun olaraq vətəndaşların formalaşdırılması müxtəlif istiqamətlərlə həyata keçirilir. Həmin istiqamətlərdən biri də səmərəli təşkil edilmiş sinifdənxaric tədbirlərdir. Sinifdənxaric tədbirlər əmək, mənəvi tərbiyə, əxlaq tərbiyəsi, əqli tərbiyə, ideya-siyasi tərbiyə və ekoloji tərbiyəni formalaşdırmaqla yanaşı, tarixi biliklərin şüurlu mənimsənilməsinə şərait yaradır Dərsdən fərqli olaraq tarix dərsləri üzrə sinifdənxaric iş könüllülük prinsipi əsasında təşkil olunur, sinifdənxaric işin forması, mövzusu, keçirilmə vaxtı və müddəti həyata keçirilməsinə cavabdeh olan şəxs tərəfindən müəyyənləşidirilir, belə tədbirlərdə şagirdlər şifahi formada qiymətləndirilir. Müəllim sərbəst seçim əsasında şagirdləri fəaliyyətin bu növünə cəlb edir. Təcrübə göstərir ki, məhz belə fəaliyyətlər şagirdləri özünə cəlb edir. Sinifdənkənar tədbirlərin səmərəliliyinə nail olmaq üçün aşağıdakı görülən iş formalarına diqqət edək: ekskursiyalar; disputlar və müzakirələr; muzeylərə baxış; gəzintilərin təşkili; "dəyirmi masa"; "didaktik oyunlar; referatların hazırlanması və müdafiəsi; tarix gecələri; sinifdənxaric oxu və kitab müzakirələr. Sinifdənxaric tədbirləri pedaqoji kollektivin bütün üzvləri birlikdə təşkil etdikdə onun səmərəsi yüksək olur. Məsələn, təhsilalan məktəblilərin "Hərbi Qənimətlər Parkı"na eksrkursiyası nəticəsində şagirdlərə bu qələbədə ideologiyanın rolu izah olunur. Vətən müharibəsində qazandığımız tarixi qələbədən, əsgər və zabitlərimizin bu qələbədə rolu və gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində böyük rolu vardır.

Sinifdənxaric şəraiti öyrənmək və şagirdlərin maraqlarını müəyyənləşdirmək yalnız işin ilkin mərhələsidir. Əsas məsələ isə sinifdənxaric işlərin təşkili və buna daha çox şagirdin

cəlb olunması və bu işlərin keyfiyyətinin yüksəldilməsidir. Bütün bunlar sinifdənxaric işlərin tərbiyə və mahiyyətində, təkmilləşdirilməsi istiqamətində, müasir tərbiyə nəzəriyyəsində və məktəb təcrübəsində çox vacib məsələlərdəndir.

Ümumiyyətlə, müəllimlər məktəbdə tədbirlər keçirərkən əsasən ideya istiqamətlərinə diqqət yetirməli, bunların şagirdlərin yaş xüsusiyyətlərinə, onların arzu və istəklərinə nə səviyyədə cavab verdiyini öyrənməli, onların fəallığını təmin etməlidir. Tədbirlərin hansı problemə həsr olunmasına baxmayaraq, təşkilində ümumi istiqamət, varislik gözlənilməlidir. Həmin tədbirlər tədris prosesi ilə bağlı olmalı, dərsdə qazanılmış bilik, bacarıq və vərdişləri möhkəmələndirməlidir. Problemlə bağlı tədbirlərin məqsədi 1) şagirdlərdə ideologiyaya meyl və marağın inkişaf etdirilməsi; məktəblilərdə siyasi biliklərin və siyasi təfəkkürün inkişaf etdirilməsi; 2)şagirdlərdə ictimai-siyasi fəallığın artırılmasına yönəlmişdir. Sinifdənxaric tədbirlərin əhəmiyyəti, şübəsiz, böyükdür və belə tədbirlərin keçirilməsinə verilən tələblərin gözlənilməsi və tədbirlərin ardıcıl, məqsədyönlü aparılması şagirdlərdə milli ideologiyanın formalaşmasına kömək edir. Sinifdənxaric tədbirlər çoxşaxəli, rəngarəng və zənginliyi ilə uşaqların diqqətini cəlb edir, onların bilik və maraqlarını stimullaşdırmaqla layiqli vətəndaş kimi formalaşmasında mühüm rol oynayır

## MÜSTƏQİLLİYİN BƏRPASI DÖVRÜNDƏ AZƏRBAYCAN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ

**Rakif İbadov**
**dosent**
**Mədinə Əzizli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ibadov_rakif@mail.ru**
**ferziyevamedine@gmail.com**

**Açar sözlər:** siyasi, sabitlik, lider, investisiya

Müstəqil Azərbaycan tarixinin çox çətin, mürəkkəb bir zamanda və mühitdə olan dövlətin xarici siyasətini və beynəlxalq təhlükəsizlik sistemində yerini böyük dövlətçilik təcrübəsi olan, dünyada baş verən siyasi hadisə və prosesləri izləyən Heydər Əliyev işləyib hazırlaya bilərdi. Heydər Əliyevin zəkası sayəsində ölkə daxilində baş verən vətəndaş müharibəsi, həmçinin haimiyyət çevrilişləri cəhdlərinin qarşısı qətiyyətlə alındı. Ölkənin daxilində davamlı olaraq sabitliyin və vətəndaş birliyinin əldə olunması kimi mürəkkəb vəzifələr də öz həllini tapdı.

Dünyada və regionda baş verən beynəlxalq və regional siyasi hadisə və prosesləri dərindən, hərtərəfli təhlil edən siyasi xadim Heydər Əliyev ilk öncə Azərbaycanın beynəlxalq və regional təşkilatlarda üzv və təmsil olunmasına nail olmuşdu. Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından çox bacarıqlı çıxışlar edərək Ermənistanın Azərbaycana təcavüzünü və onun acınacaqlı nəticələri və ölkəmiz haqqında düzgün, obyektiv məlumatları bütün dünyaya çatdırmağa çalışırdı. Heydər Əliyev bütün xaricə olan səfərlərində siyasi görüşlərdə ölkəmizi tanıtmaq üçün ölkəmizin tarixi, mədəniyyəti,təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verirdi. Həmçinin əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə

həll edilməsi məsələlərinə də yönəldirdi. Dünyanın ən nüfuzlu və universal təşkilatı kimi BMT-ni görən Heydər Əliyev BMT-Azərbaycan əlaqələrinə və onun güclənməsinə xüsusi önəm verirdi. Elə bu uzaqgörən siyasət nəticəsində BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar dörd qətnaməsi qəbul olunmuşdur.Təəsüf ki, BMT Təhlükəsizlik Şurası qəbul etdiyi qərarı yerinə yetirmədi.

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyini təmin etmək məqsədilə Heydər Əliyev müasir dünyada ən güclü və nüfuzlu hərbi-siyasi təşkilat olan NATO ilə əməkdaşlığa da çox böyük üstünlük verirmişdir. Buna görə də 1994-cü ilin may ayının 4-də NATO-nun mənzil-qərargahı olan Brüssel şəhərinə səfər edərək orada "Sülh Naminə Tərəfdaşlıq Proqramının" çərçivə sənədinə imza çəkmişdir. Sənədin imzalanmasından sonra Azərbaycan NATO əlaqələrinin dinamik inkişaf başladı. Ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla daimi məsləhətləşmələr və müzakirələr aparıldı. Hal-hazırdada NATO-Azərbaycan əlaqələri yüksək sürət ilə inkişaf edir. Özünün xarici siyasət kursunda Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində rolunu gücləndirmək üçün Ümummilli Lider Heydər Əliyev Avropa İttifaqı ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi.

Heydər Əliyev Avropa Şurası kimi mühüm əhəmiyyət kəsb edən bir təşkilata da çox böyük üstünlük vermişdir. Buna görə də 2001-ci il yanvarın 25-də Azərbaycan AŞ-nın tam hüquqlu üzvü seçilmişdir. Ötən bu illər ərzində Azərbaycanla AŞ arasında əlaqələr dinamik olaraq yüksələn xəttlə inkişaf etmişdir. 2011-ci ilin yanvar ayında AŞ-nın Dağlıq Qarabağa dair Alt Komitəsinin işinin yenidən bərpa olunması haqda qərar qəbul olunmuşdur.

Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində iştirakı üçün ulu öndər Heydər Əliyev, eyni zamanda, MDB, GUAM, Qara dəniz İqtisadi Əməkdaşlıq Komitəsi, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlarla əməkdaşlıq və münasibətlərin qurulmasına böyük əhəmiyyət vermişdir .Azərbaycan əlverişli geosiyasi və coğrafi məkanda yerləşir. Şərqlə Qərb, şimalla cənub arasında təbii körpü rolunu oynayır və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malikdir. Bütün bunları nəzərə alan Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanması və praktik olaraq həyata keçirilməsi üçün fəaliyyətə başlanmasına göstəriş verdi. Azərbaycanın o zamankı iqtisadi vəziyyətini nəzərə alaraq Heydər Əliyev ilk öncə ölkəyə xarici investisiyaların cəlb olunması istiqamətində əsas işlərin görülməsini təmin etdi. Ölkəyə xarici investisiyaların cəlb etmək üçün ilk tədbir kimi neft və qaz layihələrinin reallaşdırılmasını və dünya bazarlarına çıxarılmasını təmin etmək lazım idi . 1994-cü ildə çox böyük maneə və çətinliklər olsa da "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsi bağlanaraq bu istiqamətdə ilk addım atıldı.

Beynəlxalq təhlükəsizlik sisteminə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün dünya üçün təhlükə olan beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etdi. Onun Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın ölkəmizə olan etimadını daha da gücləndirdi. Bu hadisə iki ölkənin münasibət və əlaqələrində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına göstərdiyi dəstək, həmçinin Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin reallaşdırılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə daşınması istiqamətində dövlət başçısının sərgilədiyi ardıcıl səylər nəticədə illər ərzində xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığı dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı.Nəticədə Heydər Əliyevin realist və rasional olan xarici siyasəti ilə Azərbaycanın Beynəlxalq təhlükəsizlik sistemində iştirakı layiqincə yerinə yetirildi və onun siyasi davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də onun bu uğurlu xarici siyasət kursunu beynəlxalq təhlükəsizlik sistemində davam etdirir.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ HEYDƏR ƏLİYEVİN MÜSTƏQİLLİK İLLƏRİNDƏ DÖVLƏT QURUCULUĞU MÖVZUSUNUN TƏDRİSİ

**Rakif İbadov**
**dosent**
**Rəşad Məmmədzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ibadov_rakif@mail.ru**
**reshad4203@gmail.com**

**Açar sözlər:** örnək, quruluş, meyar, şəxsiyyət

Ümummilli lider Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi mərhələsində Azərbaycanın inkişafı naminə atdığı addımların ümumtəhsil məktəblərində tədrisi və şagirdlərə aşılanması son dərəcə vacibdir. Heydər Əliyevin dövlət quruculuğunda qüsursuz fəaliyyətinin Azərbaycan tarixi fənninin tədrisi zamanı işıqlandırılması şagirdlərin vətənpərvər ruhda yetişdirilməsində və layiqli vətəndaş olmasında müstəsna rol oynayır. İlk növbədə şagirdlər bilməlidirlər ki, Azərbaycanın müasir tarixində ən görkəmli siyasi xadim Heydər Əliyev olmuşdur. Bu tarixi şəxsiyyət müstəqil Azərbaycanın banisi və qurucusu sayılır.

Müxtəlif fənlərin tədrisində kompüter texnologiyalarından istifadə zəruri hesab edilir. Təhsilin informasiyalaşdırılması bir növ şagirdlərin leyhinədir. Şagirdlərə məlumat verilərkən İKT-nin köməkliyi ilə ulu öndər haqqında sənədli film nümayiş etdirmək və ya məktəb dərsiliyində olmayan məqamları vurğulamaq məktəblilərdə bu dövr haqqında aydın təsəvvürlər formalaşdırır. Tarix müəlliminin slayd hazırlayıb şagirdlərə əyani şəkildə nümayiş etdirməsi onların hafizəsində dərin iz qoyur. Bunun üçün ağıllı lövhə və proyektordan istifadə etmək məqsədəuyğundur. Azərbaycan tarixini tədris edərkən və Heydər Əliyev haqqında məlumat verərkən interaktiv təlim metodlarından istifadə etmək şagirdlərin mövzunu dərindən qavramasına yardımçı olur. İnteraktiv təlim metodları ilə aparılan dərslərin mühüm elementlərindən biri də təqdimatdır. Təqdimat şagirdlərin yaradıcılıq və tədqiqat qabiliyyətini son dərəcə inkişaf etdirir. Fərdi və ya qrup şəklində keçirilən təqdimat zamanı şagirdlərin Heydər Əliyev haqqında şəxsi fikirləri və görüşləri soruşurulur və qiymətləndirilir. Digər fəal təlim üsullarından biri olan beyin həmləsi üsulundan da tarix müəlliminin istifadə etməsi məqsədəuyğundur. Çünki Heydər Əliyev haqqında söylənilən fikir Azərbaycan tarixində tədris olunarkən beyin həmləsi üsulu şagirdlərin müəyyən ideyalar irəli sürməsində mühüm rol oynayır. Bu üsul yeni biliklərin şagirdlər tərəfidən üzə çıxarılmasına və onlarda bu mövzuya maraq yaranmasına gətirib çıxarır. Bu təlim üsuluna 45 dəqiqə ərzində 5 və ya 10 dəqiqə arası vaxt ayırmaq effektli hesab edilə bilər.

Heydər Əliyev şəxsiyyəti şagirdlərə bir örnək olmalıdır. Çünki Azərbaycanın bu gün bu qədər inkişaf və tərəqqi etməsinin səbəbkarı məhz Heydər Əliyevdir. Bu mövzu tədris edilərkən tarix müəlliminin BİBÖ təlim üsulundan istifadə etməsi vacibdir. BİBÖ üsulu cədvəl formasında tərtib edilir və şagirdlər Heydər Əliyev haqqında bilmək istədiklərini, öyrəndiklərini və bilidiklərini cədvəldə qeyd edirlər. Bu mövzu tədris edilərkən Heydər Əliyevin vətəndaşlarımızın təhsilinə nə qədər dəyər verməsi şadirdlərin gözündə canlanmalıdır və onlarda motivasiya yaradır. Heydər Əliyevin təhsil millətin gələcəyidir fikri hər bir şagird üçün ilham mənbəyidir. Ümummilli lider elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşması da heç kimə sir deyil. Akvarium təlim üsulundan istifadə olunmasının

əsas məqsədi şagirdlər arasında diskussiyanın yaradılmasıdır. Məsələn diskussiya mövzusu Heydər Əliyevin ordu quruculuğu və ya erməni işğalçılara qarşı mübarizəsi ola bilər.

Heydər Əliyevin dövlət quruculuğu Azərbaycan tarixində mühüm yer tutur. Sinifdənxaric tədbirlərdə şagirdlərin tarix müəllimi tərəfindən Heydər Əliyev adına muzeylərinə və mərkəzlərinə aparılması əyanilik baxımından tədrisdə mühüm rol oynayar. Kamenskinin dediyi kimi, əyanilik görməni təmin edir və şagirdlərin yaddaşına həkk olunur. Heydər Əliyev adına muzey və mərkəzlərdə olan fotoşəkillər və videoçarxlar şagirdlər tərəfindən izlənilərkən tarix müəllimi fonda həmin hadisələri izah etməlidir. Bu şagirdlərin yaddaşında daha yaxşı yer tutar. Biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Dərsin sonuna yaxın yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə Heydər Əliyevin siyasi fəaliyyəti haqqında qısa bir esse yazmaq tapşırıla bilər.

## VARİATİVLİK PROSESİ DİLİN TARİXİ VƏ DİNAMİK TƏKAMÜLÜNÜN NƏTİCƏSİ KİMİ

**Röya Abdurahmanova**
**dosent**
**Azərbaycan Dillər Universiteti**
**abdurr.roya@adu.edu.az**

**Açar sözlər:** variativlik, fonetik səviyyə, leksik səviyyə, qrammatik səviyyə

Dil üzərində aparılan müşahidələr onun tarixən inkişaf yolunda müəyyən nüanslar vasitəsilə dəyişilərək bu günə kimi olan statusunu möhkəmləndirmişdir. Bu o deməkdir ki, tarixən onun müəyyən forma və standartları yaranmışdır. Məhz bu səbəbdən onun vahidləri və kateqoriyaları arasında keçid prosesi baş verir.

Müasir dilçilikdə bir çox məsələlər status qazanmışdır. Bunlardan biri də dildə çoxdan mövcud olan keçid prosesidir. Keçidin müxtəlif tipləri vardır. Bunların içərisində mövcud olan dinamik keçid dildə tarixən baş verən dəyişikliyi özündə göstərir. Bu dilin tarixi inkişafının nəticəsi olaraq məhsul kimi formalaşır. Bu məhsul dil daxili səbəblərlə bağlıdır. Bu o deməkdir ki, bir vəziyyət digər vəziyyətə, bir əlamət isə digər əlamətə keçir. Tarixi keçid prosesinin müxtəlif növləri var. Bunlardan variativlik və heterogen növləri göstərmək olar. Dilin məruz qaldığı həm daxili, həm də xarici təsirlərin nəticəsində dilin müxtəif çalarlar və dəyişiklər əldə etməsi D. Yunusova görə *dilin funksional baxımından fundamental xüsusiyyəti kimi dəyərləndirilməlidir*.

Bu keçid prosesində variativlik keçidi tarixi təkamül nəticəsində meydana gəlmişdir. Bu təkamül prosesi aralıq mərhələləri ilə əlaqədər olaraq yaranmışdır. Variativlik keçidindəki aralıq mərhələləri semantik, funksional və ərazi baxımından fərqli olurlar. Dildə olan tarixi dəyişmələrin inkişafında heterogen dil vahidləri üzə çıxır. Bu proses heterogen vasitələrlə baş tutur. Transpozisiyada olan keçidin bu növü də aralıq mərhələləri ilə xarakterizə olunur. Buna misal olaraq fonem sistemində olan tarixi dəyişmələri göstərmək olar. Bundan əlavə, dilin tarixi inkişafı zamanı yaranan leksik çoxmənalılıq da bu prosesə səbəb olur. Çoxmənalılığın və omonimliyi heterogen keçidi D.Şmelev tərəfindən semantik səviyyədə müəyyənləşdirilmişdir.

Variativlik nəzəriyyəsini dilçiliyə ilk dəfə XX əsrin 20-ci illərində struktur dilçiliyinin əsas məktəblərindən biri olan Praqa dilçilik məktəbinin Polşa əsilli görkəmli

dilçisi Boduen de Kurtene gətirmişdir. Bu nəzəriyyənin rus dilçiyinə keçidi isə rus dilçisi N.S.Trubetskoyun adı ilə bağlıdır. Müəllif "Fonologiyanın əsasları" əsərində variativliyi nəzəri baxımından təhlil etmişdir. Daha sonra sələfləri variativliyin təyin olunmasında struktur formanın fərqliliyinə önəm vermişlər.

Variativlik dilçilikdə geniş anlayışdır və dilin sadədən mürəkkəbə doğru olan sistemində, yəni fonologiyadan sintaksisə dair bütün səviyyələrdə araşdırılmışdır. Variativliyin üç növü müəyyənləşdirilir: 1) Fonetik 2)Leksik 3) Qrammatik

Fonetik variantlılığın yaranmasına səbəb orfoqrafik və orfoepik fərqliliklərdir. Leksik variativlik isə bu üç növ arasında dilin zənginləşməsinə ən çox xidmət edən növdür. Qrammatik variantlar leksik variantlardan fərqli olaraq qrammatik komponentlərin formasının dəyişdirlməsi zamanı ortaya çıxır.

Variativlik dildə hər zaman dəyişikliyə səbəb olmur, əksinə bəzən bütün variantların qorunub saxlanılmasına yəni forma və konstruksiyaların paralelizminə səbəb olur və dəyişikliklərlə yanaşı dildəki dinamika da saxlanıla bilər.

Dillər mövcud səviyyələrindəki mürəkkəbliyinə əsasən bir-birindən variativlik baxımından fərqlənir. Dilin çevik və rəvan olması onun variativlik qabiliyyətindən asılıdır və bu qabiliyyət onun dəyişmə prosesini fasiləsiz olaraq öyrənir.

Variasiya nəticəsində yaranan dəyişiklik müəyyən müddət sonra dildə nəzəri əsas qazanmağa başlayır.

İngilis dlinin Kanada, Avstraliya, Amerika və s. növləri vardır. İngilis dilində *today, tomorrow, tonight* sözləri S.Potterin *"Langugage"* əsərinə müraciət etsək defislə yazılan mürəkkəb söz hesab olnur.*: to-day, to-morrow, to-night.* Bu proses təxmini 1620-ci illərə qədər davam etmişdir, lakin, 1964-cü ildə son dəfə dəyişiklik edilərək çağdaş ingilis dilində işlədilən formada bitişik yazılan varıantda olur. Başqa bir misal *tomato* sözü İngiltərədə /*təˈmaːtəʊ*/ şəkildə tələffüz olunsa da Amerikada /*təˈmeɪtəʊ*/ kimi tələffüz olunur.

Britaniya ingiliscəsi ilə Amerikan ingiliscəsi arasında sait səs sistemində ciddi fərqqliliklər var belə ki, titrək [r] samit səsindən əvvəlki [uə], [iə], [eə] səslərinin Amerikan ingiliscəsi üçün variantı mövcud deyil.

Amerikan ingiliscəsi daha sonra müəyyən dəyişikliklər və fərqliliklər daşıdığına görə Şimali Amerikan ingilscəsi kimi adlandırılmışdır. Baxa görə C.Pikerinqin tərtib etdiyi *"A Vocabulary, Or Collection of Words and Phrases which have been supposed to be Peculiar to the United States of America"* amerkanizmlərin toplandığı ilk nəşr olunan kitabdır.

Deməli, dildəki dəyişmələrin labüdlüyünü özündə ehtiva edən variativlik dilin dinamik xüsusiyyətini əks etdirir. Variativlik həm də dilin tarixi inkişafının əsas amili kimi özünü biruzə verir. Dildə mövcud olan dəyişikliyi dil materiallarının əsasında müşahidə etmək mümkündür. Odur ki, variativlik dilin daxili dinamikasının realizasiyası hesab edilir.

# İBTİDAİ SİNİFLƏRDƏ İSMİN TƏDRİSİ METODİKASI

**Ruxsara Feyziyeva**
**dosent**
**Ceyran Hüseynli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**feyziyeva@yahoo.com**
**huseynliceyran2001@gmail.com**

**Açar sözlər:** morfologiya, nitq hissələri, isim, metodika, tətbiq, üsul

Azərbaycan dilində ismin həm nəzəri, həm də praktik şəkildə öyrədilməsi mühüm əhəmiyyətə malikdir. Əsas nitq hissəsi olan ismin xüsusiyyətlərinin əsaslı şəkildə mənimsədilməsi qrammatikanın, digər nitq hissələrinin mükəmməl şəkildə öyrədilməsinə təsir göstərir. İsmin tədrisi zamanı əyanilikdən istifadə Azərbaycan dilinin lüğət tərkibini formalaşdırır. İsmin formalaşması, təhsil alanların yaddaşında "kök"lənməsi I sinifdən başlayır. Qazandıqları praktik bilik, bacarıq və vərdişlər şagirdlərin induktiv təfəkkürünü formalaşdırır. Müəllim buna əsaslanaraq dərsin motivasiya mərhələsində müəyyən təlim üsullarından (venn diaqramı, klaster, BİBÖ və s.) istifadə etməlidir. Hərçənd ki, bu üsullardan biri olan klaster üsulunu Lənkəran şəhəri 2 saylı tam orta məktəbinin IV$^{a}$ sinfində tətbiq etdim. Seçdiyim üsulun asan və ümumişlək olması mənim üçün zəruridir. Burada əsas məqsədim isim anlayışının şagirdlərin zehnində möhkəmləndirmək idi. Tətbiq etdiyim üsulun forması aşağıdakı kimidir: Yazı taxtasında klaster(şaxələndirmə) çəkdikdən sonra deduktiv yolla mərkəz hissədə "isim" anlayışını qeyd etdim. Şagirdlər hər bir şaxədə isimə aid xüsusiyyətləri yazdılar: canlı və cansız, tək və cəm, xüsusi və ümumi, konkret və mücərrəd, hallana bilən və mənsubiyyətə görə dəyişən olması(*şəkil1).* Bu anlayışları qeyd etdikdən sonra artıq şagirdlərin beynində müəyyən fikirlər yarandı. Şagirdlər bu vaxt ərzində keçmiş biliklərini yada saldı, əqli hücum(beyin həmləsi) prosesi formalaşdı. Sonda şagirdləri bir-bir dinlədim, verilən cavablara əsasən ümumiləşdirmə etdim. Beləliklə, nəzərdə tutulan anlayış – isim haqqında ümumi məlumat verdik. Bu üsuldan istifadə etməyimin əsas səbəbi şagirdlərin nəzəri bilikləri ilə yanaşı praktik bacarıqlarınıda inkişaf etdirmək və formalaşdırmaqdır.




*Şəkil 1.*

Morfologiya bölməsini əhatə edən nitq hissələri anlayışının mənimsədilməsi prosesi çətin olduğundan ibtidai siniflərdə bir neçə il ərzində öyrədilir. Aydındır ki, ilkin məlumatlar savad təlimi dövründə aşılanır və şagirdlərə I-II siniflərdə sadə anlayışlar haqqında məlumat verilir. Kim? Nə? Hara? Suallarına cavab olan sözləri çalışmalarda işlədirlər. Şagirdlər III sinifdə xüsusi isimlərlə tanış olurlar. Bu zaman ad, soyad, şəhər, ölkə, çay, dağ, heyvanlara verilən xüsusi adın isim olduğunu və böyük hərflə yazıldığı haqqında məlumat verilir. Daha sonra ismin hallanmasına dair məlumatlar genişləndirilir. İsmin altı halı olduğunu və bu halların şəkilçiləri öyrədilir. Keçilən mövzuların şagirdlərin beynində möhkəmləndirməkdən ötrü müəllim müxtəlif üsullardan və ya çalışmalardan istifadə etməlidir. Bir sözlə, dərs prosesinin keyfiyyətli alınması üçün başlıca vəzifə təlim üsullarından istifadədir. IV sinifdə tək və cəm isimlərin hallanmasına aid məlumatlar da şagirdlərə çatdırırlır. Hal şəkilçiləri cəm şəkilçisindən sonra artırılır. Bu zaman müəllim qaydaya əsasən çalışmalardan istifadə etməlidir. Məsələn: qələm-qələmlər, qələmlərin, qələmlərə, qələmləri və s. Başqa məqama fikir versək sonu q və k ilə bitən isimlərin hallanması zamanı q-nın ğ-ya, k-nın isə y-ya keçməsi prosesi çoxlu yazılı çalışmalar əsasında öyrədilir. İsmin hallarının yaxşı mənimsədilməsinə nail olmaq üçün xüsusi cədvəllərdən istifadə etmək olar *(Şəkil 2).*

| İsmin hallanması zamanı q-nın ğ-ya keçməsi | İsmin hallanması zamanı k-nın y-ya keçməsi |
|---|---|
| Qulaq-qulağın,<br>Bulaq-bulağın,<br>Ayaq-ayağın | Ürək-ürəyə,<br>Üzük-üzüyün,<br>Bilək-biləyin |

*Şəkil 2.*

İsim qurluşuna görə üç yerə ayrılır: sadə, düzəltmə və mürəkkəb isimlər. Sadə isimlər bir kökdən ibarət olur. Əlavə olaraq isimlər qrammatik şəkilçilər qəbul etsə də qurluşca dəyişmirlər. Düzəltmə isimlər sözdüzəldici şəkilçilər əsasında düzəlir. Bu şəkilçiləri qruplaşdıraq: isimdən isim düzəldən (-çı$^4$; -lik$^4$; -ıstan$^4$; -ça$^2$), feildən isim düzəldən (-ış$^4$, -ıq$^4$, -ıcı$^4$, -ki$^4$), sifətdən isim düzəldən (-lıq$^4$), saydan isim düzəldən (-lıq$^4$; -ıq$^4$) şəkilçilər. Bu şəkilçilərin köməyi ilə şagirdlər isim haqqında geniş miqyasda məlumatlar toplayır və ismi digər nitq hissələrindən fərqləndirməyi bacarırlar. Mürəkkəb isimlər iki və daha artıq sözün birləşməsindən əmələ gəlir (Göygöl, Ağdaş, dəvəquşu və s.). Mürəkkəb isimlərin əmələ gəlməsi üç formada olur *(şəkil 3).*




*Şəkil 3.*

İsmə artırılan şəkilçilərin tələffüzü zamanı müxtəliflik özünü göstərir. Cəm şəkilçisi olan -lar$^2$ ismə qoşulduqda -rar$^2$ (turlar-turrar), -nar$^2$ (günlər-günnər), -dar$^2$ (qızlar-qızdar) kimi tələffüz olunur. İsmin çıxışlıq hal şəkilçisi (-dan$^2$) deyiliş zamanı -nan$^2$ kimi tələffüz olunur (məndən-mənnən, qəlbdən-qəlbnən və s.). Daha bir məqamı qeyd edək ki, yerlik hal

şəkilçisi (-da$^2$) ilə bağlayıcı da qarışdırılır. Bu məqamı şagirdlərin diqqətinə çatdırmaq üçün yuxarıda qeyd etdiyimiz cədvəl formasında tərtib olan çalışmalar yerinə yetirmək məqsədə uyğundur. Burada əsas məqam intonasiyaya diqqət etməkdir. Məsələn, Bakıda gözəl məkanlar var(1); Bakı da gözəl şəhərdir (2). Hər iki cümlənində yazılışına və intonasiyasına baxırıq. Birinci cümlədə -da$^2$ yerlik hal şəkilçisi, ikinci cümlədə isə da bağlayıcıdır.

Tezisimin əsas məqsədi ondan ibarətdir ki, isim mövzusunu ibtidai siniflərdə müasir tələblərə cavab verən proqram əsasında əyani-praktik şəkildə izahına kömək etməkdir.

## İBTİDAİ SİNİFLƏRDƏ FEİLİN ZAMANLARININ DİDAKTIK OYUNLARLA ÖYRƏDİLMƏSİ

**Ruxsara Feyziyeva**
**dosent**
**Gülnarə Məmmədova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**feyziyeva@yahoo.com**
**gulnaramammadli0213@gmail.com**

**Açar sözlər:** feil, zaman, hərəkət, oyunlar, didaktik

Feil quruluş cəhətdən çox mürəkkəb, ən xırda mənanı ifadə etmək imkanı olan, cümlədə əhatəli, təşkiledici xüsusiyyətə malik əsas nitq hissəsidir. Nitqimizdə əşyaların adını bildirən isim kimi feili də danışan zaman çox işlədirik. Feil əşyanın hərəkətini bildirən əsas nitq hissəsidir. Bu mövzunun tədrisinə I sinifdən başlanılır. Feil haqqında əhatəli biliklərin verilməsi şagirdlərin rabitəli nitqin inkişafına güclü təsir göstərir. Feil həm leksik, həm də qrammatik tərkibləri baxımından digər nitq hissələrindən fərqlənir. Azərbaycan dili daha çox feillər vasitəsilə öz milli xüsusiyyətini qoruyub saxlaya bilmişdir. I-IV siniflərdə feil haqqında ancaq aşağıdakı anlayışların keçirilməsi nəzərdə tutulur: feilin hərəkət bildirən söz olması, quruluşca növləri, feilin zamanları, şəxsə görə dəyişilməsi, məsdər və s. Feil mövzusunun öyrənilməsi savad təlimi dövrünün ilk mərhələlərindən qoyulur. Bu anlayışın öyrənilməsinin ən sadə yolu odur ki, şagirdlər şəkillərə baxır, təsvir olunan əşyanın adını və nə etdiyini danışırlar. Məsələn, Qız yazır, Oğlan oynayır, Şagird danışır və s. Şagirdlərə feilin hərəkət bildirən söz olmasını praktik cəhətdən I sinifdən öyrədilir. II sinifdə isə şagirdlər feil anlayışı ilə tanış olurlar. IV sinifdə şagirdlərə zaman anlayışı öyrədilir. Zaman anlayışı uşaqlarda hələ lap erkən, məktəbəqədər yaş dövrlərindən inkişaf etsə də, danışan zaman bu gün, sabah, dünən və bu kimi sözlərdə səhvə yol verirlər. Zaman anlayışını şagirdlərə öyrətmək üçün onlara hərəkətin təsvirindən ibarət şəkilli kartoçkalar təqdim edilir. Onlar həmin şəkillər üzərində sadə cümlələr qurmağı, onlara sual verməyi bu yolla öyrənirlər. Nə etdi? Nə edir? Nə edəcək? sualları verməklə zaman anlayışını mənimsəyirlər. Həmçinin bu anlayışları şagirdlərə daha rahat çatdırmaq üçün əyani vasitələrdən, plakat və sxemlərdən istifadə etmək məqsədəuyğundur. Yazı lövhəsində feilin zamanlarına aid nümunələr yazılır. Məsələn, Bacım dərs oxudu. Bacım dərs oxuyur. Bacım dərs oxuyacaq. Bu şəkilçilərin altından xətt çəkilir və müqaisələr aparılır. Feilin indiki zamanı haqqında məlumat keçmiş və gələcək zamanlarını rahatlıqla dərk etməyə imkan yaradır. Həmçinin bu mövzunun

öyrənilməsində əyani vasitələrdən də istifadə olunur ki, bu da feilin zamanları haqqında anlayışlayışların şüurlu mənimsənilməsini təmin edir.

Bu mövzunun öyrənilməsində didaktik oyunların rolu olduqca böyükdür. Didaktik oyunlara öyrədici oyunlar da deyilir. Məqsədyönlü, planlı oyunlardır. Şagirdlərin sosial-emosional inkişafında böyük yer tutur. Uşaqlarda sensomotor bacarıqların inkişafı zamanı əşyaların xüsusiyyətlərinin analizi, müxtəlif vəziyyətlərdə onlardan istifadə etmək qabiliyyəti formalaşır. Didaktik oyunların başlıca xüsusiyyəti, onun məqsədi, resurs, oyunun gedişatı kimi xüsusiyyətlərdən ibarətdir. Bu oyunların əhəmiyyəti həmçinin ondan ibarətdir ki, uşaq zehni əməliyyatları-düşünmək, izah etmək, əsaslandırmaq bacarığını inkişaf etdirir. Oyun zamanı əsas şərt olaraq uşağın diqqətinin sabitliyi, dəyişkənliyi, paylanması artır. Müəllimin bələdçi, istiqamətləndirici rolu, düzgün qurulmuş şagird-müəllim, şagird-şagird münasibətləri təhsilalanın özünə inamını artırır, onu fəallaşdırır. Müxtəlif təlim sistemlərində öyrədici oyunların xüsusi yeri var. Uşaq üçün oyun maraqlı bir əyləncə deyil, həm də yoldaşları ilə münasibətlər sxemini inkişaf etdirir. Didaktik oyunları fərdi, qruplarla, cütlərlə və kollektivlə aparmaq olar. Didaktik oyunlardan zaman anlayışının öyrənilməsində də istifadə etmək mümkündür. Məsələn, üç ədəd əyani vasitə götürülür. Biri daş üzərində yazı, ikinci kitab, digəri isə komputer. Şagirdlərə öyrədilir ki, lap qədim zamanlarda insanlar daş üzərində yazılardan məlumat öyrənirdilər, hal-hazırda kitablardan, sonrakı dövrlərdə isə kitab olmadan da hər hansı müəyyən vasitələrdən istifadə edərək mümkün olacaq ki, bu da böyük ehtimal komputerlərlə həyata keçiriləcək. Bu da elm və texnikanın sürətli inkişafı ilə əlaqəlidir. Bununla da şagirdlərə keçmiş, indiki, gələcək zaman anlayışları haqqında təəssüratlar formalaşır. Başqa bir nümunə də göstərə bilərik ki, məsələn, “keçmiş dövrlərdə bir div yaşayırdı” və ya “biri var idi biri yox idi” nümunələr göstərərək sual veririk ki, sizcə bu nə zaman baş verib gələcəkdəmi? keçmişdəmi? Yəni nə vaxtsa olub indi isə yoxdur. Yaxud da “dərs bitəndən sonra evə gedəcəm” bu cümlədə hadisə ola da bilər, olmaya da bilər. Əgər ola da bilər, olmaya da bilər deyilirsə deməli bu gələcəkdəki hadisədən məlumat verir. Baş verəcəyi məlum deyil. İndiki zamana aid nümunə göstərərək deyə bilərik ki, “indi biz pəncərədən baxanda görürük ki, yağış yağır” sizcə bu hansı zamandadı? sualını verməklə həmçinin şagirdləri düşündürməyə çalışırıq. Digər bir nümunədə isə şagirdlərə fəsillərlə bağlı şəkillər göstərilir və belə bir sual vermək olar ki, “hal-hazırda hansı fəsli yaşayırıq?” “bundan əvvəl hansı fəsil idi?” “bundan sonra hansı fəsillər olacaq?” kimi nümunələr göstərmək olar. Didaktik oyunların təşkilindən sonra isə şagirdlərə çalışmalar verilir və bu çalışmalar vasitəsilə onlar biliklərini möhkəmləndirirlər. Məsələn, Sabah dərs ol... , Uşaqlar yarışda qalib gəl..., Dünən yağış yağ... və s. Bununla da şagirdlərə zaman anlayışını bu vasitələrlə öyrətmək daha keyfiyyətli olar.

# ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL MÜASİR DÖVRÜN MÜHÜM TƏLƏBİDİR

**Sahil Cəfərov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**ceferovsahil610@gmail.com**

**Açar sözlər:** idraki fəaliyyət, ünsiyyət fəaliyyəti, psixomator fəaliyyət, açıq suallar, qapalı suallar, təfəkkür, təxəyyül verbal, qeyri-verbal

Bu gün cəmiyyəti düşündürən ən böyük məsələlərdən biri də hər tərəfli inkişaf etmiş, praktik bacarıqlara yiyələnən, milli-mənəvi keyfiyyətləri özündə birləşdirən, vətəninə bağlı olan və onu müdafiə etməyə qadir olan, dövlətinə sadiq, sədaqətli olan və ölkəmizin dünya dövlətlərinin sırasında təmsil etməyə qadir şəxsiyyətin necə formalaşdırılmasıdır. Təbii olaraq bu istiqamətdə əsaslı işlər daim görülür və görülməkdədir. Lakin şəxsiyyətyönümlü təhsil istiqamətində görülən işlərin ağırlıq dərəcəsi məktəbin üzərinə düşür. Bu missiyaya rəğmən qeyd etmək mümkündür ki, şəxsiyyətyönümlü təhsil istiqamətində yaranan məqsədli kompleksi təhsil verənlər qarşısında məsuliyyəli vəzifələr səviyyəsində sistemləşir.

Şəxsiyyətyönümlü təhsil ilk növbədə nəyi tələb edir?

Bu istiqamət iki prizmadan yanaşmağı tələb edir. Birinci yanaşma da nəzəri bilikləri formalaşdırılması (üzərində) reallaşır.

Ənənəvi təhsildən fərqli olaraq nəzəri biliklərin minimum endirilməsi məqsədə uyğundur. Hesab edirik ki,praktik bacarıqların formalaşmasını təmin edən tapşırıqlara vaxtın çox ayrılması dərsin səmərəlilik səviyyəsini daha çox yüksəldir.

Şəxsiyyətyönümlü təhsil şəxsiyyətyönümlülük tələbi ilə yerinə yetirilən təhsil alma prossesidir. Bu prosses də məntiqi olaraq üç elementi özündə birləşdirir. Həmin elementə ən optimal səviyyədə aşağıdakı fəaliyyətlərin tərkibində sistemləşdirir. Həmin fəaliyyətlərə daxildir.

1. İdrakı fəaliyyət
2. Affektiv-emosianal fəaliyyət
3. Psiximator fəaliyyət

Hesab edirəm ki, təlim prossesində idrak fəaliyyətinin dinamikasını yarada biləcək tapşırıqlara daha çox üstünlük verilməlidir. Bəs bu prosses necə yerinə yetirilməlidir və onun pedoqoji sistemi necə qurulmalıdır?

Şagirdlərdə idrak fəallığını artıra biləcək yanaşmaların başlanğıcında “ sual-cavab “ texnikası durur.

Düşünürəm ki, sual-cavab texnikası açıq və qapalı sualların məzmununda ifadə olunsa daha səmərəli nəticələr əldə etmək olar.

Açıq suallar idrak fəallığını artırır, təlim fəaliyyətinə motivasiya yaradır məqsədin əldə olunmasını stimullaşdırır. Bu prosses demək olar ki, təhsil mütəxəssislərini düşündürən və narahat edən bir misiyanın reallaşmasına əhəmiyyəli təsir edir. Həmin misiya “Təhsili şagirdin maraq və tələbatına çevirmək” tendensiyasıdır.Bu mənada açıq suallar şagirdi hafizə məktəbindən ayırıb təfəkkar məktəbinə dəvət etmək dərəcəsində səmərə verici pedoqoji faktdır. Bu proses hafizədən təfəkkürə keçid və bu harmoniyanın təsviri ilə təlim fəaliyyətinə motivasiyanın yaranması ilə növbələşir. Araşdırmalar belə bir qənaətə gəlməyə imkan verir ki açıq suallar şagirdləri fakt hadisə və proseslərin səbəb-nəticə əlaqələrinin necə baş verməsi üzrə düşünməyə sövq edir. Eyni zamanda şagirdlərin təlim fəaliyyəti giriş-motivləşmə, əməliyyat idrakı, nəzarət qiymətləndirmə ardıcıl əməllər sistematikasında formalaşır.

Açıq suallar cavab variantları təqdim edilməyən suallar kompleksidir. Bu məzmunda qurulan suallar şagirdi düşünməyə vadar edir və onda idrak fəallığı formalaşdırır. İdrak fəallığı (hüquq) duyğu, qavrayış, diqqət hafizə, təfəkkür, təxəyyül, nitqi zəncirvari bağlılığı ilə dinamikada olduqda (şagirdin) pedoqoji prosesin inkişaf etdirici funksiyası yerinə yetirilmiş olur. Məhz açıq suallar bütün idrak elementlərini eyni zamanda hərəkətə gətirə biləcək funksiyaya malikdir. Hissi idrakın dinamikasından başlayan proses verbal və qeyri-verbal nitqlə bitir. Deməli, şəxsiyyətyönümlü təhsildə ikinci vacib fəaliyyət elementinin yəni emosional fəaliyyətin zəruriliyi üzə çıxır. Təlim prosesində şəxsiyyətyönümlü təhsil ünsiyyət fəaliyyətinin mükəmməl formalaşması zəminində reallaşır. İdrak fəaliyyəti şagirdin idrak fəallığını təmin etdiyi halda, ünsiyyət fəaliyyəti şagirdlərdə nitqin, tələffüzün və kanseptual danışıq tərzinin inkişafını təmin edir.

Pisixomotor fəaliyyət idrakı və ünsiyyət fəallığı ilə paralel həyata keçrilir. Pisixomotor fəaliyyət, hərəki fəaliyyət adlanır.

Qeyd olunur fəaliyyətin 3 istiqamətliliyi tam şəxsiyyət modelinin formalaşmasına yönəlmişdir. Eyni zamanda, pedaqoji fəaliyyətin funksional dəyərini artıran digər şərtlər də mövcuddur. Bu şərtlər pedaqoji prosesin başlıca funksiyalarında ifadə olunur. Həmin funksiyalar təhsilverici, inkişafverici və tərbiyəedici vəzifələrin yerinə yetirilməsində reallaşır. Deməli, təhsilverici funksiya bilik və bacarıqların formalaşdırılması missiyasını yerinə yetirdiyi halda, inkişafetdirici funksiya şagirdin bütün pisixoloji laylarını hərəkətə gətirə biləcək fəaliyyətdə üzə çıxır. Tərbiyəedici funksiya eyni zamanda şagirdlərdə mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılması missiyasını yerinə yetirir.

Pedaqoji prosesin qeyd etdiyimiz sistem üzrə həyata keçrilməsi arzu olunan məqsədin əldə olunması ilə nəticələnir.

Bu proses hərtərəfli inkişaf etmiş şəxsiyyət modelinin formalaşmasına və nəticədə vətənimizə layiq, xalqını qorumağa qadir olan, torpağına bağlı olan, dövlətimizi dünya dövlətləri arasında layiqincə təmsil etməyi bacaran vətəndaşların formalaşması ilə nəticələnəcəkdir.

## PLANLAŞDIRMANIN HƏYATA KEÇİRİLMƏ ASPEKTLƏRİ

**Sahil Cəfərov**
**dosent**
**Xatirə Xalıqzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Sahil.ceferov.2022@gmail.com**
**Xaliqovax19@gmail.com**

**Açar sözlər:** Heydər Əliyev, təhsil, planlaşdırma, aspekt

Bu gün hər birimiz Respublikamızda sürətlə gedən hərtərəfli inkişaf dinamikasına şahidik. Baş verən inkişafın müxtəlif istiqamətləri mövcuddur. Mövcud inkişafın prioritet istiqamətlərindən biri də təhsildir. Bu gün dünyanın bir çox ölkələrində elm və təhsilin irəliləyişi üçün əvəzsiz imkanlar yaradılır. Bu da təhsil alan hər bir şəxsin cəmiyyətin, dövlətin layiqli üzvü kimi fomalaşmasına imkan yaradır. Ulu öndərimiz Heydər Əliyevin də

təhsil sahəsində əvəzsiz tövhələri, qayğısı olmuşdur. O milli yüksəlişdə təhsilin rolunu yüksək qiymətləndirmişdir. Heydər Əliyevin təhsillə bağlı dəyərli fikirləri mövcuddur.

"Təhsil millətin gələcəyidir"

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəs idir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz."

"Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissə sini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bil məzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazı mdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq."

Hazırki dövrdə təhsili inkişaf etdirmək məqsədi ilə bir sıra strateji addımlar atılır. Təhsil müəssisələrinin infrastrukturu müasirləşdirilir, məktəblərdə təmayülləşmə həyata keçirilir, müəllimlərin peşəkarlıq səviyyəsi yüksəldilir, yeni qiymətləndirmə mexanizmləri yaradılır. İnkişafı təmin etmək üçün həm də mövcud problemləri,neqativ halları aradan aldırmaq lazımdır.

Tədrisin müasir problemlərindən biri də qiymətləndirmə məsələləridir. Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də qiymətləndirmə sisteminin çox böyük əhəmiyyəti var. Qiymətləndirməni mütəşəkkil formada həyata keçirmək üçün bir sıra tələblərə əməl olunmalıdır. Bu tələblərdən başlıcası qiymətləndirmənin planlı şəkildə aparılmasıdır. Planlı şəkildə aparılan qiymətləndirmə obyektiv nəticələrin əldə olunmasını təmin edir.

Qiymətləndirmə zamanı planlaşdırmanın mahiyyəti və məzmunu şagird nailiyyətlərinin sistemli və ardıcıl izlənməsinə və eyni zamanda görülən işin keyfiyyətinin artırılmasına bilavasitə təsir edir. Bu baxımdan planlaşdırma bir neçə aspekt üzrə formalaşdırılmalı və həyata keçirilməlidir.Həmin aspektləri ən optimal səviyyədə aşağıdakı kimi sistemləşdirmək olar:

1.Elmi-nəzəri aspekt.

Planlaşdırmaya elmi-nəzəri aspektdən baxış rasional şəkilləri qəbul edərək fəaliyyətin həyata keçirilməsini daha düzgün və dəqiq işlərlə reallaşdırmağı nəzərdə tutur. Elmi-nəzəri aspekt digər tərəfdən planlaşmanın təhlil-tərkib süzgəcindən keçirilməsinə zəmin yarardır. Yəni planlaşmaya analtik baxışın önə çəkilməsi, eyni zamanda planlaşmanın refleksiv baxışla yekunlaşdırılması fakt, hadisə və proseslərin yeni məzmunda təhlil olunmasına əsas yaradır. Refleksiv baxış metakoqnitiv biliklər səviyyəsində həyata keçirilən prosesdir.Burada tənqidi təfəkkür ön planda olur. Nəticələr tənqidi yanaşmadan əldə olunur.

Planlaşmaya elmi-pedoqoji aspektdən yanaşmanın miqyası geniş və əhatəlidir. Düşünürük ki, elmi-nəzəri aspektin bütün inmkanlarından istifadə olunması planlaşmaya öz müsbət təsirini göstərəcəkdir.

2.Planlaşmada metodoloji-pedaqoji aspekt.

Planlaşmada metodoloji-pedaqoji aspekt görüləcək işin praktikasında bilavasitə əks olunur. Real olaraq planlaşmanın məzmun və mahiyyəti ilə tətbiq etmə imkanları arasında elmi-pedaqoji rabitələri metodoloji-pedaqoji aspekt yaradır.Çünki burada məqsəd şagird nailiyyətlərinin monitorinq və qiymətləndirilməsində səmərəli üsul və vasitələrinin kəşf olunub üzə çıxarılmasıdır. Bu mənada nəzəriyyə və praktika arasında keyfiyyət təminatının təşkil edən metodoloji-pedaqoji aspektdir. Digər tərəfdən metodoloji-pedaqoji aspekt planlaşdırma zamanı üsul və vasitələrdən istifadənin zəruriliyini şərtləndirir.

3.Refleksiv-fəlsəfi aspekt.

Planlaşdırmada mahiyyət və məzmunun təkmilləşdirilməsi həyata keçirilən prosesə yenidən baxışdan aslıdır.Burada fəlsəfi məzmun daha dərin baxışlarla ölçülür. Əgər planlaşmada elmi-idraki nöqteyi-nəzərdən yanaşmanı önə çəkmək fikrimiz varsa burada elmi-idrak fəaliyyətinin təşkilinin əsas prinsiplərindən söhbət gedə bilər.

Fikrimizi konkret şəkildə ifadə etməli olsaq, onu qeyd etməliyik ki, planlaşma da dialektik materializmin şəkilləri ilə reallaşmalıdır. Bu və ya digər məzmunda aparılan planlaşmalara yenidən baxış fəlsəfəsinin əsas tutulması daha dərin və fundamental nəticələrin alınması ilə yekunlaşır.

4.Planlaşmada daha məzmunlu yanaşma aspektlərindən biri də vasitə aspektidir. Bu aspekt hər bir şərt ilə digər şərtin bağlılığını yaradır. Yəni planlaşdırmaya kompleks yanaşma prinsipini əsas tutur.

Hesab edirik ki, qeyd etdiyimiz aspektlərdən isrifadə olunarsa şagird nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqinin təşkili üçün nəzərdə tutulan planlaşmanın fundamental bazası genişlənəcəkdir. Yəni daha səmərəli nəticələrin əldə olunması üçün əlimizdə geniş imkanlar yaradacaqdır.

## GƏNCLƏR ÖLKƏMİZİN GƏLƏCƏYİDİR

**Sahil Cəfərov**
**dosent**
**Rəhiməxanım Bədəlova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**sahil.ceferov.2022@mail.ru**
**rehime27a@gmail.com**

**Açar sözlər:** məktəb, yeniyetmə, yenidəntərbiyə, yaş xüsusiyyətləri, çətin uşaqlar

Böyüyən nəslin təlim-tərbiyəsində məsuliyyətin əhəmiyyətli hissəsini valideynlər təşkil etsə də, bu sahədə məktəbin fəaliyyəti də mühim əhəmiyyət kəsb edir. Doğrudur, təhsil sahəsində məktəb-valideyn arasında qırılmaz bağ mövcud olmalıdır. Bu rabitənin mövcudluğu əslində cəmiyyətin sosial sifarişi ilə xarakterizə olunur. Cəmiyyət haqlı olaraq təlim-tərbiyə sahəsində çətinliklə üzləşdikdə məktəbə müraciət edir,məktəbdən istiqamət və məsləhətlər alır. Çünki, bütün valideynlərin pedaqoji təhsili yoxdur.Buna görə də bəzən təlim tərbiyə işində uğursuzluqlar yaranır. Bu məsələdə müəyyən pedaqoji-psixoloji şərtlər movcuddur. Bu sırada yaş xüsusiyyətlərinin nəzərə alınması xüsusilə vacibdir.

Elmi-pedaqoji ədədbiyyatda yeniyetməlik dövrü böhran dövrü adlandırıldığı üçün bu dövrü risk qrupuna aid olan xüsusiyyətlər kimi də qiymətləndirmək olar. Yeniyetməlik mərhələsi 3 hissəyə bölünür: erkən yeniyetməlik dövrü, orta yeniyetməlik dövrü və gec yeniyetməlik dövrü. Yeniyetməlik dövrünün başlanğıcında hormonal proseslər dəyişir və bununla da insanın xarici görünüşü də dəyişir: qızlarda qadın bədən quruluşu formalaşmağa başlayır, oğlanlarda isə səs dəyişilir, kişi bədən quruluşu formalaşır. Bu dəyişiklik zehni dəyişikliklə birgə başlayır. Yeniyetməlik yaşı güclü mənəvi-psixoloji, bioloji və sosial dəyişikliklərlə xarakterizə olunur. Harmoniyanın pozulması ilə yadda qalan yeniyetməlik dövrü yaş xüsusiyyətlərindən asılı olaraq təlatümlü dövrdür. Nəzərə alınmalıdır ki, hipoz və qalxanabənzər vəzlərin funksiyası intensivləşir buna görə də  boy artımı ilə bədən çəkisi arasında müvazinət pozulur, maddələr mübadiləsi sürətlənir və cinsi yetişkinliyin dinamikası yeniyetməyə imkan vermir ki, o, davranışında müvazinəti təmin edə bilsin. Yeniyetməlik dövrünün təlatümlü keçməsi bir sıra psixi xəstəliklər üçün də şərait yaradır. Yeniyetmənin davranışı gözlənilməz istiqamətə dəyişərsə, aqressivliyi həddən artıq artarsa, dərs

müvəffəqiyyəti düşərsə, qanun və hüquqları pozursa, qumara, narkotikə bir sözlə zərərli vərdişlərə meyillilik varsa bu zaman artıq bu əlamətlər yeniyetmənin valideyni, onun ətrafındakı insanlar və məktəb üçün bir siqnaldır. Belə şəxslərin yenidəntərbiyəyə ehtiyacı vardır. Bu tipli yeniyetmələrə ‘‘çətin uşaqlar’’ deyilir. Yeniyetməlik dövrü insan həyatında keçid dövrü olduğu üçün risk qrupuna aid yeniyetmələrlə təlim-tərbiyə işinin qurulması məsuliyyəti ikiqat artırır.

Yenidəntərbiyə bir tərəfdən yeniyetmənin zərərli vərdişlərini aradan qaldırır, digər tərəfdən müsbət mənəvi keyfiyyətləri yeniyetməyə aşılayır. Yenidəntərbiyə tərbiyəyə nəzərən daha mürəkkəb pedaqoji proses olmaqla yanaşı eyni zamanda da uzun sürən bir prosesdir. Yenidəntərbiyə zamanı tərbiyəçi iki istiqamətdə iş aparır. İlk olaraq uşağın şüurunda kök salmış zərərli əxlaqi və ya mənəvi keyfiyyətlərin düzgün olmadığını isbat edib aradan qaldırmalıdır. Digər tərəfdən isə tərbiyəçi cəmiyyət üçün faydalı keyfiyyətləri uşağa aşılamalıdır.

Məktəbdə yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə aparılan iş zamanı bir sıra cəhətlər nəzərə alınmalıdır;

- Yeniyetmə hansı ailədən gəlib?
- Ailə tamdır yoxsa natamam?
- Ailə yeniyetməyə hansı səviyyədə tərbiyə verir?
- Yeniyetmə kimlərlə oturub durur?
- Küçənin,məhəllənin,ətrafdakıların yeniyetməyə təsiri nə dərəcədədir?
- Məktəbdə yaxud məhəllədə yeniyetmənin asudə vaxt keçirməsi üçün şərait varmı?
- Dərsdənkənar və ya məktəbdənkənar tədbirlər keçirilirmi?

Yenidəntərbiyə zamanı sadaladığımız bu cəhətlərin nəzərə alınması mütləqdir.

## TÜRK DİLİNDƏ DANIŞAN ÖLKƏLƏR VƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI

**Sahilə İbrahimova**
**filologiya elmləri üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**sahila.ibrahimova@yahoo.com**

**Açar sözlər:** Türk dili, Türk dövlətləri, əlifba, əlaqə, dil birliyi

Sovet İttifaqının dağılmasından sonra müstəqillik əldə etmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə prezidentləri 1992-ci ildə Ankarada görüşdülər. Onlar Sammitdə bir araya gələrək Şura üçün lazımi zəmin yaratdılar. Daha sonra 1994-cü ildə İstanbul, 1995-ci il Bişkek, 1996-ci il Daşkənd, 1998-ci il Astana, 2000-ci il Bakı, 2001-ci İstanbul, 2006-cı il Antalya, 2009-cu il Naxçıvan, 2010-cu il İstanbul Sammitləri təşkil edildi. Sammitlər sonrakı illərdə də davam edib və 3 noyabrın 2023cü ildə Astanada Türk Dövrü mövzusu ilə 10-cu sammit keçirilib. 10-cu Sammitdə bir çox məsələlərə dair məsləhətləşmələr aparılaraq razılaşdırılan 156 maddədən ibarət sammit bəyannaməsi dərc olunub.

İqtisadiyyat, təhsil, səhiyyə, kənd təsərrüfatı, enerji və turizm kimi əməkdaşlıq sahələri 20 başlıq altında yığılmışdır.

Türk Dövlətləri Təşkilatının loqosu və bayrağı Azərbaycan Respublikasının bayrağının ulduzu, Qazaxıstan Respublikasının bayrağının mavi rəngi, Qırğız

Respublikasının və Türkiyə bayrağının günəşi və Türkiyə Cumhuriyyəti bayrağının ayparasından ibarətdir. Türk Dövlətləri Təşkilatı ilə əlaqəli qurumlar arasında TÜRKSOY, Türk Akademiyası, TÜRKPA, Türk Mədəniyyəti və İrsi Fondu, TTSO yer almaqdadır.

TÜRKSOY: Türk Dünyasının YUNESKO-su olaraq xarakterizə edilən TÜRKSOY; 1993-cü ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə Respublikasının mədəniyyəti nazirlərin imzaladığı müqavilə ilə yaradılmışdır.

Türk Akademiyası 2012-ci ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən yaradılıb. dil, ədəbiyyat, mədəniyyət və tarix sahələrində birgə elmi tədqiqatları əlaqələndirmək və Sivilizasiyanın bəşəriyyətə verdiyi töhfələri orijinal mənbələr əsasında araşdıraraq qiymətləndirmək məqsədi ilə Türk Dövlətləri Təşkilatının himayəsində beynəlxalq təşkilat kimi rəsmi olaraq yaradılmışdır.

TÜRKPA: Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) 21 noyabr 2008-ci il İstanbulda "Dolmabahçe Sarayı"nda Türkiyə Cümhuriyyəti Prezidenti Abdullah Gülün ev sahibliyi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Respublikasının parlament sədrlərinin İmzalanmış olduğu müqavilə ilə yaradılmışdır.

Türk Mədəniyyəti və İrsi Fondu: Baş ofisi Azərbaycanın paytaxtı Bakıda olan fondun üzvləri olan ölkələrdə türk irsinin qorunması üçün, eləcə də üçüncü ölkələrlə tərəfdaşlıq və əməkdaşlıq çərçivəsində layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir.

TTSO: Birgə Türkiyə Ticarət və Sənaye Palatası, Türk Dövlətlərinin işgüzar dairələri arasında iş birliyi. Birliyini dəstəkləmək və inkişaf etdirmək və beləliklə, iqtisadi inteqrasiya ilə iqtisadi və sosial əlaqələri dəstəkləmək, onların inkişafını daha da irəli aparmaq üçün 2019-cu ildə İstanbulda daimi katiblik ilə yaradılmışdır.

Türk Dövlətləri Təşkilatı və əlaqədar qurumların işlərinə əlavə olaraq universitetlərin birgə təşkil etdiyi Türk Dünyası ilə bağlı Beynəlxalq Konfrans və Simpoziumlar da təşkil edilir. Türk Dünyası ilə bağlı aparılan akademik araşdırmalar türk dövlətlərinin bir-birləri ilə aralarındakı əlaqələri ortaya qoyur və onlara qarşılıqlı əlaqə yaratmağa imkan verir. Universitetlərarası tələbə mübadiləsi proqramları vasitəsilə qarşılıqlı əlaqə təmin edilir. Ümumi olaraq, ilk növbədə türkdilli ölkələrin əlifba birliyini təmin etməlidir. Elə məqamlar var ki, bir-birimizi başa düşməkdə çətinlik çəkirik. Əlifba birliyi qurulduqdan sonra bir-birimizi tam mənada başa düşəcəyimiz şəkildə dəyərli akademiklərdən ibarət birgə komissiya ilə sözlər üzərində lüğətlər, qrammatik kitablar yazılacaqdır. Siyasi mənada Türk Birliyinin qurulması üçün lazımi addımlar atılmalıdır. İqtisadi, hərbi, səhiyyə, turizm və bir çox başqa mövzularda birlik əldə edilməli, türklərə bir yerdə yaşamaq imkanı verilməlidir. Türk dünyasının böyük mütəfəkkiri İsmayıl Qaspıralının dediyi kimi, "Dildə, Fikirdə, İşdə" birlik təmin edilməlidir.

# ŞƏRQ MULTİKULTURALİZMİ: YERLİ VƏ QLOBAL ÇAĞIRIŞLAR

**Səbinə Məmmədova**
**müəllim**
**Bakı Slavyan Universiteti**
**sabinanarmin@gmail.com**

**Açar sözlər**: Multikulturalizm, Şərq, İslam dini, tolerantlıq, gender

Vahid ölkədə və bütövlükdə dünyada mədəni fərqliliklərin qorunub saxlanmasına və inkişafına yönəlmiş multikulturalizm siyasəti müasir multikultural cəmiyyətin ən mühüm aspektlərindən biridir. Multikulturalizm ölkələrin daxili siyasətin tərkib hissəsi olsa da dünyada etnik, irqi, dini və mədəni müxtəlifliklərin və onların dəyərlərinin mövcudluğunu təmin edir.

Qloballaşma prosesinin nəticəsi olaraq milli sərhədlərin "aradan götürüldüyü", eyni zamanda milli dövlətlərin, milli müstəqillik ideyalarının yayğın olduğu müasir dünyada Şərq və Qərb mədəniyyətləri arasındakı qarşılıqlı münasibətlər qaçılmazdır. Xüsusilə, son iki əsrdə dünyada baş verən texniki inkişaf bu iki mədəniyyət arasında ümumi cəhətlərin formalaşmasını, həm də toqquşmalar və ziddiyyətlərin dərinləşməsini sürətləndirdi. İnsan və vətəndaş hüquqları və azadlıqlarının aktuallığı, informasiyanın əlçatanlığının ayrı-ayrı dövlətlərin ictimai-siyasi, iqtisadi və mədəni həyatına ciddi təsirlərinin nəticəsində dövlətlərin xarici, eyni zamanda daxili siyasətinin mütləq dəyişikliyi fonunda ölkələrin müxtəliflikləri tənzimlənməsi, insan hüquqlarının qorunması yolunda fəaliyyətlərinin müasir tələblərə cavab verməsi zərurəti ortaya çıxdı. Bu, xüsusilə, şərq region ölkələrində insan hüquqları, qadın kişi bərabərliyi, etnik və dini qrupların hüquqlarının qorunması kimi məsələləri aktuallaşdırdı. "Müasir dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər hər bir xalqın milli- mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirib. İlk baxışda təbii və mütərəqqi görünən bu meyillər bəzi hallarda sivil bəşər cəmiyyətinin minilliklər boyu əxz etdiyi dinc yanaşı yaşamaq kimi ali dəyərə kölgə salır, onun etnik, irqi, dini və siyasi dözümsüzlük kimi səciyyələnən ksenofobiya ilə əvəzlənməsinə rəvac verir. Milli özünəməxsusluğu qorumaq instinkti və yaxud bəhanəsi altında son nəticədə başqa mədəniyyətlərə, dinlərə, hətta millətlərə münasibətdə dözümsüzlük halları artır.

Suriyada baş verən vətəndaş müharibəsi, Əfqanıstanda keçən əsrin sonundan başlayan və hələ də davam edən təlatümlər- müharibə, dövlət çevirilişləri, şərqin beyin köçləri, vaxtilə müstəmləkə siyasəti yeritmiş ölkələrə əks köçlər, iqtisadi miqrasiyalar, təbii fəlakətlər miqrasiya məsələlərini şərq regionunun prioritetinə çevirmişdir. Hazırda Türkiyənin daxili siyasətinin tərkib hissəsinə çevrilmiş suriyalı və əfqan mühacirlər problemi cəmiyyətdə birmənalı qarşılanmır.

Şərq həm də ilk dinlərin yarandığı məkan olmaqla dini müxtəlifliyin ən yüksək səviyyədə təmsil olunduğu, onların qarşılıqlı münasibətlərinin bütün regionun ictimai-siyasi, iqtisadi, mədəni həyatına təsirlərinin yüksək səviyyəsi ilə seçilir. Din şərq insanının bir çox hallarda fərdi və ictimai kimliyini tanımlayır, mədəni identiklik vasitəsi, həm də dünyagörüşünün əsası kimi formalaşa bilir. Bu baxımdan dinin cəmiyyət həyatındakı yeri və rolu məsələsi, eyni zamanda din və siyasət arasındakı qarşılıqlı münasibətlərinin tərkib huissəsi olan dövlət-din münasibətlərini nəzərə almadan Şərq ölkələrində mültikulturalizm modellərini tam şəkildə anlaya bilmərik. Şərqdə müəyyən bir dinin mütləq hakimiyyətinə əsaslanan siyasi sistemlərin mövcudluğu dinlərarası münaqişə və digər dinlərin nümayəndələrinə qarşı dözümsüzlük və ya diskriminasiya ilə də yadda qalmışdır.

Şərqdə multikulturalizm ideyalarından danışarkən İslam dini, onun fərdi və ictimai müstəvidə əhəmiyyətini, ayrı-ayrı ölkələrin ictimai-siyasi həyatındakı rolunu, İslamda şiəlik və sünniliyin islam dünyasını parçalayan iki böyük məzhəb kimi də başa düşülməsini İran Səudiyyə Ərəbistanı arasında münasibətlərin fonunda da aydın görmək olar.

Eyni zamanda milli dövlətlərin meydana gəlməsi, həmçinin qərbin siyasi və mədəni təsiri ilə qoca şərq böyük çətinliklərlə üz-üzə qaldı. Mövcud etnik, dini, mədəni müxtəliflikləri tənzimləmək üçün müasir Şərq sivilizasiyasının ən mühüm vəzifəsi davamlı inkişafı təmin etməkdir. Buna görə müstəqil milli qurumlar formalaşdırmaq, birgəyaşayış qaydalarının, effektiv mexanizmlərin və etnomədəni siyasətin öyrənilməsi və tətbiqi, tolerant mühitin yaradılması vacib şərtə çevrildi. Baxmayaraq ki, Asiya ölkələrində multikulturalizm Avropadakı qədər populyar deyil, şərqin orta əsrlər tarixinin müxtəlif dövrləri bu baxımdan ideya və praktikaların inkişafında böyük rol oynamışdır.

Həmçinin Şərqdə müxtəlif irqlərin sintezi üçün xüsusi olan bütün irqlər və onların törəmə janrları - dinlər və mədəniyyətlər, eləcə də dünyanın başqa yerlərində analoqu olmayan mədəni obrazlar və naxışlar təmsil olunur ki, bu da Şərqdə müstəsna etnik və mədəni müxtəlifliyə sahib insanların yaşamasını labüd edir.

Əksər Şərq ölkələrinin əhalisi təkcə etnik və dini cəhətdən deyil, həm də mədəni cəhətdən çox fərqlidir. Baxmayaraq ki, multikulturalizm siyasi ideologiya kimi Qərbdə yaranmışdır, lakin qoca Şərqin çoxəsrlik tolerantlıq ənənələrinin mövcudluğunu inkar etmək olmaz, xüsusən də şərq ölkələrində dini tolerantlığın çoxsaylı nümunələri var. Şərqin orta əsrlər tarixində mövcud olmuş multikultural birliyin nümunəsi kimi müxtəlif etnik qrupların birləşməsində iştirakı Səfəvi İmperiyasında vahid siyasi qüvvə kimi çıxış edən qızılbaş tayfalarının, böyük Osmanlı İmperiyasında sülh və əmin-amanlıq içində yaşayan yəhudilərin, ərəblərin, türklərin, xristianların və müsəlmanların , buddistlərin, hinduslarının və s. birliyinin mövcudluğu danılmaz tarixi faktlardır. Osmanlı, Moğol İmperiyası və müsəlman İspaniyası, Kordova xilafətinin tarixində tolerantlıq elementləri bu dövlətlərin çiçəklənməsinin səbəblərindən biri olmuş və onlarda dərin iz qoymuşdur.

Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının (ASEAN) 7 Noyabr 2022-ci ildə təqdim edilən hesabatında göstərilir ki, "Milli qanunlar Cənub-Şərqi Asiyada dini müxtəlifliyi və azadlıqları təhdid edir və regionda din və ya etiqad azadlığı hüququ ilə bağlı qanun və qaydaların icmalını təqdim edir. Hesabatın əsas nəticələrindən biri odur ki, Cənub-Şərqi Asiya ölkələrinin bir çox konstitusiyaları rəsmi olaraq din azadlığı hüququnu təmin etsə də, praktikada dinlə bağlı qanunlarda beynəlxalq standartlara uyğun gəlməyən qeyri-müəyyənliklər və məhdudiyyətlər var.

Asiya regionunda mədəni müxtəliflik və miqrasiya, şübhəsiz ki, yeni fenomen olmasa da, son dövrlərdə regiondaxili miqrasiyaların artması səbəbindən ölkələr dəyişən demoqrafik vəziyyətlə mübarizə aparır. Bəzi ölkələrdə bu, miqrasiyanın multikulturalizm baxımından təsirləri haqqında milli mövzuda müzakirələrə səbəb olub.

İnsan hüquqları problemi dövlətin siyasi və hüquqi rejimindən asılı olmayaraq aktualdır. Eyni zamanda, müsəlman ölkələri ilə bağlı müvafiq məsələlər xüsusilə kişi və qadın bərabərliyi kateqoriyasında hüquqi baxımdan spesifikliyi ilə fərqlənir. Ayrı-ayrı dini təfəkkür tərzinin dinamikası və Şərq-Qərb müxtəlifliyində gender mədəniyyəti daha aydın görünür. Yaşadığımız qloballaşma əsrində dində kişi-qadın münasibətlərinin sosiomədəni xüsusiyyətləri də spesifik kəsişmələrdə, oxşar və fərqli cəhətləri ilə ayrılır. Şərqdə qadınların cəmiyyətin siyasi həyatına inteqrasiyasının yetərsizliyinin daha çox dinlərlə bağlanmasına gəlincə, İbrahimi dinlər (İslam, Xristianlıq, Yəhudilik) arasında ciddi fərqlər yoxdur və əsasən bütün ilahi dinlər kamillik üçün ortaq mənşədən gəlir və insanın inkişafını dəstəkləyir.

Şərq multikulturalizmindən danışarkən keçdiyi tarixi inkişaf yolu, mədəniyyəti, müasir dövrdə regiondakı siyasi və iqtisadi mövqeyi ilə seçilən Azərbaycan Respublikası

haqqında danışmaq mütləqdir. Azərbaycan hazırda dünyada ən nümunəvi multikulturalizm siyasəti həyata keçirən ölkələrdəndir. Özündə həm qoca şərqin özünəməxsus xüsusiyyətlərini daşıyan, həm də qərbin siyasi, mədəni- ideoloji xəttini prioritet götürən Azərbaycan, multikulturalizmi təkcə siyasi ideoloji xətt deyil, həm də həyat tərzinə çevirə bilən az-az ölkələrdəndir. Həm etnik, həm də dini baxımdan zəngin ölkəmiz müxtəlifliklərin tənzimlənməsində özünəməxsus inkişaf yolu keçməklə, müasir tələbləri xalqın əsrlərlə formalaşmış dünyagörüşü, adət-ənənəsi, tolerantlığı prizmasından reallaşdırmağı bacarmışdır.

Şərq insanının təbiətlə bağlılığının onun emosional psixi davranışlarında əksi, fəaliyyət istiqamətlərinin əsas göstəricisinə çevrilə bilməsi kimi danılmaz faktlar bütövlükdə şərqi səciyyələndirən xüsusiyyətlərdir. Dünyada başverən siyasi təlatümlərdə iştirakçılığı, münaqişə ocaqlarının çoxluğu, mövcud siyasi idarəçilik sistemi, dini məzhəbçiliyi baxımından üst-üstə düşməsə də, tarixən formalaşmış multikultural, tolerant düşüncə tərzi ilə Şərq müsbət proseslərin gedişatını izləməkdədir.

## PSİXOLOJİ SAĞLAM CƏMİYYƏTİN QURUCULUĞU İŞİNDƏ HEYDƏR ƏLİYEV MƏKTƏBİNİN ROLU


**Şahin Mehrəliyev**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**mehraliyevshahin@gmail.com**



**Açar söz:** psixoloq, psixoloji sağlamlıq, psixoloji xidmət


Müstəqil və müasir Azərbaycan dövlətinin memarı, cəmiyyətimizin hərtərəfli quruculuq işində əvəzsiz rolu olan Ulu Öndər Heydər Əliyevin bütün peşə sahələrində xidmətləri göz önündədir. Ən başlıcası millətimizin və xalqımızın sağlamlığı məsələlərində onun ata qayğısını daha yüksək səviyyədə hiss etmək mümkündür. İlk öncə Heydər Əliyev şəxsiyyətinin həyat və yaradıcılığına, keçdiyi ömür yoluna nəzər yetirdikdə sarsılmaz, möhtəşəm, sağlam təfəkkürlü, həm fiziki həm də psixoloji baxımdan güclü, yüksək iradi keyfiyyətlərə sahib nəhəng ideal bir insanın varlığına şahid olursan. Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyini nəzərə aldıqda bizə bir daha bəyan olur ki, onun qurmaq istədiyi cəmiyyətin uzun müddət dayanıqlı olması üçün sarsılmaz sütunları olmalı idi. Bu sütunlar ölkənin hərətərfli inkişaf etmiş siyasi, iqtisadi, sosial sferalarıdır. Dünya səviyyəli güclü siyasətçi Heydər Əliyev, əlbətdəki ölkənin qısa bir zaman ərzində güclənməsi üçün iqtisadi istiqamətdə xeyli işlər gördü. Çünki ölkədə maddi baza olmadan tərəqqi mümkün deyildi. Heydər Əliyevin hakimiyyətə gəlməsinin ikinci dövrünə qədər ölkəmiz hər sahədə özünün tənəzzül dövrünü yaşayırdı. Buna görə də dövlətin sosial, siyasi, hərbi və digər quruculuq işlərində iqtisadiyyatın möhkəmləndirilməsi ön plana keçirdi. Amma cəmiyyətin sağlamlığı bütün bu qeyd olunanlardan daha aktual mövqedə dururdu. Əlbətdə ki, Heydər Əliyevin dərin uzaqgörən zəkası sağlamlıq məsələsinin qısa dövr ərzində öz həllini tapmasına gətirib çıxartı. Bir çox şəhər və rayonlarda yeni texnologiyalarla təhciz edilmiş səhiyyə ocaqları inşa edilərək əhalinin ixtiyarına verildi. Bu Heydər Əliyevin müasir və müstəqi Azərbaycanın quruculuq işində bütün sahələrə yönəltiyi diqqət və qayğının daxilində insanların sağlamlıq məsələlərinə göstərdiyi diqqət və qayğının nəticəsi idi. Eyni zamanda

səhiyyə sistemin hərtərəfli inkişafı ilə yanaşı müxtəlif peşə sahələrində fəaliyyət göstərən insanların psixoloji sağlamlıqlarının qorunması da prioritet məsələ hesab olunurdu. Heydər Əliyev müxtəlif yığıncaq və toplantılarda dəfələrlə bildirmişdi ki, insanların sağlamlıqları cəmiyyətin bütövlükdə sağlamlığı deməkdir və burada ən önəmlisi isə onların ruh sağlamlıqlarıdır. Əgər insanlar həm fiziki həm də ruhi baxımdan sağlam olacaqlarsa belə cəmiyyətdə sağlam rəqabət, sağlam düşüncə və rahat həyat da bərqərar ola bilər. Beləliklə məhz Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk dönəmlərdə bir çox sahələrdə psixoloji sağlam atmosferin yaradılması baxımından psixoloji xidmət sahələrinin təşkil olunması üçün işlər həyata keçirilməyə başladıldı. Səhiyyə, təhsil, hərbi, idman, iqitsadiyyat və digər sahələrdə psixoloji xidmətin qurulması və bununla bağlı kadr hazırlığı məsələləri ön plana keçdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı illərində bir çox təhsil sahələrində praktik psixoloqların hazırlanması kurslarına start verildi. Əsasən də Bakı şəhər Pedaqoji Kadrların ixtisasartırma İnstitununda bu sahə üzrə əsaslı şəkildə elmi metodik işlər həyata keçirildi. Amma hazırlanan praktik psixoloqlar digər fənləri tədris edən müəllimlər idilər. Daha doğrusu ixtisaslı kadrlar hesab olunmurdu. Amma ölkədə kadr çatışmamazlığı boşluğunu nəzə alaraq doqquz aylıq kursları bitirən müdavimlər məktəblərdə praktik psixoloq vəzifəsinə təyin olunurdular. Onlar çalışdıqları təhsil sahəsində psixoloji xidmətin təsis olunmasının ilk qaranquşları hesab olunurdu. Sonralar bu problem universitetlərimizdə Təhsildə Sosial Psixoloji Xidmət və digər uyğun ixtisaslar açılmaqla öz həllini tapdı. Hazırda təhsil sahəsində təhsilanalarla psixoloji işlər həyata keçirən ixtisaslı kadrlarımızın sayı artmaqda davam edir. Alimlərimizdən İsa Məmmədov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, L.Əmrahlı, E. Mirzəyeva, Ə.Zeynalabdinova və b. psixoloji xidmət işi ilə bağlı həm nəzəri həm də praktik olaraq elmi dəstəklərini vermişlər. 2001-ci ildə İsa Məmmədov tərəfindən Azərbaycan Praktik Psixoloqlar Assosiasiyası təsis edildikdən sonra “Məktəb psixoloqu” qəzeti də çap olunmağa başladıldı. Bir çox universitetlərdə praktik psixoloqların yetişdirilməsi üçün yeni ixtisaslar təsis olundu. Hazırda Lənkəran Dövlət Universiteti də daxil olmaqla 7 dən çox ali təhsil ocaqlarımızda Təhsildə Sosial Psixoloji Xidmət ixtisası fəaliyyət göstərir. Fərəhləndirici haldır ki, adı çəkilən ixtisası bitirən tələbələrimiz artıq bölgədə fəaliyyət göstərən bir çox məktəblərdə praktik psixoloq kimi çalışırlar. Bununla yanaşı Lənkəran Dövlət Universitetinin nəzdində daha geniş sahələrdə çalışa bilmək şansı qazana biləcək tələbələr üçün Psixologiya ixtisası da açılmışdır. Adları qeyd olunan ixtisaslarda hər il həvəslə çox sayda tələbələr təhsil alır. Tələbələrin özləri də başa düşürlər ki, bu ixtisas dövrün çox aktual və tələb olunan peşəsini özündə əks etdirir. Eyni zamanda məsuliyyətli bir peşə hesab olunur. Belə ki, cəmiyyətin psixoloji sağlamlığının keşiyində duran psixoloqlar rifahlı gələcəyimizin təminatçısı kimi çıxış etməkdədirlər. Hazırda dünyanın qlobal mənzərəsinə nəzər yetirsək sürətli həyat tempi, istehsal və istehsalın intensiv şəkildə sanki bir-biriləri ilə yarışa keçməsi, ekoloji və iqtisadi böhranlar, müharibə və münaqişələr, pandemiya və digər sosial-iqtisadi məsələr bəşərəriyyətin hər bir üzvündə yüksək stress və gərginlik yaratmaqdadır. Məlumdur ki, bir çox psixoloji və psixi pöroblemlərin əsasında stress və gərginlik durur. Belə olan şəraitdə psixololi sağlamlığın qorunması mühüm qlobal bir məsələyə çevrilmişdir. Ona görə də Ulu Öndərimiz xalqımızın sağlamlığının qorunması istiqamətində çox mühüm işlər həyata keçirmişdir.

Dövlətimiz səhiyyə sistemin inkişafı ilə yanaşı tibb sahəsi üzrə əhalinin psixoloji sağlamlığı məsələsinə də xüsusi diqqət ayırmışdır. Cəmiyyətin ruhi sağlamlığı hər bir fərdin psixoloji sağlamlığı ilə bağlıdır. Uzun illər aparılan islahatlar nəticəsində ilk olaraq Azərbaycanda Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandanımız İlham Əliyev 7 dekabr 2018-ci il tarixli sərəncamı ilə “Psixoloji yardım haqqında Azərbaycan Respublikasının qanun lahiyəsi öz təsdiqini tapdı. Bu qanun layihəsi ilə əhalinin sosial psixoloji sağlamlığı ilə bağlı çox önəmli və mühüm addımılar atıldı. Bu

qanun Azərbaycan respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin birinci bəndinə uyğun olaraq hər bir Azərbaycan vətəndaşının psixoloji yardım almaq hüququna malik olması rəsmi şəkildə öz təsdiqini tapmış oldu. Bu qanuna əsasən psixoloji yardımı yalnız bu sahə üzrə ixtisaslaşmış psioxoloqlar göstərə bilər.

Bütün bunlarla yanaşı səhiyyə sistemində klinik tibbi psixoloq ştatları təsis edildi. Hazırda tibbi psixoloqlar tibb personalı və xəstələrin psixoloji sağlamlığının keşiyində durmaqdadırlar. Hazırda demək olar ki, əksər dövlət xəstəxanalarında klinik psixoloqlar fəaliyyət göstərməkdədir. Ulu Öndər səhiyyə sistemi ilə bağlı demişdir: "Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir"

Bununla yanaşı Heydər Əliyevin gənc nəslin hər tərəfli sağlamlığı istiqamətində idman sahəsinə də çox önəm vermişdir. “Sağlam bədəndə sağlam ruh olar” düşüncəsinin əsas götürərək ölkəmizdə çox sayda idman kompleksləri və gənclərimizin asudə vaxtlarını səmərəli keçirmələri üçün uyğun mərkəzlər yaradılmışdır. Bütün bunlar gələcək nəslin daha sağlam olması üçün atılan nəhəng addımlar idi. Heydər Əliyevin “Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir” kəlamı bü günkü gəcliyin bütün sahələrdə inkişafını göz önünə gətirir. Bununla bağlı istedadlı gənclərə dövlət qayğısını artırmaq məqsədilə dövlət mükafatlarının və təqaüdlərinin verilməsi buna bariz sübutdur. Hazırda çox sayda istedadlı gənclərimiz bu təqaüd və mükafatları almaq şansına sahibdirlər.

Həmçinin orduda psixoloji sağlamlığın möhkəmləndirilməsi istiqamətində hərbi psixoloqların hazırlanmasına da xüsusi diqqət ayrılmışdır. Hazırda bir çox hərbi hissələrdə də psixoloqlar fəaliyyət göstərir. Orduda hərbi psixoloqun əsad diqqəti şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi xidmətə yeni gəlmiş hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, hərbi xidmətə adaptasiya, şəxsi heyətin xidməti təhlükəsizliyinin və sağlamlığının qorunması və digər hərbi məsələlərə yönəlmişdir.

## TƏLİM PROSESİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏMƏK TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİNDƏ TƏRBİYƏÇİ-MÜƏLLİMİN ROLU

**Şərafət Baxışova**
**professor**
**Günel Məmmədli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**sharafat_baxishova1960@mail.ru**
**ggunel568@gmail.com**

**Açar sözlər:** Əmək tərbiyəsi, tərbiyəçi müəllimin peşə fəaliyyəti, milli mənəvi dəyərlər, uşaq şəxsiyyətinin inkişafı

Təhsil sisteminin bünövrəsi sayılan məktəbəqədər təhsil müəssisələrində uşağın hərtərəfli şəxsiyyət kimi formalaşmasının təməli qoyulur. Məhz bu baxımdan məktəbəqədər təhsil uşaqların potensial imkanlarının üzə çıxarılmasında, məktəb təliminə hazırlanmasında, onlarda mədəni keyfiyyətlərin, milli-mənəvi dəyərlərin, müstəqillik, vətənpərvərlik, yaradıcılıq, təşəbbüskarlıq, həmçinin həyati bacarıqların formalaşmasında mühüm rol oynayır.

Uşaqlarda erkən yaşlardan əməyə məhəbbət və zəhmət adamlarına hörmət hissi tərbiyənin əsas vəzifələrindən biridir.

Kiçik yaşlardan uşaqlara əməyə, əmək adamlarına müsbət münasibət konkret nümunələr əsasında verilməli, yaşlıların əməyinin ictimai əhəmiyyəti göstərilməli, insanların əməyə münasibətinin zənginlikləri açılmalıdır.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi uşaqlarda erkən yaşlardan zəhmət çəkmək adətinin və bacarığının, əməyə məhəbbət və zəhmətkeş adamlara hörmətin tərbiyə edilməsini nəzərdə tutur. Məktəbəqədər yaşlı uşaq ətrafdakı bütün şeylərə maraqla yanaşır və fəal hərəkət etməyə səy edir. Düzgün aparılan əmək tərbiyəsi prosesində uşaq fəaliyyət göstərərək, onun əhatəsində olanlar haqqında ilk təsəvvürlər əldə edir, onda əməyə məhəbbət, yaradıcı münasibət formalaşır və yoldaşları ilə kollektivdə işləmək bacarığı tərbiyə edilir.

Əmək prosesində iştirak edən uşaq yaşlıların əməyinə hörmət edir, bütün zəhmətkeşlərin əməyini qiymətləndirməyi bacarır. Bunun əsasında uşaqlarda bütün zəhmətkeş insanlara qarşı hörmət və məhəbbət tərbiyə olunur. Əməyi sevən və əməklə məşğul olan uşaqlarda yoldaşlıq yardımı, dosta və yoldaşa qayğı göstərmək, insanpərvərlik kimi nəcib əxlaqi keyfiyyətlər də formalaşdırılır.

Bütün bu qeyd olunan keyfiyyətlərin mənimsənilməsini reallaşdıran məktəbəqədər təhsil müəssisələrində uşaqların əmək tərbiyəsi üzrə işin imkanlarının genişlənməsinə optimal şərait vardır.

Məktəbəqədər təhsil müəssisələrində əmək tərbiyəsi üzrə işin səmərəli həyata keçirilməsində tərbiyəçi-müəllimlər böyük rol oynayır. Tərbiyəçi-müəllimin uşağa öyrətdiyi hər bir şey ruhundan gəlir və mənəvi aləminin güzgüsüdür.

Öz çıxışlarında Azərbaycan müəllimlərinin ən yüksək mənəviyyata, vətəndaşlıq-hisslərinə malik olan insanlar olduğunu qeyd edən Ümummilli Liderimiz Heydər Əliyev müəllimlik məqamını hər zaman uca tutaraq müəllimlik peşəsi haqqında demişdir: "Həyatını-müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni-zamanda qəhrəmanlıq göstərən insanlardır".

Tərbiyəçi-müəllimin peşə fəaliyyəti çoxcəhətli bir prosesdir. O, təkcə öyrətmir, həm də tərbiyə və inkişaf etdirir. Bu xüsusiyyətlər vahid istiqamətdə bir-birini tamamladıqda tərbiyəçi-müəllimin üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirə bilir və yaxşı tərbiyəçi-müəllim kimi özünü göstərir.

Şərqin ən böyük ədəbi fəlsəfi abidəsi olan "Avesta"da, müqəddəs "Qurani-Kərim"də əməyə xüsusi əhəmiyyət verilmişdir. Məhəmməd Peyğəmbər (s.a.s.) deyirdi ki, hər bir insan halal zəhməti ilə dolanmalı, əməklə məşğul olmalıdır. Xalqımızın milli bayramı olan Novruz bayramında da əməyə, əmək nəğmələrinə yer verilmişdir. Həmişə əmək sağlamlıq və gümrahlıq mənbəyi hesab edilir.

Rus pedaqoqu K.D.Uşinski qeyd edirdi ki, əmək insanın inkişafı üçün zəruri şərt olmaq etibarı ilə, həm də onun layiq olduğu ləyaqətin mühafizəsinin mühüm şərtidir. K.D.Uşinski daha sonra yazırdı ki: "Şəxsi əməksiz insan irəliyə doğru hərəkət edə bilməz, o, geri getməlidir. Əmək insan xoşbəxtliyinin zəruri şərtidir".

Təlimin şəxsiyyətyönümlü xarakteri kiçik yaşlıların təlimi prosesində özünü büruzə verir. Tərbiyəçi-müəllimin əsas rolu çox həssaslıqla, uşağa öz daxili keyfiyyətlərindən istifadə edərək, onu inkişaf etdirməklə ətraf aləmi müstəqil dərk etməyə kömək göstərməkdir.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin başlıca vəzifəsi uşaqlarda əməyə düzgün münasibət formalaşdırmaqdan ibarətdir. Uşaqlarda əməksevərlik tərbiyə edərkən qarşılarına məqsəd qoymağı, ona nail olmaq üçün yollar tapmağı, məqsədəuyğun nəticəyə nail olmağı öyrətmək vacibdir. Əmək tərbiyəsinə təhsilin bünövrəsi sayılan məktəbəqədər

yaş dövründən başlanılması məqsədəuyğundur. Məktəbəqədər yaşlı uşaqların gələcəkdə ləyaqətli şəxsiyyət kimi yetişməsində əmək prosesində məsuliyyətli olmaq özünə nəzarət, qarşılıqlı kömək kimi əxlaqi hisslərə yiyələnməsinə şərait yaradır.

Özünəxidmət tərbiyəsinin nəticələri onun təşkilindən, aparılmasından və pedaqoji rəhbərliyin necəliyindən asılıdır. Məktəbəqədər təhsil müəssələrində tərbiyəçi-müəllimlər hər bir uşağı özünəxidmət əməyinə dəvət etməli, onların hər birinə eyni tələbkarlıqla yanaşılmalıdır. Lakin həmin vəzifələr tədricən mürəkkəbləşməlidir. Əməyin bu növü məktəbəqədər yaşlı uşaqlar üçün tərbiyə vasitəsidir. Uşağın əmək vərdişlərinə yiyələnməsi onlarda müsbət keyfiyyətlərin, o cümlədən qənaətçilik, səliqəlilik, müstəqillik, əməksevərlik, fəallıq və s. keyfiyyətlərin tərbiyəsinin nəticəsidir.

Tərbiyəçi-müəllim uşaqların özünəxidmət işinin nəticəsi ilə daimi olaraq maraqlanmalıdır. Həmin prosesdə onların düzgün tərbiyəsinə nail olmaq üçün nəticələrin səviyyəsi aydınlaşmalı, qüsurlar olmuşsa aradan qaldırılmalıdır. Tərbiyəçi-müəllim uşaqların özünəxidmətlə əlaqədar fəaliyyətinə onun əldə etdiyi nailiyyətləri və hələ nəyin pis olduğunu qeyd etməlidir. Uşaqların özünəxidmətinin təşkilində və aparılmasında tərbiyəçi-müəllimin, valideynin və pedaqoji kollektivin fəaliyyətində vahidlik gözlənilməlidir. Yaş qruplarından asılı olmayaraq özünəxidmətin təşkilində rejimin nəzərə alınması, inkişafetdirici mühitin yaradılması vacibdir. Gigiyenik tələblərin nəzərə alınması da özünəxidmət fəaliyyətinin təşkilinin başlıca şərtidir.

Yaşlıların əməyi ilə tanışlıq uşaqların əmək tərbiyəsində əsas rol oynayır. Bu məqsədlə tərbiyəçi-müəllimin xüsusi müşahidələr təşkil etməsi məqsədəuyğundur.

V.A.Suxomlinski qeyd edirdi ki, təsərrüfat- məişət əməyini kollektivin, ətrafdakıların estetik və mənəvi tələbatlarına tabe etməklə, onun zəruriliyinə inam, ona qarşı şüurlu münasibət formalaşdırmaq olar.

Uşaqların təsərrüfat-məişət əməyinin tərbiyəsində də tərbiyəçi- müəllimin ciddi rəhbərliyi tələb olunur. Tərbiyəçi-müəllimin uşaqları həvəsləndirməsi və onların fəaliyyətini dəyərləndirməsi əsas məsələlərdəndir. Çünki bu uşağa sevinc gətirir, onda fərəh hissi yaradır. O, özünü bacarıqlı, müstəqil və əsil köməkçi kimi hiss edir.

Beləliklə, uşaqlar əməyin hər bir növündə bilik, bacarıq və vərdişlər əldə edirlər. Uşaq şəxsiyyətinin inkişafında əməyin rolu böyükdür. Uşaq şəxsiyyətinin inkişafında əmək bir fəaliyyət növü kimi böyük qüvvəyə malikdir. Əmək uşaqlarda zəhmətsevərliklə yanaşı, dözümlülük, cəsarət, yoldaşlıq, dostluq, qayğıkeşlik, xeyirxahlıq və vətənpərvərlik kimi əxlaqi keyfiyyətlər formalaşdırır. Düzgün təşkil olunan və məqsədyönlü həyata keçirilən əmək uşağın bütün şəxsi keyfiyyətlərinə müsbət təsir göstərir, onun gələcək həyat yolunun müəyyənləşdirilməsində həlledici rol oynayır.

## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSISƏLƏRİ İLƏ MƏKTƏB ARASINDA VARİSLİYİN GÖZLƏNİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

**Şərafət Baxışova**
**professor**
**Səidə Baxşalıyeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**sharafat_baxishova1960@mail.ru**
**baxsaliyevasid@gmail.com**

**Açar sözlər:** təhsil, məktəbəqədər, məktəb, varislik, nəzəri

"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", - deyən Heydər Əliyevin təhsilin inkişafında əhəmiyyətli rolu və xidmətləri olmuşdur. Ulu öndər Heydər Əliyevin tarixi xidmətlərində təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. Onun rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları təhsil sahəsinin səmərəli inkişafına səbəb olmuşdur. Ümummilli lider Heydər Əliyev məktəblərin və tədris müəssisələrinin infrastrukturunu inkişaf etdirmək, müasir təhsil standartlarını tətbiq etmək və tələbələrin təhsil keyfiyyətini artırmaq üçün səylər göstərmişdir.

Əlavə olaraq, Heydər Əliyev təhsil sistemində inkişaf və təkmilləşdirmə üçün dövlət proqramlarını təşkil etmiş və təhsil sahəsində investisiyaları artırmışdır. Bu, məktəbəqədər təhsil müəssisələri ilə məktəblər arasında daha sıx əlaqələrin qurulmasını və təhsilin keyfiyyətinin yüksəldilməsini təmin etməyə kömək etmişdir. Dahi rəhbərin təhsil sahəsində apardığı uğurlu fəaliyyət hələ də davam etməkdədir. Heydər Əliyevin rəhbərliyi dövründə təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil müəssisələrinin inkişaf etdirilməsidə diqqətdən kənarda qalmamışdır. Heydər Əliyevin rəhbərliyi dövründə məktəbəqədər təhsil müəssisələrinin, eyni zamanda orada tərbiyə alanların sayı artmış, məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilmişdir.

Məktəbəqədər təhsil müəssisələri ilə məktəb arasında varisliyin gözlənilməsinin nəzəri əsasları müəyyən prinsiplərə əsaslanır:

- Məktəbəqədər təhsil müəssisələrinin missiyası və məqsədi, tələbələrin təhsil və mənəvi inkişafını təmin etməkdir. Bu məqsədə uyğun olaraq, müəssisələr tələbələrin beynəlxalq standartlara uyğun təhsil almasını və öz potensiallarını inkişaf etdirmələrini təmin etməlidir.
- Məktəbəqədər təhsil müəssisələri ilə məktəblər arasında varisliyin gözlənilməsi, müvafiq təhsil standartları və müasir texnologiyaların tətbiqi ilə əlaqəlidir. Müəssisələr, tələbələrə yüksək keyfiyyətli təhsil təmin etmək üçün aktual standartlara uyğun proqramlar və texnologiyalar istifadə etməlidir.
- Varisliyin gözlənilməsi, tələbələrin fərqliliyini nəzərə almalıdır. Məktəbəqədər təhsil müəssisələri, fərqli nəzəriyyə və fiziki imkanlara malik olan tələbələrin təhsilinə olan ehtiyacı qarşılamalıdır.
- Məktəbəqədər təhsil müəssisələri ilə məktəblər arasında güclü əlaqələrin və təmasın inkişafı əhəmiyyətlidir. Bu, müasir kommunikasiya vasitələri ilə tələbələr, müəllimlər və idarəçilər arasında əlaqələrin gücləndirilməsini dəstəkləyir.

- Varisliyin gözlənilməsi, tələbələrə lazım olan dəstəyi təmin etməyi də nəzərdə tutur. Müəssisələr, tələbələrin akademik və sosial dəstəyə ehtiyacını müəyyən edərək monitorinq edilməlidir və s.

Bu nəzəri əsaslar, məktəbəqədər təhsil müəssisələri ilə məktəblər arasında varisliyin gözlənilməsinin təmin edilməsi üçün əsas mənbələri təşkil edir. Bu prinsiplərə uyğun təşkilat və tədbirlər, tələbələrin müvafiq və effektiv təhsil almasına imkan verir. Məktəbəqədər təhsil müəssisələri ilə məktəb arasında varisliyin gözlənilməsinin nəzəri əsasları, təhsil sisteminin effektiv inkişafı və tələbələrin keyfiyyətli təhsil alması üçün əhəmiyyətli bir məsələdir. Bu məsələ, təhsil müəssisələrinin standartlarını yaxşılaşdırmaq, tələbələrin müasir təhsil texnologiyalarından faydalanmasını təmin etmək və əlaqələrin gücləndirilməsi ilə əlaqəlidir.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏLİM MARAQLARININ FORMALAŞDIRILMASINDA İNKİŞAFETDİRİCİ TƏLİMİN ROLU

**Şərafət Baxışova**
**professor**
**Səyyarə Nəsirzadə Bəhrəmova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**sharafat_baxishova1960@mail.ru**
**s.nesirzadeh@gmail.com**

**Açar sözlər:** inkişafetdirici təlim, təlim marağı, məktəbəqədər yaşlı uşaq, hərtərəfli və harmonik inkişaf, fəaliyyət mərkəzləri

Uşaqlar dünyanın ən məsum varlığı, gələcəyin ümididirlər. Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə layiq və sədaqətli övlad kimi yetişdirmək çətin və məsuliyyətli olduğu qədər həmçinin də şərəflidir. Əgər gələcəyimizi bu günün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ona görə də uşaqlara hər zaman diqqət və qayğı göstərilir, onların düzgün tərbiyə olunmalarına, qarşılaşdıqları problemlərin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına hər zaman dövlət səviyyəsində nəzarət edilir.

Yetişməkdə olan gənc nəslin sağlam, firavan böyüməsi, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası hələ ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan 1994-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmuşdur. Bu Konvensiyaya qoşulmaqla ölkəmiz uşaq hüquqlarına yüksək dəyər verdiyini, uşaqların ehtiyaclarının hərtərəfli təmin olunması istiqamətində addımlar atdığını bir daha təsdiqləmişdir.

Ümummilli lider öz çıxışlarında dəfələrlə vurğulayırdı ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi, uşaqların yaxşı təhsil və təlim-tərbiyə alması, vətən və xalq üçün gərəkli övlad kimi yetişməsi olduqca mühüm əhəmiyyətə malikdir. Ümummilli lider deyirdi:"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". H.Əliyevin 1999-cu il 15 iyun

tarixli sərəncamı ilə təsdiq edilmiş Təhsil sahəsində İslahat Proqramında qeyd olunur:"Cəmiyyət öz gələcəyini təmin etmək məqsədilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstün inkişaf etdirilən sahəyə çevrilməlidir."

Bütün deyilənlərə nəzər yetirsək belə qənaətə gələrik ki, məktəbəqədər təhsil və təlim-tərbiyə qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün inkişafetdirici təlimin tətbiqinə böyük ehtiyac vardır. Məktəbəqədər yaşlı uşaqların təlim maraqlarının formalaşdırılmasında və onların hərtərəfli və harmonik inkişafında, xüsusən də zehni tərbiyəsində və intellekt səviyyələrinin yüksəldilməsində inkişafetdirici təlimin rolu olduqca mühümdür. İnkişafetdirici təlim də məhz şəxsiyyətin bütün keyfiyyətlərinin tam məcmusunun inkişafına yönəlir.

İnkişafetdirici təlimi təşkil edərkən müvəffəqiyyət qazanmaq və səmərəli nəticə əldə etmək üçün müəyyən prinsiplərə əməl etmək vacibdir. Bura fərdi yanaşma, yaşamüvafiqlik prinsipləri aiddir. Həmçinin şəxsiyyətin inkişaf qanunauyğunluqlarını, həm də hər bir fərdin psixoloji xüsusiyyətlərini və inkişaf səviyyələrini nəzərə alaraq müvafiq şərait yaratmaqla qabaqlayıcı metod və texnologiyalardan istifadə etmək zəruridir.

İnkişafetdirici təlimi təşkil edərkən inkişafetdirici mühitin yaradılmasına da riayət etmək vacibdir. İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması üçün məktəbəqədər təhsil müəssisələrində müxtəlif guşələr, yəni fəaliyyət mərkəzləri təşkil olunur. Guşələr təşkil olunarkən əsas şərt uşaqların maraq və inkişaf ehtiyaclarının nəzərə alınmasıdır. Qeyd etdiyimiz fəaliyyət mərkəzlərinə əl əməyi guşəsi, təbiət guşəsi, təsviri-fəaliyyət guşəsi, kitab guşəsi, oyuncaq guşəsi və elm guşələrini misal göstərə bilərik. Bu sadalananların hər biri uşaqların sərbəst fəaliyyət göstərməsinə xidmət etməli, sadəcə formal xarakter daşımamalıdır. Fəaliyyət mərkəzləri bir-birindən ayrı təşkil edilir, xüsusi materiallarla təchiz olunur. Mərkəzlərdə qoyulan materiallar (kitablar, oyuncaqlar, həndəsi fiqurlar, kağız, qələmlər, boyalar, plastilin və.s) uşaqların əli çatan vəziyyətdə qoyulmalıdır və uşaqlar həmin materiallarla yaradıcı və müstəqil oynamağa həvəsləndirilməlidir. Fəaliyyət mərkəzləri (guşələr) elə yaradılmalıdır ki, orada uşaqlar bir-birilə oynayıb ünsiyyət qura, istədikləri fəaliyyət mərkəzlərini özləri seçə bilsinlər.

Uşaqyönümlü inkişafetdirici mühitdə tərbiyəçi uşaqların irəli sürdükləri fikirlərə, təşəbbüslərə hörmət və diqqətlə yanaşmalı və onları, xüsusilə məşğələlərin planlaşdırılması və həyata keçirilməsi zamanı nəzərə almalıdır. Təşəbbüskar uşaqlar dəstəklənməli, bir qədər çəkinən və passiv olan uşaqlar isə təşəbbüs göstərməyə həvəsləndirilməlidir. Bunun üçün tərbiyəçinin "sən nə ilə məşğul olmaq istəyərdin?", "çəkdiyin rəsmin mənasını mənə izah edə bilərsənmi?" və s. bu kimi sual və təkliflərlə uşaqları fəallaşdırmağı məqsədə uyğun hesab edilir. Uşaqlar yalnız eşitmək və deyilənləri olduğu kimi icra etmək deyil, fikir yürütmək, faktlar axtarmaq, səbəb-nəticə əlaqələrini soruşmaq, izah etmək və qurmaq, sadə tədqiqatlar aparmaq, həmyaşıdları ilə ünsiyyət qurmaq, fəaliyyəti öz təlim maraqlarına uyğun seçmək və müstəqil davranmaq hüquqlarına malikdirlər.

Montessori pedaqoji yanaşmasında da inkişafetdirici təlimin təşkilində mühitin rolunun mühüm əhəmiyyət kəsb etməsi fikri irəli sürülmüşdür. Montessorinin fikrincə: "Hər bir uşağın peşəkarcasına təşkil olunmuş inkişafetdirici mühitə ehtiyacı var, burada pedaqoq mühitin təşkilatçısı və ayrılmaz hissəsidir". Buradan aydın olur ki, inkişafetdirici mühitin qurucusu tərbiyəçi-müəllimdir və inkişafetdirici mühitin nə dərəcədə düzgün qurulması məhz tərbiyəçi-müəllimin peşəkarlığından asılıdır.

Dəstəkləyici və inkişafetdirici təlim mühiti uşaqların müstəqilliyinə imkan yaradır, onların təhsil uğurunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır və ən əsası onların təlim maraqlarının formalaşdırılmasının özülünü təşkil edir.

# MÜASİR DÖVRDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSI ÜZRƏ APARILAN İŞLƏRİN PRAKTİK ƏSASLARI

**Şikar Hüseynov**
**dosent**
**Nərgizxanım Abdullayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**shikar_huseynli@mail.ru**
**nargiz_abdullayeva_99@mail.ru**

**Açar sözlər:** vətənpərvərlik, vətəndaşlıq, milli-mənəvi dəyərlər

Müasir dövrdə gənclərin vətənpərvərlik tərbiyəsi onların milli mənəviyyat və mədəniyyətə olan bağlılığını gücləndirmək, vətənə məxsus dəyərləri qorumaq və müdafiə etmək, vətəndaş kimi fəal iştirak etmələrini təmin etmək məqsədilə təşkil edilir. Bu məqsədlə bir sıra təşkilatlar, təhsil institutları və sosial qurumların dəstəyi ilə gənclərin vətənpərvərlik tərbiyəsi üzrə iş aparılır. Bu qurumlar öz işlərinə milli mədəniyyətin, tarixi və mədəni irsin, milli-mənəvi dəyərlərin və ənənələrin öyrənilməsi ilə başlayırlar. Bu, gənclərin öz milli mənəviyyatlarına daha dəyər verərək və milli kimliyini qoruyaraq milli birliyin inkişafını təmin edir. Bu işlər, həmçinin, gənclərə milli vətənpərvərlik təlimi, milli maraqlar və dəyərlər ətrafında fəal iştirak etmək, milli təhlükəsizliyin təminatı, milli vətəndaşlar kimi fəaliyyət göstərmək kimi məsuliyyətlər haqqında məlumat vermək üçün təşkil olunur.

Bu istiqamətdə aparılan tərbiyə işləri, gənclərin milli vətənpərvərlik hisslərini inkişaf etdirir, onları milli məsələlərə maraq və ehtiyatlılıqla yanaşmağa, milli dəyərlərə hörmət və məsuliyyətli davranmağa təşviq edir. Bu, onların vətənə və milli birliyə qarşı məsuliyyət hisslərini artırır, milli birliyi və vətəndaş həmrəyliyini artırmaq üçün fəal iştirak etmələrini təmin edir.

Ölkəmizi dünyada təmsil edən gənclər, milli mədəniyyətin və dəyərlərin fərqliliyini və zənginliyini dünya səviyyəsində nümayiş etdirən, inkişaf etmiş və məsuliyyətli şəxslərdir. Bu gənclər, müxtəlif sahələrdə, mədəniyyət, elmi, idman, sənaye, inkişaf və digər sahələrdə ölkələrimizin potensialını və yüksək səviyyəsini göstərən təmsilçilərdir.

Ölkəmizi dünyada təmsil edən gənclər, beynəlxalq tədbirlərdə, yarışmalarda, konfranslarda və layihələrdə iştirak edir, öz sahələrində yüksək nailiyyətlər qazanır və ölkəmizin adını yüksək səviyyədə təbliğ edir. Onlar, inkişaf etmiş təhsil sistemindən, texnologiyalardan və inkişaf etmiş iş imkanlarından istifadə edərək öz potensiallarını maksimum səviyyədə nümayiş etdirir və ölkəmizin beynəlxalq sahədə tanınmasına, ölkəmizin mədəni, elmi və sənayesi haqqında dünya ictimaiyyətinə doğru məlumat verilməsinə kömək edirlər.

Vətəndaşlıq tərbiyəsi, insanların mədəni və əxlaqi olaraq inkişaf etməsinə kömək edir və bu, əxlaq tərbiyəsinin əsas bir hissəsini təşkil edir. İnsanların vətəndaşlıq məsuliyyətləri, sosial hüquqları və öhdəlikləri barədə məlumatlanması, qanunlara hörmət və sosial müdafiəni təşkil etmə, milli-mənəvi dəyərlər və mənəviyyat kimi məsələlər vətəndaşlıq tərbiyəsinin əsasını təşkil edir.

Xalqımızın vətəndaşlıq tərbiyəsinin inkişafı üçün bir çox ictimai, dövlət və təhsil qurumları tərəfindən müxtəlif işlər görülür:

Təhsil müəssisələri və proqramlar: Məktəblər və universitetlər, vətəndaşlıq tərbiyəsi ilə əlaqədar müzakirələr, seminarlar və dərslər təşkil edir. Vətəndaşlıq tərbiyəsi proqramları,

mədəni və sosial dəyərləri, qanunları, vətəndaşların hüquqlarını və öhdəliklərini öyrədir və demokratik qərarlaşdırma proseslərini təqdim edir.

Sosial təşkilatlar və qurumlar: İctimai təşkilatlar və sivil cəmiyyət quruluşları, vətəndaşların iştirak etməsinə və məsuliyyətli vətəndaşlar olaraq hərəkət etməsinə kömək edir. Bu təşkilatlar sosial məsələlərlə bağlı fəaliyyətlər, təlimlər və məlumatlandırma kampaniyaları təşkil edir.

Dövlət təşkilatları və proqramlar: Dövlət vətəndaşlıq tərbiyəsi ilə əlaqədar proqramlar təşkil edir və milli mədəni dəyərləri və qanunları təbliğ edir. Bu, mədəni və sosial dəyərləri qorumaq, insanların hüquqlarını qorumaq və öhdəliklərini yerinə yetirməyə dəstək olur.

Mediya və informasiya platformaları: Mediya vasitəsi ilə insanlara vətəndaşlıq məsələləri, sosial və mədəni dəyərlər barədə məlumatlar təqdim olunur. Bu, vətəndaşların informasiya sahibi olmalarına, məsuliyyətli vətəndaşlar olmalarına və cəmiyyətə faydalı olmalarına kömək edir.

Tarixi və mədəni tədqiqatlar: Xalqımızın tarixi və mədəni mirasının öyrənilməsi, insanlara milli dəyərləri, vətəndaşlıq məsuliyyətlərini və milli kimliyini anlamaqda kömək edir.

Bu və digər fəaliyyətlər, gənclərin vətəndaşlıq tərbiyəsinin inkişafına yardım edir, onların sosial və mədəni cəhətdən inkişaf etmiş, məsuliyyətli vətəndaşlar kimi formalaşmasına kömək edir.

## TƏHSİL SAHƏSİNDƏ MÖVCUD OLAN MÜASİR PROBLEMLƏR

**Şikar Hüseynov**
**dosent**
**Nurəli Abdullazadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**shikar_huseynli@mail.ru**
**abdullazadenureli9@gmail.com**

**Açar sözlər:** elmi-texniki yenilik, müasir problemlər, inkişaf tendensiyaları

Təhsil insanın inkşafı baxımından,onun imkanlarının genişləndirməsi üçün əhəmiyyətli dərəcədə təsir gücünə malikdir.Təhsil bir çox təsərrüfat sahələrinin idarə olunmasında,uşaqların tərbiyə olunmasında,həyat sağlamlığının və inkşaf tendensiyasının artırılmasında yeni biliklər və texnologiyalardan istifadə etməklə əlverişli şərait üçün zəmin yaradır. Təhsil inkişafı təmin edən ən vacib vasitədir. Təhsil sistemində həyata keçirilən zəruri tədbirlər, atılan uğurlu addımlar müasir təhsil keyfiyyətinin yüksəldilməsi üçün səbəb olmuşdur. Təbii haldır ki, istənilən sahədə fəaliyyət planı hazırlanarkən və ya reallaşdırılması nəzərdə tutularkən, bir çox problemlərlə rastlaşa bilərik. Müasir təhsil sistemi yeni formalaşan və ya formalaşmaqda olan cəmiyyətin əsas təməli və ayrılmaz bir hissəsidir. Çünki təhsil cəmiyyətin istənilən mexanizminə təsir etmək gücünü özündə ehtiva edir. Tarixi proseslərdən aydın olur ki, sınaqdan çıxmış təcrübələr vasitəsilə formlaşan elm və təhsil cəmiyyətin inkişaf mərhələsində özünəməxsus təsir gücünə mailk olmaqla sivil cəmiyyətin formalaşmasının əsasını təşkil edir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli ilk növbədə təhsilin tərəqqisindən keçir. Bugünki təhsil sistemində

inkişafla bərabər, həlli mümkün olan bir neçə problemlərə mövcudluğuna rast gəkmək mümkündür. Təkzibolunmaz haldır ki, müasir təhsil gündən-günə irəliyə doğru istiqamətləndikcə innovativləşmə tələb edən bu sahədə problemlərin olması gözləniləndir. Qlobal dünyada elmi-texniki tərəqqinin olması ilə əlaqədar olaraq müasir təhsil sisteminin bu inkişafla ayaqlaşmağı labüddürBuna görə də mövcud olan problemlərin həll edilməsi üçün qarşıya qoyulmuş vəzifələrə əməl olunmalı, cəmiyyətlə dövlətin birgə səyi ilə bu istiqamətdə tədbirlərin icrasını yubatmamalıdır. Aparılan müşahidələr və müzakirələrə əsasən Azərbaycanın təhsil sektorunda inkişafla yanaşı, bəzi problemlərin olması və ya olma ehtimalı gözardı etmək olmaz. Təhsil sahəsində daim təkmilləşdirilmələr aparılmalıdır.

Təhsildə bəzi problemlərin olması səbəbini qısa şəkildə aşağıdakı kimi təsvir etmək olar:

1. Müəllim və təhsilalanlar arasında qarşılıqlı təsir və əlaqələr: Müəllimlər və təhsilalanlar arasında səmimi və dərin əlaqələrin inkişaf etməməsi, bu da öyrənmə prosesində motivasiya və fokusun itkisi ilə nəticələnə bilər. Müəllimlərin şagirdləri anlamaq, onların ehtiyaclarına cavab vermək və müəyyən təlim metodları və dərslər üçün uyğun strategiyalar təyin etmədə çətinlik çəkmələri dərslərin təşili qaydasında bir çox problemlərlə üzləşə bilər.

2. Müxtəlif təhsilalanlar tələbləri və təhsillə bağlı maraqları, sosial və mənəvi arzuları ilə bağlı fərqliliklər: Müəllimlər və müəssisələr bu fərqlilikləri nəzərə almadıqda, onların öyrənmə prosesində məhsuliyyətlə yanaşmasında bir neçə problemlər yaranır.

3.Texnologiya istifadəsinin təhlükəsizliyi və təhsilə daxil edilməsi: Texnologiya istifadəsi, ənənəvi təlim metodu ilə müqayisədə daha çətinliklərə səbəb olabilir. Müəssisələrin və müəllimlərin texnologiyadan düzgün şəkildə istifadə etməyə dair təlim və təminatın olmaması.

4. Dərs materiallarının uyğunsuzluğu: Təhsilalanlar öyrənmə prosesini dəstəkləyən müxtəlif dərs materiallarının müəyyən tələblərə uyğun olmaması, onların maraqlarını oyandırmaması.

5. Qiymətləndirmə və refleksiya məsələləri: Qiymətləndirmə və refleksiya prosesində müşahidə olunan problemlər, təhsilalanların öyrənmə prosesində effektivlik və ədalətli qiymətləndirilmə məsələlərini əhatə edir. Bəzən qarşılıqlı qiymətləndirmə prosesində ədalətli və obyektiv olmaq mümkün olmur. Müəllimlər tərəfindən tətbiq edilən qiymətləndirmə metodlarının sistemsiz olması və düzgün meyarların tətbiq olunmaması səbəbindən sinifdə təhsilalanların etirazları ilə qarşılaşmasına səbəb olur. Təhsilalanlar ətraflı və faydalı geribildiriş almadıqlarını hiss edirlər və bu da öz təcrübələrini inkişaf etdirməkdə çətinliklər yaşamalarına səbəb olur.

6. Mental sağlamlıq və stressin qarşısının alınmaması məsələsi : Təhsilalanların streslə mübarizə və mental sağlamlıqlarını qorumaq üçün lazım olan vasitələrin təmin olunmaması, müəllimlərin-valideynlərin birgə lazımi psixoloji dəstək göstərməməsi səbəbindən şagirdlərin istər tədris mühitində istərsə də həyatboyu bəzi geriliklərə səbəb ola bilər.

Bu məsələlərin həll edilməsi üçün təlim müəssisələri və müəllimlər tərəfindən müxtəlif yollar və strategiyalar istifadə edilməlidir. Pedaqoji idarəetmənin əsas məqsədi bu kimi və ya bundan fərqli ola biləcək problemlərin vaxtında və daha demokratik prinsiplər əsasında qarşısını almaqdır. Bu zaman pedaqoji kollektivin üzərinə böyük məsuliyyət düşür. Pedaqoji idarəetmə təhsil müəsisələrinin optimallaşdırılmış mexanizmlərin yaradılmasına və həmin mexanizmlər vasitəsilə keyifiyyət göstəricilərinin yüksəldilməsinə xidmət edir. Pedaqoji idarə etmə təhsilalanların nailiyyət səviyyəsinə bilavasitə təsir edir.

Bütün bu sadalanan problemlərin hər biri üçün uzunmüddətli və məqsədyönlü şəkildə planlaşdırılmış produktiv üsullardan istifadə olunması labüddür. Ümumtəhsil məktəblərinin idarə olunmasının təkmilləşdirilməsinin aktual problemləri arasında ən vacibi təlim-tərbiyə

prosesinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə məktəbdaxili informasiya sisteminin rasional təşkili problemidir. Təlim-tərbiyə prosesinin idarə olunmasının təkmilləşdirilməsi məzmunun,informasiyanın xüsusiyyətləri və rolu təqdim edilmədən onun məktəb işinin idarə olunmasının elmi təhlili üçün lazımi həcm müəyyən edilmədən mənasızdır.

## SON ORTA ƏSRLƏR AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ

**Vəfa Mahmudova**
**dosent**
**Əşrəf Nəcəfov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vafa-mahmudova@mail.ru**
**nacafov-asraf@mail.ru**

**Açar sözlər:** təlim texnologiyaları, dərs prosesi, elektron vasitələr

Müasir dövrdə dünyada baş verən dəyişikliklər, elm və texnologiyanın sürətli inkişafı, məktəb təhsilinin də modernləşdirilməsini tələb edir. Mövcud tələblərə görə artıq şagirdlərə münasibət dəyişilmişdir. Şagirdlərə biliyi şüurlu şəkildə əldə etmək; qazandığı biliyi tətbiq etmək bacarığı; əxlaqi dəyər; iradi keyfiyyət; özünütanıma; özünütəhsil; özünütəkmilləşdirmə; özünənəzarət kimi yeni tələblər irəli sürülmüşdür. Hazırda ölkəmizdə bu tələblərin həyata keçirilməsinə imkan yaradan ən aktual istiqamət təhsilə kompetensiyalı yanaşmadır. Pedaqoji prosesdə təlimin elektron vasitələrinin tətbiqi hal – hazırki dövrdə təhsil və təlim sisteminin inkişafında aparıcı amillərdən biridir. Bu nöqteyi-nəzərdən mütərəqqi təlim-texnoloji komplekslərdən, özəlliklə informasiya kommunikasiya texnologiyalarının verəcəyi imkanlardan təlim zamanı istifadə olunması tədris prosesinin keyfiyyətinin yüksəldilməsində vacib amildir.

Müasir təlim texnologiyalarının aktuallığını həm də onunla əsaslandırmaq olar ki, müasir dövr informasiya əsridir, bu səbəblə də hər an dünyada yeniliklər, dəyişikliklərlə müşahidə olunur, informasiya axını baş verir və bu yeniliklərə, dəyişikliklərə adekvat reaksiya bildirən şagirdlər müasir təlimin başlıca tələbidir. Təlimin yeni texnologiyaları hal-hazırki dövrdə bu günün vətəndaşını deyil, gələcəyin insanını formalaşdırmaqdadır.

İnformasiya şəbəkələrinin genişləndirilməsi, digər millətlər və dünya ölkələri ilə sağlam təhsil rəqabətinin aparılması, təlimin yeni texnologiyalarının tədrisdə uğurla həyata keçirilməsi dövlət siyasətinin prioritet məsələlərinə çevrilmişdir. Təhsilin informasiyalaşdırlması problemi həm ümummillilider Heydər Əliyevin, həm də Respublika Prezidenti İlham Əliyevin daim xüsusi diqqət mərkəzində olmuşdur.

İnkişaf etmiş dövlətlərin təhsil sisteminə nəzər yetirsək onun öyrədən – dərslik – öyrənən bazasında təşkil olunduğunu görərik. Əlbəttə müasir innovativ texnologiyalardan istifadəyə əsaslanan müəllim tədris prosesində ənənəvi qaydada tətbiq olunan təlim üsulları və metodlarından istifadə etməməli, biliklərin qazanılmasında istiqamətverici mövqe sərgiləməlidir. Bu nöqteyi-nəzərdən də həyata keçirilən tədqiqat işləri müasir təcrübənin öyrənilməsinə, qənaətə gəlinmiş müəyyən fikir və mülahizələr birinci növbədə təlimin

keyfiyyətinin artırılmasına, müasir dərsə verilmiş tələblərin təcrübədə tətbiqinə istiqamətlənmişdir. Dərs prosesinin müasirləşməsi isə yeni təlim texnologiyalarının orada istifadəsindən əhəmiyyətli dərəcədə asılıdır.

Müasir təlim konsepsiyasını köhnə üsullarla təşkil etmək çətinliklər yaradır. Bu səbəbdən də müasir tarix dərsi yeni pedaqoji texnologiyaların istifadəsini tələb edir. Ənənəvi təlimə görə dərs ancaq təhsilin məqsədinə xidmət göstərməlidir. Amma XXI əsrdə texniki vasitələrin yüksəlişi zəminində, təlimin müasir texnologiyalarının pedaqoji sahəyə nüfuz etməsi səbəbilə dərsin həm inkişaf, həm təhsil, həm də tərbiyəvi məqsədləri formalaşdı. Beləliklə onlar müasir təlimin atributları olaraq qəbul olundu.

Müasir təlim texnologiyalarının tətbiqi şagirdlərdə öyrənilən mövzunun daha da möhkəmləndirilməsinə səbəb olur, tarixi prosesləri daha inandırıcı, əyani və konkret edir. Ümumtəhsil məktəblərində şagirdlərdə yeni təlim texnologiyalarından istifadə bacarıqlarının inkişaf etdirilməsinin aşağıldakıların həyata keçirilməsinə səbəb olur:

1) şagirdlərdə yeni təlim texnologiyaların tətbiqi dərs prosesinə maraq oyadır;

2) təlimin müasir texnologiyalarının tətbiqinin mahiyyətinin düzgün şəkildə öyrədilməsini təmin edir;

3) interaktiv metodlardan istifadə dərsin mənimsədilməsini və daha yaxşı yadda qalmasını təmin edir.

## ATROPATENA MƏDƏNİYYƏTİNİN TƏDRİSİNDƏ ƏYANİLİK PRİNSİPİ

**Vəfa Mahmudova**
**dosent**
**Nazənin Şəmmədli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vafa-mahmudova@mail.ru**
**nate.shammadli@gmail.com**

**Açar sözlər:** Azərbaycan, Atropatena, mədəniyyət, Qazaka

Azərbaycan tarixinin ən qədim tarixə malik dövlətlərindən biri Atropatena olmuşdur. Atropatena əlverişli təbii coğrafi mövqeyə və iqlim şəraitinə əsaslanan zəngin təsərrüfata malik olmuşdur. Atropatenanın təsərrüfat həyatı və mədəniyyətinin tədrisi prosesində müxtəlif əyani vəsaitlərdən istifadə olunur: şəkil və plakatlar, sxematik materiallar , simvolik əyani vəsaitlər.

Atropatena qədimdən yüksək inkişaf etmiş sənətkarlıq ölkəsi kimi məşhur olub, müxtəlif sənət sahələrinin inkişafı üçün çox zəngin faydalı qazıntılara malik idi. Burada dəmir, mis, qurğuşun, gümüş, qızıl və s. çıxarılırdı. Atropatena ərazilərində arxeoloji qazıntılar zamanı tapılmış bəzək əşyalan ölkə zərgərlərinin yüksək ustalığından xəbər verir.Atropatena sənətkarları yüksək keyfiyyətli metal və gil qablar, müxtəlif silah növləri, toxuculuq məmulatı, bəzək şeyləri, təsərrüfat və məişət əşyalan istehsal edirdilər.Dərslikdəki şəkillərdən istifadə edərək arxeoloji qazıntılar zamanı tapılmış bəzək əşyaları göstərilə bilər. Həmçinin elektron vasitənin köməyi ilə Ərdəbil yaxınlığında tapılmış boyalı, naxışlı və şirli qablar və Atropatenada sənətkarların istehsal etdikləri yüksək keyfiyyətli metal və gil qablar,

müxtəlif silah növləri, toxuculuq məmulatı, bəzək şeyləri, təsərrüfat və məişət əşyaları nümayiş edilə bilər.

Ellin dövlətlərini birləşdirən mühüm ticarət yollan da Atropatena ərazisindən keçirdi.Ticarətdə puldan geniş istifadə edilirdi.Atropatena pullarının təsviri əks olunmuş şəkillər vasitəsiylə şagirdlərə məlumat verilir ki,Atropatena ərazisində tapılmış ən qədim pullar Makedoniyalı İsgəndərin adından kəsilmişdir, tədavüldə Parfıya pulları da işlədilirdi,yerli hökmdarların adına kəsilmiş pullara isə rast gəlinməmişdir.

Şəkillərlə yanaşı xəritələrdən də tarixin tədrisində geniş istifadə olunur.Çünki tarix dərslərində zaman anlayışı qədər məkan anlayışı da önəmlidir.Məkan anlayışlarının öyrənilməsində xəritələr əsas yer tututr. Xəritə bir sıra tarixi prosesləri izləməyə imkan verir. Tarix dərslərində xəritə ilə işləmək üçün hazırda bütün imkanlar vardır.Xəritədən istifadə edərək qeyd oluna bilər ki, mənbələrdə Qazaka, Fraaspa, Fanaspa, Aqanzana kimi Atropatena şəhərlərinin adları verilir ki, xəritədə onların yerləşdiyi ərazi göstərilə bilər.

Atropatenanın mənəvi mədəniyyəti haqqında mənbələrdə az da olsa tədqiqatçılar bu məsələni araşdırmağa cəhd etmişlər. Abdulla Fazili göstərir ki, Atropatena mədəniyyətinin işıqlandırılması iki yolla araşdırıla bilər: Atropatena ərazisində aparılmış arxeoloji qazıntıların nəticələrini, antik dövr və orta əsr mənbələrində mövcud olan məlumatların müqayisəli şəkildə tədqiqi.

Ə.Sərfəraz qeyd edir ki, Atropatena ərazisində yerləşən Təxt-e Süleymanda alman və İran arxeoloqları tərəfindən 8 il müddətinə qazıntı işləri aparılmışdır. Həmin qazıntılarda əldə edilmiş bir sıra möhtəşəm memarlıq abidələrinin qalıqları, eləcə də, digər maddi mədəniyyət nümunələri Atropatena mədəniyyəti tarixinin öyrənilməsinə imkan yaradır.

İKT vasitələrindən də müasir təlimdə çox istifadə edilir.Təlimdə İKT vasitələri vizual olaraq şagirdlərin məlumatları almasını təmin etdiyi üçün olduqca vacibdir.Müasir dünyamızı və təhsilimizi İKT vasitələri olmadan düşünmıək mümkün deyil.Lakin burada da əsas məsələ məktəblərdə internet şəbəkəsi olmaması,İKT avadanlıqları ilə təminatın zəif olmasıdır.Bu kimi məsələlər həll edilərsə təlim daha səmərəli bir hal alar.

Kompüterin təhsilə verdiyi imkanlar əvəzolunmazdır. Bütün fənlərin tədrisinin uğurlu alınmasında kompüter, proyektor, elektron lövhəylə təchiz olunmuş sinif otağında müəllimin qabaqcadan hazırladığı fəal dərs mərhələlərinin elektron versiyasının açıq dərsdə ənənəvi informasiya daşıyıcıları olan kitab, jurnal, qəzet vasitələrinin internet üzərindən pulsuz elektron versiyalarını əldə edə bilmək imkanın yaranması, bir yerdən başqa yerə daşıma əziyyəti çəkmədən müxtəlif web proqram vasitələrindən istifadə edərək, istədiyimiz yerdə, istənilən anda rahatlıqla istifadə edib, yararlana bilməmiz kimi müsbət xüsusiyyətlər İKT-nın bizə bəxş etdiyi ən yaxşı imkanlardandır.

Qədim Atropatena mədəniyyətinin tədrisində əyani vəsaitlərdən istifadə tədrisi xeyli canlandırır və maraqlı edir.

# HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINA RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

**Vəfa Mahmudova**
**dosent**
**Zahid Əliyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vafa-mahmudova@mail.ru**
**zahideliyev@977gmail.com**

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, Türkiyə, əməkdaşlıq

Azərbaycan Türkiyə üçün Qafqazda olduğu kimi, həm də Orta Asiya və Xəzər bölgəsində digər dövlətlərlə, xüsusən türkdilli dövlətlərlə əlaqə üçün mühüm vasitə rolunu oynayır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artırması deməkdir. Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi qəbul edilməkdədir.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə mühüm işlər gördü. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: "1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi Ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin çox fərqli olduğunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər dövründə Türkiyə Prezidenti, Baş nazir və parlamentin rəhbəri ilə görüşən Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında məlumat verib. Səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşlıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı.5-8 may 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri zamanı həyata keçirilən görüşlər, danışıqlar nəticəsində imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin yeni bir mərhələyə daxil olmasının təzahürü idi.

12-17 mart 2001-ci ildə isə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə növbəti dəfə rəsmi səfər edib. Səfər zamanı imzalanan vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq

siyasətinin davam etdirilməsinə şərait yaradılması baxımından əhəmiyyət kəsb edir.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə Türkiyənin “Dövlət nişanı”, 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən “İlin adamı” seçilməsi, bu ölkənin bir çox universitetinin fəxri doktoru seçilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin göstəricisidir. 1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin müqaviləsi”ndə “Türk petrolları” şirkətinin xarici neft şirkətləri konsorsiumunda təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi.Ümumiyyətlə, Azərbaycanın neft-qaz sektoru ilə bağlı 5 müqavilədə Türkiyənin payı var: Bakı-Tbilisi-Ceyhan layihəsində - 6,53 faiz; “Azəri”-“Çıraq”-“Günəşli” layihəsində - 6,75 faiz; “Şahdəniz” layihəsində - 9 faiz; “Kürdaşı” layihəsində - 5 faiz; “Araz”-“Alov”-“Şərq” layihəsində - 10 faiz. 1999-cu ildə nəhəng Şahdəniz qaz-kondensat yatağı aşkar edilməsi ilə Azərbaycanla Türkiyə arasında qaz sahəsində əməkdaşlığın qurulması üçün zəmin yaradıldı. 2001-ci il martın 12-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair saziş imzalandı.

Bu tarixi hadisələrin tədrisi məktəb kursunun 9-11-ci siniflərində aparılır. İnteraktiv təlim metodlarından istifadə edərək Azərbaycan-Türkiyə qardaşlığını şagirdlərə dərindən aşılamaq mümkündür. Bu mövzunun tədərisində dərs 6 mərhlədə aparlır. Şagirdlərə bir millət, iki dövlət anlayışı izah olunur. Motivasiya mərhələsində dərslikdə öz əksini tapmış və I blokda verilmiş hissədən istifadə edərək motivasiya yartmaq olar. Yaxud da lövhədə “strategiya” sözünü yazıb şagirdlərdən bu sözün mənasının nə olduğunu soruşmaq olar. Sonra Azərbaycan Respublikasının strateji mövqeyi haqqında suallar verilməsi məqsədəuyğun olardı. Cavablar alındıqdan sonra ölkənin əsas strategiyasının nə olduğunu müəyyənləşdirilir. Şagirdlərdən xarici siyasətlə bağlı fərziyyələr aldıqdan sonra debatı təşkil olunur. Bildiyiniz kimi, debat üçün müzakirə ediləcək problem öncədən elan edilir. Tədqiqat sualı: Azərbaycan Respublikasının xarici siyasəti istiqamətində hansı işlər aparılır? I qrup – Türkiyə və Azərbaycanla bağlı “Bir millət, iki dövlət” ifadəsini əsaslandırın. II qrup – Türkiyə ilə strateji münasibətlərin qurulmasının əhəmiyyətini müəyyən edin. III qrupa – Neft strategiyasının Azərbaycanın dünya dövlətləri ilə siyasi və mədəni əlaqələrinin inkişafına təsirini izah edin. Məlumatın mübadiləsi mərhələsində müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Məlumatın müzakirəsi mərhələsində cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir və meyarlar əsasında qruplar qiymətləndirilir. Şagirdlərin bu mövzu üzrə bilikləri dərindən mənimsəməsi onlarda vətənpərvərlik hisslərini gücləndirəcəkdir.

Nəticə olaraq neft strategiyasına əsasən Azərbaycan və Türkiyə tərəfindən iqtisadi və siyasi münasibətlərinin inkişafı interaktiv üsuldan istifadə edərək şagirdlərə tədris olunur. Heyder Əliyevin siyasi kursunu uğurla davam edən cənab prezident İlham Əliyevin fəaliyyəti nəticəsində 2016-cı ildə TAP 2019-cu ildə TANAP-ın əsası qoyulduğu və bu gün də iqtisadiyatimizin əsasını təşkil edən birgə lahiyələr, Azərbaycanın müasir dövr tarixi tədris edərlərkən bu mövzu ilə sıx əlaqələndirilir.

# AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ULU ÖNDƏRİN ROLU

**Vidadi Bəşirov**
**dosent**
**Cavahir Maçanova**
**doktorant**
**Azərbaycan Dövlət Pedoqoji Universitetinin Şamaxı filialı**
**Azərbaycan Dillər Universiteti**
**Vıdadı.besirov@mail.ru**
**cava_machanova@yahoo.com**

**Açar sözlər:** prinsip, rəhbər, təşəbbüs, strategiya, təhsil, respublika

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”, - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Ötən əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil edir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratdı. Hələ 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7, təhsilalanların sayı isə 2,5 dəfə artdı. Onun təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başladı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Respublika rəhbərinin təşəbbüsü və himayəsi sayəsində 1970-ci ildən başlayaraq hər il gənclər SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. 1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradıldı. Bu isə respublikanın milli kadr potensialının daha da gücləndirilməsində mühüm rol oynadı.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illərdə də Azərbaycan gənclərinin respublikanın hüdudlarından kənarda təhsil almasına şərait yaradırdı. Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edirdi. Onları “Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti” kimi yüksək qiymətləndirirdi.

Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər.

Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, azərbaycanlı gənclərin respublika hüdudlarından kənardakı ali məktəblərə təhsil almağa göndərilməsi, hərbi kadrların yetişdirilməsi, Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradırdı

"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir", - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu.

Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram",-deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalırdı.

Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalayıb. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin əyani təzahürüdür.

# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BOLONYA PROSESİNƏ KEÇİDİ

**Vidadi Orucov**
**professor**
**Firuzə Məcidova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vidadi_orucov@mail.ru**
**firuzmcidova31@gmail.com**

**Açar sözlər:** bolonya prosesi, kredit sistemi, mobillilik

Ümumilli Lider Heydər Əliyevin təhsilin inkişafında böyük xidmətləri olmuşdur. O, hər zaman vurğulayırdı: "...təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz!".

Cəmiyyətin inkişafı, intellektual potensialının formalaşması və iş fəaliyyətinin bütün sahələrində ali təhsilin böyük rolu vardır. Qloballaşma prosesinin gücləndiyi müasir dövrdə də ali təhsilin rolu artmış və ona verilən tələblər dəyişmişdir.

19 iyun 1999-cu il Bolonya deklorasiyanın imzalanması ilə Bolonya prosesinin tətbiqinə başlanılmışdır. Bu prosesin tətbiqində əsas məqsəd vahid Avropa dövlətlərinin ümumtəhsil məkanının yaradılması idi. Həmçinin çoxpilləli təhsil sisteminə keçid mühüm əhəmiyyət kəsb edirdi. Hazırki dövrdə 50 Avropa ölkəsi bu prosesə qoşulmuşdur.

Bolonya prosesində ali təhsilin üç pilləsi həyata keçirilir:

1.Bakalavriat

2.Magistratura

3.Doktorantura

"Azərbaycan Respublikası Bolonya prosesinə qoşulmaq üçün 2004-cü ildə ilk cəhdlərini etmişdir. Təhsil Nazirliyi tərəfindən Bolonya prosesinə qoşulmaq məqsədi ilə hesabat hazırlanmış, Norveç təhsil naziri və Avropa Komissiyası sədrinə verilmişdir". "19 may 2005-ci il tarixində Norveçin Berqen şəhərində keçirilmiş konfransda Azərbaycan Bolonya prosesinə rəsmi şəkildə qoşulmuş, həmçinin bu prosesin həqiqi üzvü seçilmişdir". Bundan başqa Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə elmi-metodiki konfranslar keçirilmiş, prosesin düzgün tətbiqi ilə bağlı olaraq tədbirlər üçün xüsusi işçi qrupu yaradılmışdır. Bolonya prosesinin ölkə təhsil sistemimizə uyğunlaşdırılmasında mühüm işlər yerinə yetirilmişdir ki, "kredit sisteminin (Avropa Kredit Transfer Sisteminin) tətbiqi, təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsi, mobilliyin genişləndirilməsi, ixtisasların və diplomların qarşılıqlı tanınması, diploma əlavələrin Avropa ölkələrinin ali təhsil haqqında müvafiq sənədlərinə uyğunlaşdırılması, məzunların işlə təminatına nail olunması, ali təhsil sisteminin cəlbediciliyinin təmin edilməsinin gerçəkləşdirilməsinə başlanılmışdır".

Bolonya prosesinin əsas tələblərindən biri ali təhsildə kredit sisteminin tətbiqi və çoxpilləli təhsil sisteminin yaradılmasıdır. Kredit dedikdə fənnin tədrisinə və mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi nəzərdə tutulur. Kreditin iki əsas funksiyası vardır:

1. Tələbələrin mobilliyinin təmin edilməsi, yəni digər ali təhsil müəssisəsində ayrı-ayrı fənlərin mənimsənilməsinə şəraitin yaradılması və onun nəticəsinin təhsil aldığı ali məktəbdə tanınması.

2. Tələbənin öz təhsilalma trayektoriyasını müstəqil müəyyənləşdirməsi.

Kredit sistemi ali təhsildə demokratik prinsiplərin bərqərar olmasını, ədalətliliyi və obyektivliyi, şəffaflığı və nəticə etibarı ilə təhsilin keyfiyyətinin yüksəldilməsini təmin etdiyindən Bolonya prosesində bu prinsipin xüsusi yeri vardır. Kredit sistemi hər bir tələbənin özünün fərdi tədris planının olmasını, ona fənlərin öyrənilməsi ardıcıllığını müəyyənləşdirməyə imkan yaradılmasını, tələbəyə müəllimi seçmək hüququnun verilməsini, müəllimlərin dərs yükünün tələbələrin fərdi tədris planları əsasında müəyyənləşdirilməsini və s. kimi tələbləri nəzərdə tutur.

Bolonya prosesinə keçid ölkə ali təhsil müəssisələrimizdə tədricən başlamışdır.

Bolonya prosesinə ilk keçid edən universitetimiz Xəzər Universiteti olmuşdur. Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı ölkəmizdə bolonya sisteminin təbliği ilə bağlı mühüm işlər görmüşdür. Belə ki, Azərbaycan qəzetinin 2014-cü il 4 saylı buraxılışında: Hamlet İsaxanlı demişdir: "Respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrinin dekanları üçün seminalar təşkil etmiş, proseslə bağlı geniş məlumatlar vermişdir". Həmçinin Hamlet İsaxanlı bolonya prosesi ilə bağlı məqalələr yazmış prosesin mahiyyətini daha dərin açmağa çalışmışdır.

Bu proses hələ də davam edir.

Belə düşünürəm ki, Bolonya prosesi ölkəmizdə kredit sisteminin tətbiqindən, tədris keyfiyyətinin yüksəldilməsindən başqa, Respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələri ilə Avropa ali təhsil müəsisələri arasında beynəlxalq əlaqələrin təmin olunmasında böyük körpü rolunu oynayır. Həmçinin rəqabət qabiliyyətli kadrların hazırlığı təmin edilir.

## ŞAGİRD PERSPEKTİVLƏRİNİN MONİTORİNQİNİN PEDAQOJİ PROSESDƏ ƏHƏMİYYƏTİ

**Vidadi Orucov**
**professor**
**Günay Rzayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Vidadi_orucov@mail.ru**
**gunayrzayeva81@mail.ru**

**Açar sözlər:** təlim prosesi, şagird perspektivləri, kurikulum, inteqrasiya, monitorinq

Təqdim etdiyim işin məqsədi ümumtəhsil məktəblərində şagird perspektivlərinin monitorinqinin əhəmiyyətini aşkara çıxarmaq, onların gələcək imkanlarının üzə çıxarılmasının vasitə və yollarını göstərməkdir.

Elmi-texniki tərəqqi əsri kimi xarakterizə olunan XX əsrin sonlarında müxtəlif tipli təhsil ocaqlarında şagirdlərin gələcək imkanlarının, təfəkkür fəaliyyətinin hər vasitə ilə genişlənməsinə böyük əhəmiyyət verilmişdir. Təlim prosesində şagirdlərin idrak fəaliyyətini inkişaf etdirmək, onları müstəqil yaradıcılıq fəaliyyəti göstərməyə hazırlamaq, tədqiqatçılıq bacarıqları aşılamaq fənnlərin tədrisi qarşısında duran əsas problemlərdən biridir. Dərs prosesində biliklərin formalaşdırılması zamanı şagirdlərin təfəkkürünün müstəqilliyinə nail olmaq, onları informasiya bolluğu ilə zənginləşdirmək olar. Məktəb-təhsil sistemi yarandığı vaxtdan görkəmli filosoflar, pedaqoqlar təhsilin ilkin mərhələsindən şagirdlərin müstəqil

fəaliyyət göstərmələrinə, tədqiqatçılıq qabiliyyətlərinin inkişafına xüsusi fikir verməyi diqqət mərkəzinə gətirmişlər. Antik dövrün dahi yunan filosofları Sokrat, Platon, Aristotel yetirmələrinin idraki inkişafını və bunun əsasını təşkil edən müstəqil düşünmə, sualqoyma, təhliletmə, müqayisə aparma, nəticə çıxarma qabiliyyətlərinin inkişafını vacib hesab etmişlər. Şagirdlərin müvəffəqiyyətlərinin qiymətləndirilməsi də təlim prosesinin səmərəliliyinin artırılmasında mühüm amillərdən biridir. Təhsildə islahatlar, yeniləşmə və dünya təhsil sisteminə inteqrasiya təhsil sistemində qiymətləndirməyə yeni yanaşmanı tələb edir. Ulu öndərHeydər Əliyev çıxışlarında dəfələrlə göstərmişdir ki, təhsil hər bir millətin, dövlətin gələcəyidir. Ona görə də dövlətimiz təhsilimizi inkişaf etdirməyə, inkişaf etmiş ölkələrdəki təhsil səviyyəsinə çatdırmağı prioritet sahə elan etdi. 15 iyun 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı yeni bir dövrün, inkişaf və tərəqqinin əsasını qoydu. Respublikamızda təhsil siyasəti öz ifadəsini 12 noyabr 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış “Azərbaycan Respublikasının Konstitusiyası”nın 42-ci maddəsində tapdı. 15 iyun 1999-cu ildə “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” qəbulolundu. Təsdiq olunmuş “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”nda başlıca istiqamətlərdən biri tədris proqramlarının, təhsilin məzmunu və metodikasının yeniləşdirilməsi nəzərdə tutulmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə yazılmış “Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı” təhsil siyasətində əsas istiqamətləri müəyyən edən rəsmi sənəd kimi qəbul edildi. Bu sənəddə göstərilən təhsillə bağlı prinsiplər elə təhsil siyasətinin mahiyyətini özündə əks etdirir: təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, diferensiallaşdırılması, fərdiləşdirilməsi, humanitarlaşdırılması, inteqrasyası və s.bu prinsiplərdəndir. Azərbaycan Respublikasının Nazirlər kabinetinin 30.10.2006-cı il 233 saylı qərarı ilə təsdiq olunmuş Ümumtəhsil Konsepsiyasında (Milli Kurikulum) qiymətləndirmə aşağıdakı kimi göstərilmişdir:

- Şagird nailiyyətlərinin qiymətləndirilməsi təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların toplanmasıvə onların təhlili ilə müşayət olunur.
- Toplanmış məlumatlar bir qayda olaraq şagirdlərin təlimə münasibətlərini ölkədə təhsil siyasətinin qurulması və gələcək inkişaf perspektivlərinin müəyyələşdirilməsi üçün etibarlı mənbə hesab olunur.
- Şagird nailiyyətlərinin qiymətləndirilməsi məqsədəuyğunluq, qarşılıqlı dəyərləndirmə, müvafiqlik və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsipinə əsaslanır.
- Kurikulum üzrə qiymətləndirmə şagirdin təlim nəticələrinin müfaviq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır.

Göründüyü kimi təhsildə qiymətləndirmə sistemi pedaqoji prosesin təkmilləşdirilməsi üçün tələb olunan tədbirlərin görülməsi məqsədini daşımalıdır. Çünki qiymətləndirmənin düzgün təşkili və qiymətləndirmə aparılarkən məqsədin aydın olması təhsilin keyfiyyətinin yüksəldilməsində və şagird perspektivlərinin artırılmasında mühüm rol oynayır. Ona görə də ümumtəhsil məktəblərində elmi, pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış monitorinq və qiymətləndirmənin aparılması təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinin ən mühüm şərtlərindən biridir.

# MÜASİR DÖVRDƏ TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASI

**Vidadi Orucov**
**professor**
**Nərmin Quliyeva**
**magistrant**
**Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Sosial-İqtisadi Kollec**
**Lənkəran Dövlət Universiteti**
**vidadi_orucov@mail.ru**
**nquluyeva423@gmail.com**

**Açar sözlər:** təhsil, cəmiyyət, ikt, informasiyalaşdırılma

Qloballaşan dünyada insanların baxış və düşüncə tərzləri dəyişib, inkişaf etdikcə, elmi nailiyyətlər artdıqca informasiya cəmiyyətin yaradılmasına böyük ehtiyac duyulur. İnformasiya həyatın bütün sahələrində olduğu kimi təhsil sahəsində də böyük rol oynayır. İnformasiyalaşdırma-informasiya əsaslı məlumatların toplanması, işlənməsi, saxlanılması və ötürülməsi prosesidir. Təhsilin informasiyalaşdırılması istiqamətində islahatlara 2 mərhələdə: 2003-cü ildə Cenevrə, 2005-ci ildə Tunisdə keçirilən İnformasiya cəmiyyətinin qurulmasına həsr olunmuş dünya sammitlərində geniş yer verilib. "İnformasiyalaşdırma ilə bağlı həyata keçirilən bütün tədbirlər təkcə elmi-texniki tərəqqinin inkişafına deyil, eləcə də yeni, keyfiyyətli informasiya mühitinin yaradılmasına kömək edir. Təhsil sisteminin informasiyalaşdırılmasının əsas məqsədi:

1. Təhsil keyfiyyətinin artırılması
2. Yeni informasiya mədəniyyəti formalaşdırmaq
3. Şəxsiyyətin hərtərəfli inkişafını təmin etmək
4. Ölkədə vahid təhsil və informasiya mühiti formalaşdırmaq".

Ümummilli liderimiz Heydər Əliyev Respublikamız müstəqilliyini bərpa etdikdən sonra da elm və təhsilə xüsusi qayğı ilə yanaşmış və daim diqqət mərkəzində saxlamışdır. Heydər Əliyev təhsilin cəmiyyət və dövlət üçün vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir: "...təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Keçən əsrin 70-80 ci illərində ölkədə kadr çatışmazlığı cəmiyyətin bütün sahələrində gerilələmələrə səbəb olmuş və əsas problemə çevrilmişdir. Bu problemin həlli istiqamətində Heydər Əliyev bir sıra tədbirlər həyata keçirmiş, müstəqillik əldə etdikdən sonra inkişaf etmiş ölkələrə gənclərimizin ali təhsil almağa göndərilməsi dövlətin əsas vəzifələrindən birinə çevrilmişdir. "Respublika quruculuğunun davamı olaraq "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət proqramı" qəbul olunmuş, bu proqram çərçivəsində böyük bir layihə-"Xalq Kompüter" layihəsi həyata keçirilmişdir. Təhsil müəssisələri lazımı İKT avadanlıq və resursları ilə təmin olunmuş, sürətli internet şəbəkəsinə çıxış əldə olunub. Təsadüfi deyil ki, Təhsil Nazirliyi tərəfindən 2010-cu il "Təhsildə İKT ili" elan edilmişdir".[2] Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin informatlaşdırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur. Bütün bunlar dövlətimizin təhsilin inkişafına göstərdiyi böyük qayğının nəticəsidir. Təhsil müəssisələrinin kompüterləşdirilməsi təhsil sistemində müsbət dəyişikliklərə gətirib çıxartdı. Öz ixtisasını müasir texnikanın yüksək inkişaf səviyyəsinə bilmək, tədris prosesində İKT avadanlıqlarından səmərəli istifadə səriştəsinə yiyələnərək,

bilik və bacarıqların artırılması istiqamətində müəllimlər, eləcə də təhsil işçiləri üçün müxtəlif elmi seminarlar, tədbirlər nəzərdə tutulmuşdur. Təhsilin texnolojiləşdirilməsində cəmiyyətin intellektual və insan potensialından istifadəyə xüsusi önəm verilmiş, tələbə və şagirdlər arasında informatika fənni üzrə respublika və dünya səviyyəli olimpiada və müsabiqələr təşkil olunmuşdur. İKT əsaslı sahəyə artan maraq və onun sürətli inkişafı, getdikcə tədris prosesinin keyfiyyətinin artırılması, yeni ixtisasların açılması, dünya ölkələri ilə inteqrasiya, qabaqcıl təcrübənin öyrənilməsi və ölkəmizdə uğurla tətbiqi kimi elmi nailiyyətlərlə nəticələndi.

## QLOBALLAŞMA DÖVRÜNDƏ BAKALAVRLARIN HUMANİTAR MƏDƏNİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**Vidadi Orucov**
**professor**
**Nəzrin Miriyeva**
**doktorant**
**Lənkəran Dövlət Universiteti doktorant**
**vidadi_orucov@mail.ru**
**nezrin.miriyeva.96@bk.ru**

**Açar sözləri:** Boloniya prosesi, sosial-cəmiyyət, təhsil standartı, milli dəyər, inteqrasiya

Azərbaycan Respublikasının 2005-ci ildən Boloniya prosesinə qoşulması zamanın tələbi idi. O vaxtdan sonra ölkəmizin təhsili qloballaşan dünyanın ali təhsil məkanının bir hissəsinə çevrildi. Əsas məqsəd qısa zamanda Avropanın təhsil mühitinə uyğunlaşmaq idi. Ali təsil müəsisələrində vahid təhsil məkanı və təhsil standartlarının yaradılması istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanıldı. Avropanın ali təhsil müəsisələrində uzun illər formalaşmış qabacıl, özünü doğrultmuş təcrübəsi respublikamızın ali təhsil müəssisələri üçün əl çatan oldu. Bununla bağlı professor M.C.Mahmudov "Dünyada təhsil sistemləri" adlı əsərində yazır:"Boloniya prosesi Azərbaycan üçün milli ali təhsil sistemini müasirləşdirməkdən və onu bizim cəmiyyətin yeniləşmiş simasına daha da uyğunlaşdırmaq üçün vaxtında meydana çıxmış imkandır". (1)

Görülən tədbirlər sırasında 2007-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası" əsasında "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu" təsdiq edildi və beynəlxalq təcrübəyə müvafiq istiqamətlər üzrə yeni dövlət təhsil standartları hazırlandı. Beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmış bu standartlarda bakalavrlarda yeni dəyərlərin formalaşdırılması üçün təhsil verənlərdən yeni məzmun və təlim texnologiyaların tətbiqi bir tələbə çevrildi:"Onlar yeni fərdilikləri və xüsusiyyətləri, yeni texnologiyaları və sistemləri nəzərə almalı, öyrənənlərə yeni bilik və bacarıqların əldə edilməsində, yeni cəmiyyətin tələblərinə uyğunlaşmaqda və fasiləsiz təhsil almaqda kömək etməlidirlər". (2) Boloniya prosesinə qoşulduqdan sonra (2005-ci il) ali təhsil proqramları bir neçə dəfə təkmilləşərək qarşıda duran məsələlərin həllində komleks yanaşmaların tətbiqinə üstünlük verildi. Qloballaşan dünyada baş verən proseslər, arası kəsilməyən müharibələr, terror hadisələri bir daha təsdiqlədi ki, təhsil sistemi insanlarda bir sıra dəyərləri

formalaşdırmaqla yanaşı, həm də onlarda bu dəyərləri qorumaq üçün bir məsuliyyət hissi də formalaşdırmalıdır. ABŞ-ın görkəmli təhsil nəzəriyyəçisi Hovard Qardnez yazır: "İnsanların bir-birini başa düşməsi səviyyəsinin yüksəldilməsi baxımından nə olursa olsun təhsil öz məxsusi təsdiqini tapmalıdır. Bütün elmlərin əsas obyekti insan olmalıdır". (3)

Burada əsas məqsədlərdən biri də bakalavrların kommunikativ bacarıqlarının formalaşmasında, eləcə də onların yeniləşən cəmiyyətin tələblərinə uyğunlaşmasında həlledici rola malik olan təhsilin mədəniyyətyönlü olmasının təmin edilməsi idi. Yeni dəyərlər sırasında ilk cərgədə humanitar mədəniyyətin formalaşdırılması dururdu. Dünyada hümanitar mədəniyyətlə bağlı anlayışlara müxtəlif yanaşmalar movcud olsa da, mahiyyət etibarı ilə o hər bir insana aid şəxsi dəyərlərin cəmi kimi qəbul olunur. Humanitar mədəniyyət insanın daxili zənginliyi olmaqla, həm də onun inkişaf səviyyəsi, dünyagörüşü və yaradıcılıq imkanlarının ölçüsüdür. Humanitar mədəniyyətin problemləri təkcə şəxsiyyətin daxili keyfiyyətləri deyil, həm də onun cəmiyyətə münasibətidir. Belə cəmiyyətlərdən biri də gənc nəslin avanqardlarının təhsil aldığı universitetlərin bakalavr pilləsində təhsil alan tələbələrin cəmiyyətidir. Ali məktəblərində təhsil alan tələbələrin humanitar mədəniyyət formalaşdırılması bütün dövrlərdə aktual olmuşdur. Bu indi də belədir. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin milli dəyərlərlə, yəni hər bir təhsil alan bakalavrlar humanitar mədəniyyətin formalaşdırılması üçün bir sıra işlər görülməkdədir. Görülən işlərin hamısı daha çox qloballaşan dünyanın tələblərinə uyğun olaraq daha üstün dünyəvi dəyərləri özündə birləşdirən humanitar mədəniyyətin formalaşmasına yönəlmişdir. Burada əsas məsələ hər bir təhsil alanın ətraf aləmi düzgün dəyərləndirməsi, özünə dəyər verə bilməsi önəmli məsələlərdəndir. Humanitar mədəniyyəti birləşdirən dəyərlərin hər birinə ayrıca münasibət və qiymət vermə bacarıqlarını hər bir insanın özünə verdiyi dəyər kimi də qəbul etmək olar. Bakalavrların şəxsiyyətinin inkişafında, sosial-iqtisadi cəmiyyətə tam inteqrasiya olmalarında bir sıra ənənəvi çatışmazlıqlar qalmaqdadır. Bunlardan daha çox rast gəlinən bakalavrlar sosial-iqtisadi cəmiyyətə adaptasiya prosesində özlərinə qarşı bir inamsızlığın olmasıdır. Bu inamsızlıq bəzən həddindən çox olduqda digər problemlərə: özünəqapanma, təhsilinə şüphə ilə yanaşma, cəmiyyətə qarşı bir qorxulu yanaşma və s. Bakalavrların cəmiyyətə uğurlu inteqrasiyası bir başa onların kommunikasiya mədəniyyətinin səviyyəsindən aslıdır. Humanitar mədəniyyətin digər bir ölçüsü də humanitar mədəniyyətə bağlı təhsil səviyyəsidir. İnkişaf etmiş ölkələrdə gənc nəslin humanitar mədəniyyətinin yüksəlməsinə xidmət göstərən humanitaryönümlü təhsilin məzmununa daha çox önəm verirlər. Bakalavrların humanitar mədəniyyəti ilk növbədə onların cəmiyyətdə yerini və rolunu düzgün müəyyənləşdirilməsində həlledici rol oynayır. Ona görə də təhsil alan bakalavrların təhsilinin humanistləşdirilməsi və humanitarlaşdırılması qlobal sosial-iqtisadi təlabata çevrilmişdir.

# DİL BİLGİSİ VƏ BACARIQLARINI SƏMƏRƏLİ İSTİFADƏSİ SAYƏSİNDƏ DÜRÜST AKADEMİK MÜHİTİN YARADILMASINA XİDMƏT EDƏN STRATEGİYA

**Vüsalə Həsənova**
**dissertant**
**Azərbaycan Dillər Universiteti**
**vusalahasanova1986@gmail.com**

**Açar sözlər:** parafraz, plagiat, strategiya, distributiv, omissiv, eksplikativ

Yazılı tərcümənin intralinqual-eyni dil tərkibində yenidən şərh, interlinqual-orijinaldan hədəf dilə tərcümə, intersemiotik - mətnin işarə dilinə tərcüməsi olmaqla 3 əsas tipi fərqləndirilir. Tezisdə intralinqual tərcümə, başqa sözlə, parafrazın əhəmiyyətinə qısa nəzər salamağa çalışacağıq.

Parafraz, oxunularaq dərk olunan istənilən materialın təhriflərə yol vermədən, liqvistik bacarıqlardan da istifadə edərək təkrar şərhinə şərait yaradan koqnitiv bacarıqdır. Həm oxu, həm də yazı bacarıq və strategiyalarını ehtiva edən, akademik yazıda plagiatdan yayınmaq və unikal mətn hazırlama qabiliyyətinin formalaşmasının ilkin addımı hesab edilə bilən parafraz sözlər, ifadələr, cümlələr və bəzi digər strukturlardan məharətlə istifadə edərək, informasiyanı yeni və sadələşmiş şərhlə ifadəsinə şərait yaradır. Parafraz digər müəllifin fikirlərini yenidən ifadə etmək, aydınlaşdırmaq üçün effektiv üsül olmaqla bərabər, müəllifin öz arqumentlərinə və təhlillərinə etibarlılıq verən anlama, ifadə və akademik dürüstlüyün kəsişməsində dayanan əsas bacarıq, tənqidi düşüncənin sərhədlərini aşan mental məşqdir. Larsonun da ifadə etdiyi kimi parafraz sözün semantic quruluşunu aydınlaşdırmaqla yenidən şərhə şərait yaradan bir prosesdir.

Parafraz mətnin dərk edilməsinə xidmət edərək mövzu haqqında anlayışı artırır, əsas anlayışlar və qeyri-vacib detallar arasında fərq qoymağa şərait yaradır, faydalı olan məlumatları qiymətləndirmək və prioritetləşdirmək qabiliyyətini əldə etməyə kömək edir və dolayısı ilə anlamanı gücləndirərək tənqidi düşüncəni inkişaf etdirir.

Bir çox mənbədən biliyi emal etdikdə və onu parafraz etdikcə yazı və tədqiqat bacarıqları təkmilləşir, yeni anlayış və baxış bucağını təmsil edən vahid mətn yaradılır. Parafraz çətin fikirləri aydın ifadə etmək bacarığını artırmaqla yazı bacarıqlarını gücləndirir, mənbələrdən əsas mövzuları tanımağı və birləşdirməyi öyrəndikcə tədqiqat prosesi yaxşılaşır, müəlliflərə istinadın uyğun şəkildə originallığın qorunaraq şərhi, plagiatın qarşısını almaqla dürüst akademik atmosfer yaradır.

Səmərəli parafraz ifadə müxtəlifliyi yaradır, monotonluğun qarşısını alır, oxucuları maraqlandırmaqla akademik məqaləni təkmilləşdirməyə və yazıçının öz səsini mətnboyu ardıcıl saxlamağa imkan verərək üzə çıxan əsəri bir-birinə bağlı olmayan sitatlardan ibarət bir parça olmaqdan xilas edərək, oxucunun başa düşməsi və müəllifin mövzuya baxışını çatdırmaqla vahid mətni yaradır.

İyerarxiq əlaqə ilə bağlı dilin ən kiçik mənalı vahidi- morfem, onların bir araya gələrək yaratdıqları mənalı vahidlər - sözlər, cümlələr bütün dünya dilləri üçün universal olduğu üçün hədəf mətnin yenidən ifadəsinin əsasını təşkil edən üst və alt qatlarda mənanın aydınlaşdırılması parafraz strategiyaları üçün hansı dildə fikrin yenidən ifadə edilməsindən asılı olmayaraq əsas açardır. Bu həm quruluş, həm də məna etibariylə istənilən dildə peşəkarlıq tələb edir.

Mətnin parafrazı mövcud mətnin orijinal mənası saxlanılaraq daha aydın formada ifadəsini ehtiva edən sadə, kiçik hissələrə bölərək hər hissəsinin ayrıcalıqda təhlil edildiyi-

distributiv, kontekstual informasiyanı təmin edən, anlaşılmaz hissələri aydınlaşdıran, orijinal dillə hədəf dil arasında mədəniyyət müxtəlifliyini nəzərə alaraq idiom və məcazi mənalı sözlərin düzgün şərhi və üslubi məsələləri də nəzərdə tutan eksplikativ(-izahedici-V.H.) və yalnız əsas mənanın salanıldığı omissiv-müxtəsər kimi 4 əsas tipi vardır.

Parafraz ikinci dil öyrənmədə də akademik yazı bacarıqlarının aşılanamasında mühüm strategiyadır. Parafraz üsulları ilə tanış olan təcrübəli ikinci dil öyrənənləri öz həmyaşıdlarına nisbətən mənbə mətnlərə daha az etibar edir, parafrazın köməyi ilə mənbə mətni daha yaxşı başa düşürlər və bu təhrifin qarşısını alaraq onların ikinci dil oxu və yazı, ümümilikdə isə dərk etmə qabiliyyətləri təkmilləşir. Deməli parafraz, ikinci dil müəllimləri üçün də faydalı texnikadır. Üstəlik, parafraz strategiyası mövcud ədəbiyyatın öz yazılarımıza inteqrasiya və ya manipulyasiya etdirmək üçün faydalı linqvistik vasitə deyil (biliyin izahı-V.H.), yazıların məzmununu inkişaf etdirərək mənayaratma (biliklərin dəyişdirilməsi-V.H.) prosesidir. Bu o deməkdir ki, səriştəli və məharətlə istifadə edilmiş parafraz sayəsində yazının inandırıcılığını və beləliklə də ritorik gücünü istənilən halda artırmaq mümkündür.

## LƏNKƏRAN TARİXİ ABİDƏLƏR DİYARIDIR

**Yaqub Səmədov**
**dosent**
**Kamal Mahmudov**
**dosent**
**Azərbaycan Dövlət Pedoqoji Universitetinin Ağcabədi filialı**
**Lənkəran Dövlət Universiteti**
**yaqub.semedov63@mail.ru**
**kamal-1965@mail.ru**

**Açar sözlər:** Cənub bölgəsi, Lənkəran, tarixi abidələr, kurqanlar

Məlum olduğu kimi, Lənkəran şəhəri Türk Dövlətləri Təşkilatı (TDT) tərəfindən 2024-cü il üçün "Türk Dünyasının Gənclik Paytaxtı" elan olunub. Bu yeni titulun "Cənub mirvarisi"nə verilməsi bu şəhərin dünyaya daha yaxından tanıdılmasında sözsüz ki, əhəmiyyəti olduqca böyükdür. Qeyd etmək lazımdır ki, Lənkəran şəhəri vaxtilə Ümumilli Lider Heydər Əliyevin də daima diqqət mərkəzində olmuşdur. O, 6 dəfə (1973, 1974, 1976, 1979, 1982 və 1998-ci illərdə) Lənkərana səfər etmiş və onun hər səfərindən sonra burada yeni-yeni uğurlara imza atılmışdı. Məhz Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsidir ki, hal-hazırkı dövrdə də Lənkəran şəhəri Azərbaycanın iqtisadi və mədəni cəhətdən çiçklənən şəhərinə çevrilir.

Cənub bölgəsinin əlverişli iqtisadi-coğrafi mövqeyi, füsunkar təbiəti, geniş əlaqələri, Qərblə Şərqi birləşdirən yollarının üstündə və Xəzər dənizi sahillərində yerləşməsi onun inkişafını şərtləndirən əsas amillərdəndir. Burada çoxlu sayda maddi-mədəniyyət abidələri vardır. Böyük İpək yolunun Xəzərin sahilindən keçən yolun üstündə yerləşdiyindən bölgədə ticarət yüksək səviyyədə inkişaf etmişdir. Bunu müxtəlif tarisi dövürlərə aid bölgədə tarılmış çox saylı pullar-sikkələr sübut edir.

Lənkərandan bəhs edərkən qeyd etmək lazımdır ki, onun tarixi çox-çox qədimlərə gedib çıxır. Şəhərin bir kilometrliyində yerləşən Digah kəndində aşkar olunan Divə - lona

qəbiristanlığı da eradan əvvəllərə və bəzən də daha qədim dövrlərə gedib çıxır. Səid Əli ibn Kazım Bəy özünün "Cavahirnameyi – Lənkəran" əsərində (1869-cu ildə qələmə aldığı) Lənkəran şəhərinin IX əsrdə Bəlləbur qalasında yerləşməsindən bəhs etmişdir. Lənkəranla bağlı görkəmli yazıçı və tarixçi Abbasqulu ağa Bakıxanov ("Gülüstani İrəm" (1841) əsərində) və Mirzə Əhməd Mirzə Xudaverdi oğlu (1882-ci ildə qələmə aldığı "Əxbərnamə" əsərində) "Ləngərkünan" ifadəsini işlətmişlər. Lənkəran adının mənşəyinə gəldikdə ona iki çür yanaşmaq lazımdır: Tarixi qaynaqlarda olan Ləngərkünan, Ləngəran, Lənkgəran, Lanqaran, Lyanqaran sözləri bugünkü Lənkəran sözünün ilkin formaları olmuşdur. Ləngkəran farsca – ləng, ləngimək, kəran isə, yer, məskən; talış dilində Lənkon şəklində işlənən bu anlayışdakı leynə, len (və ya, lən) – qamış, kon – (kəon) evlər, yəni "qamış evlər" deməkdir.

Lənkəranın maddi-mədəniyyət abidələri işərisində təsadüfi qazıntı zamanı Lənkərançayın sağ sahilində – Velədi və Gərmətük kəndlərinin arasında yerləşən yeni məhəllədə aşkara çıxarılan orta əsrlərə aid şirsiz və şirli saxsı məmulatları öz əhəmiyyətinə görə diqqəti cəlb edir. IV əsrdə Sasan şahı II Şapurun tərəfindən inşa edilən Bəlləbur qalası da Lənkəranın ən dəyərli maddi mədəniyyət abidələrindən hesab olunur.

Yuxarı Nüvədi kəndi ərazisində, Talış dağlarının ətəyində yerləşən Kinan qalası (Kinonə ğələ), XVIII əsrə aid Lənkəran qalası, 1730-1732-ci illərdə Gamışavanda (indiki Göyşaban kəndi) rusların köməyi ilə yerli ustalar tərəfindən tikilən Gamışavan qalası, Lənkəran rayonunun Gəgiran kəndi ilə Tükəvilə kəndləri arasında salınan Vojorqo qala məskəni, 1747-1786-cı illərə aid Lənkəran mayakı Lənkəranın ən mühüm maddi-mədəniyyət abidələrindəndir.

Haftoni qəsəbəsinin Talışlı (köhnə Karpoviç) ərazisində Tunc dövrünə aid Karpoviç və Hirkan qəsəbəsi ərazisində Hirkan kurqanları, Lənkəran rayonunun Bəleton kəndində tapılan Bəleton sikkələri (Antik dövrə aid), həmçinin əcdadlarımızın islamaqədərki dini inaclarını özündə əks etdirən Lənkəran şəhərinin 12 km qərbində Talış dağlarının Sumağ silsiləsinin ətəyində, Haftoni qəsəbəsi ərazisində aşkar olunan Haftoni kurqanları da tarixilik baxımından diqqəti cəlb edir. Bir mühüm cəhəti diqqətə çatdırmaq istəyirik ki, Lənkəranın çoxsaylı abidələrini kiçik bir tezisdə ətraflı şərh etmək imkan xaricində olduğundan onların bəziləri haqqında məlumat verməyi lazım bildik.

Beləliklə, yuxarıda adı çəkilən tarixi abidələr xalqımızın milli kimliyini sübut edən olduqca qiymətli sənət əsərləridir. Ona görə də həmin abidələrin bu baxımdan qorunmasına, yenidən daha dərindən öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına hər zaman zəruri ehtiyac var.

## HEYDƏR ƏLİYEVİN ELMİ İRSİNDƏ SOSİAL-PEDAQOJİ İDEYALAR

**Yasəmən Rəsulova**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**yasmn089@icloud.com**

**Açar sözləri:** Heydər Əliyev irsi, sosial-pedaqogiji ideyalar, tərbiyə, təhsil

Dünyanın ən qədim mədəniyyətinə malik olan ölkələrindən sayılan Azərbaycanda bütün dövrlərdə uşaqların, ümumən gənc nəslin tərbiyəsində milli adət-ənənələrdən geniş şəkildə istifadə olunur. Bu həm ailədə, həm də məktəbdə ibtidai siniflərdə uşaqlara mərasim

dərsləri vasitəsilə öyrədilir. Burada, həmçinin pedaqoji yanaşmanın da xüsusi əhəmiyyəti nəzərə alınmalıdır. Pedaqoji yanaşma həm də ona görə vacibdir ki, yaşadığımız mühitdə sosial münasibətlərin də tələb olunan səviyyədə inkişaf etsin. Bildiyimiz kimi, "Sosial" latınca "sosialist" sözündəndir və "ictimai" mənasını bildirir. Cəmiyyətdə yaşayan insanların real yaşam tərzini və aralarındakı münasibətləri özündə ehtiva edir. Beləcə sosial pedaqogika anlamı hələ lap qədim dövrlərdə, bəsit formada olsa da mövcud idi. Məlum olduğu kimi, bu termin XIX əsrdə məşhur alman pedaqoqu Disterverq tərəfindən təklif edilmişdir. Pedaqogika dərsliklərində "Sosial pedaqogika" termini "XX əsrin 80-90-cı illərindən etibarən xüsusi aktuallıq kəsb etməyə başlamışdır".

Sosial pedaqogika elmi Pedaqogika elmi kimi təlim, tərbiyə, təhsil və inkişaf xüsusiyyətlərini öyrənir. Fərq ondan ibarətdir ki, bu elm özünə aid olan sahələri sosial baxımdan öyrənir. Cünki bu sahələrin hər biri sosial xarakter daşıyır. Sosiallaşma-cəmiyyətdə uğurlu fəaliyyət üçün vacib olan mədəni normaların və sosial rolların fərd tərəfindən mənimsənilməsi prosesidir. Sosiallaşma həmçinin cəmiyyətin mövcudluğunu və onun mədəniyyətinin nəsildən-nəslə ötürülməsini mümkün edir. İnsan bütün həyatı boyu sosial rolları qavradığından sosiallaşma prosesi bütün ömür boyu davam edir.

Bizim e.ə. V-IV əsrlərdə Platon və Aristotel kimi filosoflar "tərbiyəni insanın inkişafının şərti hesab etmiş, cəmiyyətin taleyinin onun vətəndaşlarının inkişafından asılı olduğunu söyləmişlər". Sonrakı dövrlərdə Azərbaycan mütəfəkkirlərindən sayılan Nəsirəddin Tusi, Marağalı Əvhədi, İmadəddin Nəsiminin əsərlərində gənc nəslin ailə həyatına hazırlanmasının əsaslı sosial-pedaqoji konsepsiyası özünün aydın ifadəsini tapmışdır. Bir qism alimlər hesab edirlər ki, sosial pedaqogika təkcə cəmiyyətin tərbiyə potensialını deyil, həm də tərbiyəedici qüvvələrin müxtəlif inteqrasiya formaları əsasında onun aktuallaşdırılması yollarını öyrənir. V.İ.Zaqvyazinski, V.D.Semyonov və bir sıra digər alimlər sosial pedaqogikanı sosial mühitin, yaşadığı konkret şəraitin, qoşulduğu ictimai və şəxsiyyətlərarası münasibətlərin ona tərbiyəedici təsirləri haqqında olan elm kimi səciyyələndirirlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin nəzəri irsində və geniş fəaliyyətində təhsil məsələləri, xüsusən sosial pedaqogika ilə bağlı fikirlər geniş yer tutur. Haqlı olaraq, Azərbaycanı bəşər sivilizasiyasının ilkin ocaqlarından sayan Ulu öndər deyirdi: "Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur".

Ulu Öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: "Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" [1, səh.454].

Heydər Əliyev milli təhsil nəzəriyyəsinin və yeni təhsil islahatının yaradıcısıdır. O milli tərəqqidə və müstəqil dövlət quruculuğunda təhsilin əvəzsiz rolu olduğunu dəqiq müəyyənləşdirmişdir. Ulu Öndərin zəngin yaradıcılıq irsi, şəxsi nümunəsi və dövlətçilik fəaliyyəti, siyasi görüşləri yetişən gənc nəslin milli və ümumbəşəri dəyərlər zəminində təhsil alması üçün ən dəyərli mənbədir. Təhsilin, cəmiyyətin, xüsusən Azərbaycan dövlətinin inkişafında rolundan danışarkən deyirdi: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə

edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq”.

Məlumdur ki, sosial pedaqogika sosiologiya və pedaqogika elmlərinin vəhdətindən meydana gələrək formalaşmışdır. Sosial pedaqogikanın nəzəri-metodoloji problemlərinin həlli pedaqogika və sosiologiya ilə əlaqədardır. Sosial pedaqogikanın da obyekti, predmeti, tədqiqat metodları, anlayışlar sistemi mövcuddur. O, pedaqoji elmlər sistemində müstəqil və yeni elm sahəsi kimi özünəməxsus yer almışdlr. Təhsil ilə bağlı fikirlərində ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, mündəricəsini yüksək qiymətləndirən Ulu Öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulamışdır: “İnsan təhsilinin əsasını orta məktəbdə alır… . Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, …cəmiyyətimizin şüurlu üzvü olacaqdır”.

Şagird və tələbələrin müasir tələblər səviyyəsində formalaşması üçün təlimin keyfiyyəti, yüksək savad, dərin bilik verilməsi yeganə şərt deyil. Bu məsələyə də diqqət yetirən müdrik rəhbər digər mühüm faktoru da təhsil alanların mənəvi kamilliyində, əqidə saflığında görürdü. Heydər Əliyev təlimində təhsillə tərbiyənin, mükəmməl biliklə yüksək mənəviyyatın vəhdəti son dərəcə mühüm prinsip kimi əsaslandırılmışdır. Təhsil ocaqlarının tərbiyəedici funksiyasına xüsusi diqqət yetirən Ümummilli Liderin sözləri də bu ali həqiqətin ifadəsidir: “Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır”.

Bütün bunlar göstərir ki, ulu öndərimiz ölkənin inkişafı naminə bütün sahələrdə olduğu kimi təhsil sahəsinin bütün istiqamətlərinə prioritet məsələ kimi baxır və yüksək dəyərləndirirdi.

## İNGLİS DİLİNDƏ SİFƏTİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

**Yeganə Cavadova**
**dosent**
**Ramilə Fərəczadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**yegames@mail.ru**
**Ferecli11.r@gmail.com**

**Açar sözlər:** sifət, leksik kateqoriya, semantika, sintaksis, universallıq, müstəqillik

Sifətlər həmişə isimləri təsvir edən əsas leksik kateqoriya kimi müəyyən edilmişdir və əsas xüsusiyyətlərindən biri onun mərhələli olmasıdır. Lakin bu tərif natamamdır və potensial olaraq yanlışdır,çünki isimləri təsvir edən yalnız sifət deyil.Ümumiyyətlə bütün dillərdə mərhələli sifətlər mövcuddur və hər bir alim sifətləri əsas leksik kateqoriya kimi müəyyən etmir. Bu işin əsas məqsədi sifət anlayışını daha dərindən araşdırmaq, onun universallığına və leksik kateqoriya kimi müstəqilliyinə hərtərəfli bələd olmaqdır.Məhz bu məqsədlə burada sifətin leksik-semantik və sintaktik xüsusiyyətlərinin təhlili və müzakirəsi, onun xassələri ilə bağlı müxtəlif fikirlərin nəzərdən keçirilməsi təmin ediləcəkdir.

Başlanğıc üçün, sifətlər həmişə bir atributu təsvir edən və ya adlandıran,semantik baxımdan ismin dəyişdirilməsini təmin edən sözlər hesab edilmişdir. Lakin semantik cəhətdən bu, sifətlərin fərqli bir sinif kimi nəzərdən keçirilməsinə təkan verən yeganə xüsusiyyət deyil.İlk növbədə, sifətlər pilləli yəni mərhələli olur və bu həmişə "sifətlərin prototip xüsusiyyəti" kimi tanınıb,çünki ingilis dilində dərəcə ifadələri sadəcə sifətlərlə birləşir,başqa dillərdə bu hala rast gəlinmir.Məsələn sadə bir misala nəzər salaq:the most delicious or the cheapest.İkincisi, sifətlər kəsişən və ya kəsişməyən ola bilər. Bir tərəfdən, kəsişən sifətlər həm isim, həm də sifət əsasında atributiv və predikativ istifadə arasında nəticə çıxarmağa icazə verən sifətlərdir.Lakin yalnız atributiv sifətlər kəsişən və kəsişməyən oxunuşlara imkan verir, predikativ sifətlər isə həmişə kəsişəndir və bu baxımdan kəsişən və kəsişməyən sifətlər arasındakı fərq qismən sintaksisdə də tapıla bilər.

Sintaktik nöqteyi-nəzərdən sifətləri iki kateqoriyaya bölmək olar: atributiv və predikativ sifətlər.Məlum olduğu kimi, atributiv sifətlər bir ismi birbaşa dəyişdirən sifətlər kimi müəyyən edilir və dəyişiklik etdiyi isimdən əvvəl olur,buna baxmayaraq bəzi hallarda isimdən dərhal sonra da gələ bilər və predikativ sifətlər feldən sonra əlavə olunur. Qeyd edilən məlumatı nümunə üzərində nəzərdən keçirək:

Bəyəndiyim bahalı ayaqqabılar-Expensive shoes that I like.

Bəyəndiyim ayaqqabılar bahadır.-The shoes I like are expensive.

Əlavə olaraq, atributiv sifətlərin koordinasiya olmadan çoxlu modifikasiyaya imkan verdiyi, predikativ sifətlərin isə çoxsaylı dəyişiklik baş verdikdə koordinasiyaya ehtiyacı olduğu müşahidə edilmişdir. Məsələn, kiçik qəhvəyi qutu demək olar, lakin koordinasiya olmadan kiçik və qəhvəyi olaraq predikativ vəziyyətdə istifadə etmək mümkün deyil.

Gördüyümüz kimi, sifətlərin leksik kateqoriyası kifayət qədər mübahisəlidir. Birinci bölmədə sifətlərin semantik və sintaktik xüsusiyyətlərinin universal olmadığını artıq müşahidə etdik.Nəticə olaraq, sifətlərlə bağlı fikir birliyi yoxdur. Görünür, onları müəyyən edən bəzi xüsusiyyətlər var, lakin bu xüsusiyyətlərin heç biri müstəsna və universal deyil. Üstəlik, sifətlərin isim və ya felin olmadığı leksik kateqoriya kimi təyin oluna bilməsi bizi sifətlərin müstəqil kateqoriya olmama ehtimalını nəzərdən keçirməyə vadar edir.

# İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ÇOXMƏNALILIĞIN TƏDRİSİ

**Yeganə Cavadova**
**dosent**
**Rəqsanə Həkimzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**reksanehekimzade@gmail.com**
**yegames@mail.ru**

**Açar sözlər**: frazeoloji birləşmələr, çoxmənalılıq, isimlərin çoxmənalılığı, sifətlərin çoxmənalılığı, feillərin çoxmənalılığı

Dilçilikdə çoxmənalılıq çox mürəkkəb və mübahisəli məsələlərdəndir. Bir sıra dilçilər dildə çoxmənalılığı qəbul edir,bunun əksi olaraq bəziləri isə inkar edirlər.

R.A.Budaqov göstərir ki, polisemiya (çoxmənalılıq) sözün forma və məzmun vəhdətini pozmur. Bu vəhdət o vaxt pozulardı ki, sözün mənası statik və dəyişməyən olsun. Frazeoloji vahidlər nitqdə düzəldilə bilməyən söz qruplarıdır. Onlar dildə hazır vahidlər kimi mövcuddur. Çoxmənalılıq problemi ayrılıqda tədqiq olunmasa da, son zamanlar bu məsələyə xüsusi diqqət yetirilir.

Frazeologiyada çoxmənalılığın ümumiyyətlə iki müxtəlif səviyyədə, fraza səviyyəsində və ayrı-ayrı idiom tərkib hissələri səviyyəsində mövcud olduğunu söyləmək olar.Məlumdur ki, frazeoloji birləşmələrin bütün mənaları eyni xüsusiyyətə malik deyildir. Birləşmə daxilində sözlərin mənası geniş söz qrupu ilə əlaqəyə girirsə, onlar müstəqil birləşmələrdir. Lakin birləşmənin tərkibindəki sözlər məcazlaşma nəticəsində frazeoloji birləşməyə çevrilirsə, sözlər öz əsas mənasından uzaqlaşırsa, bu zaman onlar öz müstəqilliyini itirirlər. Məsələn, to stand fire – 1) düşmənin atəşinə davam gətirmək (müstəqil, həqiqi məna); 2) tənqidə dözmək isə məcazi mənadadır;

Bildiyimiz kimi frazeoloji birləşmələrin çoxmənalılığının bir sıra xüsusiyyətləri mövcuddur:

a) birləşmənin sonradan kəsb etdiyi məna çalarlığından biri öz inkişafı nəticəsində əmələ gəldiyi həqiqi mənadan uzaqlaşaraq, müstəqim məna ifadə edən yeni bir mənaya çevrilə bilər. Məsələn, to fly low – 1) özünü göstərməməyə çalışmaq, 3) özünə diqqəti cəlb etdirməməyə çalışmaq;

b) frazeoloji birləşmələrin çoxmənalılığı ingilis dilində mürəkkəb sözlərin əmələ gəlməsində mühüm rol oynayır: heart break (ürək sancması, infarkt) mürəkkəb söz to break one’s heart frazeoloji birləşməsindən yaranmışdır;

Frazeoloji birləşmələrin tərkibində olan konkret isimlərin çoxnalılığı mücərrəd isimlərin çoxmənalılığından daha genişdir. Məsələn, to be/to run at grass- 1) istirahətdə /tətildə olmaq; 2) işsiz olmaq; at hand/on hand = 1) əlinin altında, lap yaxında - He lives close at hand; 2) tezliklə, tez bir zamanda, bu yaxınlarda - Christmas was close at hand.

Frazeoloji birləşmələrin tərkibində işlənən sifətlərin çoxmənalılığına da az da olsa təsadüf edilir. Məsələn, boiled shirt – 1) nişastalanmış köynək, 2) zabitəli, lovğa, təkəbbürlü adam.

İngilis dilinin frazeoloji birləşmələrində feilərin çoxmənalılığı daha zəngindir. Müxtəlif hərəkət və prosesləri bildirən feilər frazeoloji birləşmələrin tərkibində çox işlənir: iş feiləri, hərəkət feiləri, nitq və təfəkkür felləri və s. Feilər müxtəlif anlayışları bildirdiyindən onlar real varlıqdakı insan fəaliyyətinin müxtəlif proseslərini adlandırmağa qadirdir. Məsələn, to take action – 1) təşəxxüslə yerimək, qabağa getmək, 2) ölçü götürmək. He took prompt action to defend his rights; to take the air – 1) təmiz hava almaq, gəzintiyə çıxmaq, 2) sürətlə yuxarı qalxmaq.

Frazeoloji birləşmələr yaranarkən daşıdığı ilkin məna əsas məna hesab olunur, sonrakı mənalar isə əlavə mənalar adlanır. Məsələn, river sözünün əsas mənası “çay”dır (axar çay). Amma to cross river frazeoloji birləşməsində işlənən river sözü öz ilkin, həqiqi mənasını itirmiş 1) maneəni aradan qaldırmaq /götürmək mənasında işlənmişdir.İngilis dilində ifadə olunan çoxmənalı frazeloji birləşmələr həm implisit (gizli), həm də eksplisit (açıq-aşkar) səciyyəli olurlar. Məsələn, a squeezed orange – 1) lazımsız adam, 2) avara-avara gəzən adam, 3) xeyirə-şərə yaramaz adam; for a nut – 1) əbəs yerə, 2) əsla, qətiyyən. She sings well, but she can’t dance for nuts; to do one’s nut – 1) hirslənmək, acıqlanmaq, 2) cin atına minmək - She will do her nut when she sees the broken window.

Frazeologiyada çoxmənalılığın üç səviyyədə təzahür etdiyi aşkar edilmişdir: hərfi istifadə səviyyəsi, idiomatik istifadə və xüsusi istifadə. Bu səviyyələr bir-biri ilə əlaqəsiz deyil.Çoxmənalılığın baş verdiyi bu üç səviyyənin hesablanmasına ən yaxşı cavab verən nəzəriyyə Lakoffun polisemiyaya radial kateqoriya kimi baxışıdır. Çoxmənalılıq zəncirindəki

əlaqələr sadə metaforik və metonimik xəritələrdən tutmuş daha mürəkkəb hallara qədər müxtəlif idrak mexanizmləri vasitəsilə əlaqələndirilir.

## TƏLƏBƏLƏRİN PEŞƏKAR KOMMUNİKATİV SƏRİŞTƏSİNİ FORMALASMASINDA AUDİO-LİNQUAL TƏDRİS METODU

**Yeganə Cavadova**
**dosent**
**Ülgün Tağızadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**yegames@mail.ru**
**taghizadeulgun@gmail.com**

**Açar sözlər:** dinləmələr, audio-lingual vasitələr, kommunikativ səriştənin formalaşması, öyrənmə texnikaları, audiolinqualizm metodunun tədrisi

Ana dilimizi öyrənərkən onu necə öyrəndiyimizin fərqində olmuruq. Həmin zaman anladığımız sözləri, məfhumları isə biz eşidərək dərk edir ve təkrarlayaraq özümüzü ifadə edirik. Hər hansı bir dili öyrənməkdə bizə ardıcıllıqla dinləmə,danışma,oxuma və yazma bacarıqları köməyimizə çatır.Bu bacarıqların formalaşması üçün bir dilin təməl sütunu olan lüğət və qrammatik biliklərinin formalaşması zəruridir.Dinləmə praktikasının inkişaf etməsi üçün həmin dili çox eşitməyimiz və lazım olan yerdə doğru şəkildə təqlid edib özümüzü ifadə etməyi bacarmalıyıq.Son dövrlərdə dinləmənin vacibliyi həm imtahanlarda, həm də sinif otaqlarında özünü büruzə verir.

Dil öyrənmə vərdiş formalaşdırma prosesidir. Öyrədənlər üçün vacibdir ki, təhsilalanların mütəmadi olaraq səhvlər etmələrinin qarşısı alsın və həmin səhvlər dil bacarıqlarının formalaşmasına mənfi təsir göstərməsin. Audio-lingual metod xarici dillərin tədrisində istifadə olunan metodlardan biridir. Bu üsul davranışcı nəzəriyyə metoduna əsaslanır. Dil tədrisi prosesində müəllim düzgün cümlə modelini təqdim edir və tələbələrdən onu təkrar etməsini tələb edir. Müəllim daha sonra eyni strukturda cümlələri nümunə kimi təqdim edir və əvəzləmə metodu vasitəsilə yeni cümlələr öyrədilir. Audio-lingualizmdə açıq aşkar qrammatik təlimat yoxdur, sadəcə hər şey formada qalır.Tələbələrdən hədəf dildə cümlə nümunələrini dəfələrlə təkrar edərək mənimsənilməsi gözlənilir.

Audio-lingualizm metodun baniləri R.Lado, Ch.C.Fries və digərləri nəinki inandırıcı və güclü lingvistik nəzəriyyəyə malik idilər, həm də görkəmli psixologiya məktəbinin təsiri altında fəaliyyət göstərmişdilər.Audiolinqualizm metodunda söz öyrənmə əvəzinə daha çox qrammatik cümlə qəlibləri öyrədilir.Müəllim sadəcə hədəf dildə danışır. İzah etmədə şəkillərdən və hərəkətlərdən istifadə olunur. Səhv edilərsə həmin an düzəldilməlidir, əks təqdirdə yalnış mənimsənilə bilər. Bəzən səhv öyrənilmiş qrammatik biliklərdən qurtulmaq asan olmur,sanki daşlaşmış şəkildə beyində qalır və doğrusunun öyrənilməsi vaxt alır. Bəzən səhvlər öyrənilsə də fərqində olmadan edilir. Bunlara misal olaraq: Pronunciation slip-tələffüz sürüşməsi danışan dərhal yalnış tələffüz etdiyini özü düzəldir, Lexical slip-leksik sürüşmə danışan yalnış ifadə etdiyi sözü dərhal doğru olanla əvəzləyir,Grammatical slip-qrammatik sürüşmə başlanğıc səviyyədə olan tələbələrin qrammatik əsasda tez-tez etdiyi səhvlərdəndir.

Bu metodu öyrətməkdə məqsəd nədir? Hədəf dildə ünsiyyət qurmaq məqsədilə tələbələrə bu metoddan istifadə etməyi öyrənmələrini təmin etməkdir. Müəllim burada dirijor kimidir-tələbələri yönəldir. Tələbələrdən dinləmə fəaliyyəti yerinə yetirərkən eşitdikləri hər bir sözün onlar tərəfindən başa düşülməsi gözlənilməməlidir, lakin ümumi başa düşmələri vacibdir.Hər hansı bir mətni tədqim etməmişdən əvvəl həmin mövzu üzrə ümumi dünyagörüşünün alınması və bu barədə müzakirələr aparılması dinləmənin daha çox başa düşülməsinə şərait yaradır. Dinləmə səsləndirilməmişdən öncə tələbələr ilk öncə mövzuya aid şəkillərlə tanış edilə və ya digər vasitələrlə mövzunun çatdırılması təmin oluna bilər. Şəkildə məkanın hara olması, hal-hazırda hansı fəaliyyətin baş verməsi, geyinilən geyim və ya hava haqqında durum soruşula bilər və ya nə haqqında söhbət ediləcəyi barəsində məlumat alına bilər. Müəllim şəkildəki şəxslərin adını,dinləmənin əsas məğzini ortaya çıxaracaq sualları lövhədə yazıb tələbələrin diqqətinə çatdıra bilər. Daha sonra dinləməni bir neçə dəfə səsləndirə bilər. Bu zaman dinləmə daha anlaşıqlı olur.

Video nümayişi dərsində dərs planı olmalıdır:

1. Lüğətin təqdim olunması, məsələn: lüğət-important,researcher,toads,explain.
2. Qrammatika-sadə indiki zamanın istifadəsi,müqayisə dərəcəsi.
3. İfadələr: Yes,of course..... Why not? Oh (məyusluğunu ifadə etmək üçün) kimi ifadələr.
4. Mədəniyyətlə bağlı aspektləri vurğulanmalıdır.

Audio-lingual metodunda istifadə olunan texnikalar aşağıdakılardır:

Repetition drill-təkrar etmə tələbələrdən müəllimin göstərdiyi nümunəni tez və doğru təkrarlanması tələb olunur. Teacher: I will say a sentence, and you will repeat it. Let's start with a full sentence:

Teacher: Nurses check vital signs.

Students: Nurses check vital signs.

Chain drill- bu texnikada zəncirvarı şəkildə davam edən ünsiyyət formasıdır

Single-slot substitution drill-tək kəlmə əvəzləmə,bu texnikada məqsəd doğru sözü tapıb və uyğun olan yerə yerləşdirməsidir,

Multi-slot substitution drill -fərqli yerlərdə eyni sözü yerləşdirmə.

Transformation drill-çevirmə,burada müəllim bir cümlə verir və onun neqativ və ya sual cümləsinə çevrilməsini istəyir,

Question and answer drill-sual və cavab metodunda tələbələrdən suala cavab vermə praktikasının yaranır.

Minimal pairs-səslərlə işləmə texnikasında ortaq səsləri olan iki söz üzərində işlənilir,məs:ship-sheep,lip-leap

Complete dialogue-dialoq tamamlamada dialoqdan bəzi kəlimələr silinir və tələbələrdən tamamlanması istənilir.

Grammar game- dil biliyi oyunu texnikasından istifadə olunur.Məsələn A hərfi ilə başlayan bir söz verilir digər tələbə həm A hərfi ilə həm də B hərfi ilə söz deməlidir.

Bundan əlavə, Christopher Brumfit deyir: “Kommunikasiya o deməkdir ki,tələbələr tətbiq olunan dil forması ilə onların potensial, funksional mənası arasındakı əlaqə yarada bilməsidir. Bununla yanaşı, Richard C.Smith deyir ki,”Biz etiraf etməliyik ki,effektiv ünsiyyət üçün məsuliyyət həm danışan,həm də dinləyici arasında bölüşdürülür,istənilən söhbətin anlaşıqlı olması təkcə danışanın vəzifəsi deyil,həmçinin dinləyici başa düşmək üçün səy göstərməlidir.”

# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ UŞAQLARIN NİTQİNİN İNKİŞAFINDA MƏŞĞƏLƏLƏRİN TƏŞKİLİ

**Yeganə Məmmədova**
**pedaqogika üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**yeganememmedova.doc@gmail.com**

**Açar sözlər:** məktəbəqədər dövr, nitq inkişafı, məşğələ

Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Ana dili məşğələlərində uşaqlar biliklər əsasında fikir mübadiləsi keçirir, öz fikirlərini düzgün, aydın, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri fəal lüğətlərində işlətməyə çalışırlar. Bu məqsədlə tərbiyəçilər səylə çalışmalı, məşğələlərdə nitq inkişafının müxtəlif cəhətlərini-söz yaradıcılığını, nitqin qrammatik cəhətini və rabitəli nitqinin qarşılıqlı inkişafının əlaqələndirilməsini təmin etməlidirlər.

İkinci kiçik qrupdan başlayaraq uşaq bağçalarında nitq inkişafına həsr olunmuş xüsusi məşğələlər təşkil edilir. Belə məşğələlərdə əsas məqsəd uşağın həmin dövrədək ailədə, körpələr evində, uşaq bağçasında öyrəndiklərini sistemə salmaq, onun nitq inkişafı sahəsindəki qabiliyyətini artırmaq və bu prosesi sürətləndirməkdir. Məşğələlər uşağın məsuliyyətini artırır, onu kollektivlə birlikdə dinləməyə, yoldaşlarının nitqinə fikir verməyə, onlarla söhbət etməyə, onların qarşısında şeir oxumağa, nağıl danışmağa alışdırır. Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə təşkil edilən məşğələlərin məzmununu üç mərhələyə bölmək olar:

***Birinci,*** uşağın söz ehtiyatının get-gedə zənginləşməsi, yəni sözlər öyrənib bu sözlərdən istifadə etməsi;

***İkinci,*** nitqin fonetik cəhətdən inkişaf etməsi, yəni uşağın səsləri düzgün tələffüz etmək xüsusiyyətinin inkişafıdır. Bu bir tərəfdən səsləri düzgün eşitmək, digər tərəfdən isə səsləri düzgün tələffüz etməkdə ifadə olunur;

***Üçüncü,*** uşaq nitqinin qrammatik cəhətdən təkmilləşməsi, danışıq hissinin inkişaf etməsidir. Bu prosesin düzgün qurulması, uşaqların yaşına və anlaq səviyyəsinə uyğun təşkili, məktəbəqədər yaş dövrünün sonunda onların aşağıdakı nitq bacarıqlarına yiyələnməsinə imkan verir.

Müasir məşğələlər birtipli struktura malik deyil. Buna görə də, hər bir tərbiyəçi özü üçün onun konseptual əsasına uyğun daha əlverişli iş və təhlil forması seçir. Həmçinin məşğələyə elə tələblər verilir ki, tərbiyəçilər iş zamanı onları mütləq nəzərə almalıdırlar. Uşaqlarda hər şeyi bilmək həvəsi oyatmaq, ona ətraf aləmin müxtəlif sahələri haqqında biliklər vermək son dərəcə vacibdir. Bunun üçün məşğələlərin məzmunu elə qurulmalıdır ki, uşaqlarda həvəs yaransın, diqqətlilik, tərbiyəçini məşğələnin sonunadək dinləmək, öz fikirlərini düzgün və səlis ifadə etmək həvəsi oyansın. Ona görə də məşğələdə fərdiləşdirmə üçün optimal şərait yaradılır və bütün qrup üçün anlaşıqlı olan təlim metodikası ilə aparılır.

Hazırda təhsil proqramında hər bir məşğələ uşaqlar üçün təfəkkür, eləcə də intellekt məkanına çevrilməlidir. Bu məqsədlə cəmiyyətin hərtərəfli inkişafında müasir təlim metodlarının, interaktiv təlim texnologiyalarının düzgün və məqsədyönlü tətbiqi başlıca şərt hesab edilir. Bu məqsədlə təlim-tərbiyə prosesinin düzgün qurulmasında yeni kirukumlara uyğun aşağıdakı prinsiplərin əsas götürülməsi zəruri hesab edilir:

1. Pedaqoji prosesin tamlığı.

2. Təlimdə bərabər amillərin yaranması.
3. Şagirdyönümlülük.
4. İnkişafyönümlülük.
5. Fəaliyyəti stimullaşdırıcı, dəstəkləyici mühitin yaradılması.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşmasında interaktiv metodlardan istifadə edilməsi məqsədəuyğun hesab edilir. Hazırda təlimin qarşısında duran ən mühüm vəzifə uşaqların idrak fəallığına, təşəbbüskarlığına, öz fəaliyətə nail olmaq, onların təfəkkürünü inkişaf etdirməkdir. Bu baxımdan interaktiv təlim metodları müasir illərdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim uşağın təkcə yaddaşının yeni elmi biliklərlə zənginləşdirilməsi deyil, həm də təfəkkürünü inkişaf etdirilməsinə, bacarıq və vərdişləri əldə olunmasına yönəldilir. Onlar yeni təlim metodlarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb və nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etdirir, nəticə çıxarmağı, ümümiləşdirmələr aparmağı öyrənirlər.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim uşaqların yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman uşaqlar tərbiyəçinin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi sahəsində yol veriləcək kiçik xətalar sonralar çox ciddi, qarşısı alınmaz nöqsanlar kimi özünü büruzə verə bilər. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan uşaqları müstəqil fəaliyyətə hazırlamaq lazımdır. Bu, o dövr üçün tərbiyə işinin çətinliyindən daha çox həmin sahədə düşünülmüş, sistemli və təsirli işin aparılması ilə izah olunmalıdır. Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi sahəsində müvəffəqiyyət qazanmaq üçün uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması əsas amillərdən biridir.

Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər məşğələləri əsasən "Məktəbəqədər təhsil proqramı (kurikulum)" əsaslanan inteqrativlik prinsipinə uyğun təşkil etməlidirlər. İnteqrativlik uşaqlar üçün bütün inkişaf sahələrində öyrənmə mühiti yaradır. Müasir məşğələlər bir tipli struktura malik deyil. Buna görə də hər bir tərbiyəçi özü üçün məşğələnin konseptual əsasına uyğun daha əlverişli iş və təhsil forması seçir. Tərbiyəçi nitq inkişafı üzrə təşkil edilən məşğələləri digər məşğələlərlə inteqrasiya edərək uşaqların fəal lüğət ehtiyatının zənginləşməsinə kömək etməlidir. Tədqiqatlar göstərir ki, inteqrativlik məktəbəqədər yaşlı uşaqların inkişafında ən yaxşı və səmərəli yanaşmadır. Məşğələlərin inteqrasiyası həftəlik saatların minimum səviyyəyə endirilməsi imkanını yaradır. Bu isə təlim yükünün-məşğələlərin sayının azalmasına gətirib çıxarır. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt-subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. Biz pedaqoq və tərbiyəçilər inamla deyə bilərik ki, gələcəyimiz həqiqi insanın necə olacağından, bu isə bütövlükdə bizim uşaqların şüuruna nə kimi fikir və ideyalar yükləməyimizdən asılıdır.

# SEYİD ƏBÜLQASIM NƏBATİ VƏ MİRZƏ ƏLƏKBƏR SABİR: SƏLƏF VƏ XƏLƏF MÜNASİBƏTLƏRİ

**Yədulla Ağazadə**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**yedulla.agazade@mail.ru**

**Açar söz:** Seyid Əbülqasim Nəbatı, Mirzə Ələkbər Sabir, ədəbi ənənə, sələf və xələf

Müqtədir sənətkarlar özünəqədərki ədəbi irsin nailiyyətlərindən yaradıcı şəkildə istifadə etməklə bədii ədəbiyyatı davam və inkişaf etdirir, yeni zirvələr fəth edirlər. Azərbaycan ədəbiyyatında satirik poeziyasının banisi kimi məşhurlaşan M.Ə.Sabir irsində sələf və xələf münasibətləri barədə çox danışılmışdır. Xüsusən Xaqani və Sabir, Füzuli və Sabir yaradıcılığı zaman-zaman ədəbi müzakirələr, tədqiqatlar mövzusu olmuşdur. Lakin XIX əsr Azərbaycan ədəbiyyatında həm klassik üslubda həm də xalq şeiri şəklində gözəl əsərlər müəllifi kimi tanınan Seyid Əbülqasim Nəbati və M.Ə.Sabir yaradıcılığı arasında münasibətlərə az yer ayrılmış, sələf-xələf məsələlərinə genişliyi ilə toxunulmamışdır. Halbuki bu istiqamətdə söz açmağa geniş imkanlar vardır.

Məlumdur ki, S.Ə.Nəbatı klassik üslubda yazdığı qəzəl, qəsidə, müstəzad, müxəmməs, məsnəvi, rübai, müləmmə və tərcibəndlərində daha çox ilahi eşqi tərənnüm etmiş, haqqa qovuşmağın səadəti barədə poetik qənaətlərini dilə gətirmişdir. Həmin əsərlərə diqqət edilsə, Nəbatinin zamanın oğlu olaraq ətrafda baş verən hadisələrə tənqidi-satirik münasibətini də görmək çətin deyildir. Bu cəhətədn onun “Bircə bax gör açılıb o gülü-həmira, həmra” misrası ilə başlayan, daha çox dini-əfsanəvi mövzuya həsr olunan qəzəlində aşağıdakı beytlərə diqqət yetirmək kifayətdir:

Pırsıma kilkə toyuq tək, gözünü lap-lap aç,
Rəng çək, xalqı bütün hamını tovla, tovla
“Eşşəyi bizlə görək, sür yetişək yoldaşə,
Yatma, həmmam deyil, çöldü bu, molla,
Qınama çox da onu əsli qaradağlıdır.
Gördü ənciri, dedi, hay budu alma, alma

İ.Ə.Nəbatinin klassik ədəbiyyata gətirdiyi carpalarında da həmin istiqamət, həmin tənqiqi-satirik ruhu görmək mümkündür:

Get dolanginən, xansən həmiz,
Püstə olmağa çox səfər gərək
Mürği-Qaf ilə həmzəban olub,
Dövrə qalxmağa balü pər gərək.
Yaxud: Mən qılmayın çox da zahidi,
Üzrü yerə xəlq olunmayıb
O əbəs yerə xəlq olunmayıb,
Bağbanə bir kəlləxər gərək

Bu kimi nümunələrin M.Ə.Sabirin satirik-yumoristik şeirləri ilə ideya-mövzu cəhətdən uzlaşdığını, ruhi yaxınlığın olduğunu görmək çətin deyildir.

Nəbatinin bir çox klassik şeir şəkillərədn, bədii təsvir və ifadələrdən istifadə praktikasına M.Ə.Sabir yaradıcılığında da genişliyi ilə rast gəlmək mümkündür. Bu cəhətdən fərqli mövzulara həsr olunsa da hər iki şeirin müstəzad yaradıcılığın nəzər yetirmək kifayətdir. Məsələn:
S.Ə.Nəbatidə:

Ey sünbüli-tərdən üzünə pərdə tutanım,
Ey qönçə dəhanım
Pərvanə kimi başına qoy bircə dolmır,
Ey ruhi rəvanım

M.Ə.Sabirdə:

Ol gün ki, sənə xaliq edər lütf bir övlad,
Olsun ürəyin şad!
Təyin elə cindarı ki, etsin ona imdad,
Ta dəyməyə həmzad;
Belə misalların sayı onlarladır.

S.Ə.Nəbati və M.Ə.Sabir yaradıcılığı arasında oxşar məqamlardan, sələf-xələf münasibətlərindən danışmışkən hər iki şairin bəhri-təvil yaradıcılığına da xüsusi diqqət yetirmək lazım gəlir. Nəbatinin iki dildə, fars və Azərbaycan dilində qələmə aldığı "Mənbeyi-çeşmeyi-hər kəlmə ki,..." sözləri ilə başlayan bəhri-təvili gözəlliyin tərənnümü, Allahın qüdrətinin vəsvi ilə başlasa da şair əsərin ideya istiqamətini ictimai məcraya yönəldərək, sözünü tənqidi-satirik istiqamətdə davam etdirir: "Məbada yaramaz şəxs ilə yoldaş olasan ki, içə o badəni axırda qıra daşla sənin camını, bil ha"

M.Ə.sabirin satiriki mövzuda qələmə aldığı "Ey fələk, zülmün əyandır..." yaxud "Ey əzizim, xələfim..." sözləri ilə başlayan bəhri-təvilləri ilə ideya-sənətkarlıq cəhətdən yaxınlığı ilə diqqəti cəlb edir. Bütün bunlar və digər oxşar nümunələr sübut edir ki, M.Ə.Sabirin sələfləri sırasında Seyid Əbülqasim Nəbatinin adını da hörmətlə çəkmək mümkündür.

## M. Ə. SABİR İRSİNDƏ MƏKTƏB VƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**Yədulla Ağazadə**
**professor**
**Minur Hüseynzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**yedulla.agazade@mail.ru**
**minur.huseynzade@gmail.com**

**Açar sözlər:** M. Ə. Sabir, məktəb, tərbiyə məsələləri

Çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşadan, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldib, zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmış maarifçi-satirik şair M. Ə. Sabir irsi dövrünün güzgüsü, haqq səsidir. M. Ə. Sabir ədəbiyyatımızda və ictimai fikir tarixində yeni şeirin-inqilabi satira məktəbinin banisi və

bayraqdarıdır. “Pisi pis, əyrini əyri, düzü həmvar” yazmağa tövsiyə edən şair, həqiqi sənətkar üçün vətənpərvərliyi, “əsrin aynası” almağı müqəddəs vəzifə hesab edirdi. “Şairəm, əsrimin ayinəsiyəm” deyən şair həqiqətən yaşadığı dövrün bütün eybəcərliklərini, pərdə arxasında qaranlığa qərq olmuş bir çox məsələləri ayna kimi əks etdirə bilmişdir.

Yaradıcılığında xalqı soyub-talayanlara, ictimai tərəqiyyə mane olanlara qarşı kəskin mövqe tutan şair, mövhumat, xurafat, köhnəlmiş adət-ənənələr və s. əleyhinə satirik şeirlər yazırdı. Sabir yaradıcılığında əsas məsələlərdən biri məktəb və tərbiyə məsələsidir. Sabir dönə-dönə maarifi, təhsili təbliğ edir, cəhaləti, mövhumatı tənqid və ifşa edirdi. Bu cəhətdən şairin yumoristik-satirik planda yazdığı “Nədamət və şikayət” şeirində poetik ifadəsini tapmışdır:

Nə bilirdik nə zəhrimardı kitab?
Biz olan evdə haçan vardı kitab?
Büsbütün gül kimi insanlardıq,
Nə müəllim və nə dərs anlardıq.

Göründüyü kimi o dövrdə elmə, kitaba, oxumağa belə biganə münasibət, oxumaq istəyənləri kafir, dinsiz adlandırmaq geniş vüsət almışdı. Məhz belə bir dövrdə M. Ə. Sabir yeni həyata çağırış ruhlu əsərlərində məktəb, mənəvi özünüdərk, tərbiyə və s. məsələlərdə bəhs edir. Xalqın rifaha qovuşmasında elmin, məktəbin nə qədər böyük rolu olduğunu duyur və hamını bu yola dəvət edirdi. Sabirin fikrincə “insan” hər şeydən əvvəl gözəl, saf tərbiyənin məhsuludur:

Ümmətin rəhnüması tərbiyədir,
Millətin pişvası tərbiyədir.
Tərbiyətlə keçir ümuri-cahan,
Hər işin ibtidası tərbiyədir.

Hər işin ibtidası, yəni başlanğıcının tərbiyə olması fikrini irəli sürən şair “Tərbiyət elmsiz deyil məqbul” yazaraq elmin, savadlanmanın, maarifin rolunu da ayrıca vurğulayır və elmlə tərbiyənin vəhdətini göstərmiş olur. Məktəb məsələlərinə həsr etdiyi şeirlərinə “Məktəbə tərğib”, “Elmə tərğib”, “Məktəb şagirdlərinə töhfə”, “Oxutmuram, əl çəkin” və s. aid etmək olar.

Məktəbə tərğib” şeirində Sabir uşaqları, cavanları “Məktəbdə var şərafət, dəftərdə var lətafət” deyərək elmə, savadlanmağa çağırır. Şair gənclərin müasir ruhda tərbiyəsinə yiyələnməkdə elmin rolunu yüksək tuturdu:

Nəsihət al, nəsihət,
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası
Müşkül olur, həqiqət.
Ey gözüm, ey canım!
Get məktəbə cavanım!

“Elmə tərğib” şeirində isə şair elmə yiyələnməyin,maariflənməyin əhəmiyyətini göstərmişdir:

Hər kəs elm oxur-bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zamanıdır!
Oxumaq hər adamın nişanıdır!

Sabir elmsizliyi bir bəla kimi qiymətləndirir və "Məktəb şagirdlərinə töhfə" şeirində üzünü şagirdlərə tutaraq deyirdi:

Oxuyun, millətin nicatı olun!
Ta əbəd baisi-həyatı olun!

Beləliklə Azərbaycan ədəbiyyatında M. Ə. Sabirin özünəməxsus yer tutduğunu nəzərə alaraq deyə bilərik ki, şairin toxundğu bəşəri ideyalar, mövzular öz aktuallığını bugündə qoruyur. Şairin bir zamanlar dərin inam hissi ilə dediyi bu misralar həqiqətə çevrilir:

Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,
Mən gedərəmsə məramım yenə dünyada durar.

## YAZIÇI-PUBLİSİST ƏLİ RZA XƏLƏFLİ YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

**Yədulla Ağazadə**
**professor**
**Ruzanna Məmmədova**
**magistrant**
**Lənkaran Dövlət Universiteti**
**yedulla.agazade@mail.ru**
**ruzannammmdova13@gmail.com**

**Açar sözlər:** Əli Rza Xələfli,vətən,Qarabağ,yurd həsrəti

Çağdaş ədəbi-mədəni mühitin ən parlaq və görkəmli nümayəndələrindən biri də Əli Rza Xələflidir.Əli Rza Xələfli tanınmış şair,yorulmaz tədqiqatçı,istedadlı nasir olduğu kimi həm də alovlu publisistdir.Əli Rza Xələfli yaradıcılığı zənginliyi və əlvanlığına görə olduqca fərqlənir.Ədibin Vətən, Xalq, Millət, Vətən qayğısı,V ətən məhəbbəti, Vətən sevgisi, Vətən həsrəti və onun gələcək problemləri, xalqımızın tarixi mədəniyyəti,müasir mədəni irsi, mənəvi dəyərlərin rolu, vüsal arzusu, gələcəyə nikbin baxışları, yüksək insani duyğular, insana inam və s poetik ifadə vasitələri ilə tərənnüm olunmuşdur.Onun yaradıcılığında yurd həsrəti və Qarabağ mövzusu başlıca yer tutur.Çünki onun həyatında da sənətinin taleyində də Qarabağın öz yeri var. Əli Rza Xələfli Qarabağ və yurd həsrəti ilə bağlı bir çox kitabların müəllifidir. "Üzü Qarabağa", "Yaddaş yanğısı", "Dağlarda duman qaldı", "Ağrı", "Gəyən əfsanəsi" və s kitablarında yazıçı Qarabağ mövzusuna müraciət etmişdir. "Üzü Qarabağa" kitabında müəllifin yazdığı bütün şeirlərində yurd-vətın həsrəti var. O daim üzü vətənə doğru yol gedir və bu vətən Qarabağ adı ilə ümumiləşdirilir.Əli Rza Xələflinin Qarabağ obrazı son dərəcə özünəməxsusdur,orjinaldır,vətən anlayışı kimi müqəddəsdir və Qarabağın özü kimi bənzərsizdir. Əli Rza Xələflinin "Yaddaş yanğısı" kitabına işğal dağıntılarına məruz qalmış yurd yerlərinin acı mənzərələrini əks etdirən iki əsəri daxil edilib: "Yaddaş yanğısı" və "Bir Xələfli var imiş" poemaları. "Yaddaş yanğısı" poeması müəllifin işğaldan azad olunan yerlərə baş çəkməsi zamanı qələmə alınmışdır. Poemanın birinci hissəsində şair Xələf və .Ağrı dağın, Şirvan bulağını, Mürcüyün bağını və s yerləri xatırlayır. Daha sonra şair

yaddaşında qalan ev və həyətləri, malikanələri o evlərin sahiblərini yadına salır. Şairin öz ata yurdu, ata ocağına gəlişi nə qədər ağrılı olsa da yaddaşı şairi bu evə gətirir.

İkinci bölmədə isə Xələfli kəndinin yetirdiyi böyük şəxsiyyətlər və onların doğma yurdlarından uzaqdalarda qazandığı uğurlardan söhbət açılır. Əli Rza Xələfli "Dağlarda duman qaldı" kitabında da Qarabağ mövzusuna müraciət etmişdir.Kitabın ikinci hissəsində müəllifin iki xatirə-poeması verilib. Bu əsərlərdə 20-ci əsrdə cərəyan edən hadisələr, xüsüsilə,Qarabağın işğalı ilə bağlı faciəli hadisələr qeyd olunmuşdur.Bu kitabdakı "Anamın nağılı" poemasında Xudafərin körpüsü, Araz qırağı və Xudayarlı kəndinin çalçırağlı illəri xatırlanır. Kitabdakı "Bir Çinar hekayəti" əsərində isə Qarabağ təbiətinin əsrarəngiz gözəlliyindən danışılır. Və yurd,həsrəti daha qabarıq şəkildə təsvir olunub. Əli Rza Xələflinin "Həsrət körpüsü" kitabında şairin Vətənə, yurda bağlılığını aydın görürük və onun acılı ürək çırpıntılatını hiss edirik. Doğma yurdunun Cəbrayılın, ümumilikdə Qarabağ torpağının düşmən tərəfindən işğalı,ellikcə didərgin düşmələri,çoxlu itki vermələri, illərlə yurd yerinə həsrət onun yaradıcılığında bütöv bir mövzuya çevrilmişdir.Şairin "Ağrı" kitabındakı vətənpərvərlik mövzusunda qələmə aldığı şeirlər öz bədiiliyi ilə,mövzuları əhatə etməsi ilə həmçinin obrazları ilə diqqəti cəlb edir.Kitabdakı "Yaddaşdan yarpaqlar" adlı şeirində şairin xatirələrinin onda yaratdığı kədəri, qəm və qüssəni,onun keçirdiyi ağrı və acıları hiss edirik. "Ağrı" kitabındakı "Bir Çinarın nəğməsi" əsəri də kədərə bürünüb. Şair dağılmış şəhərdən,həsrətdən və kədərdən dağlanmış Xan Çinardan söz açır.Şair bir zamanlar bu yurda bəzək verən,sevənələrə xeyir-dua verən Xan Çinarın ağrısından,yaralarından danışaraq oxucunun qəlbinə toxunur.Müəllifin "Bu dünyanın mehmanısan" adlı kitabında da yurd həsrəti və vətən yaraları ilə bağlı çoxlu şeirləri vardır. Bu şeirlərində də doğma yurdu olan Cəbrayıldan ayrı düşən şairin ürək ağrıdan acıları vurğulanır.

Əli Rza Xələflinin "Həsrətdən üzü bəri" adlı şeirlər toplusunda da vətənpərvərlik duyğularını qələmə alan şeirləri vardır. Kitab "Azərbaycan" şeiri ilə açılır. Şair Azərbaycana müraciətlə deyir:

Duman,çiskin çökən gözlərimsən,
Büküm-büküm dizlərimsən,
Sinəmdə Qarabağ dərdindən ocaq yanır,
Közlərimsən,
Daş asılan ayaqlarım,izlərimsən,
...Şəhid-şəhid saya gəlməz yüzlərimsən.

Əli Rza Xələfllinin vətənpərvərlik duyğularını əks etdirən bayatılarıda vardır:

Dərdimə həmdəm ağlar,
Yad gülər,həmdəm ağlar.
Vətən sarı qəribin
Gözləri hər dəm ağlar.

Şair,publisist,bir çox poema,şeir topluları,monoqrafiya və roman müəllifi olan Əli Rza Xələflinin qələmini bayatı janrında sınaması olduqca maraqlıdır.Bayatıları oxuduqca gözlərimizin önündən Vətənin təbiəti,dağları,çayları,obaları,əsrarəngiz Qarabağı, Cəbrayılı, Füzulisi, Ağdamı, Şuşası və `s. canlanır.Yazdığı Qarabağ və vətənpərvərlik mövzuları ilə oxucuların rəğbətini qazanan müəllif məhz yaradıcılığı və fəaliyyəti ilə Çağdaş Azərbaycan ədəbiyyatında mühüm yer tutur.

Bütün bunlar sübut edir ki, Əli Rza Xələflinin yaradıcılığında Qarabağın azad olunması, erməni işğalına xalqın etirazı artan, genişlənən bir xətlə diqqəti cəlb etməkdədir. Bu əsərlər yetişməkdə olan gənc nəslin mənəvi tərbiyəsində əvəzsiz tərbiyəvi əhəmiyyət daşəyər, hər zaman aktuallığı ilə muasirdir

# AZƏRBAYCANIN MƏDƏNİ İRSİNİN TANINMASINDA UNESCO-NUN ROLU

**Zaur Məmmədov**
**dosent**
**Eltun Muxtarlı**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mammadovzaur@mail.ru**
**muxtarli352@gmail.com**

**Açar sözlər:** UNESCO, təşkilat, mədəni irs, abidə

**Giriş.** İlk növbədə qeyd etmək lazımdır ki, UNESCO BMT-nin elm, təhsil, mədəniyyət və incəsənət sahələri üzrə ixtisaslaşmış qurumudur. Təşkilatın 194 üzv dövləti və 12 assosiativ üzvü var, həmçinin təşkilatın qeyri-hökumət, hökumətlərarası və özəl sektorlarda tərəfdaşları var. Təşkilat 4 noyabr 1946-cı ildə yaranmış, baş ofisi Fransanın paytaxtı Paris şəhərində yerləşir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci ildə UNESCO-ya üzv qəbul edilmişdir. Ulu öndər Heydər Əliyevin 21 fevral 19994-cü il tarixli Sərəncamına uyğun olaraq UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılmışdır. 2004-cü ildən isə Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfiri seçilməsindən sonra UNESCO ilə Azərbaycan Respublikası arasındakı əlaqələr daha da sürətlə inkişaf etməyə başlamış, onun fəaliyyəti nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer almışdır.

**Mövzu:** Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətində mədəni əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilmişdir. Bu istiqamətdə UNECO-ilə əməkdaşlıq xüsusilə diqqət mərkəzində olmudşdur. UNESCO-da təmsil olunan Azərbaycanın daimi nümayəndəliyi, Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu tərəfindən bu sahədə əməli işlər görülmüşdür. Qədim və zəngin tarixə malik Azərbaycan mədəniyyətinin dünyada tanınması və Ümumdünya mədəni irs siyahısında yer alması varislik hüququnun qorunmasıyla yanaşı gələcəkdə baş verəcək istənilən iddiaya qarşı tutarlı cavab missiyasına xidmət edir.

Aparılan uğurlu işlərin nəticəsi olaraq Azərbaycanın "Xınalıq və Köç Yolu Mədəni Landşaftı" adlı nominasiya ərazisi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Bu haqda qərar 2023-cü ilin 18 sentyabr tarixində UNESCO-nun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında qəbul edilmişdir. Beləliklə, ”Xınalıq və Köç Yolu” Azərbaycanda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən 4-cü mədəni irs ərazisi olmuşdur. Bundan əvvəl "Şirvanşahlar Saray Kompleksi və Qız Qalası ilə birlikdə İçərişəhər"(2000), "Qobustan Qaya Sənəti Mədəni Landşaftı"(2007), ”Xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi"(2019) də Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Azərbaycanın maddi mədəniyyəti ilə yanaşı 13 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun ”Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısı"na daxil edilmişdir: ”Azərbaycan muğamı" (2008), "Azərbaycan aşıq sənəti" (2009), "Novruz" (2009), ”Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti" (2010), ”Tar və onun ifaçılıq Sənəti" (2012), "Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadəsi" (2014), ”Lahıcın misgərlik sənəti" (2015), ”Nazik çörəyin hazırlanma və paylaşılma mədəniyyəti: lavaş, katrım, jupka, yufka" (2016), ”Mədəni kimliyin göstəricisi dolmanın bişirilmə və paylaşılma ənənəsi" (2017), ”Kamança simli musiqi alətinin hazirlanma və ifaçılıq sənəti"

(2017), ”Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” (2018), ”Miniatür sənəti” (2020), ”Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti” (2020).

Azərbaycan Respublikası tərəfindən maddi və mənəvi mədəniyyət nümunələrinin qorunması və təbliği istiqamətində UNESCO ilə əməkdaşlıq müasir dövrdə uğurla davam etdirilir. 2019-cu ilin iyun ayının 30-dan iyul ayının 10-dək Bakıda keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında dünyanın 180-dən artıq ölkəsindən 2500-ə yaxın nümayəndə iştirakı ilə Dünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçirilmişdi. Eyni zamanda, UNESCO-nun siyahısında olan və təhlükə ilə üzləşən 166 abidənin hazırkı vəziyyəti müzakirə olunmuşdur On gün davam edən Bakı sessiyasında 29 nominasiya (24-ü mədəni, 4-ü təbii və 1-i qarışıq) UNESCO-nun siyahısına daxil edilmiş, 45 qərar qəbul olunmuş, bir fayl geri götürülmüşdür.

**Nəticə.** Azərbaycan və UNESCO-nun birgə fəaliyyəti nəticəsində mədəni irsimizin dünyada tanıdılması məqsədiylə ölkəmizin müxtəlif bölgələrində, eləcə də xarici ölkələrdə müxtəlif tədbirlər, seminarlar, simpozium həyata keçirilir. Görülən işlərin davamı olaraq Ümumdünya mədəni irs siyahısına bir neçə nominasiya üzrə müraciət davam etməkdədir.

## ADVANCING ACADEMIC DISCOURSE: EMBRACING NOVELTY FOR UNITY AND FLOW

**Parvana Movsumova**
**PhD student**
**Azerbaijan University**
**movsumova.parvana@gmail.com**

**Key words:** academic discourse, innovation, coherence, cohesion, multimedia

In today's swiftly evolving academic realm, traditional discourse methods are undergoing a metamorphosis through inventive strategies integrating technology, collaboration, and interdisciplinary viewpoints. This transition towards a more dynamic and interconnected academic sphere holds great potential for enriching idea exchange and disseminating knowledge. At its core, this transformation seeks coherence and cohesion in scholarly communication—a goal pursued through a multifaceted framework that welcomes cutting-edge tools and methodologies. Cognitive abilities involve intricate mental processes entailing synthesizing diverse knowledge forms via reasoning, investigation, questioning, analysis, and connecting disparate information (Paul, 1995: 489-500).

Both written and oral texts encompass more than their literal content; they comprise various elements like surface and underlying meanings, constituent parts, contextual factors, the speaker or narrator, their communication strategies, and the linguistic choices shaping the atmosphere. Hence, dissecting such texts demands a thorough analysis of their semantics and syntax. Deciphering linguistic codes is pivotal in unraveling deeper text meanings, involving comprehension of word selection, semantic nuances, and juxtaposition of words or phrases. Discourse analysis offers a framework for scrutinizing texts comprehensively, considering all these elements. The interaction between readers and text, leading to comprehension and understanding, involves a complex process that harmonizes multiple information sources and skills (Grabe 1991: 375-406, as cited in Alyousef 2005: 143-154).

Departing from static text-based presentations, innovative academic discourse can integrate interactive multimedia elements like videos, animations, and simulations. Recontextualization, noted by Bauman and Briggs (1990: 59-88) and Linell (1998), emerges as a defining feature of digitally mediated discourse, applicable to academic discourse as well. Advanced visualization tools, including interactive data visualizations and dynamic concept maps, can aid understanding and coherence in academic discourse. Visual analytics, described as "the discipline of analytical reasoning supported by interactive visual interfaces" (Thomas & Cook, 2005: 10-13.), achieves cohesion through logically organizing and interconnecting visual elements, guiding readers through narratives and reinforcing key concepts.

Leveraging social media platforms to facilitate discussions, share research findings, and connect with peers and the public. Platforms like Twitter, ResearchGate, and LinkedIn serve as valuable tools for networking and research dissemination. Exploring AI and machine learning algorithms to analyze large datasets, identify patterns, and generate insights informing academic discourse. These technologies can automate tasks, allowing researchers to focus on more creative and high-level thinking. Traditionally, AI has been examined primarily through a technological lens, but this study approaches AI as a discourse (AID) in its own right, encompassing both oral and written forms of communication (Carvalho et al., 2021:36). AI operates on linguistic structures akin to human language, particularly in systems involving natural language processing, paralleling how discourse participants consider context during communication.

A methodology that directly incorporates the examination of discourse within activities is exemplified by mediated discourse analysis, associated with the work of Ron Scollon and his colleagues (Scollon 2001). Here, the central focus lies on mediated action, essentially denoting how texts are employed in practical contexts. Recognizing the significance of practices in grasping context, Rodney Jones advocates for a perspective shift among discourse analysts, urging approaches embracing multiple modes and employing various methods, emphasizing the importance of people's actions and experiences with texts rather than solely analyzing the texts themselves (Jones 2004: 31). Thus, embracing innovative approaches to academic discourse that enhance coherence and cohesion is vital for promoting effective learning and knowledge dissemination in the academic community.

## РЕАЛИЗАЦИИ СОГЛАСНЫХ В НЕМЕЦКОЙ РЕЧИ АЗЕРБАЙДЖАНЦЕВ-БИЛИНГВОВ

**Аида Собор**
**доцент**
**Азербайджанский Университет Языков**
**sobor.aida@gmail.com**

**Ключевые слова:** дети билингвы, звуки на немецком языке, аффрикаты, окклюзивы.

Немецкий язык имеет ряд особенностей в реализации согласных для азербайджанцев-билингвов. Вот несколько из них: характеристика звуков: В немецком языке есть звуки, которых нет в азербайджанском, и наоборот. Например, аффрикаты

(как "pf" в "Pferd" - лошадь) или окклюзивы (как "ch" в "ich" - я). Для азербайджанцев может быть сложно освоить эти звуки из-за их отсутствия в их родном языке. Просодические особенности: Немецкий язык имеет свои особенности интонации, ритма и ударения, которые могут отличаться от азербайджанского. Это может повлиять на восприятие смысла высказывания и понимание намерений собеседника. Удлинение звуков: В немецком языке часто происходит удлинение согласных звуков в определенных ситуациях, что может быть непривычным для азербайджанских носителей языка. Управление дыханием: Немецкий язык также может требовать особого контроля за дыханием, особенно при произношении длинных слов или фраз. Это может потребовать адаптации для азербайджанцев, чьи языки могут им. При анализе языкового материала используется метод спектрального анализа, направленный на изучение колебаний (на разных частотах), составляющих речевой сигнал. Речь идет об изучении спектра предложений, участвующих в эксперименте.

Фонемы, являясь по существу неделимыми языковыми элементами, характеризуются своеобразным распределением энергии в спектральной области. Каждая фонема в фонологической системе языка имеет в своем спектральном облике области повышенной концентрации энергии, называемые формантами. Расположение формант на спектрограмме, их количество и параметры позволяют однозначно установить фонему, поскольку они обусловлены процессом звукообразования звуковой системой человека.

Из комбинаторного анализа языкового материала были сделаны следующие выводы:

1) в языковом материале встретились двуфонемные сочетания в начале и конце слов, при этом в составе консонантных сочетаний был один из следующих согласных фонем: /l, n, ng, m, R/. Очень редко оба члена выявленных фонемных сочетаний являются сонантами (см. таблицу 4.2.1).

2) сочетания согласных с учетом условия стыка морфем встречались как двуфонемные, так и многофонемные сочетания. Здесь так же, как в составе слов, в качестве одного члена консонантных сочетаний является один из сонорных согласных /l, n, ng, m, R/. Например: /Rtʃp/; /tR/; /nz/; /nʃ/; /tʃp/; /stʃp/; /lgR/.

Что касается аудитивного анализа языкового материала, то результаты его можно свести к следующему:

1) испытуемые с родным русским языком не различают долготу и краткость гласных, так как в их родном языке нет противопоставления гласных фонем по признаку долготы и краткости. Поэтому они вместе немецких долгих гласных в словах с долгими гласными реализуют краткие гласные, подставляя вместе немецких долгих гласных гласные своего русского одного языка. Это хорошо видно на спектрограммах текста (см. спектрограмма 4.3.1, 4.3.2), где словах /ˈzʏːdən/ и /ˈmeːʀən/ реализован соответственно краткие гласные /Y/ и /E/, тогда как по орфофоническим нормам современного немецкого языка в этих словах должны были быть реализованы долгие гласные фонемы;

2) вторым отклонением в произношении русских были обнаружены в закрытости и открытости гласных фонем немецкого языка. Все долгие гласные немецкого языка за исключением гласных заднего ряда (/a:/ и /a/) являются открытыми (см. спектрограмма 4.3.1., 4.3.2., 4.3.3., 4.3.4);

3) третьим отклонением русских в области немецкого вокализма наблюдается в реализации немецких гласных в абсолютном начале слов и морфем, где необходима реализация гласных с кнаклаутом. Мы видим на спектрограммах реализация гласных без этого кнаклаута (см. спектрограмма 4.3.5., 4.3.6., 4.3.7., 4.3.8., 4.3.9., 4.3.10).

Dünyanın qurtuluşu insanların mülayimliyini və insan məsuliyyətini əks etdirməklə insanın ürəyində və qüdrətindədir. Biz hələ də insanları yaradıcılığın yalnız bir hissəsi kimi deyil, zirvəsi kimi görən dağıdıcı və boş inancın təsiri altında görürük. Biz hələ də siyasət, elm və iqtisadiyyat qarşısında əxlaq nümünəsini necə göstərməli olduğumuzu bilmirik. Əgər bu hərəkətlər əqlidirsə, bu artıq məsuliyyətli olmaq deməkdir. Məsuliyyət isə mənim ailəmdən, ölkəmdən, müvəffəqiyyətimdən daha önəmli olan bir şeydir (Vatslav Havel).

Ətraf mühitin faydalarına geniş yaşıllıq sahəsi, təmiz hava və su, çirklənmənin azaldılması landşaftın yaxşılaşdırılması, sənaye, nəqliyyat və texnologiyanın yaratdığı risklər və təhlükələr daxildir. Həm sosial, həm də ekoloji ədalət güc məsələlərinə həssasdır (çirklənməyə səbəb olan çirklənmədən əziyyət çəkən) fərdlərə deyil, icmalara və ya qruplara diqqət yetirmək və problemlərin, islahatların təhlili və həlli üçün vahid yanaşmaya meyllidirlər. "Ekoloji ədalət" burada sosial ədalətin aspektlərini əhatə etmək üçün istifadə

olunur – baxmayaraq ki, bəzən sosial və ekoloji məqsədlər ziddiyyət təşkil edə bilər. Ətraf mühit ədaləti 1970-1980-ci illərdə ABŞ-da bir hərəkat olaraq ortaya çıxdı, bir çox ekoloji təzyiq qrupları ekoloji ədalətsizliklə - cəmiyyətin bəzi təbəqələri tərəfindən ekoloji yüklərin qeyri-mütənasib şəkildə daşınması (məsələn, Nyu-York əyalətindəki Love Canal fəlakəti) ilə mübarizə aparmaq üçün yarandı. Ekoloji ədalət dörd sahədə şəhər yaşıllığı üçün xüsusilə aktual olmuşdur:

1. Sənaye obyektlərinin yerləşdirilməsi və onların yerli sakinlərə təsiri;
2. Sosial və yaxud iqtisadi cəhətdən əlverişsiz ərazilərdə ekoloji fayda və xidmətlərə çıxış;
3. Çirklənmiş sənaye torpaqlarının bərpası;
4. Yerli sakinlərin fikirlərinin planlaşdırma və inkişaf məsələlərinə daxil edilməsi;

Böyük Britaniyada ekoloji ədalət, xüsusilə yüksək fəallıqda olan, tənəzzülə uğrayan və ya tərk edilmiş sənaye ərazilərində və ekoloji cəhətdən təhlükə altında olan və ya çirklənmiş torpaqlarda (məsələn, daşqınlar, keçmiş sənaye fəaliyyəti və ya zəif mənzil materialları və standartları), yaşayış binalarında mühüm məsələdir. Ekoloji ədalət ətraf mühit şəraitini və onların insanların həyatına necə təsir etdiyini öyrənmək üçün qəbul edilmiş və faydalı perspektivdir. Ekoloji ədalət çərçivəsinin qəbul edilməsi ekoloji problemlərin sağlamlığa təsirlərindən kənara çıxaraq onlara məruz qalanların gündəlik həyatına ekoloji yüklərin təsirlərinin geniş spektrini nəzərdən keçirməyi təklif edir. Birbaşa və dolayı ayrı-seçkilik məsələlərinin ciddi siyasət problemi olması və müxtəlif ayrı-seçkilik qanunlarında öz əksini tapması ilə ekoloji bərabərlik ekosistemlər və insanların rifahı arasında əlaqələrə dair bir sıra sosial və ekoloji siyasətlərin və tədqiqatların mühüm hissəsini təşkil edir. Ətraf mühitlə bağlı ədalət işi adətən ortaya çıxan problemin tarixi kontekstinə və ətraf mühitlə bağlı problemlərə dair yerli təcrübələrə və ya narahatlıqlara diqqət yetirməyi tələb edir. O, problemin tarixi kontekstinin qurulmasını və konkret aspektləri ortaya çıxarmaq və kəmiyyətini müəyyən etmək üçün elmi və texniki araşdırmalara əlavə olaraq ilk əldən hesabların əldə edilməsini tələb edir. Təsirə məruz qalan tərəflərin planlaşdırma/nəzarət proseslərində iştirak etmək və səslərini eşitdirmək üçün resurslara malik olub-olmadığını nəzərə almaq vacibdir. Sosial tədqiqatların aparılması insanların narahatlıqlarını nəzərə almağın yeganə və ya ən təsirli yolu ola bilər.Müvafiq məlumat əldə etmək hüququ və maraqlı və təsirə məruz qalan tərəflərin qərar qəbul etməsində iştirak bütün səviyyələrdə (yerli, milli və beynəlxalq) ekoloji ədalətin əsas komponentləri hesab olunur və Orxus Konvensiyasında, eləcə də müxtəlif milli qanunlarda təsbit olunub və beynəlxalq müqavilələrə əsasən ekoloji ədalətsizlik problemlərinin dəqiq həlli yoxdur. Bu perspektiv mövcud ekoloji problemlərin və ya planlaşdırılan layihə inkişaflarının kontekstinin diqqətlə araşdırılmasını və onların təsirə məruz qalan (və daha geniş) icmalara təsirlərinin qiymətləndirilməsini tələb edir. Gələcək inkişaf təkliflər baxımından, layihə menecerləri hansı sahələrin inkişaf etdiriləcəyini və əlverişsiz ərazilərin yaşıllıqların yaxşılaşdırılmasından və ya inkişafından faydalana biləcəyini diqqətlə qiymətləndirməlidirlər.

**Nəticə:** Biz insan hüquqlarının təhsilinə dair ölçülərini təsvir etdik və insan hüquqlarını müdafiə etmək üçün lazım olan bilik, bacarıq və münasibətləri yalnız təcrübədə öyrənilə biləcəyini vurğuladıq. Gənclərin yüksək potensiallarından istifadə edərək onları ətraf mühitlə əlaqəli fəaliyyətlərə cəlb etməliyik .Onlar regional və milli səviyyədə ictimai müzakirələrə və siyasi debatlara müxtəlif yollar ilə məsələn, məktub yazmaqla, fəaliyyətlərini təqdim etməklə və ya nümayiş keçirməklə təsir göstərə bilərlər. Ətraf mühitin qorunması və onun haqqında maariflənmə məsələləri ilə Avropada bir çox gənclər təşkilatlarının ilk prioriteti kimi müəyyən edilməsə belə, onlar üçün bu, əhəmiyyətli bir məsələdir. Ekoloji təhsil və sərhəd tanımayan hərəkətlərə dair maariflənməni həyata keçirən

və fəaliyyəti ətraf mühit və insan hüquqlarının qorunması məsələlərinə əsaslanan bir neçə Avropa gənclər təşkilatları və hərəkatları vardır. Ölkəmizdə də ETSN bu məsələlərə həsas yanaşaraq bir çox tədbirlər görərək ekoloji fəlakətlərin qarşısını alır. Azərbayan Respublikasında ekofəallar ətraf mühitin çirklənməsi və bu çirklənmənin ciddi fəsadları olacağı təqdirdə öz narahatlıqlarını ETSN rəhbərliyinə bildirərək bu məsələni həll edirlər.

# ƏDƏD ANLAYIŞININ TƏDRİSİNDƏ ƏDƏDİ VƏ DƏYİŞƏNİ OLAN İFADƏLƏRİN ÇEVRİLMƏSİNİN TƏLİMİ METODİKASI


**Ədalət Axundov**
**professor**
**Aygün Mehdiyeva**
**müəllim**
**Fatimə Baxşızadə**
**magistrant**
**Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki kolleci**
**Lənkəran Dövlət Universiteti**
**adalakhund@mail.ru**
**Aygunmehdiyeva1504@gmail.com**
**Baxsizadfatim@gmail.com**



**Açar sözlər:** ədədi ifadə, dəyişəni olan ifadə, ifadənin ədədi qiyməti, ifadənin hesab əməlləri


Ədədi ifadə və onun çevrilməsi anlayışı V sinfin riyaziyyat fənn kurikulumuna daxil olan anlayışlardan biridir. Bu anlayışların tədrisi müəllimdən hesabı cəbrlə daha üzvü və dərindən əlaqələndirmək, proqram materialını daha məntiqi əsas üzrə öyrətmək bacarığına malik olmağı tələb edir.

Şagirdlər natural ədədlər üzərində əməlləri öyrənərkən ədədi ifadə və ifadənin ədədi qiymətinə rast gəlirlər. Məsələn, natural ədədlərin toplanması öyrədilərkən qeyd edilir ki, ədədlər və bunların arasında qoyulan əməl işarəsi ədədi ifadə əmələ gətirir. Müəllim ədədi ifadə və onun çevrilməsini şagirdlərə əvvəlcədən məlum olan anlayışlarla əlaqəli şəkildə öyrətməlidir. Ədədi ifadə, dəyişəni olan ifadə, ifadənin ədədi qiyməti və ifadənin hesab əməlləri qanunları əsasında çevrilməsinə aid şagirdlərə veriləcək materialı və onun metodikasını bəzi misallarla göstərək

Məlumdur ki, müxtəlif məsələlərin həlli zamanı ədədi ifadə tərtib etməli oluruq. Məsələn Sona dükandan bir kiloqramı 15 manatdan 3 kiloqram ət, bir kiloqramı 1 manatdan 2 kiloqram kartof alaraq, satıcıya bir 50 manatlıq verdi. Satıcı Sonaya nə qədər pul qaytardı?

Şagirdlərin aşağıdakı suallara cavab vermələrini tələb edirik:

Sona aldığı ət üçün nə qədər pul verməlidir? $15 \text{ manat} \cdot 3$.

Kartof üçün nə qədər pul verməlidir? $2 \text{ manat} \cdot 2$.

Ət və katrof üçün birlikdə nə qədər pul verməlidir? $15 \cdot 3 + 1 \cdot 2$

Satıcı Sonaya nə qədər pul qaytarmalıdır? $50 - (15 \cdot 3 + 1 \cdot 2)$

Qeyd edirik ki, tələb olunanı tapmaq üçün, tərtib olunan $50 - (15 \cdot 3 + 1 \cdot 2)$ ədədi ifadəsinin qiyməti hesablanmalıdır. Bu zaman əməllərin yerinə yetirilmə ardıcıllığı gözlənilməlidir.

Şagirdlərin ifadənin məzmununu sözlə ifadə etmək, yəni ifadənin məzmununu izah edən cümləni tərtib etmək bacarığını möhkəmləndirilməsinə xüsusi fikir verilməlidir.
İfadəni oxumaqdan ötrü, əvvəlcə bu ifadədə verilən əməllərin yerinə yetirilmə ardıcıllığı sözlərlə ifadə edilir. Məsələn, ifadə $612: 12 + 14 \cdot 23$ kimdirsə, bunu belə oxumaq lazımdır: 612 və 12 ədədlərinin qisməti ilə 14 və 23 ədədlərinin hasili cəmi.

Şagirdlər natural ədədləri müqayisə etməyi bilirlər. Eyni qayda ilə ifadələrin bərabərliyi və ya bərabərsizliyi anlayışı verilir. İki ifadənin ədədi qiyməti bərabər və ya müxtəlif ola bilər. Məsələn, $24 \cdot 4$ və 83+13 ifadələrinin ədədi qiymətləri bir-birinə bərabərdir. $24 \cdot 4 = 96;$ 83+13=96. Ona görə bu ifadələr arasında bərabərlik yaza bilərik: $24 \cdot 4 = 83 + 13$.

Sonra qeyd edilir ki, ədədi qiymətləri müxtəlif olan iki ifadədən ədədi qiyməti böyük olan ifadə böyük hesab edilir. Məsələn, 102+18=120 və $32 \cdot 5$ ifadələrinin ədədi qiymətləri bərabər deyil; $102 + 18 = 120; 32 \cdot 5 = 160; 160 > 120$ yaxud $120 < 160$ olduğundan $32 \cdot 5 > 102 + 18$ yaxud $102 + 18 < 32 \cdot 5$ yazarıq.
Şagirdlərə xatırladırıq ki, hər hansı natural ədədə vahid əlavə etdikdə ondan sonra gələn həmin vahid qədər böyük olan natural ədəd alınır. Belə ki, $7 > 6; 7 + 1 > 6 + 1; 8 + 1 > 7 + 1;$ ... olur.

Göstəririk ki, bu xassəni istənilən natural ədəd üçün yazmaqdan ötrü hərflərdən istifadə edilir. $a$ hərfi ilə istənilən natural ədədi işarə edək: onda bundan sonra gələn natural ədədi $a + 1$ kimi yazarıq. İstənilən natural ədədin işarə olunduğu hərfə riyaziyyatda dəyişən deyilir. Belə hərfi olan ifadəyə dəyişəni olan ifadə deyilir. Məsələn, $a + 1$ dəyişəni olan ifadələrdən şagirdlər hələ natural ədədlər üzərində əməlləri öyrənərkən istifadə etmişlər. Belə ki, $a$ və $b$ istənilən natural ədədlər olduqda, $a + b$ bunların cəmi $a \cdot b$ isə hasili olur. Burada $a + b$ və $a \cdot b$ ifadələrinin hər birinə $a$ və $b$ kimi iki dəyişən daxildir. $a + b$ və $a \cdot b$-də natural ədədlərdir. Bunu sinvolik olaraq $a \in N; b \in N; a + b \in N$ və $a \cdot b \in N$ kimi yazaraq, belə izah edirik.

Tənliyin köməyilə məsələ həll edərkən də dəyişəni olan ifadələrdən istifadə etdiyimizi qeyd edərək, buna aid aşağıdakı kimi bir neçə məsələ həll etdiririk.

Məsələ. Səkkizillik və orta məktəbdə birlikdə 1280 nəfər şagird vardır. Orta məktəbdəki şagirdlərin sayı səkkizullik məktəbdəkindən 3 dəfə çox olduğunu bilərək, ayrılıqda hər məktəbdəki şagirdlərin sayını tapın.

Həlli. Səkkizillik məktəbin şagirdlərinin sayını $x$ ilə işarə etsək, orta məktəbin şagirdlərinin sayı $3x$ ilə ifadə olunar. Onda birlikdə iki məktəbdəki şagirdlərin sayı $x + 3 \cdot x$ ilə ifadə olunar ki, bu da 1280-a bərabərdir. Yəni $x + 3 \cdot x = 1280$ olar. Onda $x = 320$ alarıq. Deməli, səkkizullik məktəbdə 320 nəfər, orta məktəbdə isə $320 \cdot 3 = 960$ nəfər şagird vardır.

Şagirdlərə misallarla izah edirik ki, dəyişəni olan ifadə müxtəlif ədədi qiymətlər ala bilər. Belə ifadənin ədədi qiymətləri buna daxil olan dəyişənin aldığı ədədi qiymətlərdən asılı olur. Məsələn, üçbucağın bir tərəfinin uzunluğu $a$ sm, ikinci tərəfinin uzunluğu $b$ sm, üçüncü tərəfinin uzunluğu isə $c$ sm olduğunu bilərək, onun perimetrini hesablamaq üçün uyğun ifadə tərtib edin. $a = 11\ sm;\ b = 24\ sm;\ c = 18\ sm$ olduqda üçbucağın perimetrini hesablayın.

Həlli: Üçbucağın perimetrinin nədən ibarət olduğunu təkrarlayırıq. Qeyd edirik ki, üçbucağın perimetri ədədi qiymətcə onun tərəflərinin uzunluqlarını göstərən ədədlərin cəmindən ibarətdir. Perimetri hesablamaq üçün aşağıdakı ifadəni alırıq: $a + b + c$. Sonra isə $a, b$ və $c$-yə uyğun qiymətləri verərək, üçbucağın perimetrini hesablayırıq.

Natural ədədlər üzərində bütün ədədlərə aid misallar həll edərkən, mümkün qədər hesablamanı səmərəli və tez yerinə yetirməyə çalışdığımızı misallarla təkrarlayırıq. Bu məqsədlə, yeri gəldikcə hesab əməlləri qanunlarından, komponentlərin dəyişməsilə əməl nəticəsinin dəyişməsi arasındakı asılılıqdan istifadə etdiyimizi qeyd edirik.

Şagirdlərə hesablamaları düzgün və sadə üsulla yerinə yetirmək öyrədilməlidir. Bunu aşağıdakı kimi məsələlər həll etdirməklə yerinə yetirmək olar.

Tərəfi 12 sm olan kvadratın perimetrini hesablayın. Hesablama üçün lazım olan ifadəni tərtib edin. Müəllim kvadratın perimetrini hesablamaq üçün bəzi suallar verir:Kvadratın perimetri nədir? Kvadratın perimetrinin ədədi qiyməti olaraq nə götürülür?

Tələb olunan hesablamanı aparmaqla aşağıdakı ifadə tərtib edilir:

12+12+12+12=48 (sm)

## RİYAZİYYAT TƏLİMİ PROSESİNDƏ MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİNDƏN İSTİFADƏ EDİLƏN ÜSULLARIN ƏHƏMİYYƏTİ

**Ədalət Axundov**
**professor**
**Nüşabə Həsənzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**adalakhund@mail.ru**
**nusabe.camalzade@mail.ru**

**Açar sözlər:** müstəqil iş, tədris prosesi, mövzunun möhkəmləndirilməsi, “güclü” və “zəif” şagirdlər.

Hər bir müəllim cari dərsi planlaşdırarkən bu dərsdə müstəqil işlərin yerini və rolunu dərsin tipinə, məqsədinə və məzmununa uyğun olaraq müəyyənləşdirir. İbtidai siniflərin riyaziyyat təlimində müstəqil iş formasından mövzunun möhkəmləndirilməsində və təkrar dərslərdə daha çox istifadə edilir.

Tədris prosesində müstəqil işləri müvəffəqiyyətlə əsasən aşağıdakı metodik üsullarla həyata keçirmək olar:

- Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılamsı məqsədi ilə təşkil olunan müstəqil işlər (sualların cavablandırılması, mövzu ilə əlaqədar tədqiqatın aparılması, məsələ və misallaın həlli və s.);
- Yeni mövzunun öyrənilməsi ilə əlaqədar aparılan müstəqil işlər;
- Mövzunun möhkəmləndirilməsi ilə əlaqədar aparılan müstəqil işlər;
- Müstəqil həll olunan məsələlərin həllinin yerinə yetirilməsi (kollektiv iş üsulundan istifadə edərək bütün şagirdlər eyni tapşırığı yerinə yetirir, bəziləri müstəqil şəkildə, digərləri isə müəllimin köməyi və nəzarəti altında);
- İşin həcminə uyğun olaraq yerinə yetirilən müstəqil işlər;
- Birbaşa müəllimin rəhbərliyi ilə yerinə yetirilən müstəqil işlər.

İbtidai sinif şagirdlərinə müstəqil işlər təklif olunarkən müəllim əlavə olaraq vərəqlərdə fərdi tapşırıq vasitəsilə verilən tapşırığa uyğun məlumatlar və məsələlərin həlli nümunələrini də təqdim edir. Bununla da müəllim şagirdlərə müstəqil işi tez və düzgün yerinə yetirmələri üçün geniş şərait yaradır. Həmin vərəqlərdə məlumat materialları, qeydlər, illüstrasiyalar, qısa yazılar, sxemlər, köməkçi suallar, tapşırığın həlli planı, verilən məsələdə kiçik detallara diqqəti yönəltmək kimi hallar da ola bilər.

Müstəqil işlərin yerinə yetririlməsi zamanı istifadə olunan metodik üsullar biri-biri ilə hökmən sıx şəkildə əlaqələndirilməlidir.

Yeni riyazi materiallarının öyrənilməsində verilən müstəqil işlərin əhəmiyyəti haqqında biz aşagıdakıları qeyd edə bilərik:

Riyaziyyat fənnindən yeni materialları şagirdlərin hamısı eyni bir səviyyədə qavraya bilmirlər. Şagirdlər öz qavrama səviyyələrinə görə bir-birlərindən kəskin şəkildə fərqlənirlər. Ona görə də hər bir şagirdi müəllim qavrama dərəcəsinə görə fərqləndirməyi bacarmalı və müstəqil iş üçün tapşırıqları da ona görə hazırlamalıdırlar. Müəllim şagirdlərin müstəqil işi müvəffəqiyyətlə yerinə yetirmələri üçün onlara hansı təlimatlar vermək lazım olduğunu qabaqcadan müəyyənləşdirməlidir. Yeni materialın dərk edilməsi ilə bağlı şagirdlərin bilik, bacarıq və vərdişlərin nəzərə alınması çox böyük əhəmiyyət kəsb edir. Şagirdlər tərəfindən sərbəst şəkildə aparılan müstəqil işlərin müxtəlif istiqamətlərdə öyrənilməsinə imkan verən sualların da müəllim tərəfindən əlavə olaraq hazırlanması olduqca çox vacibdir. Qeyd edək ki, belə sualların həlli şagirdlərin yaddasaxlama və anlama qabiliyyətinin möhkəmlənməsinə olduqca böyük müsbət təsir göstərir.

Məlumdur ki, dərsi planlaşdırarkən müəllim qarşıya müəyyən bir məqsəd qoyur və bu qoyulan məqsəddən yeni alınan nəticələr hasil olur. Deməli, son nəticənin dogru alınması üçün mövzuya diferensial yanaşma tələb olunur. Yeni riyazi materialın qavranılması üçün müəllim əsasən nisbətən "zəif" şagirdlərə daha çox vaxt ayırmalıdır, çünki "orta" və ya "güclü" (istedadlı) şagirdlər özləri yeni öyrəniləcək dərs materialını müstəqil olaraq araşdırmağı sərbəst şəkildə bacarırlar.

Yeni materialın möhkəmləndirilməsi məqsədi ilə aparılan müstəqil işləri verək: Müstəqil işlər dərsin möhkəmləndirilməsi mərhələsində aparılan vacib hallardan biri kimi qiymətləndirilir. Şagirdlərin müstəqil işləmələri üçün onların müxtəlif növdə verilən riyazi tapşırıqları həll etmələrinə böyük bir ehtiyac yaranır. Dərsin müstəqil iş üçün ayrılmış mərhələsində "güclü" və "zəif" şagirdlərin ayrı-ayrılıqda bilik, bacarıq və vərdişlərini genişləndirən və dərinləşdirən əlavə tapşırıqlar yerinə yetirmələri üçün xeyli zamanları olur. Öyrənilən mövzunun möhkəmləndirilməsi ilə əlaqədar müstəqil işləri elə təşkil etmək lazımdır ki, hər bir şagirdin verilən tapşırıqlar vasitəsi ilə öz imkanları çərçivəsində əldə etdikləri bilik, bacarıq və vərdişləri dərsdən sonrakı vaxtlarda da tətbiq edə bilsinlər. Riyaziyyatdan öyrənilən nəzəri biliklərin tətbiqi prosesi çalışmalar sisteminin hazırlanmasından və təqdim edilməsindən olduqca çox asılıdır.

Müstəqil iş üçün hazırlanmış tapşırıqlar sistemini aşağıdakı kimi müəyyən etmək olar:

1. "güclü" və "zəif" şagirdlərin səviyyəsinə tam uyğun olan müstəqil işlər üçün tapşırıqların düzgün seçilib yerləşdirilməsi;
2. Şagirdlərin yol verdikləri riyazi səhvlərin vaxtında aradan qaldırılması üçün nəzərdə tutulan əlavə müstəqil iş variantlarının hazırlanması;
3. Şagirdlərin ümumi intellektual bilik səviyyəsini inkişaf etdirmək üçün verilən müstəqil işlərin hazırlanması və s. Müsəqil iş vasitəsilə şagirdlər üzərində nəzarət və qiymətləndirmənin aparılması, həmçinin şagirdlərin əldə etdiyi bilik, bacarıq və vərdişlərin müəyyənləşdirilməsi,öyrənilən riyazi biliklərin formalaşdırılmasının məqsədəuyğun şəkildə yönəldilməsi.

Müstəqil iş vasitəsilə aparılan təlim hər bir şagirdin maraq və qabiliyyətlərinə istinad edərək, onların bilik, bacarıq və vərdişlərinin dərinləşməsinə və genişləndirilməsinə şərait yaradır, onların geriləməsini isə vaxtında görərək aradan tam qaldırılmasına mühüm şərait yaradır.

# XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ ƏSASINDA MƏKTƏBLİLƏRİN EKOLOJİ MARİFLƏNDİRİLMƏSİ

**Elman İskəndər**
**professor**
**Validə Hüseynova**
**magistrant**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Mikrobiologiya İnstitutu**
**Lənkəran Dövlət Universiteti.**
**acae55@hotmail.com**
**validehuseynova0002@gmail.com**

**Açar sözlər:** təbii mühit, ekoloji problem, təhsil potensialı, ekoloji mədəniyyət.

Müasir dünyanın inkişafı, elmi-texniki tərəqqi bir tərəfdən istehsalın texniki səviyyəsinin yüksəldilməsinə səbəb olursa, digər tərəfdən ekoloji problemləri artırır. Təbii mühitin sənaye və kənd təsərrüfatı istehsalı ilə çirklənməsi, iqlimin istiləşməsi və nəticədə dəniz səviyyəsinin qalxması, ozon dəliklərinin yaranması, biomüxtəlifliyin sürətli azalması, meşələrin qırılması və ekosistemlərdə davamlılığın azalması ekoloji problemlərin yalnız bir hissəsidir. Biologiya elminin aspektlərinə müraciət etmədən hər hansı bir ekoloji problemin həlli sadəcə qeyri-mümkündür, ekologiya ilə biologiya arasında müxtəlif təhsil səviyyələrində öyrənilən əlaqə xüsusilə vacibdir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin (XMTƏ) öyrənilməsi şagirdlərdə ekoloji dünyagörüşün əsaslarını formalaşdırmağa kömək edir. Bölgənin ərazilərini nəzərdən keçirərkən ətraf mühitə daxil olan zərərli faktorların mənbələrini bilmək zəruridir. Uşaqlar müxtəlif ərazilərə ekskursiyalar və gəzintilər etmək vasitəsilə ətraf mühitlə yaxından tanış olur ki, bu da onlara doğma torpaqlarının xüsusiyyətlərini, nadir və nəsli kəsilməkdə olan canlıları öyrənməyə kömək edir. Beləliklə, onlarda bölgələrin və bütövlükdə ölkənin təbiətinə qayğıkeş münasibət dərinləşir və idrak marağı inkişaf etdirilir. İnsan potensialının ən mühüm komponentlərindən biri təhsil potensialıdır. Təhsil potensialının mövzusu insanın əhəmiyyətli bir xüsusiyyətidir: ətrafındakı dünyanı təkcə reallıqda bioloji və sosial yönüm üçün deyil, həm də insanın dünyaya ən vacib münasibətində - nüfuz etmək istəyində dərk etmək, onun müxtəlifliyini, əsas cəhətlərini, səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını şüurda əks etdirmək faydalı olur. Bütün komponentlər məktəblərdə sinif və məktəbdənkənar təhsil formalarında izlənilir və öyrənilir. Məktəblərdə və müxtəlif təhsil səviyyələrində ən çox yayılmış təhsil forması sinif formasıdır. Bu, ən qənaətcil sistemdir, əlçatanlığı, ardıcıllığı, öyrənmə gücünü təmin edir və müəllim təhsil prosesinin lideri kimi çıxış edir. Ekoloji tərbiyə marifləndirmə işinin təşkilinin spesifik formasıdır, eyni yaşda olan şagirdlərin siniflərə və ya qruplara bölünməsindən, onlarla dərslərin əvvəlcədən müəyyən edilmiş cədvələ uyğun olaraq keçilməsindən və bütün şagirdlərin müəyyən edilmiş qaydada işləməsindən ibarətdir. Məktəbdə tədrisin aparıcı forması dərsdir. Mühafizə olunan ərazilərin mövzuları daha çox coğrafiya dərslərində tədris olunur, lakin biologiya, tarix və ədəbiyyat dərsləri də onunla əlaqələndirilə bilər. Məsələn, coğrafiya müəllimi qorunan ərazilər haqqında biliklərindən çay deltaları ilə bağlı dərsdə, bioloq köçəri quşlardan danışarkən, ədəbiyyat müəllimi mənzərəni təsvir edərkən istifadə edə bilər. Biz həmçinin bölgəmizdəki qorunan ərazilərə həsr olunmuş dərs və ya sinif saatı keçirə bilərik. Onu elə planlaşdırmaq olar ki, müəllim ümumi strukturu əhatə edə bilsin (giriş nitqi söyləyir, şagirdlərin mövcud biliklərini yeniləyir, müqayisə edir, yekunlaşdırır), məktəblilər isə xüsusi mühafizə olunan ərazilər haqqında qısa şifahi

məruzələr və təqdimatlar hazırlayırlar. Məktəblilərin ekoloji mədəniyyətinin formalaşdırılması üçün resurs kimi xüsusi mühafizə olunan ərazilərdən səmərəli istifadə etməyə imkan verən metodik sistemin işlənib hazırlanması faydalı olar. İşlənib hazırlanmış metodiki sistemin səmərəliliyinin qiymətləndirilməsi həm ekoloji mədəniyyətin əsas komponentlərini, həm də bütövlükdə ekoloji mədəniyyət fenomeninin özünü əks etdirən meyarlar əsasında həyata keçirilir. Tədqiqat işimizdə məktəblilərin ekoloji mədəniyyətinin formalaşdırılması sistemində resurs kimi mühafizə olunan ərazilərdən istifadənin mümkünlüyü sübut edilmişdir.

## KOORDİNATA NƏZƏRƏN DƏYİŞƏN KÜTLƏLİ ŞREDİNGER TƏNLİYİNİN HÜLTEN ÜSTƏGƏL KULON TENZOR POTENSİALI ÜÇÜN HƏLLİ

**Elnur Dadaşov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**elnurdadashov82@mail.ru**

**Açar söz**: Şredinger tənliyi, Hülten potensialı, Kulon-tezor potensialı, Nikiforov-Uvarov metodu.

Şredinger tənliyi mikroskopik sistemlərin dinamikasını təsvir edən ən unikal tənlikdir. Xüsusi halda molekulyar fizika və atom fizikasında sistemin elektron quruluşunu və enerji paylanmasını təsvir etmək üçün istifadə edilir. Relyativistik zərrəcik sahə ilə qarşılıqlı təsirdə olduqda nöqtədən nöqtəyə onun enerjisi dəyişir. Kütlə də enerji ölçüsü olduğuna görə bu qarşılıqlı təsir zamanı zərrəciyin kütləsi koordinatdan asılı olaraq dəyişir. Bu baxımdan koordinata nəzərən dəyişən kütləli Şredinger tənliyinin həlli yarımkeçiricilərin heterostrukturunun, kvant mayelərinin, helium və metal tip birləşmələrin və nüvələrin fiziki xassələrin təyin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Biz bu işdə koordinata nəzərən dəyişən kütləli Şredinger tənliyini Hülten üstəgəl Kulon tenzor potensialı üçün həll etmişik. Birölçülü Şredinger tənliyi aşağıdakı kimi verilir:

$$-\frac{\hbar^2}{2}\left[\nabla_y \frac{1}{M(y)}\nabla_y\right]\Psi(y)-\left[E-V(y)\right]\Psi(x)=0 \tag{1}$$

Burada koordinatdan asılı kütlə həddini $M(y)=m_0 m(y)$ kimi seçirik. Sadəlik üçün $\hbar=2m_0=1$qəbul edirik. Onda Şredinger tənliyi aşağıdakı şəklə düşəcək:

$$\left(-\frac{1}{m(y)}\cdot\frac{d^2}{dy^2}+\frac{m'(y)}{m^2}\cdot\frac{d}{dy}+V_{eff}(y)-E\right)\Psi(y)=0 \tag{2}$$

Burada $V_{eff}(y)$ - Hülten və Kulon tenzor potensiallarının cəmi kimi təyin olunur:

$$V_{eff}(y)=V_H(y)+V_C(y) \tag{3}$$

Uyğun olaraq Hülten potensialı və Kulon tenzor potensialı aşağıdakı kimi verilir:

$$V_H(y) = -\frac{Ze^2\delta e^{-\delta y}}{1-e^{-\delta y}} \tag{4}$$

$$V_C(y) = -\frac{Q}{y},\ \ Q = \frac{Z_a Z_b}{4\pi\varepsilon_0}, \tag{5}$$

Burada Z-atomun sıra nömrəsi, $\delta$-ölçüsüz ekranlaşma parametridir. $\delta y \prec\prec 1$ şərti daxilində aşağıdakı yaxınlaşmanı tətbiq edirik:

$$\frac{1}{y} \approx \frac{\delta}{(1-e^{-\delta y})},\ \frac{1}{y^2} \approx \frac{\delta^2}{(1-e^{-\delta y})^2} \tag{6}$$

Kütlə həddini

$$m(y) = (1-e^{-\delta y})^{-1} \tag{7}$$

kimi seçirik. (4) və (5) - i (3)-də nəzərə alsaq:

$$V_{eff}(y) = -\frac{Ze^2\delta e^{-\delta y}}{1-e^{-\delta y}} - \frac{Z_a Z_b}{4\pi\varepsilon_0}\cdot\frac{\delta e^{-\delta y}}{1-e^{-\delta y}} = -\frac{(A+B)e^{-\delta y}}{1-e^{-\delta y}} \tag{8}$$

olacaq. Burada $A = Ze^2\delta$, $B = \frac{Z_a Z_b}{4\pi\varepsilon_0}\delta$. (8) ifadəsini (1) tənliyində yazmaqla Şredinger tənliyi üçün

$$\frac{d^2\Psi(y)}{dy^2} - \frac{m'(y)}{m(y)}\cdot\frac{d\Psi(y)}{dy} + m(y)\left(E + \frac{(A+B)e^{-\delta y}}{1-e^{-\delta y}}\right)\Psi(y) = 0 \tag{9}$$

alırıq. Yeni dəyişənlərə keçək: $z = e^{-\delta y}$, və $0 \le z \le 1$, Onda (9) tənliyi bu formada olacaq:

$$\frac{d^2\Psi(z)}{dz^2} + \frac{1-2z}{z(1-z)}\cdot\frac{d\Psi(z)}{dz} + \frac{1}{(1-z)^2 z^2}\left[-\varepsilon^2(1-z) + \alpha^2 z(1-z)\right]\Psi(z) = 0 \tag{10}$$

Nikiforov-Uvarov metodunun tətbiqi üçün (10) ifadəsi aşağıdakı hiperhəndəsi tənliyə gətirilir:

$$u''(z) + \frac{\tilde{\tau}(z)}{\sigma(z)} + \frac{\tilde{\sigma}(z)}{\sigma^2(z)} = 0 \tag{11}$$

(10) və (11) ifadələrini müqayisə etsək:

$$\tilde{\tau}(z) = 1-2z,\ \sigma(z) = z(1-z),\ \tilde{\sigma}(z) = -\varepsilon^2(1-z) + \alpha^2 z(1-z) \tag{12}$$

(11) tənliyinin həlli olan $\pi(z)$ -polinomu belə seçilir:

$$\pi(z) = \frac{\sigma'(z)-\tilde{\tau}(z)}{2} \pm \sqrt{\left(\frac{\sigma'(z)-\tilde{\tau}(z)}{2}\right)^2 - \tilde{\sigma}(z) + k\sigma(z)} \tag{13}$$

(13) ifadəsini həll edib $\pi(z)$ üçün dörd həll tapırıq. NU metoduna əsasən $\pi(z)$ polinomunun dörd mümkün formasından birini seçirik ki, bu polinom üçün $\tilde{\tau}(z)$ funksiyasının törəməsi mənfidir və onun kökü (0, 1) intervalında yerləşir. (1) tənliyini həll etdikdən sonra enerji spektri üçün analitik ifadəni tapmış oluruq:

$$E_n = -\left[\frac{\sqrt{(1+2n)^2 + 8(b-n(n+1))} - (2n+1)}{4}\cdot\delta\right]^2 \tag{14}$$

Həmçinin sistemin məxsusi funksiyası və dalğa funksiyasının normallanma sabiti üçün aşağıdakı analitik formul alırıq:

$$y_n(z) = C_n \cdot P_n^{(2\varepsilon)}(1-2z) \tag{15}$$

$$C_n = \sqrt{\frac{2\varepsilon n!(n+\varepsilon)\Gamma(2\varepsilon+1)\Gamma(2\varepsilon+n)}{n\cdot\Gamma(n)\Gamma(2\varepsilon)\Gamma(n+2\varepsilon+1)}} \quad (16)$$

## İNKLÜZİV TƏHSİLİN ASPEKTLƏRİ VƏ BU SAHƏDƏ GÖRÜLƏN TƏDBİRLƏR

**Elvin Əliyev**
**dosent**
**Naibəxanım Məlikli**
**magistrat**
**Lənkəran Dövlət Universiteti**
**elvinaliyev1989@gmail.com**
**naibemelikli@mail.ru**

**Açar sözlər:** İnklüziv təhsil, psixoloji müşahidə, müəllimlər üçün təlimlər, şagirdlərdə sosiallıq, metodik dəstək

Tədqiqatımızın məqsədi əqli və fiziki bacarıqlarında müəyyən nöqsanlar olan uşaqların ümumtəhsil müəssisələrində tədris və ya inklüziya proseslərinə cəlb edilməsinə dair əsas nəzəri və praktiki yanaşmalar üzrə həyata keçirilən tədbirləri araşdırmaqdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların digər həmyaşıdları ilə birgə təhsil alması onlar üçün olduqca səmərəli tədris forması sayıla bilər. İnklüziv məktəblər xüsusi qayğıya ehtiyacı olan uşaqların tədris fəaliyyətindən geri qalmaması və cəmiyyətdən təcrid olunmaması üçün üçün yaradılmış xüsusi təhsil müəsisələridir. Burada təhsil alan şagirdlər digər şagirdlərdən fərqli bioloji xüsusiyyətlərə malik olduğu üçün onların təhsil imkanlarının artırılması və elmə yiyələnməsi mürəkkəb və bir o qədər də vacib prosesdir. Sağlamlıq imkanları məhdud uşqların  təhsil hüququnu digər uşaqlarla bərabər səviyyədə təmin etmək və onların təhsili üçün maneəsiz mühit yaratmaq üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən  "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncam ilə təsdiq edilmişdir.

İnklüziv təhsil müxtəlif əqli və fiziki bacarıqlı uşaqların, digər uşaqların da böyük məmnuniyyətlə iştirak etdikləri məktəb həyatının bütün aspektlərinə tam cəlb edilməsidir. Bu proses istisnasız olaraq, bütün uşaqların tələblərinin qarşılanması, müxtəlifliyin fərqləndirilməsi üçün məktəb şəraitinin real adaptasiyasını tələb edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların hər birində fərqli patologiyalar müşahidə olunduğu üçün onlara yanaşma da fərqli və fərdi olmalıdır. İnklüziv məktəblərdə təhsil alan şagirdlər sırasında Daun sendromlu, Autizm, Görmə və ya eşitmə əlilliyi olan, nitq və ünsiyyət bacarığı olmayan uşaqlar vardır.

Müxtəlif əqli və fiziki bacarıqlı uşaqlara dərs deyən və bu sahədə təcrübəsi olan müəllim bilir ki, belə uşaqların tədrisə cəlb edilməsi çətin və kompleks prosesdir. Ona görədə müəllimlərin yüksək dərəcədə səriştəli və motivasiyalı olması zəruridir, çünki inklüziyanın əsas məqsədi bütün məktəblər üçün çox vacib olan effektiv təhsildir. İnklüziv məktəblərdə təhsil alan şagirdlərə fərdi yanaşma olduğu kimi, onlara tədris olunan fənlərdədə spesifikliyi nəzərə almağ zəruridir. Tədqiqat işimizdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərə biologiya

fənninin tədrisində meydana çıxan çətinliklər, onların aradan qaldırılmasının imkan və yolları araşdırılmışdır.

Biologiya fənninin tədrisi zamanı müəllim müxtəlif təlim strategiyalarından istifadə edib hər bir şagirdin öz fərdi xüsusiyyətlərini nəzərə alaraq onların təfəkküründə bioloji varlıqlar haqqında özünəməxsus fikir yaratmağı bacarmalıdır. İnkluziv məktəbdəki şagirdlər üzərində apardığım bir sıra müşahidələr nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata baxış perspektivlərinə nəzər yetirərək onlarda maddi aləmə qarşı fərqli yanaşmalar müşahidə etmişəm. İnkluziv təhsildə müəllimin əsas vəzifələrindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlarda müşahidə etdiyi istedadı üzə çıxarmaqdan və bu istedadı imkan daxilində inkişaf etdirməkdir. İnklüziv məktəblərdə təhsilin səmərəli təşkil olunması üçün bütün təhsil sisteminin – təhsilin idarə edilməsi, qanunvericilik və siyasət, təhsilin maliyyələşdirilməsi, məktəbin və tədris-təlim prosesinin təşkili və monitorinqini nəzərdə tutur. Hər bir sahədə olduğu kimi, inklüziv təhsilin də həyata keçirilməsində yeniliklərə, müasir metodlara, spesifik yanaşmaya, tədris prosesidə xüsusi layihələrdən istifadəyə üstünlük verilməlidir. Beləliklə, inklüziv təhsilin uğurlu inkişafı üçün cəmiyyətin, müəllimlərin və valideynlərin maarifləndirilməsi və bu sahədə aktivlik göstərməsi vacibdir. Biologiya fənninin inkluziv məktəblərdə tədrisi cəmiyyətə yararlı fərdlərin yetişdirilməsində xüsusi rol oynayır. Çünki, hər bir fənn kimi biologiya fənninin tədrisi də xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün vacibdir. Biologiya fənninin inkluziv məktəblərdə tədrisi həyatı, canlıları, ətraf mühitlə olan vəhdətimizi şagirdlərin təfəkküründə doğru formalaşdırmaqda rol oynayır. Qeyd edilənləri əqli və fiziki imkanları nisbətən zəif olan şagirdlərə çatdırmaq üçün dərs prosesində əyaniliyə üstünlük vermək, praktik işlərin fərdi qaydada yerinə yetirilməsinə diqqət etmək lazımdır. Biologiya fənnini tədrisinin uğurlu təşkili üçün fənni tədris edən müəllim müəyyən bilik və bacarıqlara sahib olmalıdır. Bunun üçün müəyyən təşkilatlar tərəfindən bir sıra tədbirlərin görülür. İnklüziv təhsildə tədris prosesinin unikallığını nəzərə alaraq, müəllimlərin xüsusi təlimlərə cəlb edilməsini təmin etməklə, müəllimlərin qarşılıqlı əməkdaşlıq və dəstəkləyici proqramlara və ya tədbirlərə aşağıdakıları misal göstərəbilərik:

1. UNICEF, 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı
2. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası.
3. 2015-ci il Qlobal Monitorinq Hesabatı.
4. Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyinin İnklüziya üzrə müəllim hazırlığı proqramı.

# DAUN SİNDROMLU USAQLARA BİOLOGİYANIN TƏDRİSİ METODİKASI

**Elvin Əliyev**
**dosent**
**Nəzrin Qasımzadə Abdullayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**elvinaliyev1989@gmail.com**
**nezrinqasimzade445@gmail.com**

**Açar sözlər:** Daun sindromu, Daun sindromunda inkişaf dəyişkənliyi, fərdi imkanlar, xromosom

Tədqiqatımızın məqsədi Daun sindromunun təbiəti və bu kateqoriyadan olan uşaqların inkişafı, təlimi və tərbiyəsi xüsusiyyətləri ilə bağlı bəzi problemlər fonunda təbiət elmlərindən biologiyanın tədrisi metoidikası zamanı yaranan çətinlikləri araşdırmaqdır. Müasir elmi məlumatlar onların reabilitasiyası üçün sosial və psixoloji-pedaqoji proqramların hazırlanmasının mümkünlüyü və zəruriliyi haqqında danışmağa imkan verir. Məlumdur ki, Daun sindromlu uşaqların ömrünün uzunluğu və tam inkişafı birbaşa uşağın ətrafındakı emosional və psixoloji vəziyyətin xarakterindən asılıdır. Daun sindromu ən çox rast gəlinən genetik xəstəliklərdən biridir. Bu sindromlu uşaqlar sosial statusdan və ətraf mühitdən asılı olmayaraq dünyanın bütün ölkələrində eyni sürətlə (təxminən 700 uşaqdan biri) doğulur. Ancaq bu rəqəm yaşlı qadınlardan doğulan uşaqlarda daha yüksəkdir. Ölkəmizdə daun sindromlu doğulan uşaqların bəziləri müəyyən səbəbdən doğuşdan sonra uşaq evlərində qalır. Əlbəttə ki, bu, Daun sindromlu hər bir uşağın fərdi inkişafında son dərəcə mənfi amildir, çünki məlumdur ki, bu uşaqların gözlənilən ömür uzunluğu və tam inkişafı uşaq ətrafındakı emosional və psixoloji vəziyyətin təbiətindən birbaşa asılıdır. Bu problemin həllinin effektivliyi bir çox şərtlərlə, o cümlədən Daun sindromunda inkişaf qüsurunun xüsusiyyətlərini bilmək dərəcəsi ilə müəyyən edilir. 1959-cu ildə fransız alimi J. Lejeune tərəfindən bu sindromla genetik pozğunluqlar arasındakı əlaqənin kəşfi (21-ci xromosom cütlüyünün trisomiyası) belə uşaqların vəziyyətini xəstə kimi deyil, spesifik fenotipik xüsusiyyətlərlə xarakterizə olunan xüsusi tip, məntiq və inkişaf dinamikası olan insanlar kimi müəyyən etməyə imkan verdi. Bu sindrom 1866-cı ildən məlumdur. İngilis həkimi Lanqdan Daun xarakter xüsusiyyəti olan bu xəstəliyi bir qız uşağında müşahidə edib və onu "monqolizm" adlandırıb. Ancaq asiyalı alimlərin xəstəliyin "monqolizm" adlandırılmasına olan etirazından sonra bu xəstəlik onu kəşf edən alimin şərəfinə "Daun sindromu" adını alıb. Bu gün artıq məlumdur ki, Daun sindromu həm klinik mənzərədə, həm də fiziki, əqli, intellektual və emosional keyfiyyətlərin təzahürlərində əhəmiyyətli polimorfizm ilə xarakterizə olunur. Bu qrupun uşaqlarını öyrətmək və tərbiyə etmək sahəsində praktiki təcrübə onların bilavasitə ətraf mühitində əqli və sosial inkişafının müsbət dinamikasına dəlalət edir ki, bu da həmin uşaqların ümumi psixi inkişafında ən dərin təhlil və diqqət tələb edən spesifik qanunauyğunluqların mövcudluğunu sübut edir.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində Daun sindromlu usaqları tədris prosesində müşahidə edib müəyyən nəticələr əldə etdik. Daun sindromlu uşaqlara dərslər xüsusi məktəblərdə və onların əqli inkişafına uyğun hazırlanmış dərsliklər əsasında tədris olunur. Daun sindromlu şagirdlərdə yaddaşın zəif olmasına görə biliyin möhkəmlənməsi zaman alır, hətda bəzən müəllim eyni məlumatı dəfələrlə təkrarlayır. Bəziləri yaza bilir,bəzi şagirdlərdə materialın ləng oxunmasına ,eyni məlumatın dəfələrlə oxunmasına və təkrar –təkrar söylənməsinədə rast gəldik.Bütün bu hallar onların əqli inkişafı

ilə birbaşa əlaqədardır.Bunun üçün bəzən mövzu konspektləşdirilərək onların daha asan öyrənə biləcəyi formada onlara tədris olunur.Təlim prosesində müşahidə etdikki dərsi həmin şagirdlərə kollektiv deyildə ,hər bir şagirdə fərdi yanaşma prinsipi əsasında tədris etdikdə daha effektiv nəticə əldə etmək olar. Daun sindromlu şagirdlərə biologiya dərslərini təşkil edərəkən əyani vasitələrdən, mövzuyla əlaqədar şəkil, plakatdan və s istifadə etdikdə dərsin onların hafizəsində daha tez möhkəmləndiyini müşahidə etdik. Dərsin oyun-tapmaca üsullarından isifadə edərək keçirilməsi onların dərsə marağını artırır.Daun sindromlu usaqlara biologiya dərslərinin tədrisi zamanı fəal təlimin iş üsullarından müzakirə ,anlayışın çıxarılması, insert, sorğu-cavab, yaşıllaşan ağac, BİBÖ və s üsullardan istifadə etmək məqsədəuyğundur.Tədris prosesində şagirdin emosional vəziyyəti isə müsbətdir:daha çox sevinclidirlər,üzlərində təbəssüm hiss olunur, bununla yanaşı ətrafa qarşı çox həssadırlar. Apardığımız müşahidələr göstərdi ki, Daun sindromlu uşaqlara biologiyanın tədrisi zamanı dərslər şagirdlərin əqli, fiziki imkanları nəzərə alınaraq ,onların maraqlarına uyğun hazırlanmalı və onları təlim prosesinə cəlb etmək üçün əyani metodlardan,fəal təlimin iş forma və üsullarından istifadə etmək lazımdır. Daun sindromuyla dünyaya göz açdıqları üçün onları cəmiyyətdən, təlim prosesindən məhrum etmək olmaz,bunun yerinə onların əqli və fiziki durumuna uyğun şəkildə ən son yeniliklərlə,elmlərlə və dünya ilə tanış etmək lazımdır.

## VIII SİNİFLƏRDƏ "COĞRAFİ TƏBƏQƏ" MÖVZUSUNUUN TƏDRİSİ METODİKASI

**Gülnarə Məmmədova**
**dosent**
**Əmrah Mustafayev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mammedova_gulnare@mail.ru**
**amrahmustafayev1407@gmail.com**

**Açar sözlər:** Coğrafi təbəqə, litosfer, atmosfer, hidrosfer, biosfer

Kurikulum təhsil sistemi ölkəmizdə tətbiq edildikdən sonra bütün fənlərdə olduğu kimi coğrafiya fənninə aid olan mövzular və dərsliklər müasir təhsil sisteminə uyğun təkminləşdirildi.

Coğrafiya fənni üzrə üç (məkan, təbiət, cəmiyyət) məzmun xətti müəyyənləşdi. Müəyyən olunmuş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları təbiətin vahid, bütöv və bölünməz obrazı yaradılır. Şagirdlər əvvəlcə yaşadığı Yer kürəsini bir planet kimi öyrənirlər, onun Günəş və öz oxu ətrafında hərəkətinin coğrafi nəticələrini araşdırır. Sonra, Yer kürəsinin quruluşu, relyefi, coğrafi təbəqəsi, təbiəti, ölkələrin iqtisadiyyatı, əhalisi, sərhədləri haqqında müəyyən biliklər alır və bu bilikləri kontur xəritə, atlas, qlobus və digər məzmunlu xəritələr üzərində tətbiq edir, diaqramlar qurur, stastistik göstəricilərdən istifadə edir, cədvəllər çəkirlər.

Müasir coğrafiya dərsliklərində coğrafi təbəqə mövzusu VIII sinifdə Biosfer tədris vahidində və X sinifdə ayırıca tədris vahidi olaraq verilir. VIII sinifdə coğrafi təbəqə

mövzusunda dərsin məqsədi coğrafi təbəqəyə daxil olan komponentlər arasındakı əlaqələri müəyyən etmək və coğrafi təbəqəyə aid olan təbəqələrin əhəmiyyətini şərh etməkdir. Müəllim Yerin coğrafi təbəqələrinə dair video süjet, şəkil, yaxud plakat nümayiş etdirməklə motivasiya yarada bilər. Bundan başqa müəllim motivasiya mərhələsində beyin həmləsi metodlarlndan istifadə edərək coğrafi təbəqənin tərkibinə daxil olan litosfer, atmosfer, hidrosfer və biosfer haqqındakı VI və VII sinifdə şagirdlərin öyrəndikləri məlumatları yeni mövzu ilə əlaqələndirə bilər. Motivasiya mərhələsindən sonra tədqiqat sualları (1. Coğrafi təbəqənin formalaşmasına hansı coğrafi amillər təsir göstərir? 2. Coğrafi təbəqənin sərhədləri haradan keçir? 3. Coğrafi təbəqənin formalaşmasında günəş istiliyi hansı əhəmiyyətə malikdir?) müəllim tərəfindən lövləyə yazılır. Yeni biliyin mənimsənilməsi zamanı müəllim fasilələrlə oxu üsulundan istifadə edə bilər. Bu zaman şagirdlərin diqqətini coğrafi təbəqənin sərhədlərinə yönəltmək lazımdır. Müəllim coğrafi təbəqədə baş verən proseslərin Günəş və Yerin daxili enerjisi ilə birbaşa əlaqəsi olduğunu vurğulayır. Həmçinin, müəllim şagirdlərin diqqətini dərslikdəki coğrafi təbəqə mövzusuna aid şəkillərə yönəldərək coğrafi təbəqənin elementləri arasındakı əlaqələri və coğrafi təbəqənin inkişaf mərhələləri haqqındakı məlumatları şagirdlərin mənimsəməsində vasitəçi olmalıdır.

Şagirdlər litosfer, atmosfer, hidrosfer və biosferin birlikdə coğrafi təbəqəni təşkil etdiyini, coğrafi təbəqənin yuxarı sərhədi troposferdə, aşağı sərhədi litosfer və hidrosferdə yerləşdiyini, coğrafi təbəqənin inkişafının ilkin mərhələsində onun tərkibinə dağ süxurları, su və hava aid olduğunu öyrənirlər. Bundan başqa şagirdlər coğrafi təbəqəyə daxil olan Yer qabığının üst hissəsində torpaq qatı inkişaf etdiyini və maddələr dövranı baş verdiyini, 11 km qalınlığında olan hidrosferdə suyun buxarlanıb, yağış yağdığını və suyun böyük və kiçik dövranı baş verdiyini, coğrafi təbəqəyə daxil olan atmosferin 20-25 km-lik qatında havanın qaz tərkibi dəyişdiyini və hava dövranı baş verdiyini, coğrafi təbəqəyə daxil olan biosferdə canlılar aləmi inkişaf etdiyini və bioloji dövran baş verdiyini öyrənirlər.

Müəllim şagirdləri cütlərə ayıraraq onlara iş vərəqələri paylayaraq onlarda birgə əməkdaşlıq vərdişləri formalaşdıra bilər. Şagirdlər iş vərəqəsindəki sualları cavablandıraraq coğrafi təbəqə mövzusunu daha dərindən mənimsəmiş olurlar.

Qiymətləndirmə zamanı müəllim metodik vəsaitdə verilən nümunədən istiadə edərək şagirdləri 4 meyar və səviyyəyə görə qiymətləndirir. 1-ci səviyyə olan şagirdlər coğrafi təbəqəyə daxil olan komponentlər arasında əlaqələri müəyyən etməkdə çətinlik çəkir və coğrafi təbəqəyə aid olan təbəqələrin əhəmiyyətini şərh etməkdə çətinlik çəkir. 2-ci səviyyə olan şagirdlər coğrafi təbəqəyə daxil olan komponentlər arasında əlaqələri xeyli səhvlərə yol verməklə müəyyən edir və coğrafi təbəqəyə aid olan təbəqələrin əhəmiyyətini xeyli səhvlərə yol verməklə şərh edir. 3-ci səviyyə olan şagirdlər coğrafi təbəqəyə daxil olan komponentlər arasında əlaqələri əsasən müəyyən edir və coğrafi təbəqəyə aid olan təbəqələrin əhəmiyyətini əsasən şərh edir. 4-ci səviyyə olan şagirdlər coğrafi təbəqəyə daxil olan komponentlər arasında əlaqələri sərbəst müəyyən edir və coğrafi təbəqəyə aid olan təbəqələrin əhəmiyyətini nümunələr göstərməklə sərbəst şərh edir. Dərsin sonunda müəllim coğrafi təbəqənin tərkibinə daxil olan komponentlərin sxemini qurmağı ev tapşırığı olaraq verir.

VIII siniflərdə tədris olunan coğrafi təbəqə mövzusu X sinifdə geniş şəkildə tədris olunan coğrafi təbəqə bölməsi üçün baza rolunu oynarır. Bu səbəbdən müəllim tərəfindən mövzuya aid olan bilik, bacarıq və sərişələr şagirdlərdə formalaşdırılmalıdır. Şagirdlərin şüurunda coğrafi təbəqə ən mürəkkəb təbii kompleks olduğu, canlılardan və cansız maddələrdən təşkil olunduğu, onun formalaşması və inkişafında həm geoloji, həm də bioloji amillərin əhəmiyyəti, coğrafi təbəqənin inkişafının sonunda isə həyatın yarandığını, bu səbəbdən də havanın, suyun, torpağın və canlıların mühafizəsinin önəmi vurğulanmalıdır.

# COĞRAFİYA FƏNNİNDƏ EKOLOJİ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Gülnarə Məmmədova**
**dosent**
**Leyla Şahbazova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Mammedova_gulnare@mail.ru**
**leyla.shahbazova95@gmail.com**

**Açar sözlər*:*** Ekoloji bilik, ekoloji tərbiyə, qiymətləndirmə standartı, məzmun standartı, meyar, ekoloji təhsil

Ümumtəhsil məktəblərində tədris olunan coğrafiya fənninin məzmununa nəzər yetirsək, burada ekoloji biliklərin formalaşdırılması üçün aşağıdakı məzmun standartlarının mövcudluğuna şahid olarıq.

VI sinifdə şagird: 3.2.5 Ətraf mühitdə çirklənməyə məruz qalmış ərazilərin fotoalbomunu hazırlayır. VII sinifdə şagird: 3.2.5 Təbiətdən istifadə zamanı ekoloji gərginlik zonalarının nomeklaturasını (siyahısını) tərtib edir. VIII sinifdə şagird: 3.2.5 Ekoloji problemlərin insan həyatına təsirini izah edir. IX sinifdə şagird: 3.2.5 Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. X sinifdə şagird: 3.2.5 Qlobal ekoloji problemlərin yaranmasında antropogen təsirin rolunu qiymətləndirir. XI sinifdə şagird 3.2.5 Cəmiyyətin sosial-iqtisadi inkişafında ekoloji tarazlığın qorunmasını proqnozlaşdırır. Alt standartlara nəzər salsaq görərik ki, ümumtəhsil məktəblərində ekoloji biliklər aşağı sinifdən yuxarı siniflərə doğru asandan çətinə prinsipinə əsaslanaraq formalaşdırılır.

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və öz nailiyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirilməsi prosesi məhz bu məqsədə xidmət etməlidir.

Yeni təlim sisteminə əsasən qiymətləndirmə prosesi yalnız dərsin sonunda- Qiymətləndirmə və refleksiya mərhələsində həyata keçirilmir. Dərsin hər bir mərhələsində müxtəlif üsullardan istifadə olunmaqla təhsilalanların bilik, bacarıq və vərdiş səviyyələrinin qiymətləndirilməsi həyata keçirilə bilər. Şagirdlərin təlim fəaliyyətini izləmək, qarşıya çıxan problemləri aşkar etmək və onların aradan qaldırılması məqsədilə müəllim dərs prosesi ərzində şifahi sual-cavab, müsahibə, çıxış-giriş vərəqləri, özünüqiymətləndirmə vərəqləri, kinestik qiymətləndirmə, səhvlər üzərində iş aparma, jest və mimikalar ilə rəy bildirmə və s. üsullardan istifadə edə bilər.

Şagirdlərin qiymətləndirilməsi üçün dəqiq meyarlar işlənib hazırlanmalıdır. Şagirdlər özləri də qiymətləndirmə meyarlarını bilməlidirlər ki, onlardan nə gözlənildiyini təsəvvür etsinlər. Qiymətləndirmə apararkən müəllim "Ətraf mühitin çirklənmə mənbələrini və onun qorunmasını şərh etmə" meyarı əsasında çətinliklə, qismən, əsasən və düzgün deskriptorlarınından istifadə edə bilər. Praktik istiqamətli tapşırıqların qiymətləndirilməsi zamanı formativ özünüqiymətləndirmə üsulundan istifadə oluna bilər. Mövzuya uyğun aşağıdakı meyarlar şagirdlərə təqdim olunması məqsədəuyğundur: Yaşadığım ərazinin ekoloji vəziyyətini müəyyən edirəm; Ətraf mühitin qorunması üçün fəaliyyəti təsvir edirəm; Yaşadığım ərazinin ekoloji vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər təklif edirəm.

Dərsin qiymətləndirilməsi zamanı əsas diqqət təkcə informasiyanın mənimsənilməsinə deyil, həm də cəmiyyətin həyatında bir vətəndaş kimi iştirak etmək üçün zəruri olan bacarıqların mənimsənilməsinə yönəlir. Bu baxımdan ekoloji biliklərin mənimsənilməsinin tərbiyəvi əhəmiyyətinə və bu istiqamətdə qazanılan bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsinə diqqət yetirmək lazımdır. Ekoloji tərbiyənin əsasını təbiətə sevgi, onun mühafizəsi işi təşkil edir. Ekoloji tərbiyə ətraf mühitin dərk olunması və təbiətə qayğı ilə yanaşmanın formalaşması proseslərindən keçir. Təhsil ocaqlarında ekoloji təhsilin gücləndirilməsinin tərəfdarları hesab edirlər ki, uşağa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla biz onun şəxsiyyətinin formalaşmasına ciddi təkan vermiş oluruq. Başqa sözlə, yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır. Bu yolla gəncləri doğma torpağı və təbiəti sevməyə, ətraf mühitə biganəlikdən qaçmağa öyrədə bilərik. Ekoloji məzmunlu işlərin diyarşünaslıq istiqaməti məktəbin həyatla əlaqəsinə, şagirdlərin yaradıcılıq təşəbbüslərinin artmasına, tədqiqatçılıq xarakterli işlərə qoşulmasına təsirsiz qalmır. Yeni təlim sistemində tətbiq edilən bütün növ qiymətləndirmələrin aparılması zamanı aşağıdakı prinsiplərə riayət olunur:

– məqsədəuyğunluq;
– nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
– toplanmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
– qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
– təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

## COĞRAFİYA FƏNNİNİN ŞAGİRDLƏRİN FORMALAŞMASINDA PEDAQOJİ – PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Gülnarə Məmmədova**
**dosent**
**Şəms Ağazadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mammedova_gulnare@mail.ru**
**semsagayeva768@gmail.com**

**Açar sözlər*:*** inkişafetdirici təlim, milli kurikulum, təlim prinsipləri, tərbiyəedicilik funksiyası

Təhsil cəmiyyətin inkişafının əsas elementi olaraq, həyatın bütün səviyyələrinə və sahələrinə nüfuz edir. O, bilik və bacarıqların bütün sivilizasiyalara inteqrasiya olunmasına xidmət edərək, gələcək nəsillərin müasir dünyanın tələblərini ödəyəcək bacarıqlı kadr olması yönündə inkişaf etdirir. Müasir dünya sivilizasiyasına nəzər yetirsək, görərik ki, ətrafımızda baş verən bütün proseslərin müxtəlif elmi nəticəsi vardır. Müasir dövlətçilik gələcəyənin də qurulması gənclərdən asılıdır. Ümumilli liderimiz Heydər Əliyevin kəlamları ilə desək: “Azərbaycanın bugünki gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir”. Belə sağlam

düşüncəli gənclərin yetişdirilməsi də təhsil sahəsindən irəli gəlir. Məlum olduğu kimi, 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması ilə müstəqillik yolunda ilk addımlarını atan Azərbaycan bütün sahələrdə, o cümlədən təhsil sahəsində ümumi siyasətin zəruri prioritet istiqamətlərini müəyyənləşdirdi. Ulu öndər Heydər Əliyev ölkənin təhsil sahəsində milli siyasətin müəyyənləşdirilməsi ilə bağlı öz töhfələrini verdi. O, Azərbaycanın inkişaf etdirilməsi və müasir dünyadakı mövqeyinin möhkəmləndirilməsi məqsədilə Təhsil İslahatı komissiyasının iclasında çıxış edərək bildirdi ki, "indi bizim təhsil sistemindəki islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycan dünya təhsili sisteminin standartlarına uyğunlaşsın".

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006 – cı il tarixli, 233 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" kimi dövlət əhəmiyyətli mühüm sənəd qəbul edildi. Bu sənədə əsasən fənlər üzrə təhsil proqramlarının hazırlanmasına başlanıldı və bu iş müvəffəqiyyətlə davam etdirilməkdədir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq Milli Kurikulum sənədinə əlavə və dəyişikliklər edilməklə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları" qəbul edildi. Tədris olunan bütün fənlərin özünəməxsus xüsusiyyətləri olsa da, coğrafiya fənninin tədrisi gənclərdə ətraf mühitə, ölkəmizə və digər dünya ölkələrinə olan münasibətin inkişaf etməsinə gətirib çıxarmışdır. Coğrafiya elminin məzmun xətləri olan təbiət, cəmiyyət, coğrafi məkan anlayışları ayrı – ayrılıqda tədris olunduğu müddətdə gənc nəsil kompleks şəkildə bu anlayışlardan istifadə edir. Coğrafiya fənni şagirdlərin coğrafi təbəqənin əmələ gəlməsi və fəaliyyət mexanizmini, təbəqədə mövcud olan inkişaf qanunauyğunluqlarını dərk etməsinə, Yer kürəsində təbii komplekslərin əmələ gəlməsini, təbiətdə baş verən coğrafi hadisələrin və təbii proseslərin başvermə səbəblərini izah etməsinə imkan verir. Gənc nəslin yetişməsində həmçinin mühit amili, yəni coğrafi zona amili özünü əks etdirir. Özünün təbii coğrafi şəraitinə görə Azərbaycan Respublikasının, həmçinin Lənkəran şəhərinin rəngarəngliyi gənclərin istedadlı, daim inkişafda olan və uğurlu şəxslər olmasına səbəb olmuşdur.

Müasir təlim prosesinin əsas cəhətlərindən biri olan inkişafetdirici təlimin getdikcə daha çox əhəmiyyət kəsb etməsi, coğrafiya fənninin tədrisində nəzəri biliklərin praktik olaraq tətbiq edilməsinin vacibliyi ilə əlaqədardır. Müxtəlif dövrlərdə inkişafetdirici təlim texnologiyaları əsasında Azərbaycan pedaqoji psixologiyasında təlim prosesinin idrak, emosional və psixomotor sahələrini əhatə etməsi və təlimin təhsil, inkişafetdirici və tərbiyəedici istiqamətləri qəbul edilmişdir. Hazırki təhsil sistemi gəncləri daha çox hafizəyə deyil, təfəkkür proseslərinin inkişafına yönəltmişdir. Bu vəziyyətdə məktəb, şagirdlərin bir sıra bilik və bacarıqlara yiyələnib, gələcəkdə yarana biləcək hər hansı bir situasiyada daha adekvat və düzgün reaksiya vermək qabiliyyətini özünün əsas məqsədi hesab edir. Gənc nəslin şəxsiyyətinin formalaşdırılmasında məktəb qarşısında iki əsas məqsəd ola bilər: İlk növbədə bütün məktəblilərin elmin əsaslarına yiyələnməsi, onlarda biliklər sisteminin yaradılması, qabiliyyət və bacarıqlarının təmin olunmasının əldə edilməsi, fiziki və əmək bacarıqlarının, zehni qabiliyyətlərinin inkişaf etdirilməsi, dərk etmə maraqlarının və meyllərinin təmin edilməsi, daha sonra isə hər bir şagirdin mədəni, yüksək əxlaqi, fəal yaradıcı və sosial bacarıqlara malik olan şəxsiyyət kimi tərbiyə edilməsi vacibdir.

Müasir anlamda təhsil məqsəd kimi deyil, məktəblinin şəxsiyyət kimi tərbiyə olunmasında vasitə və üsul kimi irəli sürülür. Doğru tərbiyə olunmuş və yönləndirilmiş məktəbli gələcəkdə öz istəklərini bilən, gələcəyini düzgün qərarlar verərək qura bilən şəxsiyyət kimi formalaşmış olacaqdır.

Lakin, coğrafiya müəllimi yalnız məktəbin əsas məqsədi kimi şagirdlərdə şəxsiyyətin inkişafını formalaşdırmalı deyil, o həmçinin, şagirdlərin müvəffəqiyyətli təhsili, dərk etmə qabiliyyətinin inkişaf etdirilməsi ilə də məşğul olmalıdır. Coğrafiya müəllimi eyni zamanda

şagirdlərdə tərbiyəetmə özünüinkişaf, özünütərbiyələndirməyə imkan, şərait yaratmağı da bacarmalıdır.

Müasir dövrdə təkcə fənnlər üzrə dövlət proqramları deyil, həmçinin dərsliklər, əyani vasitələr, internet resursları və s. də şagirdlərin inkişafına yönəldilmiş vəziyyətdədir. Gənc nəslin düzgün tərbiyə olunmasında ümumi təhsil mərkəzlərində bir sıra psixoloji prinsiplər tətbiq olunur. Belə psixoloji prinsiplərə özünü təşkil prinsipi, kollektivçilik prinsipi, məsuliyyətlilik prinsipi, aparıcılıq prinsipi, tədris prosesinin psixioloji təchizat prinsipi və s. misal göstərə bilərik. Şagirdlərdə aparıcılıq və ya liderlik prinsipinin inkişafı müasir dövrün ən əsas diqqəti cəlb edən sahələrindən biridir. Ənənəvi təhsillə müqayisə etsək, gənclər məktəb dövründən öz fikirlərini düzgün ifadə edə bilmək bacarığından məhrum idilər. Lakin müasir dövrdə isə şagirdlərin təhsil – tərbiyə prosesindəki kollektiv fəaliyyətlərində, ayrı – ayrılıqda olan çıxışlarında aktiv fəaliyyət göstərmələri müşahidə olunur və bu bacarığın daha çox inkişaf etməsi gənclərimizin müxtəlif layihələrə rəhbərlik etməsinə səbəb olmuşdur. Özünü təşkil prinsipi sistematik, xarici nəzarət olmadan tədris fəaliyyətinin təşkilini nəzərdə tutaraq, tədris – tərbiyə prosesinin daha dolğun aparılmasına əsasən irəli sürülür. K.Uşinskinin fikrinə əsasən: “tərbiyəçinin zor gücünə verdiyi bilik – uşağın sağlam əqli və mənəvi inkişafını, tərbiyəsini və şəxsi xüsusiyyətlərini və keyfiyyətlərini sarsıdır”. Özünü təşkil prinsipi sayəsində şagirdlərin tədqiqatçılıq – araşdırmaçılıq bacarıqlarını inkişaf etdirilir. Müasir dövr gənclərinin əsas qazanmalı olduqları bacarıqlardan biri də sosial mühitlə uyğunlaşmadır. Kollektivçilik prinsipi şagirdlərin sosiallaşmasına gətirib çıxarır. Şagirdlərin müəllim olmadan öz aralarında ünsiyyəti və əməkdaşlığını nəzərdə tutan bu prinsipin inkişaf etməsi həyatda həmin şəxsin özünün sosial keyfiyyətlərindən istifadə edərək doğru mövqeyi tutmasına səbəb olur. Kollektivçilik bacarıqlarının daha çox inkişaf etdiyi mühit isə tədris prosesində təlimin iş üsullarında özünü göstərir. Orta məktəblərdə cütlərlə iş, kollektiv iş və digərlərində şagirdlərin birgə əməkdaşlığı təmin olunaraq daha səmərəli tədris mühiti yaradılır. Məsuliyyətlilik təkcə şagird keyfiyyətlərinin deyil, həmçinin vətəndaş keyfiyyətlərinin inkişafında əsas duran xüsusiyyətlərdən biridir. Bu prinsip şəxsiyyətin öz davranışında hamı tərəfindən qəbul olunmuş normalara riayət etməyə meyilli olması, öz davranış və hərəkətlərinə cavabdeh olmaqda özünü göstərir. Məsuliyyətlilik prinsipinin inkişafı gənclərdə başladıqları işləri sona qədər düzgün və yerində yerinə yetirmələrinə şərait yaradır. Bütün davranış normalarının ən başlıca olanı tədris prosesinin düzgün təşkil olunmasından asılıdır. Tədris prosesinin psixoloji təchizatı nəticəsində tədris – tərbiyə prosesi elə təşkil olunmalıdır ki, təlim prosesinin vacibliyi düzgün əsaslandırılmış olsun və hər bir şagirddə ona qarşı müsbət münasibət formalaşdırılsın. Bu prinsipin əsas hərəkətverici qüvvəsi isə müəllim fəaliyyətidir. Müəllimlər elə bir şərait yaratmalıdır ki, şagirdlər fənni və elmi sevərək ona daha çox səylə yanaşsınlar.

Ümumilikdə qeyd etsək, müasir Azərbaycan gəncliyinin formalaşması üçün şagirdin təlim uğurları əldə etməsinə mühit, tədris fəaliyyətinə maraq yaratmaq və müəllim – şagird münasibətlərində düzgün əməkdaşlıq və demokratik dəyərlərə söykənən harmoniyanı saxlamaq tələb olunur. Təbiət və cəmiyyətin birgə dərk edilməsində aparıcı rola malik olan coğrafiya fənni şagirdlərdə təbiət hadisələrinin qarşılıqlı və cəmiyyətdə baş verən hadisələrin tarixi reallığa malik olmasına dair dünyagörüşünü formalaşdırır. Ətraf aləmə qayğılı münasibət və yaradıcı fəaliyyət dünyagörüşünün bütün hissələrini – baxışlar, dəlillər, ideyalar coğrafiyanın elmi biliklərinin konkret ümumiləşməsinin əxlaqi prinsiplərini əhatə edir. Bütün bunların əldə olunması nəticəsində günü – gündən müasirləşən və gənclərin səyləri nəticəsində güclənən gələcək qurulmasına ümid bəsləmək olar.

# KİÇİK QAFQAZ VƏ TALIŞ ÖNDAĞLIĞINDA LANDŞAFTLARIN FOFMALAŞMASINDA İQLİMİN ROLU

**Qalib Əmənov**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**5winner@mail.ru**

**Açar sözlər:** fiziki-coğrafi rayon, öndağlıq, landşaft

Kişik Qafqaz və Talış dağlıq sistemində öndağlıq hissə 500-1500 m yüksəkliklər arasında yerləşir. Hər iki dağlıq sistemdə iqlim şaquli qurşaqliq üzrə landşaftların formalaşmasına müxtəlif cür təsir edir.

Qeyd etdiyimiz hissə Kiçik Qafqaz təbii vilayətinin Gəncə fiziki-coğrafi rayonu, Yüxarı Qarabağ fiziki-coğrafi rayonu, Həkəri fiziki-coğrafi rayonu, həmçinin Lənkəran təbii vilayətinin Talış dağları fiziki coğrafi rayonları ərazisini əhatə edir.

Kiçik Qafqazın dağətəyi və alçaq dağlığında qışı quraq keçən mülayim-isti iqlim, cənub-şərq hissəsində isə yayı quraq keçən mülayim-isti iqlim, orta dağlıq ərazilərdə isə qışı quraq keçən soyuq iqlim hakimdir. Orta illik temperatur 0-10$0^0$C, yağıntıların orta illik miqdarı isə 300-900 mm arasında dəyişir. Kiçik Qafqaz təbii vilayətinin fiziki-coğrafi rayonları özünəməxsus iqlim xüsusiyyətlərinə görə fərqlənirlər. Bu fiziki-coğrafi rayonlarda ayrı-ayrı iqlim elementləri müxtəlif cür təzahür edir. Coğrafi mövqeyin xüsusiyyətləri, mürəkkəb relyef və atmosfer sirkulyasiyasının qarşılıqlı təsiri burada günəşli saatların miqdarının müxtəlif kəmiyyətlər arasında dəyişməsinə səbəb olur. Dağ silsilələrinin istiqaməti və buludluluğun təsiri ilə günəşli saatların mıqdarı 1700-2300 saat arasında dəyişir. Ən az günəşli saatlar noyabr və fevral aylarında müşahidə edilir. Bunun səbəbi həmin aylarda buludluluğun nisbətən yüksək olmasıdır. İl ərzində günəşli saatların miqdarı 35% yay aylarında, 18% isə qış aylarında müşahidə olunur. İllik maksimum iyul-avqust, minimum noyabr-dekabr aylarında olur.

Əraziyə düşən günəş radiasiyasının kəmiyyətinin müəyyənləşdirilməsi həmin ərazilərin isti ehtiyatlarından kənd təsərrüfatında, turizm-rekreasiya və başqa təsərrüfat sahələrinin fəaliyyətində səmərəli istifadə etməyə şərait yaradır. Ə.M. Şıxlinskinin məlumatına əsasən Kiçik Qafqazda dəniz səviyyəsindən 200 m-dən 1000 m hündürlüyə qədər ümumi günəş radiasiyasının miqdarı çoxalır, sonra tədricən azalır. 500-600 m hündürlükdə ümumi radiasiya il ərzində 126 kkal/sm$^2$ miqdarında müşahidə olunur.

Havanın temperaturunun gedişi relyef şəraitindən xeyli dərəcədə asılıdır. Vilayətin dağətəyi ərazilərindən yüksəkliyə doğru yanvarın orta aylıq temperaturu azalır. Hündürlüyü 400 m-ə qədər olan ərazilərdə yanvarın orta temperaturu 1,0-2,$0^0$C, 400-800 m-də $0^0$C-dən -$3^0$C qədər, 800-1000 m-də -3,-$6^0$C, 1000-1500 m-də -6,-$12^0$C, 1400 m-dən yuxarıda isə -10,-$14^0$C arasında dəyişir. Həmçinin qış aylarında havanın temperaturunun gedişi mütləq hündürlüklə yanaşı yamacların meylliyindən və səmtindən asılı olaraq da dəyişir. Burada ən isti aylar iyul və avqustdur. Həmin aylarda havanın orta temperaturu isə $11^0$C arasında dəyişir, 600 m-ə qədər hündürlüklərdə orta temperatur $25^0$C-dən yuxarı olur, 800 m-də $40^0$C, 800-1800 m-də 30-$35^0$C arasında dəyişir. Ən soyuq aylarda belə, isti hava kütlələrinin əraziyə daxil olması nəticəsində bəzən havanın mütləq maksimum temperaturu 20-$25^0$C-yə qədər qalxa bilər.

Atmosfer yağıntılarının paylanmasında da qanunauyğunluq belədir: ən az yağıntı dağətəyi hissələrə düşür, dəniz səviyyəsindən hündürlüyün artması ilə yağıntıların miqdarı artır. Orta dağlığa qədər yağıntıların miqdarı artır, sonra isə azalmağa doğru gedir. (Həsənov

M.S., Konstantinov A.R., 1968). Yağıntıların illik miqdarı 300-400 mm-lə, 600-900 mm arasında dəyişir. Gəncə-Qazax və Ceyrançöldə 300-400 mm olduğu halda Murovdağın şimal yamaclarında 700-800 mm, cənub yamaclarında 700 mm müşahidə olunur. Yağıntıların kəmiyyətinin belə müxtəlif olması həm relyefdən, həm də müxtəlif istiqamətlərdən gələn hava kütlələrindən asılıdır. Havanın həm mütləq həm də nisbi rütubəti çox mürəkkəb paylanma xüsusiyyətlərinə malikdir. Rütubətlənmə göstəricisi respublikanın orta illik göstəricisinə nisbətən bir qədər çox olmaqla 0,20-yə çatır. Buxarlanma hündürlükdən, yamacların meylliyi və səmtindən asılı olaraq dəyişir. Ən aşağı kəmiyyət dekabr-fevral, ən yüksək kəmiyyət isə aprel-iyul aylarında qeydə alınır.

Torpağın temperaturunun yayılması da şaquli zonallıq qanununa tabedir. Mütləq hündürlüyü 800 m-ə qədər olan ərazilərdə torpaq səthində yanvarın orta aylıq temperaturu $0^0$C-dən yuxarı, 1500 m hündürlükdə isə -5-$7^0$C müşahidə edilir. İyul-avqust aylarında torpaq səthinin orta aylıq temperaturu 30-$33^0$C olur. Torpaq səthinin mütləq maksimum temperaturu iyul-avqustda $62^0$C, mütləq minimum isə dekabr-fevral aylarında 22-$31^0$C arasında olur.

Tədqiq olunan ərazidə çöl, meşə landşaftları yayılmışdır. 600 m-ə qədər dağ çölləri, 600-1500 m arasında isə dağ meşələri landşaftları yayılmışdır. Vilayətdə yarımsəhra landşaftı yoxdur. Göygöl, Korçay, Bəsitçay qoruqları, İstisu, Turşsu və Şırlan mineral su ehtiyatları zəngindir.

Çay şəbəkəsi sıxdır. Kür və Arazın qollarıdır. Tovuz, Xaçın, Tərtər, Zəyəm, Şəmkir, Kürəkşay Kürə; Həkəri, Bərgüşad, Köndələn, Oxçuçay isə Araza tökülür. Çaylar yağış, qar və yeraltı sularla qidalanırlar, suvarmada geniş istifadə olunur.

Vilayətdə Göygöl, Maralgöl, Ağgöl, Qaragöl, Şamlıgöl, Ördəkgöl, Güzgü göl, Zəligöl kimi şirin su ehtiyatları vardır.

Gəncə fiziki-coğrafi rayonunda torpaq-bitki örtüyü yüksəklik zonalarına tabedir: 600 m-ə qədər dağ-çöl landşaftları yayılmışdır. Torpaqları şabalıdı və dağ-qəhvəyidir. Taxıl bitkiləri, müxtəlif ot kompleksləri inkişaf edir. Dağ çölləri insanların fəaliyyəti nəticəsində dəyişikliyə məruz qalaraq üzüm və əkin sahələri kimi istifadə olunurlar. Dağ-meşə landşaftları ortadağlıq sahələrini əhatə edir. Meşələrin altında qəhvəyi və qəhvəyi-dağ torpaqları geniş yayılmışdır. Palıd, vələs, fısdıq, şam ağacları (Göy-göl ətrafında əyri şam), şərq çinarı (Bəsitçay qoruğunda) yayılmışdır. Müşələr uzun illər ərzində əkin və biçənəklər üçün qırılmışdır.

Yuxarı Qarabağda tünd-şabalıdı dağ çölləri - yovşan, - şoran bitki kompleksləri; dağ-meşə və qonur dağ-meşə torpaqları - dağ meşə - palıd, fısdıq, vələs, aşağıda çəmən – kol bitkiləri yayılmışdır.

Həkəri dağ-şabalıdı və qəhvəyi dağ-meşə torpaqları geniş yayılmışdır. Burada, dik və sıldırımlı yamaclarda, seyrək şəkildə, fısdıq, palıd və vələs meşələri bitir. Arazyanı düzənliklərdə, quru iqlimlə əlaqədar olaraq çöl landşaftları və açıq-şabalıdı torpaqlarda bitən kollar inkşaf etmişdir. Onlar qışlaq üçün istifadə olunur. Həkəriçay boyunca ardıc kollarına rast gəlinir. Bəsitçay qoruğunda təbii şəkildə şərq çinar ağacları qorunur.

Talış dağları fiziki-coğrafi rayonu Respublikamızın cənub-şərq hissəsində yerləşib şərqdən, şimal-şərqdən Lənkəran ovalığı ilə, cənubdan, qərbdən və şimal-qərbdən İranla sərhəddlənir. Burada Xəzər dənizi sahilləri yaxınlığında submeredional istiqamətdə bir-birinə paralel uzanan Talış, Peştəsər və Burovar silsilələri, həmçinin Dızdoni silsiləsi, Yardımlı, Zuvand çökəklikləri relyefin daxili quruluşunu mürəkkəbləşdirməklə mühüm iqlimyaradıcı rola malikdirlər.

Rayonun alçaq və ortadağlıq hissəsində enliyarpaqlı dağ meşələri inkişaf etmişdir. Bu meşələrdə, xüsusilə alçaqdağlıqda Hirkan relikt və endemik ağac növləri - dəmirağacı, şabalıdyarpaq palıd, lənkəran akasiyası, azat, şümşad, ipək akasiyası və s. inkişaf etmişdir.

Ərazinin meşə qurşağından yuxarıda meşə-çöl, çöl, quru-çöl, və dağ yarımsəhra landşaftları relyefin xüsusiyyətlərinə münasib olaraq inversiya xarakterinə malik olan xüsusi iqlim şəraitinin mövcudluğu nəticəsində formalaşmışdır.(Şirinov, Süleymanov, 1977). Fiziki-coğrafi rayon ərazisində maldarlıq, əkinçilik, üzümçülük inkişaf etmişdir. Dağ ətəklərində və dağlıq hissədə bir sıra isti və soyuq mineral bulaqlar vardır.

Ərazidə mülayim-isti iqlim hakimdir. Vilayət rütubətli subtropik qurşaqda yerləşdiyindən çay şəbəkəsi Kiçik Qafqazdan fərqli olaraq dağətəyi zonada sıxdır. Respublikamızın ən rütubətli ərazisidir. Böyük və Kiçik Qafqazdan fərqli olaraq Talış dağlarında hündürlük artdıqca yağıntı azaldığından şaquli zonallıq pozulur. Yəni dağ meşələrindən sonra dağ çəmənlərinin yerinə dağ kserofit bitkilərindən ibarət çöl zonası əmələ gəlir. Ən böyük çayları olan Astaraçay, Lənkərançay Viləşçay, Bolqarçay və dağlıq ərazini müxtəlif istiqamətlərdə parçalayan kiçik çaylardan ibarətdir.

Torpaqları sarı və münbitdir, rütubətli subtropik əkinçilik inkişaf edib. Lakin yağıntı ilin soyuq dövrlərində düşdüyündən suvarma tətbiq olunur. Həmçinin vilayətdə Xanbulan su anbarı, Lovayin, Viləşçay su dəryaçaları vardır. Hirkan Milli Parkında endemik və relikt bitkilər, həmçinin Respublikanın "Qırmızı kitabı"na daxil olan fauna və flora növləri qorunur.

## QIZILAĞAC MİLLİ PARKININ HİDROLOJİ REJİMİNDƏ GEDƏN DƏYİŞİKLİKLƏRİN ONUN EKOLOJİ VƏZİYƏTİNƏ TƏSİRİ

**Qorxmaz Ağayev**
**dosent**
**Zeynəb Rəcəbova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**qorxmaz-1976@mail.ru**
**recebovazeynep@gmail.com**

**Açar sözlər:** Milli Park, körfəz, biomüxtəliflik, fitoplankton, fitobentos

Qızılağac Milli Parkı Xəzərin cənub-qərbində - Kür-Araz və Lənkəran ovalıqlarının bir hissəsində yerləşməklə, Kiçik Qızılağac körfəzini və Böyük Qızılağac körfəzinin şimal hissəsini, sahilyanı göl-bataqlıq və yarımsəhra əraziləri əhatə edir. Milli Parkın 99 060,60 ha ərazisinin təqribən 70%-i su akvatoriyasıdır. Su, bataqlıq və yarımsəhra bitkiləri ilə zəngin bu yerlər quşlar üçün qiymətli yem bazası, yuvalamaq və qışlamaq üçün əlverişli yerlərdir. Qızılağac Milli Parkı həm də Cənubi Xəzərin Kürətrafı regionunun balıq sərvətlərinin yüksək məhsuldarlığında müstəsna rol oynayır.

İlk baxışdan Qızılağac Milli Parkı Cənubi Xəzərlə əlaqəli şəkildə xarakterizə olunur. Lakin unutmaq olmaz ki, əgər Qızılağac Milli Parkı Xəzərin su rejimi və hidrofaunası ilə birbaşa bağlıdırsa, ətraf rayonlar da öz çay suları, iqlim şəraiti - atmosfer çöküntüləri, alloxton tullantıları və s. xüsusiyyətləri ilə bura bilavasitə təsir göstərməkdə və hövzənin ekoloji vəzyyətini müəyyən etməkdədir. Bu baxımdan Milli Parkın hidroloji rejiminin formalaşmasında buradakı körfəzlərə tökülən Viləşçay, Qumbaşıçay (yuxarı axını Ülümçay adlanır) və Boladıçay müstəsna əhəmiyyətə malikdir. Təbiidir ki, Xəzərin su səviyyəsinin

qeyri-sabitliyi sayəsində onun sahillərinin, o cümlədən Qızılağac Milli Parkının morfoloji-hidroloji xüsusiyyətlərinin, buradakı körfəzlər, adalar, çay vadiləri, liman-axmazların formalaşma xüsusiyyətlərinin də vaxtaşırı dəyişməsinə səbəb olur və olmaqdadır. Apardığımız araşdırmalar nəticəsində o da məlum olmuşdur ki, əgər XX əsrin 30-cu illərinə kimi körfəzlərin təbii xüsusiyyətləri əsasən Xəzərin su balansı ilə əlaqədar olmuşdursa, keçən əsrin II yarısından sonra onlar həm də antropogen amillərdən əhəmiyyətli zərər çəkmişlər. Bütün bunlar isə nəticədə Milli Parkın körfəzlərinin geomorfoloji, hidroloji, fiziki-kimyəvi və bioloji-ekoloji cəhətdən dəyişilməsinə səbəb olmuşdur. XX əsrin 60-cı illərindən sonra bölgədə təbii sututarlar ixtisar edilmiş, əvəzində bir neçə iri su anbarı və sututarlar yaradılmışdır. Onlardan Xanbulançay, Viləşçay, Bolqarçay və b. göstərmək olar. Lakin çaylar üzərində bəndlərin yaradılması, bir çox təbii sututarların qurudulması ekoloji baxımdan hərtərəfli düşünülməmişdir. Məsələn, Kiçik Qızılağac kimi Cənubi Xəzərin balıq sərvətlərinin əsas inkişaf və məhsuldarlığının formalaşması sahəsini qidalandıran Viləş və Qumbaşı çaylarının körfəzə maneəsiz axıdılan su rejimi pozulmuşdur. Qeyd edək ki, məhz bu çayların sayəsində Kiçik Qızılağac körfəzi əvvəllər şirin sulu olumş və suda minerallaşma göstəricisi 800-900 mq/l-dən yüksək olmamışdır. Ona görə də keçmiş Port-İliç qəsəbəsinə (indiki Liman şəhəri) yaxın olan əkinlərin suvarılması üçün yay aylarında körfəzdəki sudan istifadə olunmuşdur. Bu səbəbdən də sonralar körfəzdə duzluluq 7-8‰-ə çatmış, nəticədə o, distrof hövzə və bataqlığı xatırladan akvatoriyaya çevrilmişdir. Boladıçay Böyük Qızılağac körfəzinə axır və körfəzə yaxın mənsəbdə vaxtaşırı meliorativ tədbirlər aparılmaması üzündən bərk çöküntülərdən əmələ gələn dayazlıq, sədd-astanalar çayın körfəzə axmasına maneçilik törədir və bunun hesabına mənsəbdə bir növ yarımbataqlığı xatırladan akvatoriyada fitoplankton, fitobentos və ali su bitkiləri intensiv inkişaf edir. Beləliklə də, suda oksigen rejimində gərginlik yaranır. Xüsusilə də az sulu, yay aylarında mənsəb və ona qonşu dayaz sahələrdə zamor-kütləvi balıq qırğınları baş verir. Ərazidə, xüsusilə də hər iki Qızılağac körfəzlərində son 40-45 ildə təkrar olunan mikrobioloji tədqiqatlardan da məlum olmuşdur ki, onlarda antropogen evtroflaşmanın yaranması, yarımbataqlığın formalaşması və açıq akvatoriyaların 70%-ə qədərinin ali su bitkiləri tərəfindən zəbt olunmasının başlıca səbəbi məhz bu çaylarla körfəzə suların tam verilməməsi və nəzərdə tutulan rejimdə axmaması olmuşdur.

Cənubi Xəzərin Kürətrafı hidroekosistemində bioloji məhsulun, vətəgə əhəmiyyətli ixtiofaunanın məhsuldarlığının qorunması problemlərinin həlli üçün Kiçik və Böyük Qızılağac körfəzlərinin əvəzsiz hövzə kimi fəaliyyət göstərməsi, məhz onların bu çaylarla aramsız əlaqələrə əsasən həyata keçirilmişdir. Heç bir vəchlə razılaşmaq olmur ki, hərtərəfli elmi axtarış-təcrübələrlə əsaslandırılmış şəkildə yaradılan, xüsusilə də müstəqil Azərbaycanın Xəzər sektorunun qiymətli vətəgə balıqçılığının artıb-çoxalma və örüş-böyümə ərazisi sayılan Kiçik Qızılağac körfəzinin bataqlığa-yarımbataqlığa çevrilməsi yuxarıda göstərilən hər iki çay sularının suvarmaya yönəldilməsi sayəsində baş vermişdir.Təkcə Qumbaşıçayın suyunun Kiçik Qızılağac körfəzinə nəzərdə tutulan həcmdə axıdılmaması olduqca qiymətli, analoqu olmayan bu hövzənin təbiətini kökündən dəyişdirmişdir. Bu hal əraziyə aid biosfer məkanında baş verən ekoloji təzadların həm də antropogen mənşəli olmasını bir daha aydın biruzə verir. Xəzər dənizinin son səviyyə tərəddüdləri də Qızılağac Milli Parkının ekoloji şəraitinə ciddi təsir göstərmiş, dəniz səviyyəsinin çoxillik dövri qalxıb-enməsi sahil zolaqlarında ekosistemlərin struktur-ərazi diferensasiyasını və orada gedən təbii proseslərin gedişini ciddi dəyişmişdir. Keçən əsrin 70-ci illərinin axırına kimi səviyyənin nisbətən stabil qalması və ya enməsi nəticəsində ərazidə aridləşmə və qrunt sularının səviyyəsinin düşməsi fonunda mövcud bataqlıq, bataqlıq-laqun və bataqlıq-çəmən kompleksləri deqradasiyaya və modifikasiyaya uğramışsa, 1978-ci ildən başlanan səviyyə qalxması nəticəsində sahil zonalar subasma və yuyulmağa məruz qalmış və həmin ərazilərdə

mövcud olmuş su-bataqlıq kompleksləri dəniz suları altında qalmış, ərazidə hidromorflaşma artmış və qrunt sularının səviyyəsi yüksəlmişdir. Nəticədə Xəzər dənizi sahili boyu düzən hissələrdə bataqlıqlaşmış torpaqlar daha da artmış, hətta bölgədə ekoloji qaçqınlar peyda olmuş, o dövrdə Qızılağac oriontoloji qoruğunun ərazisinin daha 25-30%-i dəniz suları altında qalmışdır.Son bir neçə ildən başlayaraq Xəzər dənizinin səviyyəsinin təkrarən azalması nəticəsində Milli Parkın sahil xəttində yenidən dəyişikliklər baş vermiş və su akvatoriyası azalmaqdadır. Təkcə 2021 və 2022-ci illər üzrə nişangah göstəricilərini müqayisəsi göstərir ki, Xəzər dənizinin səviyyəsinin azalması və çəkilməsi nəticəsində burada 123 hektar su akvatoriyası azalmış, Milli Parkın şimal hissəsində olan Qaraquş gölünün suyu çəkilmiş, yerində bataqlıq əmələ gəlmişdir. Əvvəllər gölün hər iki tərəfinin uzunluğu orta hesabla 2320 m, eni 175 m və gölə Böyük körfəzdən daxil olan suyun axın eni 30 m, su ilə örtülü sahəsi 40 ha-a bərabər olmuş, Böyük Qızılağac körfəzində suyun sahildən çəkilməsi və hətta payz aylarında göldə suyun olmaması hesabına yerində bataqlıq və quru sahələr əmələ gəlmişdir.

Yuxarıda sadalananlardan belə nəticəyə gəlmək olur ki, Xəzər dənizinin su səviyyəsinin bir qaydada qalmaması ilə əlaqədar olaraq, Böyük və Kiçik Qızılağac körfəzlərinin su rejimi də vaxtaşırı dəyişir. və bu səviyyə tərəddüdləri Qızılağac Milli Parkının ekoloji vəziyyətinə ciddi təsir edr. Bu təsirlər bir neçə fərqli yolla - sahil eroziyası və sahil dəyişiklikləri, Milli Parkın içində yerləşən su ekosistemlərinə, göllərə və çaylara təsir, suyun qaldığı sahələrin genişlənməsi, sahillərin işğalı, plyajların yox olması, infrastrukturun təhlükə altında qalması, dəniz kənarı təbii həyatın və təbii su mühafizə sahələrinin dəyişməsi, ekosistemlərin zədələnməsi, su mənbələrinin səviyyəsində və keyfiyyətində dəyişikliklər və s. ilə müşahidə edilir.

Sonda qeyd edilməlidir ki, Xəzər dənizi səviyyəsindəki dramatik dəyişikliklər və Qızılağac Milli Parkının hidroloji rejiminə edilən antropogen təsirlər Milli Parkda yaşayan və nəsli qorunan canlı növlərin həyatına ciddi şəkildə təsir edir. Qızılağac Milli Parkının biomüxtəliflyinin azalmasına, ekosistemlərinin dəyərlərinin itirilməsinə səbəb olan bu cür hidroloji dəyişikliklər Milli Parkın idarə olunması və mühafizəsi üçün strateji planların tərtib edilməsini, səviyyə dəyişikliklərinə qarşı müvafiq meliorativ cavab strategiyalarının hazırlanmasını, ərazidə ardıcıl ekoloji monitorinq-araşdırma işlərinin sürətləndirilməsini və nəzarət altında saxlanılmasını tələb edir.

# SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏNİN ORTA MƏKTƏB İNFORMATİKA KURSUNDA ÖYRƏDİLMƏSI METODLARI

**Məmməd Muradov**
**dosent**
**Abdulla Süleymanov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mammad_2011@mail.ru**
**suleymanov.abdulla1975@gmail.com**

**Açar sözlər:** sosial şəbəkələr, orta məktəb, sosial cəmiyyət, internet

Hamıya məlumdur ki, müasir həyatımızda informasiya komunikasiya texnologiyalarının (İKT) əhəmiyyəti olduqca böyükdür. İKT-dən istifadə bütün sferalarda, cəmiyyət həyatının bütün sahələrində öz müsbət və mənfi cəhətlərini göstərməkdədir. Hər hansı məqsədlə yaradılmış texnoloji nailiyyət təhsil sistemindən də yan keçmir. Sözsüz ki, bu avadanlıqlar təhsil sistemində də lazım gəldikcə tətbiq edilir.Eyni zamanda nəzərə alsaq ki,internetin sosial şəbəkə imkanları günümüzün ayrılmaz yaşayış tərzinə çevrilmişdir. Onda orta ümumitəhsil məktəbi şagirdlərinin də İKT resurslarından istifadəsinin vacibliyi aydın görünər.İnternetin müxtəlif sahələrini əhatə edən böyük həcmli məlumatlar bazası hər saniyə yeni-yeni məlumatlarla zənginləşir.

Yeni məlumat bazaları bütün zamanlar olmuşdur.Lakin məlumatların yayılma sürəti və əhatə dairəsi olduqca zəif,həm də məhdud idi. Bir çox nailiyyətlərin dünya miqyasında yayılması və qəbul edilməsi üçün bəzən illər lazım gəlirdi.İnternetin xidmətləri genişləndikcə dünyanın istənilən yerində yaşayan və şəbəkəyə çıxış imkanı olan insanlar bir-biri ilə virtual ünsiyyət qurmaq, məktublaşmaq,müxtəlif toplantılarda iştirak etmək,alış-veriş etmək, kitab-jurnal oxumaq radio-televiziya verilişlərini izləmək, gerçək hadisələrdən anında xəbərdar olmaq, səmimi ünsiyyət qurmaq və.s. mümkündür.Bəzən hər hansı şəxsin ünvanına gələn bir mesaj onun vaxtının saatlarla sosial şəbəkələrdə keçməsinə səbəb olur.Vaxtın internetdə, xüsusən, sosial şəbəkələrdə keçməsi hazırki cəmiyyətin bəlasına çevrilmişdir.Bu və ya digər hallarla hər birimiz qarşılaşa bilərik. XXI əsrin ən böyük nailiyyətlərindən hesab edilən sosial şəbəkələr bütün yaş kateqoriyalarından olan insanları özünə cəlb etməklə yanaşı, müxtəlif dərəcəli asılılıqlar da yaratmışdır. Sosial şəbəkədən kimlər necə istifadə edir? sualına cavab tapmaq üçün çoxlu müşahidələr və anket sorğuları aparılmalı, nəticədə daha optimal variant tapılmalıdır.

Məlum pandemiya dövründə istər ali,istərsə də orta məktəblərdə əyani təhsil dayandırılaraq məsafədən təhsil həyata keçirilirdi. Məsafədən təhsil müxtəlif platformalarda aparılsa da,bir çox sosial şəbəkələrdən istifadə edilsədə, ən effektli və geniş yayılanı Whatsapp sosial şəbəkəsi oldu. Bu və ya digər şəbəkələrdən istifadə şagirdlərin onsuz da maraq dairəsində olan şəbəkə asılılığını daha da artırdı. Son illərin statistikası göstərir ki, gün ərzində sosial şəbəkələrdən istifadə edənlərin sayı 4-5 milyard təşkil edir, bunun da yarıdan çoxu, məhz, gənc nəsilin nümayəndələridir.

Son illərdə sosial şəbəkələr bütün dünyada insanlar arasında daha çox əhəmiyyət qazanmağa başlamışdır. Eyni zamanda ölkəmizdə də sosial şəbəkə istifadəçilərinin sayı hər gün artmaqdadır. Orta məktəblərdə təhsil alan şagirdlərin sosial şəbəkələrdən istifadə hallarını tənzimləmək bir çox hallarda müəllimlərdən daha çox asılı olur. Bu sahədə müxtəlif fikirlər səslənməkdədir. Bəziləri sosial şəbəkələrə qadağalar tətbiq edilməsinə,

bəziləri şagirdlərə qadağalar qoyulmasına, bəziləri isə senzurların tətbiqinə üstünlük verirlər. Lakin qeyd etmək lazımdır ki, şagirdləri elmi-texnoloji yeniliklərdən kənar tutmaq olmaz. Əksinə, sosial şəbəkələrin müsbət cəhətlərini, xeyirli tərəflərini, yeni biliklər əldəetmə imkanlarını,büdcəyə qənaətetmə tərəflərini başa salmaq, anlatmaq,onların gələcək həyatda düzgün mövqe tutmalarına səmərəli təsir göstərər. Mütəxəssislərin qənaətinə görə orta məktəb şagirdlərinə internetin, sosial şəbəkələrin müsbət keyfiyyətlərini öyrədə bilməsək, onda özbaşına istifadə səmərəsiz həyat tərzinin, intihar hallarının,evdən qaçmaların, narkomaniyanın, ölüm hallarının və digər neqativ hadisələrin genişlənməsinə gətirib çıxaracaqdır. Bu texnologiyalardan şagirdlərin istifadəsinin təşkili müəllimlərin pedoqoji ustalığından daha çox asılıdır.

XXI əsr informasiya cəmiyyətidir.Sosial şəbəkələr əsasında qurulan virtual cəmiyyətlər müəyyən mənada bilik bazasıdır. Nəzərə almaq lazımdır ki, bu şəbəkələrdə müxtəlif dillərdə danışan milyonlarla istifadəçi bir araya gəlir. Son illər cəmiyyətin bütün təbəqələrində geniş istifadəçi kütləsi toplayan tiktok şəbəkəsi şagirdlər arasında bir növ yarış meydanına çevrilmişdir. Müəllimlər şagirdlərə sosial şəbəkə təhlükəsindən qorunmaq imkanlarını aşılamalıdır. Onları bu şəbəkələrdən səmərəli istifadəyə cəlb etməlidir.

## MOBİL TEXNOLOGIYALAR TƏTBİQİ İLƏ İNFORMATİKANIN ÖYRƏDİLMƏSİ METODLARI

**Məmməd Muradov**
**dosent**
**Aynur Nəsirli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mammad_2011@mail.ru**
**suheyucal@gmail.com**

**Açar sözlər:** rəqəmsal inqilab, İKT, mobil öyrənmə, mobil öyrətmə metodları

Texnologiya insanların məhsuldarlığını üzə çıxaran və işçi qüvvəsinin səmərəliyini artıran ən mühim vasitə olaraq görülür. Bu baxımdan təqdim etdiyi imkanlarla texnologiya XXI əsrdə hər sahədə öz təsirini göstərməklə XXI əsri əvvəlki dövrlərdən fərqli edərək insan həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Ən əhəmiyyətli fərqləndirici xüsusiyyət bu əsrdə texnologiyada sürətli transformasiyaların baş verməsidir. Texnologiyadakı bu sürətli transformasiyalar və həyatın bütün sahələrində texnoloji və daha da rəqəmsal vasitələrin artan istifadəsilə bu gün dünyada rəqəmsal bir inqilab olduğunu söyləmək mümkündür. Rəqəmsal inqilabın istər-istəməz təsir göstərdiyi sahələrdən biri də təhsildir.

Texnologiyanın sürətli inkişafı ilə ayaqlaşa bilmək üçün təhsil sistemi hər zaman ən son texnologiya ilə təchiz edilir: Yazı lövhəsi ilə başalayan təhsil prosesi zamanla kompüterlərə, planşet kompüterlərə, ağıllı lövhələrə və mobil cihazlara doğu dəyişdi. Mobil telefon rabitə vasitəsi olmaqla yanaşı ən çox şəbəkəli ünsiyyət üçün istifadə edilir.

Hazırda mobil telefonlar həyatın bütün sahələrində istifadə olunur. Onun əlaqə saxlamaq funksiyası ilə yanaşı şəkil, video çəkmək, onlar üzərində müəyyən əməliyyatlar aparmaq, sosial şəbəkə tətbiqləri və onlardan istifadə etmək, oyun tətbiqləri vasitəsilə tədris prosesinin təşkili və s. kimi funksiyaları da vardır. Mobil telefonların bu kimi çox tərəfli

funksiyalarından insanlar müxtəlif məqsədlər üçün istifadə edirlər. Xüsusən gənc nəsil üçün telefondan istifadə onun gündəlik fəaliyyətinin ayrılmaz hissəsinə çevrilib. Mobil telefonların təhsil sahəsinə inteqrasiyası da bu tendensiyaları əks etdirir. Telefonların təhsil sistemində uğurlu tətbiqi yalnız onların əldə edilməsindən deyil, eyni zamanda istifadəçilərin onlarla nə dərəcədə tanış olmalarından, necə istifadə edə bilmələrindən asılıdır.

Təhsildə texnologiyalardan istifadə o zaman effektiv olur ki, o, öyrənənlər və öyrədənlər üçün əvvəllər mümkün olmayan yeni imkanlar yaratmış olsun. Müasir Artırılmış Reallıq ( Augmented Reality-AR) və Virtual Reallıq (Virtual Realty-VR) texnologiyaları bu cəhətdən müəllimlərə ən əlverişli imkanlar təqdim edir. **Virtual Reallıq** dedikdə kompüter və ya rəqəmsal qurğulardan istifadə etməklə yaradılmış reallıq nəzərdə tutulur. **Artırılmış Reallıq** - ətrafımızdakı fiziki elementləri kompüter mənşəli səs, video, qrafika GPS məlumataları ilə sintez etməklə, virtual dünya ilə real aləmi özündə birləşdirən müasir texnologiyadır. Mobil texnologiyalar əsasında İnformatika fənninin tədrisi metodlarının tətbiqində aşağıdakı prinsiplərə əməl etmək məqsədə uyğundur:

**İllisturasiya və həvəsləndirmə metodu:** Təlim zamanı illisturasiyanın tətbiqi bilavasitə və ya dolayı şəkildə mobil texnologiyalardan istifadə etməklə yerinə yetirilir. Bu metodun tətbiqi zamanı şagirdlər müxtəlif həvəsləndirmələr şəklində mobil texnologiyalardan istifadə edirlər.

**Motivasiya metodu:** Əvvəllər müəyyən edilmiş bir sıra tədris metodları dərslərin keçirilməsinin oyun formasını həyata keçirirdi və bu zaman şagird fəaliyyətinin təşkili üçün qeyri-standart alətlər təklif edirdi. Lakin müasir təlim metodları və onların tədrisə tətbiqi nəticəsində şagirdlərin didaktik qabiliyyətləri inkişaf etdirir. Dərsin təşkili zamanı ilkin təlim metodu motivasiyanın qurulmasıdır.Əgər əvvəllər motivasiya qurmaq üçün əyani vəsaitlərdən istifadə olunurdusa, hazırda mobil tətbiqlər vasitəsilə bunu asanlıqla həyata keçirmək olar.

**Hərəkətlərin qiymətləndirilməsinə nəzarət metodu:** İnformatika fənninin məktəb kursu proqram məhsullarından (tətbiqlərdən) və İKT (İnformasiya-Kommunikasiya texnologiyaları)-dən istifadə bacarıqlarının inkişafına yönəlmiş çoxsaylı praktiki işlərdən ibarətdir.Bu zaman müəllimin qarşısında müstəqil iş zamanı şagirdin hərəkətlərini qiymətləndirmək və zəruri hallarda onları düzəltmək vəzifəsi durur.

**Fəaliyyətin şaxələndirilməsi:** Müasir mobil qurğular nəinki müxtəlif tipli (rəqəm, mətn, qrafik,səs və s.) informasiyanı emal etməyə və yaratmağa, həm də onu klaviatura girişi, səsyazma cihazı, foto və videokamera vasitəsilə yazmağa imkan verir. Bu xüsusiyyət tələbələrin praktiki və yaradıcı işləri yerinə yetirərkən fəaliyyətlərini şaxələndirməyə imkan verir və mobil cihazlarla işləmək bacarıqlarının inkişafına töhfə verir.

**Birgə fəaliyyətlərin rolunun gücləndirilməsi:** Bulud xidmətləri və kommnukasiya sistemləri, həmçinin mobil cihaz vasitəsilə internetə çıxış tələbələr arasında birgə fəaliyyətin təşkili üçün yeni imkanlar açır.

# RİYAZİYYATIN TƏDRİSİNDƏ FƏNLƏRARASI ƏLAQƏNİN YARADILMASI

**Məmməd Muradov**
**dosent**
**Şakir Həbibov**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**Mammad-2011@mail.ru**
**hebibov099@gmail.com**

**Açar sözlər:** inteqrasiya, fənlərarası əlaqə, kommunikativ qabiliyyətlər, kompetensiyalar

Hər bir fənnə aid olan materialdan digər fənlərin tədrisində istifadə oluna bilər. Bu isə bu vəya digər şəkildə fənlərarası əlaqənin yaradılmasını zəruri edir.

Pedaqoji ədəbiyyatlarda fənlərarası əlaqənin yaradılması üçün aşağıdakı vasitələrdən istifadə olunması göstərilir:

- fənlərarası məzmunlu suallar;
- fənlərarası tapşırıqlar;
- fənlərarası mətnlər;
- fənlərarası problemli şəraitin yaradılması;
- fənlərarası inteqrasiya dərsləri.

Fənlərarası məzmunlu sualların köməyi ilə şagirdlərin fəaliyyəti fənlərarası əlaqənin aşkar olunmasına yönləndirilir. Fənlərarası tapşırıqlardan istifadə etməklə şagirdlərin qeyri-standart düşünmə qabiliyyəti, məsələnin maraqlı həlli üsulunu tapmaq bacarığı aşkar olunur. Fənlərarası mətnlər mövzu ilə bağlı mətnləri tamamlamaqla fənlər arasında əlaqənin yaradılmasına xidmər edir. Nəhayət, fənlərarası inteqrasiya müxtəlif sahələrdə ümumiləşmiş biliklərin bir-birinə dərindən nüfuz etməklə bir tədris materialında birləşdirilməsini nəzərdə tutur. Fənlərarası inteqrasiyanın metodoloji əsasını maddi aləmin tamlığı, təbiyyat, cəmiyyət, təfəkkür qanunlarının qarşılıqlı əlaqəsi təşkil edir.

İnteqrasiya dərsləri müəllimlərin qarşılıqlı əlaqəsi baxımından müxtəlif şəkildə təşkil oluna bilər:

1) Dərsdə müəllimlər bərabər şəkildə iştirak edirlər;
2) Müəllimlərdən biri aparıcı, digərləri assistent olur;
3) Bütün dərsi daha çox baza hazırlığı olan müəllim aparır, digər müəllimlər dərsdə aktiv müşahidəçi kimi iştirak edirlər.

Fənlərarası inteqrasiya dərslərində nəzərə alınması zəruri olan şərtləri qeyd edək:

- tədqiqat obyektləri eyni olmalı və ya bir-birinə kifayət qədər yaxın olmalıdır;
- eyni və ya yaxın tədqiqat metodlarından istifadə olunmalıdır;
- inteqrasiya olunan fənlər ümumi qanuna uyğunluq və ümumi nəzəri konsepsiyalar əsasında qurulmalıdır.

Orta məktəbdə riyaziyyat fənninin bir sıra digər fənlərlə əlaqəsini göstərək:

Fizika fənninin bərabərsürətli hərəkət mövzusu riyaziyyatın xətti funksiya mövzusu ilə, cisimlərin qarşılıqlı təsiri mövzusu düz və tərs mütənasiblik mövzusu ilə əlaqəlidir. Ümumiyyətlə, mexanika bölməsi riyaziyyatın vektorlar, koordinat metodu, funksiyanın qrafiki, törəmə mövzuları ilə əlaqəli tədris olunur. Optika bölməsi riyaziyyatın simmetriya mövzusu ilə elektrik bölməsi isə düz və tərs mütənasiblik, törəmə mövzuları ilə əlaqəlidir. Kimya fənninindən maddə miqdarı, məhlul, kimyəvi reaksiyalar tədris olunarkən

riyaziyyatın faiz, tənliklər mövzuları ilə əlaqələndirilir. Coğrafiya fənni üzrə xəritələrin çəkilməsi riyaziyyatın koordinat sistemi, miqyas mövzuları ilə əlaqəlidir. Bir çox fənlərin tədrisində diaqramlardan istifadə olunur. Bu zaman riyaziyyatın faiz, tənlik, bərabərsizlik mövzuları ilə əlaqə yaradılır. Həmçinin riyaziyyat dərslərində fizika, kimya, coğrafiya məzmunlu məsələlər həll etməklə fənlərarası əlaqə yaratmaq mümkündür. Bütün bu hallarda inteqrasiya dərslərindən istifadə oiuna bilər.

İnteqrasiya dərslərində şagirdlərdə aşağıdakı kompetensiyalar formalaşır:

- nitq mədəniyyəti;
- kompüterlə işləmək;
- dərsin məqsədinə uyğun materialı müstəqil seçə bilmək;
- kommunikativ qabiliyyətlər (qrupda işləmək bacarıqları, qulaq asmaq, ünsiyyət qurmaq, digər nöqteyi-nəzərə malik olanlara loyal yanaşmaq).

Fənlərarası inteqrasiya:

1) öyrənilən mövzuya bir-neçə tərəfdən baxmağa imkan verir;
2) faktlar arasında yeni əlaqələr tapmağa səbəb olur, biliyin mənimsənilməsində olan çatışmazlıqları aradan götürür, bilikləri tamamlayır və təsdiq edir;
3) şagirdlərin təfəkkürünü və kommunikativ bacarıqlarını yüksəldir;
4) dərsin qeyri-standart şəkildə təşkil olunması səbəbindən motivasiyanı yüksəldir;
5) dərs müddətində diqqətin yüksək saxlanmasına səbəb olur, nəticədə dərsin effektivliyini və səmərəliliyini artırır.

## BİOLOGİYA DƏRSLƏRİNDƏ EVRİSTİK METODLARIN TƏTBİQİNDƏ METODİK ŞƏRTLƏR VƏ YENİ TEXNOLOGİYALAR

**Məmmədhüseyn Hüseynov**
**dosent**
**Aidə Məmmədova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti.**
**mamed.h@mail.ru**
**aide.hesenova.87@mail.ru**

**Açar sözlər:** evristik metod, didaktika, təlim metodu, tədris üsulu

Elm və texnikanın inkişafı orta ümumtəhsil məktəblərində biologiyanın tədrisi metodlarının təkmilləşməsini, yəni biologiya elminin müxtəlif üsullarının, didaktika və metodologiya meyllərinin inkişafını tələb edir. Adətən bilik mənbəyi təhsilin məzmunu ilə müəyyən edilir, əsasən təhsildə aparıcı olan material tədris prosesində mövzudan asılı olaraq əsas təlim məqsədlərini həyata keçirir. Bilik mənbələrinin tədris metodlarına təsiri onların xarici təzahür formalarında özünü göstərir. Bu formalar mövzudan asılı olaraq fərqli və spesifik ola bilər. Biologiya dərslərində evristik metodların tətbiqində əsas xüsusiyyətlər: müəllim tədris materialının öyrənilməsini evristik söhbət şəklində təşkil edir; problemli məsələlərin qaldırılması; koqnitiv problemlərin həlli; təhsil problemləri müəllimin köməyi ilə şagirdlər tərəfindən qoyulur və həll edilir. Evristik metod - idrak problemlərinin həlli ilə birlikdə öyrənmə prinsipləri ilə müəyyən edilmiş tədris materialının hazırlanması və evristik

söhbətin aparılması üçün tənzimləyici qaydalar sistemidir. Şagird üçün evristik öyrənmə daimi olur və müstəqil ideyaların praktik tətbiqi və yeni fikirlərin davamlı inkişafına yol açır. Evristik öyrənmənin məqsədi: keçmiş təcrübənin şagirdlərə ötürülməməsi ilə əlaqədardır və şagirdlər üçün şəxsi təcrübə və məhsullar yaratmaqda onların gələcəyinin dizaynına diqqət yetirmək; şagirdlərə şəxsi ideyaların formalaşmasında köməklik göstərmək; təlimin məqsədləri və məzmunu, onun təşkili, həyata keçirilməsi prosesinin təhlili, eləcə də məlumatlılığının inkişafına nail olmaq. Evristik öyrənmə yaradıcı və idrakı fəaliyyəti birləşdirir. Müəllim şagirdə hazır bilik vermir, şagirdi haqqında bilik əldə etməli olduğu obyektlə təmin edir. Bunun əsasında uşaq fəaliyyət məhsulu yaradır - yeni hipotez irəli sürür, mətn şəklində fikirlərini əsaslandırır, diaqram qurur, model tərtib edir və s. Uzun illər təcrübə zamanı biologiyanın müxtəlif tədris üsulları formalaşdı. Bu üsullar müxtəlifliyinə görə fərqli olsalarda onları əsas ümumi xüsusiyyətlər birləşdirir, məsələn: bilik mənbələri, müəllimin fəaliyyətinin xarakteri və bu prosesdə şagird fəaliyyətinin nəticələri. Qeyd olunan əlamətlər əsas əlamətlər hesab olunur, təlim prosesində istifadə olunan müxtəlif metodların təkmilləşməsini tələb edir. Təlimdə tətbiq edilən metodlar ümumi inkişafa imkan verərsə, təlimin səmərəsi də bir o qədər yüksək olar. «Təlim metodu» didaktikanın, ümumiyyətlə, metodikanın əsas anlayışlarından biridir. Təlim metodu müəllimin, şagirdlərin praktiki və idrak fəaliyyətini təşkil edən elə sistemdir ki, o dönmədən tədrisin məzmununu mənimsəməyə aparır. Apardığımız müşahidələr göstərir ki, tədris prosesində təlim metodlarından istifadə edərkən aşağıdakı cəhətlər nəzərə alınmalıdır:

- elmi biliklərdən nələri şagirdlərə aydın, aşkar təqdim etmək olar;
- hansı hallarda şagirdlərin əvvəllər yiyələndikləri bilik, bacarıq ehtiyatına istinadən onları fəal əməliyyat aparmağa, axtarışa, araşdırmağa cəlb etmək olar;
- hansı bilikləri şagirdlər müstəqil əldə edə bilərlər; nə zaman şagirdlər mənimsədikləri əsasında yeni şey yarada bilərlər, biliklərini yazıda, quraşdırma prosesində, laboratoriyada, tədris-təcrübə sahəsində, məişətdə tətbiq edə bilərlər.

Biologiyanın tədrisi ilə bağlı son illərdə aparılan tədqiqatlarda əsas diqqət ona yönəldilir ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşməsinə deyil, həm də onların təfəkkürünün, şəxsi keyfiyyət və qabiliyyətinin inkişafına, həyati bacarıqların qazanılmasına xidmət etsin. Biologiyanın ümumi orta və tam orta təhsil pillərində tədrisi zamanı şagird tam orta təhsil səviyyəsində:

- bioloji varlıqların yaranması və inkişafını, habelə canlı orqanizmlərdə gedən bioloji prosesləri şərh və izah edir;
- insanın əmələ gəlməsi, irqlərin yaranması, irsiyyət, qlobal ekoloji problemlərin baş vermə səbəbləri və aradan qaldırılması yolları və s. Barədə materiallar toplayır, sistemləşdirir, müqayisə və təhlil edərək qiymətləndirir;
- irsiyyətin qanunauyğunluqlarını məsələ həlli yolu ilə əsaslandırır və nəticələrini şərh edir;
- seleksiyanın nailiyyətlərinin ayrı-ayrı sahələrdə əhəmiyyətini və tətbiqi yollarını izah edir.

Beləliklə, evristik fəaliyyət universal tərbiyəvi hərəkətlərin formalaşması üçün güclü vasitədir və bu fəaliyyətin biologiya dərslərində "öyrənmə qabiliyyətinin" formalaşmasında rolu çox böyükdür. Bununla yanaşı, fövqəladə bilik, bacarıq və praktik vərdişlərin, eləcə də fəaliyyət metodlarının formalaşmasında biologiyanın tədris fənni kimi potensialı şübhəsizdir. Evristik öyrənmə şagird tərəfindən edilən kiçik bir kəşfdir, idrak və yaradıcı fəaliyyəti aktivləşdirən bir prosesdir. Şagird müəllimdən hazır biliyi almır, mövzu, hadisə və ya proses haqqında bilikləri özü əldə edir.

# MƏKTƏBDƏ BİOLOGİYANIN TƏDRİSİ PROSESİNDƏ BİTKİ FİZİOLOGİYASI BİLİKLƏRİNDƏN İSTİFADƏ

**Məmmədhüseyn Hüseynov**
**dosent**
**Ayan Ələskərli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti.**
**mamed.h@mail.ru**
**ayansva28@gmail.com**

**Açar sözlər:** fiziologiya, bioloji təcrübə, eksperiment, böyümə

Bitki fiziologiyasının öyrənilməsi üzrə dərslərin aparılması üçün orta ümumtəhsil məktəblərində şagirdlərdə inkişaf etdirilməsi zəruri olan bacarıqlar: fizioloji anlayışların kateqoriyasını müəyyən etmək, fizioloji məzmunlu dərsləri müəyyənləşdirmək və onları planlaşdırmaq, təcrübələr qurmaq və keçirmək, təcrübələrin mövzularını və idrak məqsədlərini müəyyən etmək. Şagirdlər orta ümumtəhsil məktəblərində biologiya fənnini öyrənməklə bitki orqanizminin böyüməsi, inkişafı və həyat prosesləri haqqında biliklərə yiyələnirlər. Fizioloji məzmunlu bu tip dərslərin xarakterik xüsusiyyəti mövzudan asılı olaraq laboratoriya məşğələlərində təcrübələrdən istifadə etməyi bacarmaqdır. Bioloji eksperiment subyektin dəqiq nəzərə alınmış şəraitdə elmi və ya tədris xarakterli tədqiqidir ki, bu zaman şagird onun gedişatını izləyir və bu şərtlər daxilində yeni məzmunlu mövzular meydana çıxanda onu yenidən həyata keçirməyi bacarırlar. Təcrübə fənnə marağın artmasına kömək edir, idrak fəaliyyətini aktivləşdirir, məntiqi təfəkkürünü inkişaf etdirir. Biologiyanın tədrisi zamanı bitki fiziologiyasının biliklərinin öyrənilməsi üçün biologiya dərslərində təcrübə tədris metodu kimi çıxış edir, lakin təcrübələr nümayiş kimi istifadə oluna bilər və ya şagird laboratoriya işlərindən ondan əsas kimi istifadə edə bilər. Tədris prosesində eksperiment tədqiqat və illüstrativ məqsədlər kimi istifadə edilir. İllüstrativ yanaşmada bilik mənbəyi sözdür, bu zaman müəllimin izahı ön plana keçir, dərslikdə verilən məlumat isə yalnız irəli sürülən fərziyyələri təsdiqləyir. Nümayiş eksperimentində isə tədqiqat yanaşması, problemin qoyulması (fərziyyənin formalaşdırılması), onun həlli yollarının axtarışı (eksperimental şəraitin işlənib hazırlanması), təcrübənin və ya onun nəticələrinin nümayiş etdirilməsi və nəticələrin çıxarılması (öyrənilən hadisənin mahiyyətinin açılması) diqqətdə saxlanılır. Laboratoriya təcrübəsində tədqiqat yanaşması oxşardır, lakin bu zaman şagirdlər özləri müstəqil olaraq təcrübə aparırlar. Bioloji təcrübə qısamüddətli (dərs zamanı) və uzunmüddətli (tədris ili müddətində) ola bilər. Məsələn, yerkökünün böyüməsinə və inkişafına mineral gübrələrin təsiri və onların məhsuldarlığı, səpin sıxlığının çuğundurun məhsuldarlığına təsiri və s. “Toxumların cücərmə şəraiti” mövzusu öyrənilərkən, aparılan təcrübələrin nəticələri təqdimat şəklində hazırlanır. Təcrübə süni yaradılmış şəraitdə aparılır və orqanizmə müxtəlif təbii təsirlərin kompleksindən yalnız fərdi təcrid olunmuş amillərin təsiri ilə seçilir və aydınlaşdırılır. Biologiyadan elmi-tədqiqatların aparılması və qeydə alınması üçün bir çox texniki vasitələr tələb olunur. Fizioloji proseslərin öyrənilməsində (toxumların kimyəvi tərkibinin, torpağın fiziki xassələrinin, yarpaqlarda nişastanın əmələ gəlməsinin öyrənilməsi və s.) təcrübələrin aparılması daha çox effekt verir. Ən müxtəlif təcrübələr təlim və eksperimental sahədə aparılır. Şagirdlərə sınaq və təcrübələrin nəticələrinin müqayisə yolu ilə həll olunan suallar və ya tapşırıqlar verilir, təcrübə və nəzarət bitkiləri sınaqdan keçirilir, alınan nəticələr müqaisə olunur. Təcrübə zamanı müşahidələr və ölçmələr aparılır, məhsuldarlıq göstəriciləri müqayisə edilir və nəticə çıxarmağa imkan verən

müşahidələrin və təcrübə nəticələrinin xüsusi cədvəllərdə düzgün qeyd edilməsi xüsusi əhəmiyyət kəsb edir. Təcrübələrin aparılması zamanı şagirdlərə tədqiqatda intizam, dəqiqlik, etibarlılıq və dürüstlük öyrədilməlidir. Şagirdlər evdə və təbiətin bir güşəsində ən sadə təcrübələrdən başlayaraq daha mürəkkəb təcrübələr qurmağa hazırlaşırlar. Təcrübə süni yaradılmış şəraitdə aparılır və orqanizmə müxtəlif təbii təsirlərin kompleks təsiri ilə seçilir və aydınlaşdırılır.

## BİOLOGİYA DƏRSLƏRİNDƏ MƏKTƏBLİLƏRİN TƏDQİQATÇILIQ BACARIQLARININ İNKİŞAFININ METODİKİ ƏSASLARI

**Məmmədhüseyn Hüseynov**
**dosent**
**Günay Ağayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mamed.h@mail.ru**
**agayevagunay89@icloud.com**

**Açar sözlər:** tədqiqat texnologiyaları, tədrisi prosesi, bioloji təhsil, pedaqoji vasitələr

Müasir cəmiyyətin informasiya, kommunikasiya, peşə və digər sahələrində baş verən qlobal dəyişikliklər təhsilin məzmununa, metodoloji və texnoloji aspektlərinə düzəlişlər etməyi, əvvəlki dəyər prioritetlərinə, hədəflərə və pedaqoji vasitələrə yenidən baxılmasını tələb edir. Müasir dövrdə respublikamızın sosial-iqtisadi şəraitindəki dəyişikliklər məktəblilərin fundamental peşə hazırlığının keyfiyyətinə artan tələblər qoyur. Bu, məzunlarda güclü sistemli biliklərinin formalaşmasını, tədqiqat texnologiyalarına yiyələnməsini, elm və mədəniyyətin müxtəlif sahələrində naviqasiya bacarıqlarının inkişaf etdirilməsini, stereotipləri dəf etmək, intellektual innovasiyalara hazır olmaq bacarığını formalaşdırmaqdan ibarətdir. Ümumi təhsil, orta ixtisas və ali təhsil müəssisələrinin məzunlarının hazırlanmasına dair tələblər yenilənir. Bir mütəxəssisin həll edə bilməli olduğu peşə və sosial vəzifələr toplusu ilə ölçülən məzunun intellektual və şəxsi inkişaf səviyyəsinə tələblər artır. Şagirdlər tərəfindən bu sinfin tapşırıqlarının yerinə yetirilməsi yüksək səviyyəli məhsuldar fəaliyyəti nəzərdə tutur, onların həlli məzundan tədris materialında olanlarla müqayisədə yeni məlumatlar yaratmağı və təhsil fəaliyyəti zamanı yaranan problemləri həll etməyi tələb edir.

Qarşıya qoyduğumuz məqsədə müvafiq olaraq aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: (nəzəri - psixoloji, pedaqoji, tədris proqramı və metodiki sənədlərin, dərsliklərin təhlili və toplanmış məlumatın sintezi, yerli və xarici elmi-metodiki jurnallarda nəşr olunmuş tədqiqat işlərinin nəticələrinin müqayisəsi və ümumiləşdirilməsi, proqnozlaşdırma və modelləşdirmə, müəllimlərin qabaqcıl təcrübəsinin ümumiləşdirilməsi, empirik-birbaşa və dolayı pedaqoji müşahidələr, anketlər, testlər, bilik nümunələri, söhbətlər, müsahibə, pedaqoji eksperiment; eksperiment məlumatlarının statistik-riyazi emalı, təcrübə nəticələrinin qrafik təqdimatı). Cəmiyyətin sosial-iqtisadi inkişafının uğuru birbaşa bazar şəraitində fəaliyyət göstərməyə hazır kadrların hazırlanmasından asılıdır, yəni, sağlam rəqabətə tab gətirə bilən kadırların yetişdirilməsi günün tələbidir. Rəqabət qabiliyyətliliyin ən mühüm amilləri aşağıdakılardır: ixtisaslı, yaradıcı düşünən kadrların olması, yaradıcılıq

fəaliyyətlərini təşkil etmək bacarığının yüksək olması, innovativ ideyaları qəbul etməyə və onun həyata keçirilməsi üçün şərait yaratmağı bacaran kadır kimi özünü təsdiq etməsi lazımdır. Bununla belə, bəzi məktəblərdə pedaqoji sistem elə qurulmuşdur ki, biliklərin əksəriyyəti hazır formada təqdim olunur və əlavə axtarış səyləri tələb etmir və bu zaman şagirdlər üçün əsas çətinlik müstəqil məlumat axtarışı və biliklərin mənimsənilməsidir. Buna görə də, təhsil prosesinin səmərəliliyinin artırılmasının ən vacib şərtlərindən biri təhsidə tədqiqat fəaliyyətinin təşkili və onun əsas komponentinin- tədqiqat bacarıqlarının inkişafıdır ki, bu da məktəblilərə proqramın tələblərinin daha yaxşı öhdəsindən gəlməyə kömək etmiş olur, həm də yaradıcılıq qabiliyyətlərini, məntiqi təfəkkürünü inkişaf etdirmək və ümumilikdə təhsil fəaliyyəti üçün daxili motivasiya yaratmaq imkanı verir. Məktəb biologiya kursu şagirdlərin tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlara malikdir, çünki kursun spesifikliyi məzmunun tədqiqat xarakterli olmasıdır. Bu problemin prioritetliyinə və aktuallığına baxmayaraq, bu günə qədər şagirdlərin biologiya üzrə tədqiqat fəaliyyəti üçün tapşırıqlar sistemini və onlardan istifadə üçün metodiki tövsiyələri özündə əks etdirən az sayda əsər nəşr edilmişdir. Biologiya üzrə elmi-tədqiqat işinin məzmunu və təşkili problemi kifayət qədər işlənməyib və əlavə tədqiqatlara ehtiyac duyulur. Biologiya dərslərində tədqiqat bacarıqlarının formalaşdırılması metodologiyası problemi hələ də elmi baxımdan öz həllini tapmamış qalır. Apardığımız tədqiqatlar orta ümumtəhsil məktəblərində biologiyanın tədrisi nəzəriyyəsi və praktikasında formalaşmış bir sıra ziddiyyətləri üzə çıxardı. Müasir cəmiyyətin yaradıcı fəaliyyətə qadir olan gənc nəslin fəallığına olan ehtiyacla onların inkişaf səviyyəsi arasında, məktəb məzunlarının tədqiqat bacarıqları, tədqiqat bacarıqlarının formalaşdırılması üçün məktəb bioloji təhsilinin məzmununun geniş imkanları və onların təhsil prosesində inkişafı üçün zəif işlənmiş metodologiya arasında ziddiyyətin olması narahat doğurucu amillərdəndir. Məktəblilərin müstəqil informasiya axtarışı, bilik əldə etmə ehtiyacları və istəkləri arasında biologiya tədrisi prosesinin reallığı, metodları əsasən məlumatın hazır formada çatdırılmasına yönəlib və əlavə axtarış səyləri tələb etmir. Bu ziddiyyətlərin təhlili tədqiqatımızın aktuallığını müəyyənləşdirdi. Yuxarıda qeyd olunan ziddiyyətlərin aradan qaldırılması biologiya dərslərində tədqiqat bacarıqlarının formalaşdırılmasının elmi əsaslandırılmış metodikasının işlənib hazırlanmasını tələb edir.
Biologiya dərslərində məktəblilərin tədqiqat bacarıqlarının inkişaf etdirilməsi prosesi aşağıdakı hallarda daha effektiv olacaqdır:
- məktəblilərin tədqiqat bacarıqlarının inkişafı hər dərsin xüsusi tapşırığı səviyyəsinə uyğunlaşdırılır;
- tədris prosesində pedaqoji şərait və tədqiqat bacarıqlarının inkişaf mərhələləri müəyyən edilir və müşahidə edilir;

Biologiya dərslərinin metodologiyasına məktəblilərin tədqiqat bacarıqlarının inkişafının səmərəliliyini təmin edən metod və metodik texnikalar, didaktik vasitələr daxildir.

Nəzərdə tutulan məqsədə çatmaq və irəli sürdüyümüz fərziyyəni yoxlamaq üçün aşağıdakı tədqiqat işləri yerinə yetirilmişdir:

1. Biologiyanın tədrisi metodikası tarixində tədqiqat metodu probleminin formalaşması və inkişafının müqayisəli təhlili aparılmış;
2. Məktəb kurikulumunun və biologiya dərsliyinin məzmununun təhlili aparılmış və məktəblilərin tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün real imkanlar müəyyən edilmiş;
3. Müəyyən edilmiş nəzəri və metodoloji əsasları həyata keçirərək biologiya dərslərində tədqiqat bacarıqlarının inkişaf etdirilməsi metodologiyasının modeli qurulmuşdur.

Biologiya dərslərində tədqiqat bacarıqlarının formalaşdırılması metodologiyasının modeli bir-biri ilə əlaqəli və bir-birindən asılı olan məqsəd, məzmun, prosessual-fəaliyyət, təşkilati-metodiki və effektiv-diaqnostik komponentlərdən ibarətdir.

Beləliklə, müasir dövrdə biologiya müəllimləri özlərində tədqiqatçılıq bacarıqlarının inkişafı üçün hərtərəfli metodologiya yaratmalı və həyata keçirməlidirlər. Onların təlim keyfiyyətini artırmaq üçün səriştələrinin inkişafına nail olmaq lazımdır. Bu, onların fəaliyyətlərində səmərəliliyi artıracaq. Müasir təhsil mütəxəssisi təkcə bilik ötürən deyil, həm də pedaqoji mədəniyyətin daşıyıcısıdır. Şagirdlər yalnız əldə edilmiş bilikləri və fəaliyyət üsullarını təkrar istehsal etməyi deyil, həm də öyrəndiklərini müstəqil şəkildə yeni şəraitdə tətbiq etməyi bacarmalıdırlar.

## MƏKTƏBDƏ RİYAZIYYATİN TƏDRİSİNDƏ MƏNTİQ ELEMENTLƏRİNİN ROLU VƏ YERİ

**Nahid Paşayev**
**dosent**
**Ayan Heydərli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**umud-96@mail.ru**
**ayanheyderli21@gmail.com**

**Açar sözlər:** məntiq elementləri, məntiqi təfəkkür, mühakimə, məntiqi məsələlər, riyazi əqli nəticə.

Riyaziyyatın bir elm kimi diskret riyaziyyat və kəsilməz riyaziyyat ilə məşğul olduğu bizə məlumdur. Bu məktəb riyaziyyat kursunda öz əksini tapmışdır və riyaziyyatın bir elm kimi inkişafı ilə birbaşa bağlıdır. Riyaziyyat müxtəlif elmlərlə, o cümlədən, məntiq ilə də sıx əlaqədədir. Riyaziyyat təlimində məntiq elementlərinin daxil edilməsi problemi məntiqin xüsusi öyrənilməsindən ibarət olmayıb, məntiqin zəruri elementlərinin riyaziyyat tədrisinin ayrılmaz hissəsi olmasından ibarətdir. Onun səmərəsini artıran, şagirdlərin məntiqi inkişafına təsir göstərən mühüm köməkçi aparatdır. Bu problem baxmayaraq ki, yeni deyil, çoxdan müzakirə mövzusu olmuşdur.

Hal-hazırda məntiq riyazi metodlarla öyrənilir. Onun elementlərinin riyaziyyat təliminə daxil edilməsi onun metodlarını, ideyalarını və dilini yeni obyektlərə - məntiqə köçürür. Bu genişlənmə həmin metodlar, ideyalar və dilin daha yaxşı mənimsənilməsinə kömək edir.

Məktəb riyaziyyat tədrisinə dair bir sıra xarici ölkələrin layihələri məntiq elementlərinin riyaziyyat təliminə daxil edilməsinə gətirilir. Şagirdlərin məntiqi təfəkkürünün inkişafında riyaziyyatın əhəmiyyəti böyükdür. Ənənəvi riyaziyyat tədrisi metodikasının mühüm çatışmazlıqlarından biri ondan ibarətdir ki, şagirdlərə izah olunmur və onlar üçün öyrənilən material məntiqi anlaşılmaz qalır.

Adətən riyaziyyat təlimində riyazi materialın başa düşülməsindəki çətinliklərin aradan qaldırılmasına çalışırlar. Bu həm də elə hallarda edilir ki, çətinliyin səbəbi onun məntiqi komponentinin başa düşülməsi ilə əlaqədar olsun. Onlar başa düşülməzliyin səbəblərini aradan qaldırmırlar.

Məntiqi məsələlərin həlli prosesində şagirdlər riyazi obyektləri müqayisə etmək, sadə şəkildə analiz və sintez etmək, cins və növ anlayışları arasında əlaqə yaratmaq bacarığı və vərdişlərinə yiyələnirlər. Məntiqi məsələlər bir qayda olaraq, şagirdlər üçün hesablama tələb

etmədən düzgün mühakimə yürütmək və sadə isbatlar yerinə yetirmək məqsədilə hazırlanırlar.

Riyazi mühakimələr və əqli nəticələr haqqında bəzi fikirlər söyləmək olar: mühakimə; mühakimə və əqli nəticə; mühakimə və mülahizə.

Anlayışlar təfəkkürdə dağınıq şəkildə deyil, öz aralarında müəyyən üsulla əlaqəlidirlər. Anlayışların bir-biri ilə əlaqə forması mühakimə adlanır. Əgər mühakimə əşyalar arasındakı bu obyektiv mövcud asılılıqları düzgün əks etdirərsə, onda belə mühakimələr doğru mühakimə, əks halda yalan mühakimə adlanır. Məsələn, hər bir romb paraleloqramdır mühakiməsi doğru, hər bir paraleloqram rombdur mühakiməsi isə yalandır. Beləliklə, mühakimə elə təfəkkür formasıdır ki, obyektin özünün mövcud olması və ya olmamasını əks etdirir.

Düşünmək-mühakimə söyləməkdir. Mühakimənin köməyi ilə anlayış özünün sonrakı inkişafını tapır. Mühakimənin xarakter əlaməti onun cümlə ilə ifadəsində doğru və ya yalanın mövcud olmasıdır. Məsələn ABC üçbucağı bərabəryanlıdır cümləsi müəyyən mühakiməni ifadə edir, ABC üçbucağı bərabəryanlı olacaqdırmı? cümləsi mühakimə ifadə etmir.

Riyaziyyat riyazi və ya məntiqi terminlər və ya onlara uyğun simvollar vasitəsilə riyazi cümlələrlə ifadə olunan müəyyən mühakimələr sistemindən ibarətdir. Riyazi terminlər riyazi nəzəriyyənin məzmununu təşkil edən anlayışları işarə edir. Bir riyazi cümlənin köməyi ilə digər riyazi cümlələr qurulur, bir mühakimədən digər mühakimələr əmələ gəlir, bütün bunların toplusu bir elm kimi riyaziyyatı təşkil edir.

Məsələn ədədi elə üç hissəyə ayırmaq lazımdır ki, ikinci birincidən iki dəfə böyük olmaq şərti ilə onların kvadratları cəmi ən kiçik olsun.

Həlli: Birinci hissə $x$ olsa, onda ikinci hissə $2x$ olar, üçüncü isə $a-3x$ olar. Bu halda onların kvadratları cəmi $y= x^2 + (2x)^2 + (a-3x)^2 = 14x^2 - 6ax+ a^2$ olar.

Buradan da, $y= 14(x -\frac{3}{14}a)^2 + \frac{5}{14}a^2$ alınır. Aşkardır ki, sonuncu ifadənin ən kiçik olması üçün birinci toplanan sıfır olmalıdır. Onun üçün isə $x= \frac{3}{14}a$ olmalıdır. Bu halda ən kiçik qiymət $\frac{5}{14}a^2$ olur.

Mühakimələr təfəkkürdə mövcud olan biliklərə əsasən müxtəlif fikirlər irəli sürmək, əlaqələr qurmaq, aparılan mühakimələr sayəsində nəticə çıxarmaq kimi xüsusi əhəmiyyət kəsb edir. Mühakimənin köməyi ilə qavrayışın nəticəsi ifadə olunur. Məsələn elə 3 ədəd tapın ki, onların hasili ilə cəmi bir-birinə bərabər olsun. Bu cür məsələlərin həllində şagirdlər mühakimə apararaq məsələnin cavabını tapırlar.

Məntiqi mühakimə yürütməklə məsələnin həlli şagirdlərə müstəqil iş və ya ev tapşırığı kimi verilir.

Məsələ. 10 litrlik qab su ilə doludur, 3 litrlik və 7 litrlik qablar isə boşdur. Boş qablardan istifadə edərək 10 litirlik qabdakı suyu iki bərabər yerə bölün.

Bu məsələnin həlli nə hesab, nə də cəbri üsulla həll edilmir, ancaq mühakimə yürütməklə məsələ həll edilir.

Digər bir həndəsi məsələni nəzərdən keçirək. Məsələn, verilmiş nöqtələr çoxluğu bir nöqtədən məsafələri eynidir, deməli, bu fiqur çevrədir. Bu fikir nəticəsində yeni mühakiməyə keçid yaranır. Bu keçid təfəkkürün adi forması kimi özünü göstərən əqli nəticədir.

Beləliklə, bir və ya bir neçə verilmiş mühkimələrdən yeni mühakimənin -nəticənin alınması prosesinə əqli nəticə deyilir. Məsələn, paraleloqramın dioqonalı onu iki konqruyent üçbucağa bölür (birinci mühakimə). Üçbucağın daxili bucaqlarının cəmi $2d$-yə bərabərdir. (ikinci mühakimə). Paraleloqramın daxili bucaqlarının cəmi $4d$-yə bərabərdir (yeni mühakimə-nəticə).

Bəzi mühakimələr real aləmin əşya və hadisələrinin müşahidələri nəticəsində, təcrübə nəticəsində alınır. Həndəsədə belə mühakimələr aksiomlar adlanır. Mühakimənin mühüm

növü əqli nəticələrdir. Əqli nəticə biləvasitə real aləmin müşahidələrindən alınmır. O, əvvəllər məlum olan bir və ya bir neçə mühakimələrdən alınır. Məsələn, bir mühakimədən: bütün romblar-paraleloqramdır mühakiməsindən yeni mühakimələr çıxarmaq olar: bu romb paraleloqramdır, bəzi paraleloqramlar rombdur, bütün paraleloqramlar rombdur. Bu mühakimələrdən ikisi doğru, biri isə yalandır.

İki mühakimədən: Paraleloqramda dioqanallar kəsişmə nöqtəsində yarıya bölünürlər və ABCD dördbucaqlısı paraleloqramdır mühakiməsi yeni mühakimə adlanır. ABCD dördbucaqlısında dioqanallar kəsişmə nöqtəsində yarıya bölünürlər. Alınan yeni mühakimə bu halda doğru olsa da digər hallarda yalan ola bilər.

## ŞAGİRDLƏRƏ İNFORMATİKA DƏRSLƏRİNDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ ETMƏKLƏ MƏNTİQİ MƏSƏLƏLƏRİN HƏLLİİNİN ÖYRƏDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

**Nahid Paşayev**
**dosent**
**Aytən Məmmədova**
**müəllim**
**Zöhrə Qurbanova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**umud-96@mail.ru**
**aytenm91@mail.ru**
**veneradanulduzu.421@gmail.com**

**Açar sözlər:** Məntiqi təfəkkür, bacarıqlı şagirdlər, idrak fəaliyyəti, informasiya-kommunikasiya texnologiyaları

Məktəbin ilk günlərindən şagirdə tapşırıqlar verilir. Tapşırıq məktəbin əvvəlindən sonuna kimi şagirdə daim informatika haqqında düzgün təsəvvürlər formalaşdırmağa, ətrafındakı münasibətlərin müxtəlif aspektlərini daha yaxşı başa düşməyə kömək edir və öyrənilən nəzəri prinsipləri tətbiq etməyə imkan verir. Eyni zamanda, problemin həlli məntiqi təfəkkürün inkişafına xidmət edir.

Məntiqi təfəkkürün inkişafında informatikanın rolu əhəmiyyətli dərəcədə böyükdür. Kompüter elminin belə müstəsna rolunun səbəbi onun məktəbdə öyrənilən fənlərdən ən praktik fənnin olmasıdır. Məntiqi məsələlərin həlli məktəb kursunda şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirə bilər

Şagirdlərə məntiqi problemi həll etmək üçün bir yol tapmağı necə öyrətmək olar? Bu suala cavab vermək üçün ədəbiyyatlarda problemin həll yollarını tapmağı asanlaşdıran bir çox praktik üsullar təklif etmişdir. Bununla belə, problemin həlli yolunun tapılması ilə bağlı nəzəri müddəalar hələ də zəif inkişaf etmişdir.

Problemin xüsusiyyətləri onun həlli zamanı təfəkkür prosesinin gedişini müəyyən edə bilər. Şagirdləri bu xüsusiyyətlərə necə yönəltmək olar? Şagirdlər problemin həlli yollarını tapmaq üçün metodoloji üsulları, o cümlədən onun müxtəlif yollarla həllini müəyyən etməyə kömək edəcəklər. Problemlərin həlli informatika təhsilində böyük rol oynayır. Problemləri

həll etmək bacarığı tədris materialının inkişaf səviyyəsinin və mənimsənilmə dərinliyinin əsas göstəricilərindən biridir.

Şagirdlər biliyi şüurlu şəkildə mənimsəyərkən təfəkkürün təhlil və sintez, müqayisə, abstraksiya və konkretləşdirmə, ümumiləşdirmə formalarından istifadə edirlər. Şagirdlər induktiv nəticələr çıxarır və deduktiv əsaslandırma aparırlar.

Yaradıcı və problem-axtarış xarakterli tapşırıqlar şagirdlərin yüksək yaradıcı müstəqilliyini tələb edir. Şagirdlər öyrənilən materialın yeni aspektlərini kəşf edir və tədris materialının öyrənilməsi deyil, onun tətbiqinə yaradıcı və ya məntiqi yanaşmasıdır.

Dərs zamanı şagirdin zehni fəaliyyəti üçün məntiqi təfəkkürün inkişafına yönəlmiş yaradıcı tapşırıqlar təşkil etmək lazımdır. Hər bir şagird tətbiqi məsələlərin həllində müstəqil işləmək bacarığına malik deyil. Şagirdləri kollektiv zehni fəaliyyətə cəlb etməklə, xüsusən də vəziyyətin təhlili, fərziyyə irəli sürülməsi, həll yollarının axtarışı, təklif olunan həllin effektivliyinin təhlili mərhələlərində hər bir şagirdin qərar qəbul etmə prosesində iştirakçı olmasını təmin etmək lazımdır. Tapşırıqların seçilməsi əsas tutulmalıdır.

Orta məktəb informatika təlimində məntiqin əsasları mövzusunun təqdimatında şagirdləri məntiq fənni, onun tarixi inkişafı, eləcə də minilliklər boyu məntiqlə riyaziyyat arasındakı əlaqə ilə tanış etməklə başlamaq məqsədəuyğundur. Burada məntiqin əsas vəzifəsini formalaşdırmaq tövsiyə olunur.

Klassik formal məntiq təfəkkürün əsas formaları kimi anlayışı, mühakiməni və nəticə çıxarmağı nəzərdə tutur. Bu da məntiqi təfəkkürün mahiyyətini əks etdirir. Məntiqi təfəkkür mexanizmi məntiqin dörd qanununa əsaslanan əməliyyatlarından ibarətdir: eynilik, ziddiyyətsizlik, üçüncünü istisna, kafi əsas. Qeyri-klassik formal məntiqlər əsas məntiqi qanunların müxtəlif formalaşdırılmasını nəzərdə tutur, lakin bu məntiqi sistemlər çərçivəsində əsas məntiqi əməliyyatlar öz fəaliyyətini davam etdirir. Və hər hansı formal məntiq nöqteyi-nəzərindən məntiqi təfəkkür müəyyən prinsiplərə (qanunlara, qaydalara, qaydalara) uyğun gələn təfəkkürdür ki, onun inkişafı məntiqin əsas vəzifələrindəndir.

Məntiqi təfəkkür, mahiyyəti məntiq qanunlarına əsaslanan anlayışların, mühakimələrin, nəticələrin hərəkəti, onların hərəkətlərlə müqayisəsi və əlaqəsi və ya səbəblə əlaqəli məntiqi təfəkkürün və ya düşüncə əməliyyatlarının məcmusu olan təfəkkür növüdür.

Tapşırıqlar seçərkən əsas diqqət yeni tapşırıqların hazırlanmasına deyil, məqsədə çatmaq üçün mövcud metodiki tövsiyələrin istifadəsinə yönəldilməlidir:

- Şagirdlərin idrak fəaliyyətinin, yaddaşının və diqqətinin inkişafı;
- Şagirdlərin idrak fəaliyyətinin inkişafı - onların ətraf aləmin sadə əlaqələrini və asılılıqlarını tanıması;
- Şagirdlərin məntiqi təfəkkürün inkişafı;
- Müqayisə və məntiqi qabiliyyətinin inkişafı;
- Şagirdlərin yaradıcılıq, tədqiqatçılıq keyfiyyətlərinin formalaşdırılması;
- Tədrisin düşüncə tərzinin formalaşdırılması;
- Problemlərin kompüterdə versiyasını başa düşmək üçün hazırlıq.

Bu məqsədlərə nail olmaq üçün məktəbin digər fənlərinin öyrənilməsinə şagirdlərə kömək olacaqdır.

Tədrisin nəzəri hissəsini əhəmiyyətli dərəcədə artıran məntiq elementləri ibtidai siniflərdən başlayaraq mümkün qədər tez öyrənilməlidir.

Məntiqin əsaslarını öyrənməkdə növbəti addım anlayışlar, mühakimələr və nəticələr haqqında materialın təqdimatı hesab edilə bilər. Bu mərhələdə şagirdlər təbii, fiziki və bioloji proseslərin müşahidəsinə əsaslanan xüsusi və ümumi, sadə və mürəkkəb mühakimələr kimi aspektlərə diqqət yetirməlidirlər. Burada mühakimələr vizual formadan şifahi formada informasiyanın müşahidəsi və işlənməsinin nəticələri kimi çıxış edir. Şagirdlər sadə

mülahizələri mürəkkəb olanlardan ayırmağı öyrənməli, həmçinin sadə mülahizələrdən mürəkkəb mülahizələri formalaşdırmağı bacarmalıdırlar.
“İstedadlı şagirdlərin” inkişaf etmiş məntiqi təfəkkürü onlara əldə etdikləri bilikləri yeni şəraitdə tətbiq etməyə, problemləri həll etməyə, onların həllinin rasional yollarını tapmağa, təlim fəaliyyətinə yaradıcı yanaşmağa, öz təlim prosesində fəal və maraqla iştirak etməyə imkan verir.

Məktəb informatika kursunda məntiqi öyrənərkən idrak fəaliyyətinin inkişafı ön plana çıxır, çünki o, şagirdin hərtərəfli inkişafı, yaradıcılıq bacarıqlarının, bədii qabiliyyətlərin və estetik keyfiyyətlərin inkişafı ehtiyacına əsaslanmalıdır.

Refleksiv düşüncə prosesləri həm problemin qoyulması prosesində, həm fərziyyələrin ifasında, həm də yekun nəticələrin formalaşmasında öz ifadəsini tapır.

İnformatika dərslərində məntiqi məsələlərin həllinin öyrədilməsinin aşağıdakı üsullarını qeyd edə bilərik: şagirdlərə birlikdə faktın müəyyən edilməsi: tapşırıqların eyni və ya müxtəlif növlərə aid olması; problemlərin həlli üsullarında oxşarlıqların və fərqlərin müəyyən edilməsi; tapşırıq şərtlərinin xüsusiyyətlərinin təhlili; eyni tipə aid olan (aid olmayan) tapşırıqların tərtibi.

Məktəbdə şagirdlərin məntiqi təfəkkürün formalaşması üçün məntiqi məsələlərin həllinin öyrədilməsi aşağıdakı fəaliyyətə əsaslanır:

- şagirdlərin məntiqi problemləri həll etmək bacarığını mənimsəmə keyfiyyəti;
- refleksiv tapşırıq təyin etmək;
- öyrənmədə dialoq xarakteri (daxili və xarici);
- refleksiv mövqenin formalaşması;
- şagirdlərin reflektiv fəaliyyətinin formalaşma səviyyəsi.

Bu göstəricilərdən birincisi məzmunu məntiqi tapşırıqlardan ibarət olan müntəzəm sınaq nəticəsində müəyyən edilə bilər.

## DƏRS VƏ SİNİFDƏNXARİC İŞİN QARŞILIQLI ƏLAQƏSİNİN ŞAGİRDLƏRİN MÜSTƏQİL FƏALİYYƏTİNDƏ ROLU

**Nahid Paşayev**
**dosent**
**Nəzrin Astanova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**umud-96@mail.ru**
**astanovanzrin@gmail.com**

**Açar söz:** sinifdənxaric iş, şagird, dərs, məşğələ, praktika

Sinifdənxaric tədbirlər şagirdlərin idarəetmə vərdişlərinin, elmi dünyagörüşünün genişləndirilməsinə, onda əsl azərbaycanlıya xas olan yüksək mənəvi və əxlaqi keyfiyyətlərin formalaşdırılmasına imkan yaradır, şagirdlərin asudə vaxtının səmərəli təşkilini təmin etməklə yanaşı, sinifdə müəyyən fənlərdən verilmiş biliyi dərinləşdirir, şagirdlərin meyil və qabiliyyətini müəyyənləşdirib üzə çıxarır.

Sinifdənxaric tədbirdə şagird müəyyən vəzifəni yerinə yetirmək üçün ona tapşırılan iş üzərində axtarış aparır, bunun üçün o, müstəqil çalışmağa səy edir, bu cəhət şagirdi məsələnin mahiyyətini dərindən dərk etməyə doğru istiqamətləndirir. Şagird daha müstəqil olur, söhbət və mübahisələrə qoşulur və bu iş onun məntiqi təfəkkürünü inkişaf etdirir, nitqini zənginləşdirir.

Sinifdənxaric məşğələlər şagirdlərin, riyaziyyat üzrə biliklərini dərinləşdirmək və genişləndirməklə mürəkkəb misal və məsələlərin həllini səmərəli yolla etməkdə, həyatla əlaqəli olub, proqrama daxil edilməyən bəzi misal və məsələləri araşdırmaq və həll etməkdə şagirdlərə böyük köməklik göstərir. Sinifdənxaric işlər həmçinin şagirdlərin dərsdə əldə etdikləri bilikləri möhkəmləndirir, onların dünya görüşlərini genişləndirir. Belə dərslərdə şagirdlərin kommunitativ və informasiya toplama bacarıqları inkişaf etdirilir.

Dərsdən fərqli olaraq sinifdənxaric işin mövzusu şagirdin arzu və istəklərinin, məktəbin maddi imkanlarının nəzərə alınması ilə seçilir. Məktəblilərin sinifdənxaric fəaliyyətləri bir-birindən fərqlənir. Beləki onların bir hissəsi ev tapşırıqlarını yerinə yetirməsinə, dərsə aid materialların hazırlanmasına yönəlmiş olur, digər hissəsi isə şagirdlərin asudə vaxtlarını səmərəli keçirmək üçün əlavə dərnəklərə yazılması və digər bu kimi maraq sahələri olur.

Nəzəri biliklərə yiyələnən şagird bu bilikləri möhkəmləndirmək üçüm praktikaya ehtiyac duyur və sinifdən xaric məşğələlərə yazılır. Dərsdən əlavə məşğələlərdə iştirak etməklə o aldığı biliyi daha da dərinləşdirir və praktikaya tətbiq etməsi onun bu sahəyə marağını artırır. Həmçinin dərsdənkənar keçirilən məşğələlər onlar üçün daha maraqlı olur, bir-biriləri ilə münasibətlərinə müsbət təsir göstərməklə, aralarında əmakdaşlıq qurmaq bacarığını inkişaf etdirir.

Fənn məşğələlərində keçirilən müxtəlif mövzuları və bu mövzularla bağlı hadisələri daha dərindən öyrənmək üçün dərsdən əlavə ekskursiyalar təşkil edilir, şagirdlərlə birgə muzeylərə gedilir,mövzu ilə bağlı gecələr təşkil oıunur və s. Bu kimi fəaliyyətlər şagidlərin mövzu haqqında daha geniş məlumat almalarında böyük rol oynayır. Həm də onların dünyagörüşünü inkişaf etdirmiş olur. Bu onu göstərir ki, sinifdənxaric işlə dərsdə kənar tədbirlər sıx əlaqəlidir.

Şagirdlərin sinifdənxaric işlər zamanı hazırladıqları əyani vəsaitlərdən, cihazlardan müəllimlər dərs prosesində də istifadə edirlər. Şagirdin dərs prosesində aldıqları biliklər, sinifdənxaric məşğələlər zamanı aldıqları bilik, bacarıq və vərdişlərin ardıcıl davamına çevrilir və tətbiq sahəsini tapdığı üçün bir az da möhkəmlənir.

Dərs və sinifdənxaric işlərin qarşılıqlı əlaqəsinin nümunəsi kimi Respublikamızın məktəblərində müxtəlif fənlər üzrə olimpiadaların keçirilməsini göstərmək olar. Fənlər üzrə olimpiadaların keçirilməsi şagirdlərin biliyinin möhkəmləndirilməsinə köməklik edir. Bu olmpiadalarda fənlər üzrə il ərzində ən yüksək göstəriciləri olan şagirdlər iştirak edirlər. İlk “start”ını məktəblər arasından başlayan bu möhtəşəm bilik yarışı beynəlxalq səviyyəyədək davam etdirilir.

Beləliklə, yuxarıda qeyd olunanlardan bu qənaətə gəlmək olar ki, dərs və sinifdənxaric işlər bir-biri ilə sıx əlaqədar olmaqla, yuxarı sinif şagirdlərinin müstəqil fəaliyyətlərini birgə tənzimləyir və inkişaflarına təkan verir. Sinifdənxaric işlər məktəbliyə daha çox müstəqillik verərək, onun müəllimə fərdi yanaşmasını asanlaşdırır. Sinifdənxaric işin dərslə qarşılıqlı təsiri, məktəblinin bilik axtarışında mobilliyinin təmin olunması və maraqlarının həyata keçirilməsinə kömək edir.

# GÖBƏLƏK MƏNŞƏLİ MELANİNLƏRİN DƏMİR İONLARI İLƏ KOORDİNASİYA RABİTƏLİ BİRLƏŞMƏ ƏMƏLƏ GƏTİRMƏSİ

**Rafiq Bağırov**
**dosent**
**Ləman Quluzadə**
**magistrant**
**Bakı Dövlət Universiteti**
**rafiqbagirov@list.ru**
**quluzadaa06@gmail.com**

**Açar sözlər:** melanin, kompleks birləşmə, spektroskopiya

Bir qrup metal ionlarının bioloji aktiv liqandlı koordinasiya rabitəli kompleks birləşmələrinin alınması, onların fiziki - kimyəvi xassələri və bioloji aktivliyinin , həmçinin müəyyən struktur xüsusiyətlərinin araşdırılması təbiət elmləri ilə məşğul olan geniş tədqiqatçı kütlələrinin artan maraq dairəsindədir. Təqdim olunan iş meşə fıstığı ( *fagus sylvatisa* ) ağacında əmələ gələn göbələkdən ( çaqa) qələvi mühitdə ( pH= 13) ekstraksiya daha sonra turş mühitdə ( pH = 4.1) çökdürmə yolu ilə melanin piqmentinin ayrılması və yeni ayrılmış melanin piqmentlərinin dəmir ionları ilə qarşılıqlı təsirinin spektroskopik metodlarla araşdırılmasına həsr olunmuşdur.

Yeni ayrılmış piqmentlərinin təsnifatı məqsədi ilə onların infraqırmızı (İQ) – və elektron paramaqnit rezonansı (EPR) - , spektrləri qeyd olunmuşdur. İQ- və EPR – spektrlərinin parametrlərinin qiymətələrinin elmi mənbəələrdə sintetik L- DOFA – melanin , canlılardan ayrılmış melano protein qranulası ( MPQ) üçün alınmış uyğun spektrlərin parametlərinin qiymətləri ilə müqayisəli analizi onların göbələk mənşəli melanin olduğunu güman etməyə imkan vermişdir.

Dəmir ionlarının göbələk mənşəli melaninlərlə koordinasiya rabitəli kompleks birləşmələri 100 mq quru çəkidə melanin piqmentinin 150 ml C= 0.2 mg /ml konsentrasiyalı $FeSO_4$ məhlulunda otaq temperaturunda inkubasiya metodu ilə alınmışdır.

İnkubasiya üçün istifadə olunmuş ilkin məhlul , çökdürmədən sonra çöküntü üzərində qalan məhlul  (supernatatn ) və çöküntünün (kompleksin) maye azot tempratuurnda qeyd olunmuş qamma rezonans (QR) -  spektri şəkildə təsvir edilmişdir.




1) İnkubasiya üçün istifadə olunmuş ilkin məhlul $FeSO_4$
2) Çökdürmədən sonra çöküntü üzərində qalan məhlul ( supernatant)

3) Çöküntü ( dəmir ionları ilə göbələk mənşəli melaninlərin kompleks birləşməsi)
Şəkildən göründüyü kimi ilkin məhlul (1) və supernatant (2) üçün yaxşı ayrılmış dublet formalı identik QR – spektrlər müşahidə olunmuşdur. Bu spektrlərin parametrlərinin qiyməti( δI= 1.40 mm /san, ΔE = 3,31 mm/san) $Fe^{2+}$ ionlarının oktaedrik liqand əhatəli , yüksək spinli akvakomplеksləri üçün xarakterikdirlər. Çöküntü üçün ən azı 4 parsial spektrin superpozisiyasından ibarət mürəkkəb QR- spektr müşahidə olunmuşdur. Bu parsial spektrlər şəkildə şərti olaraq $Fe^{2+}$ , $Fe^{3+}$ (1), $Fe^{3+}$ (2) , $Fe^{3+}$ (3) kimi qeyd olunmuşdur. Bu parsial QR-spektlrərin parametrlərinin qiyməti həm ilkin məhlul həmdə supernatantın QR – spektrlərinin parametrlərinin qiymətindən kəskin fərqlənir. Bu onu güman etməyə imkan verir ki, alınmış çöküntü dəmir duzu ilə melanin piqmentinin mexaniki qarışığı olmayıb, dəmir ionları ilə göbələk mənşəli melaninlərlə kompleks birləşməsidir. Alınan nəticələr onu deməyə imkan verir ki, göbələk mənşəli melaninlər dəmir ionları ilə effektiv sürətdə koordinasiya rabitəli kompleks birləşmələr əmələ gətirir.

Alınmış nəticələrin elmi mənbəələrdə olan məlumatlarla müqayisəli analizi göstərmişdir ki, kompleks əmələ gətirmədə göbələk mənşəli melaninlərin tərkibinə daxil olan karbonil - , karboksil - , amid - , amin -, imin - , və fenil qrupları iştirak edir.Birləşməyə daxil olan dəmir ionları yüngül təhrif olunmuş oktaedrik liqand əhatəsinə malikdir.

Dəmir ionları mikrob mənşəli melaninlərin daxilində çox mərkəzli klasterlərə daxil olur. $Fe^{2+}$ ionları ilə qarşılıqlı təsir zamanı göbələk mənşəli melaninlər onları qismən $Fe^{3+}$ ionlarınadək oksidləşdirir sonra isə həm $Fe^{2+}$ , həmdə $Fe^{3+}$ ionları ilə oktaedrik liqand əhatəli kompleks birləşmə əmələ gətirir.

## POPULYASİYA MODELİNİN ELEMENTAR TƏHLİLİ


**Rafiq Quliyev**
**dosent**
**Fərhad Mirzəyev**
**dosent**
**Bakı Dövlət Universiteti**
**quliyev.rafiq.meyxos@bsu.edu.az**
**farhad_1958@mail.ru**



**Açar sözlər:** populyasiya, biokütlə, asimptotik dayanıqlıq, ekoloji proseslər, riyazi modelləşdirmə


Müasir ekologiyanın ən mühüm problemlərindən biri populyasiyaların tədqiqi məsələsidir. Populyasiya (latınca “populyus”) dedikdə, müəyyən dövr müddətində konkret ərazidə məskunlaşmış, eyni bir növdən olan canlı orqanizmlər qrupu başa düşülür. Populyasiyaların artım dinamikasının ilk modellərindən biri ingilis iqtisadçısı T. R. Maltus (1766-1834) tərəfindən təklif olunmuşdur. Bu modeldə artım əmsalı müsbət götürüldüyündən və yaşayış uğrunda mübarizə, digər populyasiyalar tərəfindən məhv edilmə və bu kimi amillər nəzərə alınmadığından uyğun riyazi modeldən populyasiyanın sayının zaman keçdikcə sonsuz (hətta eksponensial qaydada) artması qənaətinə gəlinmişdir. Lakin bu effekt təbii populyasiyalarda heç də müşahidə olunmur. Artımı ləngidən əmsalın nəzərə alınmasının təbii zəruriliyini zənnimizcə ilk dəfə 1838-ci ildə belçika riyaziyyatçısı P. F.

Verhulst (1804-1849) nəzərə alaraq hesab etmişdir ki, yuxarıdakı amillər nəticəsində populyasiyanın sayı zamanın istənilən anında cari sayın qeyri-xətti dərəcəsinə mütənasib azalır.

Beləliklə zamanın başlanğıc $t_0$ anında (ilində) ilkin biokütləsi (sayı və s.) $x(t_0) = x_0$ olan konkret növ populyasiyanın zamanın istənilən $t \geq t_0$ anındakı sayını $x(t)$ ilə işarə edək. Fərz edək ki, bu canlılar növü eyni qida ilə qidalanırlar və nəticə etibari ilə yaşayış uğrunda mübarizə şəraitində olurlar. Uzun illərin müşahidələri göstərmişdir ki, belə olan halda baxılan canlı növünün sayının dəyişmə sürəti cari sayla düz mütənasib olmaqla yanaşı, hazırkı sayın qeyri xətti dərəcəsi ilə tərs mütənasibdir (fərq mənasında). Deməli bu populyasiya dinamikasının riyazi modeli aşağıdakı kifayət qədər sadə Koşi məsələsidir :

$$\begin{cases} dx(t)/dt = kx(t) - \alpha x^2(t) & (1) \\ x(t_0) = x_0 & (2) \end{cases}$$

Burada $k$ və α modelin parametrləri olub, k – doğum və ölüm əmsallarının fərqi, $\alpha = \frac{k}{M}$ (M – populyasiya miqdarının çata biləcəyi maksimal həddir). İfadəsindən göründüyü kimi (1) münasibəti dinamik tənlikdir və onun iki tarazlıq vəziyyəti mövcuddur: $x_1(t) \equiv 0$, $x_2(t) \equiv \frac{k}{\alpha}$. Digər tərəfdən bu tənlik həm də dəyişənlərinə ayrıla bilən adi diferensial tənlik tipinə aid olduğundan aşağıdakı sxem üzrə (1)-(2) Koşi məsələsinin həllini tapaq.

$dx(t)/dt = kx(t) - \alpha x^2(t) \Rightarrow dx/(kx - \alpha x^2) = dt \Rightarrow \int_{t_0}^{t} \frac{dx}{kx - \alpha x^2} = t - t_0$. Daha sonra $\frac{1}{kx - \alpha x^2} = \frac{1}{k}[\frac{1}{x} + \frac{\alpha}{k - \alpha x}]$ olduğunu yuxarıda nəzərə alsaq,

$$[\ln x(t) - \ln(k - \alpha x(t)]\Big|_{t_0}^{t} = k(t - t_0) \Rightarrow ln\frac{x(t)}{(k-\alpha x(t))}\frac{(k-\alpha x_0)}{x_0} = k(t-t_0) \Rightarrow \frac{x(t)(k-\alpha x_0)}{x_0(k-\alpha x(t))} = e^{k(t-t_0)}$$

Beləliklə:

$$x(t) = \frac{x_0 k e^{k(t-t_0)}}{k - \alpha x_0(1 - e^{k(t-t_0)})}$$

İndi isə zamanın kifayət qədər böyük anları üçün $x(t)$ sayını hesablayaq. İdeal mənada bu aşağıdakı limitin cavabının tapılmasıdır:

$$\lim_{t\to\infty} x(t) = \lim_{t\to\infty} \frac{x_0 k e^{k(t-t_0)}}{k - \alpha x_0(1 - e^{k(t-t_0)})} = \frac{kx_0}{\alpha x_0} = \frac{k}{\alpha} = x_2(t).$$

Limitin hökmü onu ifadə edir ki baxılan populyasiyanın $x(t)$ sayı başlanğıc $x_0$ sayından asılı olmayaraq (1) tənliyinin ikinci tarazlıq vəziyyəti olan k/α kəmiyyətinə asimtotik olaraq yaxınlaşır. Bu hökm zənnimizcə, belarus riyaziyyatçısı A. M. Lyapunov (1857-1918) tərəfindən elmə daxil edilmiş asimptotik dayanıqlıq anlayışından da güclü faktdır, belə ki, sonuncu $x_2$ (t) trayektoriyasına (həm də (1) tənliyinin həllinə) yalnız başlanğıc vəziyyətləri yaxın olan digər trayektoriyaların "yığılmasını" nəzərdə tutur (bax şəkil).




Yuxarıdakı limitin hökmünə bənzər situasiya iqtisadi tədqiqatlarda da çox zaman rast gəlinir və bu hal iqtisadi inkişaf trayektoriyasının “magistrallıq” xassəsi də adlanır.

Biz kifayət qədər sadə hala baxdıq. Yəni fərz etdik ki, konkret götürülmüş canlılar növü digər polulyasiyalarla qarşılıqlı təmasda olmurlar. Təbii ki, sonuncunun nəzərə alınması model tənliklərin mürəkkəbləşməsinə gətirər. Bu baxımdan iki növ polulyasiya dinamikası üçün uyğun riyazi modelin ilk dəfə qurulması və tədqiqini italyan riyaziyyatçısı V. Volter (1860-1940) Adriatik dənizində xırda və iri balıqların birgə “yaşayışının” izahını vermək məqsədilə yerinə yetirmişdir.

Beləliklə, zamanın başlanğıc $t_0$ anında başlanğıc biokütlələri uyğun olaraq $x(t_0) = x_0$ və $y(t_0) = y_0$ olan iki növ polulyasiyanın zamanın istənilən t ≥ $t_0$ ilində saylarını uyğun olaraq $x(t)$ və $y(t)$ ilə işarə etsək, eyni növ qida ilə qidalanma fərziyyəsi daxilində uyğun riyazi model kifayət qədər dəqiqliklə aşağıdakı ikinci tərtib dinamik tənliklər sistemi vasitəsilə təsvir olunar:

$$\begin{cases} dx(t)/dt = k_1 x(t) - \varepsilon_1(\lambda_1 x(t) + \lambda_2 y(t)) \cdot x(t) & (3) \\ dy(t)/dt = k_2 y(t) - \varepsilon_2(\lambda_1 x(t) + \lambda_2 y(t)) \cdot y(t) & (4) \\ x(t_0) = x_0, \quad y(t_0) = y_0 \end{cases}$$

$k_1, k_2, \varepsilon_1, \varepsilon_2, \lambda_1, \lambda_2 > 0$ – modelin parametrləridir.

Volter o qənaətə gəlmişdir ki, hansı populyasiya üçün $k_i/\varepsilon_i \ \ i = 1,2$ nisbəti böyükdürsə, zaman keçdikcə həmin növ populyasiya yaşayır və nəticə etibarilə (zamanın kifayət qədər böyük anlarında və limit mənasında) stabilləşir, digər növ isə müəyyən müddət keçdikdən sonra sayca azalaraq tələf olur (bax. şəkildə məs. $k_1/\varepsilon_1 > k_2/\varepsilon_2$ halı).



Bu hökmü isbatsız qəbul edək və qeyd edək ki, onun doğruluğuna modelin (3)-(4) bərabərliklərinə adi differensial tənliklər kursundan məlum ardıcıl yaxınlaşmalar üsulunu

$$\begin{cases} x_{n+1} = x_0 + \int_{t_0}^{t} [k_1 x_n(s) - \varepsilon_1(\lambda_1 x_n(s) + \lambda_2 y_n(s)) x_n(s)] \mathrm{ds}, \\ y_{n+1} = y_0 + \int_{t_0}^{t} [k_2 y_n(s) - \varepsilon_2(\lambda_1 x_n(s) + \lambda_2 y_n(s)) y_n(s)] \mathrm{ds}, \\ \quad x_0 = x(t_0)\,; y_0 = y(t_0); \qquad n = 0,1,2,\ldots\ldots \end{cases}$$

tətbiq etməklə müasir elektron hesablama maşınlarının proqram təminatı vasitəsi ilə də inanmaq olar.

Sonda onu qeyd edək ki, ekoloji proseslərin tədqiqində riyazi modelləşdirmə prinsipləri demək olar ki, ekologiya elminin yarandığı vaxtdan tətbiq edilir. Canlı təbiətdəki orqanizmlərin qarşılıqlı davranışını riyaziyyat vasitəsilə adekvat təsvir etmək ən mürəkkəb fiziki proseslərdən qat-qat çətin olsa da, riyazi modellər müxtəlif populyasiyaların, eləcə də, fərdlərin inkişafında bəzi təbii qanunauyğunluqları və ümumi meylləri müəyyən etməyə kömək edir.

# TƏHSİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ DÖVRÜNDƏ BİOLOGİYA MÜƏLLİMLƏRİNƏ TƏDRİS-METODİKİ DƏSTƏK

**Ramiz Şəmmədov**
**dosent**
**Sadiq Əliyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**rshammadli@gmail.com**
**sadiq_1997@mail.ru**

**Açar sözlər:** pedaqoji təhsil, təlim, alternativ təhsil, təhsilin differensiallaşdırılması

Müasir ali məktəb prioritetləri fərdin maraqları, cəmiyyətin inkişaf meyillərinə adekvat olan yeni təhsil müstəvisinə keçidin yaratdığı islahatlar dövrünü yaşayır. Davam edən transformasiyalar ali pedaqoji təhsil üçün yeni məqsədlərin ortaya çıxmasını şərtləndirir. Bu məqsədlər fərdin və bütövlükdə cəmiyyətin həyati problemlərin həllini təmin edən təhsil səviyyəsinə nail olmaqdır. Tədqiqatın məqsədi pedaqoji universitetdə biologiya müəllimlərinin metodik hazırlığı sisteminin nəzəri əsaslarını hazırlamaq və onun praktiki tətbiqi yollarını müəyyən etməkdir. Tələb olunan peşəkar keyfiyyətlərə malik təhsil mütəxəssislərinin hazırlanması üçün xüsusi məsuliyyət ali pedaqoji məktəbin üzərinə düşür. Müasir cəmiyyətin sürətli inkişaf tempi, onun dinamikliyi və dəyişkənliyi "ikiqat irəliləyişlə" müəllimlərin hazırlanmasını zəruri edir Bu baxımdan yüksək keyfiyyətli peşəkar hazırlıq prosesini intensivləşdirən pedaqoji yeniliklərin tapılması problemi yaranır. Ali pedaqoji təhsil sistemində islahatların aparıldığı dövrdə bu sistem daxilində baş verən innovativ proseslər onun inkişaf və özünü inkişaf mexanizmlərini müəyyən edən təsirli amildir. Yeni şəraitdə müəllimdən təhsil sahəsinin mütəxəssisi kimi idrak, təlim və tərbiyə sahəsində yüksək səviyyəli mobillik, sürətlə dəyişən diferensiallaşdırılmış təhsil sisteminə uyğunlaşma bacarığı, toplanmış metodoloji təcrübənin təkrar istehsalı və ötürülməsi üçün yaradıcılıq qabiliyyəti tələb olunur. Biologiya müəllimlərinin hazırlığının mövcud sistemi müasir orta

məktəbin ehtiyacları ilə müəyyən qədər ziddiyyət təşkil edir. Müasir orta məktəb son illərdə bir çox dəyişikliklərə məruz qalmışdır, çünki, təhsilin differensiallaşdırılması, demokratikləşdirilməsi və humanistləşdirilməsi həyata keçirilməyə başlandı ki, bu da təhsilin alternativ formalarının yaranmasını zərurətə çevirdi. Apardığımız müşahidələr göstərdi ki, təhsil sistemində yeni hədəflər insan şəxsiyyətinin hərtərəfli inkişafını prioritet məsələ kimi önə çıxardır. Təhsil sistemində bu yeni sosial yanaşmalar müxtəlif istiqamətlərdə özünü göstərir: ömürboyu təhsil sisteminin qurulmasında, sistemin strukturunun dəyişdirilməsində, alternativ təhsilin meydana çıxmasında, yeni məzmunun formalaşmasında, təhsilin inkişafında və s.

Göstərilənlərin hamısı insana istədiyi təhsil səviyyəsini əldə etmək üçün müxtəlif imkanlar yaradır. Ona görə də bu zaman insanın özünün ön plana çıxdığı yeni təhsil fəlsəfəsinin formalaşmasından danışmaq olar. Keyfiyyətcə yeni mütəxəssislər və ilk növbədə, yeni təhsil fəlsəfəsinin praktiki fəaliyyətlərində həyata keçirməyə qadir olan müəllimlər hazırlanmadan belə təhsil sisteminin formalaşması mümkün olmayacaqdır. Bu gün inkişaf etməkdə olan ümumi orta təhsil sistemi üçün biologiya müəllimlərinin hazırlanması problemi kifayət qədər aktualdır. Müasir insan mədəniyyətinin elementi kimi bioloji biliklərin əhəmiyyəti ilə müəyyən edilən ümumi orta təhsildə bioloji təhsilin rolunu nəzərə almaq lazımdır. Orta məktəb şagirdlərinə biologiyanın tədrisində yeni hədəfləri nəzərə alaraq təhsilin fəlsəfəsi və bioloji məzmunun mənimsənilməsinin obyektiv çətinlikləri, biologiya müəllimi hazırlığı təkcə praktiki deyil, həm də nəzəri cəhətdən ayrıca problem kimi fərqləndirilməlidir. Lakin orta və ali təhsil sistemində baş verən dərin dəyişikliklər ciddi elmi araşdırmalar olmadan biologiya müəllimi hazırlamaq probleminin praktiki həllini həyata keçirməyi çətinləşdirir. Bu baxımdan, ali pedaqoji təhsili yeni təhsil sisteminin elementi kimi pedaqoji təhsil verən universitetlərdə gələcək biologiya müəlliminin peşə hazırlığını günün tələblərinə uyğun aparmaq lazımdır. Pedaqoji yönümlü universitetlərdə biologiya müəlliminin peşə hazırlığının əsas hissəsi həmişə onun metodik hazırlığı hesab edilmişdir ki, bu da tələbələrə tədris prossesində bioloji materialın ötürülməsinin səmərəli üsullarını məqsədyönlü şəkildə öyrətməkdən ibarətdir. Metodiki təlim şagird təliminin təşkilinin məqsədlərini, məzmununu, metodlarını, vasitələri və formalarını özündə birləşdirən sistem kimi qəbul edilməlidir. Biologiyanın tədrisi metodikası kursu biologiya müəllimlərinin metodik hazırlığının əsas komponentidir. Proqram və kursun məzmunu hazırda müasir tələblərə qismən cavab verir. Bununla əlaqədar olaraq biologiyanın tədrisi metodikası kursunun məqsəd və məzmununun yenidən nəzərdən keçirilməsinə ehtiyac yaranır. Yaranan problemi həll etmək üçün biologiyanın tədrisi metodikası kursunun metodoloji əsaslarını (məqsədlər, vəzifələr, prinsiplər, məzmun, metod və vasitələr) müəyyən etmək lazımdır. Biologiyanın tədrisi metodikası üzrə yenilənmiş kursa orta məktəbdə bioloji təhsilin problemlərini açıqlayan bir neçə əlavə mövzu daxildir. Bu kurs biologiya müəllimlərinin metodik hazırlığının əsas komponentidir. Uzun müddət müəllim yaradıcılığı qabaqcıl təcrübədən praktiki fəaliyyətə küçid kimi qəbul edilirdi. Peşəkar keyfiyyət kimi yaradıcılığın inkişafı biologiya müəllimlərinin hazırlığı zamanı demək olar ki, həyata keçirilməmişdir. Lakin indi pedaqoji universitetlərdə psixoloji-pedaqoji yanaşma, tədris metodları və fənlərinin qarşılıqlı inteqrasiyası artır ki, bu da peşəkar əhəmiyyətli metodik bilik və bacarıqların formalaşdırılması və inkişafı üçün ayrılan tədris vaxtının azalmasına səbəb olur. Biologiya müəllimlərinin mövcud metodik hazırlığı sistemində islahatların aparılmasının digər mühüm səbəbi biologiya müəllimlərinin peşə-fənn və peşə-metodiki hazırlığı arasındakı fərqin aradan qaldırılmasıdır. Mövcud şəraitdə pedaqoji universitetlərdə həyata keçirilən müəllimlərin metodik hazırlığı sistemi onun inkişafının növbəti mərhələsini müəyyən edən ciddi keyfiyyət dəyişiklikləri tələb edir.

# TƏLİMDƏ YARADICILIQ VƏ FƏALLIQ PRİNSİPİNİN MƏSƏLƏ HƏLLİ VASİTƏSİLƏ REALLAŞDIRILMASI YOLLARI

**Saleh Əhmədov**
**dosent**
**Mirsadiq Əsgərov**
**magsitrant**
**Lənkəran Dövlət Universiteti**
**salehmedov0@gmail.com**
**esgerovmirsadiq@gmail.com**

**Açar sözlər:** fəallıq prinsipi, yaradıcılıq prinsipi, bərabərsizlik, intervallar metodu

Təlim insanların bilik, bacarıq və mədəni irsini öyrəndikləri və inkişaf etdirdikləri tədqiqat prosesidir. Bu proses müxtəlif mühitlərdə və zamanlarda baş verir, formal və informal olur. Formal təlim məktəb və universitetlərdə, kurslarda və seminarlarda təşkil olunur və müəllimlər tərəfindən planlaşdırılır və sənədləşdirilir. İnformal təlim, iş yeri təlimi, ictimai təlim və şəxsi öyrənmə kimi daha az formal və qeyri-şəxsi mühitlərdə baş verir. Təlim zamanı, şagirdlər yeni bilik və bacarıqlar əldə edir, tədqiqatlar aparır, müzakirələr keçirir və müxtəlif mədəni irs elementləri öyrənilir. Təlim prosesi şagirdlərin sosial dəstək almasını, mühitdə mövqe qazanmasını və fərdi inkişafı dəstəkləyir. Müəllim və şagird arasında əlaqə qurulur, təhsil materialları tərtib edilir və şagirdlərin inkişafı müşahidə edilir. Bu proses şagirdlərin öz potensiallarını maksimum səviyyədə inkişaf etdirməyə kömək edir.

Təlimdə yaradıcılıq prinsipi, şagirdlərin yaradıcı fikirlərini və yaradıcı problemlərin həllini təşviq edən və təmin edən bir prinsipdir. Bu prinsip, şagirdlərin müxtəlif yollarla məsələləri həll etmələrini və öz orijinallıqlarını ifadə etmələrini təşviq edir. Təlimdə yaradıcılıq prinsipi tərəfdaşlıq, tədqiqat və yenilikçilik kimi dəyərləri dəstəkləyir. Yaradıcılıq prinsipi şagirdlərin öz fikirlərini ifadə etmələrini, yeni ideyaların yaradılmasını və məsələlərin yaradıcı yollarla həllini axtarmağını tövsiyyə edir. Bu prinsip müəllimlərin şagirdlərin düşüncə və fikirlərinə qiymət verərək, onların yaradıcı potensialını inkişaf etdirməsi ilə əlaqəlidir. Təlimdə yaradıcılıq prinsipi müəllimlərin şagirdləri məsələləri analiz etməyə, yeni yollar axtarmağa və alternativ həll yolları tapmağa təşviq etmələrini təmin edir, şagirdlərin tədqiqat və fikirlərinin dəyərini anlamağa, öz fikirlərini ifadə etməyə və yaradıcı yolla problemləri həll etməyə öyrədir. Yaradıcılıq prinsipi, şagirdlərin öz potensiallarını inkşaf etdirməyə və onların inkişafını dəstəkləməyə kömək edir. Bu prinsip, təlim prosesində müxtəlif fərdi fəaliyyətlər və yaradıcı təlim metodundan istifadə etməyə kömək edir. Yaradıcılıq prinsipi, şagirdlərin məsələləri özünəməxsus yollarla həll etmələrini təşviq edir və onları öz düşüncə prosesləri ilə əlaqələndirir.

Təlimdə fəallıq prinsipi şagirlərin müəyyən məqsədlərə nail olması üçün öz aktivliklərini təmin etməyə və müşahidə etməyə əsaslanan bir prinsipdir. Bu prinsip, şagirdləri tədqiqat, müzakirə, müqayisə və təcrübə yolu ilə öyrənməyə təşviq edir. Fəallıq prinsipi passiv təlim metodlarının əvəzinə şagirdlərin özünə qıymət vermələrini, öz fikirlərini ifadə etmələrini və öyrənmə prosesinə aktiv cəlb olunmalarını təşviq edir. Bu prinsip şagirdlərin müəyyən məqsədləri nail etmək üçün öz səylərini göstərmələrini təmin edir. Fəallıq prinsipi, şagirdlərin öz öyrənmə proseslərinin fəaliyyət və təcrübəyə əsaslanması ilə əlaqəlidir. Bu prinsip şagirdləri məqalələr yazmaq, tədqiqat aparmaq, müzakirələr keçirmək və digər fəalliyyətlər vasitəsilə öyrənməyə imkan verir. Fəallıq prinsipi şagirdlərin öz öyrənmə prosesini özgür, müstəqil və məqsədəuyğun şəkildə idarə etmələrini təmin edir. Bu prinsip şagirdlərin öz öyrənmə prosesinə şəxsi cəlbetmələri və maraq duyduqları sahələrdə

fəallıq göstərmələri üçün geniş imkanlar yaradır. Fəallıq prinsipi, şagirdlərin özüməxsus tədqiqat, təcrübə və fikirləri yolu ilə öyrənməyə imkan verir. Bu prinsip, şagirdlərin müxtəlif öyrənmə təcrübələri yaşamalarını təmin edir. Fəallıq prinsipi şagirdlərin öz öyrənmə prosesində fərqli yönümləri, tərəfləri və təcrübələri müzakirə etməyə imkan verir. Bu prinsip şagirdlərin öz öyrənmə prosesində özgür seçimlər etmələrini təşviq edir. Fəallıq prinsipi şagirdlərin öyrənmə prosesində öz məqsədlərini müəyyənləşdirmələrini təmin edir. Bu prinsip şagirdlərin öyrənmə prosesində müşahidələrini və qiymətləndirmələrini dəstəkləyir. Fəallıq prinsipi, şagirdlərin öyrənmə prosesində maraq duyduqlarına mənsubiyyət hissi formalaşdırmağa kömək edir.

Məktəb riyaziyyat kursunun tədrisi prosesində "cəbr və funksiyalar" məzmun xətti üzrə "bərabərsizliklər" anlayışını keçərkən qarşıya bəzi çətinliklər çıxır ki, bunları yalnız əlavə məşğələlərdə aradan qaldırmaq mümkün olur. Belə məşğələləri keçərkən şagirdlərə əvvəlcə fərdiləşdirilmiş tapşırıqların verilməsi, məşğələlərin səmərəliliyini artırır. Bu nöqteyi nəzərdən təlim tapşırıqlarını fərdiləşdirərkən aşağıdakılar nəzərə alınmalıdır:

1. Bərabərsizlik anlayışı ilə bağlı şagirdlərə müxtəlif didaktik materiallardan və təkrar bölmələrdən onların fərdi qabiliyyətinə uyğun tapşırıqları yerinə yetirməyi və mövzuları təkrar etməyi tapşırmaq;

2. Bərabərsizliklərlə bağlı verilən suallara şagirdlər tərəfindən verilən cavabların tam və düzgün olmasını qiymətləndirmək;

3. Təlim prosesində şagirdlərin mövzu ilə bağlı hansı çətinliklərlə rastlaşacaqlarını nəzərə alaraq, onlara qısa göstərişlər vermək.

Bərabərsizlikləri həll edin: a)$f(x)=(x - 1)(x - 2)(x - 3)(x - 4) > 0$ b)$\frac{x}{x-2} \geq \frac{x+4}{x}$

Müəllimin verdiyi istiqamət əsasında şagirdlərin həmin çalışmaları necə yerinə yetirmələrinə dair bir neçə nümunəyə baxaq.

1-in a bəndindəki bərabərsizliyin həlli: f funksiyası $x = 1$, $x = 2$, $x = 3$, $x = 4$ qiymətlərində sıfıra çevrilir.

Həmin nöqtələr ədəd düz xəttini 5 intervala bölür. $x < 1$ şərtində f funksiyası müsbət qiymətlər alır. Sonra isə hər dəfə sıfıra çevrilərək işarəsini dəyişir. Bu şəkildən aydındır. Funksiya $[-\infty;1] \cup [2;3] \cup [4; +\infty]$ intervalında müsbət, $[1;2] \cup [3;4]$ intervalında mənfi olur. $x \in [-\infty;1] \cup [2;3] \cup [4; +\infty]$.




b) $\frac{x}{x-2} \geq \frac{x+4}{x} \rightarrow$ b)$\frac{x}{x-2} - \frac{x+4}{x} \geq 0 \rightarrow \frac{x^2-(x-2)\cdot(x+4)}{x\cdot(x-2)} \geq 0 \rightarrow \frac{x^2-x^2-2x+8}{x\cdot(x-2)} \geq 0 \rightarrow \frac{8-2x}{x\cdot(x-2)} \geq 0 \rightarrow$
$\frac{2\cdot(4-x)}{x\cdot(x-2)} \geq 0$

Surət və məxrəcin sıfırları: 4; 0; 2




$Cavab: (-\infty; 0) \cup$
$(2; 4]$

# DİSTANT TƏLİM FORMALARININ TƏTBİQİNİN METODİKİ İMKANLARI

**Səlimə Mirzəyeva**
**dosent**
**Mailə Hüseynzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirzayeva_salima@mail.ru**
**Mayila.husseyni@mail.ru**

**Açar sözlər:** Distant təhsil, Microsoft Teams programı, onlayn tədris platformaları, Zoom platforması, video konfrans.

Azərbaycanda 2020-ci ilin mart ayının ikinci yarısından Microsoft Teams programı vasitəsilə distant təhsilin tətbiqinə başlanmışdır. İlk vaxtlarda insanlarda distant təhsilə keçid narazılıqlara səbəb olsa da, zaman-zaman məsafədən təhsilin müsbət cəhətlərini gördükdə, onlarda bu təhsil sisteminə xeyli maraq oyandı. Pandemiya dövründə ölkəmizdə distant təhsilin tətbiqinin, hansı qaydada, hansı vasitələrlə təşkil olunduğunun şahidi olmuşuq. Biz pandemiyadan əvvəlki, və indiki dövr üçün insanların bu barədə fikirlərini müqayisə etsək, aradakı fərqi aydın şəkildə müşahidə etmiş olacağıq.

İndiki və sonrakı dövr üçün distant təhsilin tətbiqinin aktual bir mövzu olduğunu nəzərə alaraq, müəllimlərin bu tətbiqi düzgün şəkildə həyata keçirə bilməsinə nail olunmalıdır. Hal-hazırda ölkəmizin ən çox müəllim yetişdirən universiteti olaraq, təhsil aldığım universitetin də qarşıya qoyduğu əsas məqsədlərdən biri məhz elə budur. Bilirik ki, müəllim və şagirdin hansısa bir təlim mühiti vasitəsilə təlim prosesinin təşkili elektron təlim adlanır. İlk növbədə dərsin onlayn formada təşkil olunduğunu və bunun ənənəvi təhsil sistemi ilə müqayisədə çox daha sərbəstlik verdiyini göz önünə alaraq deyə bilərik ki, müəllimin ilk edəcəyi şey şagirdlərdə dərsə qarşı həvəs yaratmaqdır. Bundan başqa, həm müəllimin həm də şagirdin ən vacib vəzifələrindən biri mobil texnologiyalardan düzgün şəkildə istifadə edə bilməkdir. DT formalarının tətbiqi müxtəlif elektron tədris-metodiki platformalar vastəsilə həyata keçirilir və bu vasitələrdən düzgün şəkildə istifadə edə bilmək tədris prosesi iştirakçılarının ən vacib funksiyalarından biri və ən başlıcasıdır, əks halda məsafədən təhsildə uğurlu nəticə əldə olunmayacaq. Bəs distant təhsildə istifadə olunan elektron tədris-metodiki platformalar hansılardır?

Onlayn tədris platformalarından ən məşhuru Microsoft Teams proqramıdır. Bu proqram qeydləri, söhbəti, görüşləri, özündə ehtiva edən bir platformadır. Həmin proqramı kompüterdə və ya telefonda quraşdırmaq mümkündür. Daxil olmaq üçün Microsoft hesabı qeyd olunmalıdır. Dərsə qoşulduqdan sonra söhbətə qoşulmalı olan şəxslərə dəvət linki göndərə bilərsiniz. Microsoft Teams-da eyni zamanda 250 nəfərə qədər qrupla ünsiyyətə başlamaq mümkündür. Tətbiq həmçinin telefon və kompüter arasında mövcud söhbətlərin qüsursuz sinxronizasiyasını təmin edir. Son vaxtlar qazandığı əhəmiyyətə görə məxfilik və təhlükəsizlik səviyyəsini təkmilləşdirmişdir. Bu platforma komanda söhbətləri, şəxsi mesajlar, zənglər, görüşlər keçirmək imkanı yaradır, həmçinin komanda daxilində birdən çox söhbət otağı və ya kanal qurmağa imkan verir. Söhbəti izləmək üçün yaradılmış interfeyslər isə olduqca sadədir. Microsoft Teams digər platformalar arasında təhlükəsizliyi ilə ön plana çıxır. Əvvəldən məxfilik prinsipləri əsasında qurulan bu platforma müxtəlif tipli sənədlərə uyğundur. Bundan başqa, çətin parollar, giriş siyasətləri və iki faktorlu audentifikasiya kimi şəxsi təhlükəsizlik tədbirləri də burada kifayət qədər güclüdür. Microsoft Teams proqramı söhbət, qeydlər və fayllardakı bütün məlumatları şifrələyir. Proqram istifadəçilərinə iki əsas

rol təklif olunur ki, bunlar komandanı yaradan şəxs olan komanda sahibi və onun dəvət etdiyi şəxslər olan komanda üzvləridir. Komandaları qurmaq və idarə etmək, həmçinin Microsoft Teams daxilində qrup fayllarını sinxronizasiya etmək mümkündür. Microsoft Teams kənar istifadəçilərə komandalara qoşulmaq icazəsi vermir.

Microsoft Teams qədər məşhur olan Zoom platformasından da onlayn tədris üçün istifadə olunur. Bu platforma Amerika mərkəzlidir və epidemiya dövründə istifadəçi sayı dəfələrlə artmış və kəskin şəkildə populyarlaşmışdır. Hal-hazırda AppStore və Play Store-da yüklənən pulsuz proqramlar siyahısında ilk 3-lükdə yer alır. Zoom proqramında qeydiyyatdan keçmək üçün elektron poçtumuzu daxil edib, daha sonra isə təsdiq etmək lazımdır.

Pandemiya dövründə uzaqdan təlim prosesində istənilən vaxt, istənilən yerdə dərsə qatıla bilmək baxımından Zoom Cloud Meetings tətbiqinin çox sərfəli olduğunu deyə bilərik, lakin, tətbiqin türk dilini dəstəkləməməsini mənfi cəhət kimi görürəm, çünki, inglis dili səviyyəsi zəif olanlar var və onlar türk dilini seçməyə üstünlük verəcəklər. Zoom proqramının mənfi cəhətlərindən biri onu tənqid oxlarının hədəfinə çevirən platformanın məlumat təhlükəsizliyi zəifliyi iddiaları idi. Şirkət tərəfindən istifadəçilərin şikayətlərini hədəfləyən qaydalar hazırlansa da, atılan addımlar istifadəçiləri Zoom-da saxlamaq üçün kifayət etmirdi. Üstün keyfiyyətlərinin çox olmasına baxmayaraq, bir çox istifadəçi Zoom-a alternativ ola biləcək video zəng proqramlarını axtarmağa başladı. Bu prlatformaya alternativ ola biləcək, pulsuz olması və istifadə rahatlığı ilə seçilən bir neçə videozəng proqramlarını "The Verge" xəbərindən topladıq. Həmin proqramlar istifadəçilərə heç bir üzvlük tələb etmədən, dəvət linki vasitəsilə video konfranslarda iştirak etmək imkanı verir. Həmin proqramlara nəzər salaq: Bura Skype, Cisco Webex, Google Meet, Hangouts, Moodle, StarLeaf, Jitsi Meet proqramları daxildir.

Alternativ platformalardan olan Moodle 2002-ci ildən bəri "Moodle Pty Ltd"nin rəhbərliyi ilə təhsil sahəsində onlayn mühit yaradaraq birgə öyrənmə üçün yeni proqramlar, onlayn kurslar və təlim fəaliyyətinə imkan verən, yüz minlərlə müəssisə və iş yerlərində istifadə olunan dünya miqyaslı açıq təlim platformasıdır.

Dövlət İmtahan Mərkəzi 2020-ci ilin noyabr ayından etibarən distant tədris və onlayn qiymətləndirmə platformalarının inkişafı naminə yaradılan Moodle İstifadəçiləri Assosiasiyasının (MİA) üzvüdür.

Moodle-un çoxdilli imkanları onlayn öyrənmək üçün heç bir linqvistik məhdudiyyətin olmadığını təmin edir. Moodle icması Moodle-ı 120-dən çox dilə tərcümə etməyə başladı ki, istifadəçilər müxtəlif dillərdə mövcud olan çoxlu resurs, dəstək və icma müzakirələri ilə birlikdə Moodle saytını asanlıqla lokallaşdıra bilsinlər. Moodle platforması lisenziya haqqı olmadan pulsuz istifadə edilir.

Moodle inkişaf proseslərində və proqram təminatında təhlükəsizlik nəzarətləri daim yenilənir və tətbiq edilir.

İnformatika fənninin İKT avadanlıqları ilə vəhdət təşkil etdiyini nəzərə alaraq söyləyə bilərik ki, bu fənnin distant formada tədrisi digər fənnlərə nisbətən çox daha öyrədici və əlverişli olur.

X sinif informatika dərsliklərində informasiya bölməsində informasiya prosesləri, informasiyanın miqdarı, informasiyanın qorunması, komputer virusları, antivirus proqramları, komputer cinayətkarlığı, modelləşdirmə bölməsində model anlayışı, modellərin növləri, informasiya modellərinin tətbiq olunması, informasiya modelinin hazırlanması, komputer modeli, interaktiv komputer modelləri, komputer qrafikası, üçölçülü komputer modellərinin hazırlanması, Verilənlər Bazası bölməsində verilənlər bazası anlayışı, verilənlər bazasının idarə olunması, cədvəl strukturunun yaradılması, cədvəllərarası əlaqələr, sorğular, formalar, verilənlərin axtarışı və çeşidlənməsi, hesabatlar, şəbəkələr bölməsində komputer

şəbəkələri və onların təsnifatı, şəbəkə avadanlıqları, komputerin lokal şəbəkəyə qoşulması, şəbəkə qurğularından birgə istifadə, komputerin fiziki olaraq internetə bağlanması, ƏS-nin köməyi ilə internetə qoşulma, Veb-proqramlaşdırma bölməsində HTML, saytın tərtibatının özəllikləri, informasiya cəmiyyəti bölməsində isə informasiya cəmiyyətinin inkişaf mərhələləri, informasiya mədəniyyəti, internetdə ünsiyyət, şəbəkə etikası, telekonfrans, elektron təhsil, e-kitabxana mövzuları tədris olunur.

X sinif dərsliyində distant formada tədris üçün ən uyğun mövzulardan biri telekonfrans mövzusudur. Telekonfrans hansısa bir mözu haqqında onlayn formada təşkil olunmuş informasiya mübadiləsi prosesidir. Bu prosesin təşkil olunmasını aparıcı həyata keçirir, o iştirakçıları konfransa dəvət etmək, dili seçmək, konfransa yekun vurmaq kimi vacib işləri həyata keçirir. Distant formada bu mövzunun tədrisi zamanı şagirdlərlə telekonfrans təşkil edərək şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə imkan yaratmış olarıq. Telekonfransların təşkili üçün çox sayda proqramlar vardır ki, bunlardan ən məşhurları **Skype, TrueConf, Cisco TelePresence, GoToMeeting, Google Hangouts** proqramlarıdır. Məsələn, biz şagirdlərlə internet üzərindən skype proqramı vastəsi ilə telekonfrans təşkil edə bilərik.

## STARBOARD LÖVHƏLƏRİNİ TƏTBİQİ İLƏ V SİNİFDƏ "ALQORİTMLƏRİN TƏSVIR ÜSULLARI" MÖVZUSUNUN TƏDRİSİ METODİKASI

**Səlimə Mirzəyeva**
**dosent**
**Nəzrin Paşazadə**
**müəllim**
**Aysel Cabbarova**
**magistrant**
**Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar –Texnoloji Kolleci**
**Lənkəran Dövlət Universiteti**
**mirzayeva_salima@mail.ru**
**Nezrinpashazade.98@mail.ru**
**aysel22.08.2008@gmail.ru**

**Açar sözlər:** ağıllı lövhə, starboard lövhələri, ağıllı qələm, interkativ lövhələr

Son dövrlər İKT avadanlıqlarının tətbiqi təhsil və təlim sektorunda xeyli artmışdır. Ona görə də Respublikamızın ümumtəhsil məktəblərində təhsilin və tədrisin keyfiyyətini yüksəltmək üçün istifadə olunan qara lövhələr, plakatlar, ənənəvi-didaktik materialların çoxu öz əhəmiyyətini itirir və onların çoxsaylı vəzifələrini müasir interkativ lövhələr, kompüterlər, proektorlar, sorğu pultları həyata keçirir. Hazırda kompüter və "Ağıllı lövhə"lər yalnız təlim vasitəsi deyil, həmçinin müəllimin bir çox funksiyalarını yerinə yetirir.

Starboard lövhələrin tədrisdə tətbiqinin daha maraqlı və interaktiv olmasına səbəb lövhə üçün nəzərdə tutulmuş xüsusi "Starboard" adlanan proqram təminatı ilə işləməsidir. Bu proqram üzərində qurulan dərslər sinifdə tədrisin keyfiyyətinin artırılmasına, dərslərin rahat şəkildə hazırlanması və aparılmasına, vaxta qənaət edilməsinə imkan yaradır. Starboard-

interaktiv lövhələri xüsusi imkanlara malikdir. Lövhənin və proqamın imkanlarını 5-ci sinif "İnformatika" dərsliyindən "Alqoritmi necə təqdim etmək olar" mövzusunun qurulmasına tətbiq edək. Təlim məsədlərini reallaşdırarkən çalışmaq lazımdır ki, şagirdlər müxtəlif məsələlərin həll alqoritmlərini fərqli üsullarla göstərsinlər. Şagirdlər artiq 4-cü sinifdən alqoritmlərin təqdimolunma formaları ilə tanışdılar. Ona görə də mövzunu izah edərkən məqsəd interaktiv lövhənin imkanlarından istifadə etməkdir.

Məsələn, şagirdlərə tərəfi a və b olan düzbucaqlının sahəsinin tapilması alqoritmin təsvir üsulları ilə izah etmək tapşırılır. İlk oncə sadə danışıq dili vasitəsilə məsələnin həlli alqoritmi izah olunur. Daha sonra blok-sxem vasitəsilə məsələnin qurulması Starboard lövhəsi və proqram təminati ilə yerinə yetirilir. İlk öncə proqram başladılır və ekranda proqramın iş sahəsi açılır. Məsələnin sözlə təsviri alqoritmi alətlətlər menyusundakı qələmdən istifadə olunaraq lövhədə yazılır.




Daha sonra məsələnin həlli blok-sxem vasitəsilə təsvir edilir. Blok-sxemi qurmaq üçün alətlər menyusuna daxil olub həndəsi fiqurlardan və ya "Ağıllı qələm" dən istifadə edirik. "Ağıllı qələm" normal qələmdən fərqli olaraq bəzi şəkillərin avtomatik olaraq düzəldilməsi üçündür. Hər hansı bir fiqurun forması çəkilir, ağıllı qələm isə çəkilmiş fiqurun hansı fiqura oxşadığını müəyyənləşdirərək həmin fiquru çəkmək olur.

Blokları bir-biri ilə birləşdirmək üçün "Alətlər menyu"sundan birləşdirici oxlardan istifadə edirik. Blokları qurduqdan sonra blokların daxilində alqoritmin addımlarını ardıcıl olaraq yazırıq. Bunun üçün "Vasitələr" menyusuna daxil olub "Mətn" bəndini seçirik . Daha sonra blokların daxilində məsələnin həllini yazırıq. Nəticə etibarilə şagirdlər bu proqram vasitəsilə blok-sxemin qurulmasının yeni metod və qaydalari ilə tanış oldular.




Starboard proqramının köməyilə blok-sxemlərin qurulmasını sərbəst öyrəndilər.

Beləliklə, informatika fənninə aid konkret bir dərs nümunəsi əsasında izah etdiyimiz mövzudan göründüyü kimi, Starboard proqramı şagirdlərin bu fənni mənimsəmələrində əlavə imkanlar yaradır və dərsin məzmununun səmərəli şəkildə dərk edilməsini asanlaşdırır.

## ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN TƏDRİSİ PROSESİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ YOLLARI (XI SİNİF)

**Sənan Əzizov**
**dosent**
**Zəhra Fərzullayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**senan.ezizov.1958@mail.ru**
**zahrafarzullayeva55@gmail.com**

**Açar sözlər:** İnteraktiv təlim metodları, alternativ enerji mənbələri, BİBÖ, tükənən və bərpa olunmayan enerji mənbələri

Müasir dünyaya inteqrasiya edən təhsil sistemində əsas kriteriyalardan biri də şagirdlərdə inkişafetdiricilik prinsipinin inkişafı, həmçinin, şagirdləri şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Buna görə də, müəllimin istiqamətləndirici fəaliyyəti ilə şagirdlər, ardıcıl və düşünülmüş şəkildə coğrafiya fənni üçün səciyyəvi olan fəaliyyət üsullarını tətbiq edirlər. Şagirdlərin yeni materialı tədqiqat şəklində öyrənilməsi onların yaradıcılıq fəaliyyətini aktivləşdirir.

Son zamanlar təhsilin keyfiyyətinin artırılmasında bir sıra metod və üsullardan istifadə olunur. Digər fənlərdə olduğu kimi coğrafiya fənninin tədrisində istifadə olunan metodlara aşağıdakılar aiddir: Söz assosiasiyası, rollu oyun, beyin həmləsi, BİBÖ, venn diaqramı, klaster, ziqzaq, akvarium, qərarlar ağacı, müzakirə, mühazirə, layihə metodu və s.

Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu dərsin keyfiyyətini artırmaqda güclü vasitədir. Bu metodlar şagirdlər üçün dərsi çox maraqlı və əyləncəli edir. İnteraktiv təlim həm məzmunun öyrənilməsinin, həm də tətbiqinin səmərəliliyini artırır və şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. İnteraktiv təlimin tətbiq edilməsi təhsil islahatının əsas məqsədlərindən biridir. Bu təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin, yaradıcılığın formalaşdırılmasına şərait yaradır.

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramında" göstərilən demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə və inteqrasiya prinsiplərini həyata keçirməyə imkan verir.

XI sinif üçün nəzərdə tutulmuş coğrafiya dərsliyində coğrafiya fənn proqramının məzmununa daxil olan bütün məzmun standartları reallaşdırılmışdır.

Mövzu: "Alternativ enerji mənbələri". Mən əvvəlcə mövzunu keçərkən dərsin məqsədini şagirdlərə açıqlayıram. Sonra, sinifdəki şagirdləri 3 qrupa bölürəm. Onlara aşağıdakı sualları verirəm:

Enerji mənbələri neçə qrupa ayrılır?

Alternativ enerji mənbələri nədir?

Həmçinin lövhədə BİBÖ üsulundan istifadə edərək diaqram qururam. Mövzu ilə əlaqədar əvvəlki biliklərinə aid sütunlarda siyahı qurmağı tapşırıram.

Biliklər: Enerji mənbələri 2 qrupa ayrılır: tükənən və tükənməyən. Tükənən enerji mənbələri həmçinin 2 qrupa ayrılır: tükənib bərpa olunan və tükənib bərpa olunmayan.

Tükənən və bərpa olunmayan enerji mənbələri: neft, qaz, daş kömür və s. Tükənməyən enerji mənbələri: Günəş, külək, qabarma-çəkilmə, geotermal və s.

Sonra, şagirdlərə mövzu ilə əlaqədar bilmək istədiklərini 2-ci sütunda yazmalarını tapşırıram.

Ən çox alternativ enerji mənbələrindən İEÖ istifadə edir. Alternativ enerji mənbələri ekoloji cəhətdən daha təmizdir. Ən böyük Günəş elektrik stansiyası Kaliforniyada (ABŞ) yerləşir.

Külək elektrik stansiyaları Danimarka və Niderlandda daha çoxdur.

Şagirdlərdən əlavə bilmək istədiklərini soruşuram. Sonra, onlardan mövzu ilə bağlı nə öyrəndiklərini bilmək üçün suallar verirəm.

Hansı enerji mənbələri daha yaxşıdır? Külək, Günəş, qabarma və çəkilmə hansı növ enerji mənbələridir və üstünlükləri nələrdir? Alternativ enerji mənbələri ilə ənənəvi enerji mənbələri arasında hansı fərqlər vardır?

Mətni oxuduqdan və əlavə araşdırmalar apardıqdan sonra qazandığı yeni məlumatları cədvəlin 3-cü sütununda qeyd edirlər.

İstəyirik bilək: Niyə alternativ enerji mənbələri İEÖ-də var? Elektrik enerjisini qabarma-çəkilmə və küləyin gücündən istifadə etməklə də əldə etmək olar? Qabarma-çəkilmə elektrik stansiyaları dəniz və okean sahillərində yerləşdirilir?

Öyrəndik: Tükənən və bərpa olunmayan enerji mənbələri İEOÖ-də daha çoxdur. Alternativ enerji mənbələri ekoloji cəhətdən daha yaxşıdır. Gündən-günə alternativ enerji mənbələrin sayı artır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Həmçinin, növbəti COP29 olaraq adlandırılan konfrans isə 2024-cü ilin 11-24 Noyabr tarixlərində Bakı şəhərində keçiriləcək.

Neft, qaz və daş kömürdən alınan enerji mənbələrinə olan tələbat gündən-günə azalır. Azərbaycanda külək və günəş ən mühüm alternativ enerji mənbələri hesab edilir. Azərbaycanda "Xızı-Abşeron" KES-in yaradılmışdır. Abşeron regionunda isə 240 MVT-lıq günəş və 240 MVT-lıq külək elektrik stansiyaları quraşdırılmışdır.

Şagirdlər mövzu ilə bağlı yeni bilikləri əvvəlki biliklərlə müqayisə edirlər. Daha sonra qruplarda öyrəndikləri məlumatlarla əlaqəli iş vərəqi verirəm.

İş vərəqi 1.

1. Günəş, külək və qabarma-çəkilmə hansı enerji mənbələrinə aidir?

2. Hansı ölkələr tükənən və bərpa olunmayan enerji mənbələrindən daha çox istifadə edir?

İş vərəqi 2.

1. Külək enerjisindən ən çox hansı ölkələr istifadə edir?

2. Tükənən və bərpa olunmayan enerji mənbələri və alternativ enerji mənbələrin müqayisə edin.

İş vərəqi 3.

1. Günəş və qabarma-çəkilmə alternativ enerji mənbələrdən hansı ölkələr istifadə edir?

2. Neft, qaz və daş kömür hansı enerji mənbələrinə aidir?

Tapşırıqları yazdıqdan sonra qruplar iş vərəqlərini təqdim edirlər, informasiya mübadiləsi aparırlar. Həmçinin, bu zaman qruplara qaranlıq qalan və maraqlı gələn sualları vermək üçün onlara şərait yaratmaq lazımdır.

Sonra, qiymətləndirmə aparıb və ev tapşırıqı verərək dərsi yekunlaşdırıram.

Nəticə olaraq tədris prosesində bu metodlardan istifadə edib dərs keçərkən, şagirdlər dərsi yaxşı qavrayır və anlaya bilirlər. Bu proses nəticəsində hər bir şagird dərs prosesində aktiv iştirak edir və bir-birini dinləmə qabiliyyətlərini inkişaf etdirirlər. Bu metodlar vasitəsilə şagirdlər sinifdə dərsi öyrənirlər. Fəal - interaktiv təlim metodları ənənəvi təhsil sistemindən fərqli olaraq müasir təhsil sisteminin inkişafına xidmət edən əsas amillərdən biridir.

# PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

**Sənan Əzizov**
**dosent**
**Əlişir Abiyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**senan.ezizov.1958@mail.ru**
**alisir.abiyev@gmail.ru**

**Açar sözlər:** Pedaqoji texnologiyalar, virtual dərslər, innovativ təhsil, elektron dərslik, elektron lövhə

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan Azərbaycan Respublikasının təhsil sektorunun İslahat Proqramında qeyd olunur ki, humanistləşdirmə, demokratikləşdirmə, humanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma, fərdiləşmə, innovasiyalardan istifadə prinsiplərinə əsaslanaraq təhsil alanın elmi dünyagörüşünün inkişafı milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanan bütün qurumların fəaliyyətini təhsil alanın lehinə xidmət etmək, şəxsiyyəti formalaşdırmaq, sosial həyata hazırlamaq məqsədi təhsilin qarşısında duran vacib məsələlərdən biridir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının ikinci strateji istiqaməti təhsilin bütün sahələrində yeni pedaqoji texnologiyalardan istifadə edilməsini, innovasiyaların tətbiqini nəzərdə tutur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edir ki: "İntellektual inkişafın, elmi dünyagörüşün, təhsilin təkanverici amili İKT, yeni texnologiyalardır ki, yetişən gənc nəsil texnologiyalardan səmərəli şəkildə istifadə etməli və bu prosesə aktiv şəkildə qoşulmalıdır." Cənab Prezidentin Müəllimlərin XIII qurultayının iştirakçılarına göndərdiyi məktubunda qeyd edilir: "Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan müasir tipli iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları, ümumdünya təhsil sistemi qarşısında yeni vacib vəzifələr qoyur. "Təhsil əsri" adı qazanmış XXI əsr Azərbaycan təhsilinin yeniləşməsini və müasirləşməsini tələb edir". Təhsil sistemi qarşısında qoyulan "Azərbaycan təhsilinin yeniləşməsi və müasirləşməsi" dedikdə ilk təhsilin kompleks informatlaşması, təhsil sistemində İKT-dən fəal istifadə, kompüter texnologiyalarından faydalı istifadə edilməsini nəzərdə tutur. Cənab Prezident bu barədə belə deyir: "Azərbaycanda gərək virtual dərslər, yeni texnologiyalar geniş yayılsın, bütün məktəbləri əhatə etsin. Bu çox geniş, mürəkkəb, maliyyə vəsaiti tələb edən proqramdır. Amma, biz bunu mütləq həyata keçirməliyik. Biz gələcəyə baxmalıyıq". Bu yolda Respublikamızda ardıcıl işlər görülür ,dövlət səviyyəsində tədbirlər təşkil edilir, qərar və sərəncamlar verilir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020 – gələcəyə baxış" inkişaf Konsepsiyası" təhsilin inkişafında, təlim və tərbiyənin səviyyəsinin artırılmasinda yeni təlim texnologiyalarından, xüsusilə informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməsini, dünya standartlarına uyğunluğunu tələb edir. Təhsili, tədrisi, pedaqoji prosesi texnika və texnologiyasız təsəvvür etmək çətindir. Təhsilimzidə distant təhsil, virtual təhsil, innovativ təhsil, elektron dərslər, elektron lövhələr, elektron dərslik və dərs vəsaitləri, multimedialar, avtomatlaşdırılmış öyrədici sistemlər mövcuddur ki, bunlar tədris prosesini xeyli dərəcədə müasirləşdirmiş və təkmilləşdirmişdir. Bu texnologiyaları, yenilikləri təhsilə gətirən kim olmalıdır? Təbii ki, ilk növbədə müəllim. Müəllimin yaradıcı fəaliyyəti, tədqiqatçılıq qabiliyyətləri, səriştəliliyi, peşəkarlığı onun fəaliyyət göstərdiyi işində yeniliklərdən istifadə etməsi və özünün də yaradıcı fəaliyyəti bu işin uğurlu təminatına səbəb olur.

Texnologiyalar daha çox "necə öyrətmək" məsələsini özündə cəmləşdirir. Təhsil Strategiyasında qeyd olunur ki, "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Bu gün məktəblərimizdə pedaqoji prosesdə, inklüziv təhsildə interaktiv təlim metodlarından istifadə getdikcə genişlənməkdə və artmaqdadır.

Bu cəhətdən tədris prosesində fəal və interaktiv təlim metodlarının tətbiqi, yeni pedaqoji texnologiyalardan, kompüter texnikasından, innovasiyalardan, elektron lövhələrdən, elektron dərslik və dərs vəsaitlərindən istifadə heç şübhəsiz tədrisin keyfiyyətini xeyli dərəcədə yüksəldir, təhsil alanların bilikləri daha səmərəli mənimsəmələrinə, biliklərin uzunmüddət yadda qalmasına, həmçinin onların texniki bacarıqlarının və tədqiqatçılıq qabiliyyətlərinin inkişafına səbəb olur.

Biz müəllim olaraq üzərimizə düşən əsas missiyanı düzgün baxış bucağından qiymətləndirməliyik. Yəni öyrənmə mühitini maraqlı, yaradıcı və şagirdlərlə birgə öyrənməni düzgün təşkil etməliyik. Öyrənmə mühitində şagirdlər sərbəstliyi və səmimiyyəti müəyyən çərçivə daxilində hiss etməlidirlər. Bu zaman istədiyimiz nəticəni əldə edə bilməyimiz üçün münbüt şərait yaranır. Şagird hər şeydən öncə onu bilməlidir ki, o bu cəmiyyətin bir üzvüdür və bu cəmiyyətdə müəyyən mövqeyə malik olan şəxsiyyət yetişdirilir. Bu şəxs hərtərəfli olmalı, olduğu sahədən asılı olmayaraq dövləti, xalqı üçün faydalı şəxsiyyət olmalıdır. Buna görə də daim dərslərinə yaxşı hazırlaşmalı, təlimə müsbət motivasiyası olmalı, elmi yeniliklərlə müntəzəm maraqlanmalıdır. Elmi yenilikləri daha tez və əlçatan şəkildə əldə etmək üçün isə şagirdləri texnologiyalardan istifadə etməyə həvəs yaratamalı, onlar dərk etməlidirlər ki, texnologiyalardan, kompüter texnikasından istifadə etmədən yüksək nəticələr əldə etmək olmaz.

Texnologiyadan düzgün istifadə edən şagird öz sağlamlığının, gələcək həyatının, insanlararası münasibətlərin sağlam formalaşdırılmasında özünü düzgün korreksiya edən bir şəxsdir. Çünki, bu özünü düzgün inkişaf etdirmək, təkmilləşdirmək deməkdir. Həm təhsil, həm tərbiyə, həm də inkişaf baxımından bu yolda biz müəllimlər təhsil alanlara düzgün bələdçilik etməliyik. Bunun da vacib tərəfi müəllimin səmimi, intellektual mühitdə özünü şagirdlərlə bir yerdə əməkdaşlıq etmələrini göstərməsidir. Məsələn, sinifdə heç bir dərsə marağı olmayan şagird varsa və bu şagird dərsi pozmağa meyilli isə biz onu danlamaqla, cəza verməklə yox, onun maraq və meyl dairəsi tərəfindən özümüzə yaxınlaşdırmalıyıq. Tutaq ki, şagird telefonda daha çox oyun oynayırsa bilməliyik ki, ona telefonla bağlı hansı iş tapşırılarsa onu böyük həvəslə edəcəkdir. Elə buna görə də "pedaqogikada müsbət keyfiyyətə əsaslanaraq mənfi keyfiyyəti aradan qaldırmaq"- prinsipinə əməl edərək şagirdin müsbət cəhətlərini tərifləyərək, onun mənfi cəhətini aradan qaldıraraq, biz də öz müsbət məqsədimizi həyata keçirmiş oluruq. Şagirdlərə ev tapşırıqları verilərkən evdə də texnologiyalardan istifadə edilməsini tapşırmaq məqsədə uyğundur. Belə olduğu halda tapşırığın daha yaxşı və həvəslə yerinə yetirilməsinə səbəb olar. Şagirdlər ev tapşırığının mövzusuna uyğun təqdimatlar hazırlaya bilərlər. Bu işə çox motivasiya ilə qoşularlar. Növbəti dərsdə şagirdlərin çoxlu əlavə məlumat yığdıqlarını görəcəyik. Toplanmış bu materiallar şagirdlər tərəfindən dinlənilir, təqdimatlar edilir. Eyni vaxtda da əlverişli, müsbət müəllim- şagird əməkdaşlığı yaranır, şagirdlərin biliyi yüksəlir, dərsin də maraqlı keçməsinə səbəb olur. Nəticə olaraq, pedaqoji texnologiyalardan düzgün istifadə, şagirdlərin təfəkkür səviyyəsini, intellektual inkişafını, tədqiqatçılıq bacarıqlarının formalaşmasına birbaşa təsir edir.

# COĞRAFİYA DƏRSLƏRİNDƏ BEYİN HƏMLƏSİ METODUNUN TƏTBİQİ YOLLARI

**Sənan Əzizov**
**dosent**
**Yaşar Əkbərov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**senan.ezizov.1958@mail.ru**
**yasar056@mail.ru**

**Açar sözlər:** Beyin həmləsi, əqli hücum, anlayışların çıxarılması, suallar, klaster, iş vərəqələri

XXI əsrin əvvəlindən etibarən dünyanın əksər ölkələrində təhsil sisteminə yeni baxış formalaşmağa başlamışdır. Yeni dövrdə dünyada cərəyan edən proseslər, ətraf mühitdə və ictimai həyatda baş verən dəyişiklikləri təhlil etmək üçün məkana dair coğrafi biliklərin mövcudluğu xüsusi önəm daşıyır.

Beyin həmləsi - Bu üsul əqli hücum da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı və ya pis bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz qeydə alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirir. Tezisdə tədris prosesində fəal təlim formalarından biri olan "beyin həmləsi" metodundan istifadədən bəhs edilir və əsaslandırılır ki, coğrafiya dərslərində oyunların və zehni fəaliyyətin istifadəsi çox effektiv üsuldur. Qrup formasından istifadə nümunələri verilir. Azərbaycan təhsilinin modernləşdirilməsi proqramı fəal təlim və tərbiyə üsullarının daha geniş tətbiqi vəzifəsini qarşıya qoyur. Yüksək rəqabət müxtəlif fəaliyyət növləri ilə - tədqiqatlar, dizayn, təşkilatçılıq, ünsiyyət, mülahizələr və s. ilə məşğul olan insanların önə çıxmasını tələb edir.

Tezisdə tanınmış pedaqoq və mütəfəkkirlərin fikirləri əsasında beyin həmləsi metodunun üstün cəhətləri təhlil edilmişdir. Xüsusi ilə də A.Osbornun fikirlərinə əsaslandırılmış tədqiqat aparılıb. A.Osborn deyib: "fikirlərin sayı keyfiyyətə keçir. Hər bir ideyanın "rasional daxili" var". Beyin həmləsi üsulunun sadəcə coğrafiya fənlərinin tədrisində deyil, həm də digər dərslərdə istifadəsinin uşaqların üzərində səmərəliliyindən danışılmışdır. Coğrafiya müəllimləri şagirdlərin düşüncələrinin strukturlaşdırmağa və izahatları inkişaf etdirməyə kömək etmək üçün müxtəlif fəaliyyət növlərindən istifadə edirlər. Beyin həmləsi metodu burada köməyə gəlir. Metodun məqsədi şagirdlərin mövcud biliklərini üzə çıxarmaq və ideyalarını birləşdirməkdir. Tipik olaraq beyin həmləsi metodunun təşkili və qaydaları ilə fərqlənən üç məcburi mərhələsi vardır: 1. Məsələnin qoyulması 2. İdeyanın yaradılması 3. İdeyanın qruplaşdırılması, seçilməsi və qiymətləndirilməsi. Beyin həmləsi üsullarına əqli hücum, anlayışın çıxarılması, suallar, klaster və s. aiddir. Klaster müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlər xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmələr aparılır.

Əqli hücum - şagirdlərin fəallığının həvəsləndirilməsi və ideyaların sürətli ümumiləşdirilməsi üsuludur. Bu üsuldan konkret problemin həlli, ya da yeni mövzunun öyrənilməsi zamanı suala cavab axtarmaq üçün istifadə oluna bilər. Şagirdlərdən öz ideyalarını bildirməyi xahiş edin. Bütün ideyaları elə yazın ki, hamı görə bilsin. Bunlar ayrı-ayrı sözlərdən, yaxud qısa ifadələrdən ibarət ola bilər. Şagirdlərə izah edirik ki, onlar bir-birinin ideyalarını şərh edə, ya da artıq səslənmiş ideyaları təkrarlaya bilməzlər. Şagirdləri fəallığa həvəsləndirib, lakin, onları ideyalarını bildirməyə məcbur etməməliyik. İdeyaları yazarkən onları qiymətləndirməkdən çəkinməliyik. Öz ideyalarınızı yalnız sinfin fəallığını yüksəltmək zərurəti meydana çıxdıqda bildirməliyik. Əgər hər hansı cümlə aydın deyilsə, şagirddən onu izah etməyi xahiş edin, ya da öz izahınızı verin və şagirdlərin onunla razı olub-olmadığını yoxlayın. Hər yeni təklifi yazın. Çox vaxt bunların ən qeyri-adi, gözlənilməzi və ağılsızı ən faydalı və maraqlı olur. İdeyalar tükənəndə əqli hücumu dayandırın, bütün təklifləri nəzərdən keçirin və şagirdlərdən xahiş edin ki, onların şərhini versinlər.

Beyin həmləsi metodu şagirdlərin ünsiyyət bacarıqlarının formalaşmasında müəllimin mövqeyi də kəskin şəkildə dəyişir. Onun əsas vəzifəsi şagirdləri təşəbbüs və müstəqillik nümayiş etdirməyə maraq yaratmaqdadır. Müəllim hər bir şagirdin öz intelektual qabiliyyətlərinin və digər praktiki biliklərinin inkişafı səviyyəsində müəyyən bacarıqları inkişaf etdirə biləcəyi mühit yaradır. Şagirdlər mədəni şəkildə ünsiyyət qurmağı, fikirlərini ifadə etməyi ünsiyyət münaqişələrini bacarıqla həll etmək və müdafiə etməyi öyrənirlər.

Şagirdlərlə beyin həmləsi üsullarından istifadə edərkən xüsusi ilə diqqətli olmaq lazımdır. Bu zaman əvvəlcə məqsədlər müəyyənləşdirilməlidir, şagirdlərdə fikir yaradılmalı, eyni zamanda şagirdlərdən onların hər bir fikirinin düzgün və rasional olmasını tələb etmək lazım deyil. Şagirdlərdə xəyal qurmağı öyrətmək, şagirdlərə bir-bir danışmağı, digər şagirdlərin sözünü kəsmədən dinləməyi və başqalarının fikirinə hörmət etməyi öyrətmək lazımdır. Şagirdlərdə ünsiyyət bacarıqlarının formalaşmasında müəllimlərin mövqeyi kəskin şəkildə dəyişir. Onun əsas vəzifəsi şagirdləri təşəbbüs və müstəqillik nümayiş etdirməyə həvəsləndirməkdir.

Nəticə olaraq, coğrafiya dərslərində problemli vəziyyətin yaradılması üçün lazım olan ilkin ideyanın formalaşmasında beyin həmləsi əvəzsiz rol oynayır. Dərsdə 5-10 dəqiqə ərzində şagirdlərin öyrənilən mövzu, problemin həlli yolları üzrə fərqli ideyaları irəli sürməsi vasitəsi kimi istifadə olunur. Eyni zamanda beyin həmləsi metodu şagirdlərin yeni bilikləri üzə çıxarmasına və müzakirə olunan məsələyə maraq oyadır.

# AZƏRBAYCAN RESPUBLİKASININ RELYEF VƏ İQLİMİNİN SİNİFLƏR ÜZRƏ MƏZMUNUN DƏYİŞMƏSİ

**Taleh Mənsimov**
**coğrafiya üzrə fəlsəfə doktoru**
**Ramil Seyfullazadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**bilaloglutaleh@gmail.com**
**ramilseyfullayev484@gmail.com**

**Açar sözlər:** Kurikulum, relyef, iqlim, yağıntı, geoloji, tektonik, endogen, ekzogen

Müasir dövrdə kurikulum təhsil sistemində coğrafiya fənnində orta məktəb dərsliklərində hər siniflər üzrə məzmunlar arasında fərqlər mövcuddur. Müəllim tədris zamanı təlimin iş formaları olan kollektivlə (bütöv siniflə) iş forması, qruplarla iş forması, cütlərlə iş forması, fərdi iş forması ilə dərsi keçə bilər.

Azərbaycan Respublikasının fiziki coğrafiyasında relyef və iqlim mövzusunda dəyişikliklər VII, IX və X siniflərdə fərqlər mövcuddur. VII sinifdə Azərbaycan Respublikasının relyefini şagirdlər təhlil edir. Bundan əlavə Azərbaycanın fiziki xəritəsində çoxlu dağlar və düzənliklər olduğu üçün şagirdlər bunu asanlıqla tapa bilmir və müəllimin köməyindən istifadə olunur. Dərs praktik olduğu üçün müəllim şagirdlərə tapşırığı fiziki xəritədən istifadə etməklə həmin coğrafi əraziləri kontur xəritəyə qeyd etməsini tapşırır. Burada şagirdlər respublikanın əsas coğrafi əraziləri ilə tanış olurlar. Müəllim dərsi tədris edən zaman şagirdlərə bir neçə tapşırıqlar təqdim edəcəkdir. Müəllimin ilk tapşırığı şagirdlərə Respublikanın əsas düzənlik və dağlarını xəritədə göstərməyi bacarırlarsa, ikinci tapşırığı verə bilər. İkinci tapşırıq olaraq müəllim şagirdlərə Respublikanın əsas dağ formaları olan Böyük Qafqaz dağlarının, Kiçik Qafqaz dağlarının və Talış dağlarının əsas silsilələri və onların zirvələri hansılardır. Növbəti tapşırıq olaraq Respublikanın akumulyativ və denudasion düzənliklər hansılardır tapşırığını verə bilər. Müəllim dərsi qruplarla iş və ya cütlərlə iş üsulunda apara bilər.

IX sinif dərsliklərində Azərbaycan Respublikasının relyefini şagirdlər geoloji və tektonik xəritələrdən istifadə etməklə öyrənirlər. IX sinifdə şagirdlər respublikanın əsas düzənlik və dağ sistemlərini yada salırlar və tektonik qalxmalar və çökmələrlə əlaqələndirirlər. Burada şagirdlərin keçmiş bilikləri təkrar olunur, yaddaşlarında möhkəmlənir və sonda nəticə çıxarır. Növbəti dərsdə şagirdlər Azərbaycan Respublikasının geoloji quruluşunu öyrənəcəklər. Bu da mövzular arasında keçid rolunu təşkil edəcək. Müəllim şagirdlərə hər bir tektonik qırılmalara və çökmələrə (əyilmələr) uyğun suallar hazırlayıb şagirdlərə verə bilər və onların mövzunu necə anlamasını öyrənə bilər. Həmçinin növbəti dərslərdə Azərbaycanın endogen relyef formaları dərsində Respublikanın relyefi mövzusu bir daha da təkrar olunacaqdır. Bir sözlə fəndaxili inteqrasiya həm VII sinif üzrə "Azərbaycan Respublikasının relyefi" və IX sinif üzrə "Azərbaycanın refyefi" ilə inteqrasiya olacaqdır. Müəllim dərsi tədris edən zamanı Azərbaycanın geomorfoloji xəritədən istifadə etməklə, dərsi tədris edə bilər. Müəllim tapşırıq olaraq "Kür çayının sol sahilində və sağ sahilində yerləşən düzənliklər hansılardır?" tapşırığı verə bilər. Növbəti dərsdə Azərbaycanın ekzogen relyef formaları mövzusunda tapşırıq olaraq Respublikanın geomorfoloji xəritədən istifadə etməklə arid – denudasion və nival – buzlaq refyef formaları hansılardı tapşırığını verə bilər. Bundan əlavə Azərbaycanın ekzogen relyef formaları

mövzusu VII sinif üzrə “Xarici amillərin relyefə təsiri” , “Azərbaycan Respublikasının relyefi” və IX sinif üzrə “Azərbaycanın relyefi” mövzuları ilə inteqrasiya olunacaqdır.

VII sinif Azərbaycan Respublikasının iqlim mövzusunu şagirdlər dərslikdə verilmiş xəritədən istifadə etməklə respublikanın iqlimini öyrənə bilərlər. Dərsliyin fəaliyyətdə verilmiş tapşırığı Azərbaycan Respublikasının təbiətinin bu qədər rəngarəng olmasının səbəbi və onun nəticəsinə yönəlməlidir. Dərslikdə verilmiş cədvəli müəllim şagirdlərə tapşırıq kimi verə bilər. Dərslikdə verilmiş yarımsəhra və quru çöl iqlimi, mülayim - isti iqlimi, soyuq iqlimi və dağ – tundra iqlimi haqqında dərslikdə məlumat var, şagirdlər dərslik və xəritədən istifadə etməklə mövzunu anlaya bilərlər. VIII sinif dərsliyində “İqlim və onun yaranması” mövzusunda iqlimi əmələ gətirən amillər və iqlim xəritələrlə şagirdlər tanış olacaqdır.

IX sinif dərsliyində artıq Azərbaycan Respublikasının iqlimi haqqında şagirdlər əvvəlki dərs ilində məlumatları olduğu üçün IX sinifdə iqlim mövzusunda yeni məlumatlar əldə edirlər. Burda Azərbaycanın iqlimində günəş radiasiyasının illik miqdarı, Azərbaycan Respublikasının havanın orta illik temperaturunun dəyişməsi, Azərbaycan Respublikasında yağıntının miqdarının dəyişməsini öyrənəcəkdir. Şagirdlər tematik xəritələrdən istifadə etməklə Azərbaycan Respublikasının iqlimini daha da geniş şəkildə öyrənəcəkdir. IX sinif Azərbaycanın iqlim tipləri mövzusunda VII sinif Azərbaycanın iqlimi mövzusu ilə inteqrasiya olunacaqdır.

X siniflər üçün hazırlanan coğrafiya dərsliklərində isə Azərbaycanın iqlim və refyefi daha geniş və ətraflı şəkildə verilmişdir. Şagirdlər VII və IX siniflərdə öyrəndikləri məlumatlara əsasən X sinifdə mövzuya aid layihə və digər təqdimatlar hazırlaya bilərlər. X sinif coğrafiya dərsliyində Azərbaycanın iqlim tipləri, iqlimin xüsusiyyətləri, iqlimin ərazilər üzrə dəyişməsi və iqlim ehtiyatlardan istifadə haqqında geniş məlumatlar verilir. X sinif coğrafiya dərsliyində şagirdlər Azərbaycanın geoloji quruluşu, faydalı qazıntıları və onların ərazi üzrə paylanması və xəritədə müəyyən edilməsi barəsində geniş məlumatlar toplayırlar. Azərbaycan Respublikasının iqlimin əmələ gəlməsində relyefin və digər amillərin rolu böyükdür. Bu amillərin təsiri nəticəsində ölkəmizin ərazisində müxtəlif iqlim tipləri formalaşmasına gətirib çıxartmışdır. Bundan əlavə relyefin təsiri nəticəsində Azərbaycan Respublikasında ən çox yağıntı Talış dağlarının ətəklərinə (1600-1800 mm) düşür. Mütləq maksimum yağıntı 1959-cü ildə Lənkəran rayonunun Gəgiran kəndinə ( 2763 mm ) düşmüşdür. Ən az yağıntı Abşerona ( 200 mm-dən az) düşür. Respublika ərazisinə mütləq minimum yağıntı Puta məntəqəsinə düşmüşdür. Müəllim şagirdlərə tapşırıq olaraq həmin əraziləri kontur xəritədə göstərməklər relyef və iqlim mövzularını qarşılıqlı əlaqəsini şagirdlər dərk edəcəkdir. Kurikulum modeli ilə hazırlanan coğrafiya dərsliklərinin köməyi ilə şagirdlərdə təhsilverici, inkişafetdirici və tərbiyəedici funksiya həyata keçirilir.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİ BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI

**Ülkər Babayeva**
**coğrafiya üzrə fəlsəfə doktoru**
**Turac Əliyeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**babayevauka@gmail.com**
**turacaliyeva13@gmail.com**

**Açar sözlər:** bacarıq, bilik, vərdiş, metod, təlim

Bacarıq-bilik, təcrübə, vərdiş kimi xüsusiyyətlərin sintezindən ibarət işgörmə qabiliyyətidir. Bacarıqlara yiyələnmək biliyə yiyələnməkdən daha çox zaman alır. Bacarıqları formalaşdırmaq üçün müəllim başqa üsullara, metodlara əl atır. Öncəliklə təlim zamanı elə bir vəziyyət yaradırlar ki, şagirdlərdə bacarıqların formalaşması üçün vəziyyət meydana gəlir. Bacarıqların mexaniki formalaşdırılması düzgün deyil, formalaşdırılmış bacarıq sonradan icra edilməlidir. Şagirdin xəritə üzərində işləməsi bir bacarıqdır. Coğrafi məsələləri icra etməsi də həmçinin bacarıqdır. Bacarıqları bilik və funksional əsaslı olmaqla iki kateqoriyada qruplaşdırmaq olar. Bilik əsaslı bacarıqlara ixtisasla bağlı qazanılmış bacarıqlar aiddir. Funksional bacarıqlarına isə müxtəlif iş parametrləri daxildir. Məsələn, komanda ilə işləmək, problemi həll etmək və s. Ümumiyyətlə bacarıqlar mənimsənilmiş hərəkətlər toplusudur. Tədris zamanı qazanılmış bacarıqlar və vərdişlər təhsilin vacib komponentlərindən biridir. Məsələn: oxumaq, yazmaq, hesablamaq və s.

Ulu öndər Heydər Əliyevin dediyi kimi özünü müəllimliyə həsr etmiş insan, ən şərəfli insandır. Heydər Əliyev təhsilə hər zaman önəm vermiş, insanın bir şəxs kimi formalaşmasında təhsilin rolunu hər zaman vurğulamışdır. Təhsilsiz insan meyvəsiz ağac kimidir. Bunun üçün müəllimin rolu danılmazdır. Müasir təlimin əsas tələblərindən biri şagirdlərdə elmi biliyi formalaşdırmaqdan savayı onlarda tərbiyə formalaşdırmaq, onları bir şəxs kimi real həyata hazırlamaqdır. Ənənəvi təlimdən fərqli olaraq müasir təlimdə müəllim istiqamətləndirən, yol göstərəndir. Müəllim yüksək erudisiyaya, mükəmməl metodiki yanaşmaya, məqsədyönlü fəaliyyətə sahibdirsə, eyni zamanda ixtisasının dərindən mənimsəmişsə, şagirdlərə özünü sevdirməyi bacarırsa bu zaman şagirdləri yüksək səviyyədə bilik, bacarıq və vərdişlərlə təchiz etməyə malik olacaqdır.

Coğrafi bacarıqların və vərdişlərin formalaşmasına bir sıra amillər təsir edir. İlkin coğrafi informasiyalar, bacarıqlar aşağı siniflərdə formalaşmağa başlayır. Tədqiq etmək, təsnif etmək, xəritə üzərində işləmək, sxem, qrafik tərtib etmək bunlar coğrafiya fənninin qarşısında duran əsas bacarıq vərdişlərindəndir. Bu bacarıqlar mütəmadi istifadə edildikcə sonradan mənimsənilmiş vərdişə çev-rilir. Müasir təlimdə dərsin məqsədi bilik və bacarıqların şagirdlərin şəxsiyyətində formalaşmasına yönəlmişdir. Bacarıqların biliklərin fundamenti üzərində qurulur. Bacarıqlar emprikdir ki, bu da təcrübə deməkdir. Emprik biliklər fənnin məzmununa daxil olan bacarıqlar toplusudur. Emprik bilik-lərin tərkibinə coğrafi faktlar, coğrafi təsəvvürlər daxildir ki, bu da öz növbəsində tədqiqatlar və təc-rübələr əsasında əldə olunur.

Təlim zamanı bacarıqları iki qrupa bölmək olar:

1. Ümumi bacarıqlar və vərdişlər- bu tərz bacarıqları bütün fənlərdə görmək mümükündür. Şagird bütün fənlərdə analiz, təhlil və izah edir, eyni zamanda slayd nümayiş etdirir, maket düzəldir və s.

2. Xüsusi bacarıqlar və vərdişlər isə sadəcə bir fənnin tədrisi zamanı istifadə olunan bacarıqlardır. Bu zaman sadəcə coğrafiya fənninin tədrisi zamanı istifadə olunan bacarqlar və vərdişlər toplusu nəzərdə tutulur. Məsələn: plan tərtib etmək, külək gülü çəkmək, məsələ üzərində işləmək, koordinatları təyin etmək, statistik cədvəllər, qrafik-diaqram və təhlil etmək, kartoqrafik proyeksiyalar üzərində işləmək, herbarilər düzəltmək, hava üzərində müşahidələr aparmaq, təbiət hadisələrinin modelini düzəltmək, cihazlarla işləmək, havanın rütubətliliyini təyin etmək, atmosfer təyziqini hesablamaq, torpaqda humusun miqdarını müəyyən etmək və .s.

Metodiki ədəbiyyatlarda bacarıqlar praktik və intellektual bacarıq olaraq ayrılır. Praktik bacarıq şagird şəxsiyyətinin dərsə daha çox yönəlməsinə, diqqətin mövzuya artırılmasına, hərtərəfli şəxsiyyət kimi yetişməsinə müsbət təsir edir. Məsələn: VIII sinifdə "İqlim və onun yaranması" mövzusunda 2.1.3. və 2.1.4. alt standartları müəyyən olunmuşdur. Müəyyən olunmuş standartlara əsasən şagirdlər dərsin sonunda iqlim əmələ gətirən amilləri izah etməli, iqlim xəritəsindən istifadə etməklə dünyanın və Azərbaycanın iqlim xüsusiyyətlərini şərh etməli, həmçinin iqlim diaqramlarını oxuyub təhlil etməyi bacarmalıdır. Xüsusilə bu mövzuda məktəblərdə şagirdlər üçün müxtəlif ekskursiyaların təyin edilməsi, şagirdlərin iqlimin müşahidəsi nəticəsində mövzunu daha yaxşı anlamasına və dərk etməsinə gətirib çıxaracaqdır. Çünki şagirdlər yerində müşahidə edərsə bu zaman tədris daha effektli olacaqdır. Bundan əlavə VII sinif "Torpağın quruluşu və xüsusiyyətləri" mövzusunda müəyyən olunmuş 2.1.7. alt standartların əsasən şagirdlər torpaq əmələ gətirən amilləri izah etməli və torpaqları quruluşuna görə müqayisə etməyi bacarmalıdır. Bu mövzunu şagirdlərə laboratoriya şəraitində torpaqların tərkibini və xüsusiyyətlərini müşahidə etməsi ilə öyrətmək daha məqsədəuyğun ola bilər. Ümumiyyətlə, coğrafiya fənni təkcə nəzəri deyil, əsasən emprik metodlara da əsaslanır. Bunun nəticəsində praktikada tələb olunur. Bununla bağlı olaraq, tədris keyfiyyətini artırmaq və daha səmərəli etmək üçün müşahidələr aparmaq zəruridir. Bundan əlavə şagirdlərin müxtəlif intellektual bacarıqlara yiyələnməsi, onların nəzəri bacarıqlara yiyələnməsi deməkdir. İntel-lektual bacarıqlara müqayisə, analiz, sintez, deduksiya, ümumilşdirmə, nəticə çıxarma və s. aid edilir.

Bacarıqlar yaradıcı fəaliyyətin məzmunudur, nəticəsidir. Onların cavablarını hazır şəkildə tədris materialları və mənbələrindən tapmaq qeyri-mümkündür. Cavablar şagirdlərin məntiqi nəticələrindən üzə çıxır.

Nəticə olaraq demək olar ki, təlim zamanı bacarıqlara yiyələnmək, biliyə yiyələnməkdən daha çətin və mürəkkəbdir. Bu işdə müəllimin üzərinə böyük məsuliyyət düşür.

# V-VI SİNİF ŞAGİRDLƏRİNƏ ALQORİTMLƏŞDİRMƏNİN ƏSASLARININ ÖYRƏDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

**Vahab Həbibov**
**dosent**
**Xəyalə Mehsumzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**vahab.hebibov@mail.ru**
**Mehsumzadexeyale@gmail.com**

**Açar sözlər:** alqoritmləşdirmə, alqoritmləşdirmənin əsasları,məntiqi təfəkkür, mühəndis təfəkkürü, roboto texnikası dəsti, proqramlaşdırma, icraçı

Məktəb informatika kursunun məzmunundakı əsas xətlərdən biri "Alqoritmləşdirmə və proqramlaşdırma"dır. Alqoritmləşdirmənin əsaslarının öyrədilməsi alqoritmin tərtibi və icrası prosesini şagird üçün əyani və başa düşülən edən müxtəlif tədris vasitələrinin istifadəsini nəzərdə tutur. Müasir təbiətşünaslıq və riyaziyyat təhsilinin mühəndis təfəkkürünün formalaşmasına yönəldilməsi ilə əlaqədar olaraq, müasir orta məktəblərdə proqramlaşdırma tədrisi daha da aktuallaşır.

Məktəbdə alqoritmləşdirmənin əsaslarının öyrənilməsinin əsas məqsədi şagirdlərin alqoritmik, muhakimə dərketmə və eyni zamanda məntiqi təfəkkürünün inkişaf etdirilməsidir. Həmçinin bununla yanaşı bir neçə tapşırıq içərisindən müəyyən tapşırığın optimal həllini seçməyə yönəlmiş əməliyyat növünün təfəkkürdə formalaşdırılmasıdır.Bu əməliyyat növlərinin təfəkkürdə inkişafı şagirdin ümümi elmi dünyagörüşünün və zehni qabiliyyətlərinin inkişafında xüsusi yer tutur.

Orta məktəbdə alqoritmləşdirmənin əsaslarını öyrənərkən aşağıdakılara diqqət yetirmək lazımdır:

1. Alqoritmləşdirmənin ümumi qanunauyğunluqlarının və prinsiplərinin müəyyən edilməsi.
2. Müasir informasiya texnologiyalarından istifadə etməklə problemlərin həllinin əsas mərhələləri.
3. Tapşırıqların təhlili, real proses və hadisələrin formallaşdırılması və modelləşdirilməsi üsulları
4. Qoyulmuş tapşırığın icraçısının bu tapşırığı yerinə yetirmək üçün lazım olan keyfiyyətlərə malik olan obyekt seçilməsi
5. İcraçının hərəkətlərinin təsviri üsulları və vasitələri,kompüterdən istifadə edərək onların həyata keçırılməsinin layihələndirilməsinin müasir vasitələri.

Bəzi şagirdlər alqoritmləşdirmənin olduqca çətin olduğunu düşünürlər, bu səbəbdən də müəllim şagirdələrə proqramlaşdırma və alqoritmləşdirmə haqqında bilikləri əlverişli üsullarla öyrətməlidir. Belə üsullardan biri interaktiv tapşırıqların və ya oyunların qurulması və ya robot texnikası dəstinin tətbiqidir. Bu üsulla şagirdlərdə sadecə informatika fənni üzrə deyil eyni zamanda digər fənlər üzrə də alqoritmik və məntiqi təfəkkür inkişaf etdirilir.

"Alqoritmlər və proqramlaşdırma elementləri" mövzusunun öyrənilməsi informatika fənnində tədris olunur. Bu mövzunun öyrənilməsi aşağıdakı təhsil elementlərini müəyyən etməyə imkan verir:

1. Xətti proqramlar. Onların məhdudiyyətləri: mənbə məlumatlarından yerinə yetirilən hərəkətlərin ardıcıllığının asılılığını təmin edə bilməməsi.
2. Budaqlanma və təkrar konstruksiyalar

3. Alqoritmin adı və alqoritm gövdəsi. Alqoritmin gövdəsində digər alqoritmlərin adlarından istifadə. Köməkçi alqoritmlər.
4. Dəyişən: ad və qiymət. Qiymətlərin növləri: tam, real, simvol, sətir, məntiqi. Cədvəl qiymətləri ilə tanışlıq. Məlumat strukturlarına giriş.
5. Rəqəm və sətir məlumatlarının emalı da daxil olmaqla, icraçıların idarə edilməsi üçün tapşırıqların nümunələri; seçilmiş proqramlaşdırma mühitində həll alqoritmlərinin həyata keçirilməsi. Çeşidləmə və axtarış: tapşırıqların təyin edilməsi.
6. Az miqdarda məlumatı emal etmək üçün bir çox addımları yerinə yetirən qısa proqramların nümunələri: böyük həcmdə verilənləri emal edən qısa proqramların nümunələri.
7. Hesablamanın mürəkkəbliyi: yerinə yetirilən əməliyyatların sayı, istifadə olunan yaddaşın ölçüsü; onların mənbə məlumatının ölçüsündən asılılığı.
8. Proqramın işlənib hazırlanması mərhələlərinin konsepsiyası və proqramların düzəldilməsi üsulları.

## AQRAR VƏ İQTİSADİYYAT ELMLƏRİ BÖLMƏSİ

# DƏMİRAĞACI BİTKİSİNİN TORPAĞIN MÜHAFİZƏ OLUNMASINDA VƏ MÜNBİTLƏŞMƏSİNDƏ ROLU

**Balayar Şahbazov**
**dosent**
**Şövkət Həbibzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**balayar.shahbazov58@mail.ru**
**shovkathabibzade@gmail.com**

**Açar sözlər:** relikt ağaclar, torpaq münbitliyi, meşə örtüyü

Lənkəran-Astara bölgəsinin aşağı meşə qurşağında şabalıdyarpaq palıd,bir sıra hirkan relikt cinslərin iştirakı ilə mürəkkəb tipli dəmirağac meşələri yayılmışdır. Lənkəran bölgəsinin aşağı meşə qurşağında meşələr üçüncü dövrün relikt və endim növlərinin zənginliyi ilə seçilir. Dəmirağac meşələri ən çox Lənkəran və Astara rayonlarının dağətəyi və aşağı dağ-meşə qurşağında yayılıb sahəsi 5 min hektara yaxın olub regionun meşə ilə örtülü sahəsinin cəmi 3,4 %-ni təşkil edir.

Dəmirağacı Azərbaycan florasının nadir relikt bitkisidir. Yeganə ağac bitkisidir ki, budaqları bir-birinə qovuşaraq keçilməz sədd yaradır. Dəmirağacı hündürlüyü təqribən 25 m olan, yarpağı tökülən, qollu-budaqlı ağac növlərindəndir. Yarpaqları dərili, oval, tərs yumurtavari, ətli olub, qısa sağlamlıq, uzunluğu təxminən 6-15 sm və eni isə 4-10 sm təşkil edir.

Dəmirağacı bitkisi saçaqlı kök sisteminə malikdir. Buna əsasən saçaqlı kök sistemi torpağın hissələrini bir-birinə bağlayaraq onun yuyulub-dağılması prosesini zəiflədir. Kök sisteminin geniş inkişafı nəticəsində ağacın altında kələ-kötürlüklər əmələ gəlir.

Dəmirağac subtropik və ya isti mülayim zonalarda, dəniz səviyyəsindən 700 m-dək yuxarı dağlarda bitir. Kölgəyə davamlı, rütubətə tələbkar, istisevəndir. Çay və bulaqların ətrafında rütubətli torpaqlarda və quru yerlərdə rast gəlinir. $-25^{0}$C-dək şaxtalara dözür. Əsasən 200 ilədək yaşayır.

Dəmirağac meşələri altındakı torpağın üst qatında humusun həm miqdarı, həm də tərkibi bu meşələri kəskin edir. Dəmirağac bütün digər bitkilərin arasında öz vegetasiyasını tez başlayıb, gec bitirən yeganə cinsdir, qışda çiçək açır.

Torpağın mühafizəsi torpaqların düzgün idarə edilməsi və mühafizəsi məqsədilə həyata keçirilən müxtəlif tədbirləri əhatə edir. Bu fəaliyyətlərin məqsədi torpaqların münbitliyinin qorunması, eroziyanın qarşısının alınması, suyun keyfiyyətinin təmin edilməsi, biomüxtəlifliyin qorunması və torpaqlardan davamlı istifadənin təmin edilməsidir.

Dəmirağacının torpaq mühafizəsi və münbitləşməsində əsas rolu var. Bu bitkinin kök sistemləri torpağı sıxlaşdıraraq eroziyanın qarşısını alır və torpağı sabitləyir. Dəmirağacı bitkisinin kök sistemi, torpağı mühafizə və stabilizasiya etmək üçün işləyir. Bu, torpaqda su rejimini yaxşılaşdırır və onun nəmli və münbit olmasına kömək edir.

Dəmirağacı bitkisinin kök sistemləri, yağış suyunun asılığını və bu suyun yavaş-yavaş torpağa nüfuz etməsini təmin edir. Eroziya riskini azaldır, torpağın daha sabit və münbit olmasına səbəb olur. Dəmir ağacı bitkisi münbitləşmiş torpağa su çəkməyə kömək edir, bu isə əkinlərin və digər bitkilərin sağlam məhsul verilməsinə yardım edir. Ayrıca,

dəmirağacı bitkisi fotosintez prosesindən yüksək miqdarda oksigen istehsal edir və atmosferin təmizlənməsinə kömək edir.

Dəmirağacı bitkisinin yarpaqları azot cəhətdən zəngindir və ağacın digər vegetativ orqanlarında da azot maddəsinin miqdarı çox olur. Bunlar da dövrünü başa vurduqdan sonra torpağa qayıdanda onun münbitliyinə təsir edir.

Ümumilikdə, dəmirağacı bitkisi ekosistemin sabitləməsi, eroziya ilə mübarizədə yardımçı olması və hava keyfiyyətini yaxşılaşdırması ilə ətraf mühitin qorunmasında vacib rol oynayır.

## TÜRK DÜNYASI ÖLKƏLƏRİNİN KOMMERSİYA BANKLARINDA KREDİT PORTFELİNİN DİVERSİFİKASİYA İSTİQAMƏTLƏRİ

**Əlixan Mehman**
**dosent**
**Lalə Şahbazova**
**dissertant**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**shahbazova1995@gmail.com**

**Açar sözlər:** Türk dünyası ölkələri, bank, kredit, portfel, diversifikasiya, kredit riski, likvidlik riski

Etibarlı bank sistemi Türk dünyası ölkələrinin sağlam iqtisadiyyatın təməl nöqtəsidir. Türk dünyası ölkələrində kommersiya bankları ümumilikdə iqtisadi artımın və maliyyə inkişafının əsas lokomotiv rolunu oynayır. Bu banklar müştərilərə kreditlər, depozitlərin qəbulu, ödənişlərin işlənməsi, investisiya qoyuluşları və digər maliyyə alətləri kimi müxtəlif xidmətlər təklif edirlər.

Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və digər türk dünyası ölkələrində müxtəlif ölçülü və əhatəli kommersiya bankları vardır. Bu banklar Türk dünyası ölkələrinin iqtisadi strukturlarına və maliyyə bazarlarına uyğun fəaliyyət göstərirlər.

Türk dünyası ölkələrinin aparıcı ölkələri kimi Azərbaycan və Türkiyə bank sektorlarının fəaliyyətində sıx əlaqə daha da inkişaf edir. Türkiyə ilə Azərbaycan arasında bank əməliyyatlarının həcmində dinamik artım müşahidə olunur. Bu əməliyyatların böyük hissəsi elə türk banklarının payına düşür. Türkiyə Azərbaycanın bank bazarında iki bankla təmsil olunur. Bunlar 100% türk sərmayəli Ziraat Bank Azərbaycan və Yapı Kredi Bank Azərbaycandır. Yapı Kredi Bank Azərbaycanda 2000-ci ildən fəaliyyət göstərir, Ziraat Bank isə ölkəmizdə 2015-ci ildən işə başlamışdır.

Qeyd edək ki, Türkiyədə bank sektoru müxtəlif bankların fəaliyyət göstərdiyi yüksək inkişaf etmiş bir sahədir. Fikrimizcə, Türkiyənin bank sisteminin gücü ölkənin sabit vəziyyətə qayıtmasına kömək edə bilər, gələcəkdə sabit şəkildə inkişaf edəcəkdir. Bu inkişaf Türk dünyası ölkələrinin əməkdaşlığına bütün sahələrdə böyük imkanlar yaradacaqdır.

Türk dünyası ölkələrinin kommersiya bankları fərdi və korporativ müştərilərə geniş çeşiddə maliyyə xidmətləri təklif edirlər. Bu xidmətlərə kreditlərin verilməsi, əmanətlərin qəbulu, ödənişlərin aparılması, ticarətin maliyyələşdirilməsi, investisiya xidmətləri, valyuta əməliyyatları və digər bank xidmətləri daxildir.

Türk dünyası ölkələrinin kommersiya banklarının kredit portfellərini müxtəlif sektorlar və müştəri qrupları arasında bölüşdürərək riskləri azaltmağa çalışırlar. Buraya fərdi kreditlər, kommersiya kreditləri, daşınmaz əmlak kreditləri, kənd təsərrüfatı kreditləri, enerji və tikinti layihələri kreditləri kimi müxtəlif sahələrdə kreditlərin verilməsi daxildir.

Türk dünyası ölkələrində son illərdə kommersiya bankları rəqəmsal bankçılıq xidmətlərini genişləndirmiş və təkmilləşdirmişdir. Mobil bank tətbiqləri, onlayn bankçılıq platformaları və rəqəmsal ödəniş sistemləri kimi texnoloji yeniliklər müştərilərə daha asan və əlçatan xidmətlər təklif edirlər.

Türk dünyası ölkələrində kommersiya bankları ümumiyyətlə yerli maliyyə orqanları tərəfindən tənzimlənir və nəzarət olunur. Bu tənzimləyici qurumlar bankların etibarlılığını və maliyyə sabitliyini təmin etmək üçün müxtəlif tədbirlər görür və tənzimləmələr tətbiq edirlər.

Türk dünyası ölkələrinin kommersiya banklarının kredit portfeli müxtəlifliyi bankların böyüklüyünə, bazar şərtlərinə, iqtisadi quruluşa və qaydalara görə dəyişə bilər. Lakin ümumilikdə götürdükdə türk dünyası ölkələrində kommersiya bankları kredit portfellərini müxtəlif sektorlara və müştəri qruplarına paylayaraq riskləri azaltmağa çalışırlar.

Türk dünyası ölkələrində kredit portfelinin şaxələndirilməsi bankların gəlirlərini artırmaqla yanaşı riskləri də azaldır. Bununla belə, bu müxtəliflik banklardan hər bir kredit növünə xas olan riskləri effektiv şəkildə idarə etməyi tələb edir. Bundan əlavə iqtisadi şərait və sektoral dalğalanmalar kimi xarici amillər də kredit portfelinin performansına təsir göstərə bilər. Buna görə də bankların öz portfellərini davamlı olaraq qiymətləndirmələri və müvafiq risklərin idarə edilməsi strategiyalarını həyata keçirmələri vacibdir.

Türk dünyası ölkələrinin kommersiya bankları öz kredit portfellərini müxtəlif sahələrə yayaraq riskləri azaltmağa çalışırlar. Bu müxtəliflik Türk dünyası ölkələrində bankların müxtəlif sektorlara və müştəri qruplarına aşağıdakı bəzi kredit portfel növlərini verdiyi zaman yaranır:

- Fərdi kreditlər. Bu kreditlərə mənzil kreditləri, avtomobil kreditləri, fərdi kreditlər kimi fərdi müştərilər üçün kreditlər aiddir.
- Kommersiya kreditləri. Bu kreditlərə kiçik, orta və böyük biznes üçün kreditlər aiddir. Göstərilən kateqoriyada biznes kreditləri, biznesin inkişafı kreditləri, dövriyyə kapitalı kreditləri və s. da mövcuddur.
- Daşınmaz əmlak kreditləri. Bu kreditlərə tikinti layihələri, yaşayış və ya kommersiya daşınmaz əmlakının alınması üçün verilən kreditlər aiddir.
- Kənd təsərrüfatı kreditləri. Bu kreditlər kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan fermerlər üçün kreditlərdir. Bu kredit növü kənd təsərrüfatı torpaqlarının, kənd təsərrüfatı avadanlığının və materialların alınması üçün maliyyə vəsaitləri təmin edə bilər.
- Enerji və tikinti layihəsi kreditləri. Bu növ kreditlər maliyyələşdirmə iri miqyaslı enerji istehsalı, infrastruktur və tikinti layihələri üçün nəzərdə tutulmuşdur.
- İxrac və idxalın maliyyələşdirilməsi kreditləri. Bu kreditlər əsasən ixrac və ya idxal edən müəssisələrə verilən maliyyə vəsaitləridir.
- Texnologiya və innovasiya kreditləri: Bu növə texnologiya şirkətləri, R&D layihələri və ya innovativ təşəbbüslər üçün kreditlər.
- Milli və beynəlxalq maliyyə proqramları üçün kreditlər. Bu növ kreditlər isə hökumət tərəfindən dəstəklənən kredit proqramları və ya beynəlxalq maliyyə mənbələrindən alınan kreditləri özündə əks etdirir.

Yuxarıda göstərilənlər Türk dünyası ölkələrinin müxtəlif kredit portfeli banklar üçün gəlirlərini artırmaq, riskləri bölüşdürmək və müştəri bazasını genişləndirmək üçün vacibdir. Bununla belə hər bir kredit növü öz risk və gəlir profilinə malikdir və banklar bu riskləri effektiv şəkildə idarə etməlidirlər.

Türk dünyası ölkələrinin kommersiya bankları kredit portfellərini müxtəlif sektorlara və müştəri qruplarına paylayaraq riskləri azaltmağa çalışır. Kredit portfeli Türk dünyası ölkələrinin kommersiya banklarına riskləri yaymaq və gəlirləri artırmaq imkanı verir. Bununla belə, hər bir kredit növü öz risk profilinə malikdir, ona görə də bankların bu riskləri effektiv idarə etmələri vacibdir. Bununla belə Türk dünyası ölkələrinin kommersiya bankları ümumiyyətlə yerli tənzimləyici orqanlar tərəfindən ciddi şəkildə nəzarət edilir və tənzimlənir ki, bu da maliyyə sabitliyini qorumağa kömək edir.

## OPSİONLARIN QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ METODLARI HAQQINDA

**Fərhad Mirzəyev**
**dosent**
**Fatimə Bağırova**
**magistrant**
**Bakı Dövlət Universiteti**
**farhad_1958@mail.ru**
**baghirzadeh.fatima@gmail.com**

**Açar sözlər:** investisiya, qiymətli kağızlar, opsionlar, aktivlər, portfelin dəyəri

İnvestisiyalar müasir iqtisadiyyatda çox vacib və lazımlı rol oynayırlar və həqiqətən istənilən sahəyə qoyulan bu yatırımlar məşhur iqtisadçı J.M.Keynsin fikrinə görə, cəmiyyətin maddi rifah səviyyəsində əks olunan ÜDM-in artımında əsas mənbə kimi çıxış edir. İngilis ədəbiyyatında investisiya sözü gələcəkdə böyük həcmdə gözlənti verəcək ehtiyatların bu gün xərclənməsidir. İqtisadi elmdə real aktiv deyilən bir anlayış da var ki, buna da maddi rifah halının istehsalı üçün cəmiyyətin istifadə etdiyi binalar, avadanlıqlar, xammal və materiallar, patentlər və eləcə də məhsullar aiddir. Bir də maliyyə aktivləri var, o da bank depozitləri, pul vəsaitləri, çeklər, qiymətli kağızlardır. Bu maliyyə aktivləri investorlara gələcək fəaliyyətləri üçün böyük imkanlar yaradır. Məsələn, eyni zamanda bir neçe şirkətin bir hissəsinə sahib olmaq kimi. Bunu da inamla demək lazımdır ki, maliyyə aktivləri ilə əməliyyatlar aparılması zamanı risk çox böyükdür. Opsion adlanan qiymətli kağız bir istehsal instrumenti sayılır, öz sahibinə müəyyən zaman kəsiyində təyin olunmuş qiymətə hər hansı aktivin alış və ya satışı hüququnu verir.Bu zaman opsionu satan opsionun müqavilə şərtlərində göstərilmiş aktivlərlə əməliyyatlar həyata keçirilməsinə zəmanət verən öhdəlik götürür. Opsionlar başqa qiymətli kağızlar kimi baza aktivinə malikdirlər. Müasir dövrdə opsionların əksər hissəsi indeks qiymətli, aksiya və ya fyuçer kontraktlı baza aktivinə malikdirlər.Opsionları satanlar da, alanlar da müəyyən strategiyanı gözləməklə əməliyyatlar həyata keçirirlər, bunlar da kifayət qədər riskləri aşağı salır. Bu tədqiqatda opsionu alan tərəf, satan tərəf vəziyyətindən optimal portfeli yaratmağa imkan verən müxtəlif strateji çətinlikli opsionlardan istifadəyə baxılmışdır.

Opsionları qiymətləndirmək üçün üç situasiyaya baxılmışdır:

1. Gəlir gətirməyən aktivlər;
2. Cari dəyəri I - yə bərabər olan məlum gəlir gətirirsə;
3. Qeyri məlum gəlir gətirirsə.

Birinci halda fyuçer qiyməti $F_0 = S_0 * e^{rT}$-yə bərabərdir.

Burada $S_0$-baza indeksin spot qiyməti, r-risksiz faiz stavkasıdır, T-kontraktın yerinə yetirmə müddətidir. Əgər $F_0 > S_0 * e^{rT}$ olarsa, arbitraj əməliyyatı imkanı yaranır, bu zaman ya baza aktivini almaq ya da fyuçersi satmaq zərurəti yaranır. Əgər $F_0 < S_0 * e^{rT}$ olarsa, onda tərsinə hərəkət etmək lazımdır. Fyuçerlərin də bir vacib xassəsini qeyd edək ki, kontraktın bitmə müddəti yaxınlaşdıqda fyuçers qiyməti və spotun qiyməti bir birinə yaxınlaşır, espiramsiya momentində bir birinə bərabər olur.

Kontrakt alma qiyməti f=($F_0$-K) $* e^{-rT}$.Burada K-yerinə yetirilmə qiymətidir.

Satış qiyməti f=(K-$F_0$) $* e^{-rT}$

İkinci şərtdə fyuçers qiyməti $F_0 = (S_0 - 1) * e^{rT}$, alışda kontrakt (sövdələşmə) qiyməti $f_0 = (F_0 - K) * e^{-rT}$ olur.

Nəhayət üçüncü şərtdə $F_0 = S_0 * e^{(r-q)T}$,burada

$f = S_0 * e^{-qT} - K * e^{-rT}$-dir.

Fyuçersin qiymətləndirilməsi üçün istifadə olunan bu parametrlər arasında ən subyektiv və vacibi risksiz stavkadır. Onun düzgün nümayiş etdirilməsi bu və ya digər portfelin gəlirini müəyyən edir. Eləcə də adekvat olaraq çox vacib məsələ onunla bağlı fyuçers kontraktı və baza aktivlərinin gələcək qiymətlərini proqnozlaşdırmaqdır.

Opsionların qiymətləndirmə metodlarından binomial ağacın qurulması ən geniş yayılmış metoddur. Bu metod Blek-Şouls-Merton modelindən üstün olan amerikan opsionlarının qiymətləndirməsinə imkan verir. Metodun özü aksiyanın qiymətinin təsadüfi gəzintilər prinsipinə tabe olduğu təklifinə əsaslanıbdır. Sonsuz kiçik zaman anında isə loqnormal paylanmaya tabe olur.Başlanğıc üçün birpilləli binomial modelə baxaq. Qeyd edək ki, bu model fond opsionlarında çox yayılmış modeldir. Tutaq ki, $S_0$- aksiyanın cari qiyməti, f- fond opsionunun cari dəyəridir. T- opsionun təsir müddətidir, bu zaman anında aksiyanın qiyməti $S_0$ səviyyəsinə qədər qalxa bilər və ya $S_0$d-yə qədər enə bilər(nə vaxt ki, n>1 d<1000).Əgər aksiyanın qiyməti verilmiş qiymətə kimi artırsa, onda opsionlar gəlir gətirir, əgər o azalırsa, $f_u$ gəlir $f_d$ bərabər olur. Hər hansı aktivlər portfelinə baxaq ,bu portfel Δ aksiyasına görə uzun pozisiyadan və bir opsiona görə qısa pozisiyalardan ibarətdir. Əvvəlcə qeyd edək ki, opsion satan investor qiymətlərin "onun tərəfinə" getmədiyi şərtində sonsuz itki riskini məhdudlaşdıra bilir. Δ aksiyasının elə miqdarını tapmaq zəruridir ki,bu zaman portfel riskdən azad olsun.

Qeyd etmək çətin deyil ki, opsionun espiramsiya momentində portfelin dəyəri $S_0 u\Delta$ - $f_u$ bərabərdi(əgər aksiyanın qiyməti artan halda ), $S_0 d\Delta$ - $f_d$ əks halda. Bu ifadələri bərabərləşdirsək alarıq: $S_0 d\Delta$ -$f_u$ = $S_0 d\Delta$ -$f_d$ →

$S_0 u\Delta$ -$S_0 d\Delta$ =$f_u$- $f_d$ → $\Delta = \frac{f_u - f_d}{S_0 u - S_0 d}$

Portfelin riskdən azad olması üçün aksiyaların sayını uzun pozisiyada belə saxlamaq lazımdır. Δ kəmiyyəti hedcinq zamanı geniş istifadə olunur və portfellərin idarə olunmasında vacib rol oynayır və "yunan" əmsallarından sayılır.

İndi risksiz faiz stavkasını r ilə işarə edək, onda portfelin qiyməti

$(S_0 u\Delta - f_u)e^{-rT}$-yə bərabər olacaq, portfelin yaranma qiyməti

$S_0\Delta - f$-ə bərabər olacaqdır. Bu ifadələri bərabərləşdirsək alarıq:

$(S_0 u\Delta - f_u)e^{-rT} = S_0\Delta - f$ →

f=-$(S_0 u\Delta - f_u)e^{-rT}$+$S_0\Delta$ →

f=$S_0\Delta - S_0 u\Delta e^{-rT}$+$f_u\, e^{-rT}$ →

f=$S_0\Delta(1 - ue^{-rT}) + f_u\, e^{-rT}$

Alırıq, f= $e^{-rT}$(p$f_u$+(1-p)$f_d$) harda ki, p=$\frac{e^{rT} - d}{u - d}$

Beləliklə, biz mərhələli binomial model üçün opsionun qiymətləndirilməsi düsturunu alırıq.

Eyni zamanda çox zəruri olan məsələləri qeyd edək: Bu düstur investisiyanın neytral risk tənliyindən alınır. Deməli, artan riskin konpensasiyası üçün gözlənilən gəlir artımı tələb olunmur. P kəmiyyəti neytral risk şərtində aksiyanın qiymət artımının ehtimalı sayılır.

İnsanın riskə münasibəti opsionun qiymətinə təsir etmir. Baza aktivinin qiymətinin dəyişməsi zamanı opsionun və aksiyanın qiymətlərini əlaqələndirən kəmiyyətlər sabit qalır.

## GƏNCLƏŞƏN VƏ MÜASİRLƏŞƏN LDU VƏ GƏNCLƏR PAYTAXTI LƏNKƏRAN ŞƏHƏRİ

**Fərid Xankişiyev**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**ferid_khan@gmail.com**

**Açar sözlər:** müasirləşmə, gənclər, inkişaf, fəaliyyət istiqamətləri

Bildiyimiz kimi Lənkəran şəhəri 2024-cü ildə "Gənclər şəhəri" seçilmişdir. Düşünürəm ki, bu təsadüfi bir hal deyildir, illərdir gənclərin inkişafı üçün həyata keçirilən silsilə tədbirlərin nəticəsidir. Belə ki, hər il Lənkəran şəhərində gənclərin sağlam düşüncəli, milli, vətənpərvər ruhda böyümələri üçün regional səviyyədə tədbirlər həyata keçirilir.

Müasir dövrdə gənclərin hərtərəfli inkişafı üçün bir neçə istiqamətdə tədbirlərin reallaşdırılmasına ehtiyac vardır. Bu istiqamətlərə aiddir:

- gənclərin fiziki sağlamlığı ön planda tutan müxtəlif idman tədbirləri ;
- gənclərə milli, mənəvi dəyərlərin aşılanması məqsədi ilə həyata keçirilən mədəni kütləvi tədbirlər ;
- gənclərin asudə vaxtlarını yaxşı keçirmələri üçün əyləncəli və öyrəncəli tədbirlər;
- gənclərin sosiallaşması, dünyagörüşlərinin zənginləşdirilməsi məqsədi ilə təşkil edilən yaradıcılıq tədbirlər ;

Mən sadəcə son 2-3 ay ərzində Lənkəran şəhəri ərazisində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi tərəfindən gənclər üçün təşkil edilən bəzi tədbirlər barədə məlumat vermək istərdim :

- Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş boks idman növü üzrə Lənkəran Uşaq-Gənclər İdman Məktəbinin birinciliyi ;
- Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş stolüstü idman növləri üzrə yarışlar ;
- Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar "Əbədiyyətin ilk əsri" filmi nümayişi ;
- Gənclər Paytaxtının gəncləri üçün "Gənc səyahətçi" layihəsi çərçivəsində "Tarixin izi ilə" adlı maarifləndirici turun təşkili ;
- "Sərhəd" hərbi-idman oyunlarının final mərhələsi və s. ;

LDU-nun müasirləşmə və gənclərin keyfiyyətli təhsil almaları məqsədi ilə həyata keçirdiyi tədbirlərdən bəziləri kimi, yeni tikilən tədris korpusları, maddi - texniki təchizat ilə təminat, yerli və xarici ölkə universitetləri ilə əməkdaşlıq, müəllim və işçi heyətinin beynəlxalq mübadilə proqramlarında iştirakı, yeni imtahan və kollokvium keçirilməsi metodlarının tətbiqi, regionun müxtəlif özəl və dövlət müəssisələrində təcrübə keçmə imkanı, gənc kadrların işə cəlb olunması və onların inkişafı məqsədi ilə təlimlərin təşkilini qeyd edə

bilərik. Bu qeyd edilənlər sayəsindədir ki, bu gün LDU-nun tələbə potensialı 6000 nəfərə bərabərdir, yaxın gələcəkdə hədəflənən rəqəmlər isə 10000 tələbədir.

Biz, LDU olaraq gənclərin sadəcə ali təhsilli, ixtisaslı kadr olaraq formalaşması ilə kifayətlənmir, onların karyera qurma imkanlarının genişləndirilməsi məqsədi ilə hər il regionun önəmli müəssisələrinin iştirak etdiyi karyera sərgiləri təşkil edirik. Bunun da, məntiqi nəticəsidir ki, regionda olan demək olar ki, bütün dövlət və özəl müəssisələrdə LDU-nun tələbələri çalışmaqdadır. Bu da həm regionun, həm də LDU-nun uğuru hesab edilməlidir.

Müasir dövrümüzün gəncləri innovativ, kreativ və intellektual təhsil prosesinin təşkilində maraqlıdılar. Bu baxımdan da, dərslərin müasir təhsil standartlarına uyğun tədris metodikaları ilə təşkil edilməsi LDU-nun əsas proritetlərindəndir. Bu hədəflərin reallaşdırılması baxımından da gənc kadrların istər idarə, istərsə də icra heyətinə cəlb edilməsi prosesi uğurla həyata keçirilməkdədir. Təsadüfi deyildir ki, son dövrlərdə LDU-nun gənc müəllimlərinin, baş müəllimlərinin, fəlsəfə doktorlarının və dosentlərinin sayı artmaqdadır. Eləcə də, idarə heyətində müxtəlif şöbələrdə çalışan gənc kadrlarımız da fəaliyyətin effektivliyin yüksəldilməsində önəmli pay sahibləri hesab edilməlidir.

Lənkəran şəhərində keçirilən yuxarıda qeyd edilən tədbirlərdə əsas hərəkverici qüvvə LDU tələbələri olmağına baxmayaraq,bizim universitet öz illik fəaliyyət planına uyğun olaraq hər il gənclərlə iş çərçivəsində silsiləvi tədbirlər həyata keçirmişdir. Belə ki, müxtəlif intellektual və idman oyunlarının, tamaşaların təşkili, bayram şənlikləri, ən əsası isə gənclərin tədqiqata marağının artırılması məqsədi ilə konfransların, onların sağlam və vətənpərvər ruhda böyüməsi üçün seminarların həyata keçirilməsi gəncləşmə siyasətimizin nümunələrindən hesab edilməlidir. Bunlarla yanaşı, milli mədəni dəyərlərimiz gənclər arasında daha çox təbliğ edilməsi məqsədi ilə mütəmadi olaraq Lənkəran Dram Teatrında tamaşalara tələbə, müəllim və rəhbər heyətin getməsi, dəyərli şəxslərin ildönümlərinin keçirilməsi, tələbələrin sosial problemlərini ön planda tutan müxtəlif seminarların təşkili də universitetimiz gənclərə yönəlik həyata keçirdiyi tədbirlər sırasındadır.

Belə tədbirlərə nümunə kimi ötən ay Lənkəran Dövlət Universiteti və Lənkəran-Astara Regional Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə təşkil edilən "Yaşıl" iqtisadiyyat və davamlı inkişaf" mövzusunda elmi-praktiki konfransı və bu ay Lənkəran Dövlət Universitetində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lənkəran Rayon Şöbəsi və LDU nəzdində Sosial və Aqrar-Texnoloji Kolleclə birgə "Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi və zərərli vərdişlərin fəsadları" mövzusunda həyata keçirdiyi maarifləndirici seminarı misal göstərə bilərik.

Gənclik hər bir ölkənin gələcəyinin təməlidir. Gəncliyin yüksək intellektual biliyə, sağlam ruha malik olması, mənəvi və milli dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsi dövlətimizin milli prioritet istiqamətlərindən sayılır. LDU-nun bu günə qədər həyata keçirdiyi gəncləşmə və müasirləşmə strategiyası sabah üçün təməl rolunu oynamaqdadır. Bizim bu günə qədər etdiklərimiz, edəcəklərimiz sadəcə bir hissəsidir.

Lənkəran şəhəri və Lənkəran Dövlət Universiteti bundan sonra da gəncləşmə və müasirləşmə siyasətinə uyğun olaraq regionun gənclərinin vətənpərvər ruhda, milli mənəvi dəyərlərə sadiq formada yetişmələri üçün kütləvi tədbirlər həyata keçirəcəkdir.

# LƏNKƏRAN BÖLGƏSİ ŞƏRAİTİNDƏ ÇAY BİTKİSİ SORTLARININ TOXUMLA ARTIRILMASI QAYDALARI

**Fərman Abdullayev**
**dosent**
**Ərşad Babayev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**farman-a@mail.ru**
**ershadbabayev99@gmail.com**

**Açar sözlər:** ləpər, qutucuq, transey, effektivlik, dezinfeksiya, qıjıkimilər

Toxumların yığılması və səpinə hazırlanması. Çay toxumları 1,5-2 il müddətinə yetişirlər. Partlamış qutular və yerə tökülmüş yetişmiş toxumları tezliklə yerdən yığmaq lazımdır. Belə ki, onlar Günəş şüası, yağış və küləyin təsiri altında cücərmələrini tezliklə itirirlər.

Toxumların ən yaxşı yığım üsulları kollardan bir neçə dəfəyə yığmaqdır. Birinci dəfədə yığılmışlar, ümumi kütləyə və yetişmələrinə görə yüksək olur.

Hər təsərrüfat və hər sahədən ötrü toxum yığımı vaxtı ayrıca təyin edilir. Belə ki, toxumların yetişməsi toxumluq sahənin yerləşdiyi vəziyyətindən, torpaq şəraitindən, işıqlanma dərəcəsindən, bitkinin sortundan və s. aslı olur. Toxumlar ən tez quru, yaxşı işıqlanan cənub yamaclarında, gec-şimal yamaclarda və çökəkliklərdə yetişirlər.

Yetişmə dövründə ilk növbədə bütün inkişaf etməmiş və boş toxum qutucuqları tökürlər. Toxumlar yığımdan qabaq bu kimi deffektli toxumlar ayrıca yığılır, sahədən kənarlaşdırılır və tələf edilir. Bundan sonra səpiləcək toxumların yığımına başlayırlar. Toxum yığımı eyni zamanda həm kollardan ,həm də yerdən (koldan seçmə yolu ilə toxum qutularının yetişmə əlamətlərinə görə) həyata keçirilir. Yığıma hazır olan toxum qutuları tam yetişdikdə quruyur və çatlayırlar. Yetişmiş toxum tünd-qəhvəyi qabığa, yaxşı inkişaf etmiş toxum ləpərinə malik olur. Yetişməmiş çay toxumlarının qabığı qırmızımtıl və toxum ləpələri inkişaf etməmiş olur.

Çin çay növmüxtəliflikləri toxum qutuları antosian rəngli ən tez yetişən olurlar. Növ-müxtəlifləri içərisində ən tez yetişən kol nazik qabıqlı meyvələr olur.

Toxum yığımı qutucuqlar partlamaya başlayan dövrdən keçirilməlidir.Yığılmış qutucuqlar qurutma yerinə göndərilir, bu proses zamanı onların yetişməsi və çartlaması baş verir.

Ən yaxşı qurutma-Günəşdir (otaqda da qurutmaq olar), Günəş altında qurutmaq üçün 1-2 gün bəs edir ki, qutucuqlar kütləvi çat verirlər. Quruma başa çatdıqdan sonra toxumları bir yerə yıgıb və onları təmizləməyə göndərirlər.

Qurutma yaxşı keçibsə, təmizləmək işi çox zəhmət tələb etmir, belə ki, toxumların əsas hissəsi qutulardan özləri ayrılırlar. Toxumların orta çıxım, yəni təmiz toxumların qutucuqlarda olan toxumlara nisbəti, adətən 50% təşkil edir.

Təmizlənmiş toxumlar 12 mm diametrində olan ələklərdən keçirilir (standarta görə toxumların diametri 12 mm–dən az olmamalıdır). Kiçik diametrli toxumlar çıxdaş edilir. Toxumlar ələkdən keçirildikcə onlar sortlaşdırılır, bütün tam keyfiyyətli olmayanlar, qüsurlu nümunələri ayırırlar: olduqca yetişməmiş (rəngi acıq qutular, yetişmiş toxum üçün tipik olmayan tutqun-qəhvəyi rəngli), boş və yetişkənliyi başa çatmamış: əzilmiş toxumlar və qalmış qabıqlar təcrid olunur. Bu kimi qatışıqla toxumlar saxlanılan vaxtı müxtəlif kif və çürüntülərin mənbəyi ola bilər. Ələklər sirkələnən vaxtı qabıq parçaları səthə yığılır və asan

ayırmaq olur. Qatışıq 1-3 %-ə çata bilər. Təmizlənmiş və ələkdən keçirilmiş toxumları azca havalandırıb, saxlanmaq üçün göndərilir.

Çay toxumları müəyyən dövrdə yığımdan sonrakı yetişkənliyə ehtiyacı var, bu prosses yalnız müəyyən bir şəraitdə keçir. Çay toxumlarının saxlanmasının müxtəlif üsulları mövcuddur.

*Transeylərdə saxlanılması.* Bu üsul yaxşı sayılır, belə ki yığımdan sonrakı yetişkənlik üçün bütün şərait yaranmış olur: istilik, optimal rütubətlilik və havanın çatdırılması. Tədricən şişərək, onlar cücərməyə hazırlaşırlar. Səpin vaxtına qədər onların cücərməsi 95-98%-ə çatır. Bu üsulla toxumlar yaz səpinindən ötrüdür.

Transeylərdə (xəndəklərdə) saxlanma çox sadədir. Azca kölgələnmiş sahədə şimal-qərbdə yamacda, izafı rütubətdən yaxşı qorunmuş yerdən 25 sm dərinliyi və 1 m enində xəndəklər qazılır. Xəndəyin uzunluğu istənildiyi kimidir (10 m) və bu vaxt toxumun miqdarından aslıdır.

Yeşiklərdə saxlanılması. Toxumlar binaların içərisində temperaturu 2-10 °C hüdudunda saxlanılır. Bu üsulun effektivliyi nisbətən aşağıdır, adətən bir aydan sonra toxumların cücərməsi aşağı düşməyə başlayır. Bu üsulla saxlanılma toxumlar səpin zamanı sortlaşmadan sonra və ya nəql olunma zamanı tətbiq olunur. Xəndəklərin divarları həsirlə örtülür, dibi isə tapdanıb bərkidilir. Saxlanma yeri 1 % formulun məhlulu ilə dezinfeksiya olunur. Quruyub və havalandıqdan sonra xəndəklərə 20 sm qalınlıqda toxum tökülür və üzəri 10 sm qalınlığında qıjıkimilərlə örtülür. Qıjıkiminin üzərinə torpaq tökülə-tökülə tapdanır ki, yağış suları üzərindən yaxşı axsın və içəriyə daxil olmasın. Bu məqsədlə xəndəklərin arasından 30-40 sm strativikasyani əvəz edir.

*Qumda saxlanma.* Toxumlar xırda və təmiz qum qarışığında saxlanılır. O rütubətliyi daimi olaraq –torpağın tam su tutumunun 40-50%, saxlanılan yerin temperaturu isə 15-20 % olmalıdır.

Səpin materialına məsul olan mütəxəssis, toxumların vəziyyətini daimi nəzarətdə saxlamalı və saxlanma şəraitinin yaxşılaşdırılması üçün vaxtında tədbir görülməlidir. Toxumların yığımı dövründə onların tərkibində 50%-ə qədər su olur. Saxlanmaya qoyulan zaman onlar qurudularaq suyu 35% (çay toxumunda suyun miqdarı 22%-dən aşağı olmamalıdır) endirilir. Rütubətlilik 15%-ə çatarsa, çay toxumları səpinə az yararlı sayılır. Bu halda onları təzə su ilə isladıb, suyu tez-tez dəyişirlər. İsladılma zamanı toxumların suyun səthinə çıxması və islatma zamanı dibə çökməməsi onların cücərmə qabiliyyətlərini itirmiş olur və tullanırlar.

Təcrübə gösrərir ki, çay toxumları, müəyyən saxlanma şəraitində bir ilə kimi saxlamaq olur. Lakin bu zaman toxumların cücərməsi və boyatma enerjisi aşağı düşmüş olur və onlardan əmələ gələn tumsarlar isə tez yığılmış yeni məhsula nisbətən boyatmaları zəif olur.

# LƏNKƏRAN-ASTARA BÖLGƏSİNİN SOĞANAQLI TƏRƏVƏZ BİTKİ SORT VƏ HİBRİDLƏRİNİN İNNOVATİV İNKİŞAF PERSPEKTİVLƏRİ

**Həzər Hüseynov**
**dosent**
**Azər Calalov**
**baş müəllim**
**Məhəmmədhənifə Nəhmətov**
**magistrant**
**Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Lənkəran Təcrübə Stansiyası**
**Lənkəran Dövlət Universiteti**
**lankaranbts@mail.ru**
**acalalov@list.ru**
**nahmatovmaqa@gmail.com**

**Açar sözlər**: Baş soğan, valensiya sortu, intensiv sporulyasiya, sarımsaq

Soğanaqlı tərəvəz bitkilərinin insanların qidalanmasında çox böyük əhəmiyyəti vardır. Soğan və sarımsağın tərkibində insan orqanizmi və sağlamlığı üçün A, B, C, E, PP və sair vitaminlər vardır. Ədəbiyyat mənbələrinə görə soğanda 200, sarımsaqda isə 1500-ə qədər xəstəliklərin müalicəsində istifadə olunur.

Baş soğanın tərkibində 6-12 %-ə qədər şəkər, 3-16 %-ə qədər quru maddə, 0.6-14 % zülal, 0.015-0.65 % fitonsidlər, 0.1-0.5 % efir yağları habelə vitaminlər və sair maddələr vardır.

Sarımsaq bitkisinin sortundan aslı olaraq onun tərkibində 27-42 % quru maddələr, 6.7-7.9 % zülal, 0.7-0.8 % sellüloza, 0.1-0.3 % efir yağları, C,A,B,PP,E vitaminləri və başqa qiymətli maddələr vardır.

Sarımsaqdakı soğanaqlar digər soğanaqlı bitkilərdən fərqli olaraq gövdəyə bitişmiş və ayrı-ayrı dişlərin birləşməsindən əmələ gəlmişdir. Dişlərin sayı əksər hallarda 10-16 ədəd, bəzən isə 30-50-yə qədər ola bilər.

Lənkəran-Astara bölgəsinin əlverişli torpaq-iqlim şəraiti soğanaqlı bitkilərin becərilməsində mühüm rol oynayır. Ona görə də bu bitkilərin yerli və seleksiya sortlarının əkini ildən-ilə artırılır.

Tədqiqat işində Soğan sortlarından Yerli Masallı, Sabir və seleksiya sortlarından Bayram-1, Metan, Kosta, Burqar Azəri, Yaxşılaşdırılmış Yerli Hövsan, Beta Panko, Mor soğan, Valensiya, Balkan, Texas Qrand və s, Sarımsağın yerli Cəlilabad və müsabiqəli sortlarından № 1, № 91, № 23, № 25, № 90, № 92, yerli şəraitə uyğunlaşmış çoxaltma məqsədi üçün becərilən № 16 və № 93 saylı sortnümunələrindən istifadə edilir.

Lənkəran Təcrübə Stansiyasında tədqiqat illərində soğan və sarımsağın sortnümunələrinin xəstəlik və zərərvericilərə qarşı davamlılığı öyrənilmişdir.İqlim şəraitindən asılı olaraq yalançı unlu şeh (peronosporoz), pas, fizarioz və sair xəstəliklərin inkişaf intensivliyi hər şeydən əvvəl meteoroloji şəraitdən asılıdır. Bölgədə rütubətli hava səbəbindən səhər saatlarında bitkilərin yoluxması daha sürətlə gedir. Çünki bu zaman göbələyin intensiv sporulyasiyası baş verir.

Soğan və sarımsağın kök sisteminin torpağın üst qatında yerləşməsini nəzərə alaraq, onu vegetasiya dövründə bir neçə dəfə qida maddələri ilə təmin etmək lazımdır. Torpağın münbitliyindən və mexaniki tərkibindən aslı olaraq 20-30 ton üzvi gübrə (peyin), 120 kq azot, 90 kq fosfor, 60 kq kalium 3 dəfə əlavə yemləmə şəklində verilməlidir.

Soğanaqlı tərəvəz bitkiləri növbəli əkinçilik sistemində ən yaxşı sələf kələm, göyərti, bostan bitkiləri və paxlalılar məsləhət görülür. Əkin kifayət qədər rütubətlik və münbit torpaqları sevir. Əkin üçün ən yaxşı torpaqlar yüngül, gilli, qara və çəmən torpaqlar sayılır.

Lənkəran Təcrübə Stansiyasında apardığımız elmi-tədqiqat işləri nəticəsində müəyyən olunmuşdur ki, sortları bütöv soğanaqla, dişlə, yarımdişlədə çoxaltmaq olar.
Soğan bitkisinin öyrənilən sortnümunələrində vegetasiya davamiyyəti nəzarət Sabir sortu ilə müqayisədə digər sortlarda əsasən daha uzun müddətli olmuşdur. Nəzarət Sabir sortunda əkindən texniki yetişkənliyə 150 gün vaxt sərf olunduğu halda, digər sortlarda 147-157 gün vaxt keçmişdir.
Soğanın sortnümunələrində məhsuldarlıq nəzarət Sabir sortu ilə müqayisəli öyrənilmişdir. Nəzarət Sabir sortunda məhsuldarlıq 186 s/ha olduğu halda, digər sortnümunələrdə 172-252 s/ha olmuşdur.Ən yüksək məhsuldarlıq Valensiyada 252 s/ha və Burqar Azəridə 210 s/ha , Balkan da 229 s/ha olmuşdur.

Məhsul artımı bu sortlarda nəzarət Sabir sortuna nisbətən 5-34 %-ə qədər olmuşdur. Soğanın çəkisi 60-94 qram arasında olmuşdur.

Tədqiqat ilində sarımsağın sortnümunələrində vegetasiya davamiyyəti Cəlilabad sortu ilə müqayisəli öyrənilmişdir. Belə ki, əkindən texniki yetişməyə qədər Cəlilabad sortunda 239 gün olduğu halda, № 1-də 252 gün, № 2-də 260 gün sərf olunmuşdur.

Sarımsağın sortnümunələrində məhsuldarlıq 121-192 s/ha arasında olmuşdur.Ən yüksək məhsuldarlıq № 2-də 192 s/ha, № 93-də 153 s/ha arasında olmuşdur.

Soğanağın çəkisi 26-65 qram arasında, soğanaqda olan dişlərin sayı 1-13 ədəd, soğanaqda olan bir dişin çəkisi 3,4-5,4 qram arasında olmuşdur.

Apardığımız müşahidələrdən belə nəticəyə gəlmək olar ki, soğanın Metan,Valensia, Balkan sortnümunələri, sarımsağın Cəlilabad, №2, №16, № 93, № 92 sortnümunələri xəstəlik və zərərvericilərə qarşı davamlı, yüksək məhsuldar sortlar olduğunu nəzərə alaraq bu sortların bölgə təsərrüfatlarında, faraş tərəvəzçilikdə geniş tətbiq olunması məqsədəuyğundur.

## LƏNKƏRAN ASTARA BÖLGƏSİNDƏ POMIDORUN YÜKSƏK MƏHSULDAR, KEYFİYYƏTLİ YENİ SORT VƏ HETEROZİS EFFEKTLİ HİBRİDLƏRİNİN YARADILMASI (2024-CÜ IL)

**Həzər Hüseynov**
**dosent**
**Sevnaz Mahmudova**
**böyük elmi işçi**
**Minarə Sucayeva**
**elmi işçi**
**Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Lənkəran Təcrübə Stansiyası**
**lankaranbts@mail.ru**
**sevnazmahmudova818@gmail.com**
**elnaraibisova12@gmail.com**

**Açar sözlər:** pomidor, əmtəəlik məhsul, zərrabi sortu

Pomidor bitkisi ölkəmizdə özünün əkin sahəsinə və istehsal həcminə görə həmişə aparıcı yeri tutmuş və tutmaqdadır. Pomidorun tərkibində çox əhəmiyyətli qida məhsulları,

mineral duzlar, vitaminlər vardır. Meyvəsinin tərkibində orta hesabla quru maddə 6-7 %, zülal 0.8-1 %, mineral maddələr 0.5-0.6 %, şəkər 4.0-5.0 %, sellüloza 0.8-0.9 %, vitamin “C” 25-27 mq %, A, B1, B2, PP vitaminləri vardır. Pomidorun tərkibində olan bütün qiymətli maddələr insan orqanizminin normal inkişafı və onun əmək qabiliyyətinin saxlanması üçün vacibdir. Odur ki, hər bir insan gün ərzində 300-400 q pomidor yeməlidir.

Lənkəran-Astara bölgəsinin torpaq-iqlim şəraitində pomidorun ortayetişən sortların əkilməsi məqsədə müvafiqdir.

Lənkəran Təcrübə Stansiyasında pomidor bitkisinin ortayetişən Elm, Nuru, Xəzər, Zərrabi, Şəkər, Leyla sortları yerli şəraitə uyğunlaşmış və çoxaltmaq üçün № 588, № 127, A-75 və X-142 sortnümunələrindən istifadə edilir.

Pomidor bitkisi üçün ən yaxşı sələf bitkiləri xiyar, bostan bitkiləri, soğan, kələm, paxlalılar hesab edilir. Bu bitki üçün mexaniki tərkibcə yüngül, qumsal torpaqlar daha əlverişlidir.

Pomidor bitkisi mineral qidalanmaya çox tələbkardır. Əsas gübrələmə şumqabağı torpağın hər hektarına 20 ton peyin, fosfor və kalium gübrələrinin 50 %-ni şum altına, 20 %-ni şitil torpağa əkiləndən 12-15 gün sonra, qalan 30 %-i isə ilk meyvə əmələ gələn vaxt verilir.

Azot gübrəsinin 30 %-i yazda 2-ci şum altına, 40-45 %-i şitil torpağa əkiləndən 12-15 gün sonra, qalan 25-30 %- i isə ilk meyvə əmələ gələn dövrdə verildikdə yaxşı nəticə verir.

Lənkəran Təcrübə Stansiyasında şitillər əsasən polietilen örtüklü istixanalarda 35-40 gün ərzində becərilir.İqlim şəraitindən aslı olaraq əkin sahəsi üçün hazır olan şitillər aprel ayının son 10 gün müddətində açıq sahədə 70x35 sm sxemi üzrə əkilir. Bitkiyə qulluq işləri əsasən cərgə və bitki aralarının becərilməsi, alaqların vurulması, suvarılması, xəstəlik və zərərvericilərə qarşı mübarizədən ibarətdir.

Lənkəran Təcrübə Stansiyasında pomidorun geniş yayılmış fitoftoroza, makrosporioz, meyvələrdə təpə çürüməsi xəstəliklərinə və zərərvericilərdən isə pambıq sovkası, mənənə, karadrina və s. əsas zərərvericilərinə qarşı davamlılığı öyrənilmişdir. Xəstəliklərə qarşı mübarizədə müasir tələb olunan funqisidlərdən istifadə olunur.

Vegetasiya müddətində ən azı 2-3 dəfə cərgə araları və bitkilərinin torpaqları yumuşaldıb, bitkilərin dibi doldurulmalıdır. Dibdoldurma nəticəsində bitkidə əlavə kök sistemi yaranır, qidalanma güclənir, bitkinin yerə yatması azalır. Alaq otları ilə mübarizə 2 dəfə yerinə yetirilir. Alaq otları ilə mübarizə xəstəlik və zərərvericilərə qarşı profilaktiki mübarizə deməkdir. Bitkilərə normal qulluq edildikdə və sortun xüsusiyyətindən aslı olaraq cücərmədən 120-130 gün sonra məhsul yetişməyə başlayır.

Pomidor sortlarının məhsuldarlığının əsas göstəricilərini bir bitkidən və ya bir hektardan alınmış ümumi məhsulun və onun tərkibində əsas standart məhsulun miqdarı ilə təyin edilir. Bitkilərdə məhsuldarlığı formalaşdıran əsas göstəricilərdən biri çiçəklərin meyvəbağlama qabiliyyəti, bir meyvənin kütləsi, bitki üzərində əmələ gəlmiş meyvələrin ümumi sayı ilə bağlıdır.

Sortlar və sortnümunələr üzrə bir bitkidən əmtəəlik məhsulun çıxımı 0.7-1.6 kq arasında dəyişmişdir. Yüksək əmtəəlik məhsul çıxımına (1.2-1.6 kq) görə № 588, A-75 sortnümunələri təşkil etmişdir. Tezyetişən № 588, A-75, X-142 saylı sortnümunələri əmtəəlik məhsul çıxımı bir bitkidən 0.7-1.1 kq arasında dəyişmişdir. Əmtəəlik məhsul çıxımının illər üzrə variasiya həddi 40.0-54.0 % arasında dəyişmişdir.

# FEYXOAALTI PODZOLLU-QLEYLI-SARI TORPAQLARINA QROKİMYƏVİ SƏCİYYƏSİ

**Xalıqverdi Babayev**
**dosent**
**Elfariz Cəbrayıllı**
**magistrant**
**Lənkəran Dövlət Üniversiteti**
**babayev.xaliqverdi58@mail.ru**
**elfarizcebrayilli2@gmail.com**

**Açar sözlər:** feyxoa, aqrokimyəvi xassə, deqradasiya, münbitlik, məhsuldarlıq, keyfiyyət

Müasir əkinçilikdə başlıca məsələ torpaqlardan səmərəli istifadə etmək və əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatı ödəməkdir. Müasir dövrdə təbii və antropogen amillərin torpaq örtüyünə göstərdiyi təsirlər və bu səbəbdən torpağın aqrokimyəvi xassələrinin dəyişkənliyinin daim pisləşməsi və münbitliyin aşağı düşməsi, bununla əlaqədar onun bərpası və artırılması məsələsi mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edir. Tədqiq olunan ərazinin torpaqları, xüsusilə suvarılan podzollu-qleyli-sarı torpaqlar irriqasiya eroziyası, bərkimə və s. kimi deqradasiya proseslərinə məruz qalır. Göstərilən deqradasiyanın böyük əksəriyyəti antropogen faktorların təsiri altında daha da intensivləşir. Lənkəran -Astara bölgəsinin dağətəyi və düzənlik ərazilərində ağır texnikanın, gübrə və meliorantların tətbiqi, bu ərazilərdə torpaqların münbitlik göstəricilərini, o cümlədən struktur aqreqatlarını pisləşdirmiş, əkin və əkinaltı qatların kipləşməsini artıraraq onların eroziyaya qarşı davamlılığını azaltmış və nəticədə ovalıq ərazilərdə kənd təsərrüfatı bitkilərinin intensiv suvarılması bəzi yerlərdə qrunt sularının səthə qalxmasına və torpaqların aqrokimyəvi və digər xassələrinin pisləşməsinə səbəb olmuşdur. Tədqiqat obyekti olan feyxoaaltı podzollu-qleyli-sarı torpaqlarda uzun illərdir ki, gübrələrdən istifadənin minimuma enməsi bu torpaqların potensial və effektiv münbitliyini xeyli aşağı salmışdır.

Torpaqların potensial və effektiv münbitliyini nəzərə almadan kənd təsərrüfatında gübrələrin səmərəli tətbiqi mümkün deyildir. Bu baxımdan təcrübə aparılan feyxoaaltı podzollu-qleyli-sarı torpaqları şəraitində aqrokimyəvi xassələrinin öyrənilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə 2023-2024-cu illərdə Azərbaycan Meyvəçilik və Çayçılıq ETİ-nun Lənkəran Çay filialının Təcrübə Təsərrüfatında deqradasiyaya uğramamış və orta dərəcədə deqradasiyaya uğramış feyxoaaltı torpaqların aqrokimyəvi göstəricilərini yaxşılaşdırmaq və həmçinin, müxtəlif növ mineral və üzvi gübrələrin norma və nisbətlərindən səmərəli istifadə etmək üçün stasionar təcrübələr qoyulmuşdur. Götürülmüş torpaq nümunələrində qida elementlərinin ümumi və mənimsənilən formalarının miqdarı təyin edilmişdir. Torpağın aqrokimyəvi xüsusiyyətlərini öyrənmək üçün götürülmüş nümunələrdə feyxoaaltı deqqradasiyaya uğramamış torpaqlarda ümumi humusun miqdarı torpağın 1 m-lik qatında 1,76-2,88% arasında tərəddüd edir. Profil üzrə bu torpaqlarda potensial münbitliyə aid olan ümumi azot 0,11-0,16%, ümumi fosfor 0,13-0,17%, ümumi kalium 2,49-2,54% olmuşdur. 1 kq torpaqda suda həll olan ammonyak 9,08-14,8, udulmuş ammonyak 19,31-38,04, nitrat azotu 3,36-7,52, mütəhərrik fosfor 110,0- 176,0, mübadiləvi kalium 97,5-124,0 mq/kq arasında dəyişir.

Deqradasiya prosesi feyxoaaltı torpaqların aqrokimyəvi göstəricilərinə öz mənfi təsirini göstərməklə onların miqdarını azaltmışdır. Belə ki, deqradasiyaya uğramamış növə nisbətən orta dərəcədə yuyulmuş növün profil boyu (0-30; 30-60 sm qatlarda) humus 1,06-

0,92%, ümumi azot 0,04-0,03%, udulan ammonyak 11,8-2,47 mq/kq, suda həll olan ammonyak 4,76-4,63 mq/kq, nitrat 2,62-2,88 mq/kq, ümumi fosfor 0,01-0,01%, mütəhərrik fosfor 103,2-120,2 mq/kq, ümumi kalium 0,94-0,49%, mübadilə olunan kalium 27,3-20,7 mq/kq arasında azalmışdır.

Təcrübələrin aparıldığı podzollu-qleyli-sarı torpaqların aqrokimyəvi xassələri
(Feyxoaaltı torpaq)

| Dərinlik, sm | Humus,% | Ümumi azot, % | Azot | | | Fosfor | | Kalium | | PH-su məhlulunda | PH-duz |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Udulmuş $N/NH_3$ mq/kq | Suda həll olan $N/NH_3$ mq/kq | $N/NO_3$ mq/kq | Ümumi fosfor, % | Mütəərrik, mq/kq | Ümumi, % | Mübadilə olunan, mq/kq | | |
| 0-30 | 2,88 | 0,16 | 38,04 | 14,80 | 7,52 | 0,17 | 176,0 | 2,54 | 124,0 | 5,2 | 4,4 |
| 30-60 | 2,57 | 0,14 | 26,07 | 12,65 | 5,68 | 0,16 | 148,0 | 2,39 | 106,5 | 5,4 | 4,0 |
| 60-100 | 1,76 | 0,11 | 19,31 | 9,08 | 3,36 | 0,13 | 110,0 | 2,49 | 97,5 | 5,6 | 4,6 |
| orta dərəcədə deqradasiyaya uğramış | | | | | | | | | | | |
| 0-30 | 1,82 | 0,12 | 26,24 | 10,04 | 4,90 | 0,16 | 72,80 | 1,60 | 96,70 | 5,8 | 4,2 |
| 30-60 | 1,65 | 0,11 | 23,60 | 8,02 | 2,80 | 0,15 | 27,80 | 1,9 | 85,80 | 5,6 | 4,3 |
| 60-100 | 1,47 | 0,08 | 16,03 | 6,61 | 1,60 | 0,11 | 23,60 | 2,60 | 67,15 | 5,6 | 4,2 |

PH-ın kəmiyyəti də su məhlulunda 0,2-0,3 vahid, duz suspenziyasında isə 0,2-0,3 vahid azalmışdır. Yəni torpağın mühitinin turşuluqdan qələvi mühitə döğru dəyişildiyi müəyyən edilmişdir.

Cədvəldəki rəqəmlər göstərir ki, mənimsənilən qida maddələri feyxoaaltı suvarılan qleyli-sarı torpaqlarda, xüsusilə orta dərəcədə deqradasiyaya uğramış torpaqlarda yüksək məhsul əldə edilməsini təmin edə bilməz. Odur ki, bu torpaqlarda feyxoa sahələrinə üzvi gübrələrlə yanaşı azotlu, fosforlu və kaliumlu gübrələr verilməsinə ehtiyac vardır.

# LƏNKƏRANÇAY HÖVZƏSİNİN TORPAQ VƏ BİTKİ ÖRTÜYÜNƏ ANTROPOGEN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xalıqverdi Babayev**
**dosent**
**Gülşən Qurbanova**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**babayev.xaliqverdi58@mail.ru**
**gulshangurbanzade@gmail.com**

**Açar sözlər:** torpaq örtüyü, aqrofiziki xassə, qleyli-sarı, bitki örtüyü, deqradasiya, münbitlik.

Müasir dövrdə Lənkərançay hövzəsinin suvarılan qleyli-sarı torpaqlarda bitki və torpaq örtüyünə antropogen təsirinin artması, digər tərəfdən isə qlobal iqlim dəyişikliklərin baş verməsi fonunda torpaq və su ehtiyatların qorunması zərurətini ön plana çəkir. Məlum olduğu kimi, BMT Baş Assambleyası tərəfindən 12 may tarixi rəsmi olaraq Beynəlxalq Bitki Sağlamlığı Günü kimi qeyd edilir. Ölkəmizdə müxtəlif sahələrdə olduğu kimi, ekologiya sahəsində də geniş dövlət proqramları həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP 29-un 2024-cü ildə ölkəmizdə keçirilməsi ilə əlaqədar demişdir: “Azərbaycan sistemli olaraq iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür. Təmiz ətraf mühit və yaşıl inkişaf bizim milli prioritetlərimizdir. Azərbaycanda 2024-cü il Yaşıl dünya həmrəyliyi ili elan edilmişdir”. Bu strategiyanın əsas elementləri sırasına torpaq və bitki müxtəlifliyinin davamlı istifadəsi, onların mühafizəsi ən aktual problemlərdən biri hesab olunmalıdır.

Lənkəran-Astara bölgəsi Azərbaycan Respublikasının cənub-şərq hissəsində 38$^{o}$24′ - 39$^{o}$24′ şimal en dərəcəsi və 47$^{o}$58′ - 48$^{o}$58′ şərq uzunluğunda yerləşmişdir. Torpaq və bitki örtüyünün insanların çoxillik təsərrüfat fəaliyyətindən asılı olaraq torpaqların deqradasiyaya uğramasını öyrənmək məqsədilə Lənkəran çay filialı ərazisində (Xanbulan kəndi) və Mamusta bələdiyyə ərazilərinin suvarılan-qleyli- sarı torpaqlarında xarakter tədqiqat sahələri seçilmişdir. Landşaft tədqiqatları müxtəlif metodlarla (coğrafi, tarixi, sistemli və s.) aparılmışdır. Tədqiqat aparılan ərazi haqqında ətraflı məlumat almaq üçün tematik və iqlim xəritələrdən (kartoqrafik - statistik), biocoğrafi göstəricilərdən geniş istifadə edilmişdir. Tədqiqat işinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi üç mərhələ üzrə: hazırlıq, çöl və kameral aparılmışdır Birinci mərhələdə bu və ya digər göstəricilərin dəyişməsi faktı müəyyənləşdirilir, dəyişmələrin miqyası və sürəti təyin edilir. Ikinci mərhələdə müşahidə edilən dəyişkənliklərin səbəblərinin təhlili aparılmışdır. Bu onun ekoloji və iqtisadi nəticələrinin müəyyən edilməsi üçün vacibdir. Bu materialların təhlili landşaft komplekslərinin sərhədlərini başqa metodlarla müqayisədə daha dəqiq müəyyən etməyə, onların məkan daxilində yerləşmə qanunauyğunluğunu, komplekslərin tabeçilik qanunlarını və onların dinamikasını aydınlaşdırmağa imkan verir. Tədqiqat aparılan ərazidə subtropik , sitrus və çay bitkiləri becərilir. Ərazinin torpaqları əsasən qleyli-sarı olmaqla, qumsal-gilli, zəif turş reaksiya, profilin karbonatlı olmaması və münbit qatı qalın olan, qrunt suyu dərində yerləşməsi ilə fərqlənir. Bu cür göstəricilərə malik olan torpaqlar çay və digər subtropik bitkiləri yetişdirməyə imkan verir. Lakin, tədqiq olunan torpaqlar izafi nəmlik şəraitdə bir sıra mənfi xüsusiyyətlərə də malikdir. Belə xassələrdən biri 40-50 sm-dən 100-150 sm kimi dərinlikdə yayılmış “B” kipləşmiş qley qatının olmasıdır ki, bu qat əlverişsiz fiziki xassələrə

malikdir. Əlverişsiz su-hava rejimi, fiziki-mexaniki göstəriciləri ağır gilli və izafi rütubətlənməsi bitkilərin, əsasən çay bitkisinin normal inkişaf etməsinə mane olan əsas amillərdir. Buna görə də bitkiləri əkmək üçün qeyri-kafi göstəricilərə malik olan qleyli-sarı torpaqların su-fiziki xassələrini yaxşılaşdırmaq üçün onların su-fiziki xassələri ilə yanaşı aqrokimyəvi xüsusiyyətlərinin də müqayisəli öyrənilməsi ən vacib məsələlərdən biridir. Uzun müddətli və çox zaman düzgün olmayan becərmə ilə yanaşı qrunt sularının səthə yaxınlığı və qleyləşmə prosesinin inkişafı da bu torpaqların aqronomik dəyərini kəskin aşağı salır.Tədqiqat aparılan podzollu-qleyli-sarı torpaqlarda ilin mövsümləri üzrə erkən yazdan başlayaraq yay dövrünədək temperatur ardıcıl olaraq artır, payızda isə əksinə kəskin sürətdə azalır. Xüsusilə, fəsillərdən asılı olaraq şiddətli rütubətlənmə və yay dövründə isə torpağın şiddətli quruması özünün mənfi təsirini daha çox göstərməklə torpaqların ekoloji münbitlik parametrlərini kəskin şəkildə dəyişmişdir. Ona görə də qleyli-sarı torpaqların aqrokimyəvi və aqrofiziki problemləri sarı-podzollu torpaqlarla müqayisədə daha kəskindir**.**

Tədqiqat aparılan Lənkəran çay filialı (Xanbulan kəndi) dağ yamacı ərazisinin təbii yem sahələrində paxlalı bitkilər əksər hallarda gözə çarpsa da, bu ərazilərdə ikinci dərəcəli rol oynayır. Çünki, bunlar otluğun əsas kütləsini təşkil etmir. Otluğun başlıca kütləsini yem taxıl otları və müxtəlifotlular qrupuna mənsub olan bitkilər təşkil edir. Bunların inkişafına və məhsuldarlığına çox zaman başqa bitki qrupları, məsələn, çimli taxıllar və müxtəlifotlular mənfi təsir edir. Paxlalı bitkilərdən Hirkan paxladəni (Astragalus), qarayonca (Medicago), güldəfnə (Trigonella), çəmənyoncası və yaxud üçyarpaq (Trifolium) və xəşənbül (Melilotus) cinslərinə aid olan yayılmışdır. Lənkərançay hövzəsinin cənub yamacında aparılan tədqiqatlardan müəyyən edilmişdir ki, Lənkəranda, Astarada, Lerikdə meşələri sistemsiz qırılmış dağ yamaclarının bir hissəsində ot bitki qrupları inkişaf etmiş, digər hissəsi isə kənd təsərrüfatı bitkiləri altında istifadə edilmişdir. Mədəni bitkiləri altında istifadə olunan torpaqların eroziyaya qarşı tədbirlərə riayət etmədən becərilməsi də torpaqlarda münbitliyin azalmasına səbəb olmuşdur. Bunlar da meşələrdən fərqli olaraq zəif sutənzimləyici az torpaqqoruyucu və zəif iqlim əmələgətirici xüsusiyyətlərə malikdirlər. Aparılan müşahidələr və tədqiqatlar nəzarət edilən su-fiziki göstəricilərin kritik vəziyyətini müəyyən etməyə və mənfi proseslərin həlli üçün lazım olan ekoloji tədbirləri həyata keçirməyə imkan verəcəkdir. Bu məqsədlə, burada dövrü olaraq torpaq və bitki ehtiyatını, eroziya nəticəsində torpaq itkisini öyrənilməsi və aqromeliorativ tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur. Tədqiq olunan ərazinin gilli və gillicəli torpaqlarında su xeyli yavaş hərəkət edir, çünki onlarda tükvarı kapillyarlar çoxdur. Bu məqsədlə ərazidə tam drenaj şəbəkəsi (üfiqi və şaqulu drenaj) yaratmaqla torpaqda ifrat rütubətlənməni nizama salınmalı və torpaqda izafi suların axıdılması təmin edilməlidir. Xüsusilə, payız- qış aylarında yağan yağış sularının axıdılması, qleyləşmə və bataqlaşma halları tamamilə ləğv olunmalıdır. İlin quraq dövründə yağan yağış və suvarma sularının bərabər paylanması relyef şəraitindən asılı olduğundan, sahənin orta quruluşu elə seçilməli və düzəldilməlidir ki, yer səthinə düşən yağıntı və suvarma suları orada bərabər paylansın və bitkinin kök ətrafı torpaq hissəsi eyni dərəcədə rütubətə malik olsun.

# MÜXTƏLİF NORMADA VERİLMİŞ AZOT GÜBRƏSİNİN YAŞIL ÇAY YARPAĞININ MƏHSULDARLIĞINA VƏ KEYFİYYƏTİNƏ TƏSİRİ

**Xalıqverdi Babayev**
**dosent**
**İlhamə İbrahimova**
**magistrant**
**Lənkəran Dövlət Üniversiteti**
**babayev.xaliqverdi58@mail.ru**
**ilhame_ibrahimli@mail.ru**

**Açar sözlər:** çay bitkisi, azot gübrəsi, deqradasiya, münbitlik, məhsuldarlıq, keyfiyyət

Məlumdur ki, çayçılığın perspektiv inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı qəbul olunmuşdur. Bu Proqramın həyata keçirilməsi üzrə tədbirlər planı ölkəmizdə çayaltı torpaqların potensial imkanlarından səmərəli istifadə edilməsinə, çay istehsalın artırılmasına yönəldilmiş mühüm dövlət sənədi kimi qiymətləndirilir. Çayaltı torpaq tiplərinin aqrokimyəvi xüsusiyyətlərinin təhlili göstərir ki, Lənkəran-Astara bölgəsinin çayayararlı torpaqları, əsasən podzollu-qleyli-sarı (48 min 510 ha) torpaqları müxtəlif dərəcədə deqradasiyaya uğramışdır. Çay bitkisinin normal böyüməsi, keyfiyyətli məhsul verməsi, iqlim şəraitinin zərərli təsirinə dözümlülüyü onların tələbatına uyğun dərəcədə üzvi və mineral gübrələrlə qidalanmasından çox asılıdır. Yerli şəraitdən asılı olaraq çay plantasiyalarında azot, fosfor və kalium gübrələrinin tətbiqi müxtəlif formada və birləşmələr şəklində istifadə olunur. Bununla əlaqədar olaraq azot gübrələrin ayrılıqda verilməsi dozasını və onların bir-birinə nisbətini öyrənmək məqsədilə xüsusi təcrübələr aparılmışdır. Bu məqsədlə 2022-2024-cu illərdə Azərbaycan Meyvəçilik və Çayçılıq ETİ-nun Lənkəran Çay filialının Təcrübə Təsərrüfatında deqradasiyaya uğramış çayaltı torpaqların münbitliyini yaxşılaşdırmaq və azot gübrəsinin norma və nisbətlərindən səmərəli istifadə etmək üçün stasionar təcrübələr qoyulmuşdur.

İşin məqsədi- deqradasiyaya uğramış çayaltı torpaqların münbitliyini yaxşılaşdırmaq və azot gübrəsi normalarının müəyyən edilməsi, həmçinin, müxtəlif növ mineral gübrələrin səmərəliliyinin öyrənilməsi, keyfiyyətli məhsul almaq və çayın məhsuldarlığını yüksəltmək olmuşdur. Deqradasiyaya uğramış torpaqlarda bitkilərin azotla qidalanmasını yaxşılaşdırmaq üçün azotun ammonium gübrə formalarının tətbiqi zəruri hesab edilmişdir. Təcrübədə azotlu gübrələrdən ammonium-sulfatdan hər hektara 90, 120, 180 kq təsiredici maddə hesabı ilə istifadə edilmişdir. Təcrübə sahəsi dağ yamacların cənub-qərb hissəsində, dəniz səviyyəsindən 200 m hündürlükdə, meyillik 3-4$^0$ olmaqla və orta dərəcədə deqradasiyaya uğramış sarı-podzollu torpaqlarda qoyulmuşdur. Tədqiqatın obyekti çay bitkisinin "Yerli populyasiya" sortu olmaqla 3 təkrarda aparılmışdır. Əkin sxemi bitki arası 30 sm, cərgəarası 150 sm olmuşdur. Təcrübə sahəsində variantlar aşağıdakı kimi olmuşdur: 1)Nəzarət (gübrəsiz) 2)$P_{150}K_{120}$ +20t/ha "Lənkəran"kompostu (fon) 3) PK+$N_{90}$ 4) PK+$N_{120}$ 5) PK+$N_{180}$. Təcrübədə sadə superfosfat (18 % -li t.e.m.) , kalium - kalium sulfat (46%-li t.e.m.), azot-ammoniumm-sulfat (21% t.e.m.) şəklində 90, 120 və 180 kq səpilmişdir. Çay kolun zoğvermə dinamikası variantlar üzrə 0,25 $m^2$ sahədə , yəni 50x50 sm=2500 $sm^2$ = 0,25 $m^2$ dörd təkrarda öyrənilmişdir.

Çayaltı torpaqlarda azot gübrəsinin effektiv təsiri əsasən bir çox amillərdən: istifadə edilən azot gübrəsinin digər mineral gübrələrlə qarşılıqlı təsirindən, azot gübrə formalarından, gübrənin verilmə vaxtından, bitkinin əsas bioloji xüsusiyyətindən, torpaq-

iqlim şəraitindən, aqrotexniki üsullardan və s. asılıdır. Müəyyən edilmişdir ki, çox izafi rütubətli deqradasiyaya uğramış podzollu qleyli-sarı torpaqlarda ammonium azotu da nisbətən zəif udulur. Azotun mənimsənilmə əmsalı fosfor və kaliumdan yüksək olsa da, bu göstərici orta hesabla 40-50 % -dən yuxarı olmur. Hətta ammoniumlu gübrələr verildiyi yerdən 15-20 sm-ə qədər dərinə yuyula bilir. Ancaq nitrat azotu ilə müqayisə etdikdə ammonium azotunun yuyulması çox zəifdir. Belə ki, nitrat azotu bu torpaqların 0-16 sm qatında nisbətən çox olmaqla iyul, avqust aylarında tədricən artır, sentyabr və oktyabr aylarında nisbətən azalmaqla dərin qatlara (20-50 sm) hərəkət edir.

Təcrübə zamanı PK+20 ton «Lənkəran» kompostu (fonunda) azot gübrəsinin verilməsi bu bitkinin kök sisteminə və yarpaq aparatına yaxşı təsir edərək yüksək yaşıl çay yarpağı məhsulu alınmasına səbəb olmuşdur (cəd.1). Lənkəran çay filialında əgər gübrə verilməyən orta dərəcədə deqradasiyaya uğramış torpaqların nəzarət variantında məhsulun miqdarı 1060 kq/ha olmuşsa, PK+20 ton «Lənkəran» kompostu (fon) variantında isə bu göstərici bir qədər çoxalmışdır (1870 kq/ha). Ayrı-ayrı azot gübrə dozaları verilən variantlar içərisində ən yüksək məhsul fon+$N_{180}$ veilmiş variantda alınmışdır. Belə ki, azotun artan normaları içərisində ən yaxşı nəticə fon+$N_{180}$ veilmiş variantda hər hektardan 3700 kq məhsul alınmışdır ki, bu da gübrə verilməmiş nəzarət variantına nisbətən 2640 kq və ya 249,0 % artım deməkdir.

**Azot gübrəsinin yaşıl çay yarpağının məhsuldarlığına təsiri (Orta dərəcədə deqradasiyaya uğramış podzollu qleyli-sarı torpaqlar) (2022-2024-cu illər. iki ildə orta)**

| № | Variantlar | Məhsuldarlıq (2 ildə orta) | | |
|---|---|---|---|---|
| | | Məhsuldarlıq, kq/ha | Artım | |
| | | | kq-la | %-lə |
| 1 | Nəzarət (gübrəsiz) | 1060 | - | - |
| 2 | $P_{150}K_{120}$+20t/ha kompost(fon) | 1870 | 810 | 76,4 |
| 3 | fon+$N_{90}$ | 2730 | 1670 | 157,5 |
| 4 | fon+$N_{120}$ | 3620 | 2560 | 241,5 |
| 5 | fon+$N_{180}$ | 3700 | 2640 | 249,0 |

Lakin, qeyd etmək lazımdır ki, torpaqların deqradasiyaya uğranma dərəcəsindən asılı olaraq müxtəlif dozalarda verilən azot gübrələrinin effektivliyi də müxtəlifdir. Aparılan 2 illik tədqiqat işlərinin nəticələri göstərir ki, orta dərəcədə deqradasiyaya uğranmış podzollu-qleyli-sarı torpaqlar denitrifikasiya və yuyulma nəticəsində qida maddələri ilə zəif təmin olunduğuna görə, azot gübrəsinin illik norması (fosfor və kalium fonunda) 90 kq-dan 180 kq-a qədər artırıldıqda ən yüksək əlavə məhsul alınmışdır. Orta dərəcədə torpağı yuyulmuş sahəyə fon+$N_{180}$ gübrələrin verilməsi yaşıl çay yarpağının məhsulunu gübrə verilməmiş sahəyə nisbətən təxminən 2-3 dəfə artırmışdır. Azot gübrəsi çay bitkisinin məhsuldarlığını artırmaqla bərabər məhsulun keyfiyyətini də yaxşılaşdırır. Keyfiyyətsiz məhsulun dadı, ətri və s. aşağı olur. Bunu tədqiqat illəri üzrə həm gübrəsiz, həm də mineral gübrələr verilən variantlarda aydın görmək olar. $P_{150}K_{120}$+20t/ha kompost (fon) variant ilə birlikdə azot gübrəsi dozalarının təsirilə çay kolunun yarpaq məhsulunda tannin 22,7-23,7% və ekstraktiv maddələr isə 37,0-43,8 % artmışdır. Yaşlı çay plantasiyalara effektli gübrə dozası 180 kq/ha, cavan plantasiyalara isə 120 kq /ha tətbiqi tövsiyə olunur.

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİ

**Maya Dadaşzadə**
**doktorant**
**Azərbaycan Kooperasiya Universiteti**
**maya.qocayeva@mail.ru**

**Açar sözlər:** istehsal sahələri, innovativ ideyalar, Milli İnnovasiya Sistemi, Yaşıl enerji

Ulu Öndər Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatının inkişafı üçün hər zaman yenilikçi ideyaların ölkə iqtisadiyyatına tətbiq olunmasına və bunun zəminində ölkənin maddi-strateji bazasının möhkəmləndirilməsinə çalışmışdır. Çünki iqtisadi cəhətdən güclü olan ölkə hər zaman siyasi arenada söz və nüfuz sahibi olmağa qadirdir. İqtisadiyyatı inkişaf etdirmək üçün zamanın tələbinə uyğun innovativ üsullardan istifadə olunması labüddür. Bu səbəbdən, H.Əliyevin iqtisadi siyasətində innovativ ideyaların təbliği və tətbiqi öncül yer tutmuşdur.

İnnovasiya yenilikçi təklif və ideyaların istehsal və qeyri-istehsal sahələrinə düşünülmüş şəkildə tətbiq olunmasının nəticəsi olaraq, dövlətin, iqtisadiyyatın müxtəlif sahələrinə mənfəət qazandıracaq menecment fəaliyyətinin məcmusudur. İnnovasiyaların tətbiqi yeni, daha mütərəqqi üsullarla istehsalın artırılmasına, insanların maddi rifah halının yüksəldilməsinə, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, istehlakçıların tələblərinin müasir standartlar səviyyəsinə uyğun formada ödənilməsinə yönəlmiş fəaliyyət proqramıdır. İnnovativ metodların tətbiqi öncədən düşünülmüş və hesablanmış peşəkar mütəxəssislərin fəaliyyəti hesabına həyata keçirilən kompleks fəaliyyətdir. Bu metodların tətbiqi daha az məsrəflə daha çox gəlir əldə etməyə yönəlik məqsədli fəaliyyət istiqamətidir. Elmi-texniki tərəqqinin ən son nailiyyətlərinə arxalanaraq həyata keçirilən yeniləmələrdə qarşıya qoyulan başlıca vəzifə dövlətin iqtisadi və ona söykənən dayanıqlı siyasi, hərbi gücünü artırmaq, insanların artan istehlak tələblərini qarşılamaq olmuşdur. H.Əliyevin iqtisadi siyasətinin əsas qayəsini innovasiyaların gerçəkləşdirilməsinə kompleks yanaşma təşkil etmişdir. Çünki Ulu Öndər vurğulayırdı ki, yeni, məhsuldar, yaradcı və səmərəli ideyaların gerçəkləşməsi ölkənin artan gücü, beynəlxalq aləmdə nüfuzu və formalaşan yeni imici deməkdir.

Bu prinsipi əldə rəhbər tutaraq Ulu Öndər H.Əliyev innovasiyaların tətbiqini ciddi məsələ kimi dövlət siyasətinin tərkib hissəsi olaraq dəyərləndirməklə bu məsələyə daha həssas yanaşmışdır. O, nəzərə alırdı ki, innovativ təşəbbüslərə dövlət tərəfindən dəstək və diqqətin göstərilməsi yenilikçi ideyaların xeyrinə işləyən faktorlardır, habelə innovasiyaların ideya olaraq irəli sürülməsində və onların reallaşmasında alimlərin, tədqiqatçıların, bu sahə ilə məşğul olan mütəxəssislərin rolu çox böyükdür. Çünki onların mücərrəd fərziyyələri maddiləşincə və son nəticə olaraq istehsal sahəsində gerçəkləşincə, bu ideya aid olduğu dövlətə və eyni zamanda, digər dövlətlərə yetəri qədər innovativ məhsul və gəlir qazandırır. Bu baxımdan, H.Əliyev ölkədə Milli İnnovasiya Sisteminin qurulmasını və idarə olunmasını vacib məsələ hesab etmişdir. Çünki bu, gələcəkdə dövlətin innovasiya potensialının yaranaraq genişlənməsinə, sənaye və qeyri-istehsal sahələrinə tətbiq olunmasına zəmin yaradır. Bu baxımdan, H.Əliyev müasir dünyəvi elmlərə yiyələnmiş savadlı insan kapitalını dövlətin tərəqqisində mühüm qüvvə hesab etmişdir. O, bu sahədə hər zaman gənclərin yanında olmuş, onları bütün elmi yenilikləri mənimsəməyə, öz dövlətinin və xalqının gələcəyi naminə bütün bilik və bacarıqlarını səmərəli, yaradıcı istiqamətdə tətbiq edərək istifadə etməyə çağırmışdır. *"Mən fəxr edirəm ki, Azərbaycanlıyam"* deyən Ulu Öndər

gənclərə vətənə, xalqa, insanlığa məhəbbət ruhunu, Azərbaycançılıq məfkurəsini təlqin etmişdir.

H.Əliyevin uzaqgörən innovativ siyasəti cəmiyyətin bütün inkişaf sahələrinə yenilikçi ideyaların zaman-zaman tətbiq olunmasına, onların dövlətin milli maraqlarına, daxili və xarici siyasətinə xidmət edərək Azərbaycan vətəndaşlarının həyat şəraitinin yüksəldilməsinə xidmət etmişdir. O, əminliklə qeyd edirdi ki, davamlı inkişafın təmin olunması üçün köhnəlmiş metodlar yeni idarəetmə mexanizmləri ilə əvəz olunmalıdır.

Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda yeganə neft və qaz ixrac edən ölkə olaraq tanınır. Avropada yaşanan gərgin siyasi vəziyyət səbəbindən hazırda bir çox Avropa ölkələrində enerji problemi yaranmışdır. Azərbaycan inanılmış bir tərəfdaş və təşəbbüskar dövlət olaraq Avropada enerji təhlükəsizliyinin təmin olunmasına səy göstərən bir dövlət kimi tanınmaqdadır. Artıq Azərbaycan beynəlxalq siyasətdə öz sözünü deyə bilən, nüfuzlu dövlət modelini yaratmışdır. Əldə olunan bütün bu nailiyyətlər H.Əliyevin aparmış olduğu davamlı, ardıcıl və düşünülmüş enerji siyasətinin nəticəsində əldə olunmuşdur. 1994-cü il sentyabrın 20-də on iki dövlətin iştirakı ilə imzalanan və öz həcminə görə "Əsrin müqaviləsi" adlanan lahiyənin təşəbbüskarı və yaradıcısı məhz Heydər Əliyev olmuşdur. Müqavilənin imzalanmasından keçən müddətdə Azərbaycan dövləti bir sıra irihəcmli neft-qaz layihələrinin gerçəkləşməsinə imza atmış və regionun nüfuzlu neft-qaz ixracatçısı dövlətinə çevrilmişdir. Bu, Heydər Əliyevin uğurlu siyasətinin nəticəsidir.Belə ki, Cənubi Qafqazın nüfuzlu dövləti olan Azərbaycan qeyd olunan strateji əhəmiyyətli məhsulları ən yeni texnologiyalar və üsullar tətbiq etməklə, xarici şirkətlərin təcrübəsi əsasında təsbit edərək dünya bazarına, Avropa ölkələrinə nəql etməkdədir.

Bu gün Azərbaycanda H.Əliyevin innovativ ideyalara əsaslanan iqtisadi siyasəti Prezident İ.Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanan Azərbaycan dövləti iqtisadi sahədə də inamla irəliləməkdədir. Hazırda Respublikamızın innovativ siyasətində təkcə neft-qaz deyil, elektrik enerjisi istehsalçısı və ixracatçısı olmaq kimi bir hədəf durur. Hazırda Azərbaycan regionda yaşıl enerjiyə keçidi hədəfləyən lider dövlətdir. Bu məqsədlə, Azərbaycanda külək enerjisi ilə işləyəcək "Xızı-Abşeron" Külək Elektrik Stansiyası və günəş enerjisinə əsaslanan "Qaradağ" Günəş Elektrik Stansiyası tikilməkdədir. Əbəs deyildir ki, Bakı 2024-cü il noyabrın 11-dən 24 - dək dünyanın ən nüfuzlu tədbirlərindən birinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a (Conference of Parties) ev sahibliyi edəcəkdir. Eyni zamanda, işğaldan azad olmuş ərazilərdə innovasiyalara əsaslanan böyük layihələr yerinə yetirilir, "ağıllı kənd" və " ağıllı şəhər" layihələri əsasında quruculuq işləri aparılır. Bütün qeyd olunanlar Heydər Əliyev siyasətinin və onu varislik prinsipinə sadiq qalaraq tarazlaşdırılmış və davamlı şəkildə davam etdirən İ.Əliyevin siyasətinin təntənəsidir.

# ÇİYƏLƏK BİTKİSİNİN ANTRAKNOZ XƏSTƏLİYİ

**Məlahət Ağayeva**
**dosent**
**Muxtar Muxtarlı**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**zooloq.60@mail.ru**
**muxtar319@gmail.com**

**Açar sözlər:** antraknoz, patogen, boz çürümə, fungisid, qəhvəyi ləkə

Çiyələk (Fragaria virginiana) Masallı rayonunda yetişdirilməsi mümkün olan və demək olar ki, ən xeyirli, yüksək dəyərə malik giləmeyvədir. Lakin temperatur, torpağin nəmliyi, rütubət çiyələk bitkisinin xəstəliklərə yoluxmasında vacib olan ətraf mühit amillərindəndir. Çiyələk bitkisinin xəstəliyə tutulması onların inkişaf mərhələsi ilə eyni vaxta təsadüf olunur. Laktin qeyd etmək lazımdır ki, bu xəstəliklərin yayılması və inkişafı yerli iqlim şəraitdən asılı olaraq dəyişən olur. Ona görə bu xəstəliklər vaxtında aşkar olunmalıdır. Xəstəlikləri vaxtında aşkar edib məhv etməkdən ötrü müşahidələr aparılmalı və vaxtında mübarizə tədbirləri görülməlidir.

Müşahidələrimizə və aparılan təcrübələrə əsasən ən çox yayılmış və yüksək səviyyədə ziyan vuran xəstəliklərdən antraknoz, boz çürümə, ağ ləkə, yarpaq yanığı, boz çürümə, qırmızı ləkə yarpaq xəstəliyi, fitoftoroz və s.Lakin aparılan elmi-tədqiqat işlərinin nəticəsi olaraq çiyələk bitkişinin təhlükəli xəstəliklərindən biri antraknoz xəstəliyidir.

**Antraknoz (Colletotrichum spp.):** Antraknoz xəstəliyinin törədicisinin sistematik mövqeyi: şöbə- *Eumycota* , sinif *Deuteromycota* **(anamorf göbələklər),** sıra *Melanconiales - Acervutales* , fəsilə *Melanconiaceae* .

Antraknoz çiyələk bitkisinin demək olar ki, bütün orqanlarına təsir göstərir. Bu xəstəliyin törədicisi çiyələk bikisinin yarpaqlarını, çiçəklərini və meyvələrini zədələyir. Xəstəliyin təsirindən yarpaqların kənarı qırmızı haşiyəli qəhvəyi ləkələrə səbəb olur.Xəstəliyin simptomlarına həm yaşıl həm də qırmizi meyvələrdə dairəvi, çökmüş, sulu sarımtıl-qəhvəyi ləkələrin əmələ gəlməsi daxildir.Xəsəliyin təsirindən meyvənin keyfiyyəti pisləşir və məhsuldarlığı əhəmiyyətli dərəcədə azalır.Yetişməmiş meyvələrdə tək və ya qrup şəklində, tünd qəhvəyi rəngdən qaraya qədər diametri 1,5-3 mm olan ləkələr görünür. Yetişmiş meyvələrdə aydın kənarı olan depressiv, yuvarlaqlaşdırılmış bürünc-qəhvəyi ləkələr, sonra sərt quru çürüklərin qaralmış ləkələri müşahidə olunur.

Patogen göbələk torpaqda və bitki qalıqlarında 6-9 aya qədər yaşaya bilər. Lakin mülayim iqlimlərdə, tropik və subtropiklərdə tez ölür. Patogenin yeni ərazilərə yayılmasının əsas yolu yoluxmuş əkin materialından istifadəsidir. Antraknoz həmçinin bitki qalıqları, çirklənmiş giləmeyvə, toxum və torpaq vasitəsilə də yayılır. Bundan başqa xəstəliyin yayılmasına bir çox amillər yağış, şeh, külək və həşəratlar da təsir edir. Antraknozun yaranması və inkişafı üçün ən əlverişli şərtlər havanın temperaturu 22-30°C və havanın rütubəti təxminən 80-90% təşkil edir. İnfeksiyanın yayılmasına münbit torpağın yüksək turşuluğu (pH) və torpaqda kalium və fosforun olmaması da kömək edir.

Antraknozla mübarizədə xüsusi əkinlərdə yetişdirilən müntəzəm havalandırılan sağlam fidanların əkilməsidir. Əgər əkin sahələrində çürümə xəstəliyi ilə zədələnmiş meyvələr olarsa, onda belə meyvələr toplanmalı və məhv edilməlidir. Çiyələk bitkisini xəstəliklərdən qorunması məqsədilə istifadə olunan məhlulların tərkibinə, istifadəsinə xüsusi diqqət yetirilməlidir. Xəstəliyin qarşısını almaq üçün profilaktik tədbirlərin aparılması

məqsədilə 1%-li bordo mayesi ilə çiləmə aparılmalıdır.Əkindən əvvəl fidanların kütləvi müalicəsi və xəstəliklərin qarşısının alınması məqsədilə rozetlərin funqisid məhlullarına batırılmasından (30 dəqiqə) istifadə edilməlidir. Təəssüf ki, antraknoza qarşı 100% effektiv olan heç bir kimyəvi maddənin təsirinə nail ola bilmədik. Buna görə də, infeksiyanın qarşısını almaq məqsədilə əkin üçün yalnız antraknoza davamlı olan sertifikatlı əkin materialından istifadə etmək lazımdır. Əkinlərdə çürümədən meyvə itkisini azaltmaq üçün bitkilər çiçəkləmə dövründə - yumurtalıqların əmələ gəlməsinin başlanğıcında 3-4 dəfə funqisidlərlə püskürtülür. İtalyan mütəxəssisləri çiyələklərdə antraknozla mübarizədə Signum dərmanının istifadəsinin effektivliyini bildirirlər (Ceredi G.; Casalini L.; Montuschi C; Mari M., 2006).

## DÜYÜNÜN QİDA ƏHƏMİYYƏTİVƏ KADMİUMLA ÇİRKLƏNMƏSİNİN İNSAN SAĞLAMLIĞI ÜÇÜN TƏHLÜKƏ RİSKLƏRİ

**Mikayıl Məhərrəmov**
**professor**
**İlahə Məlikzadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mikailbyst@mail.ru**
**ilahemelikzade922@gmail.com**

**Açar sözlər:** düyü, kadmium, çirklənməsi, təhlükəsizlik

Düyü kənd təsərrüfatı dənli bitkiləri arasında ən çox yayılmış qidalı bitki olub, birillik bitki kimi tanınır və yer üzərində olan ən qədim bitkilərdən sayılır. Düyü dünya əhalisinin yarısının əsas ərzaq məhsulu sayılır, digər bir hissəsinin isə pəhriz qidasının əsasını təşkil edir. O orqanizmdə asan həzm olunduğuna görə pəhriz qidasında geniş şəkildə istifadə olunur. Eyni zamanda mədə-bağırsaq xəstəliklərinin müalicəsində düyünün həlimindən istifadə olunur. Düyü dənlərinin aşağı protein tərkibinə baxmayaraq, onun qida dəyəri digər dənlilərlə müqayisədə xeyli yüksəkdir. Onun tərkibində orta hesabla 0,6% su, 0,5% yağ, 0,5% şəkər, 0,3% sellüloza, 6% zülal, 88% nişasta olur. Hər kiloqram düyü dənində 67 qram zülal vardır. Düyünün tərkibində olan aminturşularının miqadarı digər dənli bitkilərlə müqaisədə daha çoxdur. Düyüdə zülal az, kleykovina isə yox dərəcədə olduğundan ondan çörəkbişirmədə istifadə edilmir.

Düyü həmçinin vitaminlərlə zəngindir, onun tərkibində əsasən suda həll olan "B qrupu" vitamlərin hamısı müşahidə olunur. Düyü "B qrupu" vitaminləri ilə yanaşı PP, E və D vitaminləri ilə də zəngindir. "B qrupu " vitaminləri immunitet sistemini gücləndirməyə kömək edir və beyinin sağlamlığı üçün vacib sayılan vitaminlərdəndir. D vitamini isə sümük inkişafı üçün mühüm rol oynayır.

Düyünün tərkibində laktoza və qluten kimi allergik komponentlər olmadığı üçün həzm və bağırsaq sisteminə heç bir mənfi təsiri yoxdur. Düyünün tərkibində insan orqanizmi üçün vacib olan və lazımi qədər kalsium, fosfor, sink, dəmir, yod, selen kimi mineral maddələr vardır. Düyü insan bədənini enerji ilə təmin edir, bədənin vitamin ehtiyacını ödəyir, həzm fəaliyyətini yaxşılaşdırır.

Düyü bitkisi Çində, Hindistanda, Yaponiyada bizim eramızdan 4-5 min il əvvəl becərilmişdir. Çin və Hindistan dünyanın aparıcı düyü istehsal edən ölkələridir. Onlar dünya düyü istehsalının 56%-dən çoxunu təmin edirlər. Avropada düyü Aralıq dənizi ölkələrindən İtaliyada, İspaniyada, Fransada, Yunanıstanda və s. XV-ci əsrdən becərilməyə başlanmışdır.

Azərbaycan ərazisinə bu bitki İrandan və Orta Asiya respublikalarından gətirilərək becərilməyə başlanmışdır. Düyü dayaz sularda becərilən yeganə dənli bitkidir. Bu səbəbdən də dünyanın demək olar ki, hər yerdə istehlak olunur. Dünyada minlərlə müxtəlif növ düyü vardır. Asiyanın çəltik tarlalarında hər tarlada müxtəlif növ becərilir. Düyü *Oryza* cinsinə aiddir və 50-ə yaxın növü mövcuddur. Düyünün mədəni növü *Oryaza Sativa* adlanır oda öz növbəsində 3 qrupa bölünür və onlara aşağıdakılar aiddir:

1. *Hind növü* - dənlər uzun və nazik olur.
2. *Çin-Yapon növü* – dənlər qısa və nazik olur.
3. *Yava növü* – dənləri qısa və enli olur.

Düyü bitkisi su sevən bitki olduğundan onun becərilməsi zamanı tarlada müəyyən təbəqə su olması vacibdir. Düyü bitkisinin yetişmə müddəti 30-40 gün təşkil edir. Son dövrlərdə yüksək keyfiyyətli məhsul əldə etmək üçün düyü bitkisi əkilən sahələrə müxtəlif üzvi və qeyri-üzvi gübrələr verilir. Lakin gübrələmə prosesinin nəzarətsiz şəkildə həyata keçirlməsi bitkidə ağır metalların, yəni insan orqanizmi üçün toksiki olan maddələrin toplanmasına səbəb olur. Düyünün əsas çirkləndiricisi kimi kadmiumu qeyd edə bilərik. Düyünün kadmiumla çirklənməsi becərilmə zamanı torpaq vasitəsilə baş verir. İnsanlar tərkibində kadmium olan düyü qəbul etdikdə o böyrəklərdə, ağciyərlərdə, sümüklərdə, qaraciyərdə və bədənin digər hissələrində toplanır. Cd-un uzun müddət toplanması orqanizmdə zəhərlənmələrə, böyrəklərin, sümüklərin zədələnməsinə və sümük ağrılarına səbəb ola bilər. Araşdırmalar göstərir ki, düyü əkilən sahələrə gübrə verilməsi zamanı fosfat gübrəsindən həddən artıq çox istifadə edilməsi düyünün kadmiumla kəskin şəkildə çirklənməsinə səbəb olur.

## LƏNKƏRAN-ASTARA İQTİSADİ BÖLGƏSİNDƏ SÜDÇÜLÜYÜN MÜASİR VƏZİYYƏTİ

**Mikayıl Məhərrəmov**
**professor**
**Rasif Qurbanov**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mikailbyst@mail.ru**
**rasifqurbanov00@gmail.com**

**Açar sözlər:** süd, südçülük, Lənkəran-Astara, iqtisadi

Lənkəran-Astara iqtisadi rayonu Azərbaycanın cənubunda yerləşir. Şərqdə Xəzər dənizi, qərbdə və cənubda İran ilə həmsərhəddir. Lənkəran-Astara iqtisadi rayonu, 6 inzibati rayonu, 8 şəhəri, 13 qəsəbəsi, 642 kəndi və 182 bələdiyyəsi ilə geniş bir ərazini əhatə edir. İqtisadi rayonun sahəsi 6,200 kvadrat kilometrdir və əhalisi 930.000 nəfərdən çoxdur. Lənkəran-Astara iqtisadi rayonunun ən inkişaf etmiş və önəmli şəhəri Lənkərandır. Rayonun iqtisadiyyatında heyvandarlıq mühüm yer tutur. Mal-qara, qoyun və keçi yetişdirilir.

Südçülük xüsusilə Lənkəran-Astara iqtisadi rayonunda mühüm sahədir. Müasir müəssisələrdə istehsal olunan süd və süd məhsulları həm daxili bazarda istehlak olunur, həm də ixrac edilir. Lənkəran-Astara iqtisadi rayonu Azərbaycanın cənubunda yerləşdiyi strateji mövqeyə və müxtəlif sektorlar üzrə potensialına görə ölkənin iqtisadi inkişafına mühüm töhfə verir.

Lənkəran-Astara iqtisadi rayonunun iqtisadiyyatında südçülük sahəsi mühüm rol oynayır. Bu sahə, əsasən, aqrar-sənaye kompleksinin bir hissəsidir və rayonun iqtisadiyyatının inkişafına töhfə verir. Südçülük sahəsi, rayonun kənd təsərrüfatının strukturunda önəmli bir yer tutur. Süd və süd məhsullarının istehsalı, rayonun iqtisadiyyatına töhfə verir və əhalinin protein ehtiyaclarını ödəyir. Bundan başqa, südçülük sahəsi, rayonda məşğulluq yaratmaqda da mühüm rol oynayır. Bu sahə, bir çox yerli sakinlərə iş imkanları təqdim edir və onların həyat səviyyəsini yüksəldir.

Lənkəran-Astara iqtisadi rayonunda südçülük bütövlükdə müasir kənd təsərrüfatı texnikası və üsullarından istifadə etməklə həyata keçirilir. Bu rayonda südçülük ümumən iri fermer təsərrüfatlarında aparılır, müasir avadanlıq, texnika və texnologiyalardan istifadə edilməklə məhsuldarlıq artırılır. Bu müəssisələrdə ümumiyyətlə sağım maşınları, avtomatik yem paylama sistemləri və südün soyuducu çənləri kimi müasir avadanlıqlardan istifadə olunur. Bundan başqa, Lənkəran-Astara iqtisadi rayonunda südçülük seleksiyaçıların və təsərrüfat sahiblərinin ümumilikdə peşəkarlıqla idarə olunduğu sahədir. Müasir idarəetmə təcrübələri, genetik seçim və qidalanma proqramları kimi müasir kənd təsərrüfatı təcrübələrindən də geniş istifadə olunur. Bu bölgədə südçülük təsərrüfatının müasir vəziyyəti ümumiyyətlə dövlətin və özəl sektorun stimulları və dəstəyi ilə formalaşır. Bununla belə, süd sənayesində hələ də bəzi problemlər var. Bunlara yüksək yem xərcləri, bazara çıxış problemləri və xəstəliklərə nəzarət kimi məsələlər daxildir. Bu çətinlikləri aradan qaldırmaq üçün təsərrüfat sahibləri tez-tez məsləhət xidmətləri və təlim proqramlarından istifadə edirlər.

Lənkəran-Astara iqtisadi rayonunun iqtisadiyyatında südçülük sahəsi mühüm rol oynayır. Bu sahə, əsasən, aqrar-sənaye kompleksinin bir hissəsidir və rayonun iqtisadiyyatının inkişafına töhfə verir. Südçülük sahəsi, rayonun kənd təsərrüfatının strukturunda önəmli bir yer tutur. Süd və süd məhsullarının istehsalı, rayonun iqtisadiyyatına töhfə verir və əhalinin protein ehtiyaclarını ödəyir. Bundan başqa, südçülük sahəsi, rayonda məşğulluq yaratmaqda da mühüm rol oynayır. Bu sahə, bir çox yerli sakinlərə iş imkanları təqdim edir və onların həyat səviyyəsini yüksəldir.

Lənkəran-Astara iqtisadi bölgəsində süd istehsalı müəyyən illərə görə mütəmadi olaraq dəyişiklik göstərir. Dövlət Statistika Komitəsinin məlumatlarına istinad olaraq aşağıdakı cədvələ görə 2017-2022-ci illər ərzində Lənkəran-Astara iqtisadi bölgəsində süd istehsalı aşağıdakı kimi dəyişimlər göstərmişdir. Bu cədvələ əsasən qeyd etmək olar ki, Lənkəran-Astara iqtisadi bölgəsində 2017-ci ildə süd istehsalı 229580 ton, 2022-ci ildə isə 235662 ton olmuşdur. Bu onu göstərir ki, müasir dövrdə süd istehsalı keçən illərə nisbətən artım göstərmişdir. Bu da əhali artımını və əhaliinin artan tələbatını ödəmək məqsədilə baş verən prosesdir. Həmçinin cədvələ əsasən qeyd etmək olar ki, Lənkəran-Astara iqtisadi bölgəsində ən çox süd istehsalı illər ərzində Cəlilabad rayonuna aiddir. Cəlilabad rayonundan sonra bu iqtisadi bölgədə süd istehsalına görə Masallı rayonu 2-ci yerdə dayanır. Süd istehsalına görə 3-cü yerdə isə Lənkəran rayonu dayanır.

| Rayonlar | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Lənkəran-Astara iqtisadi rayonu | 229580 | 223784 | 235410 | 233786 | 234603 | 235662 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Astara rayonu | 30186 | 27164 | 27338 | 27352 | 27626 | 27896 |
| Cəlilabad rayonu | 82445 | 72471 | 75524 | 74009 | 73900 | 73920 |
| Lerik rayonu | 15967 | 15979 | 23521 | 23653 | 23961 | 23743 |
| Lənkəran rayonu | 33790 | 34089 | 34785 | 34936 | 35210 | 35660 |
| Masallı rayonu | 50101 | 50194 | 49249 | 49643 | 49563 | 49571 |
| Yardımlı rayonu | 17091 | 23887 | 24993 | 24373 | 24343 | 24872 |

# PLOV ÜÇÜN YETİŞDİRİLƏN ÇƏLTİYİN AĞIR METALLARLA - Cd və As-LƏ ÇİRKLƏNMƏSİ VƏ ONUN PROFİLAKTİKASI

**Mikayıl Məhərrəmov**
**professor**
**Ülviyyə İmaməlizadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mikailbyst@mail.ru**
**ulviyyeimamelizade@gmail.com**

**Açar sözlər:** ağır metallar, ekologiya, çəltik, çirklənmə

Məlumdur ki, Lənkəran mətbəxinin ən ləziz və populyar xörəklərindən biri plov olub, onun hazırlanması üçün əsas xammal - çəltikdir.

Müasir dövrdə ətraf mühitin, o cümlədən torpaqların çirklənməsində təhlükə yaradan proseslərdən biri də məhz ağır metallardır. Ağır metallar biosfer, pedosfer və atmosferdə yüksək toplanma qabiliyyətinə malikdir. Ona görə də insanlara təsir dərəcəsinə görə çirkləndirici maddələr arasında ağır metallar xüsusi yer tutur. Ətraf mühitin ağır metallarla çirklənməsinə səbəb olan mənbələri təbii və texnogen olaraq bölmək olar. Birinci halda, kimyəvi elementler su və külək erroziyası, vulkan püskürmələri və mineralların aşınması səbəbindən biosfere daxil olur. İkinci halda, ağır metallar aktiv antropogen fəaliyyətə görə atmosfere, hidrosferə, litosferə daxil olurlar: enerji üçün yanacaq yabdırarkən, metallurgiya və kimya sənayesində, aqrar sənayede,mineralların çıxarılması zamanı və.s.

Ağır metalların əsas təhlükəsi biosferin bütün təbəqələrini çirkləndirməsidir. Nəticədə tüstü və toz tullantıları atmosfere daxil olur, daha sonra turşu yağışı şəklində tökülməyə başlayır. Daha sonra insanlar və heyvanlar çirkli havadan nəfəs alır, nəticədə bu elementlər canlıların bədəninə daxil olur və hər cür patologiya və xəstəliklərə səbəb olur. Ağır metallar bütün su sahələrini və su mənbələrini çirkləndirir. Nəticədə planetdə içməli su qıtlığı problemini yaradır.

**Kadmium** - Cd zəhərlilik dərəcəsinə və ətraf mühitə təsirinə görə ağır metallar arasında ilk sıralarda durur. Cd ətraf mühitə metallurgiya istehsalının tullantıları ilə, kadmium tərkibli stabilizatorlar, qalvanik istehsalının çirkab suları ilə, boyalar, pigmentlər istifadə edilən istehsal sahələrindən və fosfat gübrələrinin istifadə edilməsi nəticəsində daxil

olur. İçməli suya kadmium istehsalat tullantıları ilə çirklənmiş su mənbələrindən, su hazırlığı zamanı reagentlərdən, su kəməri konstruksiyalarının miqrasiyası nəticəsində daxil olur. Kadmiumla çirklənmiş sahələrdə becərilən kənf təsərrüfatı məhsullarının yoluxma ehtimalını nəzərə almaq lazımdır. Kənd təsərrüfatında əhəngləşdirmə, torpağa üzvi və mineral gübrələrin verilməsi istehsal olunacaq məhsullarda ağır metalların toplanmasını minimuma endirir. Torpaqda olan bitki köklərinin qidalanma qatında ağır metalların miqdarı yol verilən həddi keçdikdə, bitkinin köklərində yüksək miqdarda ağır metal toplanır və nəticədə bitkinin hüceyre membranı onu saxlaya bilmir. Bitkilərin ağır metallarla yoluxma sürətinə görə kadmium birinci sıradadır. Kadmiumla xroniki zəhərlənmənin ən ağır forması İtay-İtay xəstəliyidir. Bu xəstəli ilk dəfə Yaponiyada aşkar olunmuşdur. Uzun illər ərzində əhali kadmium mənbələrindən yoluxmuş çay suyu ilə suvarılan tarlada becərilən düyü ilə qidalanırdı. Burada becərilən düyünün tərkibində kadmiumun miqdarı 1mkq/q-a çataraq, orqanizmdə artıq 300mkq-ı keçir. Vitamin və kalsiumun çatışmazlığı, həmçinin qadınların hamiləlik dövründə orqaqnızmın zəifləməsi nəticəsində 45 yaşı keçdikdən sonra bu xəstəliyin əmələ gəlməsinə səbəb olur.

**Arsen** - As dünyanın ən zəhərli elementlərindən biridir. Tarix boyu qida zəncirinə və qidalarımıza daxil olmuşdur. Lakin bu problem indi daha də dərinləşir, çünki ətraf mühitin geniş miqyasda çirklənməsi qidada arsenin səviyyəsini artırır və nəticədə sağlamlığa ciddi təhlükə yaradır. Son illərdə aparılan araşdırmalara görə düyüdə yüksək səviyyədə arsen olduğu müəyyən edilib. Bu böyük narahatlıq doğurur, çünki düyü dünya əhalisinin böyük bir hissəsi üçün əsas qida mənbəyidir.

Arsen təbii olaraq suda, torpaqda və qayalarda olur. Qida zəncirinə asanlıqla daxil olur və həm heyvanlarda, həm də bitkilərdə əhəmiyyətli miqdarda toplana bilir. Arsenlə çirklənmə insan fəaliyyəti nəticəsində daha da artır. Belə ki, arsenlə çirklənmənin əsas mənbələrinə müəyyən pestisidlər və herbisidlər, ağac qoruyucuları, fosfat gübrələri, sənaye tullantıları, mədənçilik fəaliyyəti, kömürün yandırılması və əridilməsi daxildir. Arsen dünyanın bəzi yerlərində daima çirklənməyə məruz qalan yeraltı sularında yüksək miqdarda ola bilir. Arsen qrunt sularından quyulara buradan da bitkikərin suvarılması və yeməklərin bişirilməsi üçün istifadə edilə bilən digər su mənbələrinə daxil olur. Ona görə də arsenlə çirklənmə təhlükəsi olan düyü və digər məhsullar istifadə edilməzdən əvvəl içməli su vasitəsilə təmiz yuyulmalıdır.

Göründüyü kimi, çəltiyin (düyünün) ağır metallarla, o cümlədən Cd və As-lə çirklənməsinin qarşısının alınması insanların sağlamlığı üçün xüsusi əhəmiyyət kəsb edir.

# LƏNKƏRAN TƏBİİ VİLAYƏTİNİN TORPAQLARININ KƏND TƏSƏRRÜFATINDA İSTİFADƏSİNİN YAXŞILAŞDIRILMASI TƏDBİRLƏRİ

**Mirnuh İsmayılov**
**dosent**
**İlahə Mirzəcanzadə**
**magistrant**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu**
**Bakı Dövlət Universiteti**
**mirnuh.ismayilov@yahoo.com**
**mirzacanzadailaha@gmail.com**

**Açar sözlər:** torpaq, münbitlik, kənd təsərrüfatı, görülən tədbirlər

Lənkəran təbii vilayətində təbii iqlim şəraiti, ekoloji xüsusiyyətlərinə, coğrafi mövqeyinə görə bir-birindən fərqlənən torpaq tipləri formalaşmışdır. Bu torpaq tiplərindəki fərqlər onların rənglərində, qranulometrik və kimyəvi tərkibində, mühit göstəricilərində və s. da özünü göstərir. Müxtəlif iqlim şəraitinin olması, ana süxur, bitki örtüyü və digər torpaqəmələgətirən amillər müxtəlif torpaq tiplərinin yaranmasının əsas səbəblərindəndir.

Lənkəran təbii vilayəti torpaqları kənd təsərrüfatının müxtəlif sahələrində istifadə edilir. Bu baxımdan qədim dövrlərdən bəri ölkənin istifadə edilən ərazilərindən sayılır. Son illərdə əhalinin sayının artması, bununla bağlı olaraq yaşayış yerlərinin çoxalması, kənd təsərrüfatında istifadə məqsədi ilə meşə sahələrinin mənimsənilməsi Lənkəran təbii vilayətinin torpaq örtüyünün dəyişməsinə səbəb olmuşdur. Bu torpaqlar əsasən sitrus meyvəçilik, çəltik və çay plantasiyaları, digər kənd təsərrüfatı məhsullarının istehsalında istifadə edilir. Bunun səbəbi torpaqların turş mühitə malik olmasıdır. Məlumdur ki, bu bitkilər turş mühitli torpaqlarda yaxşı inkişaf edib, məhsul verir.

Kənd təsərrüfatında istifadə edilən torpaqlardakı dəyişkənlik əsasən onun münbitlik göstəricilərində olur. Bildiyimiz kimi kənd təsərrüfatında istifadə edilən vasitələr ətraf mühitə müxtəlif təsirlər göstərir. Bu təsirlərə məruz qalan əsas komponentlərdən biri torpaqdır. Torpaqlarda uzun müddət çəltik, çay, subtropik bitkilərin əkilməsi münbitliyə müxtəlif istiqamətli təsir göstərir.

Lənkəran təbii vilayətinin özünəməxsus torpaq örtüyü hərtərəfli şəkildə tədqiq edilərək öyrənilmişdir ki, intensiv antropogen təsirlər nəticəsində torpaqların münbitliyi sürətlə azalır. Münbitlik, torpağın bitkiləri lazımı qida maddələri, rütubət və s. ilə təminetmə qabiliyyətidir. Torpağın münbitliyi onun ən vacib xüsusiyyətlərindəndir. Münbitliyi pozulmuş torpaqların məhsuldarlıq səviyyələri də aşağı olur. Bu baxımdan torpağın xüsusiyyətləri nəzərə alınaraq, münbitliyin yaxşılaşdırılması üçün tədbirlər görmək vacibdir. Hər bir ekoloji rayonun torpaq iqlim şəraiti, fiziki-kimyəvi xassələri, coğrafi mövqeyi nəzərə alınaraq xüsusi yaxşılaşdırma tədbirləri görülür.

Aqroistehsalat cəhətdən Lənkəran təbii vilayəti torpaqları olduqca əhəmiyyətlidir. Çay bitkisi böyük sənaye-istehsalat əhəmiyyətinə malikdir. Çay ölkəmizdə demək olar ki, ən çox Lənkəran təbii vilayətinin torpaqlarında becərilir. Keçən əsrin əvvəllərindən vilayətin əsasən sarı torpaqlarındakı meşələr qırılaraq yerində çay plantasiyaları əkilmişdir. Meşələrin qırılaraq kənd təsərrüfatı bitkiləri altında istifadə edilməsi, bəzi ərazilərdə meşə örtüyünün tamamilə məhv olmasına, bəzi yerlərdə isə seyrəkləşməsinə səbəb olur. Beləliklə də, əsasən

meşə qonur, meşə sarı torpaqlarının əksəriyyəti, podzollu sarı torpaqlardakı meşələr isə deməк olar ki, tam təmizlənərək çoxillik əkmələr, əsasən də çay bitkisi altında istifadə edilir.

Torpaqların istifadə təyinatından asılı olaraq görülən aqrotexniki və meliorativ tədbirlər müxtəlif olur. Məsələn otlaq və biçənək altındakı torpaqların münbitliyinin yaxşılaşdırılması və artırılması üçün torpaq səthinin təmizlənməsi tədbirləri görülə bilər. Bunun üçün torpaqda olan zərərli alaq bitkilərinin çıxarılması, torpaq səthindəki daşların yığılması, ot toxumlarının səpilməsi, otlaqların səmərəli formada növbəli olaraq istifadə edilməsi kimi sadə üsullardan istifadə edilə bilər.

İntensiv şəkildə çay, çəltik bitkiləri altında istifadə olunan torpaqların münbitlik göstəriciləri zaman keçdikcə zəifləyir. Əgər bu torpaqların münbitliyi bərpa edilməzsə, getdikcə bitkilərin məhsuldarlığı və torpaqların əkinə yararlılıq səviyyəsi aşağı enər. İlk olaraq becərilmə aparılarkən əsas becərmənin aparılmasına diqqət yetirmək lazımdır. Bunun üçün şumun dərinliyinin və eninin ölçülərinə diqqət yetirilməsi məqsədə uyğun olar. Çünki, suvarma suyu, eyni zamanda yağıntı suyu torpaq səthinin yuyulub aparılmasına, səthi eroziya prosesinin baş verməsinə səbəb olur. Bildiyimiz kimi əkin qabağı əsas becərmə torpağın bitki köklərinin inkişaf edən qatlarında su-hava keçirmə xassəsini də yaxşılaşdırır. Bununla yanaşı torpağın üst qatını su eroziyasından mühafizə etmək üçün ağac əkmə, terrasların salınması, su axını üçün şırımlar açmaq kimi üsullarda da əlverişli ola bilər. Digər tərəfdən torpaqlarda monokultur təsərrüfatların salınması da torpaqların zəifləməsinə, ziyanverici həşəratların, xəstəliklərin çoxalmasına səbəb olur. Buna görə növbəli əkinçilikdən istifadə etmək əlverişli olar.

Çoxillik bitki olan çaydan ilk məhsul 7-9 il sonra alınır. Bu zaman ərzində yüksək məhsuldarlıq əldə etmək üçün istər bitki istərsə də torpaq xüsusi qayğı tələb edir. Bunun üçün yayda becərmə, qışda becərmə, bitkinin azota olan tələbatını təbii şəkildə ödəmək üçün paxlalı bitkilərin əkilməsi, düzgün suvarma üsullarından istifadə etmək, mineral gübrələr tətbiq etmək olar. Torpağın yayda becərilməsinin əsas məqsədi üst qatın yumşalması, aşağı qatlarda su və hava mübadiləsinin tənzimlənməsi, mikroorqanizmlərin fəaliyyətinin yaxşılaşdırılmasıdır. Qışda becərmə zamanı isə bir qədər dərindən şumlama işləri görülür. Bu zaman inkişaf etmiş alaq otları da kökündən çıxarılaraq daha dərinə basdırılır. Birillik əkilən paxlalı bitkilərin də şumlama işlərində torpağa basdırılması siderat kimi rol oynayır.

Lənkəran vilayətində yağıntıların miqdarı kifayət qədər olsa da bəzən bitkilərin vegetasiya dövründə yağıntıların düşməməsi inkişafı yavaşıdır. Həmin dövrlərdə kənd təsərrüfatı bitkiləri altındakı torpaqların suvarılması vacibdir. Buna görə mütləq əlavə suvarmadan istifadə edilir. Suvarmamın normasına və zamanına diqqət yetirmək zəruridir.

# QEYRİ-MÜƏYYƏNLİK ŞƏRAİTİNDƏ İNVESTİSİYA LAYİHƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ ZƏRƏRSİZLİK SƏVİYYƏSİNİN HESABLANMASI HAQQINDA

**Namiq Baxışov**
**iqtisad elmləri üzrə fəlsəfə doktoru**
**Fatma Əliyeva**
**magistrant**
**Bakı Dövlət Universiteti**
**namigbm@hotmail.com**
**aliyevafatma2901@gmail.com**

**Açar sözlər:** qeyri-müəyyənlik, investisiya layihələri, zərərsizlik nöqtəsi, risk, qeyri-dəqiqlik

İnvestisiya layihəsi kapital və cari xərclər, istehsal olunan məhsulların satış həcmi, məhsulun qiymətləri və layihənin icra müddəti ilə bağlı dəqiq müəyyən edilmiş fərziyyələr əsasında hazırlanır. Bu fərziyyələrin keyfiyyətindən və əsaslılığından asılı olmayaraq, layihənin həyata keçirilməsi ilə bağlı hadisələrin gələcək inkişafı həmişə qeyri-müəyyəndir. Bu, hər hansı bir sahibkarlıq fəaliyyətinin əsas aksiomasıdır. Buna görə də, investisiya layihələndirmə təcrübəsi digərləri ilə yanaşı, qeyri-müəyyənlik və risk aspektlərini də nəzərə alır. Qeyri-müəyyənlik - layihənin həyata keçirilməsi şərtləri haqqında məlumatın natamamlığı və qeyri-dəqiqliyi; risk - bütün və ya ayrı-ayrı layihə iştirakçıları üçün mənfi nəticələrə səbəb olacaq belə şərtlərin mümkünlüyüdür. Risk faktorları və qeyri-müəyyənlik nəzərə alınmaqla hesablanan layihənin performans göstəriciləri gözlənilən adlanır.

Qeyri-müəyyənlik, bir tərəfdən hər hansı sahibkarlıq fəaliyyətinin şərti olan obyektiv, digər tərəfdən isə hər hansı sahibkarın daimi "baş ağrısına" səbəb olan hadisədir. Qeyri-müəyyənliyin tam aradan qaldırılması, yəni, biznesin axını üçün birmənalı şəraitin yaradılması hər bir sahibkar üçün həm arzu olunan, həm də qeyri-mümkün haldır. Eyni zamanda, qeyri-müəyyənlik yalnız mənfi bir hal kimi şərh edilə bilməz. Bazar iqtisadiyyatının "palçıqlı suları"nda qeyri-müəyyənlik investisiya layihəsinin lap əvvəlində görünməyən əlavə imkanlar vəd edə bilər. Ümumiyyətlə, sahibkarlıq fəaliyyətində qeyri-müəyyənlik əmsalı mənfi işarə ilə qiymətləndirilir.

Gələcəkdə biz investisiya qərarlarının qəbulu ilə bağlı mümkün yanaşmalar, eləcə də sahibkarların intuisiyasına əsaslanmadığı halda investisiya layihələrinin həyata keçirilməsinin idarə edilməsi yolları haqqında danışacağıq. Hər hansı bir yanaşma üçün zəruri şərt qeyri-müəyyənliyin kəmiyyət baxımından (yəni, çox vaxt bəzi çox sadə, riyazi anlayışlardan istifadə etməklə) qiymətləndirilməsidir.

Layihənin həyata keçirilməsi şərtlərindəki mümkün dəyişikliklərlə bağlı sabitlik dərəcəsi istehsal həcmi, istehsal olunan məhsulların qiymətləri və s. ola bilər. Bu cür göstəricilər yalnız layihə parametrlərində mümkün dəyişikliyin onun maliyyə məqsədəuyğunluğuna və effektivliyinə təsirini qiymətləndirmək üçün istifadə olunur, lakin onlar özləri ətraf mühitin fəaliyyət göstəricilərinə aid deyillər və onların hesablanması inteqral fəaliyyət göstəricilərinin hesablamasını əvəz etmir.

Hesablama dövrünün müəyyən bir addımı üçün layihə parametrinin zərərsizlik nöqtəsi bu parametrin müəyyən bir addımda dəyərinə belə bir əmsal kimi müəyyən edilir. Tətbiq edildikdə isə bu mərhələdə layihədə alınan xalis mənfəət sıfıra bərabər olur. Bu növün ən ümumi göstəricilərindən biri zərərsizlik səviyyəsidir.

$m$ addımda $Z_m$ zərərsizlik səviyyəsi - zərərsizlik nöqtəsinə ($V_{kr_m}$) uyğun olan satış həcminin (istehsalın) bu addımda layihələndirmə nöqtəsinə ( $V_m$ ) nisbətinə deyilir. “Zərərsizlik nöqtəsi” xalis mənfəətin sıfıra bərabər olduğu satış həcminə aiddir. Bu göstəricini təyin edərkən, $m$ addımında aşağıdakılar güman edilir: istehsalın həcmi satışın həcminə bərabərdir; gəlirin məbləği satışın həcminə mütənasib olaraq dəyişir; qeyri-əməliyyat fəaliyyətindən gəlirlər və bu fəaliyyət üzrə xərclər satış həcmlərindən asılı deyil; tam cari istehsal xərcləri istehsal həcminə birbaşa mütənasib olaraq dəyişən şərti sabit və şərti dəyişənlərə bölünə bilər; düstur üzrə zərərsizlik səviyyəsinin hesablanması aşağıdakı düsturla ifadə olunur:

$$Z_m = \frac{V_{kr_m}}{V_m}$$

Zərərsizlik nöqtəsi $V_{kr_m}$ aşağıdakı düsturla müəyyən edilir:

$$V_{kr_m} = \frac{CF_m + DC_m}{P - CV_m}$$

Burada, $CF_m$– $m$ addımında şərti olaraq sabit məsrəflər, o cümlədən amortizasiya, vergilər və maya dəyərinə aid edilən digər çıxılmalar və istehsalın həcmindən asılı olmayan maliyyə nəticələridir; $DC_m$ – qeyri-əməliyyat fəaliyyətindən əldə olunan gəlir bu mərhələdə bu fəaliyyət üçün xərclər çıxmaqla yaranır; $P$ – istehsal vahidinin qiyməti; $CV_m$ – istehsal (xidmətlər) vahidi üçün şərti olaraq dəyişən xərclər, o cümlədən vergilər və digər ayırmalar, maya dəyərinə və maliyyə nəticələrinə aid edilə bilən, gəlirə mütənasib, $m$-ci addımda gəlir vergisi istisna olmaqla müəyyən edilir.

Əgər layihə bir neçə növ məhsulun istehsalını nəzərdə tutursa, düstur dəyişmir və ona daxil olan bütün kəmiyyətlər bütün layihə üzrə (məhsul növünə görə ayrılmadan) götürülür.

Tipik olaraq, layihə bütövlükdə layihə üzrə hesablamalarda layihə qabiliyyətlərinin inkişaf etdirilməsindən sonra zərərsizlik səviyyəsi 0,6-0,7-dən çox olmadıqda layihə davamlı hesab olunur. Zərərsizlik səviyyəsinin 1-ə yaxınlığı (100%), layihənin bu addımda məhsullara tələbin dəyişməsinə qarşı kifayət qədər dayanıqlı olmadığını göstərir. Hər addımda hətta qənaətbəxş qiymətlər də layihənin effektivliyinə zəmanət vermir (müsbət NPV). Eyni zamanda, ayrı-ayrı addımlarda zərərsizlik səviyyəsinin yüksək dəyərləri layihənin davamlılığının əlaməti hesab edilə bilməz (məsələn, istismara verilmiş məhsulun inkişafı mərhələsində və ya bahalı qurğuların əsaslı təmiri zamanı, onlar 100% -dən çox ola bilər).

Zərərsizlik səviyyələrinin hesablanması ilə yanaşı, layihənin davamlılığını qiymətləndirmək üçün layihənin digər parametrləri üçün zərərsizlik nöqtəsini - məhsullar və əsas xammallar üçün maksimum qiymət səviyyələrini, satışdan asılı olmayaraq satışın maksimum payı olmadan ilkin ödəniş və s. qiymətləndirmək mümkündür. Bu cür hesablamalar üçün müvafiq parametrdə dəyişikliklərin pul vəsaitlərinin daxilolmaları və xərclərinin müxtəlif komponentlərinə təsirini nəzərə almaq lazımdır. Parametrlərin layihə dəyərlərinin zərərsizlik nöqtəsinə yaxınlığı müvafiq addımda layihənin qeyri-kafi sabitliyini göstərə bilər.

Zərərsizlik nöqtəsi hər bir layihə iştirakçısı üçün də müəyyən edilə bilər (nöqtəyə çatma meyarı bu iştirakçının xalis mənfəətinin sıfıra çevrilməsidir). Bunun üçün, sərhəd dəyərləri müəyyən edilən parametrin dəyərləri dəyişdikdə, bu iştirakçının gəlir və xərclərinin necə dəyişdiyini müəyyən etmək lazımdır.

Layihənin həyata keçirilməsinin müxtəlif ssenariləri, onların həyata keçirilməsi ehtimalları və hər bir ssenari üçün layihənin əsas texniki-iqtisadi göstəricilərinin dəyərləri haqqında daha ətraflı məlumat varsa, ssenarilərdən layihənin effektivliyi qiymətləndirmək üçün daha dəqiq metoddan istifadə oluna bilər. O, layihənin effektivliyinin ümumi

göstəricisini - gözlənilən inteqral effekti (gözlənilən NPV) birbaşa hesablamağa imkan verir. Qeyri-müəyyənlik nəzərə alınmaqla layihənin gözlənilən effektivliyinin qiymətləndirilməsi layihənin həyata keçirilməsinin müxtəlif ssenariləri, onların həyata keçirilməsi ehtimalları və hər bir ssenari üzrə layihənin əsas texniki göstəricilərin dəyərləri haqqında daha ətraflı məlumat olduqda həyata keçirilir. Gözlənilən effektin göstəricilərinin müəyyən edilməsi üsulları layihənin həyata keçirilməsi üçün qeyri-müəyyən şərtlər haqqında mövcud məlumatlardan asılıdır.

## LƏNKƏRAN MƏTBƏXİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Nigar Nəzərova**
**dosent**
**Rufanə Nəsirova**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**nnigar00@mail.ru**
**agayevaruf189@gmail.com**

**Açar sözlər:** Lənkəran mətbəxi, ləvəngi, kükü, şamo, balıq sırdağı

Prezident İlham Əliyevin həyata keçirdiyi mədəniyyət sahəsindəki islahatlar respublikanın Cənub bölgəsində müsbət nəticəsini vermişdir. Bölgədə mədəni sahədə infrastuktur yaradılmış, mədəniyyət müəssələrinin, mədəni – kütləvi tədbirlərin çərçivəsi xeyli genişləndirilmişdir. Azərbaycan respublikası Prezidentinin 2012 – ci il 29 dekabr tarixli Fərmanı ilə “Azərbaycan 2020: gələcəyə baxış “İnkişaf konsepsiyası təsdiq edildi. Burada milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətləri müəyyənləşdirilmiş, dövlət tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Lənkəran rayonunda Moloja Sənətkarlıq Klubu, Liman Folklor klubu, Şaqlaser sənətkarlıq evi, Balıqçılar yaradıcılıq evi və s rayonun mədəni inkişafını əks etdirən tədbirlər həyata keçirilmişdir.

2021 – ci ilin noyabr ayında Lənkəran şəhəri “qastronomiya“ mövzusu üzrə UNESCO – nun Yaradıcı Şəhərlər Şəbəkəsi sırasına daxil edilib .

Zənginliyi və özünənəxsusluğu ilə fərqlənən Lənkəran mətbəxinin unudulmaqda olan bəzi yemək və içkilərinin spesfik xüsusiyyətləri indi də diqqəti cəlb etməkdədir. Lənkəran mətbəxinin ləziz plov növlərinin unudulan dadlarını bir daha insanlara xatırlatmaq üçün 2009-cu ildə Lənkəranın mərkəzi meydanında Plov festivalı keçirilmişdir. Turşu- kabab plov, südlü plov, lərgə plov, qazmaqlı plov, şirinqovurma plov və onlarla belə plovlar da daxil olmaqla dəmlənmiş 52 növ plov yəməyi gələn qonaqlara festival zamanı təqdim edilmişdir.

Əhalinin ənənəvi yemək çeşidində düyü və düyü xörəkləri başlıca yer tuturdu. Tarixi mənbələrə əsasən əhali arasında onlarla plov növü olduğunu deyə bilərik. Qəmərşah Cavadovun” Azərbaycanın azsaylı xalqları və milli azlıqları “ əsərində göstərilmişdir ki, hazırlanmasına görə talışlar arasında “ yaxni plov “ yəni ət qovurması ilə plov, “ sio plov “ ördək ətindən və sumax əlavə edilməklə hazırlanan plov, “ kua plo “ – balqabaq plov, “ kişmiş plo” kişmişli plov, “şivit plo “ – şüyütlü plov və başka plov növləri hazırlanmışdır.

Müasir dövrdə Lənkəranda cücə plov, süzmə plov, ləvəngi plov, daşma plov, mərci plov, paxla plov və s. plovların adını qeyd etmək olar .

Lənkəran mətbəxində ağartı məhsullarından hazırlanan yeməklər çox geniş istifadə

olunur . Buna misal olaraq “ayran aşını“ qeyd etmək olar . Bu yeməyi dovğaya bənzətsələr də müəyyən fərqləri vardır. Bunun üçün ayrana azca un vurub, düyü və noxud töküb bişirirlər. Bəzi yerlərdə lobya və ya lərgədə əlavə edirlər. Qovurtmacda Lənkəran mətbəxinə xas olan yeməkdir. O, süddən hazırlanır. Südü azca bişirib içinə çörək doğrayıb yeyirlər.

Balıq yeməklərindən balıq sırdağı, qovurma balıq, şor balıq, balıq ləvəngisi, küklərdən qozlu kükü, balıqlı kükü, səbzi kükü, kartof kükүsü, badımcan kükүsü və s ləvəngilərdən balıq, toyuq və badımcan ləvəngisi, şirniyyatlardan isə şorçörək, bişi, zirən çörək, Lənkəran külçəsi, Qəndi külçə və s misal göstərmək olar.

Lənkəran mətbəxinin əsas səciyyəvi xüsusiyyətlərindən biri mövsümə görə fəreqli yeməklərdən ibarət olmasıdır. Yaz və yay aylarında göyərtidən hazırlanan yeməklər üstünlük təşkil edir. Meşədə və bağda bitən yabanı və digər göyərtilər toplanıb tərə, kətə bişirilir. Mövsümü olaraq yabanı nanə, göy soğan, kəklikotu istifadə olunur . Qış mövsümündə isə köçəri ov quşlarından hazırlanan yeməklərə üstünlük verilir.

Lənkəran mətbəxinin məhşur bir neçə yeməyinin hazırlanmasına baxaq:

**LƏVƏNGİ.** Cənub bölgəsinin ən məhşur yeməklərindən biri ləvəngidir. Burada balıqdan , toyuqdan , tərəvəzlərdən, çöl quşundan olmaqla müxtəlif ləvəngi növləri hazırlanır . Ləvəngi həm yerli, həmdə xarici qonaqların bəyəndiyi təamlardan biridir. Cənub bölgəsində toy və xeyir işləri bu yeməksiz təsəvvür etmək olmaz . Ləvəngini hazırlamaq üçün ayrıca çəkilmiş və acı suyu sıxılmış soğan və üyüdülmüş qoz qarışığından istifadə edilir. Duz və istiot əlavə etdikdən sonra ləvəngi toyuq, balıq və ya çöl quşunun içərisinə doldurulur. Bu yeməyi təndirdə, sobada və ya ocaq üstündə bişirmək olar. Adətən ləvəngini süfrəyə aş ilə verirlər.

**TƏRƏ.** Yaz və yay aylarında ən çox bişirilən, olduqca faydalı, sağlam yeməklərdən biridir. Bu yeməyi müxtəlif növ göyərtilərdən hazırlayırlar. Göyərtilər pörtlədilir, pörtlədildikdən sonra suyu süzülür və xüsusi taxta üzərində döyülür. Üzərinə düyü, alça qurusu, kərə yağı və abqora əlavə olunub bişirilməyə verilir. Hazır olmağa az qalmış yumurta çırpılıb üzərinə əlavə olunur. Bu yemək süfrəyə zövqə görə duzsuz və ya duzlu balıq ilə verilə bilər.

**KÜKÜ.** Kükü Lənkəran mətbəxinin qədim yeməklərindən hesab olunur. Kükü doyumlu, dadlı, ətirli talış yeməklərindəndir. İlin bütün fəsillərində bişirib yemək mümkündür. Kükünün səbzi, badımcan, ləvəngi, noxud və s çeşidləri vardır. Cənub bölgəsində ən çox bişirilən ləvəngi kükүsüdür. Ləvənginin üzərinə yumurta, göyərti, kartof, duz, istiot, sumax, yağ, bir xörək qaşığı un əlavə etməklə ləvəngi kükүksünü hazırlamaq olar. Kütlə yaxşı qarışdırıldıqdan sonra, yaxşıca qızdırılmış və içərisinə yağ əlavə edilmiş tavaya əlavə edilib, hər iki tərəfi qızardılır.

**BALIQ SIRDAĞI.** Lənkəran mətbəxinin ən tanınmış yeməklərindən biri balıq sırdağıdır. Balıq sırdağının hazırlanmasında kütüm, çəki, sazan kimi balıqlardan istifadə olunur. Balıq sırdağını hazırlamaq üçün xırda – xırda doğranılmış göyərtilər yağda qızardılır. Ayrıca bir tavada isə hissələrə bölünmüş balıq əti qızardılıb, göyərti ilə birləşdirilir. İçərisinə sarımsaq, alça qurusu,zövqə görə duz və istiot əlavə edilir.

**PAXLALI AŞ.** Yaz fəslində hazırlanan yeməklərdən biridir. Paxla qabığından təmizləndikdən sonra isladılmış düyüyə qatılıb, qaynadılıb, süzülür. Qazanin dibinə yağlı qoyun əti və onun da üzərinə hazırlanmış paxlalı, düyülü kütlə, sonda isə qazana doğranılmış şüyüt əlavə edilməklə hazırlanır. Bu xörək süfrəyə turşu kabab və ya yarpaq dolması ilə verilə bilər. Adətən, yeyərkən qatıqdan istifadə edilir.

**ŞAMİ.** Lənkəran mətbəxinə xas olan yeməklərdən biridir. Bəzən görünüşünə görə şamini tava kababı və ya kotletə bənzədirlər. Lakin, hazırlanma qaydasına texnologiyasına görə şami tava kababı və kotletdən fərqlənir. Əsas fərqi ətin əvvəlcə qaynadılıb , sonra

çəkilməsidir. Əvvəlcə ət və bütöv soğanlar qazana su əlavə edilib qaynadılır. Tamilə bişmiş ət və soğanlar ət çəkəndə çəkilir. Çəkilmiş kütlənin üzərinə yumurta, duz, istiot əlavə etdikdən sonra, yaxşıca yoğurub, orta qalınlıqda, uzunsov küftəciklər hazırlanıb, tavada yaxşıca qızardılır. Adətən süfrəyə aş ilə verilir.

**TURŞU KABABI.** Lənkəra mətbəxinə xas olan ləziz təamlardan biridir. Turşu kabab hazırlamaq üçün sümüksüz ət və soğan çəkilib, üzərinə duz, istiot əlavə edilir və birgə qarışdırılır. Qalmış sümüklü ət isə doğranılır və 1 saat müddətində qaynadılır. Turşu kabab üçün istifadə olunucaq göyərti ,sarımsaq və əlavə olaraq 2 ədəd soğanda xırda – xırda doğranılıb , qarışdırılır. Doğranılan göyərti – soğan qarışığının bir qismi tavaya əlavə edilirək yağda qızardılır. Daha sonra yağda qovrulan göyərtiyə əvvəlcədən qaynadılıb, doğranmış sümüklü ət əlavə edilir və göyərti ilə bir yerdə tavada qovrulur. Sonra isə qovrulan ət və göyərti ayrıca qazana yığılır və qaynadılan ətin suyu üzərinə süzülür və zövqə görə duz əlavə edilib bişirilir. Turşu kababın dadlı alınması üçün ona limon suyu və abqora əlavə edilir. Çəkilmiş ət soğan qarışığına göyərti - soğan qarışığının qalmış qismi əlavə edilir. Çəkilmiş ətlə göyərti qarışdırıldıqdan sonra kütlədən kiçik küftəciklər hazırlanır. Küftələri hazırlayarkən əlləri limon suyuna və ya abqoraya batırdıqda küftənin bişərkən dağılmasının qarşısını almaq olar. Küftələr hazırlandıqdan sonra soba üzərində qaynayan tikə ət və qovrulmuş göyərtinin üzərinə düzülür. Bu yemək 45 dəqiqə qaynadıqdan sonra tam bişir. Turşu kababı hazırlayarkən qoyun ətindən istifadə edilərsə daha dadlı alınar.

Lənkəran-Lerik mətbəxində xüsusən yaz, yay aylarında mövsümündə səbzə-göyərtidən hazırlanan yeməklər üstünlük təşkil edir. Yabanı halda bitən və ya mədəni şəkildə becərilən göyərtilərdən **tərə, kətə** bişirirlər. Yerli mətbəxdə göy soğan, sarımsaq, yabanı nanə, kəklikotu geniş istfadə olunur.

Lənkəran-Astara etnoqrafik zonasının xörəkləri keçmişdə mis qazanda bişirilərdi. Bugünün özündə də bir çox kənd yerlərində mis qazanda hazırlanan xörəklər xos dadı, ətri ilə seçilir. Ona görə də bu mətbəxin qabları: qazan, süzgəc, tava, kəfkir və s əsasən misdən hazırlanır. Mis qazan və qabları vaxtaşırı qalaylamaq lazımdır ki, xörəyə eləcədə, orqanizmə həddinən artıq mis düşməsin

## EKOLOJİ TƏHLÜKƏSİZ QİDA DÖVRÜN TƏLƏBİDİR

**Rəhim Bilalov**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**rahim19511951@mail.ru**

**Açar sözlər:** iqlim, ekologiya, qida, sağlamlıq

Müasir dünyamızda ekologiya,qida və sağlamlıq sahəsində yaranmış problemlərin həllinə ehtiyac duyulur.

Hər bir ölkə öz əhalisinin qida məhsullarına olan tələbatını ödəyə bilməli və ölkənin ərzaq təhlükəsizliyini təmin etməlidir. Ona görə də ölkənin əhaləsinin ərzaq təhlükəsizliyinin təmin olunması Dövlətin əsas problemlərindən biri olub –makroiqtisadi ,təbii ,texnogen, texnologi ,sosial ,ticarət-iqtisadi və siyasi risklərlə bağlıdır.

Belə hesab olunur ki,insanların genetik potensialının azalması müxtəlif xəstəliklər və ölüm hallarının artmasının başlıca səbəbi ilk növbədə qida məhsullarının ekoloji keyfiyyəti

ilə bağlıdır.Son vaxtlar insanların sağlamlıqına mənfi təsir göstərən amillər xeyli artmışdır. Bunlara süni bioloji fəal maddələr və preparatlardan istifadə,xəstələr üçün bəzi təhlükəli diaqnostik metodların tətbiqi,keyfiyyətsiz qida və bir sıra dərmanlardan istifadəsinin insanların sağlamlıqını kəskin pisləşdirilməsi misal ola bilər.

Bununla əlaqədar mövcud problemlər,onları doğuran səbəblər və aradan qaldırılma yollarını araşdırılması xüsusi aktuallıq kəsb edir.

İqlimin qloval dəyişikliyi, qida ehtiyyatlarının get-gedə tükənməsi ,müxtəlif xəstəliklərin və ona yoluxan insanların sayının artması,insan üçün olduqca təhlükəli və əvvəllər məlum olmayan yeni-yeni xəstəliklərin meydana çıxması, qida məhsullarının keyfiyyətinin pisləşməsi,qida çatışmazlıqı ,ərzaqın qiymətinin kəskin artması və.s amillərin mövcudluqu ərzaq və sosial ekologiyanın müasir vəziyyətində problemlər və narahatlıq yaradır

Qida məhsullarının təhlükəsizliyini təmin etmək üçün onların istehsalı,saxlanması,nəql olunma,emal,realizə və idixal əməliyyatlarıda daxil olmaqla bütün mərhələlərdə tələb olunan texniki tələblərə uyğun tədbirlər görülməlidir.

BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatının (FAO)məlumatına görə 1950-1985 ci illərdə dünyada ərzaq istehsalının illik artımı 30 milyon ton,1985-95-ci illərdə 12 milyon ton təşkil edirdisə ,2030-cu iledək bu göstəricinin 9 mln.ton səviyyəsində olacağı proqnozlaşdırılır. Dünya əhaləsinin illik artımının 80 milyon nəfər olmasınıda nəzərə alsaq bu qeyri-mütənasiblik məsələsini dahada kəskinləşdirir.İndi yer kürəsində 2 milyarddan çox insan qeyri normal qidalanmadan əziyyət çəkir. Hazırda dünyanın yalnız iki ölkəsi –ABŞ və Fransa öz əhalisinin qida məhsullarına olan təlabatını tam ödəyə bilir. Almaniyada bu 93% ,ölkəmizdə 60-65% ödənilir. Qonşu Rusiyada qida məhsullarının ümumi idxalı 46% ,mərkəzi şəhərlərdə 70%,Moskvada isə 73% təşkil edir.

Qida insanı xarici mühitlə əlaqələndirən ən mühüm amildir. Ona görədə ərzaq xammalının və qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi əhalinin sağlamlığını müəyyən edən və genefondunu qoruyan əsas şərtlərdəndir. Müasir insanın qida rasionunda qida maddələrinin və bioloji fəal komponentlərin çatışmazlığı oqanizmin xarici və daxili mühitin əlverişsiz amillərinə davamlığını zəiflətmiş olur. Qida məhsulları ətraf mühitdən bəzi ekoloji zərərli maddələri udmaq və böyük miqdarda özündə akumliyasiya etmək xüsusiyyətinə malikdir.

Ətraf mühitdən zərərli maddələrin 70% -i insan orqanizminə bitki və heyvan mənşəli qidalarla düşür.

Son illər qida məhsullarının nitratlar və onların parçalanma məhsulları ilə çirklənməsi dəfələrlə artamaqda davam edir. Digər tərəfdən Ekoloji səbəblərdən dünya üzrə şəkər çuğundurunun şəkərliliyi,günəbaxanın yağlılığı ,kartofun nişastalığı ,südün zülalı , və yağlılığı, tərəvəzlərdə quru maddələrin miqdarı azalmaqdadır.

Ekoloji təmiz üzvi məhsullar istehsalı üçün tərəvəz ,meyvə və tarla bitkiləri pestisizdərsiz,kimyəvi gübrələrsiz , şəhər tullantıları və çirkab sular olmadan istehsal edilməli, ionlaşmış şüalar,kimyəvi əlavələr və rəngləyicilər olmadan emal olunmalıdır.

Üzvi heyvandarlıq məhsulları istehsal etmək üçün təbii otlardan istifadə olunmalı, yemdə antibiotik və hormonların tədbiqi istisna edilməlidir.

Ölkəmizdə mövcud olan əkinə yararlı sahələrin böyük çoxluğu təmiz sahələr hesab olunur və ona görə də,ekoloji təhlükəsiz məhsul istehsalı təmin edilə bilər. Bu məsələnin uğurlu həlli əhali arasında geniş təbliğat və informasiya işləri aparmaq və mütəxəssislər hazırlamaqla mümkündür. Bununla əlaqədar ekoji cəhətdən təmiz saf heyvan mənşəli yeyinti məhsulları ,həm kifayət miqdarda ,həmdə sağlam ,təmiz və keyfiyyətli heyvandarlıq və quşçuluq məhsulları olan ət ,süd,yumurta,balıq ,bal və onların müxtəlif çeşidlərinin insanlar üçün zərərsiz və kifayət qədər olması bilavasitə baytarlıq təbabəti həkimlərinin

səlahiyyəti daxilindədir . Xəstə heyvanların qeyd olunan yeyinti məhsullarından insanlarda müxtəlif yoluxucu xəstəliklər,toksikoinfeksiyalar və zəhərlənmələr nəticəsində kütləvi ölüm baş verə bilər. Ona görə də baytarlıq təbabəti xidməti nəinki heyvanların eyni zamanada həm də insanların sağlamlıqı keşiyində duran və ətraf mütitin mühafizəsinin qlobal problemlərinin həlli yollarını öyrənən ,planetar əhəmiyyətli bir elm sahəsidir.

XXI əsrin başlanğıcında bəşəriyyəti sınağa çəkən quş qripi və koronovirus pandemiyaları sübut etdi ki,həmin xəstəliklər insanlara məhz quşlardan və heyvanlardan keçə bilir .Ona görə də ,insanlar arasında qorxulu pandemiya fəlakətlərinin olmaması üçün, ilk növbədə bütün növ heyvanlar və quşlar sağlam olmalıdır.

Bu problemlərin həll olunması isə ilk növbədə, yüksək ixtisaslı kadr potensiyalının hazırlanması sayəsində mümkündür.

Ona görə də ölkəmizdə baytarlıq xidmətinin keyfiyyətini dahada artırmaq məqsədilə Universitetimizin rəhbərliyi tərəfindən ,baytarlıq sahəsində dünyada özünə məxsus yerli olan qardaş Türkiyənin Kafkas Universiteti ilə sıx əməkdaşlıq yaradılmışdır. Həmin universitetin professor və müəllimləri tərəfindən müxtəlif fənlər üzrə bizdə mühazirələr və praktiki dərslər keçirilir. Sonuncu kurs tələbələrimiz istehsalat təcrübəsini həmin universitetdə keçirir.Türkiyə təhsil sisteminə inteqrasiya ,baytarlıq sahəsində yüksək ixtisaslı yerli kadr potensialının hazırlanmasına və nəticədə ölkə əhalisinin sağlamlığının qorunması və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində prioritet problemlərin həll olunmasına pozitiv təsir göstərəcəkdir.

## GİLƏMEYVƏLƏRİN KİMYƏVİ TƏRKİBİ VƏ QİDALANMDA ROLU

**Rəşad Əliyev**
**dosent**
**Elsevər Mirzəyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Reshad-1974@mail.ru**
**themirzeli@gmail.com**

**Açar sözlər:** Giləmeyvə, antioksidant, çiyələk, qaragilə, moruq

Giləmeyvə bitkilərindən ən çox çiyələk, moruq, qarağat, firəngüzümü, böyürtikən, cır mərsin və çaytikanı becərilir. Moruq və çiyələk kimi giləmeyvələr yüz illərdir becərilir və yabani meyvələrdən fərqlənir, digər giləmeyvələr , əsasən təbiətdə böyüyür.

Yabanı giləmeyvə bitkilərnin ən əhəmiyyətlisi mərcanı, mərcangilə və qaragilədir. Azərbaycan respublikasının dağ, meşə və çöllərində çoxlu yabanı giləmeyvə bitkilər bitir. Giləmeyvələr yüksək keyfiyyəti və vitaminlərlə zənginliyi ilə bilinir. Tərkibi üzvi maddələr, şəkərlər, təbii turşular, pektin, aşılayıcı, rəngləyici maddələrlə, A,C,PP,K,B2,B6 vitaminləri ilə zəngindir. Şirələrin tərkibində çeşidindən asılı olaraq 0,3-2,4% üzvi turşular, 0,3-0,8% azotlu maddələr, 12,2-18,5% ümumi şəkərlər, 0,3-2,4% üzvi turşular, 0,3-0,8% mineral maddə vardır. Minerallı maddələrdən natrium, kalium, kalsium, maqnezium, fosfor və dəmir daha çoxdur. Təzə halda yeyilir, mürəbbə, cem, şirə, kompot və s. hazırlanır, bəziləri isə dərman kimi istifadə edilir.

Giləmeyvələrin tərkibi vitaminlər, üzvi turşular, bioloji fəal maddələr və digər elementlərlə
zəngin olmaqla böyük qida və tibbi əhəmiyyətə malikdir. Giləmeyvələr müntəzəm qəbul edilməklə bir çox xəstəliklərin profilaktikasında və müalicəsində geniş istifadə olunur. Giləmeyvələr güclü antiseptik və antibiotik xüsusiyyətli olması ilə orqanizmin immunluq qabiliyyətini əhəmiyyətli dərəcədə artırır. İnsanın qida rasionuna daxil olan giləmeyvələr həm orqanizmin mineral və vitaminlərlə zənginləşməsində, həm də bir çox xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

Giləmeyvələr təbii antioksidantların mənbəyidir. Antioksidantlar insan orqanizmi tərəfindən istehsal edilən və bəzi qida məhsullarının tərkibində mövcud olan birləşmələrdir. Bu birləşmələr orqanizmimizi sərbəst radikallar adlanan potensial təhlükəyə malik molekulların səbəb olduğu hüceyrə zədələnmələrindən qoruyur. Sərbəst radikalların toplanması oksidləşdirici stress halının yaranmasına səbəb ola bilər ki, bu da DNT və hüceyrələrin digər vacib struktur hissələrini zədələyə bilər. Xroniki oksidləşdirici stress ürəyin xroniki xəstəlikləri, diabet və xərçəng
xəstəlikləri riskini artıra bilər Antioksidantlarla zəngin giləmeyvələrin istehlakı qanda antioksidantların səviyyəsini artırmaqla oksidləşdirici stressə qarşı mübarizə aparır və bu xəstəliklərin yaranma riskinin qarşısını alır. Antioksidantlar iltihab prosesləri ilə mübarizə aparır və sərbəst radikalları neytrallaşdırır. Sərbəst radikallar və antioksidantların tarazlığı orqanizmi infeksiyalar və şişlərə qarşı mübarizə ilə təmin edir.

Qida məhsullarının antioksidant tərkibini, FRAP test üsulu vasitəsilə təyin etməklə, onların müvafiq sərbəst radikalı neytrallaşdırmaq qabiliyyəti müəyyən olunur. Beləliklə, FRAP göstəricisi nə qədər yüksəkdirsə, qida məhsulunun tərkibində antioksidantın miqdarı bir o qədər çoxdur.

Kalori cəhətdən çox zəif olan qaragilə də antioksidantlarla zəngin qida məhsullarından biridir. Hətta bəzi tədqiqatlara əsasən, qaragilə digər meyvə və giləmeyvələr arasında antioksidantlarla ən zənginidir. FRAP testlərinin nəticələrinə əsasən, qaragilə meyvəsinin 100 qramında 9.2 mmol antioksidant var. Heyvanlar üzərində aparılan tədqiqat işi nəticəsində müəyyənləşib ki, qaragilə istehlakı yaşla əlaqədar olaraq beyin funksiyasının azalması prosesinə ləngidici təsir göstərir. Həmçinin, qaragilənin tərkibində antosianin adlanan xüsusi antioksidant ürək xəstəlikləri riskini, zərərli xolesterolun LDL miqdarını və arterial təzyiqi azaldır Qaragilənin tərkibində 1,5% limon və alma turşusu, 5,7% şəkər, 2%-ə yaxın sellüloza, 0,5% pektin maddələri olur. Tərkibində C vitamini 16 mq% və karotin 1,0-1,5 mq%- vardır. Bundan başqa qaragilə fenol maddələri ilə də zəngin (0,13-0,31%) olur.

C vitamini və antioksidantlarla zəngin çiyələk bitkisinin 100 qramında 5.4 mmol antioksidant olduğu müəyyən edilib. Antosianinin miqdarının çox olması çiyələyə tünd qırmızı rəng verir. Antosianin zərərli xolesterol LDL miqdarını azaldıb, xeyirli xolesterolun miqdarını artırmaqla, ürək xəstəlikləri riskini azaldır. Bağ çiyələyinin tərkibində 80-88% su, 10-20% quru maddə 6-11%-i şəkər, 1-2% üzvi turşular (çoxu limon,azı alma turşusu), xeyli C vitamini (30-80%), fenol maddələri 0,20%; azotlu maddələr 1%; yağlar 0,64%; sellüloza 1,55%; pektin 1,27%; kül 0,5%; müəyyən miqdar B1 vitamini, karotin, dəmir duzları və fosfor tapılmışdır. Çiyələyin meyvəsindən podaqra və böyrəkdaşı xəstəliyində, yarpaqlarından isə sidikqovucu dərman kimi istifadə edirlər.Çiyələk, eyni zamanda orqanizmin maddələr mübadiləsinə kömək edir və həzmi yaxşılaşdırır, qaraciyərin və öd kisəsinin çirklənməsini aradan qaldırır. Çiyələk avitaminoza qarşı da yaxşı təsir göstərir.

FRAP analizləri nəticəsində 100 qramında 4 mmol antioksidant olduğu müəyyənləşən moruq qida lifləri, C vitamini və manqanla da zəngindir. Aparılan araşdırmalar zamanı moruğun tərkibindəki antioksidantların, xüsusilə də antosianinin xərçəng xəstəliyinin müxtəlif növlərinin (mədə, yoğun bağırsaq, süd vəzisi) inkişafına ləngidici təsir göstərdiyi,

eləcə də oksidləşdirici stress prosesini azaltdığı məlum olub. 2,5%-ə qədər üzvi turşular (alma, salisil, limon, şərab), 0,26% aşı maddəsi, 0,5-2,8% pektin maddəsi, 4-6% sellüloza, 2,7% pentozanlar, 0,8-1,9% azotlu maddə, 7-20 mq% C vitamini, B1, B2, PP, fol turşusu (B9 vitamini), karotin və 0,4-0,8% minerallı maddələr (dəmir, kalium, mis və s.) vardır. Təzə meyvələr susuzluğu yaxşı söndürür, qidanın həzmini yaxşılaşdırır.

Xalq təbabətində moruq meyvəsini çay kimi dəmləyib soyuqdəymədə tərlədici dərman kimi işlədirlər.

## ASTARA MƏTBƏXİNİN BALIQ XÖRƏKLƏRİNİN TEXNOLOJİ, SANİTAR-GİGİYENİK XARAKTERİSTİKASI VƏ GƏLƏCƏK İNKİŞAF PERSPEKTİVLƏRİ

**Rəşad Əliyev**
**dosent**
**Muhəmməd Əlizadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Reshad-1974@mail.ru**
**Muhemmedalizade99@gmail.com**

**Açar sözlər:** balıq, xörək, sanitariya-gigiyena, keyfiyyət

Astara mətbəxinin balıq xörəkləri zəngin tarix və ənənələrə malikdir. Bu xörəklər həm yerli balıq növlərindən, həm də müxtəlif dəniz balıqlarından hazırlanır. Onların hazırlanma texnologiyası, qida dəyəri və sanitariya-gigiyena tələbləri diqqətlə öyrənilir. Həmçinin burada Astara mətbəxinin balıq xörəklərinin kimyəvi tərkibi, balıq xörəklərinin keyfiyyət göstəriciləri, xörəklərin saxlanma şəraiti və müddətinə diqqətli şəkildə yanaşmaq lazımdır. Astara mətbəxinin balıq xörəklərinin hazırlanması rəngarəng və zəngin bir prosesdir. Hər bir xörəyin hazırlanması müəyyən addımları və texniki tələbləri özündə ehtiva edir. Məsələn, bişirilmiş və ya buxarda bişirilmiş balıq xörəklərinin hazırlanması zamanı ilk növbədə balığın doğrama, marinadlama, ədviyyatlandırma və digər prosesləri aparılır. Sonra balıq tərəvəzlərlə və ya digər əlavə komponentlərlə birlikdə hazırlanıb bişirilir. Qızardılmış balıq xörəklərində isə əvvəlcə balıq parçaları unla və ya xırdalanmış çörək qırıntıları ilə qatışdırılır, sonra isə yağda qızardılır. Burada əsasəndə Astara dənizinin ziyad, kefal, kilkə, çəki, nərə balıqları xörəklərin hazırlanmasında istifadə olunur. Bütün bu proseslər dəqiq ardıcıllıqla və ölçülərlə aparılmalıdır ki, yüksək keyfiyyətli və üstün istehlak xassəli xörək alına bilsin.

Astara mətbəxinin balıq xörəkləri qida dəyəri baxımından çox zəngindir. Balıq əti zülal, vitaminlər (A, B, D, E), mikroelementlər (kalsium, fosfor, dəmir, yod) və yağ turşuları (omega-3) ilə zəngindir. Xörəklərə əlavə olunan tərəvəzlər, ədviyyatlar və s. də xörəklərin qida dəyərini artırır. Məsələn, kələm, pomidor, soğan, sarımsaq, zəncəfil və müxtəlif ədviyyatlar vitaminlər, minerallar və antioksidantlarla zəngindir. Bunun nəticəsində Astara mətbəxinin balıq xörəkləri insanların sağlamlığı üçün çox faydalıdır.

Qeyd etmək olarki, balıq xörəklərinin hazırlanmasında sanitariya-gigiyena qaydalarına ciddi əməl olunmalıdır. İlk növbədə balıq təzə və sağlam olmalıdır, yoxlanılmalı və zərərsizləşdirilməlidir. Təmiz və dezinfeksiya olunmuş alət-ləvazimatlar, avadanlıq və işçi sahələrdən istifadə edilməlidir. Hazırlama və bişirmə temperaturu, saxlanma şərtləri və

müddəti də mütləq şəkildə nəzarət altında saxlanılmalıdır. Xörəklər normal gigiyena şəraitində, ləkəsiz qablaşdırma materiallarında və nəqliyyat vasitələrində daşınmalıdır. Bütün bu tədbirlər balıq xörəklərinin təhlükəsizliyini və keyfiyyətini təmin edilməsində başlıca rola malikdir. Həmçinin Astara mətbəxində hazırlanan balıq xörəklərinin saxlanma şərtləri və müddətləri son dərəcə mühüm əhəmiyyət kəsb edir. Təzə balıq və balıq xörəkləri soyuducuda 0-4°C temperaturda saxlanılmalıdır. Dondurulmuş balıq və xörəklər ən çox 12 ay, soyudulmuş balıq isə 2-5 gün ərzində saxlanıla bilər. Konservləşdirilmiş balıq məhsulları isə ən çox 2 il ərzində keyfiyyətlərini qoruyur. Saxlama müddətləri və şərtlərinə əməl edilməsi balıq xörəklərinin keyfiyyətini, dad və sağlamlıq xüsusiyyətlərini mühafizə edir. Ballıq xörəklərinin keyfiyyət göstəricilərinə isə onun görünüşü, qoxusu və dadı, konsistesiyası və kimyəvi tərkibi aid edilir.

1. Xarici görünüş: Xörəyin görünüşü təmiz, cəlbedici, xarakterik rəng və formasını saxlamalıdır.
2. Qoxu və dadı: Xörəyin qoxusu və dadı təzə balığa, tətbiq olunan ədviyyatlara və digər tərkib komponentlərinə xas olmalıdır.
3. Konsistensiya: Xörəyin konsistensiyası təbii, yaxşı mənimsənilən olmalıdır.
4. Kimyəvi tərkib: Xörəyin tərkibində qeyd olunan bütün komponentlər olmalı, heç bir əlavə və ya qeyri-müəyyən maddələr olmamalıdır.

Astara mətbəxinin balıq xörəklərinin istehsalında rast gələn bəzi problemlər mövcüddur. Bunlar aşağıdakılardır:

1. Keyfiyyət problemləri: Təzə və keyfiyyətli balıq xammalının olmaması, xörəklərin düzgün hazırlanmaması, yanlış saxlanma şərtləri və müddətləri balıq xörəklərin keyfiyyətini aşağı sala bilər.
2. Texnoloji problemlər: Avadanlıq, alət-ləvazimat və texniki qurğuların köhnəlməsi, işçi kadrların təcrübəsizliyi istehsal prosesində problemlər yarada bilər.
3. Sanitariya-gigiyena problemləri: İşçi sahələrinin, alət-ləvazimatın və qablaşdırma materiallarının sanitariya-gigiyena qaydalarına cavab verməməsi nəticəsində məhsul təhlükəli formaya düşə bilər.

Astara mətbəxinin balıq xörəklərinin gələcək inkişaf perspektivləri aşağıdakılardır:

Yeni reseptlərin inkişafı: Astara mətbəxinin balıq xörəklərinin növünü və çeşidini genişləndirmək üçün yeni reseptlərin işlənib hazırlanması önəmlidir. Bu, istehlakçıların marağını artırmaqla yanaşı, mətbəxin rəqabət qabiliyyətini də yüksəldər.

Keyfiyyətin yüksəldilməsi: Balıq xörəklərinin hazırlanmasında istifadə olunan balıq xammalının, alət-ləvazimatın və texnoloji prosesin davamlı yaxşılaşdırılması xörəklərin keyfiyyətini və dadını artıracaq.

Marketinq fəaliyyətlərinin genişləndirilməsi: Astara mətbəxinin balıq xörəklərinin reklam və tanıtım kampaniyalarının gücləndirilməsi, onların əlçatanlığının və populyarlığının artırılmasına kömək edəcəkdir.

# TƏBİİ TƏRƏVƏZ KONSERVLƏRİ İSTEHSALININ BƏZİ ASPEKTLƏRİ

**Rəşad Əliyev**
**dosent**
**Şahmar Ağazadə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Reshad-1974@mail.ru**
**aqayevsahmar86@gmail.com**

**Açar sözlər:** konserv, tərəvəz, xammal, temperatur

Belə konservlərə qablara doldurularaq hermetik bağlanan, 110-120$^0$C temperaturda sterilizə olunan (meyvə-tərəvəz konservlərinin çoxu), 100$^0$C-dən aşağı temperaturda pasterizə olunan (tərəvəz marinadları, tomat sousu, meyvə supu və s.), yaxud kombinə edilmiş üsullarla hazırlanan – əvvəlcə marinadlaşdırılan, duza qoyulan, turşudulan, sonra isə sterilizə yaxud pasterizə olunan (pasterizə olunmuş meyvə-giləmeyvə və tərəvəz marinadları, konservləşdirilən turşudulan kələm, duza qoyulan xiyar, duza qoyulmuş tərəvəzlərdən marinadlar) meyvə-tərəvəz məhsulları aiddir. Bəzi konservlər (tomat püresi, meyvə-giləmeyvə püresi, şirələr və s.) aseptik konservləşdirmə ilə hazırlanır. Bu halda məhsul qablara doldurulana qədər sterilizə olunur. Meyvə-tərəvəz kütləsi xüsusi aparatda paslanmayan poladdan hazırlanan zərif borucuqlardan 5-6 m/san sürətlə buraxılaraq 130-150$^0$C temperaturda qızdırılır, sonra 30-40$^0$C-yə qədər soyudulur, dərhal sterilizə olunmuş qablara (banka, çəllək, sistern) doldurulur və bakterisid filtrli cəftə ilə steril qapaqla bağlanır. Aseptik konservləşdirmə ilk xammalın təbii xüsusiyyətlərini saxlayan daha yüksək keyfiyyətli məhsul alınmasını təmin edir.

İsti sterilizə üçün həmçinin məhsulun həll bişməsini istisna edən yüksək tezlikli cərəyandan istifadə oluna bilər. Başlanğıc xammal keyfiyyətinə görə yoxlanır, iriliyinə, rənginə, yetişkənlik dərəcəsinə görə sortlaşdırılır, yuyulur, təmizlənir, doğranır, bəzi hallarda blanşirlənir yaxud bişirilir (qəlyanaltı tərəvəz konservləri), vakuum aparatlarında buxarlandırılır (tomat pastası), açıq qaynatma qazanlarında (tomat püre), xüsusi maşınlarda sürtgəcdən keçirilir (püreyə bənzər məhsullar), çəyirdəyi kənar edilir, qabıqdan təmizlənir (alma, armud, çəyirdəkli meyvələr, kök və s.). Hazırlanan xammal paylaşdırılır, bankalara doldurulur, hermetikləşdirilir və serilizə yaxud pasterizə olunur.

Tərəvəz və qarışıq konservlər hazırlanma üsuluna və məqsədinə görə təbii şirələr, içkilər, qəlyanaltılar, marinadlar, birinci nahar yeməkləri, ictimai iaşə üçün yarımfabrikatlar, qatılaşdırılmış tomat məhsulları, pəhriz və uşaq qidaları kimi fərqləndirilir.

Tərəvəz konservlərinin xarici görünüşünün yoxlanılması etiketin olması və onun vəziyyətinin müəyyən edilməsindən başlanır. Bu zaman etiketdəki yazıların məzmunu öyrənilir. Taranın xarici görünüşündə baxmaqla müəyyənləşdirilə bilən nöqsanların olması (hermetikliyin pozulması, qapağın şişməsi, boşalması və s.) yoxlanılır. Məhsulun özü yoxlanarkən tomat kütləsi bircinsli olmalı, qabıq hissəcikləri olmamalı və kiflənmə müşahidə edilməməlidir. Tomat-pasta və tomat-püredə tumunun olması nöqsan sayılır.Dad və iyi yoxlanarkən dequstasiya şərtlərinə əməl etmək lazımdır. Tomat məhsulları özünəməxsus dad-tam xüsusiyyətlərinə malik olmalıdır. Kənar dad-tam olması yolverilməz hesab edilir. Tərəvəz konservlərinin dadı əsas xammalın və əlavələrin dadına müvafiq olmalıdır.Tomat məhsullarının rəngi yoxlanarkən təbii işıqdan istifadə edilməlidir. Bir çox hallarda bu məqsədlə rəngli şkalalardan da istifadə olunmalıdır. Texniki yetişkənliyə çatmamış pomidordan alınan tomat məhsulları tutqun rəngli olur.

# DEMOQRAFİK İŞSİZLİK VƏ GƏNCLƏRİN MƏŞĞULLUQ PROBLEMLƏRİ

**Rəşad Muradov**
**professor**
**Nicat Muradlı**
**doktorant**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu**
**rashad_muradov@hotmail.com**

**Açar sözlər:** əmək bazarı, məşğulluq, demoqrafik işsizlik, peşə-ixtisas hazırlığı, kadrlar

Müasir mərhələdə dünyanı narahat edən ən qlobal problemlərdən biri əmək qabiliyyətli yaşında iqtisadi fəal əhalinin məşğulluq səviyyəsini yüksəltməklə işsizlik səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir.

Nəzərə almaq lazımdır ki, işsizliyin yaranması səbəbləri müxtəlif olduğu kimi, onun həm də müxtəlif formaları vardır. Aparılan araşdırmaların nəticələri göstərir ki, hal-hazırda ölkəmiz üçün ən xarakterik olan mühüm işsizlik formalarına – axıcı, struktur, "demoqrafik" və müəyyən dərəcədə də "təhsil" işsizliyi daxildir. Burada biz həmin işsizlərin hamısı üzərində deyil, "demoqrafik" işsizlik forması üzərində dayanacağıq.

Ölkəmiz üçün xarakterik olan bu işsizlik forması bazar iqtisadiyyatının özünəməxsus xüsusiyyətlərindən birini təşkil edir və əhalinin müxtəlif cins və yaş qruplarından olan işsizləri özündə birləşdirir. Məlum olduğu kimi, bazar münasibətləri şəraitində iş qüvvəsinə tamamilə yeni tələblər irəli sürülür: hər bir iş yerlərində istehsalın inkişaf etdirilməsində iştirak etmək; öz xarakterinə və texnologiyasına görə tez-tez dəyişən daha mürəkkəb məhsulların istehsalını təmin etmək; daimi təkmilləşdirmələr aparılmaqla məhsulların maya dəyərinin aşağı səviyyədə saxlanılmasını təmin etmək və s. səbəblərindən asılı olmayaraq demoqrafik işsizlik bazar iqtisadiyyatı şəraitində labüddür və onun xarakterik cəhətlərindən biridir. 2023-cü ilin məlumatlarına əsasən respublikamızda mövcud olan işsiz iqtisadi fəal əhalinin 58,1 faizini qadınlar, 52,4 faizini isə 15-29 yaşında olan gənclər təşkil etmişdir. İşsiz qadınların 51,4 faizi, işsiz kişilərin isə 53,2 faizi qeyd edilən yaşda olan gənclərin payına düşmüşdür.

Apardığımız tədqiqatların nəticələri göstərir ki, bütünlükdə götürdükdə müstəqillik illərində respublikamızda əmək bazarında ən çox gərginliklə üzləşənlər sosial cəhətdən zəif müdafiə olunan qadınlar, yaşlı adamlar, gənclər, ali və orta ixtisas təhsili məktəblərini bitirənlər olmuşlar. Apardığımız hesablamalardan aydın olur ki, 2023-cü ildə 15-29 yaşda olan işsiz gənclərin cəmi 39,3 faizini ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili olanlar, o cümlədən cəmi 4,2 faizini ilk peşə ixtisas təhsili olanlar təşkil etmişlər. Bu isə o deməkdir ki, ölkədə fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili sistemində kadr hazırlığı həmin işə götürənlərin tələblərinə uyğun gəlmir. 2015-ci ilin əvvəlinə olan məlumatlara əsasən ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alanların sayı cəmi 25,4 min nəfər olmuşdur ki, bu da ali, orta ixtisas və ilk peşə - ixtisas təhsili müəssisələrində təhsil alanların cəmi 10,5 faizini (244,1 min nəfərin) təşkil etmişdir (9, səh. 238 və 244 əsasında hesablanmışdır.).

Peşə-ixtisas təhsili üzrə kadr hazırlığının əmək bazarının tələblərinə uyğun olmamasının əsas səbəblərindən biri işsiz qadın və kişilərin böyük əksəriyyətinin heç bir ixtisas almadan əmək bazarında iş axtaran orta məktəb məzunlarından ibarət olmasıdır. Bu isə o deməkdir ki, hələ də əhali peşə ixtisas təhsili sistemində hər hansı bir peşə və ya ixtisasa

yiyələnməyin məşğulluğun təmin edilməsinə kömək edən əsas amillərdən biri olmasına inamsız yanaşırlar. Bu inamsızlıq ali məktəblərlə müqayisədə peşə məktəblərinə münasibətdə özünü xüsusi ilə daha qabarıq şəkildə göstərir. Məsələn, əgər 2013-cü ildə ilk peşə-ixtisas məktəblərində təhsil alanların sayı 30,7 min nəfər olmuşdursa, 2015-ci ildə olanların sayı 25,4 min nəfər təşkil etmiş və ya 17,3 faiz azalmışdır (9, 238). Ali məktəblərində təhsil alanların sayı isə artaraq həmin dövrdə 145,6 min nəfərdən 158,2 min nəfərə çatmış və ya 8,6 faiz çoxalmışdır (9, 238).

Qeyd etmək lazımdır ki, belə vəziyyətin yaranmasının, yəni işə götürənlərin öz ehtiyaclarına uyğun kadrlar əldə edə bilməməsinin və ümumiyyətlə, ölkədə demoqrafik işsizliyin mövcud olmasının digər səbəbi də, işə götürənlərlə iş axtaranlar arasında vasitəçilik edən həm dövlət, həm də özəl məşğulluq xidməti orqanları sisteminin kifayət qədər lazımı səviyyədə inkişaf etməməsidir. Bu da bir həqiqətdir ki, işsizlik əhalinin həyat səviyyəsinin aşağı düşməsinə, demoqrafik vəziyyətin pisləşməsinə, real bölmədə məşğul olanların əmək haqqının azalmasına, vergi yükünün artmasına, uzun müddət işsiz qalanların mənəvi və psixoloji cəhətdən tənəzzülə uğramasına, peşələrini itirməsinə, kriminogen vəziyyətin kəskinləşməsinə, sosial gərginliyin və siyasi sabitsizliyin yaranmasına səbəb olan bəladır və buna görə də onunla mübarizə aparılmalıdır. İşsizlik həm də şəxsiyyətin mənəvi və psixoloji tənəzzülünə gətirib çıxarır, ona səbəb olur. Məsələn, yaşlı adam üçün öz iş yerini itirilməsi onun həyatının əsasını və mənasını itirməsi, hətta faciəsi kimi qiymətləndirilə bilər. Belə olan halda adam özünün vərdiş statusunu itirir, işszlik vəziyyətini faciə, çıxılmazlıq halı kimi qəbul edir, özünü uğursuz sayır. Uzun müddət işsiz qalmış adam özünü yarımçıq, inamsız, öz imkanlarını qiymətləndirə bilməyən bir adam kimi hiss edir. Cəmiyyətdə "artıq adam" kimi qalmış bu insanlarda nəinki maddi vəziyyətinin pisləşməsi həyəcanı, həm də bir sıra psixoloji xarakterli problemlər meydana çıxır. Bu həmin insanlarda, hətta uzaq gələcəkdə belə həyat səviyyələrinin yaxşılaşacağına ümidlərini itirir.

İşsizliyin ən təhlükəli və dağıdıcı nəticələri arasında kriminogen vəziyyətin kəskinləşməsini xüsusi qeyd etmək lazımdır. Bundan əlavə işsizlik regionlarda cinayətkarlığın artması baxımından da son dərəcə təhlükəlidir. Buna görə də gələcəkdə ölkəmizdə həmin neqativ proseslərin qarşısını almaq və onların meydana çıxmasına yol verməmək məqsədilə işsizliklə, o cümlədən demoqrafik işsizliklə bağlı bütün problemlər dərindən tədqiq edilib öyrənilməli və dövlətin ciddi nəzarətinə götürülməlidir.

# AZƏRBAYCANDA TURİZM BAZARININ FORMALAŞMASINDA LƏNKƏRAN RAYONUNUN POTENSİAL İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Rövşən Ələkbərov**
**dosent**
**Nəzrin Paşayeva**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**rovsen1234@bk.ru**
**pasayevanezri@gmail.com**

**Açar sözlər:** turizm bazarı, turizm potensialı, turizm müəssirələri

Müasir dövrdə turizm bazarı demək olar ki, ölkə iqtisadiyyatın bütün sahələrinə nüfuz edərək, onun inkişafına böyük təsir göstərir. Turzim bazarının formalaşmasında əsas məqsəd ölkəyə turistləri cəlb etməklə yanaşı, həm də gəlir əldə etməkdir. Lənkəran rayonu özünün təbii – coğrafi şəraitinə görə turizm bazarının formalaşmasında, eyni zamanda ölkəyə həm yerli, həm xarici turistləri cəlb etmək potensialı olduqca böyükdür. Rayonun həm iqlimi, həm dəniz kənarı mövqeyi, qərb tərəfdən Talış dağları ilə əhatə olunması turizm sənayesinin formalaşmasına böyük təsiri vardır. Xüsusi ilə qeyd etmək lazımdır ki, iqlim şəraitinə görə Lənkəran rayonunda 4 mövsümə uyğun turizm bazasını formalaşdırmaq mümkündür. Lənkəranın flora və fauna müxtəlifliyi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri turizmin inkişafı üçün böyük perspektivlər yaradır. Azərbaycanın "Cənub mirvarisi” adlandırılan Lənkəran gündən-günə gözəlləşir, əsl turizm mərkəzi kimi tanınır. İstənilən regionda yerləşən şəhərləri turistlər üçün əlverişli edən cəhətlərdən biri nəqliyyat infrastrukturunun inkişafıdır. Məsələn, beynəlxalq hava limanlarının inşası turizmin inkişafını sürətləndirməyə imkan yaradan mühüm iqtisadi amillərdəndir ki, 2008-ci ildə Lənkəranda istifadəyə verilən beynəlxalq hava limanı burada daxili və gəlmə turizmin inkişafına geniş imkanlar açıb.

Belə ki, 2023-cü ildə səyahət məqsədi ilə 2 086 443 nəfər turist ölkəmizə daxil olmuşdur. Əldə edilən gəlir 1.5 mlrd manat təşkil etmişdir. Ölkəmizin turizm potensialını nəzərə alaraq, gələcəkdə bu rəqəmlər daha da artmaqda davam edəcəkdir. Azərbaycan Respublikası Statistika Komitəsinin gəstəricisinə görə 2022-ci ildə Lənkəran rayonuna 25 000 dən çox turist gəlmişdir ki, əldə edilən gəlir 2 mln 180 min manat olmuşdur.

Lənkəran ərazisinin turistlər üçün maraqlı olan səyahət yerlərini bir neçə kateqoriya üzrə ayırmaq mümkündür.

Həm tarixi abidələr üzrə, həm də tanış olma məqsədi ilə : Xan Evi (Lənkəran Tarix Diyarşünaslıq Muzeyi), Dairəvi Qala - Qədimi həbsxana, Qədimi Mayak, Həzi Aslanovun Ev Muzeyi, Lənkəran Mərkəzi Parkı (Heydər Əliyev adına), Həzi Aslanov Parkı, azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsinə abidə, Lənkəran Bayraq Meydanı, Sahil İstirahət Parkı (Xəzər dənizi sahili), Samovar (Göyşaban dairəsi), Xan Lənkəran Dulusçuluq və Əl işləri Mərkəzi (Ləvəngi dairəsi), Xəzər-Lənkəran Mərkəzi Stadionu (Sütəmurdov kəndi), Havzava kəndində İstisu, Haftoni qəsəbəsində İstisu, Talış dağları və meşələri, Hirkan Milli Parkı , Xanbulançay su anbarı, Lənkəran Xəzər dənizi sahili və çimərlikləri, Bəlləbur Qalası (Babək və Xürrəmilərlə əlaqədar), Şeyx Zahid Türbəsi(Şıxəkəran kəndi), Böyük Bazar Məscidi, Qızılağac təbiət qoruğu.

Əsas turistlik otelləri və restoranları: Xan Lənkətan Oteli, Xəzər Palaz oteli (5*), Palmalife Lankaran Resort (5* by Palmali Group of Companies), Lankaran Springs & Wellness Resort (5* by PMD Hospitality), Palıdlı Sahil İstirahət və Sağlamlıq Mərkəzi (4*),

Luxe Lankaran Hotel (4*), Xan Lənkəran Restoran, Xəzər Palace Restoran, Boranı Restoran, Palmalife Lankaran Resort Restoranı, Dörd Fəsil Restoran, Taksim Corner Restoran, Lənkəran Olimpiya Kompleksinin Restoranı (çay və fast food) kimi ictimai iaşə müəssisələrini qeyd etmək olar.

Əyləncə və idman mərkəzləri: Xəzər Palace Restoran, Boranı Restoranı, Palmalife Lankaran Resort Restoranı, Dörd Fəsil Restoranı, Taksim Corner Restoran, Lənkəran Olimpiya Kompleksinin Restoranı (çay və fast food) və s. misal göstərmək olar.

Aqroturizm üzrə: rayonun Yaşılçay və Astaraçay şirkətləri tərəfindən təşkil olunan çay festifallarını qeyd etmək olar.

## İNSANLARIN QORXULU KABUSU: GƏNƏLƏR

**Səyyar Ağazadə**
**doktorant**
**Kafkas Universiteti**
**a.seyyar.98@gmail.com**

**Açar sözlər :** Xəstəlik, insan, ensefalit, gənə, qan, hallüsinasiya

Gənələr qan soran artropodlar olub, insan və heyvanlara qan sorma əsnasında 200-dən çox virus, bakteriya, göbələk və helmint məbşəli xəstəliklərin törədicilərini bilavasitə nəql edən, eyni zamanda qan sorma zamanı birbaşa tüpürcək vəzisi ilə qana bir çox infeksion xəstəliklərin törədicilərini yoluxduran ekto parazitlərdirlər. Bunlar inkişaf tsiklininin yumurta mərhələsi istisna olmaqla bütün mərhələlərində qan əmmək məcburiyyətindədirlər.Gənələrə demək olar ki, dünyanın hər yerində rast gəlinir.



Günümüzdə İxodidae və Argasidae ailələrinə məxsus olan 800-dən çox növ məlumdur ki, bunların da bir-birilərindən morfoloji və bioloji fərqləri vardır. Belə ki, bədən ölçüləri adətən 1-10mm arası dəyişən gənələrin konkret ölçüləri onların növü, cinsi, inkişaf tsiklinin hansı mərhələsində olması, cinsiyyəti, qan əmmə vəziyyəti (ac, yarı ac və doymuş) və s. görə də fərqliliklər göstərə bilir. Normalda qan soran dişi gənələrin bədən ölçüləri bir neçə millimetrdən 30 millimetrə qədər arta bilir.

Bu artropodlar qan əmən zaman insan və heyvanların dərisində qızarıqlıqlara, qıcıqlanmalara, allergiya, şişkinlik və s. səbəb ola bilir. Gənələr qan əmərkən onların tüpürcəyinin antikoaqulyant təsiri qanın laxtalanmasının qarşısını alır. Bundan əlavə qan soran zaman bilavasitə insan və heyvan qan-damar sisteminə təhlükəli olan bakteriya, protozoon, virus və s. mənşəli infeksiyaları da yoluxdura bilir.

Gənələr vasitəsi ilə insanlara bir çox təhlükəli infeksion xəstəlik yoluxa bilir ki, onlardan da biri virus mənşəli olan "Ensefalit" xəstəliyidir. Bu xəstəliyin törədicisinin daşıyıcısı əsasən yaz aylarında daha çox üstünlük təşkil edən ixodea gənələridir. Virus insan orqanizminə əsasən gənənin qar sorduğu zaman, bəzən isə xəstəlik daşıyıcısı olan

heyvanların (daha çox keçilərin) südünün çiy və ya yaxşı bişməmiş şəkildə istifadə olunması zamanı yoluxur. İnsan orqanizminə virus gənə vasitəsi ilə yoluxduqda inkubasiya dövrü bir neçə gündən 30 günə qədər çəkə bilirsə, südlə yoluxma zamanı isə 3-10 gün arası inkubasiya müddəti müşahidə olunur. Beynin iltihabı kimi də adlandırılan bu xəstəliyə əsasən uşaqlar və yaşlılar daha çox həssas olsalar da, immuniteti, orqanizminin rezistentivliyi zəif olan hər yaş qrupunda bu xəstəlik özünü biruzə verə bilir. İnsanlar arasında immunitetin zəif olması və onların sanitar-gigiyena tələblərinə əməl etməmələri bilavasitə onların həzm, tənəffüs və s. sistemlərinin fizioloji proseslərinin kəskin şəkildə pozulmasına, virus və patogen mikroorqanizmlərin dəri, sidik-cinsiyyət sistemi və s. orqanlara daxil olub, qan-damar sistemi ilə beyin və eləcə də bütün orqanizmi yoluxdurmasına səbəb ola bilir.Beyinin ciddi şəkildə zədələnməsinə səbəb olan ensefalit xəstəliyi sinir sisteminin funksiyalarına həyati təhlükə yaradan disfunksiyalara səbəb olur. Xəstəliyin başlanğıc mərhələsində düzgün diaqnoz qoyulmazsa və effektiv müalicə kursu aparılmazsa xəstəlik daimi qalıcı sinirsəl problemlərə yol aça və hətda ölümə belə səbəb ola bilər. Əgər diaqnoz və ya müalicə kursunda gecikmə olarsa xəstələr sağalsa belə onlarda görmə qüsurları, hərəkətlərində yavaşlamalar, idraki prosesdə ləngimələr, eşitmədə çətinliklər, nitq qüsurları və ən əsası iflic qalma əlamətləri müşahidə oluna bilir. Onu da qeyd edim ki, vaxtında və düzgün şəkildə aparılmış müalicədən sonra xəstələr sağalsa belə onların orqanizmində çox qısa müddətli immunitet yaranır ki, bu da öz növbəsində xəstələrin sağaldıqdan sonra da gigiyenik qaydalara əməl etməməsi nəticəsində təkrarən bu xəstəliyə yoluxa bilmə riskinin yüksək olmasına gətirib çıxarır.



Xəstəlik insanlarda gedişinə görə ildırımvari, kəskin, yarımkəskin, xroniki və residivləşmiş formalarda görülür. Xəstəliyin gedişatına baxıldıqda adətən orta ağır, ağır və çox ağır olduğunu müşahidə edə bilərik. Bundan əlavə ensefalit zamanı nekrotik və hemorrajik əlamətlər meydana çıxır. İnsanlarda xəstəlik adətən 3 formada özünü biruzə verib, patogenlik törədir. Bunlara leykoensefalit (beyinin ağ maddəsində zədələnmələr), poliensefalit (beyinin boz maddəsində zədələnmələr və panensefaliti (beyinin tam olaraq zədələnməsi) misal göstərə bilərik.

Xəstəliyə yoluxmuş insanların bədən temperaturu adətən 39-40ºC - yə qədər yüksəlir. Xəstəliyə yoluxmuş insanlarda ilkin kliniki əlamətlər kimi bel və baldırda ağrıların əmələ gəlməsi, beyin simptomlarında pozulmalar, şüurun itməsi, titrəmə, baş ağrısı, qusma aktı və s. müşahidə olunur. Xəstəliyin irəliləyən zamanlarında isə bu əlamətlərlə yanaşı xəstələrin sayıqlaması, depressiyaya düşməsi, hallüsinasiyalar görməsi və s. bunun kimi əlamətlər müşahidə olunur. Xəstəliyin insanlarda bir neçə klinik forması mövcuddur ki, bunlar da bir-birindən kliniki, patoloji və s. əlamətlərin təzahür formasına görə fərqlənirlər. Xəstəliyin diaqnozunu qoymaq üçün laborator analizlərdən istifadə olunur. Digər virus və mikroorqanizmlərin törətdiyi xəstəliklər kimi ensefalit xəstəliyi də qan analizi aparılaraq diaqnozu qoyulub, sonra müalicəsinə başlanılır.

Xəstəlikdən qorunmaq üçün meşə, kolluq və otluq sahələrə, həmçinin heyvanların sıx olduğu ərazi və tövlələrə, su hövzələrinə yaxın ərazilərə əsasən yaz və yay aylarında girməkdən qaçınmaq lazımdır. Belə ərazilərə girərkən isə daha çox uzun qollu və boğazlı

paltarlar geyinməli, çəkmələrdən istifadə etməli, bacardığınız qədər bədəndə açıq yerin qalmamasına diqqət yetirməli və ən əsası ağ və digər açıq rəngli paltarların geyinilməsinə diqqət yetirmək lazımdır. Bundan əlavə hər dəfə belə ərazilərdən çıxıb evə gələrkən paltarları mütləq dəyişdirib isti su ilə yumaq, bədənin isə daha çox burun, qulaq, göbək dəliyi, qoltuq altı və qasıq nahiyəsinin gənələrə görə vizual baxışını həyata keçirmək lazımdır. Əgər dəriyə yapışmış gənə aşkar olunsa bu zaman gənənin üzərinə kimyəvi maddələr tökmək olmaz. Bunun yerinə bir maqqaş yardımı ilə ehmalca sağ-sol hərəkət etdirilərək gənəni dəridən çıxarmaq, həmin nahiyəni spirtlə dezinfeksiya etmək və həkimə müraciət etmək daha məqsədəuyğundur.

## DİVERSİFİKASİYA PROSESLƏRİN İQTİSADİ İNKİŞAFA TƏSİRİ HAQQINDA

**Şərqiyyə Abbasova**
**dosent**
**Bakı Dövlət Universiteti**
**sh.abbas@mail.ru**

**Açar sözlər**: deversifikasiya, iqtisadi fəalliyyət, indeks, reqressiya modeli

Diversifikasiya iqtisadiyyatın müxtəlif sahələrinin genişləndirilməsi və balanslaşdırılması, bir sənaye və ya sektordan asılılığın azaldılması prosesidir. Eyni zamanda, ölkələrdə iqtisadi böhran və dalğalanmalardan yaranan riskləri azaldır. Uğurlu diversifikasiya olunmuş iqtisadiyyat bir çox sektorlar arasında riskləri yayır, onların konkret sektora təsirini azaldır, sabit iqtisadi mühitin yaradılmasına kömək edir və böyük şokların baş vermə ehtimalını minimuma endirir. Bu halda ölkə bir sənaye və ya sektorda öz payını azalda bilər. Bu, təkcə iqtisadiyyatın risklərinin yayılmasına kömək etmir, həm də innovasiya, rəqabət qabiliyyəti və davamlılığı nəzərə alır. Bununla belə, iqtisadiyyatın diversifikasiyası ilə bağlı risk səviyyəsini qiymətləndirmək vacibdir. Diversifikasiya bir çox faydalar təklif edə bilsə də, sektorlar arasında resursların və investisiyaların daşınması ilə bağlı risklər də mövcuddur. Bu risklərin nəzərə alınması və effektiv risklərin idarə edilməsi strategiyalarının həyata keçirilməsi uğurlu diversifikasiya üçün vacibdir. Diversifikasiya proseslərinin effektivliyinin qiymətləndirilməsi sənaye konsentrasiyası, ümumi daxili məhsul, investisiya axını, ticarət dinamikası və s. kimi müxtəlif amillərin hərtərəfli təhlilini tələb edir. Diversifikasiya ilə bağlı potensial riskləri effektiv idarə etməklə və riskləri müxtəlif sektorlar üzrə yaymaqla ölkələr zəifliklərini minimuma endirə və iqtisadi artımın davamlılığını yaxşılaşdıra bilər. Dünya təcrübəsi göstərir ki, diversifikasiya iqtisadiyyatın dirçəlməsinə, dinamik inkişafına, möhkəmlənməsinə və dayanıqlığının təmin edilməsinə təsir edən amildir.

Diversifikasiyanı qiymətləndirmək üçün iqtisadi ədəbiyyatda müxtəlif indekslər təklif olunur: Theil, Herfindal-Hirschman, entropiya indeksi və s.[1]. Ən cox istifadə olunan Herfindal-Hirschman indeksidir:

$$HHI = \sum_{i=1}^{n} P_i^2,$$

Burada $Pi$ - $i$ sektorunda iqtisadi fəaliyyətin payıdır. İqtisadi fəaliyyət kimi $i$ sektorda istehsal edilən məhsulun həcmi və ya məşğulluğun ölçüsü yəni i sektorda çalışanların payı götürülə bilər. Bu indeks sıfr ilə bir arasında dəyişir. İndeks 1-ə bərabərdirsə, bu,

iqtisadiyyatın bir sənaye ilə təmsil olunduğunu göstərir. İndeks sıfra nə gədər yaxın olarsa, iqtisadi diversifikasiya səviyyəsi bir o qədər yüksək olar.

Xarici tədqiqatların nəticələrinə əsasən, diversifikasiya səviyyəsinin bəzi makroiqtisadi göstəricilərə təsirini qiymətləndirmək mümkündür. Məşğulluq və ya işsizlik səviyyəsini, istehsalın həcmini belə göstəricilər kimi istifadə etmək tövsiyə olunur. Bütün bu göstəricilər asılı dəyişənlər kimi qəbul edilir. Aslı olmayan dəyişənlər kimi Herfindal-Hirschman indeksı, əhalinin sıxlığı göstəricisi, təbii artım əmsalı və s. istifadə edilə bilər. Bu dəyişənlər əsasında qurulmuş reqressiya modelləri iqtisadi diversifikasiyanın yuxarıda sadalanan əsas makroiqtisadi göstəricilərə təsirini xarakterizə edir. Modellərin reallaşdırılmasında əldə edilən nəticələr iqtisadiyyatın diversifikasiyasını stimullaşdırmağa yönəlmiş düzgün iqtisadi siyasətin işlənib hazırlanmasına kömək edəcəkdir. Bütün mövcud iqtisadi çətinliklərə baxmayaraq, ölkədə diversifikasiya strategiyasının həyata keçirilməsi üçün əlverişli şərait var. Ölkənin uzunmüddətli istiqamətləri və maraqları xammal üzrə ixtisaslaşmadan uzaqlaşmaq, onun səmərəli inkişafını və qlobal iqtisadiyyatda rəqabət qabiliyyətini təmin edəcək yeni iqtisadi strukturun formalaşdırılması zərurətini diktə edir. Bu tendensiya bütövlükdə respublika iqtisadiyyatının şaxələndirilməsi və səmərəli inkişafı trayektoriyası kimi səcilə bilər.

## LƏNKƏRAN-ASTARA BÖLGƏSİNDƏ ÇƏLTİK BİTKİSİNİN ƏKİN ÜSULLARI


**Ülkər Əkbərova**
**dosent**
**İlkin Məmiyev**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**ulkarcoqrafiya@mail.ru**
**ilkinmemiyev11@gmail.com**



**Açar sözlər:** çəltik bitkisi, əkin üsulları, tumcar, Lənkəran-Astara bölgəsi


Məlum olduğu kimi, Respublikamız çəltik əkinçiliyinə görə üç zonaya bölünür. Birinci Lənkəran-Astara zonası, ikinci Şəki-Zaqatala və üçüncü Aran zonasıdır. Çəltiyin məhsuldarlığı adətən hektardan orta hesabla 30-40 sentner, aqrotexniki xidmətin yüksək olduğu sahədən isə 50-60 sentner və ya daha çox ola bilər. Çəltik əkini üçün düz relyefli əkin sahəsi seçilməli və həmin sahə mütləq dondurma şumu edilməlidir. Dondurma şumu oktyabr ayında başa çatdırılmalıdır. Azərbaycanın bütün çəltikçilik zonalarında əkin etməzdən əvvəl sahə mart və aprel aylarında yenidən şumlanır. Çəltik əkini sahəsində şum işləri qurtardıqdan sonra ləkləri hazırlamaq, tirələri düzəltmək və əkin sahəsini çəltik əkini üçün hazır vəziyyətə gətirmək lazımdır.

Yüksək məhsuldalığın əldə edilməsi üçün keyfiyyətli toxumların seçilməsi çox vacibdir. Səpindən öncə toxum tam təmizlənməli, cücərmə faizi isə yoxlanılmalıdır.

Çəltik səpini adətən aprel və may aylarında həyata keçirilir. Beləki, Lənkəran-Astara zonasında ən münasib dövr 5-25 may tarixləridir.

Bildiyimiz kimi, Azərbaycanda çəltiyin becərilməsi və əkini iki üsulla həyata keçirilir: birinci səpmə (toxum səpilməsi), ikinci isə şitil üsuludur.

Azərbaycanda Lənkəran-Astara zonasında çəltiyin şitil üsulu ilə əkini həyata keçirilir, səpmə üsulu isə digər çəltikçilik zonalarında tətbiq olunur. Əsasən düz relyefə malik, sututar ləkləri iri olan sahələrdə toxumsəpən texnikalarla səpinin aparılması daha məqsədə uyğundur. Əl ilə səpin aparılması da praktiki təcrübədə özünü doğrultmuşdur. Nəticə etibarilə toxumlar torpaqda qida sahəsinə bərabər paylanılır, toxum itkisinə yol verilmir.

Çəltik toxumunun səpin norması çəltikçilik zonalarına uyğun olaraq müxtəlifdir. Bu torpaq-iqlim xüsusiyyətləri və səpilən çəltik növlərinin müxtəlifliyi ilə bağlıdır. Hər bir hektara orta hesabla 140-150 kq çəltiyin səpin normasını götürmək tövsiyə olunur.

Lənkəran-Astara bölgəsində şumun aparılması ilə eyni bir vaxtda şitilliklərə çəltik toxumu səpilir və şitil yetişdirilməsi həyata keçirilir. Şitil yetişdirilən bu cür xüsusi şitilliklər tumçar adlanır. Aprel ayının birinci yarısı tumçara toxumun səpilməsi üçün münasib hesab edilir. Toxumun səpilmə vaxtı müəyyən olunarkən tez və gec yetişən növlər də nəzərə alınmalıdır. Ümumiyyətlə toxumun səpini həyata keçirilərkən torpağın temperaturunun 10-12 dərəcədən aşağı olmamasına diqqət yetirilməlidir.

Tumçara toxumlar səpilən zaman çalışmaq lazımdır ki, dənlər bir-birinə toxunmasın. Çəltik şitillərinin tumçarda yetişməsi təxminən 30-35 günə başa gəlir. Şitillər yetişdikdən sonra onların kökü qaşınaraq götürülməli və ya kökdən çıxarılmalıdır. Daha sonra dəstə şəklində şitillər bağlanılıb əkin sahəsinə aparılır.

Çəltik şitili əkən, özüyeriyən - 6 cərgəli DUO 60S  və həmçinin çəltik əkən, özüyeriyən 6-cərgəli KUBOTA SPV-6CMD, çəltik şitili əkən, əl ilə idarə edilən- 4 cərgəli KUBOTA SPV-48C  texnikaları ilə çəltik şitillərinin əkini həyata keçirilə bilər.



Konfrans materialları Lənkəran Dövlət Universtetinin
mətbəəsində çap olunmuşdur

Yığıma verilmişdir: 24.05.2024
Çapa imzalanmışdır: 04.06.2024
Kağızın formatı: $64\times84\,{}^{1}\!/_{8}$
Çap vərəqi: 22 c.v., tiraj: 120

Ünvan: Az 4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı 50
Tel: (+994) 25-25-5-25-21
e-mail: elmi_tezis@lsu.edu.az
www.lsu.edu.az